# İNSTİTUTUN KEÇDİYİ ELMİ YOL-60

## Seçilmiş məqalələr

(2000-2020-ci illər)

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi Elmi Tədqiqat İnstitutunun
İdarə Heyətinin sədri i.e.d., prof. Şahin Sadıqovun
ümumi rəhbərliyi ilə nəşr olunur.


**Baş redaktor:** i.e.d., prof. Şahin Sadıqov

**Elmi-redaksiya heyəti:**

i.e.d. Hüseynova Arzu Doğru qızı
i.ü.f.d. Mürşüdlü Fuad Ələkbər oğlu
i.ü.f.d.; dos. Mehdiyev Malik Məmməd oğlu
i.ü.f.d., dos. Mikayılov Fərhad Qamboy oğlu
h.ü.f.d., dos. Aslanov Zamiq Novruz oğlu
i.ü.f.d. Qasımov Emil Filman oğlu
Əhmədov Rövşən Telman oğlu (elmi katib)
Məmmədli Səbinə Ramiq qızı
**Kompüter tərtibçisi:** Ələsgərova Nigar Mahal qızı



İnstitutun keçdiyi elmi yol - 60 (Seçilmiş məqalələr 2000-2020-ci illər), Bakı, 2024, 449 səh.


Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi Elmi Tədqiqat İnstitutunun (ESRI) 60 illik yubileyi ilə əlaqədar hazırlanan bu kitab İnstitutun keçdiyi uzun yolda əməkdaşlarının elmi fəaliyyətini işıqlandırmaq, iqtisadiyyatın müxtəlif aspektlərinin təhlilinə həsr olunmuş elmi məqalələri bir daha oxucuların nəzərinə çatdırmaqla keçmişə səyahət etmək və yada salmaq məqsədi daşıyır.

Kitabda ESRI-nin "Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemləri" Elmi Əsərlər toplusunun 2000-ci ildəki ilk buraxılışından 2020-ci ilə qədər olan nəşrlərindən tanınmış alim və mütəxəssislərinin məqalələri yer almışdır.


**İSBN**



© İqtisadi Elmi Tədqiqat İnstitutu, 2024

# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

Bakı şəhəri

**ƏMR**
**№ 3-21/3-1-F-45/2024**

2 may 2024-cü il

İqtisadiyyat Nazirliyinin "İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin 60 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planının təsdiq edilməsi haqqında

"İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin 60 illik yubileyinin keçirilməsi məqsədilə "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.5.13-cü yarımbəndinə əsasən

əmr edirəm:

1. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin "İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin 60 illik yubileyi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. "İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin İdarə Heyətinin sədri Şahin Sadıqova tapşırılsın ki, əmrin icrasından irəli gələn məsələlərin həllini təmin etsin.

3. Bu əmrin icrasına nəzarət iqtisadiyyat nazirinin müavini Səməd Bəşirliyə həvalə edilsin.

Əsas : İqtisadiyyat nazirinin müavini Səməd Bəşirlinin 3-21/3-5-17011/2024 nömrəli 20.04.2024-cü il tarixli xidməti məruzəsi.

**Nazirin müavini, nazirin vəzifələrini müvəqqəti icra edən** **Səməd Bəşirli**

# Mündəricat

**Ön söz**

Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №1 ....................13
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №2 ....................53
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №3 ....................75
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №4 ....................115
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №5 ....................135
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №6 ....................156
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №7 ....................197
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №9 ....................228
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №12 ....................259
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №13 ....................304
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, Xüsusi buraxılış №14 ....................341
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №16 ....................367
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №17 ....................382
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №19 ....................404
Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, Xüsusi buraxılış (COVİD-19) ....................417

# Ön söz

Müasir dövrdə ölkə iqtisadiyyatının, onun ayrı-ayrı sahələrinin inkişafının dəstəklənməsi və dayanıqlılığının təmin olunması üzrə tədqiqat bazası yaradan, dövlətin sosial-iqtisadi inkişaf siyasətinin, o cümlədən iqtisadi islahatların həyata keçirilməsi strategiya və taktikasının elmi əsaslarının işlənib hazırlanması, habelə yüksəkixtisaslı elmi kadrlar hazırlayan və insan kapitalının inkişaf etdirilməsində iştirak edən, ölkənin aparıcı beyin mərkəzi kimi formalaşmağı hədəfləyən İqtisadi Elmi Tədqiqat İnstitutu 60 illik zəngin tarixə malikdir. Qürürverici haldır ki, fəaliyyət göstərdiyi dövr ərzində İnstitut öz şərəfli və məsuliyyətli missiyasının öhdəsindən uğurla gəlməkdədir.

Belə ki, Azərbaycan SSR Nazirlər Sovetinin 1964-cü il 2 oktyabr tarixli 685 saylı qərarı ilə əsası qoyulan İnstitut, ilk dövrlərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında təşkil edilmiş Elmi Tədqiqat İqtisadiyyat İnstitutu (ETİİ) kimi fəaliyyət göstərirdi. O dövrdə ETİİ-də demoqrafiya, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, məşğulluq problemlərinin həlli, əhalinin ərzaq və qeyri-ərzaq malları ilə təminatı, xidmət sahələrinin, xüsusən xidmət sahələrinin inkişafı, sosial infrastrukturun və orta aylıq əmək haqqının ittifaq səviyyəsindən geriqalma səbəbləri, Azərbaycan SSR-də yeni sənaye sahələrinin, əsasən maşınqayırma, elektron texnikası, kimya sənayesinin inkişaf problemləri və s. məsələlər hərtərəfli tədqiq edilirdi.

1993-cü ildə isə Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışı, bütün sahələrdə olduğu kimi, ETİİ-nin də fəaliyyətində müsbət dəyişikliklərə səbəb oldu. Belə ki, H.Əliyevin 1994-cü il 17 yanvar tarixli 98 saylı fərmanı ilə ETİİ-nin bazasında İqtisadi İslahatlar Mərkəzi (İİM) yaradıldı. İİM-in fəaliyyəti əsasən dövlət müstəqilliyi və bazar münasibətlərinə keçid şəraitində ölkənin iqtisadi inkişaf siyasətinin elmi əsaslar üzərində qurulmasına, mövcud problemlərin həlli yollarının öyrənilməsinə, mütərəqqi dünya təcrübəsi nəzərə alınmaqla iqtisadi islahatların strateji istiqamətlərinin və həyata keçirilməsinin taktiki yollarının müəyyənləşdirilməsinə və sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasına yönəlmişdi.

Daha sonra Mərkəzin ölkədə baş verən dinamik sosial-iqtisadi inkişaf proseslərinin tələblərinə uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 saylı Fərmanı ilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Azərbaycan Elmi-Tədqiqat Elmi Texniki İnformasiya və Texniki-İqtisadi Tədqiqatlar İnstitutu da İİM-ə birləşdirilərək onların bazasında Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İİETİ) yaradıldı. Bu dövrdən etibarən İnstitutun Azərbaycan Respublikasının iqtisadi və sosial inkişafı sahəsində dövlət siyasətinin, həmçinin iqtisadi islahatların elmi əsaslarının işlənilməsi ilə yanaşı idarəetmə, tədris və nəşriyyat funksiyalarına da malik olan yüksək kateqoriyalı elmi-tədqiqat müəssisəsi kimi statusu müəyyənləşdirilmişdir.

Nəhayət Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2021-ci il tarixli 1382 nömrəli Fərmanı ilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun əsasında "İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin (The ESRI) yaradılması ilə İnstitutun fəaliyyət tarixində yeni dövr başladı.

Hazırda İnstitut 2024-cü il oktyabr ayının 4-də Azərbaycan Respublikası İqtisadiyyat nazirinin F-45 nömrəli Əmrinə əsasən 60 illiyini qeyd edir.

***"İnstitutun keçdiyi elmi yol -60 (Seçilmiş məqalələr – 2000-2020-ci illər)"*** kitabının nəşr olunması da məhz bu yubiley tədbirləri çərçivəsində nəzərdə tutulmuş tədbirlərdən biridir. Kitabın nəşr olunmasında məqsəd İnstitutun keçdiyi uzun yolda əməkdaşlarının elmi fəaliyyətini işıqlandırmaq, iqtisadiyyatın müxtəlif aspektlərinin təhlilinə həsr olunmuş elmi məqalələri bir daha oxucuların nəzərinə çatdırmaqla keçmişə səyahət etmək və yada salmaqdır.

Bu məqsədlə ESRI-nin "Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemləri" Elmi Əsərlər toplusunun ilk 2000-ci il buraxılışından 2020-ci ilə qədər olan olan nəşrlərindən tanınmış alim və mütəxəssislərinin məqalələri seçilərək yenidən dərc olunmuşdur. Qeyd edək ki, kitaba bu illər ərzində nəşr olunan məqalələrin yalnız çox az qismi daxildir. Çünki əvvəlki illərdə nəşr edilən elmi jurnalların rus dilində olması, texnoloji köhnə üsullarla çap olunması onların rəqəmsallaşmasını çətinləşdirdiyi üçün bu kitabda tam 60 ili əhatə etmək mümkün olmamışdır. Lakin kitabda onların şəkilləri təqdim edilmiş və maraqlananlar institutun kitabxanasında onların bəziləri ilə tanış ola bilərlər.

Ümid edirik ki, kitabdakı seçilmiş məqalələr geniş oxucu kütləsi üçün maraqlı olacaq və gənc tədqiqatçıların yaradıcılığına öz töhfəsini verəcəkdir.

***İdarə Heyətinin sədri,***
***i.e.d., prof. Şahin Sadıqov***

**Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun (ETİİ) əməkdaşları**
**(1965-1991-ci illər)**









## İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTUNUN 1970-90-Cİ İLLƏRDƏKİ NƏŞRLƏRİNDƏN







ПРОБЛЕМЫ ПЛАНИРОВАНИЯ И РАЗВИТИЯ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА
БАКЫ—1971—БАКУ
ПЛАН ҺЕСАБЛАМАЛАРЫНЫН АВТОМАТЛАШДЫРЫЛМЫШ СИСТЕМЛӘРИНИН ЈАРАДЫЛМАСЫ МӘСӘЛӘЛӘРИ
ӘСӘРЛӘРИ XII ТРУДЫ
ВОПРОСЫ СОЗДАНИЯ АВТОМАТИЗИРОВАННОЙ СИСТЕМЫ ПЛАНОВЫХ РАСЧЕТОВ
Госплан Азербайджанской ССР
РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ
организационно-экономические проблемы формирования и реализации научно-технической политики в регионе
СЕКЦИЯ
ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ И ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ НАУЧНОГО ПОТЕНЦИАЛА
(28—29 ноября)
БАКУ — 1985


МЕТОДОЛОГИЧЕСКИЕ ВОПРОСЫ ПЛАНИРОВАНИЯ И ПРОГНОЗИРОВАНИЯ РАЗВИТИЯ НАРОДНОГО ХОЗЯЙСТВА
Госплан Азербайджанской ССР
Научно-исследовательский институт экономики
ПРОБЛЕМЫ РАЗРАБОТКИ ЦЕЛЕВЫХ КОМПЛЕКСНЫХ ПРОГРАММ В АЗЕРБАЙДЖАНСКОЙ ССР
(Научные труды, том XVI)
Баку 1983
ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ
МҮТТӘФИГ РЕСПУБЛИКАЛАРЫН ИГТИСАДИ МҮСТӘГИЛЛИЈИ ПРОБЛЕМЛӘРИ
ПРОБЛЕМЫ ЭКОНОМИЧЕСКОЙ САМОСТОЯТЕЛЬНОСТИ СОЮЗНЫХ РЕСПУБЛИК
БАКЫ-1990-БАКУ


НИИ ЭКОНОМИКИ ПРИ ГОСПЛАНЕ АЗЕРБАЙДЖАНСКОЙ ССР
ПРОБЛЕМЫ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБ. ССР
ПРОБЛЕМЫ СОВЕРШЕНСТВОВАНИЯ НАРОДНОХОЗЯЙСТВЕННОГО ПЛАНИРОВАНИЯ


ПОСВЯЩАЕТСЯ 50-й ГОДОВЩИНЕ ПЕРВОГО ПЯТИЛЕТНЕГО ПЛАНА РАЗВИТИЯ НАРОДНОГО ХОЗЯЙСТВА СССР
ЗАКАВКАЗСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ ПО РЕГИОНАЛЬНОЙ ЭКОНОМИКЕ
БАКУ • 1978
Тезисы доклад
Азәрбајҹан ССР Дөвләт План Комитәси Елми-Тәдгигат Игтисадијјат Институту
Госплан Азербайджанской ССР Научно-исследовательский институт экономики
АЗӘРБАЈҸАН ССР-дә ХАЛГЫН РИФАҺ ҺАЛЫНЫН ЈҮКСӘЛДИЛМӘСИНИН АКТУАЛ ПРОБЛЕМЛӘРИ (Елми әсәрләр, XV чилд)
АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ПОВЫШЕНИЯ НАРОДНОГО БЛАГОСОСТОЯНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ ССР (Научные труды, том XV)
Бакы - 1982 - Баку
Научно-исследовательский институт экономики при Госплане Азербайджанской ССР
Для служебного пользования
Демографические особенности развития семьи в Азербайджанской ССР
(современное состояние и перспективы)
БАКУ — 1983


АЗӘРБАЈҸАН ССР ДӨВЛӘТ ПЛАН КОМИТӘСИ ЕЛМИ-ТӘДГИГАТ ИГТИСАДИЈЈАТ ИНСТИТУТУ
ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ
ӘСӘРЛӘРИ
VIII чилд
VIII том
ТРУДЫ
Бакы — 1975 — Баку
ӘСӘРЛӘРИ
IV чилд
IV том
ТРУДЫ
БАКЫ - 1972 - БАКУ
ӘСӘРЛӘРИ
V чилд
V том
ТРУДЫ
БАКЫ - 1972 - БАКУ


НИИ ЭКОНОМИКИ ПРИ ГОСПЛАНЕ АЗЕРБАЙДЖАНСКОЙ ССР
ПРОБЛЕМЫ КАПИТАЛЬНОГО СТРОИТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНСКОЙ ССР
НИИ ЭКОНОМИКИ ПРИ ГОСПЛАНЕ АЗЕРБАЙДЖАНСКОЙ ССР
ПРОБЛЕМЫ ИНТЕНСИФИКАЦИИ ОБЩЕСТВЕННОГО ПРОИЗВОДСТВА
СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА В УСЛОВИЯХ ЭКОНОМИЧЕСКОЙ САМОСТОЯТЕЛЬНОСТИ И РЫНОЧНЫХ ОТНОШЕНИЙ
БАКЫ-1990-БАКУ


СБАЛАНСИРОВАННОСТЬ НАРОДНОХОЗЯЙСТВЕННЫХ ПРОПОРЦИЙ И МЕЖОТРАСЛЕВЫЕ СВЯЗИ
РЕГИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ И ПРИЧИНЫ СМЕРТНОСТИ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ССР
ДОКЛАДЫ
СЕКЦИЯ




## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Hüseynov S.**
*Azərbaycanda iqtisadi islahatların memarı"*
**Cəbiyev R.**
*Bazar infrastrukturunun elmi-nəzəri məzmunu və sərbəst bazarların formalaşma xüsusiyyətləri*
**Həsənov R.**
*Bazar münasibətləri şəraitində sosial-iqtisadi inkişafın proqnozlaşdırılması və idarə olunmasının metodoloji əsasları*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №1, Bakı 2000*

# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN MEMARI

***i.e.d., prof. Hüseynov S.***

*1988-1995-ci illərdə İİETİ-də direktor müavini, direktor vəzifələrində işləyibdir*

Dünya dövlətlərinin son əsrimizdəki inkişaf yolu, xüsusilə iqtisadiyyatda radikal islahatların həyata keçirilməsi bir qayda olaraq, ölkənin konkret dövlət xadiminin adı ilə bağlanır. Elə götürək 30-cu illərdə Amerika gerçəkliyini. Xatırladım ki, o dövrdə Amerika Birləşmiş Ştatları dərin tənəzzül içərisində idi. Bu vəziyyətdə ölkəni böhrandan çıxarmaq, xilas etmək üçün Ruzvelt şəxsiyyəti lazım oldu. Çin Xalq Respublikasında həyata keçirilən radikal islahatlar ölkənin ali rəhbəri Den Syaopinin, Türkiyədə-Turqut Özalm, Çexiyada-Vatslav Klausun, Polşada-Balçeroviçin və b. adları ilə bağlıdır.

Sözsüz, görkəmli şəxsiyyətlər həqiqi mənada iqtisadiyyatda aparılan ağır proseslərin ideoloqları, memarları kimi tanınmışdır.

Heç bir mübaliğəyə yol vermədən, 1993-cü il iyun ayından etibarən ikinci dəfə respublika rəhbərliyinə qayıdan Heydər Əliyev cənabları bu dövrdən başlayaraq Azərbaycanda həyata keçirilən iqtisadi islahatların, bütövlükdə cəmiyyətin keyfiyyətcə yeni bazis üzərində transformasiya olunmasının, yeniləşməsinin bütün istiqamətlərinin baş strateqi və təşkilatçısı olmuşdur.

Məlum olduğu kimi, keçmiş SSRİ dağıldıqdan sonra islahatlar istiqamətində atılan ilk addımlar, xüsusilə də qiymətlərin liberallaşdırılması, maliyyə və vergi sisteminin təkmilləşdirilməsi üzrə işlənmiş sənədlər, görülən tədbirlər Rusiya Federasiyasının və digər ölkələrin mexaniki surətdə təkrarı idi. Üstəlik, bu müddət ərzində hakimiyyətdə olmuş iqtidar rəhbərlərindən heç biri problemi tam ciddiliyi ilə dərk etməyə qadir olmayaraq, respublikanın taleyinə laqeyd qalaraq, mövcud reallıqlarla heç cür uzlaşmayan ifratçılığa yuvarlandılar. Bütün bunlar son nəticə etibarilə cəmiyyət üzvləri arasında bütövlükdə Azərbaycanın dövlət suverenliyinə və müstəqilliyinə olan ümid-inamlarını tamamilə qırmışdı. Köhnə idarəetmə sistemindən saf-çürük edilmədən imtina olunması, köklü surətdə dəyişilmiş yeni şəraitə adekvat olan addımların atılmaması, daha doğrusu buna qadir olan şəxslərin olmaması nəticəsində iqtisadiyyatdakı hərc- mərclik, xaos son həddə çatdı, digər tərəfdən Ermənistan tərəfindən Dağlıq Qarabağın, ardınca başqa rayonların işğal edilməsi və nəhayət, ayrı-ayrı bölgələrdə separatçılığın baş qaldırması Azərbaycan dövlətçiliyinin özünü sual altında qoymuşdu. Əslində vətəndaş müharibəsi qapını döyürdü. Xilaskar lazım idi. Elə bir xilaskar ki, özündə güclü siyasi hissiyyat və duyum, güclü yaradıcı düşüncə və təfəkkür, güclü təşəbbüskarlıq və qüvvələri səfərbər etmək qabiliyyəti, qətiyyət və yaxşı mənada inadçılıq, dönməzlik və ardıcıllıq və i.a. bu kimi dövlətçilik üçün zəruri keyfiyyətlərin hamısını birləşdirmiş olsun.

Bu şəxs yalnız və yalnız o zaman Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri vəzifəsində çalışan Heydər Əliyev idi. Bu seçmədə qənaətdə heç bir şübhəsi olmayan respublika ictimaiyyəti 1992-ci ilin əvəllərindən başlayaraq, bütün bölgələrdən Heydər Əliyev cənablarına  respublika rəhbərliyinə qayıtmağa razılıq verilməsi haqqında müraciətlərinə baxmayaraq, o zamankı iqtidarlar tərəfindən bu qayıdışa hər vasitə ilə mane olurdu.Hətta vəziyyətin kuliminasiya nöqtəsinə çatdığı və respublika rəhbərliyinə Heydər Əliyev cənablarının qayıtması müraciətləri o zamankı iqtidarın özü tərəfindən edildikdən sonra belə, ayrı-ayrı dairələr maneçilik üçün başqa arqument tapmadıqda Heydər Əliyevin bu qayıdışı ilə keçmiş Sovetlər İttifaqının bərpasının sürətlənməsi və Azərbaycanın yenidən öz dövlət müstəqilliyini itirərək,bu birliyə daxil olacağı təhlükəsini böyük inadkarlıqla ictimaiyyət arasında yaymağa cəhd edirdilər.

Məhz elə bu baxımdan Milli Məclisin 15 iyun 1993-cü il yığıncağında Azərbaycan Respublikasının Ali Sovetinin sədri kimi Heydər Əliyev cənablarının ilk çıxışını bütün bu ümidsizliklərə, narahatlıqlara, inamsızlıqlara son qoyulması, digər tərəfdən isə Azərbaycanda iqtisadi islahatlar strategiyasının qəti surətdə müəyyənləşdirilməsi anı kimi qəbul etmək olar: “Keçmiş Sovetlər İttifaqının bərpa olunması, Azərbaycan respublikasının da ora daxıl olması ehtimalı haqqında bəzi şayiələr, fikirlər gəzir. Bunlar xülyadır. Mən bu fikirləri rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını bu fikirləri rədd etməyə dəvət edirəm.

Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır”.

Əlbəttə, iqtisadi sistemin, bütövlükdə cəmiyyətin transformasiyası, yeniləşməsi strategiyasının düzgün müəyyən olunması olduqca vacibdir, lakin hələ problemin tam həlli demək deyildi. Bu ən yaxşı halda beynəlxalq aləmdə və ölkə daxilində yaxşı dəstək və inam qazanmaq idi. Başlıca vəzifə bu strateji məqsədin həyata keçirilməsinin taktiki addımlarını və istiqamətlərini düzgün müəyyən etməkdən, bu yolda qarşıya çıxan çoxsaylı çətinliklərin, problemlərin bu kursu dəyişməsinə yol verməməkdən ibarət idi. Bu baxımdan da Azərbaycan Respublikası Prezidentinin etdiyi taktiki gedişlər nəzəri-metodoloji cəhətdən əsaslı və məntiqi olduğu kimi, praktiki planda daha real və əyani idi.

“Azərbaycan iqtisadiyyatının bütün sahələri sərbəst iqtisadiyyat prinsipləri əsasında qurularaq, sahibkarlıq, bazar iqtisadiyyatı yolu ilə təşkil edilərək gələcək inkişaf yollarına düşməkdədir, amma bu proseslər çətin, ağır gcdıı Bunun obyektiv və subyektiv səbəbləri var. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan dövlətinin strateji yolu yalnız həmin yoldan ibarətdir. Bu yol demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması və bazar iqtisadiyyatı, sahibkarlıq yoludur.

Həmin yolla müvəffəqiyyətlə getmək və istədiyimiz məqsədlərə çatmaq üçün vəzifə iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaqdan və bu islahatlar vasitəsilə Azərbaycanın mövcud iqtisadiyyatını sərbəst iqtisadiyyat prinsipləri əsasında irəlilətməkdən ibarətdir”.

İqtisad elmi, dünya islahat təcrübəsi, islahatların həyata keçirilməsində hər bir sahəyə məxsus olan xüsusiyyətlərin nəzərə alınmasının obyektiv zərurət olmasının qaçılmazlığını təsdiq etmişdir. Lakin Azərbaycan Respublikası Prezidenti təkcə iqtisadiyyatın hər bir sahəsi üçün xas olan bu xüsusiyyətlərin, imtina olunan mövcud iqtisadi sistemin müsbət cəhətlərindən maksimum bəhrələnmək, digər tərəfdən isə bu islahatların son nəticə etibarilə sosial yönümlü olmasının hədəf kimi seçilməsini xüsusilə zəruri hesab edirdi: “...Hər bir sahənin özünə məxsus xüsusiyyətləri var. Bu xüsusiyyətləri, eləcə də Azərbaycan iqtisadiyyatının potensialını və

1920-ci ildən sonra yaranmış iqtisadi prinsiplərin, iqtisadi sistemin indiyədək davam etdiyini nəzərə alaraq, həmin islahatlar elə aparılmalıdır ki, bunlar, əvvəla, iqtisadi potensialımızın səmərəliliyini təmin etsin, ikincisi isə, iqtisadiyyatın gündən-günə inkişafı ilə yanaşı, xalqın rifah halının yaxşılaşmasını da təmin etsin".

Göründüyü kimi, bu yanaşma eyni zamanda Azərbaycanda həyata keçirilən islahatların sadəcə olaraq islahatlar aparılması xatirinə edilmədiyindən, onun əsas meyarı kimi "istehsalın səmərəliliyinin yüksəldilməsi və bu əsasda xalqın yaşayış, həyat səviyyəsinin yüksəldilməsində özünü büruzə verən sosial yönümlü bazar iqtisadiyyatı modelinə üstünlük verilməsini əyani sübut edir: "Sosial-iqtisadi məsələlərin həlli respublikamızın müstəqilliyini möhkəmləndirmək və əhalinin rifah halını get-gedə yaxşılaşdırmaq üçün strateji xətdir, yoldur. Bazar iqtisadiyyatı prinsiplərini tətbiq edərək, sərbəst iqtisadiyyata geniş yol verərək və onu əsas yol hesab edərək bunların hamısını əhalinin bütün təbəqələrinin rifah halının, sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəltməliyik".

Bununla da, Azərbaycan Respublikası, rəsmən bəyan etməsə də, keçmiş SSRİ məkanında yaranan dövlətlər içərisində sosial yönümlü bazar iqtisadiyyatı modelinə üstünlük verən ilk ölkələrdən biri oldu.

İstər islahatların strategiyasının, istərsə də taktiki gedişlərinin müəyyən olunmasında ən mühüm çətinliklərdən, maneələrdən birini imtina olunan köhnə təsərrüfatçılıq sisteminə münasibətdəki mühafizəkarlıq təşkil edir. Bu məsələyə də münasibətdə Heydər Əliyev cənablarının mövqeyi birmənalı oldu: " Əgər biz müstəqil dövlət iksə, sosialist sistemindən imtina etmişiksə, demək yeni bir sistem yaratmalıyıq. Bu sistem (sosialist sistemi S.H.) 70 il hökm sürüb. Onun müsbət tərəfləri, mənfi tərəfləri də olub...

...Təxminən 1985-ci ildən etibarən, artıq on il ərzində keçmiş Sovet İttifaqında baş verən proseslər hamıya anlatdı ki, sosialist idarəetmə sistemi yaramır..." və bu sistemin "kosmetik təmirlə" yeniləşməsi, inzibati-amirlik metodunu saxlamaqla bazar münasibətləri elementlərinin tətbiqi qeyri-mümkündür. "...Bu proses (yəni idarəetmənin sosialist-amirlik sisteminin kosmetik təmiri - S.H.) 1985-ci ildən gedir: bir tərəfdən iqtisadiyyata sərbəstlik vermək, islahatlar aparmaq, ikinci tərəfdən isə inzibati-amirlik prinsiplərini saxlamaq prosesi həmin ildən başlamışdır. Lakin o öz nəticəsini vermədi."

Bu fikirlərin iqtisadi islahatların strategiyası və taktikasının seçilməsində müəyyənediciliyi, həllediciliyi təkcə həmin ifadələrin ölkə Prezidentinə məxsus olması ilə məhdudlaşmırdı: mübaliğəsiz demək olar, Azərbaycan Respublikasma rəhbərlik etdiyi on üç il, keçmiş SSRİ hökumətinin yüksək ali rəhbərliyində təmsil olunduğu yeddi il ərzində Heydər Əliyev cənabları sosialist təsərrüfatçılıq sisteminə xas olan üstünlükləri bütün incəlikləri ilə duyan və bundan idarəetmə-təsərrüfatçılıq praktikasında maksimum bəhrələnən yeganə şəxsiyyətdir.

Başqa sözlə, həyatı reallıqdan doğan bu nəticə təkcə Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar üçün yox, bütövlükdə keçmiş sosialist sisteminə daxil olan ölkələrdə iqtisadi sistemin transformasiya olunması nəzəriyyəsinə böyük töhfə idi.

Təsadüfi deyildir ki, dünyanın bir sıra mötəbər beynəlxalq Maliyyə və Bank təşkilatları tərəfindən təşkil olunmuş forumlarda səslənən bu ifadələr uzun müddət keçmiş sosialist lagerinə daxil olan dövlətlərin iqtisadi sisteminin yeniləşməsini öyrənən ekspertlərin böyük marağına səbəb olmuşdur. Nəhayət, həyata keçiriləcək iqtisadi islahatların srategiyası,

ideologiyası ilə əlaqədar daha bir mühüm cəhət: “Azərbaycanda iqtisadi islahatlar ideologiyaya əsasən deyil, real həyat həqiqətlərinə uyğun aparılacaq”.

Bu tezisin vacibliyi təkcə 70 il ərzində sosialist iqtisadiyyatının iliyinə qədər ideologiyalaşdırılması, siyasətləşdirilməsinin verdiyi acı nəticələr baxımından deyil, habelə bir sıra digər sabiq müttəfiq respublikalar kimi Azərbaycanın öz dövlət suverenliyini əldə etdiyi ilk iki-üç ildə iqtisadi islahatların aparılması strategiyasına münasibətdə bundan da az olmayan ifratçılığa yol verilməsi ilə əlaqədar idi.

Belə ki, həmin illərdə Azərbaycanda Rusiya Federasiyası və digər bir sıra yeni suveren dövlətlərin “radikal reformatorlarının” belə bir səhv baxışları təlqin edilirdi ki, “sosializm cəmiyyətinə xas olan atributlar nə qədər tez və özülünə qədər məhv edilsə, bazar münasibətləri bir o qədər tez bərqərar olacaq və onun geriyə dönməzliyi təmin olunacaqdır.”

Heydər Əliyevin iqtisadi islahatların həyata keçirilməsinə baxışlarını səciyyələndirən ən başlıca cəhət - islahatların həyata keçirilməsinin öncül istiqamətlərinin düzgün və məntiqi ardıcıllıqla seçilməsindən ibarətdir. Məsələn, sahibkarlığın, xüsusilə də kiçik sahibkarlığın inkişafı, yeni təsərrüfatçılıq formalarının meydana gəlməsi, təşəbbüskarlığın genişləndirilməsinə meydan verilməsi baxımından aparılacaq iqtisadi islahatların vacib vəsiləsi kimi ön plana çəkilir:

“...Sahibkarlıq bazar iqtisadiyatına gedən yolumuzda əsas vasitədir. Sahibkarlığın inkişaf etdirilməsi bazar iqtisadiyyatına gedən yolun daha da genişlənməsi deməkdir.”

İqtisadiyyatın islahatlaşdırılması sahəsində sahibkarlığın inkişafına mühüm əhəmiyyət verməklə bərabər, əsl sahibkarlıq fəaliyyəti ilə məşğul olmağın, sahibkarlıq fəaliyyəti adı altında cəmiyyətə zidd, halallıqdan uzaq fəaliyyətin yolverilməz olması vacibliyini Azərbaycan Respublikası Prezidenti xüsusi vurğulayır: “İndiyə qədər nə olub-olubdur, bundan sonra düz yolla, halal yolla getmək lazımdır, qanunlara riayət etmək lazımdır.

“Sahibkar” sözü çox hörmətli bir sözdür. Ancaq həqiqətən hörmətli sahibkar olmaq üçün birinci növbədə gərək yaxşı iş qurasan, ikinci növbədə gərək sahibkar kimi öz nüfuzunu, adını, hörmətini, imicini daimi qoruyasan. Mən istəyirəm ki, bizim Azərbaycan sahibkarları bax belə sahibkar olsunlar.”

Göründüyü kimi, sahibkarlığa belə yanaşma, onun ümumi islahatlar sistemində yeri və rolunu düzgün müəyyən etməklə yanaşı, sahibkarlığın mahiyyəti və iqtisadi məzmunu çox anlaşıqlı, sadə şəkildə tam incəliklərinə qədər açılmış olur. Digər tərəfdən, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində ölkədə mövcud olan ümumi xaos, hərc-mərclik, qanun boşluğu şəraitindən məharətlə istifadə edərək bir qrup şəxslərin dövlət müəssisələri nəzdində kiçik müəssisələr və kooperativlərin yaradılması yolu ilə dövlətin material və maliyyə resurslarının bu yeni qürumlar vasitəsilə mənimsənilməsi, habelə möhtəkirlik və xalqın cibinə girmək yolu ilə varlanmaq praktikası nəticəsində sahibkarlığın, bütövlükdə islahatların cəmiyyət üzvlərinin gözündən düşməsi kimi təhlükə mövcud idi. Əsl sahibkarlığın müəyyən olunması, onlar üçün zəruri şərait yaradılması, dövlət tərəfindən maliyyə və hüquqi cəhətdən himayə olunması üçün zəminin əsası qoyulmuş oldu.

Bu qoyuluşun məntiqi davamı və sonrakı inkişafı dövlət mülkiyyətinin özəlləşdirilməsi ilə bağlanır: “İndi biz özəlləşdirməyə gedirik, istəyirəm ki, insanlar mülk sahibi olsunlar, əmlak sahibi olsunlar.”

Bu yığcam, sadə, lakin məzmunca çox dərin olan tezis sahibkarlığın real məzmun alması yolunu müəyyən etməklə yanaşı, eyni zamanda cəmiyyətdə bir mənalı qarşılanmayan,

böyük mübahisələr, diskusiyalar predmetli olan özəlləşdirmənin özünün də əsl məqsədini açıqlamış oldu.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, cəmiyyətin, o cümlədən də iqtisadi sistemin yeniləşməsi gedişində mövcud təsərrüfatçılıq, idarəetmə təfəkkürü üçün o qədər də aydın, ənənəvi olmayan sahələrdə riskə getmək olduqca vacibdir. Bu dövlət mülkiyyətinin özəlləşdirilməsi üçün xüsusilə səciyyəvidir. Özəlləşdirmənin cəmiyyətin bütün üzvlərinin maraq mənafelərinə bir başa və dolayısına toxunması, onda hamının maraqlı olmasına baxmayaraq, bütövlükdə islahatların sürətləndirilməsi naminə burada da riskə getməyin vacibliyi Heydər Əliyev tərəfindən dəfələrlə vurğulanmışdır: ”Əsas məsələlərdən biri özəlləşdirmədir. Bu asan proses deyildir. Gəlin bir-birimizi qorxutmayaq. Bu işdə risk etmək lazımdır. Bunsuz bir şeyə nail ola bilmərik. Mənim fikrim belədir ki, gərək riskə gedək, təsirli tədbirlər görək. Hər şeydən çəkinə-çəkinə dayanıb gözləməyin faydası olmaz.”

Bununla belə, Azərbaycan Respublikası Prezidenti ölkə üçün, cəmiyyət üçün belə taleyüklü bir məsələdə risk etməzdən əvvəl hər şeyin ölçülüb-biçilməsi, prosesin mahiyyətinin bütün incəliklərinə qədər tam surətdə açıqlanması, bir sözlə riskə şüurlu surətdə getməyin iqtisadi islahatlar strategiyası və taktikasının əsas tələblərindən biri hesab edir.

Bu mənada Azərbaycan Respublikası Prezidenti bir tərəfdən özəlləşdirməni aparılan iqtisadi islahatların ən vacib vəsiləsi hesab edirsə, digər tərəfdən onun kütlələr arasında izahının əhəmiyyətinin, zəruriliyinin bundan da artıq olduğunu xüsusi vurğulayır: “Özəlləşdirmə proqramı xalqa izah edilməlidir. Ona görə ki, kütlə, cəmiyyət, ictimaiyyət bu proqramın əhəmiyyətini bilsin. Ən əsası isə bu izahat işi ona yönəldilməlidir ki, hər bir insan bilsin ki, özəlləşdirmədə necə iştirak edə bilər, burada onun payı nədir və nə götürə bilər. Halbuki insanların tam əksəriyyəti bunu bilmir. Proqramda nəzərdə tutulan məsələləri bəlkə vəzifəli adamların bəziləri o qədər dərindən dərk edə bilmirlər. Ona görə də bu özəlləşdirmənin mahiyyətini hamı bilməlidir. Çünki özəlləşdirmə bütün xalqa aiddir. Hər bir şəxs, hər bir vətəndaş özəlləşdirmədən bəhrələnməlidir. O bilməlidir ki, verilən paydan necə istifadə edə bilər, özəl yerdə öz yerini necə tuta bilər.”

Heydər Əliyev cənabları tərəfindən bu tezisin söylənilməsindən keçən bu iki il onun doğrudan da özəlləşdirmə, bütövlükdə iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsi üçün nə qədər vacib, əhəmiyyətli olmasını bir daha təsdiq etdi. Artıq heç kəs üçün sirr deyildir ki, məhz özəlləşdirmənin həyata keçirilməsilə əlaqədar ən elementar belə tələblərin mahiyyətinin cəmiyyət üzvləri, kütlə arasında kifayət qədər açıqlanmaması, izah edilməməsi, ayrı-ayrı müəssisə, birlik, konsern, şirkət və digər idarəetmə qürumları rəhbərlərinin heç də hamısının özəlləşdirmə prosesinin mahiyyəti haqqında nəinki kifayət qədər təsəvvürlərinin olmaması, hətta bu prosesə açıq-aşkar mane olmaları, müqavimət göstərmələri son nəticə etibarilə “Azərbaycan Respublikasında 1995-1998-ci illərdə Dövlət mülkiyətinin özəlləşdirilməsinin Dövlət Proqramı”nın ləng getməsinin, xüsusilə özəlləşdirmə paylarının istifadəsi ilə əlaqədar əhali arasında indiki çaşqınlığın əsas səbəbi kimi çıxış edir.

İqtisadi islahatları həyata keçirən ölkələrdə ümumi sosial-iqtisadi durum əhəmiyyətli dərəcədə aqrar sektorda yeniləşmənin nə dərəcədə rəvan getməsindən asılıdır. Bu, xüsusilə iqtisadiyyatında aqrar sektorun aparıcı rol oynadığı ölkələr, o cümlədən də Azərbaycan Respublikası üçün daha çox səciyyəvidir. Məsələnin bu cəhəti Heydər Əliyev iqtisadi islahatlar strategiyasından nəinki kənarda qalmamış, əksinə, onun prioritet, öncül istiqamətlərindən birini təşkil etmişdir:

"Azərbaycan iqtisadiyyatının böyük bir hissəsini aqrar sahə təşkil edıı. Azərbaycan təbiətinə, iqliminə, torpağına, ərazisinə görə böyük imkanlara malikdir. Bu imkanlardan daha səmərəli istifadə etmək, onların hamısının Azərbaycan xalqının rifahı naminə yönəltmək dövlətimizin və aqrar sahədə aparılmalı olan islahatların əsas məqsədidir."

Bilavasitə Heydər Əliyev cənablarının başçılığı ilə aqrar sektorda aparılan islahatlar, torpağın xüsusi mülkiyyətə verilməsi qərarının qəbul olunması dünyanın BIR çox nüfuzlu ekspertləri tərəfindən nəinki keçmiş SSRİ məkanında yaranmış yeni suveren dövlətlər, o cümlədən Baltikyanı ölkələr, habelə Şərqi Avropanın keçmiş sosialist ölkələri arasında bu istiqamətdə atılan addımların ən inqilabisi, radikalı hesab olunur: 1992-ci ilin yazında, yəni hələ o zaman Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisin sədri işləyən vaxtda, Muxtar Respublikada xırda buynuzlu mal-qaranın hamısının kənd əhalisinə satılmasından, torpaq üzərində xüsusi mülkiyyətin mümkünlüyünü nəzərdə tutan Heydər Əliyev cənablarının başçılıq etdiyi aqrar-islahat komissiya tərəfindən işlənib hazırlanmış və Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Torpaq islahatı Haqqında" Azərbaycan Respublikası Qanununun 1996-cı il iyul ayının 16-da qəbul olunmasından və onun dərhal həyata keçirilməsinə başlanması üçün cəmi 4 il vaxt tələb olundu. Halbuki klassik bazar iqtisadiyyatlı kapitalist ölkələrində bu müddət bir neçə on illərlə ölçülür.

Daha önəmlisi ondan ibarətdir ki, bütövlükdə iqtisadiyyat, o cümlədən də onun aqrar sektorunda aparılan iqtisadi islahatlar strategiyası azad bazar münasibətləri üçün səciyyəvi olan liberallaşma, sərbəstliklə sosial-iqtisadi inkişaf mənafeyinin uzlaşmasının təmin olunmasını nəzərdə tutur: "Torpaq islahatı, torpağın şəxsi mülkiyyətə verilməsi prosesi respublikamızın tələbatı üçün lazım olan əsas kənd təsərrüfatı məhsullarının azalmasına imkan verməməlidir, əksinə, onun artmasını təmin etməlidir."

Sərbəst, azad bazar münasibətlərinə keçilməsinin ən vacib şərtlərindən, atributlarından biri ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli şəkildə qovuşmasından ibarətdir. Bu məqam Heydər Əliyev iqtisadi islahatlar strategiyasını səciyyələndirən ən mühüm məqamlardan biridir: "Azərbaycan yeni, gənc, müstəqil dövlətdir, müstəqil inkişaf yoluna qədəm qoymuş ölkədir, dünya birliyində öz layiqli yerini tutan, hamı tərəfindən qəbul olunmuş dünya standartları əsasında dünya iqtisadiyyatına sıx bir şəkildə qovuşmağa çalışan bir ölkədir."

Heydər Əliyev cənablarının bu məqsədlə 1995-ci il noyabrın 29-da Londonda Adam Smit İnstitutunun təşkil etdiyi "Azərbaycanda investisiya imkanları" mövzusunda Beynəlxalq Konfransda, 1995-ci il dekabrın 5-də isə Parisdə Ümumdünya Bankının təşkil etdiyi "Azərbaycan üçün investisiyalar" mövzusunda Beynəlxalq Konfransda geniş, çox əhatəli çıxışları, birincisi, Azərbaycanın zəngin potensiala, özü də təkcə Qərb ölkələrinin anladığı kimi ənənəvi neft-qaz ehtiyatma deyil, habelə iri sənaye potensialına və digər resurslara malik olmasını nümayiş etdirdi, ikincisi, bu sərvətlərdən, potensialdan istifadə olunmasına xarici sərmaye qoyuluşuna, xarici investorların mülkiyyətlərinin qorunmasma ali dövlət səviyyəsində zəmanət verilməsini təsdiqlədi.

Digər tərəfdən, Heydər Əliyev iqtisadi islahatlar strategiyasında xarici iqtisadi fəaliyyət siyasəti, ilk növbədə, dünyanın qabaqcıl şirkətləri ilə kontraktların imzalanması təkcə iqtisadi deyil, bütövlükdə cəmiyyətin yeniləşməsi, dövlətçiliyin möhkəmləndirilməsinin mühüm istiqaməti kimi çıxış edir:

“Xarici ölkələrlə qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələr yaratmaq və o cümlədən Azərbaycanın neft yataqlarından səmərəli istifadə olunması üçün əməkdaşlıq etmək respublikamızın iqtisadiyyatının inkişaf etməsi üçün, sosial iqtisadi böhrandan çıxmağımız üçün çox yararlı yoldur və biz bu yolla gedəcəyik.

Eyni zamanda bütün bunlar hamısı Azərbaycan Respublikasının müstəqil dövlət olduğunu bütün dünyada bir daha sübuta yetirir. Nümayiş etdirir ki, Azərbaycan müstəqil dövlət kimi özü öz taleyinin sahibidir, xalqımız öz sərvətindən özü müstəqil surətdə istifadə etməyə qadirdir və bu məqsədlə istədiyi dövlətlər, xarici şirkətlərlə müştərək fəaliyyət göstərmək imkanına malikdir.”

Beynəlxalq Maliyyə və Bank təşkilatları ilə əlaqələrin , genisləndirilməsini Heydər Əliyev Azərbaycanın dünya maliyyə sisteminə, dünya inteqrasiyasına, dünya iqtisadiyyatına qoşulmağın, bütövlükdə aparılan iqtisadi islahatların müvəffəqiyyətlə başa çatdırılmasının əsas şərtlərindən, vasitələrindən biri hesab edir. Bununla əlaqədar olaraq Ümumdünya Bankı, Beynəlxalq Valyuta bondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı dünyanın digər maliyyə mərkəzləri, strukturları, bankları ilə sıx əlaqələrin yaradılmasım Azərbaycan Respublikası Prezidenti ölkə iqtisadiyyatının dünya təsərrüfatçılıq standartlarına uyğun olaraq inkişaf etdirilməsinin, bütövlükdə sərbəst bazar münasibətlərini bərqərar olunmasının vacib şərti hesab edir.

Məlum olduğu kimi Beynəlxalq Maliyyə və Bank təşkilatları islahat aparan ölkələrə göstərdiyi maliyyə yardımı müqabilində liberal yönümlü dünya təsərrüfatçılıq standartlarına əməl olunması tələblərini qoyur. Heydər Əliyev müdrikliyi və qətiyyəti onda özünü büruzə verdi ki, bu beynəlxalq təşkilatların irəli sürdükləri tələblərin ümumən məqbulluğunu qəbul etməklə bərabər, Azərbaycanda onun özündən asılı olmayan səbəblər, ilk növbədə, Ermənistan tərəfindən təcavüzə məruz qalması ilə əlaqədar bir sıra ciddi problemlərin olması anlaşıldı və bunların ölkəmizə münasibətdə nəzərə alınması mümkün oldu.

Yeni iqtisadi sistemin bərqərar olunmasında Heydər Əliyev cənabları müvafiq qanunvericilik bazasının yaradılması və qanunların aliliyinin təmin olunmasına çox mühüm əhəmiyyət verir, onu radikal iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsinin ən mühüm şərtlərindən, əsas zəminlərdən biri hesab edir. Çünki “keçmişdə sovet cəmiyyətində yaşarkən insanlar o vaxt mövcud olan qanunları bilirdilər-bilmirdilər, bunun fərqi yox idi. Hər şey reqlamentləşdirilmişdi. Amma indi sərbəst iqtisadiyyat cəmiyyətində, bazar iqtisadiyyatı şəraitində yaşamaq üçün qanunları bilmək lazımdır.”

Qeyd etmək lazımdır ki, hələ Heydər Əliyev cənabları yenidən respublika hakimiyyətinə rəhbərliyə qayıdana qədər parlamentdə iqtisadi islahatların, qanunvericilik bazasının yaradılması istiqamətində müəyyən işlər görülmüşdür. Ayrı-ayrı nöqsanlarına baxmayaraq, bu dövrdə qəbul olunan qanunların bir qismi, ekspertlərin fikrincə ən yaxşı beynəlxalq standartlara cavab verir.

Lakin bütün bunlarla yanaşı, bütövlükdə iqtisadiyyatda islahatların aparılmasında olduğu kimi, onun qanunvericilik bazasının yaradılması sahəsində görülən bu işlər, atılan addımlar kövrək addımlar idi. İqtisadi islahatların bir sıra prinsipial istiqamətlərinə münasibət üçün səciyyəvi olan tərəddüdlər, inamsızlıqlar, müəyyən mənada islahatların qanunvericilik bazasının yaradılması üçün də səciyyəvi idi.

Elə bu baxımdan da, heç şübhəsiz ki, respublikada iqtisadi islahatların hüquqi bazasının yaradılması baxımından 1995-ci ili dönüş ili kimi hesab etmək olar. Məhz 1995-ci ilin

noyabrında demokratik əsasda Parlament seçildi, Azərbaycan Respublikası Prezidenti möhtərəm Heydər Əliyev cənablarının bilavasitə sədrliyi və yaxından iştirakı ilə hazırlanmış “Azərbaycan Respub-likasının Konstitusiyası” ümumxalq referendumu yolu ilə qəbul olundu. Suveren Azərbaycan Respublikasının ilk Konstitusiyasında islahatlarda qəti dönüş yaradıla biləcək yeni müddəalar, istiqamətlər müəyyənləşdirildi.

Milli Məclis tərəfindən 1996-cı ilin əvvəllərindən başlanaraq qəbul olunmuş “Torpaq islahatı haqqında”, “Hüquqi şəxsləri dövlət qeydiyyatı haqqında”, “Tender haqqında”, “Kooperasiya haqqında” Azərbaycan Respublikası Qanunları, Azərbaycan Respublikası Prezidentinin “Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında, Əsasnamənin təsdiq edilməsi haqqında”, əvvəlcə “Azərbaycan Respublikasın da xarici ticarətin sərbəstləşdirilməsi haqqında”, sonra isə “Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi qaydaları haqqında”, “Xidmət” Dövlət Konserinin, Yanacaq Komitəsinin, “Azəryeyinti” Dövlət Şirkətinin, Material Ehtiyatları Nazirliyinin ləğv olunması, “Azərenerji” və “Azəriqaz” Səhmdar cəmiyyətlərinin yaradılması haqqında və digər Fərman və Sərəncamları bu qəbildəndir.

Bütün bunların məntiqi nəticəsi Kimi islahatların aparılmasında qəti dönüşün əsası qoyuldu. Hər şeydən əvvəl aparılan islahatların müsbət nəticəsi özünü iqtisadiyyatda makromaliyyə sabitliyinin əldə olunmasında, 1989-cu ildən başlayaraq ilk dəfə məcmui daxili məhsul istehsalının həcminin aşağı düşməsinin nəinki dayandırılması, hətta 1996-cı ildə 1995-ci ilə nisbətən 1,3 faiz artıma nail olunmasında, iqtisadiyyatda struktur, institutual dəyişikliklərə nail olunmasında göstərmişdir. Dövlət Statistika Komitəsinin məlumatlarına görə 1996-cı ilin ortalarınadək respublikada özəlləşdirilən obyektlərin sayı 100-dən bir qədər çox idi. 1996-cı ilin ikinci yarısında özəlləşdirilən müəssisələrin sayı 8 mini ötüb keçdi. Azərbaycanla ticarət-iqtisadi əlaqələr yaratmış dövlətlərin sayı 1993-cü ilə nisbətən iki dəfə artmış və 70-i keçmiş, idxal-ixrac əməliyyatlarının həcmi və sərmayə yatırımları qat-qat genişlənmişdir.

1994-cü ilin axırı, 1995-ci ilin əvvəlləri üçün respublikada cəmi 815 kəndli (fermer) təsərrüfatı fəaliyyət göstərirdi. Təkcə 1996-cı ildə 192 sovxoz, 227 kolxoz və 103 təsərrüfatlararası kənd təsərüfatı müəssisələri ləğv edilərək, onların bazasında və habelə digər əsasda yaradılmış yeni təsərrüfat formalarının sayı 18 minə, o cümlədən kəndli (fermer) təsərrüfatlarının sayı 12 minə çatmışdır.

Əlbəttə, H.Əliyevin adı və əməli ilə birbaşa bağlanan bu strategiyanın bəhrələri daha böyük, daha sanballı, nəticələri özünü daha tez göstərə bilərdi.

Düzdür, islahatların rəvan getməsinə Ermənistan tərəfindən Azərbaycanın 20 faizdən artıq ərazisinin işğal olunması və bunun nəticəsində külli dağıntılar, itkilərlə bərabər 1 milyon nəfərdən artıq qaçqının çoxsaylı problemləri, dövlət büdcəsinin xeyli hissəsini məcburən ölkənin müdafiəsinə yönəltmək, suveren dövlət kimi müstəqil kurs yeridilməsi zərurəti, o cümlədən Xəzərin Azərbaycana aid hissəsinin neft yataqlarının xarici şirkətlərlə birgə istismarı haqqında “Əsrin müqaviləsi”nin imzalanması ilə əlaqədar xarici iqtisadi, siyasi təzyiqlər, ən nəhayət, lıələ də sakitləşmək bilməyən daxili çəkişmələr və şəxsi ambisiyalar güclü mənfi təsirini göstərir.

Lakin bu gerçəklikdə də müəyyən edilmiş zirvələri fəth etmək nəinki mümkündür, həm də hər cəhətdən vacibdir.

Bir növ obrazlı müqayisəyə əl atsaq, layihəsi yüksək ustalıqla və zövqlə hazırlanmış binanın eynilə və vaxtınıla tikilib istifadəyə verilməsi təkcə həmin layihənin memarından deyil, bəlkə də daha çox bu binanı ucaltmalı olan konkret icraçıların-mühəndislərin, konstruktorların və inşaatçıların peşəkarlıq səviyyəsindən, vətən-pərvərliyindən və əzmkarlığmdan asılıdır. Təəssüf hissilə müşahidə olunur ki, əzəmətli Əliyev iqtisadi "binasının" qaldırılmasına mane olan obyektiv xarakterli köklü səbəblərlə yanaşı, islahatları bilavasitə həyata keçirməli olan qurumlu və vəzifəli şəxslər, ilk növbədə, iqtisadi və idarəetmə qurumlarının, nazirlik, komitə, şirkət, konsern, birlik, müəssisə rəhbərləri, elə biz-qanunvericilik orqanlarının nümayəndələri heç vəchlə nə qarşıya qoyulan vəzifələrin ahəngini tam tutur, nə də tempini və keyfiyyətini təmin edirlər.

Daha çox narahatlıq doğuran odur ki, bu icraçılar ölkə Prezidentinin bu tələblərinə heç olmazsa yaxınlaşmağa səy etmək əvəzinə, daha çox süniliklə, riyakarlıqla onun xalq arasındakı böyük nüfuzunun arxasında gizlənməyə, fəaliyyətlərindəki nöqsanlarının tənqidini Prezidentin kursunun tənqidi kimi qələmə verməyə cəhd göstərirlər.

Bu baxımdan idarəetmədə qismən keçirilən və daha çox gözlənilən köklü struktur dəyişikləri bu disproporsiyanın xeyli yumşaldılmasına ümid verir.

Nəhayət, bütün səviyyələrdə dərk edilməlidir ki, iqtisadiyyatın dirçəldilməsi cəmiyyətin bütün bəlalarının, xarici və daxili sabitliyin, ölkənin ərazi bütövlüyünün təmin olunmasının əsas rəhnidir. Lakin bütün bunlarla bərabər iqtisadi islahatlarımızın memarı kimi özü nikbindir: "Nailiyyətlərimizin çox-azlığından asılı olmayaraq, mənim üçün əsası, əhəmiyyət kəsb edəni odur ki, biz düz yoldayıq , düz yolla gedirik".

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №1, Bakı 2000*

# BAZAR İNFRASTRUKTURUNUN ELMİ-NƏZƏRİ MƏZMUNU VƏ SƏRBƏST BAZARLARIN FORMALAŞMA XÜSUSİYYƏTLƏRİ

***i.e.d., prof. Cəbiyev R.***

*1977-1982-ci illərdə İİETİ-də sektor və şöbə müdiri vəzifələrində işləyibdir.*

Azərbaycanda bazar infrastrukturunun formalaşması müasir dövrdə son dərəcə vacib və aktual bir problemdir. Lakin həmin problemin işlənməməsinə görə, onun mahiyyəti və məzmunu bir mənalı qəbul olunmayır. Bu da təsərrüfat praktikasında bir çox problemlər yaradır.

Qeyd etmək lazımdır ki, ilk dəfə "infrastruktura" termini Qərbdə XX-ci əsrin əvvəllərində silahlı qüvvələrin hərbi qabiliyyətinin təhlili zamanı istifadə edilmişdir. Söhbət adətən hərbi, istehsal və sosial infrastruktur haqqında gedirdi. Belə ki, hərbi infrastruktura dedikdə hərbi qüvvələrin fəaliyyətini təmin edən (hərbi anbarlar, aerodromlar, radiolokasiya postları, poliqonlar və s.) sahələrin kompleksi nəzərdə tutulurdu1. Buradan aydın görünür ki, infrastruktura - müharibə şəraitində hərbi əməliyyatların aparılmasını təmin edən, sülh şəraitində isə dövlətin müdafiə qabiliyyətini lazımi səviyyədə saxlanılmasına xidmət edən bir qurumdur. Həmin fikir sonralar bütün başqa sahələrə də geniş yayılmışdır. Məsələn, 40-cı illərdə Qərbdə infrastruktur anlayışı maddi istehsalın fəaliyyətinə xidmət edən sahələrin məcmuyu kimi başa düşülürdü.

Sovet iqtisadi ədəbiyyatında bu problem ilk dəfə 70-ci illərdə nəzərdən keçirilmişdi. Ancaq o illərdə, inzibati- amirlik iqtisadiyyatının mövcudluğu ilə əlaqədar olaraq bu problem kifayət qədər öyrənilməmiş və inkişaf etdirilməmişdir. O illərdə "real sosializm" iqtisadi sistemi bir sıra müəyyən tipli struktur və institutlar yaratmışdır ki, bunlar da bazar iqtisadiyyatında gedən proseslərlə uyğunlaşa bilmirdilər. Və ancaq 90-cı illərdə əvvəllər SSRİ-nin tərkibinə daxil olan dövlətlər müstəqillik qazandıqdan sonra və bazar iqtisadiyyatına tədricən keçəndən sonra bu problem üzrə elmi məqalələr və monoqrafiyalar meydana çıxmağa başladı. Qeyd etmək lazımdır ki, Azərbaycan keçmiş İttifaq respublikalarından fərqli olaraq islahatların aparılmasında və bunula bağlı bazar infrastrukturunun formalaşmasında bir qədər geri qalmışdır. Respublikada indiyə qədər həmin problem üzrə heç bir elmi iş dərc olunmamışdır. Səbəbi də ondan ibarətdir ki, bu problem çox mürəkkəbdir və az öyrənilmişdir. Bununla əlaqədar olaraq, bir çox alimlər bu problemin dərk olunmasına birmənalı yanaşmırlar və nəticədə onun mahiyyət və məzmunu təhrif olunur. Çap olunmuş əsərlərdə bazar infrastrukturunun elementləri, onun sərhədləri dəqiq müəyyən edilməmişdir, nəticədə isə onun elmi xarakteristikası verilməmişdir. Misal üçün, professorlar V.İ.Vidyapin və Juravleva Q.P. hesab edirlər ki, səmərəli fəaliyyət göstərən bazar infrastrukturunun qurulması və təşəkkülü

Rusiya iqtisadiyyatının bazar təsərrüfatçılıq şəraitinə keçməsi prosesinin vacib komponentidir. Onlar yazır ki, ən başlıca məsələ ondan ibarətdir ki, sərbəst bazarlar dəqiq müəyyən olunsun, bu bazarlar formalaşdırılsın və bunun əsasında bazar infrastrukturu xarakterizə edilsin. Qeyd etmək lazımdır ki, infrastrukturun xarakteristikası cəmiyyətin iqtisadi və sosial fəaliyyətinə xidmət edən sahələrin kompleksi kimi başa düşülür. Həmin fikir ona görə çox mübahisə ilə qarşılanır ki, keçmişdə sivilizasiyanın əsasını sənaye və kənd təsərrüfatı sahələri təşkil etmişdir. Eyni zamanda bazar infrastrukturunu dərk etmək üçün sahələrə bölmə prinsiplərindən (“əsas” və “ikinci dərəcəli” sahələrə bölmə prinsipi) əl çəkmək lazımdır. Bunun əvəzinə bu problemi ancaq makroiqtisadi təhlil və yanaşma əsasında düzgün dərk etmək olar.

Nəzərə almaq lazımdır ki, bazar ayrı-ayrı xüsusiləşmiş təsərrüfat subyektləri arasındakı qarşılıqlı münasibətində öz spesifik infrastrukturunu formalaşdırır. Onu bəzən “spesifik altsistem”də adlandırırlar. Belə ki, professor A.Qritsenko və dosent V.Sobolev bazar infrastrukturunu xarakterizə edərək, onun bir neçə müxtəlif elementlərini ayırırlar. Bu elementlər onlara xas olan spesifik funksiyalarını yerinə yetirərək, öz aralarında qarşılıqlı təsirdə olurlar. Belə bir mövqeyə əsaslanaraq, onlar yazır ki, “hər hansı sosial-iqtisadi sistemdə infrastruktur - ilk növbədə, mövcud sistemin obyekt və subyektlərinin qarşılıqlı əlaqələrinin fasiləsiz fəaliyyətini təmin edən elementlərin məcmuyudur”.'

Bu tərifdən belə bir nəticə çıxır ki, infrastruktur sistemin tərkib hissəsi kimi, onun obyekt və subyektləri də daxil olmaq şərti ilə, sistemin öz elementləri arasındakı qarşılıqlı əlaqələrin fəaliyyətini təmin etmək üçün nəzərdə tutulmuşdur.

Həmin tərifdə bazar infrastrukturunun iki əsas funksiyası ayrılmışdır: 1) bazar iqtisadiyyatının subyektlərinin qarşılıqlı təsərrüfat əlaqələrinin və qarşılıqlı təsir- lərinin fasiləsiz fəaliyyətinin təmin olunması; 2) əmtəə- pul axınlarının hərəkətinin tənzimlənməsi.

Bazar infrastrukturu bütün iqtisadiyyatın tərkib hissəsi kimi, bazar iqtisadiyyatına iqtisadi funksiyaları yerinə yetirmək üçün (hər şeydən əvvəl, ehtiyatların optimal akkumlyasiyası və onlardan təsərrüfat fəaliyyəti məhsulları istehsal etmək kimi) imkan və şərait yaradır. Öz mənşəyi və ya təbiəti nöqteyi-nəzərindən, bazar infrastrukturu canlı orqanizm kimi iqtisadi sistemə nüfuz etmiş və onun infrastrukturunu ifadə edən institutların bütöv bir kompleksidir. Onun spesifik məzmunu, sərhədləri daxilində fəaliyyət göstərdiyi bazarların xüsusiyyətləri ilə müəyyən olunur. Məsələn, əmtəə və xidmətlər bazarının tərkib hissəsinə əmtəə birjaları, yarmarkalar, çoxsaylı firmalar, marketinq və digər təşkilatlar daxildir. Maliyyə bazarında pul bazarı, kredit bazarı, qiymətli kağızlar bazarı geniş təmsil olunmuşdur.

Beləliklə, təsdiq etmək olar ki, bazar infrastrukturu, ən müxtəlif meyarlar əsasında bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən sərbəst bazarlardan ibarətdir.

Bunula belə, yuxarıda qeyd olunduğu kimi, bir çox alimlər və praktiklər bu və ya digər bazarları sərbəst bazarlar sırasına aid etmirlər. Onlardan bəziləri, ümumiyyətlə, bu və ya digər bazarları bazar infrastrukturunun tərkibindən çıxarırlar. V.İ.Vidyapin və Q.P.Jurav- lyova kimi professorlar bazar infrastrukturunda bazarların aşağıdakı strukturunu təklif edirlər:

- əmtəə və xidmətlər bazarı;
- işçi qüvəsi bazarı;
- istehsal vasitələri bazarı;
- valyuta, qiymətli kağızlar bazarı;
- patentlər, elmi texniki işlənmələr bazarı

- informasiya bazarı;
- dövriyyə vəsaitləri bazarı;
- ayrı-ayrı əmtəələr və ya əmtəə qrupları bazarı;
- lisenziyalar bazarı.

Təxminən bazar infrastrukturunun belə bir təsnifatı prof. A.S.Bulatovun redaktəsi ilə çap olunmuş "İqtisadiyyat" dərsliyində də verilmişdir.1 Burada bazarın strukturuna bir-biri ilə qarşılıqlı əlaqədə olan yeddi ayrı-ayrı bazarlar aid edilir və bunlar aşağıdakılardır:

- işçi qüvvəsi bazarı;
- maliyyə bazarı;
- istehsal vasitələri bazarı;
- istehlak bazarı;
- xidmətlər bazarı;
- texnologiyalar bazarı;
- mənəvi sərvətlər bazarı.

Professor O.Y.Məmmədov bazar infrastrukturunun aşağıdakı təsnifatını təklif edir :

- əmtəə və xidmətlər bazarı;
- kapital bazarı;
- kredit bazarı;
- əmək bazarı.

R.Katovun fikrinə görə bazar infrastrukturu minimum dörd tərkib hissədən ibarətdir: əmtəə və xidmətlər bazarı, kapital bazarı, əmək bazarı və valyuta bazarı.

Professor B.A.Rayzberq bazarın strukturlaşdırılmasmı bazardakı əmtəənin növünə görə müəyyən edir. Belə olduqda o, yazır ki, müasir supermarketdə ən müxtəlif malları almaq olar, buna görə də onu bir neçə bazardan ibarət olan bazarlar bazarı hesab etmək olar. Ümumiyyətlə isə bazarları aşağıdakı qaydada təsnifləşdirmək olar:

- istehlak malları və xidmətləri bazarı;
- istehsal faktorları bazarı;
- daşınmaz əmlak bazarı;
- maliyyə bazarı;
- informasiya bazarı.

Professorlar A.İ.Dobrının və L.S.Taraseviç bazar infrastrukturunu tədqiq edərək, bazarın aşağıdakı əsas növlərini ayırırlar:

- əmtəə və xidmətlər bazarı;
- maliyyə bazarı;
- intellektual məhsul bazarı;
- işçi qüvvəsi bazarı;
- regional bazarlar.

Bazar infrastrukturunu aydınlaşdıraraq, bəzi müəlliflər infrastrukturu "böyük bazarla" ƏVƏZ edirlər. Onların fikrinə əsasən, "əmtəə mübadiləsi münasibətlərinin inkişaf etmiş sistemi kimi bazar, "böyük bazarın" elementlərinin, ayrı-ayrı qarşılıqlı əlaqəli bazarların sistemidir". Sonra da bu "böyük bazarın" tərkib hissələri göstərilir:

- işçi qüvvəsi bazarı;

- maliyyə bazarı;
- istehsal vasitələri bazarı;
- istehlak bazarı;
- xidmətlər bazarı;
- texnologiyalar bazarı;
- mənəvi sərvətlər bazarı.

Bazar infrastrukturunun təsnifatı və tərkibi üzrə çoxlu- sayda müxtəlif təriflər göstərmək olar. Ancaq nəzərdə tutmaq lazımdır ki, MDB ölkələrində olduğu kimi, Azərbaycan Respublikasında da bazar infrastrukturunun qurulması və inkişafı prosesi gedir. Buna görə də bir çox müəlliflər problemin dərk olunmasına birmənalı yanaşmırlar.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Mərkəzinin “Bazar infrastrukturunun inkişafı problemləri” şöbəsində aparılan tədqiqatlar elmi ədəbiyyatların və faktiki materialların ümumiləşdirilməsi və təhlili əsasında əldə olunan məlumatları sistemləşdirməyə və sərbəst bazarların bazar infrastrukturunda yerini müəyyən etməyə imkan verdi. Bunlara aşağıdakılar əid olunurlar:

- əmtəə və xidmətlər bazarı (istehlak bazarı);
- istehsal vasitələri bazarı;
- daşınmaz əmlak bazarı;
- işçi qüvvəsi bazarı;
- innovasiya bazarı;
- investisiya bazarı;
- lizinq bazarı
- sığorta bazarı
- maliyyə bazarı;
- informasiya bazarı;
- reklam bazarı;
- qiymətləndirmə bazarı;
- konsaltinq bazarı.

Bazar infrastrukturunu sxematik olaraq şəkil 1 -də təsvir olunduğu kimi göstərmək olar.

Beləliklə, təsdiq etmək olar ki, bazar infrastrukturu məcmu şəkildə onun məzmununu müəyyən edən 13 müstəqil, qarşılıqlı əlaqəli bazarlardan ibarətdir.

Bununla bərabər, bazar infrastrukturunun formalaşmasında onun idarəetmə strukturunun təkmilləşdirilməsinə və inkişafına böyük rol məxsusdur. Söhbət strukturlar, professional idarəedənlər, bazarın kökündən dəyişilməsində yeniliklər yaradan iştirakçılar haqqında gedir. Onlara Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Vergi Nazirliyi, Statistika Komitəsi, Dövlət Əmlak Nazirliyi, Antiinhisar siyasəti və sahibkarlığın müdafiəsi üzrə Dövlət Komitəsi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Elmlər Akademiyası, sahə elmi-tədqiqat institutları, Gömrük Komitəsi, Auditor Palatası, Ticarət-Sənaye palatası, banglar, birjalar, broker kompaniyaları, depozitar və hesablaşma sistemləri, kliring mərkəzləri, elektron-ticarət sistemləri, sığorta kompaniyaları, çek-investisiya fondları, qiymətləndirmə kompaniyaları və firmaları və s. daxildir.




Şəkil 1. Bazar infrastrukturu

Adları çəkilmiş strukturların bir hissəsi bazar infrastrukturunun formalaşmasında birbaşa iştirak edir, digər hissəsi isə onun fəaliyyət göstərməsi üçün şərait yaradır. Məsələn, Milli Məclis, Nazirlər Kabineti, maliyyə və vergi orqanları, gömrük, auditor təşkilatları, qiymətlən-dirmə təşkilatları və s. bazar infrastrukturunun fəaliyyəti üçün şərait yaradırlar. Bazar infrastrukturunun birbaşa iştirakçıları isə banglar, birjalar, broker kompaniyaları, çek investisiya fondları, kliring mərkəzləri, depozitar və hesablaşma sistemləri, elektron ticarət sistemləri və sairələrdir.

Beləliklə, yuxarıda deyilənlərə yekun vuraraq demək olar ki, bazar infrastrukturu-istehsalçıdan istehlakçıyadək əmtəə və xidmətlərin sərbəst hərəkətini təmin edən ayrı-ayrı müstəqil qarşılıqlı əlaqəli bazarların və idarəetmə strukturlarının məcmusudur

Respublikada bazar iqtisadiyyatına keçid şəraitində sərbəst bazarların işə düşməsinə imkan verən bazar infrastrukturu tədricən formalaşır. Onlara aiddirlər: əmtəə və xidmətlər bazarı; istehsal vasitələri bazarı; daşınmaz əmlak bazarı; işçi qüvvəsi bazarı; innovasiya bazarı;

investisiya bazarı; lizinq bazarı; sığorta bazarı; maliyyə bazarı; informasiya bazarı; reklam bazarı, qiymətləndirmə bazarı; konsaltinq bazarı.

Əlbəttə, adları çəkilmiş bazarların hamısı eyni dərəcədə inkişaf etməmişlər və fəaliyyət göstərmirlər. Onlardan bir neçəsi yaranma və inkişaf mərhələsindədirlər, bir neçəsi isə ümumiyyətlə fəaliyyət göstərmirlər.

Buna görə də həmin bazarların infrastrukturda yerinə yetirdikləri funksiyalara, oynadıqları rola görə xarakteristikasının verilməsi məqsədəuyğun olardı.

Əmtəə və xidmətlər bazarı (istehlak bazarı) onunla xarakterizə olunur ki, burada istehsalçılarla istehlakçılar arasında əmtəələrin (əmtəə qruplarının) alqı-satqısı baş verir. Təsərrüfat əlaqələrinin genişlənməsi və dərinləşməsi şəraitində əmtəə bazarları milli və ərazi sərhədlərini itirərək, bütün ölkələrin tacirlərinin çıxış etdiyi dünya əmtəə bazarlarına çevrilirlər. Bu gün bazarların yeni növləri fəaliyyət göstərir: əmtəə birjaları, topdan və pərakəndə satış sistemləri, sərgilər, yarmarkalar və auksionlar, pavilyonlar, servis xidmətləri.

Belə olduqda, maddi-əşya formasında olan əmtəələrin alqı-satqısı üçün razılaşmaların bağlanması üzrə ticarət əməliyyatlarının aparılmasında əsas rol xüsusiləşmiş sərbəst qeyri-dövlət təsisatları olan əmtəə birjalarına məxsusudur. Bu, müntəzəm fəaliyyət göstərən, təşkil olunmuş, müəyyən qaydalar üzrə hərəkət edən və müəyyən yerdə olan topdansatış bazarıdır. Birja ticarətinin əsas predmeti-hər şeydən əvvəl, bütün xammal növləri (neft, metal, ağac və s.) aid edilən, birja əmtəələri adlanan, asan standartlaşan əmtəələrdir. Buraya kənd təsərrüfatı məhsullarını və adətən sənayenin digər sahələri üçün aralıq məhsul sayılan (kağız, karton, sement, digər tikinti materialları, neft məhsulları), asan standartlaşan sənaye məhsullarını da aid etmək olar.

Əmtəə birjalarının əsas təyinatı razılaşmaların bağlanmasında xidmətlərin göstərilməsində, əmtəə satıcıları və alıcıları arasında ticarət prosesinin tənzimlənməsində, qiymət haqqında məlumatların yığılması və dərc olunmasında öz əksini tapır.

Xidmət bazarı (məişət kommunal və s.) əhaliyə pullu məişət xidmətim (camaşırxana, kimyəvi təmizləmə, dəlləkxana, hamam, rabitə və nəqliyyat xidməti), kommunal xidməti (mənzilin su, istilik, enerji, qazla təchizatı və s.) əhatə edir.

İstehsal vasitələri bazarına istehsalda birbaşa və ya dolayısı ilə iştirak edən bütün maddi-texniki obyektlər aid edilir. Buna görə də o, üç bazardan ibarətdir. Birincisi, istehsal binalarının və tikililərin alqı-satqısı bazarı; ikincisi, istehsal təyinatlı cihazlar, texnoloji avadanlıq, maşın bazarı; üçüncüsü isə məhsulun hazırlanması üçün xammal, material, yarımfabrikat, enerji bazarıdır. Əmək vasitələri üzrə ticarət onları istehsal edən müəssisələr və ya mülkiyyətçilər tərəfindən, xüsusi ticarət- alıcı və ya satış təşkilatları, bazaları tərəfindən, yarmarkalar, auksionlar, əmtəə birjalarında aparılır.

Daşınmaz əmlak bazarı yaşayış evləri və torpaq bazarlarından ibarətdir. Yaşayış evləri bazarının funksiyası mənzil satışı ilə əlaqədardır. Mənzil alqı-satqısı-keçmiş sovet iqtisadiyyatına nisbətən yeni bir prosesdir. Burada mənzil sahələri əsasən dövlət və kooperativ mülkiyyətində idi və azad, sərbəst alınıb- satıla bilməzdi. Ancaq şəxsi evlərin və mənzillərin dəyişilməsi, alqı-satqısı bazarları mövcud idi. Özəlləşdirmə və xüsusi mülkiyyətə keçid mənzillərin alqı-satqısını əhəmiyyətli dərəcədə genişləndirdi. Yaşayış evlərinin ticarəti ilə məşğul olan təşkilatlar meydana çıxdı, mənzillər və evlər auksion və birjalarda satış obyektinə çevrildilər.

Özəlləşdirilmənin həyata keçirildiyi 1990-cı ildən 1998-ci ilədək 14,1 mln. kvadrat metr sahəyə malik 269,8 min mənzil özəlləşdirilmişdir. Bu, özəlləşdiriləcək mənzillərin ümumi sayının 42,9%-ni təşkil edir. 1998-ci ildə 1330,6 min kv.m. sahəyə malik 24,4 min mənzil özəlləşdirilmişdir. Özəlləşdirilən mənzillərin 73% i Bakı şəhərində yaşayan əhalinin payına düşür.

Torpaq, təbii sərvətlər, faydalı qazıntılar bazarı Azərbaycanda formalaşma mərhələsindədir və onun bərqərar olması olduqca böyük çətinliklərlə əlaqədardır. Torpaq və digər təbii sərvətlərə sovet iqtisadiyyatında, ümumiyyətlə, əmtəə-pul münasibətlərinin, alqı-satqının obyekti kimi baxılmırdı. Bununla əlaqədar praktiki olaraq qiymət mexanizmi mövcud deyildi, torpağa və təbii sərvətlərə qoyulan məsrəflərin uçotu qaydaya salınmamışdı, müxtəlif torpaqların nisbi qiymətliliyini nəzərdə tutan tam torpaq kadastrı işlənməmişdi. Bundan əlavə, torpaq müxtəlif növlü olaraq, kənd təsərrüfatı torpaqlarına, əkin sahələrinə, kommunikasiya çəkilişləri zonasına, faydalı qazıntı yataqları zonasına, yaşayış və digər obyektlər üçün tikinti sahələrinə, istirahət zonalarına bölünür. Torpaq ehtiyatlarının hər bir növü üçün öz bazarı, öz qiyməti, öz qiymətəmələgəlmə mexanizmi mövcud olə bilər.

Torpaq və təbii sərvətlər bazarının əmələ gəlməsi, bir qayda olaraq, belə bir bazarın fəaliyyətini tənzim edən hüquqi, qanunverici əsasnamələrin qəbulu və işlənməsi ilə əlaqədardır.

Bu istiqamətdə Azərbaycanda uyğun işlər aparılmışdır. İlk növbədə üç əsas qanun (Aqrar-sənaye kompleksində, kolxoz və sovxozlarda, islahatlar haqqında və torpaq islahatı haqqında), eləcə də 20-dən artıq normativ aktlar qəbul olunmuşdur. Milli Məclis tərəfindən Torpaq məcəlləsi hazırlanmış və təsdiq edilmişdir. Onun həyata keçirilməsində ilk addım kənd təsərrüfatı dövriyyəsində istifadə olunan torpaq sahələrinin özəlləşdirilməsidir. Bu məqsədlə, ancaq dövlət sərəncamında olan torpaqlar üç kateqoriyaya bölünmüşdür-dövlət və bələdiyyə torpaqları, eləcə də aqrar-sənaye kompleksinin restrukturizasiyası proqramına uyğun olaraq vətəndaşların xüsusi mülkiyyətinə verilən torpaqlar. Qiymətləndirmədən sonra aşkar olmuşdur ki, 3,3 mln. vətəndaşa (790 min ailə) 1,934 mln. ha torpaq sahəsi (ümumi torpaq sahəsinin 22%-i) paylanmalıdır. Paralel olaraq, kolxoz və sovxozların digər mülkiyyətinin, iri və xırda buynuzlu mal- qaranın, texnikanın və s. bölgüsü üçün normativ baza yaradılmışdır.

1998-ci ilin axırına 622,56 min ailə arasında 1,027 mln. ha torpaq sahəsi bölünmüşdür. Həm də onların hamısına torpaq mülkiyyətinə malik olmaları haqqında dövlət aktları təqdim olunmuşdur. 790 min ailənin hamısının ayrılmış torpaq paylarının mülkiyyəti üçün dövlət aktları ilə təmin olunması üzrə işlərin başa çatdırılması 2000-ci ildə nəzərdə tutulur.

Daxili kənd təsərrüfatı bazarını ucuz, keyfiyyətsiz məhsulların müdaxiləsindən qorumaq üçün, dövlətin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə respublika hökuməti istifadə olunan əmtəə və xammal ehtiyatlarının bütün idxal bazasını yenidən nəzərdən keçirmişdir. Nəticədə, hal hazırda hökumətin bu haqda bir sıra normativ aktları hazırlanmışdır. Yerli istehsalı stimullaşdırmaq üçün idxal olunan texnoloji avadanlıqların və xammalın gömrük rüsumlarından tam azad olunması nəzərli tutulur.

İslahatların digər istiqamətləri aqrar məhsul istehsalçılarının vergiyə cəlb olunma dərəcəsinin aşağı salınması və istehsal xərclərinin azaldılması üzrə real ölçülər ola bilər.

Bu gün bizim fermer torpaq vergisi ilə yanaşı vergilərin digər 10 növünün ödənməsinə də məruz qalır - gəlir vergisi, ƏDV, əmlak vergisi, məşğulluq fonduna, sosial müdafiə və yol fonduna ayırmalar, sosial sığortaya üzvlük haqları və sairələr. Bu o deməkdir ki, taxılın bir

tonu üçün fermer 260 min manata yaxın, pambıq- xammalın bir tonu üçün-490 min manatdan çox, tütün üçün-1 mln. manata yaxın, tərəvəz üçün 232 min, meyvələrə görə-500 min manatdan çox, çay üçün-600 min manata yaxın vergi ödəməlidir. Yeganə rentabelli kənd təsərrüfatı bitkisi, iri və xırda buynuzlu mal-qaraya yedirtməklə müəyyən gəlir gətirən lyütserna olmuşdur. Qalan bitkilərin becərilməsi ya gəlir gətirməyən, ya da az rentabelli olmuşdur.

Məhz bu məqsədlə hökumət Prezidentin birbaşa göstərişi ilə bu istiqamətdə addımlar almağa başlamışdır. Fermerlər üçün yanacağın qiymətlərinin 50% aşağı salınması, vergilərdən azad olunma, bütün borcların ləğvi aqrar bölmənin inkişafını nəzərdə tutan tədbirlərdir.

İşçi qüvvəsi bazarı. Bu, olduqca spesifik bazardır, başqalarından təkcə əmtəənin növünə görə deyil, həm də onun alıcıya təklifinin və ödənməsinin xüsusi formasına görə, alqı-satqı aktının müddətinə görə də fərqlənir. O, hər bir fərdin öz işçi qüvvəsini seçiminə görə bazar qiyməti üzrə işçi və muzdödəyən (iş verən) arasında bağlanan kontrakta əsasən satmaq hüququnu nəzərdə tutur. Eyni zamanda, adamları işə qəbul edən müəssisə əməyin, işçi qüvvəsinin kiçik bazarı kimi çıxış edir. Buna görə də hesab etmək olar ki, işçi qüvvəsinin alındığı və iş yerlərinin satıldığı istənilən yer əmək bazarıdı.

Daha parlaq şəkildə işçi qüvvəsi bazarı əmək birjasında özünü göstərir. Azərbaycan Əmək və Sosial Müdafiə Nazirliyinin qəbul etdiyi qərara uyğun olaraq, Bakıda 10 may 1999-cu ildə əmək birjası yaradılmışdır. Əmək birjasından başqa əmək yarmarkası da fəaliyyət göstərir. Ancaq bu strukturlar hələlik tam gücü ilə işləmirlər.

İnnovasiya bazarı-istehsalın səmərəliliyinin və rəqabət qabiliyyətli olmasının asılı olduğu mühüm iqtisadi ehtiyyatdır. Burada alqı-satqı obyekti kimi texniki və sosial- iqtisadi yeniliklər, səmərələşdirici təkliflər və icadlar, patentlər, texnoloji yeniləşdirmələr çıxış edirlər. Bəzən bütün bu obyektləri vahid "nou-xau" adı altında birləşdirirlər, daha doğrusu, elmi-texniki tərəqqinin nailiyyəti hesab edirlər. İnnovasiya-məzmununa görə, həm dəyərinə görə, həm mülkiyyətin xarakterinə görə, xüsusi əmtəədir ki, bu da innovasiya bazarının fəaliyyət üsulunda və zonasında öz izini qoyur.

İnnovasiya bazarı öz texniki-iqtisadi parametrlərinə görə bir qədər dünya standartlarına bərabər olan və ya ondan üstün olan prinsipcə yeni texnika və texnologiyanın mənimsənilməsini və işlənməsini nəzərdə tutan elmi texniki işlənmələr və patentlər bazarına oxşayır.

Azərbaycan Respublikasında innovasiya bazarı hələlik yaranmayıb, lakin formalaşma üzrədir.

İnvestisiya bazarı-xalq təsərrüfatının müxtəlif sahələrinə uzunmüddətli vəsait qoyuluşu formasında reallaşdırılan məsrəflərin məcmuyudur. İnvestisiyalar dövlət, xüsusi müəssisələr, eləcə də xarici investorlar tərəfindən həyata keçirilir. Ancaq burada əsas məsələ kapital qoyuluşunun əsas istiqamətlərinin müəyyən olunmasındadır. Və belə bir vacib məsələdə dövlətin investisiya siyasətini təşkil edən hərtərəfli işlənmiş öz proqramı olmalıdır.

Lizinq bazarı- istehsal təyinatlı tikililərin, nəqliyyat vasitələrinin, avadanlıqların uzunmüddətli icarəyə verilməsidir. Bu investisiyanın maliyyələşdirilməsinin yeni üsuludur . Lizinq müəssisə və təşkilatlara az miqdarda xərc çəkməklə zəruri olan avadanlıqları, maşınları və s. almağa imkan verir.

Sığorta bazarı-xüsusi sosial-iqtisadi struktur, pul dövriyyəsi sferasıdır ki, orada alqı-satqı obyekti rolunu sığorta müdafiəsi oynayır. Burada sığorta müdafiəsinə tələb və təklif formalaşır. Sığorta bazarının inkişafının və həyata keçirilməsinin obyektiv əsası əvvəlcədən

ehtimal olunmayan, ağır şərait meydana çıxdığı zaman zərər çəkənlərə pulla kömək göstərilməsi zərurətidir. Başqa sözlə, sığorta bazarı-cəmiyyətin sığorta müdafiəsini təmin edən və sığorta fondunun yaranması və bölgüsü üzrə pul dövriyyəsinin təşkili formasıdır.

Maliyyə bazarı (ssuda kapitalı bazarı)-kapitala olan tələb və təklif əsasında vasitəçilərin köməyilə kreditorlarla borc götürənlər arasında kapitalın yenidən bölgüsü mexanizmidir. Praktikada o, pul vəsaitləri axınını mülkiyyətçilərdən borc götürənlərə və geriyə istiqamətləndirən kredit təşkilatlarının (maliyyə-kredit institutları) məcmuyu şəklində çıxış edir.

İnformasiya bazarı-xüsusi bazardır. Burada əmtəə kimi spesifik bir məhsul olan informasiya çıxış edir. İnformasiya məhsulu, sözün geniş mənasında işgüzar, kommersiya, elmi, mədəni və digər informasiyaları özündə birləşdirir.

Beləliklə, informasiya bazarı-cəmiyyətdə formalaşan və şəxslər, qruplar, təşkilatlar müxtəlif sosial institutlar tərəfindən ictimai münasibətləri, eləcə də insanla cəmiyyət arasındakı münasibətləri tənzim etmək üçün istifadə olunan xəbərlərin və məlumatların məcmuyudur.

Azərbaycanda belə bir bazarın yaranmasının başlanğıcı yalnız informasiya xidmətinin (o cümlədən İnternet vasitəsilə) göstərilməsi üzrə ixtisaslaşan kompaniyaların meydana çıxmasını hesab etmək olar.

Reklam bazarı-marketinqin funksiyalarından, bazar iqtisadiyyatı şəraitində rəqabət mübarizəsi silahı kimi geniş istifadə olunan əsas vasitələrdən biridir. Reklam əmtəə və xidmətləri reallaşdırmaq və onlara tələb yaratmaq məqsədilə istehlak xassələri haqqında informasiyadır.

Qiymətləndirmə bazarı. Müasir şəraitdə qiymətləndirmə bazarının rolu və əhəmiyyəti artır. Ona görə də qiymətləndirmə xidmətinə alternativ olaraq, yeni kompaniyalar, firmalar və digər strukturlar meydana çıxır. Bu strukturların xüsusi rolu hal-hazırda müəssislərin səhmləşdirilməsi və özəlləşdirilməsi zamanı meydana çıxır.

Konsaltinq bazarı. Onu tez-tez konsaltinq menecmenti və ya idarəetmə məsləhətləşməsi də adlandırırlar. O bazar infrastrukturunun vacib elementidir və onun intensiv inkişafından bütövlükdə iqtisadiyyatın vəziyyəti asılıdır. O, iqtisadi və hüquqi məsələlər üzrə kompaniyaların, firmaların, təşkilatların, müəssisələrin fəaliyyətində özünü göstərir. Konsaltinq firmalar, kompaniyalar bazarın proqnozlaşdırılması və tədqiqi üzrə xidmətlər göstərirlər (əmtəə və xidmətlər, qiymətlər, marketinq proqramlarının işlənməsi, ixrac strategiyasının tədqiqi, müxtəlif obyektlər üçün texniki-iqtisadi əsasnamələrin işlənməsi, ticarət-sənaye şəraitin qiymətləndirilməsi, riskli əməliyyatlar və s.).

Bir qayda olaraq, burada savadlı, yüksək ixtisaslı mütəxəssislər işləyirlər. Sahibkarlara bu məsləhətlərin haqqının ödənilməsi, bu cür mütəxəssislərin işdə saxlanmasından ucuz başa gəlir.

Azərbaycan üçün bu yeni, eyni zamanda perspektivli işdir. Ancaq o hələlik yaranma mərhələsindədir.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №1, Bakı 2000*

# BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFIN PROQNOZLAŞDIRILMASI VƏ İDARƏ OLUNMASININ METODOLOJİ ƏSASLARI

**i.e.d., prof. Həsənov R.**

*1995-1996-cı illərdə İİETİ-də direktor vəzifəsində işləyibdir.*

XX əsrin iqtisadi inkişaf təcrübəsi hətta uzun dövr ərzində liberal iqtisadiyyata malik ən iri kapitalist ölkələrinin sosial-iqtisadi inkişafının qeyri-hamar olmasını tam sübut etdi. Yeni sərbəst bazar mexanizminin makroiqtisadi stabilliyin təmin olunması cəhətindən kifayət olmadığı artıq heç kəsdə şübhə doğurmur.

Makroiqtisadi proseslərin tənzimlənməsi və bunun üçün proqnozlaşdırma və planlaşdırmanın, hətta xüsusi mülkiyyətin üstünlük təşkil etdiyi ölkələrdə belə, tətbiq edilməsi və onun iqtisadi siyasətin vacib alətlərindən birinə çevrilməsinin səbəblərini aşağıdakılar hesab etmək olar:

1. Dünya təcrübəsi göstərir ki, sərbəst bazar mexanizmi makroiqtisadi stabilliyi təmin etmək üçün kifayət deyildir. Çünki sərbəst bazarın dövrü inkişaf xüsusiyyəti iqtisadiyyatı ancaq ən aşağı istehsal və məşğulluq səviyyəsində stabilləşdirməyə imkan verir.

2. İqtisadi inkişafın nəticəsi olaraq, bütövlükdə gəlir səviyyəsinin artımı ilə ümumi istehlakda kollektiv ictimai istehlakın payı artır. Başqa sözlə, ictimai istehlaka tələbin elastikliyi vahiddən böyükdür. İctimai istehlak isə, adi bazar mexanizmi ilə deyil, dövlət orqanları vasitəsi ilə tənzimlənir. Hazırda bir sıra ölkələrdə hökumətin istehlakda payı 30-50% təşkil edir.

3. Ayrı-ayrı təsərrüfat vahidləri və iqtisadiyyatın bölmələrinin inteqrasiyası onların yeni, mürəkkəb qarşılıqlı əlaqə sistemini yaradır. Bu halda isə, məqsədyönlü planlaşdırma zəruri olur. Məsələn, iri investisiya layihələrinin əsaslandırılması və onun nəticələrinin mövcud müəssisələrin fəaliyyəti, təbii ehtiyatların qorunması, əmək bazarı, mənzil tikintisi, xidmət sahəsi, ətraf mühitin qorunması səhiyyənin təşkili və s. kimi sahələrin mənafeyi baxımından qiymətləndirilməsi təsərrüfatçılıq fəaliyyətini tənzimləməyi tələb edir.

4. Sosial və iqtisadi maraq zəminində ayrı-ayrı adamlar və müəssisələr qruplarının təmərgüzləşmə meylinin çoxalması, onların maraqlarının kordinasiya olunması, tənzimlənməsini aktuallaşdırır. Müasir iqtisadi nəzəriyyənin aparıcılarından olan C.Helbreytin "qüvvələrin tarazlığı" konsepsiyası və Q.Mürdalın planlaşdırmanın meylləri nəzəriyyələri məhz bu səbəblərdən dövlətin iqtisadiyyata müxtəlif formalarda müdaxiləsini əsaslandırır.

Digər tərəfdən, təsərrüfat subyektlərinin maraqları qarşılıqlı əlaqələrin mürəkkəbləşdiyi şəraitdə daha çox kəsişdiyi üçün onların tənzimlənməyə ehtiyacı artır.

Yuxarıda sadalanan amillərə görə son 40-50 il ərzində müxtəlif ölkələrdə iqtisadi inkişafın proqnozlaşdırılması və planlaşdırılmasının prinsipi, forma və üsullarının öyrənilməsinə çoxlu elmi-tədqiqat işləri həsr olunmuşdur.

İqtisadi İslahatlar Mərkəzində son illərdə yerinə yetirilmiş bir sıra elmi-tədqiqat işləri iqtisadi islahatlar və bazar münasibətlərinə keçid şəraitində Azərbaycan respublikasında iqtisadiyyatın idarə olunmasının, o cümlədən, onun inkişafının proqnozlaşdırılması probleminə həsr olunmuşdur.

Bu elmi-tədqiqat işlərində sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasının mahiyyəti açılır, yeni iqtisadi şəraitdə proqnozlaşdırmanın üsul və vasitələri haqqında təsnifat xarakterli məlumat verilir, ölkə iqtisadiyyatı üçün bəzi ən vacib sahələrdə proqnozlaşdırmanın xüsusiyyətləri və vəzifələri şərh edilir, həmçinin iqtisadi proqnozlaşdırma və proqramlaşdırma sahəsində bir sıra ölkələrin təcrübəsi təhlil edilir.

Aparılmış tədqiqatların analitik ümumiləşdirici nəticəsi kimi iqtisadi islahatlar şəraitində Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf siyasətinin formalaşdırılması mexanizmi haqqında təkliflər verilmişdir.

## 1. SOSİAL-İQTİSADİ İNKİŞAFIN. PROQNOZLAŞDIRILMASININ MAHİYYƏTİ

Bazar münasibətləri şəraitində milli iqtisadiyyatın inkişafının proqnozlaşdırılması dövlətin gələcək inkişaf trayektoriyasına təsir etmək imkan və formalarını müəyyənləşdirmək məqsədi güdən indikativ planlaşdırmanın ilkin və ən mühüm mərhələsini təşkil edir. Bu mərhələnin əsas vəzifəsi analitik-proqnoz xarakterli hesablamalar vasitəsi ilə milli iqtisadiyyatın mümkün inkişaf variantlarının müəyyənləşdirilməsidir. Başqa sözlə, milli sosial-iqtisadi inkişaf proqnozları sosial-iqtisadi sistemin gələcək parametrləri və inkişaf meylləri haqqında əsaslandırılmış fərziyyələr və təkliflər (kəmiyyət və keyfiyyət formasında ifadə olunmaqla) toplusudur.

Sosial-iqtisadi sitem hər bir inkişaf edən sistem kimi keçmişə, indiyə və gələcəyə malikdir. İqtisadi proqnozlaşdırma bu xüsusiyyətə və həmçinin iqtisadi inkişafın ətalətli xarakterə malik olması fərziyyəsinə əsaslanır. Çünki keçmiş, indi və gələcək dayanıqlıq, təkrarlanma, hadisələrin genişlənməsi kimi cəhətlərə malik obyektiv qanunauyğunluqlarla qarşılıqlı bağlıdır. İqtisadi inkişafın determinləşmiş, yəni gələcəyin baş verməsinin keçmişin doğurduğu səbəblərlə qanunauyğun bağlı proses olması bununla izah olunur. Aydındır ki, inkişafın bir neçə mümkün variantının olması (bu ən azı ona görə baş verir ki, yuxarıda sadalanan obyektiv qanunlar bir-biri ilə kəsişir) gələcəyin qeyri-müəyyənlik elementlərinin də mövcudluğuna səbəb olur. Digər tərəfdən, iqtisadi proseslərin inkişaf xarakteri həm ilkin şərtlərlə, həm də indi və gələcəkdə qəbul edilə biləcək idarəedici qərarlarla müəyyənləşir. İqtisadi qanunauyğunluqların “dərkolunma” səviyyəsini, informasiyanın etibarlılığı və çatışmamazlığı faktorlarını da nəzərə alsaq sosial-iqtisadi inkişaf proqnozlarının determinlik və qeyri müəyyənlik kimi ayrılmaz və bir-birini tamamlayan xüsusiyyətlərə malik olması aydınlaşar. Qeyd etmək vacibdir ki, determinlik və qeyri müəyyənlik faktorlarının hər hansı birinin inkarı mahiyyət etibarı ilə proqnozlaşdırmanı qeyri-mümkün edir. Ancaq gələcəyin determinləşmiş və qeyri müəyyən olması iqtisadi inkişaf perspektivlərinin proqnozlaşdırılmasını mümkün və zəruri edir. Eyni zamanda bu faktorlar proqnozlaşdırmanın ehtimallı proses olmasını şərtləndirir. Yəni keçmiş və indi ilə gələcək arasında səbəb-nəticə əlaqələri elə formada təzahür edir ki, səbəblər nəticəni bir qiymətli deyil, müəyyən ehtimalla

müəyyənləşdirir. Bu baxımdan demək olar ki, proqnozlaşdırmanın mahiyyəti gələcəyin qeyri-müəyyənliyinin azaldılması və tənzimləyici qərarların axtarılması mümkün olan sferaları müəyyənləşdirilməsidir. Proqnozlaşdırmanın digər ayrılmaz xüsusiyyəti baş verəcək hadisələri qabaqcadan göstərmək, yəni iqtisadi sistemin gələcək dəyişikliklərə uyğunlaşması üçün imkan yaratmaqdan ibarətdir. Mümkün hadisələri qabaqcadan göstərmək inkişafın ilkin şərtləri ilə gözlənilən səviyyələr arasındakı uyğunsuzluğu aradan qaldırmağa imkan verir. Lakin bu o halda mümkündür ki, indi qəbul edilən tənzimləyici qərarın doğura biləcəyi dəyişikliklərin baş vermə ehtimalı kifayət qədər yüksək olsun. Deməli, iqtisadi inkişafın mümkün trayektoriyaları və gələcək dəyişiklikləri qabaqcadan görmək imkanları proqnozun əhatə dövründən asılıdır.

Proqnozlaşdırma dövrü artdıqca mümkün trayektoriyalar oblastı genişlənir, qabaqcadan görmənin dəqiqliyi azalır. Proqnozun müddəti proqnozlaşdırılan obyektin dəyişmə sürətindən asılıdır. Milli iqtisadi sistemlərin proqnozları üçün aşağıdakı kimi təsnifat aparılır: qısa müddətli (2-3 ilədək), ortamüddətli (5-7 ilədək), uzunmüddətli (15-20 ilədək). Bu proqnozlar müvafiq müddətdə baş verən, dayanıqlı dövrlər və proseslərə əsaslanır. Bu dövr və proseslər proqnozun əvvəlcədən müəyyənləşdirilmiş obyektləri hesab olunur. Daha böyük müddətli proqnozlarda bu göstəricilər dəyişənlər kimi çıxış edir və onların əsasında tənzimləyici parametrlər seçilir.

Qısa müddətli proqnozlarla əhatə olunan dövrlərə təbii dövr (il), malik proseslərə maliyyə axınlarının və qiymətlərin hərəkəti; əhalinin tədiyyə qabiliyyətli tələbinin dəyişmələri; məhsulun realizasiya müddəti və istehsal ehtiyatları dövrü; yarımçıq tikililərdə kapital qoyuluşunun dondurulması və kiçik müəssisələrin tikilmə müddəti; müəssisələrin yenidən qurulması və avadanlığın modernləşdirilməsi müddəti; fəhlə və qulluqçuların yenidən hazırlanması dövrü; iş qüvvəsinin sahə və regionlararası yenidən bölüşdürülməsi; sürətli iqtisadi proseslərin (illik artım sürəti 25%-dən çox olan) nəticələrinin ikiqat artımı müddətləri kimi iqtisadi proseslər aid edilir.

Qısa müddətli proqnozların səciyyələndirici xüsusiyyəti iqtisadi artımın sürət və proporsiyalarının formalaşmasına sahələrarası məhsul axınları və maliyyə-dəyər parametrlərinin təsirinin müəyyənləşdirilməsinə imkan verməsidir.

Orta müddətli proqnozlaşdırma dövrlərinə (işgüzar dövr) iri müəssisələrin tikintisi dövrü; yeni növ avadanlıqların və ya konstruksiyaların yaradılmasından kütləvi istehsalına qədər (müvafiq texnoloji proseslərdə tətbiqinədək) olan dövr; tam təhsil dövrü; orta sürətli (ildə 10-25%) proseslərin nəticələrinin ikiqat artımı dövrü aid edilir.

Orta müddətli dövrdə proqnozlaşdırmada iqtisadi artımın sürət və proporsiyalarının formalaşmasına investisiyaların dinamika və strukturunun təsirini müəyyənləşdirmək mümkündür.

Uzunmüddətli proqnozlaşdırma böyük ərazilərin təbii ehtiyatlarının istifadə olunması; kapital qoyuluşunun mənimsənilməsi; əsas kapitalın fəaliyyət müddəti; fundamental elmi prinsiplərin yaranmasından onun istehsala tətbiqinə qədər olan dövr; demoqrafik proseslər, nəticlərin ikiqat artımı uzun müddətli (ildə 10%-dək)olan iqtisadi proseslər kimi obyektləri əhatə edir.

Uzunmüddətli proqnozlaşdırma texnoloji proqresin ayrı-ayrı istiqamətlərinin iqtisadi artımın sürət və proporsiyalarına təsirini öyrənmək üçün əhəmiyyətlidir.

Müxtəlif iqtisadi proses və dövrlərin bu və ya başqa proqnoz dövrünə aid edilməsi üçün əsas prinsip-iqtisadi artım sürət və proporsiyaların dəyişməsinə maddi daşıyıcının təsirinin

həmin dövrü əhatə etməsidir. Hazırlanan proqnozlar müəyyən imkanlara: qısa müddətli mövcud məhsul növləri və maliyə ehtiyatlarına; orta müddətli-texnoloji prosesin bu və ya başqa istiqamətinə əsaslanmalıdır.

İqtisadi proqnozlar həm də hazırlanma üsullarına görə fərqlənirlər. Proqnozların hazırlanma üsulları iki qrupa ayrılır: a) obyekt və ya prosesin dəyişmə meyllərinin ifadə üsuluna görə; b) obyekt və ya prosesi xarakterizə edən parametrlərin formalaşdırılması üsuluna görə.

Obyekt və ya prosesin dəyişmə meyllərinin ifadə üsuluna görə ən çox istifadə edilən trend və faktorlu yaxınlaşmalardır. Proqnozlaşdırılan obyekt və ya prosesin inkişaf meylləri dedikdə, ona məxsus olan parametrlərin dinamik xarakteristikası: davamlılığı, sürəti, dəyişmə ehtimalı başa düşülür. Meyllərin belə ifadəsi müəyyən sistemin bir vəziyyəti haqqında məlumatların başqa vəziyyətə və ya onunla bu və ya başqa əlaqədə olan sistemin hansı isə vəziyyətinə keçirməkdən ibarət olan ekstropolyasiyadır. Ekstrapolyasiya təhlil olunan dövrdəki cəhətlərin proqnoz dövrünə keçirilməsinə imkan verir.

Proqnozlaşdırılan göstəricinin dinamik sırası olduqda ekstropolyasiya iki yolla aparılır. Birinci halda dinamik sıranın özünün təhlili və təhsisi əsasında gələcək qiymətlər hesablanır. Belə proqnozlar trend üzrə proqnozlar adlanır və bu halda göstəricilərin monoton artan və ya azalan olması vacibdir. Trend funksiyası zamandan asılı formada bütövlükdə proses və ya onun əsas komponentləri üzrə qurulur. Adətən, trend funksiyaları müəyyən riyazi asılılıqlar əsasında qurulur və istifadə olunur.

İkinci tip ekstropolyasiya - faktor ekstropolyasiyası adlanır və burada əsas şərt prosesə təsir edən faktorlar və onların arasındakı asılılıqların müəyyən olunmasıdır. Yəni bu halda hər hansı parametrin gələcək qiyməti parametrin öz dinamikası ilə deyil, onun aralarında əlaqə yaradılması mümkün olan əhəmiyyətli və dayanıqlı meylə malik faktor və tərkib hissələrinin dinamikası ilə müəyyənləşdirilir. Faktor üsulunun trend üsuluna nisbətən üstünlüyü proqnozlaşdırılan obyektin kinematik vəziyyətindən dinamik vəziyyətə keçməklə onun hərəkətverici elementlərini müəyyənləşdirməyə imkan verir.

Proqnozlaşdırmanın ikinci qrup üsulları - obyekti xarakterizə edən parametrlərin formalaşdırılması üsuluna görə genetik (ehtiyatlar üzrə) və normativ (məqsədli) formalara ayrılır.

Genetik proqnozlaşdırma iqtisadiyyatın inersiyalı olması faktına əsaslanır, yəni bu üsulda istehsalın dayanıqlı meyllərini, keçmiş və indiki vəziyyətinin gələcəyə köçürülməsi əsasında proqnozları hesablanır. İqtisadiyyatın inersiyalılığı iki formada: təkrar istehsal rejimindən dayanıqlı yayınmalar zamanı parametrlərin tədrici dəyişməsi kimi və təsadüfi yayınmalar zamanı sistemin dinamik tarazlığı saxlayaraq əvvəlki inkişaf xəttinə qayıtmaq qabiliyyəti kimi müşahidə olunur. Proqnozlaşdırmada iqtisadi inersiyalılığın hər iki formasından istifadə etmək: birinci halda neqativ təzahürün qarşısını almaq, ikinci halda yaranmış imkandan daha fəal istifadə etmək lazımdır. Genetik proqnozun mahiyyəti təkrar istehsalın parametrlərinin verilmiş dinamikası şəraitində iqtisadi artımın mümkün məqsədlərinin müəyyənləşdirilməsidir.

Normativ proqnozlaşdırma iqtisadiyyatın tənzimlənməsi ilə bağlı olub, proqnozlaşdırılan dövrdə inkişafın arzu olunan məqsədlərinə nail olunması imkanlarını müəyyənləşdirir. Bu halda da keçmiş, indi və gələcək arasında əlaqə nəzərə alınır. Sosial-

iqtisadi normativlərin gələcək qiymətlərini hesablamaq üçün ictimai tələbin mövcud və texnoloji inkişafın reallaşmış səviyyəsini nəzərə alan müasir normativlər əsas götürülür.

Normativ üsulun mahiyyətini iqtisadi artımın verilmiş məqsədlərinə çatmaq üçün təkrar istehsalın parametrlərinin hesablanması təşkil edir.

Genetik və normativ üsullar proqnozlaşdırılan obyektlərin xarakterizə edən parametrləri müəyyənləşdirən alternativ üsullardır. Genetik yaxınlaşmada iqtisadi artımın sürəti və proporsiyalarını formalaşdıran proseslər maşındakı qarşılıqlı əlaqə indidən gələcəyə, normativ yaxınlaşmada isə əksinə gələcəkdən indiyə istiqamətində qurulur.

Genetik üsulla proqnozlaşdırma məhsuldar qüvvələrin inkişafı haqda hipotezlər irəli sürülməklə başlayır və sosial-iqtisadi məqsədlərin müəyyənləşməsi ilə başa çatır; normativ proqnozlaşdırmada hesabatın ardıcıllığı əksinədir sosial-iqtisadi məqsədlərin müəyyənləşdirilməsindən başlayaraq istehsal ehtiyatlarının dinamikasının proqnozu hesablanır.

Genetik və normativ proqnozların hesablanmasındakı bu əks qütblük onların hər birinin məhdudluğunu xarakterizə edir. Genetik üsul iqtisadiyyatın inersiyalılığı faktını əsas tutaraq, inkişafın bütün imkanlarını nəzərə almır, normativ üsul isə irəli sürülmüş iqtisadi artım məqsədinin mövcud istehsal imkanlarına müvafiqliyinə cavab verməyərək, ancaq iqtisadi proseslərin idarəolunması prinsipini əsas götürür.

İqtisadi inkişafın perspektiv qiymətlərini hesablamaq üçün ən yaxşı yaxınlaşma hər iki üsulun birgə tətbiq edilməsidir. Çünki mahiyyət etibarı ilə genetik proqnoz iqtisadi inkişafın real səviyyəsinin saxlanılması, normativ proqnoz isə inkişafın cari formalaşmış meyllərindən optimal meyllərə keçməyi təmin etmək üçün tərtib edilir.

Milli iqtisadi sistemin inkişaf proqnozları vasitəsi ilə əsl iqtisadi problemlər aşkar edilir və onların alternativ həll yolları təklif olunur. Bu problemlər və onların əhəmiyyətliliyi genetik və normativ proqnozların fərqliliyi ilə müəyyənləşir. Fərqlənmənin miqyası problemin mürəkkəbliliyini, hesabatlar isə iqtisadiyyatın tarazlı inkişafına olan maneələri aşkar etməyə imkan verir. İnkişafa mane olan səbəbləri fundamental, obyektiv qanunların doğurduğu məhdudiyyətlərlə qarışdırmaq olmaz.

Yaranmış maneələrin aradan qaldırılması iqtisadiyatın tarazlı inkişafını təmin etmək variantlarını müəyyənləşdirməyə imkan verir. İqtisadi inkişafın faktorlar, struktura və təsirgöstərmə müddəti baxımından tarazlaşdırılması üçün müxtəlif variantlar mümkündür. Bu variantlar aşağıdakılarla bir-birindən fərqlənirlər: a) həyat səviyyəsinin qaldırılması (bir tərəfdən maddi nemət və xidmətlərin istehlakının artımı, o biri tərəfdən isə boş vaxtın artırılması) və əhalinin yaşayış şəraitinin (bir tərəfdən urbanizasiyanın davam etdirilməsi, o biri tərəfdən insanın təbiətlə yaxınlaşması) yaxşılaşdırılması sahəsində sosial-iqtisadi məqsədlər toplusu; b) istehsal faktorlarının kəmiyyət və keyfiyyət aspektlərinin kombinasiyası (bir tərəfdən istehsal ehtiyatlarının fiziki həcminin artırılması; o biri tərəfdən isə texnoloji tərəqqinin əmək tutumlu sahələrindən material və fond tutumu az sahələrinə keçməklə istehsal ehtiyatlarının səmərəliliyinin qaldırılması).

Genetik və normativ proqnozlar vasitəsi ilə iqtisadi artımın aşağıdakı variantlarını hesablamaq mümkündür.

I. Pessimist variantlar - formalaşmış meyllərin mexaniki surətdə gələcəyə keçirilməsindən ibarət olan genetik proqnozlara əsaslanırlar.

II. Müəyyən ehtimallı variantlar toplusu - perspektiv təkrar istehsal problemlərinin alternativ həll üsulları ilə fərqlənən genetik və normativ proqnozların razılaşdırılması yolu ilə hazırlanır.

III. Optimist variant - proqnoz dövründə iqtisadi inkişafın müəyyənləşmiş məqsədlərini tam reallaşdıran normativ proqnozlardan ibarətdir.

Ölkənin sosial-iqtisadi inkişafının komplek tədqiqi üçün Milli Proqnozlar Sistemi (MPS) hazırlanması vacibdir. Onun tərkibi proqnozlaşdırmanın funksiyaları ilə müəyyənləşdirilir. Sistemə daxil olan proqnozlar iqtisadi artımın xarici və daxili şərtlərini ifadə edir. İqtisadi artımın daxili şərtləri iki qrupa ayrılır: İqtisadiyyatın inkişaf templəri və proporsiyalarının proqnozları; geniş təkrar istehsalın funksional elementlərinin proqnozları. MPS-ə daxil olan konkret istiqamətlər üzrə aşağıdakı qrup proqnozlar hesablanır.

1) Qeyri-iqtisadi proqnozlar - buraya demoqrafik proqnoz, təbii ehtiyatların proqnozu, texnoloji proqresin proqnozu, sosial proqnozlar daxildir;

2) İqtisadi artımın sürət və proporsiyalarının proqnozu buraya makroiqtisadi proqnoz, çoxsahəli komplekslərin inkişafı proqnozları aiddir;

3) Funksional iqtisadi porqnozlar, yəni əmək ehtiyatları və məşğulluqun proqnozları, əsas kapitalın təkrar istehsalı və investisiya proqnozları, əhalinin həyat səviyyəsi proqnozları, xarici iqtisadi fəaliyyət proqnozları.

Bu istiqamətlərin hər biri spesifik qanunauyğunluq və problemlərə malik müəyyən tədqiqat sahəsinə malikdir.

## 2. İQTİSADİ SİYASƏTİN FORMALAŞDIRILMASINDA İQTİSAD ELMİNİN İŞTİRAKI ÜZRƏ DÜNYA TƏCRÜBƏSİ

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, müasir dövrdə iqtisadiyyatın idarə olunması nəzəriyyə və praktikasının ən mühüm problemlərindən biri aparılan iqtisadi siyasətin iqtisad elmi ilə qarşılıqlı əlaqəsinin təmin olunmasıdır.

Problemin mahiyyətini açmaq üçün bir neçə nümunəni nəzərdən keçirməyi məqbul hesab edirik.

1. Amerika Birləşmiş Ştatlarında iqtisadi siyasətin geniş elmi əsaslar üzərində qurulması XX əsrin 30-cu illərindəki "Böyük tənəzzül" dövründən başlamışdır. İqtisadi inkişafın proqnozlaşdırılması isə 1911-ci ildə məşhur "Harvard əyrilərinin" tətbiqindən başlanır. ABŞ-ın iqtisadi siyasətini ən vacib alətlərindən hesab olunan iqtisadi indikatorlar sistemi məhz bu dövrdən tətbiq edilir.

1946-cı ildə ABŞ konqressi "Məşğulluq Aktı" adlı qanun qəbul etməklə ilk dəfə olaraq dövlətin iqtisadiyyatla qarşılıqlı münasibətlərini siyasi öhdəliklər səviyyəsinə qaldırdı. İqtisadiyyatın idarə olunmasında dövlətin bazara nisbətən ikinci dərəcəli rolunu rədd edərək, "Məşğulluq Aktı" iqtisadi proseslərin perspektiv inkişaf hədəflərinin müəyyənləşdirilməsi, iqtisadi təsərrüfatçılıq mexanizminin təkmilləşdirilməsi, fiskal vasitələrlə iqtisadi siyasətin tənzimlənməsi və s. kimi bir sıra vəzifələri dövlətin vacib funksiyalarına aid etdi.

"Məşğulluq Aktı"nın 4-cü maddəsinə əsasən Prezidentin icra hakimiyyəti sistemində üç nəfərdən ibarət İqtisadi Məsləhətçilər Şurası (İMŞ) yaradıldı. İMŞ-in üzvləri Prezident tərəfindən, senatın razılığı ilə təsdiq edilir.

İMŞ-ın əsas vəzifə və funksiyaları aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1) Prezidentin iqtisadi hesabatının hazırlanmasında iştirak etmək;

2) İqtisadi proseslər, meyllər haqda məlumat toplamaqla “Aktla müəyyənləşən siyasətin mənafeyi baxımından onları təhlil etmək, Prezidentə həmin məsələlər haqqında xüsusi tədqiqatlar hazırlamaq;

3) Federal hökumətin fəaliyyətini və müxtəlif proqramlarını təhlil etməklə, Prezidentə məsləhətlər vermək;

4) Milli iqtisadi siyasəti formalaşdırmaq;

5) Federal iqtisadi siyasət və iqtisadi qanunvericilik sahəsində Prezidentin tələb edəcəyi digər məsələlər üzrə tədqiqatlar əsasında hesabat və təkliflər hazırlamaq.

İMŞ-in ən vacib vəzifəsi Prezidentin iqtisadi hesabatının hazırlanmasıdır. Hesabatda 4 əsas məqam gözlənilməlidir: 1) məşğulluq, istehsal və alıcılıq qabiliyyətinin cari səviyyəsi və tələb olunan səviyyəsinin qiymətləndirilməsi; 2) həmin göstəricilərin dinamikasında gözlənilən meyllərin müəyyən olunması; 3) federal hökumətin iqtisadi proqramlarının və iqtisadi şəraitin icmalı; 4) Aktın elan etdiyi siyasətin həyata keçirilməsi. Proqramlarının və buna müvafiq qanunvericilik aktlarının hazırlanması üçün təkliflərin hazırlanması.

İMŞ-nın yaradılması iqtisadiyyatın ölkə miqyasında bütöv sistem kimi tədqiqinin zərurətinin hamılıqla qəbul edilməsi ilə yanaşı, iqtisadi siyasətin hazırlanmasının elmi əsaslar üzərində qurulan konkret mexanizmini formalaşdırdı.

Bütün müharibədən sonrakı dövr ərzində ABŞ-ın dövlət siyasətinin formalaşmasında İMŞ illik, yarımillik, aylıq, hətta həftəlik hesabatlar, bülleten və analitik məlumatlar və təkliflər hazırlamaqla bilavasitə iştirak etmişdir. İMŞ iqtisadi siyasətin formalaşmasının bütün mərhələlərində iştirak edir.

Məsləhət Şurasının ən mürəkkəb problemi iqtisadi inkişafın perspektiv qiymətləndirilməsi, qısa müddətli porqnozlar hazırlanması hesab edilir.

Ümumiyyətlə, iqtisadi proseslərin idarə olunmasında ABŞ-da Prezident aparatının inzibati-büdcə idarəsi (İBİ), xəzinədarlıq (Maliyyə Nazirliyi) və İMŞ birgə fəaliyyət göstərirlər, iqtisadi siyasətin və Proqnozun hazırlanması 'üçlüyün” (İMŞ-in sədri, Maliyyə Naziri və İBİ direktoru) hər həftə keçirilən məsləhətləşmələrində formalaşdırılan gələcək perspektivlər haqqında fərziyyələrə əsaslanır. Sosial-iqtisadi proqnozun bilavasitə hazırlanması üç mərhələdə həyata keçirilir. 1-ci mərhələdə yuxarıda deyilən kimi “üçlük” gələcək haqqında irəli sürülən fərziyyələrə müvafiq olaraq iqtisadi siyasətdə dəyişikliklər aparılmasının siyasi aspektlərini təhlil edir. 2-ci mərhələdə bilavasitə həmin “üçlüyün” təmsilçiləri olan iqtisadçılar; İMŞ-in məsul üzvü, maliyyə nazirinin iqtisadi siyasət üzrə müavini və İBİ-nin baş iqtisadçısı siyasi qərarlar hazırlayaraq - proqnozların hesablanmasında bilavasitə iştirak edirlər. 3-cü mərhələdə müxtəlif dövlət orqanları, elmi-tədqiqat idarələri və mütəxəssislər cəlb edilməklə, bilavasitə proqnozlar hazırlanır.

ABŞ-da 5 əsas üsul vasitəsi ilə iqtisadi proqnozlar hazırlanır: ekspert qiymətləndirilməsi; sorğu (anket tədqiqatları); iqtisadi indikatorlar və indekslər; dinamik sıraların. modelləri və ekonometrik modelləşdirmə. Bu sırada ən çox tətbiq edilən və təcrübi əhəmiyyətə malik iqtisadi indikatorlar sistemidir.

Milli İqtisadi Tədqiqatlar Bürosu (MİTB) tərəfindən ilk dəfə 1937-ci ildə ABŞ-ın iqtisadi indikatorlar sistemi hazırlanmışdır. Sonuncu versiyası 1975-ci ildə təklif olunan indikatorlar sistemi 22 indikatordan ibarətdir. Onların 12-si iqtisadi proseslərdəki dəyişiklikləri qabaqlayan, 4-ü üst-üstə düşən və 6-sı gecikən effektə malikdir.

Qeyd etmək lazımdır ki, hazırda ABŞ sistemi üzərində qurulan 74 indikatordan ibarət Beynəlxalq İqtisadi İndikatorlar Sistemi (BİİS) fəaliyyət göstərir.

2. Böyük Britaniyada iqtisadi inkişafın ümumi dövlət siyasəti prinsipləri üzərində qurulmasının kökü V.Zombartın 1923-cü ildə çap olunmuş "tənzimlənmiş kapitalizm" nəzəriyyəsinə çıxır. "Böyük tənəzzüldən" sonra iqtisadi inkişafın planlaşdırılması və ya proqramlaşdırılması ideyası bütün dairələrdə güclənməyə başladı. Kapitalist planlaşdırılmasını elmi-əməli prinsipləri ilk dəfə ingilis sosial-demokratı Q.Koulun 1935-ci ildə çap olunmuş "İqtisadi planlaşdırmanın əsasları" əsərində verilmişdir. Burada planlaşdırma nazirliyi və ya planlaşdırma üzrə Milli komissiyanın vəzifə və məqsədləri, digər nazirlik və idarələrlə qarşılıqlı münasibətləri mexanizmi ətraflı şərh edilmişdir. Digər ingilis alimi, 1960-62- (illərdə baş nazir olmuş Q.Makmillan dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyini sübut edərək, hələ 30- cu illərdə uzunmüddətli planlaşdırma mexanizmini tətbiq etməyi zəruri saymışdır. Makmillan ilk növbədə uzunmüddətli sənaye və maliyyə siyasəti çərçivəsində qərarların sinxronlaşdırılması mexanizmini təklif etmişdir. 50-ci illərdən etibarən İngiltərədə iqtisadi inkişaf planları tərtib olunmağa başladı. İngilis planlarının əsas məqsədi iqtisadi artımın təmin olunması idi. Sonralar iqtisadi artımın stabilləşdirmə ilə uyğunlaşdırılması da iqtisadiyyatın planlaşdırılmasının əsas məqsədinə çevrildi.

1946-cı ildə Nazirlər Kabinetində İqtisadi Plan Şurası, İqtisadiyyat Nazirliyi və İqtisadi Planlaşdırma şöbəsi ya- radıldı. Fransız indikativ planlaşdırma sisteminin uğurları 60-cı illərdə hamılıqla qəbul edildiyi vaxtda Makmillan Hökuməti Böyük Britaniya Milli İqtisadi İnkişaf Şurası (MİİŞ) adı ilə mərkəzi dövlət iqtisadi planlaşdırma orqanı kimi düşünülmüş bir qurum yaratdı. Onun fəaliyyəti nəticəsində dövlətin iqtisadiyyata müdaxiləsinin Keynse nisbətən daha yüksək pilləsi hesab olunan indikativ planlaşdırma və proqnozlaşdırmanın rolu xeyli gücləndi. İqtisadi proqnoz iqtisadi inkişafın elmi əsaslandırılmış gələcəyini təsvir etdiyi üçün uzunmüddətli iqtisadi siyasətin və perspektiv planların hazırlanmasının mühüm mərhələsi kimi qəbul edilməyə başladı. Məhz proqnozların vasitəsi ilə gələcək inkişafın konturlarının müəyyən olunması və onun tənzimləmə mexanizminə çevrilməsi dövlətin iqtisadiyyata müdaxiləsinin yeni elmi formasını – iqtisadiyyatın dövlət proqramlaşdırılmasını yaratdı. Proqramlaşdırma uzunmüddətli iqtisadi proqnozlarla maliyyə-kredit, vergi və stimullaşdırıcı büdcə tədbirlərinin uzlaşdırılmasından ibarətdir. Yəni proqramlaşdırma iqtisadi siyasətdə qısamüddətli tənzimləmədən inkişafın uzunmüddətli stimullaşdırılmasına keçirilməsinə xidmət edir.

MİİŞ-ə maliyyə, ticarət və əmək nazirləri, milliləşdirilmiş müəssisələrin iki nümayəndəsi, sahibkarlar və həmkarlar təşkilatından hərəsindən 6 nəfər, iki müstəqil elmi ekspert və Milli İqtisadi İnkişaf Bürosunun (MİİB) direktoru daxil idi. MİİB hazırladığı proqramları MİİŞ-ə tədqim edərək onun hər üç tərəf: hökumət, azad sahibkarlar və həmkarlar ittifaqı tərəfindən qəbul edilməsini təmin edirdi. 60-cı illərdə MİİŞ-in yerli şöbələri şəbəkəsi də artıq yaradılmışdı. Lakin MİİŞ rəsmi dövlət icra orqanına çevrilə bilmədi. Çünki hökumət onun qəbul etdiyi planların yerinə yetirilməsi üçün öhdəlik götürmürdü. Əsas səbəb isə Maliyyə nazirliyinin iqtisadi siyasətin əsas məqsədi kimi tədiyə balansı və funt-sterlinqin stabilliyinin təmin olunmasının qəbul olunması tələbləri idi. MİİŞ isə iqtisadi siyasətin əsas məqsədini - yüksək artım tempinin təmin edilməsində görürdü. İqtisadi proseslərin inkişaf məntiqi yüksək artım tempini iqtisadi siyasətin əsas məqsədinə çevrilməsini tələb etdiyi üçün 60-cı illərin ortasında İqtisadiyyat Nazirliyi yenidən yaradıldı. Yeni İqtisadiyat Nazirliyi 4

bölmədən ibarət oldu: 1) İqtisadi planlaşdırma bölməsi - iqtisadiyyatın qısa, orta və uzunmüddətli proqnozlaşdırılması ilə məşğul olurdu; 2) Sənaye siyasəti bölməsi - ayrı-ayrı sahələrin iqtisadi inkişafı problemləri ilə məşğul olurdu; 3) İqtisadi koordinasiya bölməsi - qiymət və gəlir siyasəti, ehtiyatlardan istifadənin və ictimai xərclərin səmərəliliyinin artımı problemləri ilə məşğul olurdu; 4) Regional siyasət bölməsi - regional planlaşdırma ilə məşğul olurdu.

Beləliklə, İqtisadiyyat Nazirliyi real icra orqanı funksiyalarına, həm də digər təsərrüfat nazirliklərinə (maliyyə, texnika, ticarət və sənaye nazirlikləri) nəzarət funksiyasına malik idi. Başqa sözlə, "komandanın kapitanı" və ya "orkestrin dirijoru" funksiyalarına yiyələndi.

Lakin İqtisadiyyat Nazirliyinin "razılaşdırılmış iqtisadiyyat" və "indikativ planlaşdırma" konsepsiyaları iqtisadi siyasətin iki zidd məqsədlərini uzlaşdıra bilmədiyindən 1969-cu ildə nazirlik ləğv edildi. Lakin Proqramlaşdırma və indikativ planlaşdırma ideyası aradan götürülmədi. MİİŞ və MİİB-nun fəaliyyəti və əslində dövlətin iqtisadiyyata müdaxiləsi daha da gücləndi.

## 3. İQTİSADİ İNKİŞAFIN DÖVLƏT PROQRAMLAŞDIRILMASI TƏCRÜBƏSİ

ABŞ-da dövlət proqramlarının təşkili. ABŞ öz inkişaf dövrü ərzində çox böyük iqtisadi və siyasi gücə malik dövlət tənzimləmə mexanizm yaratmışdır. Buna görə də istehsal vasitələrinin az hissəsinin dövlət mülkiyyətində olmasına baxmayaraq, onun hərtərəfli tənzimləyici təsirə malik çevik aparatı vardır. Bu mexanizmdə dövlət proqramlarının məxsusi yeri vardır. ABŞ-da milli iqtisadiyyatın vahid dövlət proqramlaşdırılması yoxdur. Lakin iqtisadı siyasətin ayrı-ayrı istiqamətləri üzrə irimiqyaslı, uzunmüddətli dövlət proqramlarının hazırlanması və tətbiqi fasiləsiz artan sürətlə inkişaf edir. Əgər 1920-ci ildə mülki proqramlara federal xərclər məcmu milli məhsulun 1%-ni təşkil edirdisə, 1980-ci ildə - 10%-ə qədər artmışdır. Bu ildə icra olunan proqramların sayı 1500-ə çatmışdır. Dövlət proqramlarının tərtibində əsasən məqsədli-proqram metodunun tətbiqi ETT-nin ən mühüm nailiyyətidir.

ABŞ-da dövlət proqramlarının hazırlanması və tətbiqi müxtəlif iqtisadi, siyasi, sosial və s. maraqlarının uzlaşmasının mürəkkəb prosesidir. Müxtəlif mahiyyətli və məqsədli proqramların idarə olunması üçün təşkilati fəaliyyətin müxtəlif formaları tətbiq olunur. Ən tipik forma kimi milli proqramların idarə olunması üçün səlahiyyətli dövlət orqanının yaradılmasıdır. Digər yanaşma isə idarəetmənin əlaqələndirmə formalarının möhkəm reqlamentləşdirilmiş və bütün proqram iştirakçılarının ciddi əməl etdikləri inzibati-hüquq iştirakçılarının ciddi əməl etdikləri inzibati-hüquq prosedur təsirlərə əsaslanan formalarının tətbiqidir.

ABŞ təcrübəsində dövlət proqramlarının tərtibi və tətbiqində iqtisadi orqanlararası əlaqələrin müxtəlif istiqamətləri var. Bu istiqamətlər:

1. Planlaşdırma- proqramlaşdırma - büdcə tərtibi sistemi;
2. Konkret qarşılıqlı təsir mexanizmləri;
3.Federal vəsaitlərin istifadəsi planının təşkilatlar-arası tərtibi və uzlaşdırılması prosedurunu əhatə edir.

Dövlət proqramlarının idarə olunmasında müxtəlif yanaşmaların olmasına baxmayaraq məqsədli proqramlar sərbəst idarəetmə obyekti kimi fərqlənir. Proqram üzrə ümumi strategiyanın tərtibi məsuliyyəti dövlət səviyyəsində təyin olunur. Proqramlar üzrə əsas

qərarların qəbulu onun yerinə yetirilməsinə təsiretmə səlahiyyətinə malik olan idarəetmə pilləsinə tapşırılır.

Məqsədli -proqram sisteminin tərtibində idarəetmə qatarların seçilməsində real təsir etmə qabiliyyətinə malik olan müvafiq orqanların iştirakı təmin olunur. Dövlət proqramlarının tətbiqinin ziddiyyətli iqtisadi və 45 siyasi xarakterini nəzərə alaraq onların icrasına nəzarətə və nəticələrdən asılı olaraq, əks əlaqənin qurulmasına ciddi fikir verilir, bu da proqramların qiymətləndirilməsi, təftişi və dövlətin "qeyri-səmərəli" saydığı proqramların ləğvi ilə bağlı təşkilati prosedurların tətbiqi ilə əlaqədardır. Bu vaxt yuxarı təşkilatlar tərəfindən nəzarətin ierarxik formaları olan koordinasiya şurası və ya komitələrində proqram rəhbərləri və əlaqələndiricilər vasitəsi ilə şaquli uzlaşma mexanizminin geniş tətbiqi nəzərdə tutulur.

70-ci illərin axırlarından dövlət məqsədli-proqram prinsipi üzrə federal büdcə ehtiyatlarının bölüşdürülməsinin təşkilinin yeni forması kimi mülki orqanlarda "sıfır həddindən büdcənin tərtib olunması" sistemi tətbiq olunurdu. Əsas məqsəd hər bir proqram tədbiri üzrə pul vəsaitlərinin artırılması və kəsilməsi variantlarının "xüsusi seçmə" proseduru ilə üstün istiqamətlər nəzərə alınmaqla seçilməsidir. Yeni planların və proqramların tərtibinə görə məsuliyyət prezidentin icra orqanının üzərinə düşür. Lakin proqramın tərtibi üçün kənardan çoxlu məsləhətçilər cəlb etməklə ayrı-ayrı məsələlər tədqiq edilir, siyasi və inzibati faktorlar təhlil edilir, mümkün ola biləcək maneələr aradan qaldırılır. Konqres vasitəsilə tərtib olunan planların tətbiqinin müxtəlif strategiyaları müqayisə olunur.

Proqramların idarə olunmasında yeniləşmələr əsasən dövlət aparatında yüksək rütbəli qulluqçuların əmək haqlarının qiymətləndirilməsi və irəliləməsi sistemini ciddi dəyişikliklərə uğratdı. Burada əsas meyar məmurların fəaliyyətinin prezidentin apardığı siyasətə tabe etmək, hər bir iri proqramın və ya bölmə rəhbərinin fərdi məsuliyyətini gücləndirmək, fəaliyyətin nəticələrinin qiymətləndirilməsini qoyulan məqsədə çatmaqla birbaşa əlaqələndirməkdən ibarətdir. Digər mühüm aspekt isə, dövlət proqramının idarə olunmasında hüquqi təkanların rolunu artırmaqdır. Məqsədli- proqram idarəetmə sistemində hərtərəfli əhatə etməni (reqlament sənədləri kimi qanun-proqram və ya federal kontraktlar məqsədlərin formalaşdırılmasının mühüm cəhətlərini, proqramın maliyyələşdirilməsi və təşkili, bu və ya digər qrupun mənafeyi naminə çoxlu xüsusi cəhətlərin tənzimlənməsini) nəzərdə tutur. Beləliklə də, dövlət tərəfindən qəbul olunan hüquqi sənədlərə inzibati və məhkəmə nəzarəti sisteminin köməyi ilə proqramların icrasına bütün mərhələlərdə əməl olunmasına imkan yaranır.

1. <u>Federal proqramlar vasitəsi ilə sosial-iqtisadi proseslərin tənzimləməsi.</u> İnkişaf etmiş dövlətlərin 60-80-cı illərdəki, təcrübəsi göstərir ki, mərkəzləşmiş dövlət tənzimlənməsi olmasa cəmiyyətin iqtisadi və sosial sferası öz fəaliyyətinin səmərəsini artıra bilməz. İqtisadiyyatın dövlət tənzimlənməsi istehsal münasibətlərinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. İqtisadi proseslərin tənzimlənməsini zəruri edən faktorları nəzərə alaraq dövlət proqramlarının tətbiqinə böyük ehtiyac var.

70-ci illərdə ABŞ iqtisadiyyatı dövlət tənzimlənməsinin 'çiçəklənmə dövrü"nü keçirirdi. 1975-ci ildə korporasiyaların fəaliyyətini tənzimləyən 25 min federal qanun var idi. Federal hökumətin icra sferasında 18 müstəqil agentlik və orqan iqtisadiyyatın müxtəlif sahələrində tənzimlənmə funksiyalarını həyata keçirirdi.

Ümumən federal hökumətin mülki sferada iqtisadi və sosial tənzimlənmə məqsədilə birbaşa və dolayı təsir edən 100-ə yaxın səlahiyyətli orqanı var idi. Bu cür qarmaqarışıq sistemin cəmiyyətin sosial-iqtisadi inkişafı mexanizminə müxtəlif təsirlərini nizamlamaq

üçün, dövlətin iqtisadiyyata təsirinin yeni mərhələsi - iri miqyaslı iqtisadi, hərbi, elmi-texniki, sosial və s. proqramlar hazırlanmasına başlandı.

Uzun müddətli məqsədli proqramın hər hansı sahədə qəbulu xüsusi sektorla dövlət arasında münasibətlərin xarakterini dəyişmir. Dövlət yenə də, korporasiyaların firmadaxili planlaşdırılmasına, strategiyasına, fəaliyyətinə rəhbərlik üçün heç bir səlahiyyətə malik deyildir. Məqsədli proqramlar dövlətin tənzimləyici funksiyaları ilə planlaşdırma və idarəetmə elminin nailiyyətlərinin birləşdirilməsinə cəhd göstərir. Proqramlaşdırmanın, sistem təhlilinin, modelləşdirmənin, məqsədli proqramla idarəetmənin müasir metodologiyası dövlətin iqtisadi, siyasi, elmi, sosial və s. proseslərə tarixən formalaşmış təsirlərinin nizamlanmasını nəzərdə tutur və onu dəyişmir. Burada dövləti iqtisadi və sosial proseslərə tənzimləyici təsir üçün çox güclü və çox saylı vasitələrə malikdir. Burada dövlət mülkiyyəti istehsal vasitələri üzrə 5%, sənaye kapitalı üzrə isə 1%-ni təşkil edir.

Lakin dövlətin sahibkarlıq fəaliyyəti geniş miqyas alıb. Bu dövlət sektorunun, dövlət kapitalının artımına xidmət etmir, sadəcə federal kontraktlar vasitəsilə mal və xidmətlər alınmasına, subsidiyalar verilməsinə, iri sənaye korporasiyalarının fəaliyyətinə dövlət nəzarətinin güclənməsinə xüsusi sektorda ayrıca sahələr yaranmasına stimul verir.

Beləliklə, iqtisadiyyatın birbaşa büdcədən stimullaşdırılması çox vaxt federal hökumətin irimiqyaslı məqsədli-proqramlarını formalaşdırmaqla əlaqədar olub, iqtisadiyyata təsirin mühüm təkanı sayılır. Bu təkanlar vasitəsilə MMM-in 20% birbaşa bölüşdürülür. Ona görə də, iqtisadiyyatın tənzimlənməsi təkanları sistemində məqsədli proqramlar dövlətin iqtisadiyyata təsirinin ən mühüm alətidir. Proqramların formalaşmasında iqtisadiyyatın lazımi istiqamətdə hərəkətinə təsir edən çoxlu dövlət tənzimlənmə təkanlarının rolu və yeri müəyyənləşir. Federal sifarişlər, kontraktlar, subsidiyalar, vergi güzəştləri, pul kredit mexanizmi, leqal hüquqi tədbirlər inzibati-nəzarət tədbirlərinin kompleks təsiri üçün şərait yaradır. Qoyulan məqsədə çatmaq üçün onların kortəbii təsiri yox, qarşılıqlı əlaqəli təsirinin nəzərə alınması təmin edilir həm də, istənilən dövlət proqramı dövlətin iqtisadi və sosial sferada fəaliyyətini əks etdirən siyasi sənəddir.

Məqsədli-proqram planlaşması metodologiyasının yaranması məhsuldar qüvvələrin ictimailəşməsi və iqtisadi inteqrasiyasının obyektiv nəticəsidir. Planlaşdırma və idarəetmə üzrə yeni ideyalar iqtisadiyyatın dövlət tənzimlənməsinin real praktikası ilə dialektik vəhdət təşkil etməklə həm də, tənzimləmə təkanlarının sisteminin təkamülü ilə əlqədardır.

2. <u>Federal proqramların tipləri və təşkili problemləri.</u>

<u>A-Məqsədli proqramla yanaşmanın metodologiyası və praktikası</u>. Bu üsul sosial-iqtisadi şəraitdən asılı olmayaraq ETT-nin nailiyyətlərinin təsiri altında inkişaf edir və sistemli yanaşmanı əks etdirir. Məqsədli proqramın mahiyyəti qoyulan məqsədə çatmaq üçün birgə fəaliyyətin nizamlanması kimi izah olunur. Məqsədli proqram planlaşdırılması və idarəetməsinin ümumi konsepsiya və metodikası aşağıdakı cəhətlərlə səciyyələnir:

1. Proqramlar son məqsədə çatmaq üçün görülən tədbirlər kompleksi kimi məqsədyönlü xarakter daşıyır.

2. Proqramlar sistemli xarakterlidir. Burada qoyulan məqsədə çatmaq üçün ümumi işlər, ehtiyatlar, təşkilati bölmələr, siyasi, inzibati-hüquqi, plan-analitik, büdcə-maliyyə, maddi-texniki təminat, motivasiya, informasiya təminatının bütün növləri əhatə olunur.

3. Məqsədli-proqramlı yanaşmada problemin bütün mühüm tərəflərinin öyrənilməsi, bütövlüyü (vəhdəti); proqram strukturunun tərtibi, proqramın icrasının alternativ yollarının təhlili, təşkili və funksional idarəetmə sisteminin qurulmasının kompleksliliyi təmin olunur.

4. Məqsədli-proqram planlaşdırılması və idarəetmə prosesinin çoxmərhələli xarakteri onunla şərtlənir ki, bu proses, özündə strateji planlaşdırma, proqramların tərtibi, maliyyə planlarının hazırlanması, işlər kompleksinin detallaşdırılması, operativ planlaşdırma və nəzarət, proqramın icrasına rəhbərlik, həyata keçirilməsində ona düzəlişlər edilməsi kimi işləri əhatə edir.

5. Məqsədli-proqramlı yanaşma qərar qəbulu prosesinin strukturunu (məqsədin müəyyənləşməsi, indentifikasiya və problemin təhlili, alternativlərin seçilməsi və təhlili, qərarların qəbulu, icrasının təşkili və s.) əks etdirir.

Lakin məqsədli-proqram yanaşmanın müəyyənləşdirilməsində prinsip və metodikanın dəqiq göstərilməsinə baxmayaraq, dövlət həmişə onu mahiyyəti üzrə istifadə etmir. "Proqram” - federal dövlət səviyyəsində - qarşıda qoyulan məsələlərin həllində adi fəaliyyət növü sayılır.

Məsələn, 1977-ci ildə federal proqramların mündəricatında 1250-proqramın xarakteristikası göstərilərək, onların hüquqi, idarə, büdcə təzahürləri əks olunub. Lakin ümummilli məqsədlərə nail olmaqda edə biləcəkləri kömək göstərilməyib. Bu sənədlərdə proqram əsas məqsədə çatmaq üçün hər hansı agentliyin üzərinə düşən vəzifələrin icrası prosesində konkret problemlərin həllini nəzərdə tutan nizamlanmış fəaliyyət növüdür.

Hazırda konqres tərəfindən qəbul edilən vəsaitlərin bölmələr arasında bölüşdürülməsini nəzərdə tutan poroqramların və bölmələrin daxili fəaliyyətini istiqamətləndirən proqramların sayı müxtəlif olsa da, onların mütləq qarşılıqlı əlaqəsinin təmin olunmasına ciddi diqqət verilir. Dövlət vəsaitlərinin bölüşdürülməsinin ən yuxarı həddində nazirlik və agentlərə vəsaitlərin bölüşdürülməsi ilə paralel aparılan büdcə klassifikasiyasının əsasını ”federal büdcənin funksional kateqoriyaları” təşkil edir. Hər bir funksional kateqoriya alt funksiyalara bölünür və ondan da büdcə hesabları seçilir.

Burada ən aktual məsələ büdcə və proqram klassifikasiya elementləri arasında uzlaşdırma problemidir. Funksional kateqoriyalardan hər biri dövlətin idarəetməsinin yuxarı səviyyəsində proqram deyil-sadəcə prezident və konqres tərəfindən təsdiq olunan sənədlərdir. Lakin funksional kateqoriyalar çərçivəsində vaxtaşırı ümumiləşdirici sənədlər qəbul olunur ki, bu da dövlətin müvafiq proqramlı fəaliyyət sferasında siyasətini müəyyənləşdirməyə xidmət edir.

<u>B-Federal proqramların təşkili problemləri.</u>

“Proqramlı fəaliyyət sferasında” federal proqramların idarə olunmasının təşkili formaları ziddiyyətli faktorların təsiri altında yaranır. Əksər proqramların planlaşması və idərə olunma mexanizmi o qədər də səmərəli deyil. Bu sahədə təhlil göstərir ki, federal proqramların son məqsədə çatmaq üçün pis idarə olunmasının bir neçə səbəbi var:

1. Proqramların konkret ölçüsü olan məqsədləri yoxdur.
2. Son nəticəyə uyğun şəkildə federal resursların xərclənməsi və görülən işlərin uzlaşmasının vasitə və mexanizmləri yoxdur.
3. Proqramların nömrəli olması üçün dövlət məmurlarının real səlahiyyətləri və həvəsləndirici amillər müəyyənləşdirilməyib.

İndiyə kimi dövlət proqramlarının idarə olunma təcrübəsində real nəticələrlə yanaşı, bir çox problemlər yaranıb. Lakin daimi axtarışlar, sınaqlar nəticəsində böyük təcrübə əldə edilib.

Məqsədli-proqram metodunun tətbiqini məhdudlaşdıran odur ki, bir çox proqramlar “transfert ödəmələr”- 43%, əmanətlər üzrə federal dövlətin ”xalis ödəmələr”i - 7%, inzibati xarakterli xərclər 2% kateqoriyasına aiddir.

Dövlət proqramlarının formalaşması və tətbiqinin təşkili problemlərinin araşdırılmasının aşağıdakı proqram növləri səviyyələrində aparılması məqsədəuyğundur.

1. Federal resursların məqsədli-proqram bölüşdürülməsinin və istifadəsinin ümumi sistemi özündə a) federal büdcənin tərtibini, təhlilini, qəbul edilən prosedur mexanizmini; b) icra hakimiyyətinin, federal orqanların struktur və funksiyalarını, v) dövlət sifarişlərinin tənzimlənmə sistemini, q) proqramların təhlili və planlaşdırılmasını, onların icrasına nəzarət metodlarını; d) proqramların idarə olunmasının hüquqi informasiya təminatı formalarını; e) dövlət məmurlarının əmək haqları və həvəsləndirilmə sistemini əhatə edir.

2. Çoxsahəli milli proqramlar qanunvericilik yolu ilə təsdiq olunan çoxlu xüsusi proqramları özündə əks etdirir. Beləliklə onların tərtibində müəyyən ümumi siyasi baxış nəzərdə tutulur. Onların idarəolunma problemləri isə çoxməqsədli istiqamətinə və bölmələrarası icrasına görə daha mürəkkəbdir.

3. Daxili federal yardım proqramları federal hökumətin tədbirləri kompleksinə aiddir və onların vasitəsi ilə mülkiyyətin dəyişməsi, maliyyə vəsaitinin verilməsi və ya müxtəlif qurumlara (ştat, şəhər, qraflıq) xidmət göstərilməsi təmin olunur. Bu proqramlar xarakterinə görə çox müxtəlifdir və onlar kəskin sosial və iqtisadi problemlərin həllində ümumi istiqamətləri əks etdirir. Hal-hazırda 16 tip federal yardım proqramı var.

4. Regional inkişafın məqsədli proqramları əsasən federal subsidiyaların, ştatlara xüsusi kreditlərin (istehsal və sosial infrastrukturunun yaradılması üçün) ayrılmasını nəzərdə tutur. Regional proqramlar əsasən submilli inkişaf proqramlarının xəttilə həyata keçirilir və federal yardım proqramları çərçivəsində təbii, iqtisadi və insan resurslarının inkişafının həvəsləndirilməsinə yönəlir. Bu proqramların əksəriyyəti çoxsahəlidir və kompleks xarakter daşıyır.

5. Federal kontraktlar və layihələr. Dövlət ictimai-iqtisadi sistemdə ən iri mal və xidmətlər sifarişçisidir. Federal sifarişlərin yerləşdirilməsi, idarə olunması üçün iqtisadi, hüquqi inzibati-təsərrüfat tənzimlənməsinin çevik aləti-federal kontraktlar sistemidir (FKS). Onların formalaşması və reallaşmasında prezidentdən, konqressdən tutmuş bütün federal hökumət orqanlarına, yerli orqanlara qədər hamı iştirak edir. FKS çərçivəsində iqtisadi əlaqələrin spesifik sistemi yaranmışdır. Burada, bir tərəfdən, dövləti təmsil edən federal orqanlar, digər tərəfdən, xüsusi sektoru təmsil edən iri korporasiyalar iştirak edir. Bu sistem vasitəsilə istehsal, qeyri-istehsal yönümlü tədarüklər edilir, ştatlara federal subsidiyalar verilir, həm də federal kontrakt və layihələr formasında sifarişlər verilir. Bunlar federal proqramların xüsusi forması deyil, ümumi, çoxsahəli proqramların ayrılmaz hissəsidir. FKS üçün fəaliyyətin daha ciddi hüquqi tənzimlənməsi xarakterikdir. Hər kontrakt mütləq icra üçün hazırlanmış hüquqi sənəddir. Dövlət sifarişləri 4000-ə yaxın əsasnamə, akt və s. hüquqi sənədlərlə reqlamentləşdirilir.

6. Sahəvi və funksional təyinatlı proqramlar əsasən federal hökumətin tabeliyində olmayan istehsal firmaları, universitet və s. təşkilatların apardığı proqramlara təsir etmək

üçündür. Bu proqramlara ayrı-ayrı istehsal sahələrinin sürətli inkişafını təmin edən, xüsusi əhəmiyyətli obyektlərin tikintisinə nəzarət edən, istehlak mallarının keyfiyyətinin lazımi səviyyədə olmasını təmin edən, zəruri tədqiqatların aparılmasını təmin edən və s. proqramlar aiddir.

Göründüyü kimi, federal proqramlar çox geniş əhatə dairəsinə malikdir. Eyni zamanda, bu proqramların yaradılması və reallaşdırılması bazar iqtisadiyyatı şəraitində dövlətin resurs və səylərinin düzgün paylanmasının əsas təminatçısıdır. Federal proqramlar ABŞ-da ölkənin təbii, maddi, mənəvi-psixoloji potensialının səmərəli istifadəsinin təminatçısı olan Dövlətin ən ümdə vəzifələrini elmi cəhətdən əsaslandırılmış reallaşdırılması mexanizmidir.

Məhz bu baxımdan keçid dövrü yaşayan Azərbaycan respublikası üçün ABŞ-m bu təcrübəsi çox önəmlidir.

***Fransada indikativ planlaşdırma və proqnozlaşdırma təcrübəsi.***

Bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin özünə məxsus xüsusiyyəti onun qeyri-mərkəzləşdirilmiş qərar qəbuletmə sisteminə malik olmasıdır. Yəni burada müəssisələr iqtisadi fəaliyyət sahəsində qərar qəbuletmədə sərbəstdirlər, xarici iqtisadi fəaliyyət, maliyyə-kredit əməliyyatlarında sərbəstlik var. Qiymətlər tələb-təklifdən asılı olaraq sərbəst müəyyənləşir. Belə sistemdə mərkəzləşdirilmiş planlaşdırmanı 2 element zəruri edir:

1. Mərkəzi planlaşdırma orqanının bilavasitə nəzarət etdiyi iqtisadi alətlərin istifadəsini nəzərə almaqla qərarların hazırlanması;

2. Müxtəlif iqtisadi agentlərin qərarlarının və fəaliyyətinin koordinasiyasına şərait yaradılması.

1-ci element planlaşdırma, 2-ci element isə oyunlaı nəzəriyyəsinə əsaslanır. Bu cür fəaliyyət növlərini özündə əks etdirən sənədlərə indikativ planlar deyilir. İndikativ planlaşdırma mərkəzi orqan tərəfindən iqtisadi inkişafa təsir üçün direktiv qərarlardan fərqli vasitələrdən istifadə məqsədlərini nəzərdə tutur. Fərqli vasitələr əsasən belə təsnifləşir:

a) mərkəzi planlaşdırma orqanı tərəfindən iqtisadi inkişaf haqqında müxtəlif proqnozlarda daxil olmaqla müxtəlif informasiyaların yayılması;

b) müxtəlif iqtisadi agentlər arasında informasiya mübadiləsinə şərait yaradan fəaliyyətin qurulması;

v) qəbul olunan qərarların koordinasiyası məqsədilə təşkilati çərçivənin yaradılması.

Konkret iqtisadi siyasətin aparılması üçün, hətta klassik iqtisadi alətlərin istifadəsini nəzərdə tutmaqla məqsədlərin elan edilməsi həvəsləndirici və koordinasiyaedici effekt verə bilər.

İndikativ planlaşdırmanın klassik vətəni Fransadır. İndikativ planların yerinə yetirilməsi hətta hökumət və nazirlər üçün də, məcburi deyil. Onların əsas funksiyası iqtisadiyyatın arzu olunan inkişaf istiqamətlərinin bir neçə il üçün təsvir edilməsidir. Bu vaxt mərkəzi plan məhdudiyyət kimi yox, informasiya mənbəyi kimi qərar qəbul edənlərə ümumi nöqteyi-nəzərdən öz planlarının nə qədər mümkün ola bilən və istənilən olduğunu göstərir. İndikativ planlaşdırma konsepsiyasının inkişafına təsir edən şərtlərdən biri planlaşdırma fəaliyyətinin xüsusi forma kəsb etməsidir. Planlaşdırma fəaliyyətinin əsas məqsədi iqtisadi agentlər tərəfindən plan göstəricilərinə inam səviyyəsini artırmaqdır.

Çünki plan göstəriciləri həqiqətən baş verəcək hadisələrin proqnozu rolunu oynayır. Əgər proqnoz yüksək dərəcədə etibarlıdırsa, onda iqtisadi inkişafa ən yaxın təsiredici ola bilər.

Mərkəzi orqanlar planlaşdırmanı zəruri və etibarlı etməklə iqtisadi agentlər tərəfindən qəbulu üçün bir neçə üsul tətbiq edirlər:

1.Planların hazırlanmasında müxtəlif təşkilatların və iri müəssisələrin nümayəndələrinin geniş iştirakı sistemi formalaşıb. Müxtəlif komitə və komissiyalar planların müxtəlif aspektləri ilə məşğuldur. Əsasən istehsal, maliyyə, ticarət, sosial və s. problemlər üzrə komitələr və mərkəzi planlaşdırma orqanı arasında informasiya mübadiləsi baş verir. Eyni komitədə təmsil olunan dövlət və xüsusi müəssisələr arasında planların qarşılıqlı uzlaşması və razılaşması aparılır. Bu proses o vaxta kimi gedir ki, "iqtisadiyyatın gələcək inkişafı haqqında ümumi nöqteyi nəzər" tərtib olunur. Məs: "VI plan-dövlət siyasətinin və bütün fransız xalqının fəaliyyətinin istiqamətləndirici əsası" kimi xarakterizə olunub. Planların tərtibinə çoxlu mütəxəssis və təşkilatların cəlb olunması ona diqqətin artmasına kömək edir. Əgər planların hazırlanma prosesi açıq aparılsa, onda plana inam artar. Onda hər bir iştirakçı bilər ki, onun xüsusi planı digər iştirakçıların planları ilə uzlaşır və mərkəzi orqanın verdiyi göstəricilərə uyğundur. Planın hazırlanmasında iştirak edənlərin qarşılıqlı fəaliyyətinin lazımi nəticə verməsi üçün onlar arasında etibarlı kommunikasiya əlaqələri yaradılır, yəni dövlət məmurları ilə işgüzar adamlar eyni dildə danışırlar, partnyor olurlar.

2. Fransa planlarını digər planlardan fərqləndirən daha bir cəhət "xəbərdarlıq siqnalları" sistemidir. "Xəbərdarlıq siqnalı" metodunun mahiyyəti daha əhəmiyyətli iqtisadi göstəricilərin seçilməsi və onlar üçün planda normativ qiymətlər verilməsidir. Hər bir vahid üçün normadan maksimum kənarlaşma həddi müəyyən edilir və bu vahidi əks etdirən göstərici və yol verilə bilən kənarlaşma sərhəddi göstərilir. Hər hansı vahidin bu sərhədə yaxınlaşmasının qarşısını almaq üçün tədbirlərin görülməsi, o cümlədən planın hər hansı məqsədinin dəyişdirilməsi mümkündür. Yəni planda müəyyən strategiya nəzərdə tutulur və planın icrası bütün dövrlərdə öz əhəmiyyətini saxlayır. Məs: V-planda bu məqsədlər üzrə xəbərdarlıq siqnalının dəyişənləri - qiymətlərin ümumi səviyyəsi; xarici ticarət balansı; məcmu istehsalın artırılması; sənaye məhsulu istehsalı; istehsal investisiyaları; işsizlik və məşğulluluğun səviyyəsi kimi qəbul edilmişdir.

Bu dəyişənlərin hər biri üzrə göstəricilər müxtəlif üsulla təyin olunur. Qiymətlərin səviyyəsi üçün kritik göstərici Fransada qiymətlərin artım tempinin bir neçə ay üzrə onun əsas ticarət tərəfdaşları olan ölkələrdə qiymətlərin səviyyəsi ilə müqayisədə 1% artması sayılır. Xarici ticarətdə ixracın idxala nisbətinin ən aşağı göstəricisi nəzərdə tutulur. Göstəricilərin bəziləri normadan ən zəif kənarlaşmalar üçün həssas olur, digərləri isə əksinə heç bir həssaslıq göstərmirdi. Ona görə VI planda bu sistem modifikasiya olunub. Yenə də bir neçə dəyişənin planın yerinə yetirilməsi göstəricisi kimi müəyyən edilməsi nəzərdə tutulurdu. Lakin bu dəyişikliklər avtomatik şəkildə göstəricilərin və qərarların dəyişdirilməsinə şərait yaratmırdı. VI- planda planın icrasına nəzarət mexanizmi nəzərdə tutulurdu və bu da xüsusi tədbirlərin vasitəsilə planın yenidənqurulması və korreksiyası üçün imkan yaradırdı. Bu yenidənqurmalar müəyyən vaxtdan bir aparılırdı.

3. Fransız hökuməti başqalarından fərqli olaraq adi iqtisadi alətlərin tətbiqi üçün geniş imkanlara malikdir. Proqnozların indikativ effekti ilə yanaşı, adi alətlərin də tətbiqi uğurlu nəticələr verir. Adi alətlərin bilavasitə təsirini nəzərdə tutmayan, lakin indikativ effekti gücləndirən iqtisadi siyasət vasitələri kimi "plan kontraktları" mühüm rol oynayır. Bu cür kontraktlar sırf hüquqi mənada tərəfləri bir-birinə bağlamır. Bu sadəcə olaraq mərkəzi orqan və iri müəssisələr arasında niyyətlər üzrə, məqsədlər üzrə fikir mübadiləsi formasıdır. Qeyri-

mərkəzləşmiş şəraitdə fəaliyyət göstərən iqtisadi agentlər plana uyğun olan investisiya layihələri, qiymətlərin səviyyəsi və s. kimi öz niyyətlərini qeyd edə bilər. Hökumət isə, öz növbəsində iqtisadi prosesin digər iştirakçılarına bu niyyətlərə uyğun müxtəlif cür kömək formaları təklif edə bilər. Məs: hökumət əlverişli şərtlərlə kredit alınmasına şərait yarada bilər.

Fransız planlaşdırmasının bu xüsusiyyəti onu göstərir ki, plan bir neçə iştirakçılar arasında oyunu xatırladır.

4. Nəhayət, plan müəyyən mənəvi vəzifələr də daşıyır, planların tərtibində çoxlu müəssisə və adamların iştirakı ona qarşı marağı əks etdirir. VI planda qeyd olunur ki, VI planın hazırlanması üçün bütün ölkədə, bütün səviyyələrdə imkanların səfərbər olunması üçün əlverişli şərait yaratdı. Ən böyük nailiyyətlərin əldə olunması : fransız xalqından asılıdır. "Plan millətin özü-özü qarşısında bir növ vəzifələridir, öhdəliyidir". Fransız planlarının bir xüsusiyyəti də odur ki, burada iqtisadi hesabatlardan çox, sözlərlə yazılı şəkildə inkişaf prioritetlərinin ən üstün momentləri qeyd olunur. Bunun köməyi ilə : planın indikativ və psixoloji effektini artırmaq olar.

Fransa təcrübəsində indikativ planlaşdırmanın bir sıra zəif cəhətləri də vardır.

1. Qeyd olunduğu kimi fransız planlaşdırma metodu ayrı-ayrı müəssisələrin plan göstəricilərini mərkəzi orqanın plan göstəricisi çərçivəsində cəmləmək üçün məcburetmə kimi səciyyələnir. Bu onu göstərir ki, müəssisələr bazarı öz aralarında bölüşdürülməlidirlər, lakin bunu necə etmək göstərilmir. Çox vaxt komissiyalarda müxtəlif maraqları uzlaşdırmaq mümkün olmur. Məsələn, əgər hər hansı müəssisənin plan göstəricisində istehsal gücü digər müəssisələrin göstəricilərindən çox olsa, onda ümumi maraqlar naminə istehsal planı qısaldılmalıdır. Bütün bu hallar qeyri-bərabər inkişafa şərait yaradır və plana rəğbət hissini zəiflədir. Ona görə də öz fəaliyyətini mərkəzi orqanın istəklərinə uyğun uzlaşdırmaq üçün birgə adaptasiya prosesində iştirak həvəsi zəifləyir.

2. Bölüşdürülmə probleminin digər aspekti də inhisar sövdələşmələridir. Fransız iqtisadi siyasətinin tərtibçiləri bazar mexanizminin yaxşılaşdırılması üçün rəqabətin effektiv tənzimləyici rolunun genişləndirilməsini stimullaşdırılmağı zəruri hesab edirlər. Digər tərəfdən isə plan tərtibçisinin qaydalarına görə ayrı-ayrı müəssisələr öz planlarını mərkəzi planla uzlaşdırmağa çalışırlar. Bu məqsədə nail olmağın əsas vasitəsi danışıqlar, informasiya mübadiləsi və ayrı-ayrı komissiyalarda iştirakın təmin olunmasıdır. Firma nümayəndələri arasında danışıqlar isə rəqabətin inkişafına deyil, çox vaxt inhisarçı sövdələşmələrə səbəb olur.

3.Digər problem müxtəlif komissiyalar tərəfindən etibarlı informasiyaların verilməsidir. Qeyd olunduğu kimi, bazarların bölüşdürülməsi məsələsi informasiyaların verilməsində müəyyən taktiki addımların atılmasına əsas ola bilər. Bəzən müəssisələr mərkəzi orqanın niyyətlərini qabaqcadan bilərək öz planlarını çox şişirdirlər ki, müəyyən əlverişli imkanlar əldə etsinlər, geniş miqyas aldıqda isə belə informasiya mübadiləsi gözlənilməz vəziyyətlərə səbəb ola bilir.

4.Fransız iqtisadi sistemi xarici ticarətin tənzimlənməsi şəraitində daha effektiv fəaliyyət göstərə bilər, çünki açıq sistemdə komissiyalarda qərarlar qəbuluna aktiv təsir edə bilən xarici ixracatçı və idxalçılar iştirak etmir.

5.Yuxarıda şərh olunan indikativ planlaşdırma sistemi forması maraqların uzlaşdırılması və qarşılıqlı əlaqəsi fikrinə əsaslanır. Müasir şəraitdə baş verən dəyişikliklər fransız planlaşdırma sisteminin məhz bu dayaqlarını sarsıtdı. Həm də enerji böhranı

nəticəsində istehsalın kəskin azalması, işsizliyin səviyyəsinin xeyli artması planlara inamı xeyli sarsıtdı.

Qeyri-mərkəzləşdirilmiş şəraitdə qərar qəbuluna proqnozların təsiri.

Proqnozlaşdırma - müxtəlif iqtisad agentlər tərəfindən qəbul edilən qərarların koordinasiyasına yönələn fəaliyyətdir. Belə fəaliyyət planlaşdırma və iqtisadi siyasətin mühüm hissəsini təşkil edir. Proqnozları qabaqcadan açıqlanması proqnozlaşdırılan hadisələrin necə getməsinə təsir edə bilir. Sosial konteksdə proqnozlaşdırma təbii hadisələrin proqnozlaşdırılmasından fərqlənir. Çünki təbii hadisələrin proqnozu insan təfəkkürünün təsirinə məruz qalmır, insanların niyyətindən və onlarda olan informasiyadan asılı deyil. Bu baxımdan bir neçə mühüm sual yaranır:

1.Planlaşdırma baxımından iqtisadiyyatın lazımi istiqamət də inkişafı üçün proqnozların tətbiqi mümkündür. Ona görə proqnozu prinsipcə iqtisadi siyasət alətlərinə aid etmək mümkündür. Lakin bu praktikada adət olunmuş alətlərdən xeyli fərqlənir.

2. Əgər proqnozlar ehtimal olunan hadisəyə təsir edirsə, onda düzgün proqnoz vermək məsələsi də aktualdır. İlk baxışdan belə şəraitdə düzgün proqnoz vermək mümkün deyil. Tutaq ki, biz gələcək hadisələrin proqnozunu hazırlayırıq və bu proqnoz ən doğrudur. Onu mətbuata vermək olar. Bu vaxt qərar qəbul edənlər üçün əlavə olaraq informasiya yaranır. Onda onlar proqnoz verilmədən qabaqkı qərarlarından fərqli qərarlar qəbul edə bilərlər. Deməli, doğru sayılan proqnoz dərc olunduqdan sonra əhəmiyyətini itirmiş olur. Lakin proqnozist bu cəhəti əvvəlcədən nəzərə ala bilər və proqnozun tərtibində qeyd edə bilər. Onda onun hazırladığı proqnoz əvvəlkindən fərqli alınar. Qərar qəbul edənlər yenə də, əlavə informasiya əldə edərək öz qərarlarını dəyişə bilərlər. Proqnozist bu effekti də, sonrakı effektləri də nəzərə ala bilər. Proqnozlarla sistemin özünü aparması arasında qarşılıqlı əlaqə olduğunu qəbul edərək, biz məsələni daha dəqiq qoya bilərik. Bu vaxt nəzərə almaq lazımdır ki, proqnoz və dəyişənlərin faktiki qiymətləri eyni həll sisteminə daxildir. Ona görə də proqnozun tərtibində daha geniş sistemdən istifadə etmək lazımdır ki, proqnozların dəyişənlərin faktiki qiymətlərinə təsiri nəzərə alınsın. Daha korrekt proqnozların tərtibi məsələsi elə bir həllər sisteminin seçilməsi ilə üst-üstə düşür ki, burada dəyişənlərin proqnozlaşdırılan qiymətləri faktiki qiymətlərə uyğun gəlsin.

3. Birinci bənddə biz proqnozların iqtisadiyyata təsirini adi iqtisadi siyasət alətlərinin təsiri kimi səciyyələndirməyə çalışdıq. Lakin burada proqnozların korrekt olması şərti nəzərə alınmırdı. İkinci bənddə isə, korrekt proqnozlar problemi araşdırıldı. Bu iki problemin birgə araşdırılmasında növbəti məsələ ortaya çıxır. Əgər hazırlanan proqnozlara ancaq korrekt olmaq şərti qoyulursa, onda onlar iqtisadi inkişafa necə təsir edirlər? Bütün proqnozların həqiqi olmasına cəhd göstərməklə düzgün olmayan proqnozların dərc olunması nəticəsində yaranan sərbəstlik dərəcəsini nəzərə almırıq. Onda növbəti sual yaranır, ancaq korrekt proqnozların təsirindən yaranan vəziyyət heç bir proqnozların dərc olunmaması şəraitində olan vəziyyətdən nə ilə seçiləcək?

Yuxarıda şərh olunan məqamlar sosial-iqtisadi proqnozların əhəmiyyətinin birbaşa göstəriciləridir. Yəni belə proqnozların cəmiyyətin ümumi inkişafına təsiri, onların hazırlanmasının mürəkkəbliyini və çətinliyini şərtləndirir. Bu baxımdan Azərbaycanda Fransa təcrübəsinin nəzərə alınması çox önəmli olardı. Belə olduqda "fasiləsiz korreksiyalar" üsulu ilə hazırlanan, heç bir elmi hipotezə və strategiyaya əsaslanmayan və heç vaxt özünü

doğrultmayan proqnozlar “doğulmazdı” və İqtisadiyyat Nazirliyinin nüfuzuna son dövrlərdəki qədər xələl gəlməzdi.

## 4. İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL- İQTİSADİ İNKİŞAF SİYASƏTİNİN FORMALAŞDIRILMASI MEXANİZMİ HAQQINDA TƏKLİFLƏR

İqtisadi sistemin qlobal transformasiyası dövründə obyektiv və subyektiv səbəblərə görə iqtisadiyyatın idarəolunma səviyyəsi kəskin aşağı düşür. Planlı təsərrüfatçılıq formasından bazar münasibətlərinə keçilməsi saysız-hesabsız müstəqil təsərrüfat subyektlərinin yaranmasına gətirir. Belə subyektlər isə iqtisadi qərar qəbul etmə prosesində öz qərarlarının makroiqtisadi vəziyyətə təsirini nəzərə almağı heç də zəruri və ya mütləq hesab etmirlər.

Bu şəraitdə sosial-iqtisadi sistemin transformasiyası “xərclərinin” azaldılması, cəmiyyətə və dövlətə dəyə biləcək zərərlərin qarşısının alınması üçün ölkənin sosial- iqtisadi inkişaf siyasətinin milli-dövlət mənafeyi və maraqları, geopolitik vəziyyət nəzərə alınmaqla, müəyyənləşdirilməsi prinsipial əhəmiyyətə malikdir. Azərbaycan respublikası üçün həmin faktorların xüsusilə mühüm əhəmiyyətə malik olduğu bir sıra məlum məqamlarla şərtlənir. Ölkəmizin müstəqilliyinin yeni mərhələsinin başlanğıcı həddən artıq mürəkkəb iki iqtisadi problemin birgə həlli ilə səciyyələnir. Birinci və fikrimizcə, ən mühüm problem ölkənin bütöv, tam iqtisadi sisteminin yaradılmasından, ikinci problem isə iqtisadiyyatın idarə olunmasında mərkəzləşdirilmiş planlı təsərrüfatçılıq mexanizmindən bazar münasibətlərinə əsaslanan idarəetməyə keçməsindən ibarətdir.

Nəzərə alınmalıdır ki, eyni zamanda həll edilməli olunan bu problemləri bir sıra digər faktorlar: məcburi cəlb olunduğumuz müharibə və onun doğurduğu nəticələr (ölkənin iqtisadi potensialının 20%-nin itirilməsi, 1 milyondan artıq didərgin və qaçqının sosial-iqtisadi problemləri) on illərlə formalaşmış iqtisadi əlaqələrin, o cümlədən, texnoloji-kooperasiya əlaqələrinin bir anda qırılması; dünyaya və o cümlədən, ənənəvi, tanış bazarlara çıxış yollarında maneələr yaradılması və s. daha da dərinləşdirir və təbii olaraq onların həllini çətinləşdirir.

Yaranmış şərait müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının xüsusi formalaşdırılmış mexanizm vasitəsi ilə tənzimlənməsini və istiqamətləndirilməsini tələb edir.

Keçid dövrünün iqtisadi siyasət modeli (İSM) kimi təsəvvür edilən bu mexanizmin hüquqi əsasını Azərbaycan respublikasının Konstitusiyası və ölkə prezidentinin bazar münasibətlərinə əsaslanan iqtisadiyyat yaratmaq zəruriliyini elan edən iqtisadi strategiyası təşkil edir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Konstitusiyasına görə Prezident ölkənin bütövlükdə inkişaf modelini və onun ayrı-ayrı istiqamətlərini, o cümlədən, iqtisadi inkişafın strateji məqsədlərini müəyyən edir. Ali qanunvericilik orqanı olan Milli Məclis həmin məqsədlərin reallaşdırılmasının hüquqi-qanun vericilik bazasınm yaradılmasını, Nazirlər Kabineti isə müvafiq siyasətin həyata keçirilməsini təşkil etməlidir.

İnkişaf etmiş ölkələrin müvafiq təcrübəsi göstərir ki, ölkənin iqtisadi siyasətinin formalaşdırılması mexanizminin Konstitusion hüquqi əsasları onun iqtisadi məntiqini doğuran faktorlardan yalnız biridir. İqtisadi nəzəriyyə və beynəlxalq təcrübənin yaşadığımız XX əsrdəki evolyusiyası göstərir ki, daxili və xarici mənfi təsirlərə qarşı dayanıqlı, stabil idarəolunan və

proqnozlaşdırıla bilən iqtisadi inkişaf dövrləri yaşamış ölkələrin əlamətdar cəhətlərindən biri də onların iqtisadi siyasətlərinin yaranmış şəraitə adekvat formalaşdırılmasıdır.

İqtisadi quruculuğun elan edilmiş strateji məqsədini və mövcud reallıqları nəzərə alaraq hesab edirik ki, keçid dövrünün İqtisadi Siyasət Modelinin paradiqması aşağıdakı prinsipləri özündə etiva etməlidir:

- iqtisadi siyasətin vahidliyi, bölünməzliyi;
- iqtisadi siyasətin sistemliliyinin təmin olunması, ancaq bu halda ayrı-ayrı tədbirlərin qarşılıqlı gücləndirici multiplikator effektinə nail olmaq olar;
- iqtisadi siyasətin proqnozlaşdırıla bilən olması;
- iqtisadi məqsədlər və ya hədəflərin ardıcıllığının düzgün müəyyənləşdirilməsi, məqsədlər sırasının korreksiya olunması istisna edilməməlidir;
- sosial-iqtisadi inkişafın cari vəziyyətinin obyektiv qiymətləndirilməsi bu monitorinq vasitəsi ilə aparılmalı, tədbirlərin qabaqlama və gecikmə effektləri nəzərə alınmalıdır;
- iqtisadi siyasət keçid dövründə Dövlətin əlahiddə tənzimləmə rolunu nəzərə almalıdır.

Yuxarıda sadalanan prinsiplərin əsasında ölkənin iqtisadi siyasətinin formalaşdırılması üçün aşağıdakı təşkilati mexanizm təklif edilir:

Ölkə Prezidenti yanında Ali İqtisadi Şura (AİŞ) yaradılır. Onun tərkibinə iqtisadçı alim, tanınmış sahikar bankir olmaqla dörd müstəqil üzv, həmçinin iqtisadiyyat, maliyyə nazirləri və Milli bankın rəhbəri daxil olur. Şuranın sədri iqtisadçı alim olmaqla həll edici səs malik olur.

Ali İqtisadi Şura iqtisadi siyasətin strateji məqsədlərini, ölkənin beynəlxalq iqtisadi münasibətlərinin prinsiplərini və sosial siyasətin hədəflərini müəyyənləşdirərək Prezidentin illik iqtisadi Proqramını hazırlayır, iqtisadi inkişafa qiymət vermək üçün azsaylı çevik indikatorlar sistemini müəyyənləşdirir.

AİŞ öz işinə ölkənin müvafiq elmi-tədqiqat institutlarını, alim və mütəxəssisləri aktiv cəlb edir.

İqtisadiyyat Nazirliyi Prezidentin illik İqtisadi proqramına müvafiq olaraq AİŞ-in müəyyənləşdirdiyi hədəflərə çatmaq üçün cari makroiqtisadi siyasəti formalaşdırır, iqtisadi tənzimləmə rıçaqları-istehsal, investisiya, maliyyə-kredit, vergi, gömrük, xarici iqtisadi fəaliyyət, sosial təminat və regional iqtisadi siyasətin əsaslarını müəyyənləşdirir, ölkənin sosial-iqtisadi inkişafının cari və perspektiv vəziyyətini qiymətləndirir və proqnozlaşdırır.

Maliyyə, əmlak, vergilər, əmək və əhalinin sosial müdafiəsi nazirlikləri, Dövlət Gömrük, Qiymətli Kağızlar və Statistika Komitələri, Milli bank və digər dövlət iqtisadi idarəetmə orqanları Prezident proqramına müvafiq hazırlanmış İqtisadi Siyasətin makrosəviyyədə həyata keçirilməsini, digər sahə nazirlikləri və müəssisələrin müvafiq fəaliyyətinə nəzarəti təmin edirlər.

Ayrı-ayrı iqtisadi fəaliyyət sahələri, dövlət idarəetmə orqanları (nazirlik, şirkət və baş idarələr) öz sahələri üzrə dünya və ölkə təsərrüfat konyukturunun vəziyyəti və mümkün dəyişmələri haqqında iqtisadi və texnoloji proqnozları hazırlayır, AİŞ və İqtisadiyyat Nazirliyinə təqdim edir, sahələrində texniki siyasəti müəyyənləşdirir, iqtisadi siyasətin həyata keçirilməsinin metodoloji normativ bazasını formalaşdırırlar.

Nazirlər Kabineti nazirlik, şirkət və baş idarələrin iqtisadi idarəetmə fəaliyyətini tənzimləyir və nəzarət edir. Aparılan iqtisadi siyasətin qanunvericilik və metodoloji normativ bazasını təmin edir. AİŞ ilə birgə Milli Məclisə zəruri hesab edilən qanunvericilik təklifləri

verir, ayrı sahələrdə struktur-texniki və kadr hazırlığı siyasətinin həyata keçirilməsinə rəhbərlik edir.

Milli Məclis Prezidentin illik iqtisadi Proqram, tələbləri əsasında tərtib edilmiş Dövlət büdcəsini təsdiq edir, hökumətin təklif etdiyi qanunların qəbul olunmasını müzakirə edir və ölkədə liberal-demokratik iqtisadi fəaliyyət üçün zəruri hüquqi mühit yaradılır, yönümündə öz təşəbbüsü ilə digər iqtisadi qanun və qərarlar qəbul edir.

İqtisadi siyasətin formalaşdırılmasının təklif olunan prinsipləri və reallaşdırılma mexanizmi mövcud vəziyyətə nisbətən ilk baxışdan radikal xarakter daşısa da, dünya təcrübəsi və yerli xüsusiyyətləri, həmçinin, dayanıqsız qeyri-stabil keçid dövrünün dərin böhran keçirən iqtisadiyyatının özünəməxsusluqlarını nəzərə alma imkan verir. Fikrimizcə, ümumi məqsədimiz olan, iqtisadiyyatın tezliklə dirçəldilməsi üçün yuxarıda irəli sürülən təkliflərin geniş mütəxəssis qrupları ilə müzakirə olunması məqsədəuyğundur.

# 1990-cı illərdə ETİİ-nin əməkdaşları








## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Kərimova M., Hüseynova N.**
*Elmi fəaliyyətin struktur yenidənqurulması: problemlər və prioritetlər*
**Məmmədova B.**
*Akselator və multiplikatorun qarşılıqlı təsir modeli*
**İmanov E., Babaşov Ə., Dayıyev R.**
*İqtisadi islahatlar şəraitində əhalinin sosial müdafiəsinin təşkili məsələləri*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №2, Bakı 2001*

# ELMİ FƏALİYYƏTİN STRUKTUR YENİDƏNQURULMASI: PROBLEMLƏR VƏ PRİORİTETLƏR

**i.e.n. Kərimova M.**

*1976-2002-ci illərdə İİETİ-də iqtisadçı, kiçik elmi işçi, baş elmi işçi və elmi katib vəzifələrində işləyibdir.*

**Hüseynova N.**

*2001-2003-cü illərdə İİETİ-də işləyibdir.*

Bazar iqtisadiyyatına keçid şəraitində iqtisadiyyatın digər sahələrində olduğu kimi elm sahəsində də onun islahatlaşdırılması və struktur yenidənqurulmasına dair müxtəlif təkliflər irəli sürülür. Bunlardan elmi-tədqiqat müəssisələrinin və orada işləyənlərin sayının azaldılması, elmin, xüsusən də onun sahə sektorunun dövlət tərəfindən maliyyələşdirilməsinin ixtisarı, elmi-tədqiqat təşkilatlarındakı əsas fondların əksəriyyətinin başqa məqsədlərlə istifadə üçün özəlləşdirilməsi və s. göstərmək olar. Bizim fikrimizcə, bu təkliflərin əsasında elmi-tədqiqat institutları (ETİ) şəbəkəsinin həddən artıq genişliyi məsələsi durur. Belə ki, ETİ-nin ümumi sayına müxtəlif layihə-konstruktor təşkilatları, təcrübə-sınaq zavodları, elmi laboratoriyalar və s. daxil edilir. Ona görə də, məsələyə aydınlıq gətirmək üçün ETİ şəbəkəsinin sahələr üzrə strukturuna nəzər yetirək. Respublikada mövcud olan ETİ-nin təqribən 55%-i sahə sektorunun, 27%-i akademiya sektorunun, qalan hissəsi isə ali məktəb sektoruna aiddir.[1] Son illərdə elmi sahə sektorunun maliyyələşdirilməsinə yönəldilən xərclərin yarıdan çoxu büdcə vəsaitinin, təqribən 20%-ə qədəri təsərrüfat hesabına, qalan hissə isə sair mənbələr hesabına olmuşdur. Xərclərin ümumi strukturunda təsərrüfat hesablı xərclər, göründüyü kimi, azlıq təşkil edir, həm də bu xərclər əvvəlki illərə nisbətən azalmağa meyllidir. Təbii ki, bu vəziyyət iqtisadiyyatdakı böhranla əlaqədardır və ciddi mənfi nəticələrə gətirib çıxara bilər (yüksək ixtisaslı kadrların “axını” və s.). Son illərin məlumatları da bunu təsdiq edir. Məsələn, son 9-10 il ərzində bu və ya digər səbəblər üzündən sahə sektorunda çalışanların ümumi sayı 20%-ədək, elmlər doktorları və namizədlərin sayı isə 11%-ədək azalmışdır.

Sahə sektorundakı qeyri-qənaətbəxş vəziyyət onun strukturuna yenidən baxılmasını tələb edir. Fikrimizcə, ən əvvəl sahə sektorunun elmi-texniki potensialının hazırki vəziyyəti tədqiq olunub qiymətləndirildikdən sonra, elmi profillərinə, respublika elminin inkişafı üçün zəruri olan prioritet istiqamətlərinə və elmi potensialına görə sahə ETİ-nin hansılarının

---

[1] Sahə sektorunun ETİ-nin sayı 1990-cı illə müqayisədə 19,7% azalsa da, göründüyü kimi, elmi-tədqiqat təşkilatları şəbəkəsinin əsas hissəsini təşkil edir.

saxlanılması və ya ixtisar edilməsi məsələsinə baxıla bilər. Respublikanın gələcək inkişafı baxımından gərəkliliyinə görə onların maliyyələşməsi səviyyəsi (tam dövlət büdcəsi hesabına, qismən dövlət büdcəsi hesabına və tam öz hesabına) müəyyənləşdirilir.

Qeyd etməliyik ki, elmin sahə sektoru əsasən tətbiqi tədqiqatlarla məşğul olduğuna görə burada innovasiya faktorunun rolu böyükdür. Sahə sektorunun struktur dəyişməsində innovasiya profilli kiçik müəssisələrin, mərkəzlərin və şairənin yaranması və inkişafı himayə edilməlidir.

Respublika elminin ümumi strukturunda daha çox sahə sektorunun ETİ-nin əksəriyyəti keçmiş SSRİ-nin ümumi xalq təsərrüfatı kompleksinin maraqlarına uyğun olaraq formalaşdırılmış və onların respublika iqtisadiyyatına yönəldilməsi, istiqamətləndirilməsi məsələsi isə arxa plana keçirilmişdir.

Bu baxımdan ETİ şəbəkəsində bəzi elmi-tədqiqat institutlarının ixtisar edilməsi məsələsi qaçılmazdır. Əlbəttə ki, burada dövlət bu institutlarda mövcud olan yüksək səviyyəli kadr potensialında başqa sahələrdə maksimum səmərəli istifadə edilməsi qayğısına qalmalıdır. Bunların əvəzində ölkənin elmi-texniki və iqtisadi potensialının artmasına, geosiyasi və beynəlxalq maraqlarına xidmət edəcək elmi istiqamətlərlə məşğul olan ETİ-nin formalaşmasına şərait yaradılmalıdır.

Elm sisteminin hazırkı böhran vəziyyəti bir çox ETİ- nin digər respublikalarla ənənəvi elmi əlaqələrinin qırılmasına səbəb olmuşdur. Respublika elminin inkişafında və yenidən qurulmasında bu əlaqələrin bərpa olunması, həmçinin həmin ölkələrlə qarşılıqlı informasiya mübadiləsi, müvafiq kadrların ixtisasının artırılması, yeni elm sahələri üzrə gənc kadrlar hazırlığı və s. kimi məsələlər böyük əhəmiyyətə malikdir.

Bir sözlə, sahə sektorunun elmi-texniki potensialının strukturuna yenidən baxılması həllini tələb edən əsas məsələlərdəndir.

Qeyd edək ki, elmi sahəsindən kadr axınını müəyyənləşdirən əsas göstəricilərdən biri də burada çalışanların əmək haqqı səviyyəsidir. “Elm və elmə xidmət” sahəsində çalışanların orta aylıq nominal əmək haqqının ümumiyyətlə, iqtisadiyyat sahəsində çalışanlarınkına nisbəti 1990-cı ildə 126,6%, 1995-ci ildə təqribən 10,5%, 1999- cu ildə isə 108,8%-dir.

Sənayedə çalışanların əmək haqqına nisbətdə isə bu göstərici uyğun olaraq 1990-cı ildə 112,8%, 1995-ci ildə 72,7%, 1999-cu ildə isə 66,1% olmuşdur. Elmi dərəcəsi olmayan elmi işçilərin əmək haqqı səviyyəsi daha aşağıdır.[1] Qeyd etməliyik ki, aspirantların aylıq təqaüdünün miqdarı isə daha cüzi bir səviyyədədir (25000 man). Təbii ki, elm sahəsində çalışanların əməyinin ödənilməsindəki belə bir vəziyyət sahədən kadr axınının əsas səbəbi olmaqla yanaşı, elmə gənc kadrların cəlb edilməsinə də təminat verə bilməz. Buna görə də ETİ-nin və orada çalışanların sayının xeyli ixtisar edilməsi təklifinin tərəfdarları elə bu göstəriciyə əsaslanırlar.

Elmi-texniki potensialın əsas göstəricilərindən biri də onun kadr tərkibidir. Qeyd edək ki,“Elm və elmə xidmət” sahəsində çalışanların sayı 1990-cı ilə nisbətən 1995 ci ildə demək olar ki, 2 dəfəyədək azalmışdır. Həmçinin ölkə əhalisinin sayına nisbətdə də bu göstəricinin azalması meyli müşahidə olunur (1990-cı ildə 0,8%, 1999-cu ildə isə 0,4%}. Axır illər kadr göstəriciləri sistemində elmi tədqiqat və işləmələri yerinə yetirən işçilərin sayından istifadə edilir. Belə ki, 1990-cı illə müqayisədə o, 1999-cu ildə təqribən 17%, həmçinin tədqiqatçı və texniklərin sayı isə 36% azalmışdır. Təhlildən belə məlum olur ki, əvvəlki illərə nisbətən son illər “Elm və elmə xidmət” sahəsində elmi kadrların sayının bir qədər stabilləşməsi müşahidə

olunur. Elmlə məşğul olanların say tərkibinin səviyyəsinə təsir edən keyfiyyət göstəricisi kimi elmi kadrların yaş tərkibindəki dəyişiklikləri nəzərdən qaçırmaq olmaz. Elmi kadrların yaş tərkibinin 1999-cu ildəki axırıncı təhlili göstərir ki, elmi kadrların təqribən yarısı (43%-i) daha yaşlı həddə olanlardır (50-60 və 60-dan yuxarı). Bütövlükdə yüksək ixtisaslı elmi kadrların 30%-ə qədəri, elmlər doktorlarının isə demək olar ki, yarısı 60 və 60-dan yuxarı yaş həddində olanlardır. Təhlildən göründüyü kimi, vəziyyət belə davam edərsə, respublika elmi yaxın bir neçə ildən sonra yüksək ixtisaslı elmi kadrlar çatışmamazlığı problemi ilə üzləşəcəkdir.

Beləliklə, elmi kadrların yaş tərkibi elmin kadr potensialındakı uzun müddətli struktur dəyişikliklərini müəyyənləşdirən əsas faktorlardan biridir. Qeyd etmək lazımdır ki, ölkənin kadr potensialının "qocalması” prosesi islahatların keçirilməsi dövründə daha da güclənmişdir ki, bu da elm sahəsində çalışanların sayının azalması və elmə gənc alimlərin axınının cüzi səviyyəsi ilə əlaqədardır. Burada müqavilə əsasında müəyyən müddətə xarici ölkələrə işləməyə gedən yüksək ixtisaslı elmi kadrları da nəzərə almaq lazımdır.

Cədvəl 1.

| | 1990 | 1995 | 1999 |
|---|---|---|---|
| ÜMM-da ETTKİ-nə çəkilən xərclərin payı (%-lə) | 0,87 | 0,27 | 0,44 |
| EIm və Elmə xidmət” sahəsində çalışanların ə/h-nın iqtisadiyyatda çalışanların ə/h-na nisbəti | 126,6 | 110,5 | 108,8 |
| "Elm və elmə xidmət” sahəsində çalışanların ə/h-nın sənayedə çalışanların ə/h-na nisbəti | 112,8 | 72,3 | 66,1 |

Qeyd edək ki, kadr potensialının strukturundakı bu dəyişikliklər elmin sahə sektorunda daha çox özünü göstərir, belə ki, bir çox sahə ETİ-da yüksək ixtisaslı elmi kadrlara böyük ehtiyac vardır. Hesab edirik ki, respublikanın kadr potensialının struktur yenidən qurulmasında sahə sektorunda prioritet hesab edilən istiqamətlərin kadr potensialı ilə təminatı məsələsinə xüsusi fikir verilməlidir.

Bununla əlaqədar olaraq elmi kadrlar hazırlığı sisteminin də strukturunun təhlili maraq doğurur. Son illər aspirantların kəmiyyət sayını nəzərdən keçirsək görərik ki, onların sayı xeyli azalmışdır. 1995-ci ilə nisbətən 1999-cu ildə aspirantların ümumi sayı təqribən 29,3%, aspiranturaya qəbul olunanların sayı isə 2 dəfə azalmışdır. Həmçinin sahə və akademiya sektorunda bu azalma 34% təşkil etmişdir. Aspiranturanın buraxılış keyfiyyəti xeyli aşağıdır. Belə ki, 1999-cu ildə aspiranturanı bitirən 418 nəfərdən cəmi 23 nəfəri dissertasiya müdafiə edənlərdir. Onlardan 13 nəfəri sahə və akademiya sektorunun payına, 10 nəfəri isə ali təhsil müəssisələrinin payına düşür.

Elm sahələri üzrə aspirantların sayını nəzərdən keçirsək onların əksəriyyətinin texniki, filologiya və tibb sahəsinə düşdüyünü görərik. Həmçinin əzcaçılıq, baytarlıq və arxitektura sahələrində aspirantların sayı cüzi səviyyədədir.

Beləliklə, elmi kadrlar hazırlığının bu günkü vəziyyəti respublikada elmi əməyin nüfuzunun artırılmasına xidmət edən stimullaşdırıcı sosial tədbirlərin həyata keçirilməsini tələb edir. Əks halda yuxarı yaş həddindən olan elmi kadrların elmdən təbii axını, gənc alimlərin elm sahəsinə axınının getdikcə azalması və onların hazırlığı səviyyəsinin keyfiyyətcə

pisləşməsi yaxın gələcəkdə bu sahənin ixtisaslı elmi kadrlarla təminatında boşluq yaranmasına gətirib çıxaracaqdır.

Bundan başqa, bütün səviyyələrdə elmi kadrların və mütəxəssislərin hazırlığı prosesi onlara olan tələbatla qarşılıqlı əlaqədə həyata keçirilməlidir. Hazırda respublikada elmi kadrların, həmçinin gənc mütəxəssislərin müxtəlif ixtisaslar üzrə hazırlığında təkrarlanma meyli güclüdür. Belə ki, bəzi ixtisaslar üzrə kadr hazırlığı çoxluq təşkil etdiyi halda, digər ixtisaslarda çatışmamazlıqlar mövcuddur.

Problemin həlli ilk növbədə respublikanın elmi-texniki inkişafının ən prioritet istiqamətlərinin müəyyənləşdirilməsini, kadr hazırlığının bu istiqamətlərə daha çox yönəldilməsini və onlarda yerinə yetirilən elmi-tədqiqat işlərinə dövlət himayəsinin təmin olunmasını zəruri edir.

Bazar iqtisadiyyatına keçid dövründə bütün başqa sahələr kimi elm sahəsi də bazar iqtisadiyyatının tələb və qanunlarına uyğunlaşdırılmalıdır. Bu da ilk növbədə onun idarəetmə strukturunun təkmilləşdirilməsinə tələbat doğurur. Belə ki, hər hansı bir sahənin işinin səmərəliliyi onun qanunverici və icraedici idarəetmə strukturunun çevikliyi və təkmilliyindən çox asılıdır.

Respublikada elmi-texniki potensialın mövcud vəziyyəti onun idarəedilməsinin bütün səviyyələrdə vahid bir orqanda cəmlənməsini, bu sahədə bazar iqtisadiyyatına uyğun yeni iqtisadi münasibətlərin və idarəetmə funksiyalarının tətbiqini tələb edir. Burada idarəetmə orqanlarının əsas vəzifələrindən biri elmin sahə, ali məktəb və akademiya sektorları arasındakı əlaqələrin möhkəmləndirilməsidir.

Məlumdur ki, bazar iqtisadiyyatı elmi fəaliyyəti sahəsində də özəl strukturların yaranmasına rəvac verir. Respublikada artıq 17 özəl ali təhsil məktəbləri, tədqiqat və tətbiq xarakterli digər kiçik firma və şirkətlər fəaliyyət göstərir.

“İdeya-tədqiqat- tətbiq” tsiklinin müxtəlif mərhələlərində çevik xidmət göstərilməsində belə strukturların rolu böyükdür və onlar yenidənqurma prosesinin tələblərinə daha tez uyğunlaşırlar. Lakin respublikada az-çox mövcud olan bu cür strukturların fəaliyyəti hələ ki, yox dərəcəsindədir

Elm sahəsinin strukturunun yenidənqurulması şəraitində müxtəlif strukturların tabeçiliyində olan ETİ-rı özəlləşdirmə şəraitində qeyri-müəyyən bir vəziyyətdə qalırlar. Ona görə də, elm öz strukturuna və fəaliyyət növünə görə digər sahələrə bənzəmədiyindən elmi idarə və təşkilatların özəlləşdirilməsi öz profilinə uyğun hazırlanmış xüsusi proqram əsasında həyata keçirilməlidir.

Bazar iqtisadiyyatına keçid şəraitində elmi-texniki məhsullar bazarının formalaşması və inkişafı təbii bir prosesdir. Bunun üçün bir sıra mövcud şərtlər - ETİ-nin maliyyələşdirilməsində büdcə vəsaitlərinin üstünlüyü, hazır elmi-texniki məhsulların inzibati idarəetmə sistemindəki kimi istehsalçıya əvəzsiz ötürülməsi və ya məcburən qəbul etdirilməsi, tətbiq prosesində elmi tədqiqat müəssisələrinin maraqlı olmamaları və s. səbəblər aradan qaldırılmalıdır.

Elmi-texniki məhsullar bazarı özü ilə bərabər yeni fəaliyyət formalarının (mühəndis-nəzarət xidməti, elmi işlərin ekspertizası, “ideya - tədqiqat - tətbiq” tsiklinin tam işləməsinə xidmət edən vasitəçilik xidməti və s.) əmələ gəlməsini də şərtləndirir. Qeyd edək ki, son illər

respublikada qeydə alınan kifayət qədər ixtiraların tətbiq mərhələsinə gəlib çıxmaması bu cür strukturların işinin qeyri-qənaətbəxş olması ilə əlaqədardır.

Elmi-texniki məhsullar bazarının səmərəli fəaliyyətinə səbəb olan əsas istiqamətlərdən biri də marketinq tədqiqatlarının həyata keçirilməsidir. Bazar iqtisadiyyatına keçmiş ölkələrin təcrübəsi göstərir ki, burada marketinq tədqiqatları ETİ-nin fəaliyyətinin əsasını təşkil edir və elmə çəkilən xərclərin tərkibində onların payı heç də az deyil. Təəssüf ki, ölkəmizdə elmə ayrılan xərclərdə hələ ki, bu xarakterli xərclər nəzərdə tutulmur.

Yeni bazar münasibətlərinə keçid şəraitində "Elm və elmə xidmət" sahəsinin inkişafı məqsədilə elmi məhsullara olan tələbatın dövlət tərəfindən maksimum dərəcədə himayə edilməsi zəruridir. Bu isə elmi tədqiqatların maliyyələşdirilməsinə büdcədən ayrılan vəsaitlərin qanunvericiliklə müəyyənləşdirilmiş səviyyəsinə riayət edilməsi və ölkənin müdafiəsi məqsədilə ayrılmış vəsaitlərdə ETTKİ-nin payının artırılması yolu ilə mümkündür. Nəzərə almaq lazımdır ki, elmin islahatlaşdırılmasında elmi məhsullara tələbatın əsas mənbəyi kimi iqtisadiyyatın elm tutumlu sahələrinə aid olan böyük müəssisələr çıxış edir. Ona görə də yaxın bir neçə ildə fundamental tədqiqatların dövlət tərəfindən himayəsi məqsədilə onların maliyyələşməsində əsas rol dövlətə məxsus olmalıdır. Belə ki, sahə elminin təcili olaraq tam özünü maliyyələşmə sisteminə keçirilməsi belə ETİ-nin çoxunun tamamilə dağılmasına səbəb ola bilər. Bundan əlavə, fikrimizcə maliyyə-kredit təşkilatlarının "Elm və elmə xidmət" sahəsinə, yeni texnika və texnologiyaların tətbiqi ilə məşğul olan sənaye müəssisələri və elmi tədqiqat təşkilatlarına güzəştli kreditlərin verilməsi, məqsədli vergi qoymalar və s. üzrə mexanizm işlənib hazırlanmalıdır.

Həmçinin elmin islahatlaşdırılması şəraitində elm sahəsi üzrə dövlət statistik göstəricilər sisteminin təkmilləşdirilməsinə də böyük ehtiyac duyulur.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №2, Bakı 2001*

# AKSELERATOR VƏ MULTİPLİKATORUN QARŞILIQLI TƏSİR MODELİ

***i.e.n., dosent Məmmədova B.***

*1976-2009-cu illərdə İİETİ-də baş elmi işçi vəzifəsində işləyibdir.*

Keynsçiliyin ilkin şərtlərinə əsasən akselerator və multiplikatorun qarşılıqlı təsir modeli (Samuelson-Xiks) iqtisadi tarazlığın ekzogen təsir nəticəsində pozulması zamanı milli gəlir və investisiyanın dinamikası arasındakı qarşılıqlı təsiri müxtəlif variantlarda izah edir. Pul bazarları ilə tamamlanmış multiplikatorun və akseleratorun qarşılıqlı təsir modeli (Teves modeli) isə bank sistemində pul təklifinin dəyişilməsinin real sektorda baş verən konyunktur dalğalanmalarına təsirini əks etdirir.

**1.Samuelson-Xiks modeli.**

Samuelson-Xiks modelində konyukturun dalğalanması mexanizmi akselerasiya prinsipinə və multiplikator konsepsiyasına əsaslanılaraq izah edilir.

Samuelson-Xiks modeli yalnız mal və xidmətlər bazarını özünə daxil edir və qiymət səviyyəsi, mal və xidmətlərin nisbi qiymətləri və faiz dərəcəsinin sabitliyi fərziyyəsinə əsaslanır.

Keyns konsepsiyasına müvafiq olaraq təklifin tam elastik olduğu nəzərdə tutulur. Model dinamik olduğu üçün, bütün dəyişənlər zamanın funksiyalarıdır:

$$x_t = f(t) \qquad (1)$$

Ev təsərrüfatlarının istehlak həcmi onların əvvəlki dövrdə olan gəlirlərinin miqdarı ilə müəyyən edilir:

$$C_t = C_{a,t} + c_y y_{t-1} \qquad (2)$$

burada $C_a$ - avtonom istehlakdır.

Sahibkarlar induktiv investisiyanı həyata keçirməzdən əvvəl, məcmu tələbin artımının sabitliyinə əmin olmalıdırlar. Ona görə də, onlar induktiv investisiyanın həcminə dair qərar qəbul edərkən, məcmu tələbin (milli gəlirin) cari dövrdə yox, əvvəlki dövrdə olan artımına əsaslanırlar.

$$J_t^{in} = \gamma(y_{t-1} - y_{t-2}) \qquad (3)$$

İqtisadiyyatda tarazlıq vəziyyəti aşağıdakı halda yaranır:

$$y_t = (C_y + \gamma)Y_{t-1} - \gamma Y_{t-2} + A_t\,, \qquad (4)$$

burada $A_t$- avtonom tələbin ekzogen kəmiyyətidir.

(4) tənliyi gəlirin zamandan asılı dinamikasını təsvir edən qeyri-bircins 2-ci məcmu sonlu fərq tənliyidir.

Aydındır ki, avtonom xərclərin miqdarı sabit qalarsa (yəni $A_t$=A=Const), iqtisadiyyatda uzunmüddətli tarazlığa nail olunar. Bu halda milli gəlirin həcmi *y* müəyyən

səviyyədə stabilləşir, yəni $y_t = y_{t-1} = y_{t-2} = y_{t-n} = \bar{y}$ olur, burada n - avtonom xərclərin dəyişmədiyi miqdarının dövrlərin sayı.

(4)-dən alınır ki,

$$\bar{y} = A/(1-S_U) \qquad (5)$$

Uzunmüddətli tarazlığa nail olduqdan sonra avtonom tələbin miqdarı dəyişərsə, onda milli gəlirin dinamikası necə olacaq?

Bu məqsədlə qeyri-bircins sonlu fərq (4) tənliyini bircins tənliklə əvəz edək.

Aşağıdakı ifadəni daxil edək:

$$y_t - \bar{y} = \Delta y_t$$

yt və ȳ -in qiymətləri (4) tənliyinin bərabərliyini təmin etdiyindən, Δyt-yə görə aşağıdakı kimi sabit əmsalı 2-ci tərtib bircins sonlu fərq tənliyini yazmaq olar:

$$\Delta y_t = (C_v + \gamma)\, \Delta y_{t-1} - \gamma \Delta y_{t-2} \qquad (6)$$

$y_t = \bar{y} + \Delta y_t$, olduğu üçün, $y_t$-nin dəyişmə istiqamətini $\Delta y_t$ -nin dəyişmə istiqaməti ilə müəyyən edilir.

Differensial və sonlu fərq tənliklərinin həlli nəzəriyyəsi $\Delta y_t$ dəyişməsinin xüsusiyyətinin (1.2)-in xarakteristik tənliyinin diskriminantınm qiymətindən asılı olduğunu göstərir. Bu halda diskriminant $(C_y + \gamma)^2 - 4\gamma$ olduğundan, milli gəlirin dinamikasını multiplikatorun $(1/(1-C_y))$ və ya ($\gamma$) akseleratorun və yaxud istehlaka son meylin ($C_y$) qiymətləri müəyyən edir.




**Şəkil 1.1**

Əgər $(C_Y + \gamma)^2 - 4\gamma > 0$ olarsa, onda $y_t$ - monoton dəyişir.

Əgər $(C_y + \gamma)^2 - 4\gamma < 0$ olarsa, onda $y_t$ dalğalanır. Bu səlibdən, $(C_y + \gamma)^2 = 4\gamma$ funksiyasının qrafiki (şək. 1.1.-də OBD əyrisi) ilə $y_t$-nin monoton dəyişməsini təmin edən $c_y$ və $\gamma$-nin ala biləcəyi qiymətlərin kombinasiyaları çoxluğunu və dalğalanmasına gətirib çıxaran kombinasiyaların çoxluqları kimi iki yerə ayırır. $y_t$-nin qiymətinin hər hansı sonlu qiymətə yaxınlaşması və yaxud sonsuzluğa gedib-getməyəcəyi xarakteristik tənliyin sonuncu həddinin qiymətindən asılıdır.

Əgər $\gamma < l$ olarsa, onda $y_t$ müəyyən bir tarazlıq səviyyəsində qərarlaşacaq.

Əgər $\gamma > 1$ olarsa, bir dəfə pozulan tarazlıq bir daha əvvəlki halına düşə bilməyəcəkdir.

Əgər x=l olarsa, onda $y_t$ sabit amplituda ilə dalğalanacaq. Samuelson-Xiks modelinin proqramı tutulmuş və şərti misal əsasında yoxlanılmışdır.

**2. Teves modeli**

T.Teves modeli Samuelson-Xiks modelini faiz dərəcəsi vasitəsilə mal və xdmətlər bazarına təsir göstərən pul bazarı modeli ilə tamamlayır. Teves modelində pula tələbin dinamik

funksiyası aşağıdakı kimidir:

$$L_t = L_y y_{t-1} + L_i i_{max} - L_i i_t\ , \tag{7}$$

yəni, cari dövrdə sövdələşmə üçün pula tələb keçən dövrün gəlirindən, əmlak kimi pula tələb isə cari faiz dərəcəsindən asılıdır. Pul təklifi ekzogen verilir və M-ə bərabərdir.

Onda qiymətlərin səviyyəsi dəyişmədiyi halda (P= I) tarazlıq şərti pul bazarında aşağıdakı təkliklə təsvir olunur:

$$M = L_y y_{t-1} - L_i i_t\ , \tag{8}$$

burada $M = M - L_i i_{max}$.

Onu $i_t$-yə nəzərən həll edək:

$$i_t = \frac{L_y}{L_i} y_{t-1} - \frac{M^-}{L_i} \tag{9}$$

(8) bərabərliyi hər bir t üçün ödənildiyindən t üçün də doğrudur:

$$i_{t-1} = \frac{L_y}{L_i} y_{t-1} - \frac{M^-}{L_i} \tag{10}$$

Bu modeldə faiz dərəcəsi zamanın funksiyası olduğundan avtonom tələbin ümumi məbləğindən avtonom investisiyanın miqdarını faiz dərəcəsinin funksiya kimi ayırmaq lazımdır.

Ona görə də mal və xidmətlər bazarında tarazlıq tənliyi aşağıdakı şəklə düşür:

$$y_t = C_y y_{t-1} + \gamma(y_{t-1} - y_{t-2}) - I_i i_{t-1} + A'_t \tag{11}$$

burada $A'_t = A_t + I_i i_{t-1}$

(10) tənliyindən $i_{t-1}$ -in qiymətini (11) tənliyinə qoysaq:

$$y_t = C_y y_{t-1} + \gamma\ (y_{t-1} - y_{t-2}) + \left(\frac{M}{L_i} - \frac{L_y}{L_i} y_{t-2}\right) + A'_t \tag{12}$$

(12)-i çevirdikdən sonra alırıq:

$$y_t = (C_y + \gamma) y_{t-1} - (\gamma + l) y_{t-2} + A''_t \tag{13}$$

burada, $l = L_i L_y / L_t\ ;\ A''_t = A'_t = +M I_i / L_i$

(12) tənliyi səmərəli tələbin həcminin dinamikasının tənliyidir. (4) tənliyi kimi, bu da qeyri-bircins 2-ci tərtib sonlu - fərq tənliyidir və (4) tənliyindən yalnız $y_{t-2}$- nin əmsalının qiyməti ilə fərqlənir. Ona görə də, səmərəli tələbin həcminin dinamikası da $C_y$ və $\gamma$+l parametrlərinin qiymətlərindən asılıdır.

$4(\gamma + 1) = (C_y + \gamma)^2$ funksiyasının qrafiki $C_y$, $\gamma$+1 cütlüyünün $y_t$ səmərəli tələbin həcminin monoton dəyişməsinə səbəb olan qiymətləri çoxluğunu, onun dalğalanmasına səbəb olan qiymətləri çoxluğundan ayırır.

Mal və xidmətlər, pul və qiymətli kağızlar bazarlarında birgə dinamik tarazlığın dayanıqlılığı və dayanıqsızlığı $\gamma$ +1 parametrinin qiymətindən asılıdır.

Əgər $\gamma$+1<1 olarsa, onda tarazlıq dayanıqlıdır, əgər $\gamma$+1>1 olarsa, pozulan tarazlıq bir daha əvvəlki halına düşə bilməyəcək, $\gamma$+1=1 olduqda isə avtonom tələbin artımı kimi ekzogen təkan səmərəli tələbin öz tarazlıq qiyməti ətrafında sabit amplituda ilə sönməyən dalğalanmasına gətirib çıxaracaqdır.

Şəkil 2.1-də qeyd edilmiş $\gamma$=0,5 qiymətində $C_y$ və $\gamma$ cütlüyünün səmərəli tələbin dinamikasının xüsusiyyətini müəyyən edən müxtəlif çoxluqları göstərilmişdir:




**Şəkil 2.1.**

$C_y$=l xəttindən yuxarı yerləşən bütün nöqtələrin iqtisadi mənası yoxdur.

Teves modeli vasitəsilə konyunktur dalğalar tənzimlənməsində bank sisteminin rolunu göstərmək olar.

Teves modelinin proqramı tutulmuş və şərti misal əsasında yoxlanılmışdır.

ƏDƏBİYYAT

1. Кемпбелл Р.Макконнелл, Стенли Л.Брю. Экономикс, Изд-во Азербайджан, Баку, 1992 г.
2. Л.С.Тарасевич, В.М.Гальперин, П.И.Гребенников, А.И.Леусский., Макроэкономика, Изд-во С.-П. Гос.ун-та экономики и финансов, 1999 г.
3. Н.Грегори Мэнкью. Принципы экономике, Изд-во Питер Санк- Петербург, Москва, Харьков, Минск, 1999 г.
4. Учебник по основам экономической теории. Камаев В.Д. и коллектив авторов. Изд-во Владос , Изд-во МГУУ им. Н.Э.Баумана, М,1996 г.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №2, Bakı 2001*

# İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**i.e.n. Babaşov Ə.**
*1991-2015 -ci illərdə İİETİ-də kiçik elmi işçi, baş elmi işçi, bölmə və şöbə müdiri vəzifələrində işləyibdir.*

**i.ü.f.d. Dayıyev R.**
*2007-2009 -cu illərdə İİETİ-də baş laborant, iqtisadçı, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, elmi katib, şöbə müdiri vəzifələrində işləyibdir.*

**İmanov E.**
*1967-2021-ci illərdə İİETİ-də kiçik elmi işçi vəzifələrində işləyibdir*

Müstəqilliyin bərpasından sonra qəbul edilən Konstitusiya və digər qanunlar əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial müdafiəsinin tənzimlənməsi üçün tələb olunan ilkin hüquqi baza yaratmışdır. Bu qanunların qəbul olunmasında əsas meyar onun Avropa standartlarına müvafiq olması olmuşdur.

Bazar münasibətlərinə keçid dövründə əhalinin sosial müdafiəsi, bütün əhali kateqoriyalarının iş aktivliyinə onların üzərinə düşən çətinlik və ağırlıqların yüngülləşdirilməsinə istiqamətlənən qarşılıqlı tədbirlər məcmuyunu nəzərdə tutur. Ümumiyyətlə, islahatların aparıldığı dövrdə, sosial müdafiə sistemi ilk öncə cəmiyyətin zəif üzvləri olan ahıllar, əlillər, çoxuşaqlı ailələr, kimsəsizlər və xəstələrin müdafiəsini təmin etməyi nəzərdə tutmalıdır. Buna isə pensiyaların, müavinətlərin indeksasasiyası və ya vaxtaşırı artırılması, müxtəlif növ ərzaq talonlarının paylanması, nahar yeməyinin verilməsi və kömək növlərinin həyata keçirilməsi yolu ilə nail olmaq mümkündür. Cəmiyyətin zəif müdafiə olunan üzvlərin sosial müdafiəsində dövlətlə yanaşı, kommersiya müəssisələri, xeyriyyə təşkilatları və fondlar, ayrı-ayrı vətəndaşların yardımlarından da geniş istifadə etmək olduqca vacibdir.

Respublika iqtisadiyyatının inkişafı üçün çox əhəmiyyətli olan sosial siyasət - ölkənin inkişaf strategiyasında mərkəzi yer tutduğundan hazırki şəraitdə onun düzgün müəyyən edilməsi vacib problemlərdən biridir. Həmçinin, əhalinin müəyyən kateqoriyalarının həyat səviyyə və sosial müdafiəsinin tələb olunan normativlərdən aşağı olması sosial problemlərin kompleks şəkildə həll edilməsi zərurətini yaradır. Lakin aparılan sosial siyasətin qeyri-düzgün təşkili nəticəsində bir çox MDB ölkələri kimi respublikamızda da əhalinin ayrı-ayrı kateqoriyaları arasında kəskin təbəqələşmə yaranmışdır.

Məlumdur ki, sosial siyasət cəmiyyətin sosial stabilliyini müəyyən edən əsas problemlərin həllinə istiqamətlənməklə cəmiyyətdə gedən sosial təbəqələşmənin qarşısını hər vasitə ilə almalıdır. Çünki həddindən artıq təbəqələşmə kasıblığın artmasına zəmin yaradır. Ümumiyyətlə, sosial sfera sahələrinə (səhiyyə, təhsil, mədəniyyət ocaqları və s.) yalnız büdcə

xərclərini artıran sahələr kimi baxılmamalıdır. Bu sahələrdə (mənzil-kommunal təsərrüfatı da daxil edilməklə) islahatları həyata keçirmək üçün bütün mövcud mənbələr hesabına əhəmiyyətli maliyyələşdirilmə həyata keçirilməlidir. Fikrimizcə, yalnız bundan sonra sosial sahələrdə faktiki radikal islahatın həyata keçirilməsi mümkün olar. Əks təqdirdə islahatlar sahənin inkişafına yox, onun daha da pisləşməsinə gətirib çıxarar.

Bazar münasibətlərinə keçidi strateji məqsəd kimi qarşısına qoyan respublikamızda sosial sferada aparılan dahat, ölkə iqtisadiyyatının mühüm islahat istiqamətləmdən biri olmuşdur. İslahatların həyata keçirilməsində dövlət aşağıda sadalanan göstəricilərə nail olmağı qarşıya məqsəd qoymuşdur:

- iqtisadiyyatda stabil inkişafı təmin etməklə iqtisadi siyasətin sosial yönümlülüyünün artırılması;
- vətəndaşların əmək, sosial təminat, təhsil, səhiyyə və mədəniyyət sahələrində konstitusiya təminatı;
- əhalinin həyat şəraiti və maddi vəziyyətinin yaxşılaşdırılması;
- əhalinin səmərəli məşğulluğunun təmin edilməsi, işçi qüvvəsinin keyfiyyətinin və rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin təmin edilməsi;
- iqtisadiyyatda aparılan struktur dəyişikliyi prosesində işsizliyin azaldılması və yeni iş yerlərinin yaradılması;
- sosial sahələrdə islahatların sürətlə aparılması hesabına büdcə vəsaitləri xərclərinin səmərəliliyinin artırılması
- sosial məsələlərin həllində dövlətin və yerli özünüidarə orqanlarının səlahiyyət və cavabdehliklərinin dəqiq müəyyənləşdirilməsi.

1990-cı illərin birinci yarısında respublikada baş verən iqtisadi böhran nəticəsində əhalinin həyat səviyyəsi xeyli aşağı düşmüşdür. Eyni zamanda həyata keçirilən tədbirlər nəticəsində son 5 ildə bu sahədə müəyyən irəliləyişlər də baş vermişdir. Belə ki, 1995-ci ildən etibarən respublikada baş verən müsbət əhəmiyyətli dəyişikliklər sosial inkişafa da birbaşa təsirini göstərmişdir (cədvəl 1).

Cədvəl 1.

Azərbaycan Respublikasının sosial-iqtisadi göstəriciləri

| | 1995 | 1996 | 1997 | 1998 | 1990 |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Əhalinin pul gəlirləri (min man.) | 6702722,7 | 9525687,2 | 12367029,8 | 14423838,3 | 1613436'.0 |
| Adambaşına düşən pul gəlirləri (man) | 872193,9 | 1227046,8 | 1577775,8 | 1850871,1 | 2052299.8 |
| Əhalinin pul xərcləri (min man.) | 6378896,1 | 9265181,5 | 12056560,1 | 14662696,1 | 15922613.') |
| iqtisadiyyatda məşğul olan işçilərin orta aylıq əmək haqqı (man.) | 62467,4 | 89370,1 | 141643,4 | 168419,2 | 184367,5 |
| Ümumi daxili məhsul: cəmi, trln. manat, adambaşına, manat | 10,7 trln. 1410329,3 | 13,6 trln. 1787651,6 | 15,8 trln. 2045968,7 | 17,2 trln. 2207508,7 | 16,5 trln 2097090.1 |
| ÜDM-un indeks deflyatoru (keçən ilə nisbətən %-lə) | 645,8 | 126,5 | 109,2 | 94,4 | 93,9 |
| Son milli istehlak mln. man. | 10363487,7 | 13622000, | 13751000,0 | 16370400,0 | 1478480 |
| Ümumi yığım, mln. man. | 2536599,0 | 3962100,0 | 5406200,0 | 5740300,0 | 4983000.0 |
| Sənaye məhsulu, min man. | 8855950 | 11315428 | 12568618 | 11619738 | 11756610 |
| Dövlət büdcəsinin gəlirləri, mln. man. | 2078041,0 | 2492362,0 | 2565209,2 | 2327270,8 | 2748372,6 |
| ÜDM-da %-lə | 19,4 | 18,3 | 16,2 | 13,5 | 16,7 |
| Dövlət büdcəsinin xərcləri mln. man. | 2191894,1 | 2409323,0 | 2943531,9 | 2641708,7 | 3207991.0 |
| ÜMD-an %-lə | 20,1 | 17,7 | 18,6 | 15,4 | 19,5 |
| Dövlət büdcəsinin kəsiri mln. man. | -63853,1 | 83039,3 | -378322,7 | -314437,9 | -459618.1 |
| ÜDM-dan %-lə | 0,6 | 0,6 | 2,4 | 1,8 | 2,8 |
| Aylıq pensiyalar orta məbləğ man. | 17314 | 25540 | 41549 | 52574 | 61968 |

Əldə olunmuş müəyyən müsbət dəyişikliklərlə yanaşı respublikanın sosial sahələrini inkişaf etdirmək üçün hələ çox işlər görülməlidir və bu baxımdan əhalinin sosial müdafiə sisteminin təkmilləşdirilməsində əhəmiyyətli tədbirlərin həyata keçirilməsi geniş iqtisadi təhlilə əsaslanmalıdır.

Qeyd etmək lazımdır ki, sosial sahələrin inkişafına iqtisadiyyata investisiyaların cəlb olunması, sahibkarlığın inkişafı üçün lazımi şəraitin yaradılması və həmçinin bazar infrastrukturlarının stabil inkişafı da təsir edir.

Hal-hazırda respublika müəssisələrinin obyektiv və subyektiv səbəblər üzündən işləməməsi açıq və həmçinin gizli işsizliyi artırmışdır. Bu halda sosial siyasətin ən böyük vəzifəsi həmin vətəndaşların həyat səviyyəsini onların öz öhdəsinə buraxmamaqdır. Sosialist təsərrüfat sistemi dağıldıqdan sonra sosial problemlərin pisləşməsinin bu gün də davam etdirilməsinə yol verilməməlidir.

Müasir şəraitdə sosial müdafiə siyasəti əsasən dövlət büdcəsinin vəsaitləri hesabına tənzimlənir. Sosial problemlərin həllinə yönəldilən büdcənin bütün səviyyələrində (respublika, yerli büdcələr) maliyyələşdirmə vəsaitlərinin yaranması və istifadə edilməsi üçün yeni yanaş-

malar tətbiq edilsə də, hələ dövlət büdcəsi sosial inkişafı istənilən səviyyədə maliyyələşdirə bilmir. Bu baxımdan dövlət büdcəsi ilə yanaşı digər mənbələrdən də geniş istifadə olunması məqsədəuyğundur.

Məlumdur ki, əhalinin həyat səviyyəsi müxtəlif orta göstəricilərlə xarakterizə edilir. Təəssüf ki, hazırki şəraitdə bu göstəricilər cəmiyyətdə olan reallıqları əks etdirmir. Bu baxımdan, həyat səviyyəsini xarakterizə etmək üçün bu gün orta aylıq və orta illik göstəricilərdən istifadə etməyi düzgün hesab etmirik. Çünki orta göstəricilər əhalinin həyat səviyyəsinə görə təbəqələşməsini əks etdirmir. Təbəqələşməyə səbəb olan amillərdən biri də iqtisadiyyat sahələri üzrə əməyin ödənilməsi sahəsində yaranan kəskin fərqlərdir. Doğrudur, Dövlət Statistika Komitəsinin məlumatları göstərir ki, ölkədə orta aylıq əmək haqqı ilbəil artır. Belə ki, 1999-cu ildə iqtisadiyyatda məşğul olan işçilərin orta aylıq əmək haqqı 1995-ci ilə nisbətən 2,7 dəfə artmışdır. Lakin iqtisadiyyatın sahələri üzrə orta aylıq nominal əmək haqqını göstərən Cədvəl 2.-dən göründüyü kimi, bu gün sahələr arasında böyük differensasiya mövcuddur. Xüsusilə qeyd olunmalıdır ki, bu differensasiya ilbəil azalmaq əvəzinə artır ki, bu da öz növbəsində əhali arasında təbəqələşmə prosesinə öz təsirini göstərir. Cədvəldən göründüyü kimi 1990-cı ildə iqtisadiyyat sahələri üzrə orta göstəriciyə nisbətdə əmək haqqının ən aşağı səviyyəsi səhiyyə, bədən tərbiyəsi və sosial təminat sahəsində olmuşdur və bu göstərici bütün iqtisadiyyat sahələri üzrə orta göstəricinin 67,7%-ini təşkil etmişdir.

Cədvəl 2.

İqtisadiyyatın sahələri üzrə orta aylıq nominal əmək haqqı (manat)

| | 1990 | | 1995 | | 1998 | | 1998-ci il 1995-ci ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|
| | məbləğ | % | məbləğ | % | məbləğ | % | %-lə |
| İqtisadiyyat üzrə, cəmi | 19,5 | 100 | 62467,4 | 100 | 1681192 | 100 | 269,6 |
| Sənaye | 21,9 | 112,3 | 95556,7 | 153,0 | 277049,6 | 164,5 | 289,9 |
| Nəqliyyat | 21,6 | 110,8 | 98241,2 | 157,3 | 291028,4 | 172,8 | 296,2 |
| Rabitə | 17,5 | 89,7 | 83802,2 | 134,2 | 263576,0 | 156,4 | 314,5 |
| Tikinti | 29,1 | 149,2 | 98872,5 | 158,3 | 441595,1 | 262,2 | 446,6 |
| Ticarət və ictimai iaşə, maddi-texniki təchizat və satış, tədarük | 15,1 | 77,4 | 37518,7 | 60,1 | 75788,6 | 45,0 | 202,0 |
| Mənzil-kommunal təsərrüfatı və əhaliyə məişət xidməti | 14,1 | 72,3 | 49206,3 | 78,8 | 120925,0 | 71,8 | 245,7 |
| Səhiyyə, bədən tərbiyəsi və sosial təminat | 13,2 | 67,7 | 26303,6 | 42,1 | 70062,4 | 41,6 | 266,4 |

1998-ci ildə isə, ölkədə ən aşağı göstərici kənd təsərrüfatı sahəsində (43957,4 manat), ən yüksək göstərici isə tikinti sahəsində (441595,1 manat) olmuşdur. Hər iki sahənin maddi istehsal sahəsi olduğunu qeyd etsək və kənd təsərrüfatının inkişafının ölkə üçün nə qədər

əhəmiyyətli olmasını nəzərə alsaq, bu cür differensasiyanın yaranmasını mənfi hal kimi qiymətləndirmək lazımdır.

Son illər əhalinin təbəqələşməsində əhəmiyyətli rol oynayan başqa bir differensasiya meyli də müşahidə olunur. Bazar münasibətlərinin təşəkkülü ilə əlaqədar olaraq ölkə iqtisadiyyatında özəl sektorun payı artır, yeni iş yerləri yaranır və belə bir şəraitdə dövlət sektorunda işləyənlərin əmək haqqlarının səviyyəsi qeyri-dövlət bölməsində işləyənlərdən kəskin şəkildə geri qalır. Söhbət qeyri-dövlət bölməsində çalışanların əmək haqqlarının azaldılmasından getmir. Ancaq özəl sektorda işləyənlərin əmək haqqlarının yüksək olması məhsulun istehsal xərclərinin, son nəticədə isə qiymətlərin artmasına gətirib çıxarır. Bazarda isə bu məhsullar üzrə rəqabət olmadığından əhali həmin baha qiymətli məhsulu almağa məcbur olur. Bu isə əhalinin istehlak səviyyəsinin aşağı düşməsinə səbəb olur (cədvəl3).

1999-cu ildə səhiyyə və sosial xidmətlər sahəsində qeyri-dövlət mülkiyyətində olan müəssisələrdə orta aylıq əmək haqqı 247724,5 manat olduğu halda, dövlət mülkiyyətində olan müəssisələrdə əmək haqqı 50656,9 manat, başqa sözlə, qeyri-dövlətdəkindən 4,7 dəfə az olmuşdur. Əlbəttə bu da əhalinin təbəqələşməsinə səbəb olan amillərdən biridir. Eynilə belə bir kəskin fərqlər muzdlu əməklə sahibkarlıq fəaliyyəti arasında, əsas işçilərlə müəssisənin rəhbərliyi arasında da vardır.

Əhalinin təbəqələşməsinə açıq və gizli formada işsizlik, bəzilərinin heç bir yerdə işləməməsi (həm dövlət, həm də qeyri-dövlət müəssisələrində), əmək ödənişlərinin və transferlərin gecikdirilməsi və ödənilməməsi, özəl mülkiyyətdən alınan gəlirlərin həddindən artıq differensasiyalı olması, "kölgəli gəlirlər" və əməyin barter ödənişi və s. səbəb olmuşdur.

Son illər Azərbaycan Respublikasında və bütün MDB ölkələrində orta aylıq nominal əmək haqqı həm milli valyuta ilə və həm də ABŞ dolları hesabı ilə artmışdır. Bunu aşağıda verilmiş cədvəlin məlumatları bir daha təsdiqləyir.

Cədvəldən göründüyü kimi, 1998-ci ildə 1997-ci ilə nisbətən Azərbaycanda nominal əmək haqqı milli valyuta hesabı ilə 2,7 dəfə, ABŞ dolları hesabı ilə isə 3 dəfə artmışdır. Milli valyutanın ABŞ dollarına nisbəl dönərliliyi artmışdır.

Cədvəl 3.

1999-cu ildə dövlət və qeyri-dövlət sektorunda orta aylıq nominal əmək haqqı (manat)

| | Cəmi | O cümlədən | | Qeyri-dövlətin |
|---|---|---|---|---|
| | | Dövlət | Qeyri-dövlət | |
| Ölkə iqtisadiyyatı üzrə | 184367,5 | 165933,0 | 411699,0 | 248,1 |
| Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 65122,1 | 60210,3 | 77865,1 | 129,3 |
| Balıqçılıq | 53280,1 | 54320,2 | 31618,5 | 58,2 |
| Mədənçıxarma sənayesi və karxanaların işlənməsi | 630124,2 | 526826,9 | 1245641,5 | 236,4 |
| Emal sənayesi | 244087,1 | 234554,2 | 284821,2 | 121,4 |
| Elektrik enerjisi, qaz və su təchizatı | 222512,3 | 222559,8 | 91962,4 | 41,3 |
| Tikinti | 428473,2 | 377055,1 | 806843,4 | 213,9 |
| Topdan və pərakəndə satış | 117943,1 | 91786,7 | 173451,9 | 188,9 |
| Mehmanxanalar və restoranlar | 343351,1 | 72087,8 | 781557,3 | 108,4 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 249870,1 | 250505,5 | 242724,9 | 96,9 |
| Maliyyə vasitəçiliyi | 590960,9 | 635374,6 | 516285,8 | 81,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 274926,2 | 144864,3 | 1090497,3 | 75,3 |
| Dövlət idarəetməsi və müdafiə, məcburi social təminat | 148473,9 | 148234,6 | 205539,8 | 138,7 |
| Təhsil | 124544,9 | 123705,8 | 207349,6 | 167,6 |
| Səhiyyə və sosial xidmətlər | 52409,0 | 50656,9 | 247724,5 | 469,0 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 98737.3 | 92000.6 | 156564.1 | 170,2 |

Mənbə: DSK-nın məlumatları əsasında tərtib olunmuşdur

Cədvəl 4.

Milli valyuta ilə orta aylıq nominal əmək haqqı (ABŞ dolları hesabı ilə)

| | 1995 | | 1996 | | 1997 | | 1998 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Milli valyuta | ABŞ dol. | Milli valyuta | ABŞ dol. | Milli valyuta | ABŞ dol. | Milli valyuta | ABŞ dol. |
| Azərbaycan, manat | 63551 | 14,4 | 88064 | 20,5 | 141643 | 35,5 | 168419 | 43,5 |
| Belarus, min belarus rublu | 755,1 | 65,6 | 1212,2 | 89,3 | 2270,1 | 86,1 | 4635,2 | 95,3 |
| Gürcüstan, lari | 13,6 | 10,5 | 29,0 | 23,0 | 42,5 | 32,8 | 55,4 | 39,8 |
| Qazaxıstan, tenqe | 4801 | 78,8 | 6880 | 102,3 | 8417 | 111,6 | 9349 | 119,4 |
| Qırğızıstan, som | 368,2 | 34,0 | 490,9 | 38,3 | 680,2 | 39,2 | 840,6 | 40,1 |
| Moldava, ley | 143,2 | 31,8 | 184,9 | 40,2 | 222,1 | 48,1 | 250,4 | 46,6 |
| Rusiya, min rubl | 472,4 | 103,7 | 790,2 | 154,2 | 950,2 | 164,3 | 1049,3 | 108,1 |
| Tacikistan, tacik rublu | 731,0 | 6,8 | 2805 | 9,6 | 4975 | 8,9 | 8590 | 11,0 |
| Türkmənistan, manat | 6730,2 | | 66298 | | | | | |
| Özbəkistan, sum | 1066,0 | 35,0 | 2155,4 | 53,7 | 3214,9 | 48,4 | 4482 | 47,3 |
| Ukrayna, qriven | 7341,8 | 49,8 | 125,8 | 68,8 | 143,1 | 76,9 | 153,4 | 62,7 |
| Ermənistan, dram | 7060 | 17,4 | 9469 | 22,9 | 13581 | 27,7 | 18000 | 35,7 |

Mənbə: DSK-nın məlumatları əsasında tərtib olunmuşdur

Son illər əhalinin gəlirlərinin strukturunda da dəyişikliklər baş vermişdir. Gəlirlərin strukturunun ənənəvi növlərini təşkil edən əmək haqqı, pensiya müavinət və təqaüdlərin xüsusi çəkisi ilbəil azalmışdır.

Cədvəl 5.

Ev təsərrüfatında pul gəlirlərinin strukturu (%-lə)

| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999‘) |
|---|---|---|---|---|---|---|
| Gəlirlər | 100 | 100 | 100 | 100 | 100 | ıoo |
| o cümlədən: əmək gəlirləri | 69,3 | 35,4 | 36,5 | 40,0 | 39,7 | 34,<) |
| Sosial transferlər | 12,7 | 6,1 | 6,6 | 7,7 | 7,6 | 7,5 |
| Kənd təsərrüfatı məhsullarının satışından gəlir | 7,5 | 16,6 | 14,6 | 13,2 | 14,8 | 16,7 |
| Digər gəlirlər | 10,5 | 41,9 | 42,3 | 39,1 | 37,9 | 40,9 |

Mənbə: DSK-nın məlumatları əsasında tərtib olunmuşdur

Cədvəldən göründüyü kimi əmək gəlirlərinin xüsusi çəkisi 1990-cı ildəki 69,3%-dən, 1993-cü ildə 34,9%-ə qədər azalmış, sosial transferlər 12,7%-dən 7,5%-ə enmiş, kənd təsərrüfat məhsullarının satışından gəlirlərin xüsusi çəkisi isə müvafiq olaraq 7,5%-dən 16,7%-ə qədər artmışdır.

Ona görə də bu gün gəlirlərin formalaşması probleminin həlli siyasətində aşağıdakı istiqamətlərə xüsusi fikir verilməsini vacib sayırıq:

1.Əhalinin pul gəlirlərinin əsas mənbəyi və işçilərin əmək effektivliyinin mühüm stimulu olan əmək fəaliyyətindən alınan gəlirlərin rolu bərpa edilməlidir. 1999-cu ildə əhalinin adambaşına düşən pul gəlirlərinin strukturunda əmək haqqı 16,4% olmuşdur.

2.Gəlirlərin effektiv yoxlanmasının, o cümlədən vergi ödəyənlərin gəlirləri ilə onların faktiki xərclərinin uyğunluğunun həyata keçirilməsi və vətəndaşların gəlir və əmlakından fərdi vergitutma sisteminin təkmilləşməsi əsasında gəlirlərin daha ədalətlə bölüşdürülməsinin təmin edilməsi lazımdır.

3.Əmək, sahibkarlıq fəaliyyətindən və əmlakdan əldə edilən gəlirlərin həyat fəaliyyəti şəraitinin əsası olan mənzil şəraitinin, tibbi xidmətin, təhsil almağın yaxşılaşmasına sərf edilməsi və ondan sosial əhəmiyyətli proqramların həyata keçirilməsində investisiya və kredit mənbəyi kimi istifadə edilməsini stimullaşdırmaq lazımdır.

4.Respublikada mövcud olan güzəşt və kompensasiyaların təkmilləşdirilməli və onların verilməsinin əsaslandırılmasının yüksəldilməsinə nail olunmalıdır.

5.Yaşayış minimumu göstəricisinin ərzaq və qeyri-ərzaq mallarına, mənzil-kommunal, nəqliyyat, məişət, tibbi və s. xidmətlərə real xərcləri nəzərə alınmaqla hesablanma metodikası dəqiqləşdirilməli və ondan istifadə olunmasının qanunvericiliklə möhkəmləndirilməsi həyata keçirilməlidir.

Cədvəl 6.

| | Strukturu | |
|---|---|---|
| | manat | %-lə |
| Cəmi pul gəlirləri | 2052299,8 | 100,0 |
| Əmək haqqı | 337378,2 | 16,4 |
| Əmək haqqından başqa gələn gəlirlər | 18984,4 | 0,9 |
| Dvidentlər | 31,4 | 0,0 |
| Məhsul və əmtəə satışından daxil olan gəlirlər | 1290956,9 | 62,9 |
| Pensiya və müavinətlər | 146595,3 | 7,2 |
| Təqaüdlər | 1721,3 | 0,1 |
| Maliyyə sistemindən daxil olmalar | 4819,4 | 0,2 |
| Əhalinin xarici valyuta dəyişdirilməsindən gəlirlər | 150451,8 | 7,4 |
| Köçürmələr və akkreditiv əməliyyatı vasitəsilə alınan pullar | -45,6 | 0,0 |
| Sair gəlirlər | 101406,2 | 4,9 |

Mənbə: DSK-nın məlumatları əsasında tərtib olunmuşdur

Yaşlı nəslin sosial müdafiəsi də qarşıda duran ən mühüm və çətin məsələlərdən biridir. Belə ki, əhalinin sosial müdafiəsinin təmin edilməsinin əsas istiqamətlərindən biri də pensiya təminatıdır. Yuxarıda göstərildiyi kimi pensiyaçılar da əlillər, çox uşaqlı ailələr, yetimlər və işsizlər kimi cəmiyyətdə ən çox sosial müdafiəyə ehtiyacı olanlar təbəqəsinə aid edilir. Bu təbəqələrin hamısının sosial müdafiəyə ehtiyacı var və onların vəziyyəti bilavasitə ölkənin iqtisadi inkişaf səviyyəsindən və cari dövrün iqtisadi göstəricilərindən asılıdır.

Əmək qabiliyyəti yaşını adlamış ictimai statusuna görə dövlətin himayəsində olan pensiyaçıların sosial müdafiəsi pensiya ilə təmin olunmaq, sosial güzəştlər, pulsuz tibb xidməti, güzəştli məişət şəraitinin yaradılması vasitəsilə həyata keçirilir. Bu qrupa müxtəlif yaşlı adamlar, qanunvericilikdə müəyyən edilmiş qaydada dövlətin himayəsində olan digər vətəndaşlar da (əlillər və ailə başçısını itirmiş əmək qabiliyyəti olmayan şəxslər) daxil edilirlər. Fikrimizcə, bu qrupa daxil olan vətəndaşlara dövlət tərəfindən xüsusi diqqət verilməlidir. Eyni zaman da, pensiya təminatı sistemi yaşayış minimumu göstəricisinə tədricən yaxınlaşdırılmaqla həyata keçirilməlidir. Nəzərə almaq lazımdır ki, pensiya təminatının iqtisadi mahiyyəti dövlətin təşəkkülündə iştirak edən bütün iqtisadi kateqoriyaların birgə təzahürüdür. Əgər pensiya təminatı sistemində hər hansı bir dəyişiklik aparılması zəruri hesab edilirsə, onda əmək haqqının səviyyəsi, vergi sistemi, demoqrafik vəziyyət və əmək bazarının vəziyyəti, yaşlı nəslə münasibətdə mədəni və milli ənənələr mütləq nəzərdən keçirilməlidir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının pensiya təminatında islahatların aparılması üçün qanunvericilik bazası yaradılmışdır. Bu məqsədin "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanunu, "Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanunu, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Pensiya sahəsində aparılan islahatlar qarşıya aşağıdakı məqsədləri qoymuşdur:

- Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş vətəndaşların sosial təminat hüququnun həyata keçirilməsi;
- Pensiya təminatı sisteminin maliyyə sabitliyinin təmin edilməsi.

Dövlətin qarşısında duran ən mühüm sosial-iqtisadi problemlər sırasında əhalinin pensiya təminatı xüsusi yer tutur. Son illər həyata keçirilən sosial-iqtisadi islahatların bir mühüm qanadını da bu məsələ təşkil edir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 1999-cu ilin axırına respublikamızda 1202 min nəfər pensiyaçı mövcud olmuşdur. 7N°-li cədvəldə onların strukturu verilmişdir.

Cədvəl 7.

Pensiyaçıların sayı (ilin axırına, min nəfər)

| | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999-cu ilin 1993-cü ilə nisbəti |
|---|---|---|---|---|---|---|---|
| Pensiyaçıların sayı | 1251/100 | 1227 | 1245 | 1206 | 1177 | 1202/100 | 96,1 |
| O cümlədən qocalığa görə | 797/63,7 | 786 | 752 | 737 | 727 | 737/61,3 | 92,5 |
| Əlilliyə görə | 171/13,7 | 174 | 167 | 161 | 155 | 160/13,3 | 93,5 |
| Ailə başçısının itirilməsinə görə | 157/12,5 | 147 | 181 | 160 | 148 | 139/11,6 | 88,5 |
| Sosial pensiyalar və xidmət illərinə görə | 126/10,1 | 138 | 145 | 148 | 147 | 166/13,8 | 131,7 |

Mənbə: DSK-nın məlumatları əsasında tərtib olunmuşdur

Cədvəldən göründüyü kimi, respublikamızda pensiyaçıların ümumi sayından 739 min nəfəri, yəni 61,3%-i qocalığa görə, 160 min nəfəri (13,3%-i) əlilliyə görə, 139 min nəfəri (11,6%-i) ailə başçısını itirməsinə görə, 166 min nəfər (13,8%-i) isə sosial pensiya və xidmətlərinə görə pensiya alanlardandır. Qeyd etmək istərdik ki, son illərdə pensiya təminatı sistemində əsaslı islahatların həyata keçirilməsi sahəsində fəal siyasətin aparılmasına, başlanılmışdır.

1997-ci il 13 iyun tarixdə qəbul olunmuş "Vətəndaşların pensiya təminatı haqqında Azərbaycan Respubli kasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Qanun qəbul edilmişdir. Əvvəllər pensiyaya çıxmış şəxslərlə sonralar pensiyaya çıxanların pensiyası arasındakı uyğunsuzluq aradan qaldırılmış, sosial ədalət prinsipi müəyyən qədər təmin edilmişdir. Beynəlxalq təcrübəyə əsaslanaraq 2000-ci il avqustun 1-dən pensiya yaşı kişilər üçün 62 yaş, qadınlar üçün isə 57 yaş müəyyən edilmişdir.

1998-ci ilin 1 avqust tarixindən etibarən pensiyaların məbləğinin respublikada olan minimum əmək haqqının bağlılığı qaydası ləğv olunmuş və bunun əvəzində respublikanın sosial-iqtisadi inkişaf səviyyəsinə uyğun mexanizm tətbiq edilmişdir. Yəni pensiyanın həcmi Nazirlər Kabinetinin təsdiq etdiyi orta aylıq əmək haqqını müvafiq olaraq hər ilin əvvəlində təzədən hesablanmalıdır.

Yuxarıda sadalanan tədbirlərin nəticəsində təyin olunmuş aylıq pensiyaların orta məbləği hər il tədricən artmışdır (Cədvəl 8).

Cədvəldən göründüyü kimi son illər ən çox artım sosial və əlillik pensiyalarında olmuşdur. Bununla yanaşı, qeyd etmək lazımdır ki, 1998-ci ildə Azərbaycan Respublikasında pensiyaların ABŞ dolları ilə ifadə olunmuş orta məbləği keçmiş İttifaqın respublikaları -

Tacikistan, Gürcüstan, Moldava, Qırğızıstan respublikalarından irəlidə olsa da, digər respublikalardan geri qalmaqdadır (Cədvəl 9).

Qiymətlərin qalxmasının nəticələrini yumşaltmaq üçün həyata keçirilən kompensasiya tədbirləri, pensiya təminatında olan məhdudiyyətlər vətəndaşların pensiya təminatı ilə hərbi qulluqçuların pensiya təminatı istisna olmaqla, qalan bütün differensasiyaları demək olar ki, aradan götürmüşdür. Bununla belə pensiyanın orta məbləği ilə qiymətlərin yüksəldilməsi arasında baş verən dəyişiklik pensiyaçıların maddi vəziyyətini daha da pisləşdirmişdir. Buna, həm də pensiyanın minimum məbləğinin minimum yaşayış səviyyəsindən on dəfələrlə geri qalması da öz tə'sirini göstərmişdir.

Cədvəl 8.

Təyin olunmuş aylıq pensiyaların orta məbləği (ilin axinna manat)

| | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999-cu il 1995-ci ila nisbətən %-la |
|---|---|---|---|---|---|---|---|
| Pensiyaların orta məbləği | 1826 | 17314 | 25540 | 41549 | 52574 | 64968 | 375,2 |
| O cümlədən qocalığa görə | 1956 | 19201 | 29690 | 51198 | 61510 | 73049 | 380,4 |
| Əlilliyə görə | 1824 | 16139 | 20359 | 38419 | 51721 | 67481 | 418,1 |
| Ailə başçısının itirilməsinə görə | 1457 | 13227 | 19208 | 15742 | 27134 | 38384 | 290,2 |
| Sosial pensiyalar və xidmət illərinə görə | 1175' | 10038 | 12051 | 20266 | 31525 | 45992 | 458,2 |

Mənbə: DSK-nın məlumatları əsasında tərtib olunmuşdur

Cədvəl 9.

Aylıq pensiyaların orta məbləgi (ABŞ dolları hesabı ila)

| | 1995 | | 1996 | | 1997 | | 1998 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Milli valyuta vahidi | ABŞ dol. ila | Milli valyuta vahidi | ABŞ dol. ila | Milli valyuta vahidi | ABŞ dol. ila | Milli valyuta vahidi | ABŞ dol. ila |
| Azərbaycan (manat) | 17314 | 3,9 | 25540 | 6,2 | 44220 | 11,4 | 55872 | 14,4 |
| Belarus (min belarus rublu) | 387,2 | 33,7 | 565,6 | 36,5 | 1204 | 39,6 | 2580 | 24,1 |
| Gürcüstan (lari) | - | - | 10 | 7,8 | - | - | 15 | 8,3 |
| Qazaxıstan (tenqe) | 1876 | 29,3 | 3283 | 44,8 | 3554 | 47,0 | 3772 | 45,0 |
| Qırgızistan (soş) | 197 | 17,5 | 247 | 14,8 | 307 | 17,6 | 378 | 12,9 |
| Moldava (ley) | 64 | 14,2 | 7,9 | 16,9 | 83 | 17,7 | 84 | 10,1 |
| Rusiya (min rubl) | 242,6 | 52,5 | 320,1 | 57,6 | 366,4 | 61,7 | 402,9 | 19,5 |
| Tacikistan tacik rub | 680 | 2,4 | 876 | 2,7 | 1062 | 1,4 | 3019 | 3,1 |
| Turkmənistan (manat) | 3970 | - | 60046 | 14,8 | 61434 | 14,7 | 97000 | 18,7 |
| Özbəkistan (sum) | 780 | 21,7 | 1472 | 26,9 | 1927 | 24,2 | 2992 | 27,2 |
| Ukrayna (qriven) | 3871 | 21,6 | 52 | 27,5 | 52,2 | 27,5 | 60,7 | 17,7 |
| Ermənistan (draş) | 7060 | 17.4 | 9469 | 22,9 | 13581 | 27,7 | 1 8000 | 35,7 |

Mənbə: DSK-nın məlumatları əsasında tərtib olunmuşdur

Düzdür, 90-cı illərin ikinci yarısından qəbul edilmiş tədbirlər nəticəsində pensiyanın minimum məbləği ilə minimum yaşayış səviyyəsi arasında olan fərq nisbətən yumşaldılmışdır. Qeyd etmək istərdik ki, bu işə son illər qəbul edilmiş normativ hüquqi aktlar da öz müsbət təsirini göstərsə də, bu sahədə xeyli işlərin görülməsi vacibdir.

Dövlətin iqtisadi siyasətinin ən vacib tərkib hissəsinin əhalinin rifah halının yaxşılaşdırılması olduğunu nəzərə alsaq, yaxın gələcəkdə aparılan iqtisadi siyasətin sosial yönümlülüyü təmin edilməklə əhalinin sosial müdafiəsi sahəsində ciddi işlər görülməli və həmçinin bu siyasət real iqtisadi şəraitə uyğunlaşdırılmalıdır.

# İqtisadi İslahatlar Mərkəzinin əməkdaşları

# (2002-2004-cü il)









## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**RÜSTƏMOV V.**

*Azərbaycan Respublikasında ixrac potensialının inkişafı və ixracın stimullaşdırılmasının konseptual əsasları*

**Əyyubov M.**

*Azərbaycan Respublikası milli təsərrüfatında investisiya siyasətinin bəzi metodoloji məsələləri*

**Hacıyev N.**

*Respublikadaxili iqtisadi rayonlarda sahibkarlığın inkişaf istiqamətləri*

*Azərbaycanda iqtisadi islahatların həyata*
*keçirilməsi xüsusiyyətləri və problemləri.*
*Elmi əsərlər toplusu. №3, Bakı 2002*

# AZƏRBAYCAN RESPUBLİKASINDA İXRAC POTENSİALININ İNKİŞAFI VƏ İXRACIN STİMULLAŞDIRILMASININ KONSEPTUAL ƏSASLARI

***i.ü.f.d., dosent Rüstəmov V.***

*2004-2006 -ci illərdə İİETİ-də*
*direktor vəzifəsində işləyibdir*

Artıq bu dərk olunmuş bir həqiqətdir ki, müasir dövrdə ixrac potensialının inkişafı və onun səmərəli realizasiyası üçün əlverişli şərait yaratmadan hər hansı bir ölkədə davamlı iqtisadi inkişafa nail olunması mümkün deyildir.

Bu məsələnin postsovet ölkələri, o cümlədən Azərbaycan Respublikası üçün əhəmiyyəti isə daha böyükdür. Belə ki, bu ölkələrdə ixrac potensialının inkişaf etdirilməsi əsasında ixracın həcminin artırılması iqtisadiyyatın yenidənqurulması ilə əlaqədar investisiya qoyuluşlarının maliyyələşdirilməsi və idxal olunan mal və xidmətlərin haqqının ödənilməsi üçün zəruri olan sərbəst dönərli valyuta vəsaitlərinin əldə olunması mənbəyi kimi də mühüm əhəmiyyət kəsb edir.

İxrac potensialının inkişafının zəruriliyi və onu şərtləndirən səbəblər haqqında klassik və müasir beynəlxalq ticarət nəzəriyyələrində geniş bəhs edilmişdir. Klassik nəzəriyyələrdə bu səbəblər daha çox ayrı-ayrı ölkələrin təbii şəraitin müxtəlifliyi və malik olduqları istehsal amillərinin kəmiyyət və keyfiyyətcə fərqlənməsilə şərtlənən üstünlüklərlə (A.Smitə görə mütləq üstünlüklərlə, D.Rikardoya görə isə müqayisəli üstünlüklərlə) əlaqələndirilir. Bu nəzəriyyələrə əsasən ölkələr istehsalında üstünlüyə malik olduqları amillərdən daha çox istifadə olunan məhsulların istehsalı və ixracı üzrə ixtisaslaşmalıdır.

Lakin, müasir dövrün xüsusiyyətləri göstərir ki, hər hansı bir ölkədə ixrac potensialının inkişafı, təkcə həmin ölkənin üstünlüyə malik olduğu istehsal amillərinin təsərrüfat dövriyyəsinə daha çox cəlb edilməsi ilə məhdullaşdırıla bilməz. Burada həmçinin elmi-texniki tərəqqi (ETT), beynəlxalq ticarət-iqtisadi əlaqələrin inkişafı, beynəlxalq əmək bölgüsünün (BƏB) dərinləşməsi nəticəsində meydana çıxan üstünlüklərə də xüsusi diqqət yetirilməlidir.

Klassik nəzəriyyələri inkişaf etdirən iqtisadçılar bu amilləri nəzərə alaraq, yeni, müasir ticarət nəzəriyyələrində əks etdirmişlər. Bunlar içərisində əsas yeri beynəlxalq rəqabət üstünlükləri, texnoloji üstünlüklər və məhsulun həyat dövrü nəzəriyyələri tutur.

Beynəlxalq rəqabət üstünlükləri nəzəriyyəsində (M.Porter) ölkələrin və ya firmaların ixrac potensiallarını inkişaf etdirə bilmələri onların malik olduqları rəqabət üstünlükləri ilə əlaqələndirilir. Rəqabət üstünlükləri isə istehsal amillərinə görə üstünlüklərə yanaşı, bir çox digər şərtlərlə müəyyən olunur.

Texnoloji üstünlüklər nəzəriyyəsi (M.Poznerj müxtəlif ölkələrdə idarəetmə və istehsal prosesində meydana gələn texnoloji yeniliklərin ixrac potensialının inkişafında doğurduğu nəticələrin izahına yönəlmişdir. Bu nəzəriyyə əsaslandırır ki, texnoloji yenilik ayrı-ayrı

ölkələrdə istehsal prosesləri arasında fərqlərin yaranmasına gətirib çıxarır və bunun nəticəsində yenilikçi ölkə müqayisəli üstünlük qazanır. Başqa sözlə, yeni texnologiya digər ölkələrə yayılana qədər yenilikçi ölkə müvəqqəti olsa da müvafiq malın istehsalı və ixracında inhisarçı mövqeyə malik olur və bununla da özünün ixrac potensialının inkişafını təmin etmək imkanı əldə edir.

Məhsulun həyat dövrü nəzəriyyəsinə (R.Vernon) görə, ölkənin hər hansı bir məhsulun ixracı üzrə ixtisaslaşması ilə məhsulun həyat dövrünün müxtəlif mərhələləri arasında müəyyən asılılıq mövcuddur. Belə ki, hər bir ölkə məhsulun həyat dövrünün ayrı-ayrı mərhələlərindən asılı olaraq meydana gələn müvəqqəti üstünlüklərdən istifadə etməklə özünün ixrac potensialını inkşaf etdirə bilər. İnkişaf etmiş ölkələr (İEÖ) ixtisaslı işçi qüvvəsi, qabaqcıl texnologiya və geniş kapital ehtiyatları kimi amillər üzrə malik olduğu üstünlüklərdən istifadə etməklə yeni məhsulun istehsalı və tədricən digər ölkələrə ixracını təşkil edir. Sonradan, adətən, həmin məhsulun istehsalının yüksəliş və yetkinlik dövründə istehsal xərclərinin azalması, istehsal texnologiyasının digər ölkələrə də yayılması, analoji məhsulların meydana gəlməsi və s. ilə əlaqədar olaraq, istehsalın əsasən inkişaf etməkdə olan ölkələrə (İEOÖ) doğru genişlənməsi baş verir. Beləliklə də, İEOÖ üçün müəyyən üstünlük təmin edən ucuz işçi qüvvəsi və təbii ehtiyatların bol olduğu sahələrdə malik olduğu ixrac potensialını inkişaf etdirmək imkanı yaranır.

Göründüyü kimi, müasir nəzəriyyələr ixrac potensialının inkişafının mənbəyi və onu şərtləndirən amilləri izah etməklə yanaşı, onun müxtəlif ölkələrdə inkişaf etdirilməsi xüsusiyyətlərini də açıb göstərir. Belə ki, əgər məhsulun rəqabət qabiliyyətliyinin yüksəldilməsi, istehsalda qabaqcıl texnologiyalardan istifadə edilməsi, elmtutumlu məhsul buraxılışının həcminin artırılması və s. bu kimi imkanlar daha çox İEÖ-ə xas olsa da, onlarla müqayisədə ucuz və ixtisassız işçi qüvvəsi, aşağı iqtisadi və elmi texniki inkişaf səviyyəsinə malik olan İEOÖ-də də ixrac potensialının inkişafı üçün geniş imkanlar vardır. Lakin, nəzərə almaq lazımdır ki, müasir dövrdə İEÖ-də xammala qənaət edən texnologiyaların tətbiqi və sintetik əvəzedicilərdən istifadə edilməsi, onların yeritdiyi proteksionist siyasət və s. səbəblərlə əlaqədar olaraq xammala olan tələbatın azalması xammal hesabına ixrac potensialını genişləndirmək imkanlarını məhdudlaşdırır. Xüsusilə də, son dövrlərdə müqayisəli üstünlüklərin tədricən texnoloji yeniliklərə doğru dəyişdiyini nəzərə alaraq ixracın əmtəə tərkibində emaledici sahənin, əsasən də elm və kapital tutumlu məhsulların payının artırılması daha məqsədəuyğun və perspektivli hesab olunur.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, müasir dövrdə ixrac potensialının inkişafına istehsal olunan məhsulların rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, istehsalda qabaqcıl tenologiyadan istifadə olunması, elmtutumlu məhsul buraxılışının həcminin artırılması, ixracın strukturunun diversifikasiyası, milli ixracatçıları stimullaşdıran şəraitin yaradılması və s. bu kimi amillər hesabına nail olmaq olar.

Bunun üçün beynəlxalq ticarət təcrübəsi, ölkənin inkişaf səviyyəsi, BƏB-də malik olduğu üstünlüklər və s. nəzərə alınmaqla milli iqtisadi inkişaf modeli işlənib hazırlanır. Belə modellərin idxalı əvəzetmə və ixracyönümlü inkişaf modelləri kimi iki tipini fərqləndirirlər. Yeni sənaye ölkələrinin (YSÖ) iqtisadi inkişafında bu modellərin hər iki tipindən də istifadə olunmuşdur.

Tarixi təcrübə göstərir ki, adətən, ölkələr idxalı əvəzetmə modeli ilə başlayıb, sonra isə ixracyönümlü sənayeləşməyə üstünlük veriblər. İxracyönümlü modelin seçilməsində əsas

məqsəd ixrac potensialının inkişafını yüksək texnoloji və emal səviyyəsinə malik, beynəlxalq standartlara cavab verən, başqa sözlə, dünya bazarında rəqabət qabilyyətli məhsul istehsalına yönəltməkdən ibarətdir.

Aparılan təhlil göstərir ki, ixracyönümlü modelin İEOÖ üçün əsas strategiya olmasına baxmayaraq, bu ölkələrdə formalaşma dövründə milli sənaye sahələrinin idxalın mənfi təsirlərindən qorunması, onların getdikcə daha güclü inkişafı və rəqabətqabiliyyətinin artırılması və gələcəkdə xarici bazara çıxış imkanı əldə etməsi məqsədilə idxalı əvəzetmə siyasətindən də istifadə olunmalıdır.

Ümumiyyətlə, YSÖ-nin təcrübəsi göstərir ki, konkret vəziyyətdən asılı olaraq hər iki siyasətin üstünlüklərindən müəyyən nisbət və ardıcıllıqla istiladə etməklə ölkənin ixrac potensialının inkişafı və səmərəli istifadəsi sahəsində daha yaxşı nəticələr əldə etmək olar.

Lakin, nəzərə almaq lazımdır ki, bu ölkələrin təcrübəsi təbii təkamül nəticəsində formalaşan iqtisadi sistemlərə aiddir. Odur ki, inzibati-amirliyə əsaslanan qapalı iqtisadi sistemdən bazar münasibətlərinə əsaslanan açıq iqtisadi sistemə keçən ölkələr üçün ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması konsepsiyası hazırlanarkən onlara məxsus olan aşağıdakı kimi xüsusiyyətlər də nəzərə alınmalıdır:

- bu ölkələrin çoxunda, o cümlədən Azərbaycan Respublikasında dövlət müstəqilliyinin əldə olunması ilə əlaqədar olaraq bütöv iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşdırılması zərurəti;
- inzibati-amirliyə əsaslanan qapalı iqtisadi sistemdən bazar münasibətlərinə əsaslanan açıq iqtisadi sistemə keçidin zəruriliyi;
- siyasi və makroiqtisadi sabitliyin olmaması;
- maliyyə vəsaitlərinin qıtlığı;
- keçmişdə mövcud olan respublikalararası istehsal-kooperasiya və qarşılıqlı mübadilə əlaqələri sisteminin dağılması və bunun törətdiyi fəsadlar (əhalinin həyat səviyyəsinin aşağı düşməsi, istehsalın, xüsusən də, sənaye istehsalının tənəzzülü və s.);
- mövcud istehsal potensialının texniki və texnoloji səviyyəsinin dünya səviyyəsindən geri qalması;
- özəl sektorun zəif inkişafı;
- iqtisadi proseslərə dövlət müdaxiləsinin güclü olması və s.

Aydındır ki, bu kimi xüsusiyyətlər bu ölkələrdə ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması məsələsinə fərdi və aşağıda təsvir olunan kimi mərhələli (mərhələlər həmin ölkələrin iqtisadiyyat sahəsində qarşılarında duran məsələlərin əhəmiyyətlilik dərəcələri nəzərə alınmaqla müəyyənləşdirilmişdir) yanaşmanı tələb edir.

Birinci mərhələdə bütöv milli iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşması, iqtisadi münasibətlərin bazar prinsipləri əsasında yenidən qurulması, iqtisadiyyatın liberallaşdırılması və dünya təsərrüfat sistemilə əlaqələrə açılması təmin edilməlidir. Ölkədə özəlləşdirmə tədbirləri həyata keçirilməli, sahibkalığın inkişafı üçün şərait yaradılmalı, daxili rəqabət mühiti təmin olunmalı, antiinhisar qanunvericiliyi qəbul olunmalıdır. BƏB-də və regional əmək bölgüsündə ölkənin üstünlükləri müəyyən edilməlidir. Bu tədbirlər həyata keçirildikdən sonra ixracyönümlü sahələrin yenidənqurulması və inkişafı üçün əlverişli şərait yaratmaq lazımdır. Bunun üçün bu sahələrə xarici investisiyaların cəlb edilməsi, ixracın stimullaşdırılması və gəlirin bu sahələrin inkişafına istiqamətləndirilməsi mümkündür. Bu zaman yeni yaradılan sahələrin xarici rəqabətdən qorunması məqsədilə

proteksionist siyasət tədbirlərindən də dünya təcrübəsində yol verilən həddə istifadə olunmalıdır.

İkinci mərhələdə səmərəli ixrac üçün ümumi yardımı saxlamaqla daha perspektivli ixracyönümlü sahələri müəyyən etmək və bu istiqamətdə ixtisaslaşan sahələrdə stimullaşdırma sistemini formalaşdırmaq lazımdır. Bu məqsədlə aşağıdakı stimullaşdırma tədbirlərinin həyata keçirilməsi vacibdir: mütərəqqi texnika və texnologiya cəlb edilməsi üçün xarici investisiyaların cəlbinin stimullaşdırılması; ixracyönümlü sahələrə vergi, kredit və gömrük güzəştlərinin tətbiqi; ixracın siğortalanması və kreditlənməsi sisteminin yaradılması (məsələn, İxrac-İdxal Bankı və s.); ixrac potensialının inkişafı və ixracın stimullaşdırılmasında mühüm rol oynayan, həmçinin yeni texnologiyaların cəlb edilməsinə, qabaqcıl təsərrüfatçılıq təcrübəsinin mənimsənilməsinə və xarici bazarlarla əlaqələrin intensivləşməsinə yol açan azad iqtisadi zonaların yaradılması və s. Bu mərhələdə daxili bazarın qismən rəqabətə açılması da mühüm rol oynayır. Xarici rəqabətin təsiri ilə qeyri-səmərəli sahələr aradan qalxır, milli istehsalçılar daha çevik olmaq zərurəti ilə üzləşir, yeni texnologiyaların tətbiqinə, mütərəqqi idarəetmə metodlarının mənimsənilməsinə çalışırlar.

Üçüncü mərhələdə ixracyönümlü istehsal kompleksinin inkişafı və ixracın stimullaşdırılması istiqamətində işlər (məsələn, milli istehsalçılar xarici bazarlara çıxışına yardım göstərilməsi, onların tanıdılması, ixracatçıların maarifləndirilməsi, yerli elmi-texniki potensialın inkişafının stimullaşdırılması və s. istiqamətlərdə tədbirlər) genişləndirilməlidir. Bu mərhələdə əvvəlki mərhələlərdən fərqli olaraq yeni, qabaqcıl texnologiyalara əsaslanan rəqabət qabiliyyətli sahələrin inkişafına diqqət artırılır. Bu sahələrin bazasında əməktutumlu məhsul istehsalından  elmtutumlu yüksək texnoloji məhsul istehsalına keçid baş verir. İdxalın təsiri ilə əvəlki mərhələlərdə rəqabət qabiliyyətli olmuş, artıq qeyri-səmərəli olan sahələr aradan qalxır, bütövlükdə milli iqtisadiyyat BƏB-in obyektiv qanunları əsasında inkişaf edir.

Bu ölkələr üçün bütöv milli iqtisadiyyatın yaradılması məsələsini aktuallığını nəzərə alaraq bu mərhələlərin reallaşdırılması zamanı idxalı əvəzetmə siyasətinə də diqqət yetirmək lazımdır. Bu strategiyadan məqsədyönlü şəkildə istifadə etməklə daxildə istehsalı mümkün olan malların əvəzlənməsini həyata keçirmək mümkündür. Bu həm daxili bazarın tələbatının daha dolğun ödənilməsinə, həm əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həm də sərbəst dönərli valyuta vəsaitlərinə qənaət olunmasına imkan verər.

Tədqiqatlar göstərir ki, dünyanın ən qədim yaşayış məskənlərindən olan, Avropa və Asiya qitələrinin qovuşduğu ərazidə tarixi "Ipək yolu"nun üstündə yerləşən Azərbaycan Respublikası ixrac potensialının inkişafı baxımından güclü təbii-iqtisadi potensiala malikdir. Bu təbii-iqtisadi potensialı aşağıdakı kimi iri qruplara bölmək olar: mineral-xammal ehtiyatları; təbii-iqlim şəraiti, su və torpaq ehtiyatlan turizm-rekreasiya ehtiyatları; coğrafi-nəqliyyat mövqeyi; əmək ehtiyatları. Bu qrupların hər biri də öz növbəsində geniş tərkibə malikdir.

Hazırda Azərbaycan Respublikasının BƏB-də mövqeyini şərtləndirən əsas təbii-iqtisadi potensial onun zəngin mineral-xammal (karbohidrogen-neft və qaz, müxtəlif filiz, tikinti materialları, sənaye əhəmiyyətli su və s.) ehtiyatlarına malik olması hesab olunur. Bu qrupda indiki mərhələdə Azərbaycanın ixrac potensialının inkişafında xüsusi əhəmiyyət kəsb edənlərə karbohidrogen (neft və qaz) ehtiyatlarını aid etmək olar. Belə ki, hazırda istismara cəlb olunmuş ehtiyatlar baxımından Azərbaycanın neft ehtiyatlarını 3-3,5 mlrd ton qaz ehtiyatlarını isə 2-2,5 trln. m3 həcmində qiymətləndirirlər. Lakin aparılmış son geoloji

tədqiqatların nəticəsinə əsaslanaraq, mütəxəssislər bu qənaətə gəlirlər ki, bu ehtiyatlar iki dəfə çoxdur. Belə olan halda, illik neft hasilatı 100 mln tona, qaz hasilatı isə 50 mlrd m3 çatdırılsa belə, bu ehtiyatlar 80-100 ilə kifayət edər. Bu göstərir ki, Azərbaycan iri neft və qaz ehtiyatlarına malik olan ölkədir. Digər tərəfdən, nəzərə alsaq ki, bu gün və yaxın perspektiv üçün karbohidrogenlər (neft və qaz) başlıca enerjidaşıyıcısı və xammal olmaqla dünya iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Onda nəticə çıxara bilərik ki, Azərbaycanın ixrac potensialının genişləndirilməsində və dünya bazarında mövqeyinin möhkəmləndirilməsində bu ehtiyatlardan səmərəli istifadə mühüm rol oynaya bilər.

Azərbaycan neft və qazdan başqa digər mineral-xammal ehtiyatları ilə də zəngindir ki, bura qara (əsasən Gəncə-Qazax iqtisadi rayonu ərazisində aşkar edilən dəmir, marqans və xromla zəngin olan yataqlar), əlvan (Gəncə-Qazax, Balakən-Zaqatala, Kəlbəcər-Laçın və Naxçıvan MR iqtisadi rayonlarının ərazisində aşkar edilmiş alünit, mis qurğuşun, sink, molibden, civə, sürmə və s. kimi əlvan metallarla zəngin olan yataqlar) və nadir metal filizləri (əsasən Kəlbəcər və Zəngilan rayonlarının, qismən də Naxçıvan MR-in ərazisində yerləşən qızıl, gümüş , platin və platin qrupu kimi elementlərlə zəngin olan nadir metal filizləri yataqları), qeyri-filiz xammalı və tikinti materialları ( Azərbaycan 250-dən artıq müxtəlif növ qeyri-filiz və tikinti materialı yataqları kəşf edilmişdir ki, bunlar da, demək olar ki, ölkənin bütün ərazisində yayılmışdır), sənaye əhəmiyyətli (yodlu-bromlu) su ehtiyatları,daş duz yataqları (əsasən Muğan-Səlyan, Abşeron və Naxçıvan MR iqtisadi rayonlarının ərazilərində yeləşirlər) və s. daxildir.

Azərbaycanın əlveıişli təbii-iqlim şəraitinə, məhsuldar torpaq və bol su ehtiyatlarına malik olması burada ixrac əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının inkişafı üçün zəmin yaradır. Belə ki,pambıq, üzüm, tütün, biyan, zeytun, qoz-fındıq, zəfəran və s. bu kimi qiymətli bitkiçilik məhsullarının, eləcə də çox əhəmiyyətli heyvandarlıq məhsullarının - yun, arıçılıq məhsulları, barama, göndəri xammalı və s. istehsalı üzrə ölkənin əksər regionları geniş imkanlara malikdir. Bundan başqa, çoxqurşaqlı təbii-iqlim şəraitinin və meşə massivlərinin mövcudluğu burada bir çox yabanı dərman bitkilərinin yetişməsinə imkan verir ki, bunlar da əczaçılıq məhsullarının istehsalında çox mühüm əhəmiyyətə malikdir.

Azərbaycanın təbii-iqtisadi potensialının mühüm bir hissəsini də ölkənin turizm-rekreasiya ehtiyatları təşkil edir. Dağ, meşə, dəniz, şirin, mineral və termal su mənbələri, müalicə palçığı yataqları və s. bu kimi təbii ehtiyatlar qədim tarixi-mədəni abidələr burada geniş istirahət və müalicə-sağlamlıq şəbəkələri yaratmağa və xarici turizmi inkişaf etdirməyə imkan verir.

İxrac potensialının inkişafı baxımından ölkəmizin təbii-iqtisadi potensialının əhəmiyyətli tərkib hissələrindən biri də onun Avropa və Asiya qitələrinin qovuşduğu ərazidə qədim «İpək yolu"nun üstündə yerləşməsi ilə müəyyən olunan əlverişli coğrafi-nəqliyyat mövqeyinin yaratdığı tranzit potensialı hesab olunur. Bu baxımdan, son dövrlərdə «İpək yolu"nun bərpası, neft və qaz kəmərlərinin yeni regional sisteminin yaradılması, xüsusilə Bakı-Ceyhan neft və Transxəzər qaz kəmərlərinin çəkilməsi sahəsində Azərbaycan dövlətinin tutduğu mövqe təqdirəlayiqdir və sözügedən tranzit potensialının əhəmiyyətinin dəfələrlə artmasına xidmət edir.

Azərbaycanın ixrac potensialının inkişafı baxımından təbii-iqtisadi potensialının mühüm tərkib hissəsindən birini də əmək ehtiyatları təşkil edir. Burada nəzərə alınır ki, əvvəla, Azərbaycan əhalinin təbii artım sürəti yüksək olan ölkələr sırasına aiddir, digər tərəfdən,

ölkənin əmək ehtiyatlarının mühüm bir hissəsi müxtəlif istehsal sahələrində fəaliyyət göstərə biləcək ixtisaslı işçi qüvvəsindən ibarətdir (belə ki, Azərbaycanda yanacaq-energetika, kimya və neft-kimya, neft maşınqayırması, metallurgiya, yüngül, yeyinti və s. sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə və digər istehsal və xidmət sahələri üzrə ixtisaslaşmış bol və ucuz işçi qüvvəsi var).

Ümumi şəkildə beş qrupa bölünən təbii ehtiyatların son dörd qrupa aid olanlarının xüsusi bir əhəmiyyəti ondadır ki, birincilərdən fərqli olaraq bu ehtiyatlar tükənməz və ya bərpa olunan ehtiyatlardır.

Azərbaycanda zəngin təbii-iqtisadi ehtiyatlarla yanaşı, bu ehtiyatların təsərrüfat dövriyyəsinə cəlb olunması məqsədilə yaradılan çoxsahəli (yanacaq-energetika, kimya və neft-kimya, maşınqayırma, metallurgiya, yüngül və yeyinti sənayesi sahələri üzrə) texniki istehsal və elmi-texniki potensial, həmçinin istehsal, sosial və bazar infrastruktur sahələrinin, o cümlədən rabitə və nəqliyyatın bütün növlərinin müəyyən səviyyədə inkişaf etmiş şəbəkəsi də mövcuddur.

Ölkə iqtisadiyyatının aparıcı sahəsi olan yanacaq-energetika sənayesi neftqazçıxarma, neft emalı və elektroenergetika sahələri ilə təmsil olunur. Bu kompleksin aparıcı sahəsi olan neftqazçıxarma sənayesinin mövcud texniki-istehsal bazası 1994-cü ildən etibarən dünyanın aparıcı neft şirkətləri ilə əməkdaşlıq nəticəsində daha da modernləşdirilmişdir ki, bu da neft və qaz hasilatının artırılmasına şərait yaratmışdır. Hazırda bu əməkdaşlıq müvəffəqiyyətlə həyata keçirilir və ölkəmizə həm siyasi, həm də sosial-iqtisadi dividendlər gətirməklə onun iqtisadiyyatının dirçəldilməsində və dünya bazarında yerinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır. Təkcə, bunu qeyd etmək kifayətdir ki, 1994-2000-ci illər ərzində Azərbaycanın neft sektoruna 3250 mln. ABŞ dolları məbləğində birbaşa xarici investisiya daxil olmuşdur ki, bunun da 2350 mln. ABŞ dolları "Əsrin müqaviləsi" üzrə həyata keçirilmişdir.

Tarixən Aəzrbaycanda inkişaf etmiş neft emalı sənayesi də formalaşmışdır. Vaxtı ilə 22 mln. ton emal gücü olan iki nəhəng neft emalı müəssisəsi - "Azərneftyağ" İB və "Azərneftyanacaq" İB ilə təmsil olunan bu sənaye sahəsi, hazırda əksər texnoloji qurğuların köhnəlməsi səbəbindən yalnız 9,8 mln. ton istehsal gücündə işləyə bilir. Bunun nəticəsidir ki, Cədvəl 1-in məlumatlarına görə hazırda BƏB-də malik olduğumuz üstünlüyə uyğun olaraq neft və neft məhsulları ölkə ixracının əsas hissəsini təşkil etsə də (ixracda neft və neft məhsullarının xüsusi çəkisi 1990-cı ildə 27,7% olmuşdursa, 1995-ci ildə 51,1%-ə yüksəlmiş, 2000-ci ildə isə 83,9%-ə çatmışdır), əvvəlki illərlə müqayisədə ixracın əmtəə strukturunda xam neftin payının artması və son məhsulun azalması meyli də müşahidə olunur (1999-cu ildə ixrac edilən neft və neft məhsullarının 42,7%-ni xam neft təşkil etdiyi halda, 2000-ci ildə onun payı iki dəfə artmışdır). Bununla yanaşı, ixrac olunan neft məhsullarının çeşidi də olduqca məhduddur.

Azərbaycan elektroenergetika sənayesi üzrə də böyük texniki-istehsal potensialına malikdir. Belə ki, bu sahə özündə 9 İES, 3 SES, 40 elektrik şəbəkə-struktur vahidlərini və bir çox ixitsaslaşmış təmir-tikinti müəssisələrini, 18 minə yaxın yardımçı stansiyaları, uzunluğu 100 min kilometrdən artıq olan elektrik ötürmə xətlərini əhatə edir.

Azərbaycanın enerji sistemi uzunluğu 2 min kilometrdən çox olan 330-550 kilovolt gərginlikli ötürmə xəttləri vasitəsilə qonşu Gürcüstan və Dağıstanın enerji sistemləri ilə rabitədədir. Elektrik enerjisi istehsalının əsas hissəsi İES-lərin payına düşür. Vaxtilə 23-25 mlrd

kvt həcmində istehsal edilən elektrik enerjisinin 12-15 mlrd kvt daxili tələbatın ödənilməsinə sərf olunurdusa, qalan hissəsi keçmiş SSRİ-nin vahid enerji sisteminə ötrülürdü.

Lakin hazırda həm İES, həm də SES-lərin avadanlıqlarının əksər lir.xəsinin köhnəlməsi səbəbindən onların istehsal gücü xeyli aşağı düşmüşdür (2000-ci ildə 16 mlrd kVt təşkil etmişdir). Təhlil göstərir kı. bu dövrdə elektrik enerjisi üzrə ixrac da xeyli azalmış və 2000-ci ildə təqribən 1 mlrd kVt (1,1%) təşkil etmişdir.

Son illərdə Şəmkir SES-in işə salınması, əvvəllər mövcud olan SES və İES-lərin yenidən qurulması bu sahədə istehsal və ixrac həcminin xeyli artırılmasına zəmin yaradır.

Neft emalı sənayesinin inkişafı ilə əlaqədar olaraq yaranan və ölkə sənayesinin baza sahələrindən birinə çevrilən kimya və neft- kimya sənayesi kompleksinin mövcud strukturu keçmiş SSRİ sənayesinin tərkib hissəsi kimi formalaşmışdır və onun xammal təminatının 60%-dən yuxarı hissəsi (bəzi müəssisələrdə 90%-ə qədəri) İttifaqın digər regionlarından gətirilirdi. Eyni zamanda, bu sənayenin məhsullarının istehal həcmi keçmiş İttifaqın bütün regionlarının tələbatı üzrə müəyyənləşirdi və istehsal olunan məhsulların 70%-ə qədəri respublikamızdan kənara göndərilirdi. Bu əlaqələrin qırılması və texniki avadanlığın 60%-dən yuxarı hissəsinin aşınması nəticəsində kimya və neft-kimya sənayesi hazırda mövcud istehsal potensialının 15-20%-i həcmində işləyir. Bunun nəticəsidir ki, son dövrlərdə kimya və neft-kimya sənayesi məhsulları (plasmas, kauçuk, rezin, onlardan hazırlanmış məmulatlar və s.) üzrə ixracın həcmi də azalmağa doğru meyl etmişdir. Belə ki, 1994-2000-ci illəri əhatə edən dövr ərzində kimya sənayesi məhsullarının ixracda xüsusi çəkisi cəmi 2- 3,5% təşkil etmişdir.

Maşınqayırma sənayesi Azərbaycanda tarixən neft maşınqayırrtıası kimi meydana çıxsa da, sonradan müxtəlif istiqamətlərdə inkişaf edərək çoxsahəli iri sənaye kompleksinə çevrilmişdir. Hazırda bu sahə neft maşınqayırması ilə yanaşı, elektrotexnika, cihazqayırma və məişət maşınqayırması sənayesi sahələri ilə təmsil olunmaqla 20-dən çox yarımsahəni və 800-dən artıq müəssisəni əhatə edir. Lakin, aparılan təhlil göstərir ki, vaxtilə iqtisadiyyatın bayraqdarı sayılan və yüksək itisadi göstəricilərə malik olan bu sənaye sahəsində məhsul istehsalı həm keyfiyyət, həm də kəmiyyət baxımından müasir dövrün tələbləri ilə müqayisədə çox aşağı səviyyədədir. Belə vəziyyətin yaranmasının əsas səbəbləri kimi səhənin əsas fondlarının çox hisəsinin fiziki və mənəvi aşınmaya məruz qalmasını, istehsalın əsasən keçmiş İttifaqın digər regionlarının tələbatına uyğun olaraq təşkil edilməsini və bununla əlaqədar olaraq da İttifaqın süqutundan sonra satış bazarlarının itirilməsini, patent və lisenziya informasiyası sahəsində sistemsizliyin nəticəsi olaraq xaricdə artıq bir neçə il əvvəl buraxılmış nümunələrə istiqamət götrülməsini və s. göstərmək olar. Qeyd olunanların nəticəsidir ki, son illərdə maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar üzrə də ixracın həcmi azalmağa meyllidir. Belə ki, təhlil göstərir ki, bu sahənin ixracda xüsusi çəkisi 1994-cü ildə 14,1% təşkil etdiyi halda 2000-ci ildə bu göstərici 1,7%-ə qədər aşağı düşmüşdür. Burada xatırlatmaq istərdik ki, SSRİ dövründə Azərbaycanda istehsal olunan maşınqayırma və metal emalı məhsullarının 65%-ə qədəri ixrac olunurdu. Bu isə onu göstərir ki, bu sahə üzrə də ixrac potensialını inkişaf etdirmək və ixracın həcmini artırmaq olar.

Vaxtı ilə Azərbaycanda qara və əlvan metallurgiya sənayesi üzrə də güclü texniki-istehsal potensialı yaradılmışdır. Hazırda qara metallurgiya sənayesi qara metal, boru istehsalı və qara metalların təkrar emalı üçün mədən xammalının çıxarılması və saflaşdırılması prosesini əhatə edən Sumqayıt boru-prokat zavodu ("Azərboru" İB), Daşkəsən Dağ-Mədən Kombinatı və "Təkrarqarametal" zavodu ilə təmsil olunur. Azərbaycanın qara metallurgiya

sənayesi keçmiş İttifaq dövründə Zaqafqaziya regionunun qara metallurgiyasının tam tsiklinin başlanğıc və bir də son mərhələsi kimi yaranmışdır. İttifaqın dağılması ilə əlaqədar bu cür istehsal-kooperasiya əlaqələrinin qırılması Azərbaycanın qara metallurgiya sənayesində böhranı şərtləndirən əsas amillərdən oldu. 1991-ci ildə 411 min ton polad boru istehsal edən Boru-Prokat Zavodunun 1999-cu ildə cəmi 0,1 min ton həc-mində istehsalı həm də texnoloji avadanlığın aşınması ilə bağlıdır.

Azərbaycanın əlvan metallurgiya sənayesi xammalın çıxarılması və saflaşdırılması, giltorpaq və flüoridlərdən alüminium istehsalını əhatə edən Zəylik alünit mədən idarəsi, Gəncə "Giltorpaq" İB və Sumqayıt "Əlvanmetal" İB müəssisələrini birləşdirən "Azəralüminium" SC ilə təmsil olunur. İqtisadi əlaqələrin qırılması ilə əlaqədar olaraq tələbatın azalması, satış bazarlarının itirilməsi, texnika və texnologiyanın köhnəlməsi bu sahəyə də öz mənfi təsirini göstərmişdir.

Belə vəziyyətin nəticəsidir ki, təhlil göstərir ki, baxılan dövrdə azqiymətli metallar və ondan hazırlanmış məmulatlar üzrə ixracın həcmi azalmağa doğru meyllidir. Belə ki, 1994-cü ildə bu sahə üzrə olan məhsulların ixracda xüsusi çəkisi 16,5% təşkil etdiyi halda, bu göstərici ilbəil azalaraq 2000-ci ildə 1,8%-ə enmişdir.

Nəzərə alsaq ki, keçmiş SSRİ dövründə Azərbaycanda istehsal edilən qara metallurgiya məhsullarının 80%-i, əlvan metallurgiya məhsullarının isə 46%-i ixrac olunurdu, onda nəticə çıxarmaq olar ki, bu sahələr üzrə də ixrac potensialının inkişafı üçün ölkəmizdə böyük imkanlar vardır.

Təhlil göstərir ki, Azərbaycan sənayesinin kənd təsərrüfatı xammalı əsasında fəaliyyət göstərən qədim və ənənəvi emaledici sahələri - yüngül və yeyinti sənayeləri də böyük ixrac potensialına malikdir. Yüngül sənaye müəssisələri əsasən pambıq, yun, barama və gön-dəri xammalı məhsullarının emalına əsaslanır. Ölkəmizdə pambığın ilkin emalından tutmuş, onun son məhsula qədər çatdırılmasını nəzərdə tutan kompleks müəssisələr mövcuddur.

**Cədvəl 1**

**1994-2000-ci illər ərzində Azərbaycan Respublikasinin ixracinin mal qruplari üzrə strukturu (dəyəri-min ABŞ dol., xüsusi çəkisi-%-lə)**

| Mal qruplarının adları | 1994 | | 1995 | | 1996 | | 1997 | | 1998 | | 1999 | | 2000 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Dəyəri | Xüsusi çəkisi | Dəyəri | Xüsusi çəkisi | Dəyəri | Xüsusi çəkisi | Dəyəri | Xüsusi çəkisi | Dəyəri | Xüsusi çəkisi | Dəyəri | Xüsusi çəkisi | Dəyəri | Xüsusi çəkisi |
| Neft və neft məhsulları | 215826 | 33,9 | 282043 | 51,5 | 419114 | 66,3 | 480111 | 61,4 | 417854 | 68,9 | 730399 | 78,6 | 1464908 | 83,9 |
| Elektrik enerjisi | 5768 | 0,9 | 22408 | 4,1 | 15792 | 2,5 | 45902 | 5,8 | 24907 | 4,1 | 25986 | 2,8 | 19342 | 1,1 |
| Kimya sən. məhsulları | 22834 | 3,5 | 19618 | 3,5 | 20751 | 3,2 | 18327 | 2,3 | 11291 | 1,8 | 22765 | 2,4 | 36195 | 2,0 |
| Plasmas, kauç, rezin, ondan hazır. məmulat | 10276 | 1,6 | 13638 | 2,5 | 26657 | 4,2 | 22485 | 2,8 | 11986 | 1,9 | 13105 | 1,4 | 20524 | 1,1 |
| Maşınlar, mex. elektrotexniki avadanlıqlar | 89440 | 14,1 | 39421 | 7,2 | 43710 | 6,9 | 37408 | 4,8 | 33438 | 5,5 | 34654 | 3,7 | 30684 | 1,7 |
| Azqiymətli met. və ondan hazır məmulat. | 105163 | 16,5 | 17543 | 3,2 | 6129 | 0,6 | 15305 | 1,9 | 13371 | 2,2 | 24725 | 2,7 | 32031 | 1,8 |
| Pambıq mah.lıcı, ipliyi və parçaları | 102233 | 16,1 | 116834 | 21,3 | 58745 | 9,3 | 123292 | 15,8 | 49335 | 8,1 | 21742 | 2,3 | 36542 | 2,1 |
| Tütün | 14402 | 2,3 | 7464 | 1,4 | 7199 | 1.1 | 10361 | 1,3 | 11115 | 1,8 | 21381 | 2,3 | 11702 | 0,7 |
| Alkoqollu və alk-lsuz içkilər | 25569 | 4,0 | 10587 | 1,9 | 7365 | 1,1 | 15535 | 1,9 | 12395 | 2,0 | 6164 | 0,7 | 6175 | 0,3 |
| Digərləri | 45249 | 7,1 | 17804 | 3,2 | 25784 | 4,1 | 12594 | 1,6 | 20458 | 3,5 | 27599 | 2,9 | 86796 | 4,9 |
| Cəmi | 636769 | 100 | 547360 | 100 | 631246 | 100 | 781310 | 100 | 606150 | 100 | 928620 | 100 | 1744899 | 100 |

**Qeyd**: Cədvəl DSK-nın xarici ticarət əlaqələri üzrə materialları əsasında tərtib olunub [2; 9].

Belə ki, 19 zavodu və onlara təhkim olunmuş 106 tədarük məntəqəsini özündə birləşdirən pambıq təmizləmə sənayesinin ümumi istehsal gücü 1300 min tondur. Eyni zamanda, xammalı pambıq iplik olan 4 toxuculuq müəssisəsi mövcudur. Bundan başqa isə, ölkədə barama, yun, gön-dəri və kimyəvi liflərə əsaslanan toxuculuq müəssisələri var. Lakin araşdırmalar göstərir ki, bu müəssisələrin əksəriyyəti yeni təsərrüfatçılıq şəraitində fəaliyyət göstərməyə uyğunlaşa bilməmələri, avadanlıqların aşınmaya məruz qalması və s. səbəblərdən demək olar ki, öz fəaliyyətlərini va tam dayandırmış, ya da dayandırmaq üzrədir. Elə bu səbəbdəndir ki, həmin müəssisələrin xammalı olan kənd təsərrüfatı məhsulları ilkin emal məhsulları şəklində ixrac edilir.

Azərbaycanın ixrac potensialı baxımından mühüm əhəmiyyət kəsb edən yeyinti sənayesi sahələri meyvə-tərəvəz, üzüm və tütün emalı sahələridir. Meyvə-tərəvəz emalı sənayesi 46 iri və kiçik konserv zavodlarından ibarətdir. Bu zavodlarda tərəvəz və meyvə konsevləri, tomat və meyvə şirələri istehsal olunur. Hazırda bu müəssisələr dövriyyə vəsaitinin çatışmamazlığı və bazar münasibətlərinə uyğun fəaliyyətə keçə bilməmələri səbəbindən öz istehsal güclərinin çox az bir hissəsindən istifadə edirlər.

Üzüm emalı sənayesi nəhəng maddi-texniki bazaya malik olan çox gəlirli bir sahədir. 1992-ci ildə Azərbaycanda 108 üzüm emalı zavodu var idi. Hazırda isə bəzi zavodların xırdalanması və yenilərinin yaranması hesabına bu zavodların sayı 119-a çatmışdır. Lakin zavodların sayının artmasına baxmayaraq, üzüm emalı ilbəil azalmışdır. Məsələn, 1992-ci ildə 486 min ton üzüm tədarük edilib emaldan keçirilmişdirsə, 1996-cı ildə bu göstərici 260 min ton olmuş və sonrakı illərdə də hər il azalmışdır. Lakin vaxtı ilə üzüm emalı sənayesinin gücü 1602 min ton idi. Həm də Azərbaycanın Rusiyada beş üzüm emalı zovodu fəaliyyət göstərirdi.

Bakı Tütün Kombinatının bazasında “European Tobacco INC” şirkəti ilə yaradılan birgə müəssisə ölkənin hazır tütün məmulatları istehsal edən yeganə emal müəssisəsidir. Modernləşdirilmiş texnologiya əsasında fəaliyyət göstərən müəssisənin istehsal etdiyi məhsullar (siqaretlər) daxili bazarda olan tələbatın ödənilməsində mühüm rol oynamaqla yanaşı, artıq Azərbaycan markası ilə xaricə də ixrac olunur.

Ümumiyyətlə, hələ keçmiş SSRİ dövründə Azərbaycanda əkin sahələrinin əsas həssisini pambıq, tütün və üzümlüklər tuturdu və istehsal olunan tütün və üzümün 10%-i, pambığın isə 12%-i daxildə son məhsula çevrilirdi. Qalan hissəsi isə ixrac olunurdu. Təhlil göstərir ki, son dövrlər bu sahələrdə də vəziyyət pisləşmişdir. Belə ki, Cədvəl 1-in məlumatlarından da aydın görünür ki, ümumi ixracdı pambıq mahlıcı, ipliyi və parçalarının xüsusi çəkisi 1994-cü ildəki 16,1%-dən 2000-ci ildə 2,1 %-ə qədər enmişdir.

Beləliklə, bu nəticəyə gəlirik ki, hazırda ölkəmizdə mövcud olan texniki-istehsal potensialı keçmiş İttifaq dövründə respublikalararası istehsal kooperasiyası və qarşılıqlı mübadilə prinsipinə əsaslanan ictimai əmək bölgüsünün tələbi və «Mərkəzin» istəyi əsasında formalaşdırıldığından onunla ölkənin malik olduğu təbii-iqtisadi potensial (o cümlədən yerli xamal ehtiyatları) və daxili tələbat arasında bir çox uyğunsuzluqlar var, müəssisələrin çoxunda texniki və texnoloji avadanlıqların əksəriyyəti mənəvi və fiziki cəhətdən köhnəlməyə məruz qaldığından dünya bazarında rəqabətqabiliyyətli məhsul istehsal etmək iqtidarında deyillər, bir çox müəssisələr satış bazarlarının itirilməsi, yeni təsərrüfatçılıq münasibətləri şəraitinə uyğunlaşa bilməməsi səbəbindən öz fəaliyyətlərini dayandırmış və yaxud da öz imkanlarından xeyli aşağı səviyyədə fəaliyyət göstərirlər.

Məlumdur ki, hər hansı bir ölkədə ixracqabiliyyətli məhsul istehsal olunması onun elmi-texniki potensialından da çox asılıdır. Bu baxımdan, qeyd edə bilərik ki, Azərbaycanın onilliklər ərzində formalaşan böyük elmi-texniki potensialı vardır. Belə ki, hazırda Azərbaycan Rspublikasında müxtəlif elmi problemlərlə məşğul olan 120-dən çox elmi-tədqiqat yönümlü qurum var. Bunlardan 25-i tədris müəssisəsi, qalanları isə akademiya sistemində və ayrı-ayrı nazirliklərin nəzdində fəaliyyət göstərən sahəvi elmi-tədqiqat institutlarıdır.

Bununla yanaşı, hazırda ölkəmizdə ixrac potensialının reallaşmasında mühüm rol oynayacaq istehsal, sosial və bazar infrastruktur sahələrinin, demək olar ki, bütün növlərinin müəyyən səviyyədə inkişaf etmiş şəbəkəsi də mövcuddur. Belə ki, ölkədə ümumi uzunluğu 2067 km-ə çatan dəmir yolu şəbəkəsi və 32 min km olan asfalt örtüklü avtomobil yolları, inkişaf etmiş boru kəməri şəbəkəsi, modernləşdirilmiş gəmi parkı olan liman və hava nəqliyyatı infrastrukturu, rabitə sistemi, mehmanxanalar, istirahət və sağlamlıq mərkəzləri, banklar, birjalar, sığorta təşkilatları, konsaltinq firmaları və s. mövcuddur.

Dünya təcrübəsindən məlumdur ki, ölkənin ixrac potensialından səmərəli istifadə olunması bu məqsədlə kompleks şəkildə tətbiq olunan stimullaşdırma tədbirlərindən də (buraya ixracyönümlü istehsal sahələrinin inkişafının himayə olunması, ixracatçılara vergi və kredit güzəştlərinin tətbiq olunması, maliyyə yardımları göstərilməsi, risklərdən sığortalanması, reklam-informasiya təminatı, kadrların hazırlanması, təşkilati yardım, daxili bazarın qorunması və s. tədbirlər daxildir) asılıdır. Lakin aparılan təhlil göstərir ki, hazırda ölkəmizdə bu tədbirlərin imkanlarından çox zəif istifadə olunur.

Təhlil göstərir ki, dövlət müstəqilliyinin ilk dövründə Azərbaycanda xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin formalaşmış mexanizmi obyektiv çətinliklərlə yanaşı, beynəlxalq iqtisadi əməkdaşlığın liberallaşdırılması ideyasının ifrat şəkildə mütləqləşdirilməsinə əsaslandığından keçid dövrünün xüsusiyyətləri və tələblərinin tam nəzərə alınmasına imkan vermirdi.

1994-cü ilin ikinci yarısından etibarən isə Azərbaycanda sərt pul-kredit siyasəti həyata keçirilməyə başlamışdır. Statistik məlumatlardan (Cədvəl 2) görünür ki, bu siyasət nəticəsində 1994-1998-ci illər ərzində büdcə kəsirinin ÜDM-ə nisbəti 10,3%-dən 2,4%-ə enmiş, inflasiya cilovlanmış və iqtisadi artıma nail olunmuşdur. Buradan nəticə çıxarmaq olar ki, sərt pul-kredit, siyasəti 1994-1998-ci illərdə ölkə iqtisadiyyatında makroiqtisadi sabitliyin təmin olunması baxımından müsbət rol oynamışdır. Lakin təhlil göstərir ki, bu siyasət real sektorun inkişafı və ixracyönümlü son məhsul istehsalının stimullaşdırılması baxımından irəliləyişə səbəb olmamışdır. Bunu uzunmüddətli kredit qoyuluşlarının ilbəil azalması da sübut edir. Belə ki uzunmüddətli kredit qoyuluşları 1994-cü ilə nisbətən 1995-ci ildə artsa da, 1996-1999-cu illər ərzində azalmağa doğru meyl etmişdir. Qısamüddətli kreditlərin təhlilinə gəldikdə isə görürük ki, 1994- 1999-cu illərdə bu növ kreditlər ilbəil artmışdır. Belə ki, 1994-cü ildə 596 mlrd manat səviyyəsindən 1999-cu ildə-2160 mlrd. manat səviyyəsinə çatmışdır və ya 3,6 dəfədən çox artmışdır. Bunun nəticəsidir ki, 1994-1997-ci ildə olan inflyasiya prosesinin 1999-cu ildə 8,5%-lik deflyasiyaya çevrilməklə ölkədə investisiya qoyuluşuna və milli valyutanın-manatın məzənnəsinə mənfi təsir göstərmişdir.

Cədvəl 2

1994-2000-ci illər ərzində Azərbaycan Respublikasının
əsas makroiqtisadi göstəricilərinin dinamikası

| Göstəricilər | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|---|
| Büdcə kəsiri, UDM-də %-lə | 10,3 | 0,6 | 0,6 | 2,4 | 1,8 | 2,4 | 1,0 |
| İnfyasiya, % | 1663,5 | 411,8 | 19,9 | 3,7 | -0,8 | -8,5 | 1,8 |
| Uzunmüddətli kreditlar, mlrd manat | 82,7 | 184,2 | 143,9 | 140,9 | 45,9 | 55,0 | 649,8 |
| Qısamüddətli kreditlar, mlrd manat | 596,0 | 1264,8 | 1675,8 | 1901,1 | 2087,7 | 2160,5 | 1672,0 |
| UDM, mlrd. man. | 1873,4 | 10668,8 | 13663,2 | 15791,4 | 17203,1 | 18875,4 | 23566,2 |
| Adambaşına, min manat | 250,6 | 1410,3 | 1787,7 | 2046,0 | 2207,5 | 2400,6 | 2972,9 |

Qeyd: Cədvəl DSK-nın materialları əsasında tərtib olunub [1].

Qeyd edilməlidir ki, müstəqillik dövründə qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən xarici ticarət fəaliyyətinin tənzimlənməsi sahəsində bir çox qanunlar və digər hüquqi-normativ aktlar qəbul edilmişdir. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsi", "Gömrük tarifi haqqında", "Valyuta tənzimi haqqında" "Xarici investisiyanın qorunması haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Mülkiyyət haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının qanunları bu qəbildəndir.

Lakin xüsusi qeyd edilməlidir ki, baxılan fəaliyyət sferasının operativ tənzimlənməsi, xarici ticarət əlaqələrinin inkişaf xəttinin müəyyən edilməsi sahəsində ölkə Prezidentinin fərmanları müstəsna əhəmiyyət daşımışdır. Dövlət müstəqilliyimizin ilk 10 ili ərzində bu yönümdə 8 əsas fərman imzalanmışdır. Sonuncusu istisna olmaqla, bu sənədlərin hamısında xarici iqtisadi əlaqələrin ticarət modelinin öncül mövqelərə çıxarıldığı sezilir, xarici ticarət əməliyyatlarının ayrı-ayrı növlərinin, onların formalarının operativ tənzimlənməsi qaydaları təsbit edilirdi. Başqa sözlə desək, xarici iqtisadi fəaliyyətin konyunktur istiqamətinin inkişafı hədəflənirdi.

"Azərbaycan Respublikasında ticarətin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 23 iyul 1999-cu il tarixli, 160 saylı fərmanın müddəaları isə təsərrüfat inkişafının ümumi strateji istiqamətlərində milli iqtisadiyyatın xarici iqtisadi sektorunun rolunun keyfiyyətcə yeni pilləyə qaldırıldığına, xarici iqtisadi əlaqələrin istehsal- investisiya modelinin öncül mövqelərə çıxarıldığına dəlalət edir. Bu fərmanın müstəsna əhəmiyyəti həm də ondadır ki, ilk dəfə olaraq “Azərbaycan Respublikasında 1999-2002-ci illər üçün ticarətin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmiş və bununla da ölkəmiz üçün son dərəcə vacib olan xarici ticarət sferasının inkişafına məqsədyönlü, sistemli xarakter verilməsinə başlanmışdır. İqtisadiyyatın struktur yenidənqurulmasına diqqətin artırılması, xarici iqtisadi siyasətin həmin məqsədin həyata keçirilməsinə yönəldilməsi və xarici iqtisadi fəaliyyətin strateji istiqamətinin

konturlarının yüksək dövlət səviyyəsində müəyyən edilməsi, fikrimizcə, bu Proqramın ən mühüm cəhətləridir.

Baxılan fəaliyyət sferasının cari tənzimlənməsi sahəsində Nazirlər Kabinetinin normativ aktları da mühüm rol oynayır. Bunlardan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 iyun 1997-ci il tarixli Qərarını xüsusi ilə qeyd etmək olar. Həmin qərarla ixrac malları növündən asılı olmayaraq gömrük rüsumlarına cəlb edilmirdilər. Nazirlər Kabinetinin 12 aprel 2001-ci il tarixli 80 saylı Qərarı ilə ölkəmizdə ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının yeni dərəcələri və gömrük yığımlarının yeni miqdarı müəyyən edilmişdir. Bu Qərarla ixracın gömrük rüsumlarına cəlb edilməsi təcrübəsi bərpa edildi. İdxal rüsumlarının dərəcələri isə nisbətən differensiallaşdırılmışdır (bu rüsumlar 0,5 - 15 % intervalında təsbit edilmişlər).

Aparılan təhlil göstərir ki, ötən dövr ərzində bazar münasibətlərinə əsaslanan müstəqil milli iqtisadiyyatın formalaşdırılması məqsədilə aparılan iqtisadi islahatlar çərçivəsində idarəetmənin inzibati- amirlik metodlarından iqtisadi metodlarına keçilməsi, xarici iqtisadi əlaqələr üzərindən dövlət inhisarının götürülməsi və bu əlaqələrin liberallaşdırılması sahəsində görülən işlər Azərbaycanda xarici ticarətin, o cümlədən ixracın inkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrdə geniş tətbiq olunan vasitələrə və üsullara əsaslanan liberal dövlət tənzimlənməsi sisteminin formalaşmasına şərait yaratmışdır. Lakin bu sistemin çox qısa bir zamanda (9-10 il ərzində) formalaşması (inkişaf etmiş ölkələrdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənmə sistemi onilliklər ərzində formalaşmışdır) və bir çox hallarda bu prosesin ölkə daxilində bazar münasibətlərinə keçidlə əlaqədar aparılan islahatlarla uzlaşdırılmaması onun keyfiyyətinə mənfi təsir göstərmişdir. Baxılan dövrdə ixrac istehsallarının stimullaşdırılması, eləcə də iqtisadi cəhətdən səmərəli olmayan idxalı əvəz edə biləcək istehsal sahələrinin qorunması və canlandırılması məqsədilə müvafiq orqanlar xarici iqtisadi əlaqələrin tənzimlənməsinin alətləri kompleksindən tam istifadə etməmiş, hətta ÜTT üzvü olan, liberal xarici iqtisadi rejimə malik inkişaf etmiş dövlətlərin belə zəruri hallarda mütəmadi olaraq, çəkinmədən əl atdığı təsirli iqtisadi və inzibati tənzimləmə vasitələrinin tətbiqinə lazımı diqqət yetirməmişlər. Hazırkı dövrə kimi ixracın subsidiyalaşdırılması, ixrac istehsallarının ehtiyacları üçün idxal olunan mallara görə ödənilmiş rüsumların qaytarılması mexanizmləri işlənməmişdir. İxracın kreditləşdirilməsi, bu kreditlər üçün zəmanətlər sisteminin qurulması, onların sığortalanması proqramları və sxemlərinin hazırlanması istiqamətində də görülən işləri qənaətbəxş hesab etmək olmaz. Ümumiyyətlə, ixracın tənzimlənməsi sərhəddə tətbiq edilən minimal, zəruri, operativ tənzimləmə tədbirləri ilə məhdudlaşmaqdadır. Hətta ÜTT çərçivəsində belə, xüsusi rejimin tətbiq olunduğu və ölkəmizin xarici ticarət əməkdaşlığının perspektivləri baxımından strateji əhəmiyyət kəsb edən kənd təsərrüfatı və toxuculuq sənayesi sahələrində də zəruri ticarət siyasəti tədbirləri işlənməmişdir. Sudan və yanacaqdan istifadəyə görə güzəştlər istisna olmaqla kənd təsərrüfatı məhsullarının qiymətlərinə və gəlirlərinə birbaşa təsir edən siyasət aparılmamaqdadır. Kənd təsərrüfatı məhsullarının idxalına aid xüsusi məhdudiyyət tədbirləri (mövsümi rüsumlar, tarif kvotaları və s.) də tətbiq edilmir. Həmin məhsulların ixracı zamanı subsidiya tədbirlərindən də istifadə edilmir. Toxuculuq məhsullarının ticarəti sahəsində də heç bir xüsusi rejimdən istifadə edilməməkdədir.

Bu nöqteyi nəzərdən, beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində qarşımızda duran əsas vəzifələrdən biri, xarici iqtisadi fəaliyyətin, o cümlədən ixracın milli iqtisadiyyatın cari və

perspektiv maraqlarının səmərəli uzlaşdırılmasına şərait yaradan tənzilənmə mexanizmini formalaşdırmaqdır.

Azərbaycan Respublikasının ixrac potensialının və ondan istifadənin müasir vəziyyətinin tədqiqi göstərir ki, perspektiv dövr üçün ölkənin ixrac potensialının inkişaf etdirilməsinin ümumi strategiyası ixracyönümlü təbii-iqtisadi potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb edilməsini, texniki-istehsal potensialın mütərəqqi texnika və texnologiya əsasında yeniləşdirilməsi və genişləndirilməsini, elmi-texniki potensialın inkişafını və bu sahələrdə mövcud imkanlardan səmərəli istifadə olunmasını nəzərdə tutmaqla aşağıdakı məqsədlərin realizasiyasına xidmət etməlidir.

- ixrac qabiliyyətli istehsal və xidmət sahələrinin genişləndirilməsi və yenilərinin yaradılması;
- ixrac olunan xammal və aralıq məhsullarının emal dərinliyinin artırılması yolu ilə ixracın əmtəə tərkibində dünya bazarında rəqabətə davamlı son məhsulun payının və çeşidinin artırılması;
- qabaqcıl texnologiyalara əsaslanan rəqabət qabiliyyətli istehsal sahələrinin inkişaf etdirilməsi və onların bazasında ixracın əmtəə tərkibində elm tutumlu məhsulların payının artırılması;
- istehsal, sosial və bazar infrastruktur sahələrinin, o cümlədən xarici ticarət infrastrukturunun inkişaf etdirilməsi.

Aparılan nəzəri və faktiki təhlilin nəticələrinə əsaslanaraq bu qənaətə gəlirik ki, Azərbaycan Respublikasında ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması konsepsiyasının yerli xüsusiyyətlər nəzərə alınmaqla məqalənin əvvəlində keçid iqtisadiyyatlı ölkələr üçün göstərilən mərhələlər üzrə müəyyən olunmuş metodoloji prinsiplərə əsaslanması daha məqsədəuyğundur.

Birinci mərhələdə əsas məqsəd ölkənin təbii ehtiyatlarının fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb edilməsi və az-çox ixrac qabiliyyətli məhsul istehsal edən sahələrin mövcud potensialından tam və səmərəli istifadə edilməsi hesabına ixracın artırılması olmalıdır.

Qeyd edək ki, hazırda təbii ehtiyatlar kimi karbohidrogen və əlvan metal ehtiyatlarının təsərrüfat dövriyyəsinə cəlb edilməsi istiqamətində görülən işlər çox müsbət bir hal kimi qiymətləndirilməlidir. Bununla yanaşı, ölkənin təbii ehtiyatlarının qalan hissəsinin də (bu barədə yuxarıda ətraflı danışılır) yaddan çıxartmaq olmaz.

Ümumiyyətlə isə, hesab edirik ki, ilk dövrlərdə xammal ixracı əmri olsa da, gələcəkdə xammal ixracına üstünlük verilməsi ölkə üçün iqtisadi cəhətdən əlverişli deyildir. Odur ki, ixracın əmtəə tərkibinin daha çox rəqabətədavamlı, beynəlxalq standartlara cavab verən son məhsulun xüsusi çəkisinin artırılması hesabına optimallaşdırılması qarşıya əsas məqsəd kimi qoyulmalıdır. Buna görə də, mineral-xammal, o cümlədən neft ehtiyatlarının səmərəli, yəni tullantısız və itkisiz istifadə olunmasına, onların emalını dərinləşdirən texnologiyadan istifadə edilməsinə xüsusi fikir vermək lazımdır. Bunun üçün cınal müəssisələrinin avadanlıqlarının yeniləşdirilməsinə böyük ehtiyac vardır. Bu idxal olunan bəzi emal məhsullarını əvəz etməklə onlara olan daxili tələbatın yerli imkanlar hesabına təmin edilməsi sahəsində də müsbət rol oynaya bilər.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, ixracın təkcə neft və neft məhsulları kimi yanacaq və xammal hesabına genişləndirilməsi davamlı inkişaf perspektivi baxımından da ölkə iqtisadiyyatının uzunmüddətli inkişaf strategiyası kimi seçilə bilməz. Belə ki, məlum olduğu

kimi, ixracın yalnız bir və yaxud az sayda xammal məhsullarına bağlılığı ölkə iqtisadiyyatını dünya bazarından və orada baş verən konyuktur dəyişikliklərindən asılı vəziyyətə sala bilər.

Ona görə də, ikinci mərhələdə yanacaq-energetika, kimya və neft- kimya, maşınqayırma, metallurgiya, yüngül və yeyinti sənayesi sahələri üzrə texniki-istehsal potensialının mütərəqqi texnika və texnologiya əsasında yeniləşdirilməsi və genişləndirilməsi və bu əsasda ixrac olunan xammal və aralıq məhsullarının emal dərinliyinin artırılması yolu ilə ixracın əmtəə tərkibində dünya bazarında rəqabətə davamlı son məhsulun payının və çeşidinin artırılması Azərbaycanda ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması konsepsiyasının əsas hədəflərindən biri kimi çıxış etməlidir.

İkinci mərhələdə aşağıdakı istiqamətlərə də üstünlük verilməsi məqsədə uyğun olardı:

- istehsalın ölkənin iqtisadi potensialına, daxili tələbatına və BƏB-də malik olduğu üstünlüklərinə uyğun ixtisaslaşmasının təmin olunması (bu məsələnin həlli istehsalın, tələbatın və xarici ticarətin strukturları arasında yaranmış uyğunsuzluqların aradan qaldırılmasına səbəb olar ki, bu da öz növbəsində mövcud potensialdan daha səmərəli istifadə olunması ilə nəticələnər);
- xarici turizmin inkişaf etdirilməsi;
- istehsal, sosial və bazar infrastruktur sahələrinin inkişaf etdirilməsi və s.

Üçüncü mərhələdə əvvəlki mərhələlərdən fərqli olaraq yeni, qabaqcıl texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sahələrin inkişafına diqqət artırılmalı və bu sahələrin bazasında elmtutumlu məhsul istehsalına üstünlük verilməlidir. Bu mərhələdə qeyri-səmərəli olan sahələrin aradan qaldırılması və bütövlükdə milli iqtisadiyyatın BƏB-in obyekiv qanunları əsasında inkişaf etməsinə nail olunması əsas məqsəd kimi qoyulmalıdır.

Ölkəmiz üçün bütöv milli iqtisadiyyatın yaradılması məsələsinin aktuallığını nəzərə alaraq bu mərhələlərin reallaşdırılması zamanı idxalı əvəzetmə siyasətinə, xüsusən də daxili bazarın qorunması siyasətinə də diqqət yetirmək lazımdır.

Təklif olunan strategiyanın həyata keçirilməsi mexanizminə gəldikdə isə, bu mexanizm, bir tərəfdən, formalaşmaqda olan bazar münasibətlərinə uyğun olmalı və azad sahibkarlığın təşəbbüskarlığını boğmamalı, digər tərəfdən isə, dövlətə qarşısına qoyduğu məqsədlərə nail olmağa imkan verməlidir. Həmin tələblər isə, indikativ planlaşdırma çərçivəsində təmin edilə bilər. Bu zaman direktiv planlaşdırmadan fərqli olaraq, məqsədlərlə (məsələn, dünya bazarındakı pay, ixracın strukturu, istehsalda ixracın payı və s.) yanaşı, bazar subyektlərini müəyyən edilmiş məqsədlərə nail olunması istiqamətində hərəkətə təhrik edən tənzimləmə alətləri də müəyyən edilməlidir. Bu zaman, əsasən, iqtisadi alətlərdən (məsələn; rüsumlar, vergilər, kreditlər, subsidiyalar, mükafatlar və s.) istifadə olunmalıdır. Onların tətbiqinin ümumi prinsipi kimi isə sərbəst bazar mühitinə daxil olarkən çətinliklərlə üzləşmiş müəssisələrə göstərilən yardımın səviyyəsinin tədricən azaldılması çıxış edir. Bu cür yardım təsərrüfat subyektlərinin sadəcə xarici rəqabətdən müdafiə edilməsinə deyil, onların rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilir. Həmin məqsədə nail olunması üçün xüsusi gömrük müdafiəsi qrafiki üsulundan istifadə oluna bilər. Bu zaman, əvvəlcə, sahənin sağlamlaşdırılması və inkişafı proqramı işlənir və onun mərhələləri təyin edilir. Birinci mərhələ üçün yüksək gömrük rüsumları müəyyən olunur, sonra tədricən aşağı salınır və axırda isə ya tamamilə ləğv olunur, yaxud da mümkün mi-nimum səviyyədə saxlanılır. Bu tədbirin təsirini artırmaq məqsədilə onu istehsalın modernləşdirilməsi üzrə kreditlərin verilməsilə də uzlaşdırmaq olar. Kredit sxemində proqramın birinci mərhələsi güzəştli, ödəmələrin növbəti

mərhələlərdən etibarən başlanması və əsas məbləğin isə sonuncu mərhələdə qaytarılması nəzərdə tutulur. Proqramların müddəti sahənin miqyası, onun kapital və əmək tutumluğu göstəriciləri ilə müəyyən edilir.

Bu istiqamətdə atıla biləcək konkret addımlara isə aşağıdakıları aid etmək olar:

- ixracyönümlü sahələrin vergi və kredit güzəştləri, dolayı (sürətli amortizasiya və s.) və birbaşa dövlət subsidiyaları kimi vasitələrlə təşviq olunması;
- strateji hesab edilən mal və xidmətlər istehsal edən ixracyönümlü sahələrin texniki-istehsal potensialının yenidənqurulmasının imkan daxilində dövlət büdcəsi hesabına maliyyələşdirilməsi;
- istehsal dövrü uzun olan ixracın (xüsusilə yüksək texnoloji məhsulların) dövlət kreditləşməsi sistemininin qurulması (bir qayda olaraq, dünya bazarlarında maşın və avadanlıqların sonradan ödəniş sxemi əsasında satıldığını nəzərə alsaq, müvafiq ixracın gücləndirilməsi üçün bu tədbirin vacibliyini sübut etməyə ehtiyac qalmaz);
- ixracyönümlü sahələrin mütərəqqi texnika və texnologiya əsasında modernləşdirilməsi və genişləndirilməsi məqsədilə, daxili investisiyaların məhdudluğunu nəzərə alaraq, xarici investisiyaların cəlb olunmasının stimullaşdırılması;
- ixracın dövlətin iştirakı ilə siyasi və qismən də kommersiya risklərindən sığortalanmasının təşkil edilməsi;
- xarici iqtisadi informasiyanın (dünya əmtəə bazarlarının konyunkturu, onların proqnozu, xarici ölkələrin təsərrüfat qanunvericiliyi, gömrük rejimi və s.) toplanması, işlənməsi və yayılması sisteminin qurulması;
- ixrac olunan məhsulların və xidmətlərin qiymətləri və keyfiyyəti üzərində nəzarət mexanizminin gücləndirilməsi (həmin mexanizm əsasən iki məqsədə - valyuta mədaxilinin artırılmasına və yerli istehsalçıların dempinqdə günahlandırılmasına yol verilməməsinə yönəldilməlidir. Bu zaman müvafiq orqanlara zəruri əsaslandırmalar təqdim edilməsi şərti ilə malların müəyyən olunmuş qiymətlərdən aşağı qiymətlərlə ixrac olunmasının mümkünlüy də nəzərdə tutulmalıdır);
- xarici dövlətlərdə Azərbaycan ixracına münasibətdə diskriminasiya xarakteri daşımayan ticarət və valyuta rejiminin tətbiq edilməsinə nail olunması;
- ÜTT-yə tam hüquqlu üzv olmaq istiqamətində işlərin gücləndirilməsi (potensial üstünlükləri və itkiləri müqayisə etmək, danışıqlar taktikasını müəyyən etmək, müvafiq təcrübəni öyrənmək, verilə biləcək güzəştlərin optimal variantını hesablamaq və s.);
- ixrac siyasəti sahəsində dövlət idarəetmə orqanları ilə sahibkar təşkilatları arasında əməkdaşlığın gücləndirilməsi (burada əsas vəzifə sahibkarların mütəşəkkilliyinin artırılmasına yardım göstərməkdən, onların səylərini xarici bazarlarda yerli istehsalın diskriminasiyası üzrə tədbirlərin izlənməsinə və həmin bazarlardakı fəaliyyətlərinin əlaqələndirilməsinə, xarici rəqabət nəticəsində vurulmuş zərər haqqında məlumatın toplanmasına yönəltməkdən ibarət olmalıdır. Belə əməkdaşlığın mümkiin formaları kiıııi dövlət və sahibkarlıq qurumlarının təkliflərinin dövri olaraq birgə müzakirə edilməsi, tərəflərin yüksək səviyyəli nümayəndələrinin iştiıak eldiyi, daimi əsasda fəaliyyət göstərən məşvərət şurasının qurulması və s. ola bilər);
- ixracın inkişafına yardımçı xidmətlər (menecment, injinirinq, siğorta, ixrac bazarlarının marketinq tədqiqi, məhsulların keyfiyyətinə nəzarət və sertifikatlaşdırılması və s.) sisteminin qurulması və s.

- zənnimizcə, yuxarıda qeyd olunanlar Azərbaycan Respublikasında ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması ilə əlaqədar müxtəlif proqram, qərar və tövsiyyələr hazırlamasında konseptual əsaslar kimi istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Azərbaycanın statistik göstəriciləri. İllik məcmuə, Azərbaycan Respublikası DSK-nin nəşri, 1993-2001-ci illər.

2. Azərbaycanın xarici ticarət əlaqələri (1996-2000-ci illər), Azərbaycan Dövlət Statistika Komitəsinin məcmuələri, 1997-2001.

3. «Azərbaycan Respublikasında ticarətin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Pre-zidentinin 23 iyul 1999-cu il tarixli 160 saylı fərmanı, «Azərbaycan» qəzeti, 24 iyul 1999-cu il.

4. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, B.: Qanun, 1997.

5. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Mərkəzinin elmi hesabatları, Bakı, 1995-2000-ci illər.

6. Экономическая безопасность: Производство-Финансы -Банки. / под ред. В.К.Сенчагова, М., ЗАО "Финстстинформ" , 1998, 621 с.

7. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu.

8. Həsənov R.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin yaradılmasının konseptual əsasları, Bakı, Elm, 1998, 343 s.

9. Malların idxalı və ixracına dair göstəricilər, Azərbaycan Respublikası DSK-nın bülleteni, 1991 -1996-cı illər.

10. Rüstəmov V.Ə. Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənmə sisteminin təkmilləşdirilməsi istiqamətləri. "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" İqtisadi İslahatlar Mərkəzinin elmi əsərlər toplusu, I buraxılış, Bakı, Elm, 2000, səh.65-86.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №3, Bakı 2002*

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏSƏRRÜFATINDA İNVESTİSİYA SİYASƏTİNİN BƏZİ METODOLOJİ MƏSƏLƏLƏRİ

**Əyyubov M.**
*2007-2008 -ci illərdə İİETİ-də baş elmi işçi-məsləhətçi, şöbə müdiri vəzifəsində işləyibdir*

İnvestisiya - ölkə xaricində və ölkə daxilində mənfəət əldə etmək üçün maddi istehsalat sferasına - sənaye, kənd təsərrüfatı və tikinti sahələrinə, həmçinin maddi istehsalat sahələrinə xidmət edən sferalara - infrastrukturaya (nəqliyyat, rabitə, tədarük və satış, bank-kredit, sığorta və s. sahələr) qoyulan uzunmüddətli kapital - maliyyə qoyuluşları kimi qəbul olunur. Ümumi üslubda investisiya milli təsərrüfatın iqtisadi potensialının, ölkənin milli sərvətinin artırılmasına, yeniləşdirilməsinə yönəldilmiş kapital qoyuluşlarının məcmusudur.

Ölkə iqtisadiyyat sisteminin aşağı səviyyəli hissəsi kimi investisiya-kapital qoyuluşları mürəkkəb iqtisadiyyat sistemlərinə aiddirlər. Ölkə investisiya sistemi hər biri dinamik xarakterli səkkiz elementdən ibarət olan mürəkkəb iqtisadiyyat sistemidir.

İnvestisiya sisteminin elementləri aşağıdakılardır:

1. İnvestisiya sisteminin mülkiyyət əsasları.
2. investisiya sisteminin maliyyə mənbələri.
3. investisiya vəsaitlərinin qoyuluşu istiqamətləri.
4. İnvestisiya vəsaitləri qoyuluşunun maliyyələşdirilməsi əməliyyatları.
5. İnvestisiya kompleksləri.
6. Sistemdaxili əlaqələr, münasibətlər, qanunlar, qanunauyğunluqlar.
7. İnvestisiya sisteminin milli təsərrüfatı təşkil edən digər sistemləri ilə münasibətləri.
8. Sistemdaxili proseslər, investisiya sisteminin ölkənin mürəkkəb milli təsərrüfatı sisteminin digər sistemləri ilə əlaqəli münasibətləri əsasında formalaşan fəaliyyati mexanizmi.

Ümumiləşdirilmiş sistem nəzəriyyəsinə əsasən investisiya sistemi bütünlük, quruluş, ierarxiya, əlaqə, münasibət və sair ümumi müddəalara malikdir. Ölkə iqtisadiyyatında investisiya - kapital qoyuluşlarının bir sistem kimi öyrənilməsi, investisiya sistemində aparılan elmi tədqiqatlar və hesabatların ölkədə formalaşmış həqiqi investisiya siyasətinin mahiyyətinin düzgün açıqlanmasına zəmin yaradır. Ölkə iqtisadiyyat sistemində maliyyə investisiyaları və real investisiyalar fərqləndirilir. Maliyyə investisiyalarına korporasiyalar, şirkətələr və digər hüquqi şəxslər, habelə dövlət tərəfindən buraxılmış səlimlərin, istiqrazların, qiymətli kağızların alınması üçün sərf olunan maliyyə - kapital xərcləri (qoyuluşları) aiddirlər. Real investisiyalara isə əsas istehsal fondlarının (binalar, qurğular, texniki və texnoloji

avadanlıqlar və s.), qeyri-istehsal fondlarının yaradılmasına, yaşayış binalarının tikintisinə, əmtəə-material ehtiyyatlarının artırılmasına sərf olunan maliyyə-kapitai xərcləri aid edilirlər.

Ölkələrdə investisiyalar fərdlər, xüsusi mülkiyyətli hüquqi şəxslər və dövlət tərəfindən aparılır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə xüsusi investisiyalar daha çox gəlir gətirən istehsal və xidmət - infrastruktura sahələrinə qoyulursa, dövlət tərəfindən qoyulan investisiyalar az rentabelli və rentabelli olmayan, lakin ölkənin milli maraqlarına cavab verən, həyati əhəmiyyət kəsb edən sahələrə, sferalara qoyulurlar.

Xüsusi investisiyaları korporasiyalar, şirkətlər, digər hüquqi şəxslər tərəfindən özlərinə məxsus olan daxili mənbələr (amortizasiya ayırmaları və bölünməmiş mənfəət hissəsi) hesabına qoymaqla yanaşı, cəlb olunmuş vəsaitlər (uzunmüddətli kreditlər və qiymətli kağızlar buraxılışı) hesabına da apara bilərlər. Dövlət tərəfindən aparılan investisiyaların maliyyə mənbəyini isə vergilər, rüsumlar, daxili və xarici borclar, dövlət mülkiyyətli müəssisələr və hüquqi şəxslərin mənfəətləri, dövlət tərəfindən buraxılan yeni pullar təşkil edirlər.

İnvestisiyaların maliyyələşdirilməsi əməliyyatları banklarda kommersiya, investisiya, dövlət) və qeyri-bank maliyyə təşkilatlarında, əmanət xəzinələrində, sığorta şirkətlərində, investisiya trestlərində (bir neçə təşkilatların inhisarçı birləşməsi), təqaüd fondlarında və bu kimi təşkilatlarda, toplanmış sərbəst pul vəsaitləri hesabından həyata keçirilir.

İnvestisiya-kapital qoyuluşlarının proqramlar üslubunda hazırlanması və həyata keçirilməsi, yəni, yeni istehsalat güclərinin yaradılması, yeni qeyri-istehsalat təyinatlı əsas fondların və yaşayış evlərinin tikilməsi, investisiya kompleksi tərəfindən həyata keçirilir. Bununla əlaqədar tikinti materialları kompleksinin, maşınqayırma kompleksinin və tikinti kompleksinin ölkə iqtisadiyyatının həqiqi inkişafında müstəsna yerləri mövcuddur. Qeyd olunanlarla yanaşı, kənd təsərrüfatına yönəldilən və meliorasiya işlərinin aparılmasına, kənd təsərrüfatında, əsas istehsalat fondu kimi, torpaq-əkin sahələrinin yaradılmasına yönəldilmiş vəsaitləri də investisiya vəsaitləri sayılırlar.

Yuxarıda qeyd olunanlarla yanaşı, investisiya sistemində onu təşkil edən yarımsistemlər, elementlər arasında yaranmış əlaqələr, əlaqələr əsasında formalaşan münasibətlərin öyrənilməsi, formalaşmış münasibətlərin səbəb-nəticə əlaqələrinə, qanunlara çevrilməsinin təyin olunması mühüm əhəmiyyət kəsb edir. Qeyd olunanlardan əlavə investisiya sisteminin mürəkkəb milli təsərrüfat sisteminin digər aşağı səviyyəli, investisiya sistemləri ilə eyni səviyyəli yarımsistemləri və digər elementləri ilə qarşılıqlı münasibətlərinin öyrənilməsi, investisiya sisteminin mürəkkəb milli təsərrüfat sisteminə ümumi təsirinin səviyyəsinin təyin olunması və ümumiyyətlə, investisiya sisteminin formalaşmış fəaliyyəti mexanizminin müəyyənləşdirilməsi birbaşa investisiya siyasətinin vəziyyətini təyin etməyə zəmanət verir.

Azərbaycan dövlət statistika komitəsinin məlumatlarına əsasən 2001-ci ildə bütün maliyyə mənbələri hesabına 2005,4 mld. manatlıq yeni əsas fondlar istifadəyə verilmişdir. İstehsal təyinatlı əsas fondlar bütün əsas fondların 79,1 faizini təşkil etmişdir. Hesabat ilində istifadəyə verilmiş əsas fondların 1458,8 mld.manatı (72,7 faizi) dövlət mülkiyyətinə, 546,6 mld.manatı (27.3 faizi) qeyri-dövlət mülkiyyətinə məxsusdur.

Hesabat ilində bütün mülkiyyət formalarından olan müəssisə və təşkilatlar iqtisadiyyatın və sosial sferanın inkişafına bütün maliyyə mənbələri hesabına 5649,2 mld.manat və ya əvvəlki ilin səviyyəsinin 117.1 faizi qədər əsas kapitala investisiya

yönəldilmişdir. İnvestisiyanın 4980,5 mld.manatı və ya 88,2 faizi istehsal təyinatlı obyektlərin tikintisinin davam etdirilməsinə sərf edilmişdir. Tikinti - quraşdırma işlərində istifadə edilmiş investisiyaların həcmi əvvəlki illə müqayisədə 5,9 faiz artmış və 1773,3 mld. manat olmuşdur.

Milli iqtisadiyyatda investisiya siyasətinin müəyyənləşdirilməsində aparılan tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. İnvestisiya siyasətinin makroiqsadiyyat səviyyəsində müəyyənləşdirilməsinin əsasını ölkənin milli iqtisadiyyat sisteminin inkişafı strategiyası təşkil etməlidir. Bununla yanaşı, öz növbəsində investisiya siyasətinin məqsəd və vəzifəsi ölkənin milli iqtisadiyyat sisteminin inkişaf strategiyasının yerinə yetirilməsini təmin etməkdən ibarət olmalıdır. Qeyd olunanlarla əlaqədar, ölkənin milli iqtisadiyyat sisteminin inkişafı strategiyası və ölkə milli iqtisadiyyatı sistemində formalaşdırılan investisiya siyasəti vəhdət təşkil edərək bir-birilərini tamamlamalıdırlar. Belə bir vəhdət amilinin mövcudluğu imkan verir ki, ötən zaman dövrü üçün makroiqtisadiyyat səviyyəsində investisiyaların - kapital qoyuluşlarının tədqiqatını aparmaqla, ötən dövrdə mövcud olmuş iqtisadiyyat sisteminin inkişafı strategiyasının xüsusiyətləri açıqlansın. Ölkənin milli iqtisadiyyat sisteminin inkişafı strategiyası olmadıqda belə, ölkə iqtisadiyyatında investisiya - kapital qoyuluşları prosessi davam edir. Bu halda ölkə iqtisadiyyatı sistemində kapital qoyuluşları makro-iqtisadiyyat səviyyəsi maraqlarını yox, xaotik olaraq mikroiqtisadiyyat səviyyəsi maraqlarını təmin edir. Mikro-iqtisadiyyat səviyyəsi makro-iqtisadiyyatın əsasını təşkil etməsi ilə əlaqədar, mikro-iqtisadiyyat səviyyəsində investisiya qoyuluşları son nəticədə makroiqtisadiyyatda investisiya siyasətini formalaşdırır. Nəticə ehtibarı ilə makroiqtiqsadiyyat səviyyəsində investisiya prosesini qiymətləndirməklə, milli iqtisadiyyat sisteminin mövcud, özbaşına formalaşan inkişafı meyillərini müəyyənləşdirmək mümkün olur. Beləliklə, investisiya proseslərinin dövrlərində, zaman intervalında tədqiqatı, dinamik hərəkətinin müəyyənləşdirilməsi, mövcud halının təhlili və inkişaf meylinin müəyyənləşdirilməsi mühüm elmi və praktiki əhəmiyyətə malikdir.

**Azərbaycan Respublikası milli təsərrüfatının maddi istehsalat sferasına yönəldilən real investisiyaların makroiqtisadiyyat analitikası**

Ölkənin inkişafı səviyyəsi, ilk növbədə, onun milli təsərrüfat sisteminin texniki-texnoloci səviyyələrindən asılı olurlar. Bununla yanaşı, ölkə iqtisadiyyatının miqyası istehsalat güclərinin texniki və texnoloci səviyyəsindən və miqyasından asılıdır. Qeyd olunan baxımdan ölkələrin iqtisadi inkişafının təminatı onların milli təsərrüfat sistemlərinin istehsalat potensiallarının mütəmadi, davamlı və ardıcıl olaraq genişləndirilməsi, yeniləşdirilməsi ilə əlaqədar olurlar.

İnvestisiyalar sisteminin real investisiyalar sferasını əsa istehsalat fondlarının, əsas qeyri - istehsalat fondlarının, yaşayış binalarının yaradılmasına yönəldilən vəsaitlər və əmtəə - material ehtiyatlarının artırılmasına yönəldilən vəsaitlər məcmusu təşkil edirlər.

Ötən əsrin 90-cı illərində Azərbaycan Respublikasının iqtisadı inkişafı əsasən tənəzzül xarakterli olmuşdur. Azərbaycan iqtisadiyyatının tənəzzülünün çoxsaylı siyasi, iqtisadi, ideoloci, sosial xarakterli səbəbləri ötən illər ərzində elmi tədqiqatlarda, məqalələrdə, Azərbaycan hökumətinin rəsmi sənədlərində açıqlanmışdır. Bunlarla yanaşı, son 7 ildə Azərbaycan iqtisadiyyatının inkişaf strategiyasının yalnız neft hasilatı sənayesini əhatə etməsi, sənayenin emal sektorunun, kənd təsərrüfatının, tikinti kompleksinin iqtisadi inkişaf strategiyasından kənarda qalması, ən başlıcası, daxili imkanlar hesabına milli təsərrüfatın inkişafının investisiya kompleksi, tikinti materialları kompleksi, maşınqayırma kompleksi,

sənaye - aqrar tikintisi kompleksi, meliorasiya təsərrüfatı kompleksi tərəfindən təminatının formalaşdırılmaması ölkənin iqtisadi inkişaf strategiyasının, o cümlədən aparılan investisiya siyasətinin nöqsanı kimi saymaq olar.

Dövlət statistika komitəsinin məlumatlarına görə (cədvəl № 1), 1995-2000-ci illər ərzində bütün mənbələr üzrə Azərbaycan milli təsərrüfatına yönəldilən investisiyaların məbləği 8115,6 mln.$, o cümlədən: 1995-ci ildə - 544.0 mln. $; 1996-cı ildə 932.5 mln. $ 1997-ci ildə -1694.5 mln. $; 1998-ci ildə - 1932,2 mln. $; 1999-cü ildə -1571,0 mln. $; 2000-ci ildə isə 1441,4 mln. $ təşkil etmişdir.

Azərbaycan milli təsərrüfatına, qeyd olunan illər ərzində, yönəldilən 8115,6 mln $ investisiya məbləğinin 5793,5 mln. $ və ya 71,4 faizini xarici ölkələrdən qoyulmuş vəsaitlər, 2322,1 mln. $ və ya 28,6 faizi isə ölkədaxili maliyyə mənbələri hesabından olan vəsaitlər təşkil etmişlər.

Xarici ölkələrin transmilli korporasiyaları tərəfindən 1995-2000 illər ərzində Azərbaycan milli təsərrüfatına yönəldilmiş təqribən 5,8 mld. $ investisiya məbləğinin çoxluğunu və ya azlığını təsəvvür etmək üçün, qeyd etmək istəyirik ki, ancaq 1999-cu il ərzində təkcə Exxon Mobil korporasiyasının ümumi gəlirləri 160,9 mld. $ təşkil etmişdir2. Exxon Mobil korporasiyasının Azərbaycan neft sektoruna investisiya qoyuluşlarının həcmi isə, 14 offşor kontaktlarında təqribən 3,8 mld. $ olacağı gözlənilir.

İqtisadiyyatın ümumi inkişafının artma səviyyələri milli təsərrüfat sahələrinə yönəldilən investisiya məbləğlərinin səviyyələrindən asılıdır. Milli təsərrüfat sistemində əsas istehsalat fondlarının, əsas qeyri - istehsalat fondlarının, mənzil tikintisinin, həmçinin maddi dövriyyə vəsaitləri ehtiyatlarının artırılmasına yönəldilən vəsaitlər real investisiya vəsaitlərini təşkil edirlər.

Cədvəl 1.

Milli təsərrüfata yönəldilmiş investisiyalar
(cari qiymətlərlə, mln$)

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiyalar,cəmi | 544,0 | 932.5 | 1694,5 | 1932.2 | 1571,0 | 1441,4 |
| O cümlədən: | | | | | | |
| 1)ölkədaxili mənbələr hesabına | 168,9 | 311,5 | 387,2 | 460,2 | 479,9 | 514,4 |
| 2)xarici ölkələrin maliyyə mənbələri hesabına | 375,1 | 621,0 | 1307,3 | 1472,0 | 1091,1 | 927,0 |

Mənbə: Azərbaycan Dövlət statistika komitəsi. Müstəqil Azərbaycan 10 il, rəsmi nəşr, Bakı, Səda, 2001il, səh.272, cədv.13.1, səh.313, cədvəl 14.8. rəqəmləri əsasında hazırlanmışdır.

2 saylı cədvəldən göründüyü kimi, 1995-2000 illər ərzində milli təsərrüfata yönəldilən real investisiyaların ümumi məbləği 5596,32 mln. $ təşkil etmişdir. Bu məbləğ, Azərbaycan milli təsərrüfatına yönəldilmiş 8115,6 mln. $ ümumi investisiya qoyuluşlarının 69,0 faizini təşkil etmişdir. Baxılan illər ərzində 5596,32 mln. $ real investisiyaların 4676,6 mln. $ və ya 83,6 faizi əsas istehsalat fondlarının yaradılmasına yönəldilmişdir. Real investisiya

məbləğlərinin səviyyələrinə maddi dövriyyə vəsaitləri ehtiyatlarının azalaraq dəyişməsi mənfi təsir göstərmişdir. 1995-2000 illər ərzində qeyd olunan amilə görə real investisiya məbləği səviyyəsi - 187,18 mln. $ azalmışdır.

Metodoloji baxımdan, dövriyyə vəsaitlərinin artırılmasına yönəldilən vəsaitlərin investisiya xarakterli vəsaitlər statusunda statistik qeydiyyatlarının aparılmaması Azərbaycan hökuməti tərəfindən investisiya siyasətinin düzgün formalaşdırılmasına mənfi təsir göstərir.

Cədvəl 2.

1995-2000 illər ərzində Azərbaycan milli təsərrüfatına yönəldilmiş real investisiyalar (cari qiymətlərlə, mln.$)

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| Real investisiyalar, cəmi | 454.53 | 746,73 | 1032,42 | 1329,30 | 1035,08 | 998,26 |
| o cümlədən | | | | | | |
| əsas istehsalat fondlarına (istehsalat təyinatlı) | 141,20 | 582,16 | 882.26 | 1193,11 | 989,51 | 884,36 |
| əsas qeyri istehsalat fondlarına | 60.33 | 48,72 | 124.02 | 120,52 | 47,73 | 74,98 |
| 3) mənzil tikintisinə | 56.51 | 119,27 | 131.28 | 111,13 | 90.19 | 122,22 |
| 4) maddi dövriyyə vəsaitləri ehtiyatlarına (+), (-) | + 196.49 | -3,42 | -109,14 | -95,46 | -92.35 | -83.30 |

Mənbə: Dövlət statistika komitəsi, Müstəqil Azərabaycan 10 il. rəsmi nəşr Statistika məcmusu.

Yuxarıda qeyd olunduğu kimi, ölkənin milli təsərrüfatında real investisiyalar, əsas ehtibarı ilə, əsas istehsalat fondlarının yaradılmasına yönəldilir. Ölkənin iqtisadi inkişafının özülünü maddi istehsalat sferası - sənaye, kənd təsərrüfatı, tikinti sahələri təşkil edirlər. Bununla əlaqədar, maddi istehsalat sferasına, o cümlədən sənaye, tikinti, kənd təsərrüfatı sahələrinə yönəldilmiş investisiyaların həcmləri əhəmiyyət kəsb edirlər. Dövlət statistika komitəsinin məlumatları əsasında aparılmış tədqiqatlar (cədvəl №3) göstərir ki, 1995-2000 illər ərzində Azərbaycan milli təsərrüfatının maddi istehsalat sferasına yönəldilmiş real investisiyalar məbləği 4055,83 mln. $, o cümlədən : sənaye sahəsinə 3972,16 mln. $ və ya bütün real investisiya məbləğinin 97,94 faizi, kənd təsərrüfatı sahəsinə 51,5 mln. $ və ya 1,27 faizi, tikinti sahəsinin istehsal güclərinə 32,17 mln. $ və ya 0,79 faizi təşkil etmişlər.

Qəbul olunmuş iqtisadi inkişaf modelləri nəzəriyyələrinə əsasən, maddi məhsul istehsalatı həcmlərinin artımı ilə maddi istehsalat sferalarına yönəldilən real investisiyaların məbləğləri həcmləri düz mütənasib olaraq asılıdırlar. Apardığımız tədqiqatlar göstərir ki, 1995-2000 illər ərzində Azərbaycan milli təsərrüfatında ümumi maddi məhsul istehsalı həcmi $M_ü$ ilə maddi istehsalat sferasında əsas istehsalat fondlarının yaradılmasına yönəldilmiş real investisiyalar məbləğləri $İ_r$ aralarında asılılıq (mln. $-la) aşağıdakı qaydada formalaşmşdır:

$$M_ü = 3052,966 + 2,10 \cdot İ_R \qquad (1)$$

Cədvəl 3.

1995 - 2000 illərdə ümumi maddi istehsal həcmləri və maddi istehsalat sferasına yönəldilən real investisiyalar (cari qiymətlərlə, mln. $)

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000. |
|---|---|---|---|---|---|---|
| I. Ümumi maddi istehsal həcmi | 2897,80 | 4166,35 | 4584,25 | 4606,22 | 4936,20 | 5658,82 |
| II. Ümumi maddi istehsal həcminin əvəlki ilə nisbətən artımı | 825,56 | 1268,55 | 417,90 | 21,97 | 329,98 | 722,62 |
| III. Qeyri-neft maddi istehsalat sferasında maddi istehsal həcminin əvvəlki ilə nisbətən artımı (+), azalması (-) | 947,91 | 1312,90 | 428,08 | 39,62 | 171,22 | 208,24 |
| IV. Maddi istehsalat sferasının əsas istehsalat fondlarına yönəldilmiş real investisiyalar, | 125,40 | 552,86 | 821,92 | 1085,67 | 721,55 | 748,43 |
| V. Qeyri - neft maddi istehsalat sferasının əsas is-tehsalat fondlarına yönəldilmiş real investisiyalar | - 14,40 | 136,66 | 41,85 | 193,87 | 177,05 | 202,33 |
| IV. İstehsal təyinatlı əsas fondların istifadəyə veril-məsi | 49,14 | 211,71 | 286,73 | 275,00 | 505,34 | 605,87 |

Mənbə: Dövlət statistika komitəsi, Müstəqil Azərbaycan 10 il, rəsmi nəşr statistika məcmusu, Bakı, Səda, 2001 il, səh.38 , cədvəl 1.1; səh.272, cədvəl 13.1; səh.313, cədvəl 14.3, cədvəl 14.4; səh.389, cədvəl 17.1; səh.390, cədvəl 17.2, cədvəl 17.3; səh.394, cədvəl 17.4; səh.444, cədvəl 18.1; səh. 493, cədvəl 19.1; səh.494, cədvəl 19.4; səh.495. cədvəl 19.5; səh.496-497, cədvəl 19.6; səh.502, cədvəl 19.11 rəqəmləri əsasında hesablanmışdır

Məlumdur ki, maddi məhsullar istehsalatının artımını istifadəyə verilmiş əsas istehsalat fondları təmin edirlər. 1995-2000 illər ərzində əsas fondların yaradılmasına yönəldilmiş 4055,83 mln.$ vəsaitin cəmisi 1933,79 mln.$, və ya yönəldilmiş vəsaitlərin ümumi məbləğinin 47,7 faizi istifadəyə verilmişdir. Təbii ki, əsas fondların yaradılmasına yönəldilən və istifadəyə verilən əsas fondlar məbləğləri arasında zaman ləngiməsi mövcuddur. Bununla yanaşı 1995-2000 illər ərzində, milli təsərrüfatda ümumi maddi məhsul istehsalı həcmi ilə istifadəyə verilmiş əsas istehsalat fondları məbləğləri FR aralarında formalaşmış asılılıq (mln. $-la) :

$$M_{ü} = 3094,35 + 4,28 \cdot F_R \qquad (2)$$

düsturu ilə ölçülür. Alınmış (1) və (2) asılılıqları göstərir ki, əgər maddi istehsalat sferasına yönəldilmiş real investisiyaların bir vahidi ümumi maddi istehsalat artımını 2,1 hissə təmin edirsə, artıq istifadəyə verilmiş, istismar olunan əsas istehsalat fondlarının bir vahidi, ümumi maddi istehsal artımını daha yüksək 4,28 vahid təmin də bilər.

Yuxarıda göstərilmiş (1) asılılığı vasitəsi ilə istehsalata yönəldilməsi tələb olunan realinvestisiya məbləğlərini (mln. $- la);

$$İ_R=(M_0- 3052,966) /2,1 \qquad (3)$$

düsturu ilə hesablamaq mümkündür. Həmçinin maddi istehsalat sferasında istifadəyə verilməsi tələb olunan əsas istehsalat fondlarının həcmini (2) asılılığı əsasında:

$$F_r = (M_ü - 3094,35) /4,28 \qquad (4)$$

asılılığı ilə hesablamaq olar. Aparılmış hesabatlar göstərir ki, Azərbaycan Respublikasında ümumi maddi istehsalat həcmini dəyərlə 10,0 mld. $ məbləğə çatdırmaq üçün əlavə olaraq təqribən 1,6 mld. $ dəyəri olan istehsal təyinatlı əsas fondların istifadəyə verilməsi tələb olunur.




**Qrafik 1. 1995-2000 illər ərzində milli təsərrüfatda ümumi maddi məhsul istehsalatı həcmləri ($M_Ü$) ilə əsas istehsalat fondlarına yönəldilmiş real investisiyalar ($İ_R$) və istifadəyə verilmiş əsas istehsalat fondları ($F_R$) arasında formalaşmış asılılıqların qrafikləri.**

Şəkil 1.

Ölkədə formalaşdırılan investisiya siyasətinin əsasını maddi istehsalat sferasında istehsal güclərinin yaradılmasının təşkil edilməsinin iqtisadi zəruriliyi labüddür. Bununla yanaşı, milli iqtisadiyyat sistemində maddi istehsalat həcmini artırmaq üçün istehsal təyinatlı əsas istehsalat fondlarına yönəldilən real investisiyaların və istifadəyə verilməsi tələb olunan əsas istehsalat fondlarının minimum və maksimum həcmləri mövcud olurlar. Fikrimizcə, bu amil onunla əlaqədardır ki, ölkə milli iqtisadiyyat sistemlərinin real miqyasları, müvafiq ölçüləri və imkanları olduqları üçün, onlar, yəni ölkə iqtisadiyyat sistemləri həddindən artıq az (səmərəsiz) və həmçinin həddindən çox olan əsas istehsalat fondlarına yönəldilmiş real investisiya həcmlərinə adekvat cavab vermirlər. Aparılmış tədqiqatlar göstərir ki, Azərbaycan milli təsərrüfatında maddi istehsal həcmini artırmaq üçün maddi istehsalat sferasında əsas istehsalat fondlarının artırılmasına yönəldilən real investisiya həcmlərini (mln.$- la):

$$M_ü= 1219,3127 - 0,9195 \cdot İ_r \qquad (5)$$

asılılığından: $1219,3127 - 0,9195\, İ_r > 0$

$$İ_r < 1219,3127: 0,9195 = 1326,061 \text{ mln. } \$ \qquad (6)$$

ilə təyin etmək mümkündür. Aparılmış tədqiqatlar göstərir ki, milli təsərrüfat sisteminin hazırda mövcud formalaşmış fəaliyyəti mexanizmi Azərbaycanda maddi istehsal həcmini artırmaq üçün milli təsərrüfatın maddi istehsalat sferasının əsas istehsalat fondlarına yönəldilən real investisiyaların məbləğlərinin, hər il orta hesabla, 1326,1 mln.$ məbləğindən aşağı olmasını tələb edir.

Həmçinin, milli təsərrüfat sisteminin maddi istehsalat sferasınında məhsul istehsalını artırmaq üçün hər il orta hesabla real investisiya mənbələrindən istifadəyə verilməsi tələb olunan əsas istehsalat fondlarının həcmlərini (mln. $ -la):

$$M_{ü} = 781,4023 -0,5698 \bullet F_r \quad (7)$$

asılılığından:

$$781,4023 - 0,5698\ F_r > 0$$

$$F_r < 781,4029 : 0,5698 = 1371,3624 \quad (8)$$

ilə təyin etmək mümkündür. Yuxarıda göstərilən hesablamalar ona dəlalət edir ki, Azərbaycan milli təsərrüfat sisteminin hazırkı fəaliyyəti səviyyəsi maddi istehsalat sferasında əsas istehsalat fondlarına yönəldilən real investisiyaların 1326,0 mln. $ məbləğindən yuxarı və istifadəyə verilən əsas istehsalat fondlarının 1370,0 mln. $ məbləğindən yuxarı olan səviyyələrinə adekvat cavab verməyə, yəni əsas istehsalat fondlarına yönəldilmiş real investisiyalar hesabından maddi məhsul artımına hazır deyildir; Qeyd olunanlarla əlaqədar əsas istehsalat fondlarının genişləndirilməsi hesabına milli təsərrüfat sistemində məhsul istehsalının dinamik artımını real investisiyalar mənbəyindən təmin etmək üçün hər təsərrüfat ilində, mütəmadi olaraq proporsional qaydada əsas istehsalat fondlarına yönəldilmiş 2,7 mld. $ real investisiya məbləğinin investisiya prosesində hərəkətdə olması zəruridir.

Yuxarıda qeyd olunduğu kimi, ölkə iqtisadiyyat sistemlərində maddi istehsalat sferalarına yönəldilən investisiya məbləğlərinin aşağı, minimum səviyyələri mövcuddur. Aparılmış hesabatlara əsasən 1995-2000 illər ərzində Azərbaycan Respublikasının milli təsərrüfat sisteminin əsas istehsalat fondlarının yaradılmasına yönəldilmiş 4055,83 mln.$ real investisiya məbləğlərinin 737,36 mln. $ məbləği İrm və ya 18,2 faizi maddi istehsalat sferasının qeyri- neft sektoruna istiqamətləndirilmişdir. Maddi istehsalat sferasının qeyri-neft məhsulları istehsalı sahələrində maddi məhsul istehsalının həcminin Mm artırılması üçün yönəldilən real investisiya məbləğlərinin minimum səviyyəsini (mln. $ - la);

$$M_m = - 235,8701 + 3,0988 \bullet İ_{rm} \quad (9)$$

asılılığından minimum $İ_{rm}$ = 76,12 mln. $ olmasını təyin etmək mümkündür. Tədqiqatlar göstərir ki, Azərbaycan milli təsərrüfatının qeyri-neft maddi istehsalat sferasında əsas istehsalat fondlarının genişləndirilməsinə yönəldilən real investisiya məbləğlərinin 76,0 mln. $- dan aşağı olan səviyyəsi qeyri-neft maddi məhsullarının istehsalatının artımına təminat vermirlər.

Öncə qeyd olunduğu kimi, maddi dövriyyə vəsaitləri ehtiyatlarının, artırılmasına yönəldilən maliyyə vəsaitləri real investisiyalara aiddirlər. Qeyd olunan investisiya istiqamətinin investisiya siyasətində, milli təsərrüfatın fəaliyyətində dolğunluqla nəzərə alınmaması maddi istehsalat sferasının dinamik fəaliyyətinə mənfi təsir göstərir. Statistik məlumatlara görə, 1996-2000 illər ərzində maddi dövriyyə vəsaitlərinin artması yox, azalması prosesi baş vermişdir. Baxılan dövrdə rəsmi statistik məlumatlara görə, maddi istehsalat sferasında dövriyyə vəsaitləri ehtiyyatları D 187,18 mln.$ həcmində azalmışdır (bax cədvəl 2). Maddi dövriyyə vəsaitləri ehtiyatlarının azalması o zaman maddi istehsalat prosessinə mənfi təsir göstəmir ki, azalma müqabilində ekvivalent olaraq dövriyyə vəsaitlərinin dövriyyəlik vaxtı azalsın, təsərrüfat ili ərzində dövriyyə vəsaitlərinin dövrləri sayı artsın. Lakin milli təsərrüfat sistemində mövcud olan qarşılıqlı ödəməmələr problemi əsas vermir ki, dövriyyə vəsaitlərinin dövriyyəlilik vaxtının azalması barədə məntiqi fikir irəli yürüdülsün.

Dövlət statisika komitəsinin məlumatları əsasında aparılmış hesabatlar göstərir ki, 1995-ci ildə müəssisə və təşkilatlar arasında qarşılıqlı ödəməmələr məbləği 2146,3 mln. $ və

ya ümumi maddi istehsalatın həcminin 44,9 faizini, 1996-cı ildə 3414,6 mln. $ və ya eyni qaydada 69,7 faizni, 1997-ci ildə 3031,1 mln. $ və ya 59,5 faizini, 1998-ci ildə 3747,0 mln. $ və ya 69,1 faizini, 1999-cu ildə 3475,5 mln. $ və ya 58,0 faizini, və nəhayət, 2000-ci ildə 3887,7 mln. $ və ya 60,9 faizini təşkil etmişdir4. 2 saylı cədvəldən göründüyü kimi, 1996-2000 illər ərzində maddi istehsalat sferasında dövriyyə vəsaitlərindən 383,67 mln. $ məbləğ istehsalat proseslərindən çıxarılmışdır. Qeyd olunan dövriyyə vəsaitlərinin istehsalat proseslərindən çıxarılması halları ümumi maddi istehsalat həcminə mənfi təsirini göstərmişdir. Aparılmış hesabatlar göstərir ki, 1996-2000 illərdə ümumi maddi məhsul istehsalı ilə dövriyyə vəsaitlərinin istehsalat proseslərində azalması halı ilə formalaşmış asılılığı, mln. $ - hesabı ilə:

$$M_{ü} = 4316,659 - 6,17 \bullet D \qquad (10)$$

düsturu ilə ölçmək olar. Göstərilən asılılığa əsasən 1996-2000 illər ərzində, maddi istehsalat proseslərindən 383,67 mln. $ vəsaitin çıxarılması nəticəsində, əlavə olaraq 2367,3 mln. $ maddi məhsul, o cümlədən 1996-ci ildə - 21,1 mln.$, 1997-ci ildə - 673,4 mln. $, 1998-ci ildə - 589,0 mln. $, 1999-cu ildə - 569,8 mln. $ və 2000 ildə isə 514,0 mln. $, istehsal edilməmişdir.

Göstərilən (1),(2),(3),(4),(5),(6),(7),(8),(9),(10) asılıqlarını Azərbaycan milli təsərrüfatında real investisiya qoyuluşları üçün baza düsturları kimi qəbul etmək olar. Lakin hər təsərrüfat ilinin sonunda milli təsərrüfat sisteminin fəaliyyəti nəticələri əsasında bu asılıqların korreksiya olunması tələb olunur. Yuxarıda aparılmış analitik hesabatlarla əlaqədar, aşağıdakı nəticələr əhəmiyyət kəsb edirlər.

Birincisi, milli təsərrüfatda aparılan investisiya siyasəti əsasən real investisiyalar, yəni maddi istehsalat sferasında əsas istehsalat fondlarının yaradılması, xarakterli olmalıdır. Həmçinin, maddi istehsalat sferasında əsas istehsalat fondlarının genişləndirilməsinə yönəldilən real investisiyaların məbləğinin minimum və maksimum həddən yuxarı - aşağı olmasını nəzarətdə saxlanılmalıdır və hökumətin makroiqtisadiyyatı tənzimləmə mexanizmində öz yerini tutmalıdır.

İkincisi. Azərbaycan Respublikası milli təsərrüfat sisteminin əsas istehsalat fondlarına yönəldilən real investisiyaları daha yüksək məbləğlərdə qəbuletmə imkanlarının, parametrlərinin öyrənilməsi və təyin edilməsi başlıca vəzifələrdəndir.

Üçüncüsü. Əsas istehsalat fondlarının istifadəyə verilməsi prosesinin vaxtının azaldılması ümumi maddi istehsalat həcminin artmasına böyük təsir edir. Belə ki, (1) asılılıqla bir vahid real investisiya vəsaitinin maddi istehsalat sferasına yönəldilməsi 2,1 hissə maddi istehsal artımına təminat verirsə, (2) asılılığı göstərir ki, bir vahid real investisiya vəsaitinin istismara verilməsi 4,28 vahid ümumi maddi məhsul artımına təminat verir.

Dördüncüsü, başlıcası, Azərbaycan milli təsərrüfat sisteminin fəaliyyəti mexanizmi elə formalaşmışdır ki, real investisiyaların maddi dövriyyə vəsaitlərinin ehtiyyatlarının yönəldilməsinə, artırılmasına real iqtisadi şərait yaranmamışdır. Əgər bir vahid real investisiya vəsaitinin əsas istehsal fondu kimi istismara qəbul edilməsi, (2) asılılığına əsasən, 4,28 vahid maddi məhsul artımına təminat verirsə, bir vahid real investisiyanın maddi dövriyyə ehtiyyatlarının artımına yönəldilməsi, (5) asılılığına əsasən, 6,17 vahid ümumi maddi məhsul artımına təminat verə bilər. Bu o deməkdir ki, 1,0 mld. $ real investisiya vəsaitlərinin əsaslı istehsalat fondu kimi istismara qəbul edilməsi əlavə olaraq 3,04 mld. $ ümumi maddi məhsul istehsalına təminat verirsə, qeyd edilən 1,0 mld. $ real investisiya vəsaitinin əlavə dövriyyə vəsaiti kimi, maddi məhsul istehsalatı sferasına yönəldilməsi əlavə olaraq 6,17 mld. $ ümumi maddi məhsul istehsal etməyə təminat yaradır. Bununla əlaqədar müasir investisiya siyasətində

real investisiyaların balanslı, optimal qaydada qarşıya qoyulmuş məqsəd və vəzifələrə görə istiqamətlər arasında bölgüsünün aparılması məqsədəuyğundur.

**Təkrar istehsalat prosesində formalaşan investisiya mənbələri**

Milli təsərrüfatda həyata keçirilən investisiya proseslərinin maliyyə mənbələri çoxsaylıdır. İlk növbədə qeyd etmək lazımdır ki, investisiya proseslərinin maliyyə mənbələri mülkiyyət növlərinə görə xüsusi mülkiyyət əsaslı mənbələrə və dövlət maliyyə mənbələrinə ayrılırlar. Dövlət maliyyə mənbələrinə büdcə vəsaitləri (vergilər və rüsumlar), borc vəsaitləri (daxili və xarici), yeni pulların buraxılışı aiddirlər. Xüsusi mülkiyyətli maliyyə mənbələrinə fərdi şəxslərin vəsaitləri, xüsusi mülkiyyətli müəssisələrin məxsusi maliyyə ehtiyyatları və cəlb olunmuş vəsaitlər - uzunmüddətli kreditlər, qiymətli kağızlar buraxılışından alman vəsaitlər aid olurlar. Yuxarıda qeyd olunanlarla yanaşı, mülkiyyət növündən asılı olmayaraq, makro-iqtisadiyyatın əsasını təşkil edən mikroiqtisadiyyat sistemlərində, maddi istehsalat sferasını təşkil edən istehsalat müəssisələrində təkrar istehsalat proseslərində investisiya mənbələri mövcuddur.

Klassik siyasi iqtisadiyyat nəzəriyyəsinə əsasən ölkənin bazarlı iqtisadiyyat sistemi dörd sferaya - istehsalat, dəyişdirilmə, bölünmə və istehlak sferalarına ayrılırlar. İstehsalat prosesinin nəticəsi olan məhsullar dəyərlə ölçüdə bölünürlər. İstehsal olunmuş məhsulların dəyərlə ilkin və təkrar bölünmələri prosesləri baş verir.

Maddi məhsulların istehsalatı prosesində (sxemi) keçmiş dövrlərdə istehsal olunmuş maddi məhsullar:

1) istehsal vasitələri - texnikalar, maşınlar, alətlər və sair əsas istehsal fondları $A_{t-1;}$

2) əmək predmetləri - xammalar, materiallar, dəstləşdiricilər Xt.ı istehsalat prosesinə cəlb olunurlar. İşçi qüvvəsi istehsal vasitələrini hərəkətə gətirməklə, əmək predmetlərindən yeni məhsul istehsal edərkən iki hissədən : zəruri dəyərdən Zt (əmək haqqı) və izafi dəyərdən (İt) ibarət olan yeni - əlavə dəyər yaradır. Beləliklə, yeni istehsal olunmuş məhsulun dəyəri D t keçmiş dövrlərdə yaradılmış məhsulların dəyərləri dt_ı (dt.j = Xt.ı + A,.,) ilə yeni yaradılmış əlavə dəyərlərin d, ( dt = Zt + İt ) cəmləri ilə ölçülür:

$$\sum D_j t = \sum d_{jt-1} + \sum d_{jt} = \sum(X_{t-1} + A_{t-1}) + \sum Z_t + \dot{I}_t)_i \qquad (11)$$

$Z_t$ - yaradılmış zəruri məhsul;

$İ_t$ - yaradılmış izafi məhsul;

$A_{t-1}$ - istehlak olunmuş istehsal vasitələrinin dəyərləri (amortizasiya);

$X_{t-1}$ - istehlak olunmuş materialların, dəstləşdiricilərin dəyərləridir.

İstehsal olunmuş məhsulların satışından əldə olunmuş vəsait ilkin bölünmə prosesinə məruz qalır. Sadə təkrar istehsalat prosesini təmin etmək məqsədi ilə, ilk növbədə, istehlak olunmuş materiallar, dəstləşdiricilərin bərpası üçün sərf olunacaq vəsaitlər ayrılırlar X, = X t-1 Həmçinin, istehsalat prosesi zamanı sərf olunmuş (istehlak olunmuş) istehsalat vasitələrinin bərpası vəsaitləri $A_t = A_{t-1}$ ayrılır. İstehsal vasitələrinin bərpasına ayrılan vəsaitlər amortizasiya fondu adlanır. İstehsalat vasitələrinin bərpası vəsaitləri və ya amortizasiya fondu $A_t$ təkrar istehsalat prosesində formalaşan ilkin investisiya mənbəsidir.

Qeyd olunduğu kimi, istehsalat prosesində əlavə dəyər yaradılır. Əlavə dəyər öz növbəsində işçilərə ödənilən əmək haqqı üslubunda zəruri dəyərə $Z_t$ və izafi dəyərə $İ_t$ bölünürlər. Formalaşmış izafi dəyərdən məhsulların satışı (nəqliyyat, bank, rabitə, saxlanılma

və sair xidmətlər) xərcləri $S_t$ ödənilir. İzafi dəyərin qalan hissəsi maddi məhsul istehsalı və satışından alınan mənfəət $P_t$ hesab olunur. Əldə edilmiş mənfəətdən $P_t$ dövlət vergiləri, rüsumları $V_t$ ödənildikdən sonra maddi istehsalat müəssisəsində qalan mənfəətin $G_t = P_t – V_t$ bir qismi istehlaka $I_t$ yönəldilir, digər qismi isə $J_t$ istehsalat prossesinin genişləndirilməsinə yönəldirilir. İstehsalat prossesinin genişləndirilməsinə yönəldilən vəsaitlər $J_t$ təkrar bölünməyə məruz qalırlar. İstehsalat proseslərinin genişləndirilməsinə yönəldilən maliyyə vəsaitləri $J_t$ müəssisənin yığım fondunu formalaşdırır. Yığım fondu $J_t$, investisiya vəsaitləri kimi, təkrar bölünmə prosesində iki hissəyə ayrılırlar. Vəsaitlərin bir qismi maliyyə investisiyalarına $N_t$ və ya portfel investisiyalara yönəldirilir. Digər qismi isə $R_t$ bir başa təkrar istehsalat prosesinə yönəldilən real investisiya vəsaitləridir.

Müəssisələrin sərəncamında qalan mənfəətdən formalaşan yığım fondu $J_t$ amortizasiya fondu ilə birlikdə təkrar istehsalat prosesində formalaşan ilkin investisiya mənbəyi hesab olunur.

Maddi istehsalat sferasında formalaşmış amortizasiya fondu $A_t$ ilə birlikdə, əsas istehsalat fondlarının rekonstruksiyasına, genişləndirilməsinə, maddi dövriyyə vəsaitlərinin artırılmasına, yeni istehsalat obyektlərinin yaradılmasına yönəldilməsi nəzərdə tutulan yığım fondu hissəsi $R_t$ real investisiya $İ_r$ mənbələrini təşkil edirlər. (Sxem 1, Sxem 2).

Qeyd olunanlarla yanaşı, maddi istehsalat sferasında istehsal olunmuş məhsulların dəyərlə ilkin bölünməsi prosesindən sonra, yeni yaradılmış əlavə dəyər hissələri təkrar olaraq, ikinci dəfə bölünmə prosesinə məruz qalırlar və gələcəkdə investisiya vəsaitlərini formalaşdıran mənbələrə çevrilə bilərlər.

Ötən əsrin 90-cı illəri Azərbaycan Respublikasında keçid dövrü kimi səciyyələndirilir. Faktiki olaraq, Respublikanın siyasi sistemi ilə yanaşı iqtisadiyyat sistemi də göstərilən illər ərzində transformasiya prosesini keçmişdir və bu proses hələ də davam edir. Lakin aparılmış tədqiqatlar göstərir ki, ölkənin iqtisadiyyat sisteminin fəaliyyəti mexanizmi və bu fəaliyyətin nəticələri (istehsal olunmuş məhsulların dəyərlə ilkin bölünməsi ardıcıllığı) bizim tərəfimizdən göstərilmiş klassik elmi əsasa malik metodologiya əsasında formalaşmamışdır.

Reallıqda, Azərbaycan Respublikasında maddi istehsalat sferasında istehsal olunmuş maddi nemətlərin dəyərlə ilkin bölünməsi digər üslubda formalaşmışdır (bax sxem 2). Ölkənin milli təsərrüfatında formalaşmış məcburi ilkin ödəmələr $Ö_m$, müəssisənin qərarı ilə aparılan ödəmələr $Ö_q$ sistemi son nəticədə milli təsərrüfat sisteminin dinamik inkişafına şərait yaratmır. Maddi istehsalat prosesinin nəticəsi olan məhsulun satışından alman vəsaitin bölünməsi hazırda aşağıdakı qaydada aparılır. İlk növbədə alınmış vəsaitlərdən məcburi ödənişlər $Ö_m$ aparılır. Məcburi ödənişlərə dövlət büdcəsinə, sosial təminat fondlarına nəzərdə tutulmuş ödənişlər $V_t$, o cümlədən gömrük ödənişləri aiddirlər. İkinci növbədə işçilərin əmək haqqları $Ə_t$ ödənişləri və sosial təminat fondlarına ödənişlər aparılır. Maddi məhsul istehsalının dəyərlə bölünməsi prosesində elektroenerji, su, qaz, yanacaq kimi əmək predmetlərinin ödənişi məcburi ödənişlərə Xınt aiddirlər. Bunlarla yanaşı digər dövlət təşkilatlarının xidmətləri ödənişləri, o cümlədən rabitə, dövlət və qeyri - dövlət bankların xidmətləri ödənişləri Smt məcburi hala aiddirlər. Qeyd olunanlarla yanaşı bir sıra hallarda dövlət büdcəsinə avans ödənişlərinin Vat aparılması, yerli hakimiyyət orqanlarına ödənilən yardımları Ht məcburi könüllü ödənişlərə aid etmək olar.

Məcburi və məcburi - könüllü ödənişlər aparıldıqdan sonra qalan vəsaitlər müəssisələr tərəfindən öz qərarları əsasında qalan əmək predmətlərinin ödənişlərinə $X_t$, digər xidmətlərin

ödənişlərinə $S_t$ və mənfəətdən istehlaka $I_t$ sərf olunurlar. Əgər yuxarıda qeyd edilən ödənişlər aparıldıqdan sonra vəsait qalarsa, əsas fondların istehlakı fondları (amortizasiya fondu) $A_t$ və müəssisələrin yığım fondları $J_t$ formalaşdırılır.

Nəticə ehtibarı ilə, milli təsərrüfat sisteminin hazırda formalaşmış fəaliyyəti mexanizmi müəssisə və təşkilatlar arasında mütəmadi olaraq ödəməmələr problemini yaradır və amortizasiya fondlarının, yığım fondlarının (ilkin investisiya mənbəsinin) maliyyə vəsaitləri ilə təmin edilməsinə təminat vermir.




Sxem 2. Ölkə təsərrüfatı sistemində formalaşmış maddi istehsalın real ilkin bölünməsi quruluşu



1995-2000 illər ərzində, cədvəl 4-də göründüyü kimi, ölkə milli təsərrüfat sistemində nəzərə tutulan real investisiya fondlarını tam maliyyələşdirmək mümkün olmamışdır. Qeyd olunan 1995-2000-ci illər ərzində Amortizasiya fonduna nəzərdə tutulan 2192,83 mln. $ və mənfəətdən istehsalatın genişləndirilməsinə yönəldilməsi nəzərdə tutulan 6664,01 mln. $ vəsaitlər, cəmisi, milli təsərrüfat sistemində təkrar istehsalat prosesindən formalaşması gözlənilən 8856,84 mln. $ ilkin investisiya vəsaitləri mövcud olan «ödəməmələr» problemi nəticəsində tam olaraq formalaşmamışlar.

Cədvəl 4**.**

1995-2000-ci illər ərzində maddi istehsalat sferasında itirilmiş investisiya imkanları (cari qiymətlərlə, mln.$).

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| 1 Maddi istehsalat sferasında yaranmalı olan ilkin investisiya mənbəsi | 717,42 | 1271,51 | 1842,75 | 1967,31 | 1679,42 | 1379,20 |
| 1 Milli təsərrüfat sistemində yaranmalı olan amortizasiya fondu | 339.60 | 345,70 | 376,59 | 388,11 | 372,6 | 370,23 |
| 2.Yigim fondu | 377,82 | 925,81 | 1465,16 | 1579,20 | 1306,82 | 1009,20 |
| II. Azarbaycan miiassisa- larinin oz vasaitlari hesa- bindan investisiya qoyu-lu§lan. | 113,80 | 226,55 | 296,81 | 373,28 | 338,98 | 341,69 |
| III. Miiassisalar arasinda movcud olan «odamamalar» problemi ila alaqadar muassisalarda itirilmi§ investisiya imkanlan | 603,62 | 1044,96 | 1544,94 | 1594,03 | 1340,44 | 1037,51 |

Mənbə: Dövlət Statistika komitəsi, Müstəqil Azərbaycan 10 il, rəsmi nəşr Statistik məcmu

Dövlət statistika komitəsinin məlumatına əsasən 1995-2000 illər ərzində müəssisə və təşkilatların məxsusi vəsaitləri mənbələri üzrə ölkə daxili kapital qoyuluşlarının investisiyalarının məbləği cəmisi 1691.11 mln. $ və ya təkrar istehsalat prosesində formalaşması nəzərdə tutulmuş ilkin investisiya vəsaitlərinin 8856,84 mln. $ məbləğin 19,1%-ni təşkil etmişdir.

Hesabatlar göstərir ki, Respublika iqtisadiyyatında mövcud olan ödəmələr problem nəticəsində 1995-2000-ci illər ərzində daxili imkanlar hesabına 7165,73 mln $ ilkin investisiya vəsaiti itirilmişdir. Bu məbləğ 1995-2000 illər ərzində xarici investorlar tərəfindən Respublika iqtisadiyyatına qoyulmuş 5793,5 mln $5 vəsaitdən 1372,23 mln $ və ya 23.7 faiz çoxdur.

Ölkənin milli təsərrüfatı sisteminə yönəldilən real investisiyalar ölkənin milli sərvətinin artırılmasını təmin edərək, ölkənin milli təhlükəsizlik səviyyəsinin artırılmasına xidmət etməlidir. Bununla əlaqədar, yaranma mənbəsinə (xarici və daxili ) görə real investisiyaların ölkə daxilində milli təsərrüfat sistemində təkrar maddi nemətlər istehsalı prosesində (varidatın artırılması prosesi) formalaşması gələcək dövrlər üçün ölkənin milli təhlükəsizliyini təmin etməyə daha zəmanətlidir.

Fikrimizcə, hazırkı XXI əsrin astanasındakı mərhələdə ölkə iqtisadiyyat sisteminin formalaşmış real fəaliyyəti mexanizmi Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi dinamik iqtisadi inkişafına təminat vermir. Bununla əlaqədar real formalaşmış və respublika iqtisadiyyatının dinamik inkişafını təmin etməyən ölkə iqtisadiyyat sisteminin fəaliyyəti mexanizmində əsaslı dəyişikliklərin aparılması ölkənin müstəqil gələcəyininin təmin olunması üçün zəruri şərtdir.

*Azərbaycanda iqtisadi islahatların həyata
keçirilməsi xüsusiyyətləri və problemləri.
Elmi əsərlər toplusu, №3, Bakı 2002*

# RESPUBLİKA DAXİLİ İQTİSADİ RAYONLARDA SAHİBKARLIĞIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

***i.e.n. dosent Hacıyev N.***

*1993-2004-cü illərdə İİETİ-də aparıcı elmi işçi,
şöbə müdiri vəzifələrində işləyibdir.*

Ölkədə əldə edilmiş siyasi və makroiqtisadi sabitlik nəticəsində yaranmış əlverişli şərait özəl bölmənin inkişafına güclü təkan vermişdir. İlk növbədə sahibkarlığın hüquqi bazası inkişaf etdirilmiş və onun tənzimlənməsi sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Sahibkarlığın inkişafının hüquqi bazasının sistem halına gətirilməsini təmin edən qanunlar və normativ sənədlər qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş iqtisadiyyatın konstitutsiyası hesab olunan Mülki Məcəllə ölkədə sahibkarlıq fəaliyyətinin mülki əlaqələr sisteminin tərkib hissəsi kimi qanunvericilik bazasını möhkəmləndirmişdir.

Görülmüş əməli tədbirlər nəticəsində ölkənin makroiqtisadi göstəricilərinin fomıalaşmasında özəl sektorun payı artmışdır. 2000-ci ilin yekunlarına görə ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı 69,0%, o cümlədən kiçik və orta sahibkarlıq bölməsinin payı 42,7% təşkil etmişdir.

Sənaye istehsalında 43,6%, kənd təsərrüfatı istehsalında 99,3%, tikinti işlərində 63,5%, daxili əmtəə dövriyyəsində 98,5%, əhaliyə pullu xidmətlərdə 66,7%, sərnişin daşımalaında 97,2%, xarici ticaıət dövriyyəsində 70,2%, o cümlədən ixracda 59,3% özəl bölmənin payına düşmüşdür.

Qeyri-dövlət bölməsinin (şəxsi yardımçı təsərrüfatlar və qeyri- formal sektor da daxil olmaqla) ümumi məşğulluqda payı 70,3%, eləcə kiçik və orta sahibkarlıq müəssisələrində məşğul olanların sayı isə 300 min nəfəri keçmişdir.

Qeyri-dövlət bölməsinin rolu dövlət büdcəsinin fonnalaşmasında da artır. Belə ki, 1997-ci ildə bütün vergi mədaxilinin 23%-i, 1998-ci ildə 38%-i, 1999-cu ildə 43,6%-i və 2000-ci ildə isə 49,6 %-i bu bölmə tələfindən təmin edilmişdir.

2000-ci ilin nəticələrinə görə dövlət qeydiyyatından keçmiş qeyri-dövlət bölməsinə aid olan hüquqi şəxs statuslu təsərrüfat- maliyyə strukturlarının sayı 81,9 minə çatmışdır. Bunun 55,1 min və ya 67,3%-i dövlət qeydiyyatından keçmiş kiçik və orta müəssisələrdir. Kiçik və orta müəssisələrin sayı ilbəil artır. Orta hesabla əhalinin hər 10 min nəfərinə 68 dövlət qeydiyyatından keçmiş kiçik və orta müəssisə düşür.

Kiçik və orta sahibkarlıq bölməsində xarici şirkətlərin iştirakı səviyyəsidə xeyli yüksəkdir. 2000-ci ildə Azərbaycanda xaricilər tərəfindən və onlann iştirakı ilə yaradılmış 2768-dən çox müəssisə fəaliyyət göstərmişdir. Bunların 33,6%-i müştərək müəssisələrdən, 66,4 %-i tam xarici investisiyalı müəssisələrdən ibarətdir. Bu müəssisələrin 15,8%-i sənayedə, 8,3%-i tikintidə, 35,5%-i ticarətdə, 6,8%- i nəqliyyat və rabitədə, 33,6%-i digər xidmət

sahələrində fəaliyyət göstərmişdir. 2000-ci ildə istifadə edilmiş investisiyalann 63,5%-i qeyri-dövlət müəssisələrinin payına düşmüşdür. İstifadə olunmuş investisiyaların 2376,0 mlrd, manatı və ya 50,7 %-i xarici investisiyalar olmuşdur.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərinin (fiziki şəxslər) sayı davamlı olaraq artır və 2000-ci ildə 86 minə yaxın fiziki şəxs fəaliyyət göstərmiş və dövlət reyestrinə daxil edilmişdir. Rəsmi qeydiyyata alınan fiziki şəxslərin 72,1 %-i ticarət sahəsində fəaliyyət göstərmişdir.

Azərbaycanda sahibkarlıq infrastruktrunun formalaşdırılması və inkişafı sahəsində ciddi irəliləyişlər baş vermişdir. Kiçik və orta sahikarlara təhsil, informasiya və məsləhət xidmətləri göstərən strukturlar çoxalmış və onların fəaliyyəti yaxşılaşdırılmışdır. Nəticədə bir tərəfdən sahibkarlara göstərilən xidmətlərin çeşidi davamlı olaraq genişləndirilir, digər tərəfdən isə kiçik və orta sahibkarlara texniki kömək tədbirləri ilə ölkənin regionları da əhatə edilməyə başlanmışdır.

Ümumiyyətlə, ölkənin şəhər və regionlarında yaradılmış Sahibkarlığın İnkişafı Mərkəzləri dövlətimizin sahibkarlara kömək siyasətini həyata keçirən zəruri strukturlardır.

Sahibkarlığın inkişafi sahəsində beynəlxalq və xarici ölkə təşkilatlan ilə əməkdaşlıq əlaqələri qurulmuş və bu proses hal-hazııda da davam etdirilir.

Sahibkarlığın inkişafina maliyyə köməyi siteminin qurulması sahəsində də zəruri tədbirlər görülmüşdür. Belə ki, kiçik sahibkarlığın öncül inkişafı istiqamətləri üzrə 800-dək sahibkann investisiya layihəsi ekspertizadan keçmiş və onların bir hissəsinə dövlət maliyyə yardımı göstərmişdir.

Son dövrlərdə sahibkarlar üçün vergi yükünün azaldılması istiqamətində dövlət səviyyəsində müəyyən tədbirlər görülmüşdür. Vergi dərəcələrinin və məcburi sosial-siğorta haqqının aşağı salınması sahəsində konkret addımlar atılmış, qanunvericilikdə kiçik sahibkarlıq subyektlərinin bir qisminə vahid verginin tətbiqi təsbit olunmuş, əsas sənətkarlıq sahələrində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən şəxslərin gəlir vergisindən və həmin sənətkarların emalatxanalarının əmlak vergisindən azad edilməsinə dair qərarlar qəbul olunmuşdur.

Ölkədə mülkiyyət çox növlülüyünün təmin olunması və inkişafi ilə əlaqədar olaraq respublika daxili iqtisadi rayonlaıda tədricən müxtəlif sahibkarlıq formalarının sayının çoxalması və regionların sosial-iqtisadi inkişafında yerli əmtəə istehsalçılarının artan rolu hiss olunmaqdadır.

Məlum olduğu kimi, bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikası üçün sosial-iqtisadi problemlərin həll olunması istiqamətində islahatların apanlması və bazarın formalaşması digər amillərlə yanaşı müxtəlif sahibkarlıq formalarının inkişafından da asılı olacaqdır. Bu baxımdan sahibkarlıq formalarının iqtisadi rayonlar üzrə quruluşunu təhlil etmək və mövcud problemləri aşkarlamaq mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında fəaliyyət göstərən sahibkarlıq formalarının rayonlar üzrə quruluşunu nəzəndən keçitərkən bu qənaətə gəlmək olar ki, rayonlanda sahibkarlıq formalannın inkişafi bir-birindən olduqca fərqlidir.

İlk növbədə, ölkədaxili iqtisadi rayonlanda sahibkarlıq formalarının qeyri-proporsional bölgüsü diqqəti cəlb edir. Fəaliyyət göstərən müəssisələrin çoxu Abşeron iqtisadi rayonunuda, o cümlədən, Bakı şəhərində yerləşir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, hər bir iqtisadi rayonda sahibkarlıq formalarının yaranması və inkişafi müəyyən şəraitlə, hər şeydən əvvəl, həmin iqtisadi rayonda aparılan iqtisadi islahatların xarakteri, o cümlədən mülkiyyət çox növlülüyünün təmin olunması və sahibkarlara verilən hüquqlardan necə istifadə edilməsi ilə bağlıdır. Həmçinin iqtisadi rayonlanda sahibkarlıq formalarının inkişafına bir tərəfdən onun nəqliyyat-coğrafi vəziyyəti, digər tərəfdən də mövcud yerli təbii - xammal resurslan olduqca güclü təsır edir. Bunlar sahibkarlıq formalarının iqtisadi rayonlar üzrə quruluşunu və ixtisaslaşma istiqamətini müəyyən edir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı sahəsi üzrə fəaliyyət göstərən sahibkarlıq formalarının xüsusi çəkisi iqtisadi rayonlarda ildən-ilə yüksəlir. Aqrar sahənin bazar münasibətlərinə uyğunlaşdınlması üçün bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. İlk növbədə, “Torpaq islahatı haqqında” qanun qəbul edilmişdir. Torpaq əsas istehsal vasitəsi kimi istehsalçılara verilmiş və bu proses sona çatmaq üzrədir.

İqtisadi rayonlar üzrə fonnalaşan və inkişaf edən sahibkarlıq formalarının çoxunun ölkənin iri sənaye mərkəzi olan Bakı şəhərində cəmləşməsinin bir sıra özünəməxsus səbəbləri vardır. Bakı şəhərinin əlverişli iqtisadi-coğrafi mövqeyi və bazar infrastrukturunun nisbətən inkişaf etməsi Abşeron iqtisadi rayonunda sahibkarlıq formalarının yaranması və inkişafina əlverlişli şərait yaradır. Xüsusilə, burada sahibkarlığın inkişafina lazım olan infrastrukturnsahələr yaxşı inkişaf etmişdir. Eyni zamanda, iqtisadiyyatın əsas sahələri və əhalinin çox hissəsinin Bakı və Bakı ətrafi bölgələrdə yerləşməsi, bağlanmış neft kontraktları ilə əlaqədar olaraq respublikaya gələn xarici konsern və şirkətlərin, beynəlxalq və ayrı-ayrı inkişafetmiş ölkələrin banklarının nümayəndəliklərinin, filiallarının Bakı şəhərində yerləşməsi və fəaliyyət göstənnəsi də burada müxtəlif sahibkarlıq fomıalarının inkişafina müsbət təsir edir. Bu isə son nəticədə sahibkarlıq formalarının ölkə üzrə daha səmərəli yerləşməsini ləngidir.

İqtisadi rayonlarda sahibkarlığın zəif inkişaf etməsinin əsas səbəbi, bazar infrastruktrunun yaranmasına bilavasitə çətinlik törədən bir sıra idarəetmə, iqtisadi, texnoloji və sosial-mədəni faktorlarla bağlıdır:

*Birincisi, müasir idarəetmə məsələləri ilə əlaqədar çətinlik.* Hökumət orqanlarının bazar iqtisadiyyatı prinsiplərinə müvafiq işləyə bilməməsi, vergi sisteminin səmərəli olmaması, qanunların tələblərinə riayət olunmaması, gizli iqtisadiyyata qarşı kifayət qədər mübarizə aparılmaması, mərkəzə nisbətən regionlara nəzarət etmənin çətin olması, təşəkkül tapmış təsərrüfat və texnoloji əlaqələrin sovetlər birliyinin dağılması ilə pozulması, bölgə ziddiyyətləri, xüsusilə 10 ildən çox bir müddət ərzində davam edən Dağlıq Qarabağ münaqişəsi və s. problemlər regionlarda yeni iqtisadi münasibətlərin formalaşmasına öz mənfi təsirini göstərir ki, bu da yeni iqtisadi sistemin iqtisadi rayonlarda etibarlılığına və səmərəliliyinə əngəl yaradır.

*İkincisi, iqtisadi mühitlə əlaqədar çətinlik.* Ölkədə istehsal infrastrukturlarının qənaətbəxş vəziyyətdə olmaması, yerli istehsalçıların xarici rəqabətin təsirlərindən qorunmaması və əksinə milli məhsulların daxili bazardan sıxışdırılmasına gətirib çıxaran qeyri-səmərəli iqtisadi siyasətin aparılması, iqtisadiyyatın bir çox sahələrində, xüsusilə kənd təsərrüfatında məhsulların satışını və mənfəət əldə etməyi çətinləşdirən qiymət səviyyəsi, sahibkarların işgüzar fəallığını və təşəbbüskarlığını ləngidən maliyyə-kredit münasibətləri, xarici maliyyə resurslarından istifadədə çətinliklər, kreditlərin bölüşdürülməsində subyektivizin, idxal və ixracın strukturunun əlverişli olmaması, əmək haqqının aşağı səviyyədə

olması və vaxtında ödənilməməsi və s. kimi iqtisadi amillərdə yeni istehsal münasibətlərinin formalaşmasına mənfi təsir edir.

*Üçüncüsü, texnoloji mühitlə bağlı çətinlik.* Ölkədə istifadə olunan texnika və texnologiyanın köhnə olması və raqabətqabiliyyətli məhsul istehsal etməyə imkan verməməsi, bir çox sahələ idə istifadə oluna biləcək avadanlıqların istehsalının olmaması, onların xaricdən gətirilməsinin çətinlikləri, habelə mövcud olan avadanlıqların dövlət nəzarətinin zəifləməsi nəticəsində dağıdılması yeni sahibkarlıq formalarının yaradılmasına və fəaliyyətinə mənfi təsir edir.

*Dördüncüsü, sosial-mədəni mühitlə əlaqədar çətinlik.* Əhalinin adət-ənənəsi (mentaliteti), milli xüsusiyyətlər, bazar iqtisadiyyatı şəraitində fəaliyyət təcrübəsinin olmaması, hökumət məmurlarının və müəssisə rahbərlərinin bazar iqtisadiyyatının tələblərinə uyğun idarəetmə səriştəsinin olmaması, xarici tərəf-müqabillərlə əlaqədə dəqiqliyin olmaması, işsizlik səviyyəsinin yüksək olması, əcnəbi dilləri bilməmək maneəsi və s. bu kimi səbəblərdən ölkədə bazar iqtisadiyyatı sistemi yeni problemlərlə üzləşir.

Müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolunu seçmiş respublikamız digər sabiq sovet respublikaları kimi işsizlik problemi ilə qarşılaşmışdır. Respublikada işsizlik probleminin həll olunması olduqca vacibdir. Ona görə də, bu problemin həllini sahibkarlıq formalarının yaranması və inkişafı ilə əlaqələndirmək düzgün olardı.

Cədvəl 1.

Mülkiyyət formasına görə əhalinin məşğulluğu dinamikası
(illik artım sürəti %-lə)

| Sahələr | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
| İqtisadiyyatda məşğul olanlar, cəmi o cümlədən | 00 | 00.3 | 8.1 | 7.6 | 9.5 | 9.7 | 9,9 | 00 | 100 |
| dövlət sektoru | | | | | | | | | 48.8 |
| qeyri-dövlət sektoru | | | | | | | | | 223,7 |
| koorperativ sektoru | | | | | | | | | ... |
| fərdi sektorda | | | | | | | | | 308,8 |
| müştərək təşilatlar | | | | | | | | | - |
| xarici investisiyalı müəssisələr | | | | | 00 | 46,4 | 39.3 | 00 | 508,9 |
| dinə xidmət edən təşkilatlar | 00 | 33.3 | 33 | 33,3 | 16,7 | 16,7 | 833,3 | 833,3 | 5866.7 |
| sərbəst məşğul əhali | | | | | | | | | 248,5 |

Cədvəl 1-dən göründüyü kimi iqtisadiyyatda məşğul olanların sayı 1990-1995-ci illərdə azalmış, 1995-2000-ci illərdə isə artmağa doğru meyl etmişdir. Eləcə də, dövlət bölməsində işləyənlərin xüsusi çəkisi bu dövrdə azalmış və 1990 -cı illə müqayisədə 2000-ci

ildə 48,8 % olmuşdur. Qeyri-dövlət bölməsində işləyənlərin xüsusi çəkisi isə, əksinə, bu dövr ərzində xeyli artaraq 1990 - cı illə müqayisədə 2000 -ci ildə 223,7 % təşkil etmişdir.

Cədvəl 2-dən bu qənaətə gəlmək olar ki, mülkiyyət formasına görə əhalinin məşğulluq strukturunda dövlət sektorunun payı 1990- 2000-ci illərdə azalaraq 70,7 %-dən 34,5 %-ə düşmüşsə, bu dövrdə qeyri-dövlət bölməsinin payı (xüsusi çəkisi) 29,3 %-dən 65,5%-ə qədər artmışdır.

Cədvəl 2.

Mülkiyyət formasına görə əhalinin məşğulluq strukturu (xüsus i çəkisi faizlə)

| Sahələr | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| İqtisadiyyatda məşğul olanlar, cəmi o cümlədən | 00 | 00 | 00 | 00 | 00 | 00 | 00 | 00 | 00 |
| dövlət sektoru | | | | | | | | | |
| qeyri- dövlət sektoru | 9.3 | 8.0 | 9,7 | 3,9 | 9.0 | 3,5 | 3,8 | 3,7 | 5.5 |
| koorperativ sektoru | | | | | | | | | |
| fərdi sektor | 2,6 | 6,3 | 6,2 | 7.5 | 8.6 | 1.1 | 0,9 | .. | 8.8 |
| müştərək təşilatlar | | | | | | | | | |
| Xarici investisiyalı müəssisələr | | | | | 0.2 | 0,2 | 3,4 | 3,7 | 0,8 |
| dinə xidmət edən təşkilatlar | .. | 0,1 | 0,1 | 0.1 | 0.1 | 0.1 | 1,0 | 1,0 | 1,0 |
| Sərbəst məşğul əhali | .0 | ,7 | 2,5 | 6.7 | 1.0 | 8.7 | 3.3 | 4,1 | 4,9 |

Qeyd etmək vacibdir ki, dövlət bölməsində məşğul olanların bir qismi yalnız siyahıya görə bu müəssisələrin işçisi hesab olunur. Əslində onlar ya işləmir, ya da kiçik bizneslə məşğul olurlar.

Ümumiyyətlə, müasir dövrdə ölkə iqtisadiyyatında özəl bölmə mühüm yer tutur. 1994-2000-ci illə idə ümumi daxili məhsulun həcmində qeyri-dövlət bölməsinin xüsusi çəkisi müvafiq olaraq 29,0 38,0; 46,0; 55,0; 62,0; 69,0 faiz olmuşdur ki, bu da ilk növbədə ölkədə real iqtisadi islahatların sürətlənməsi, yeyinti, yüngül, tikinti və tikinti sənayesi, aqrar-sənaye kompleksi, topdan satış və təchizat sahələrində fəaliyyət göstərən və daxili bazarda inhisar mövqeyə malik çoxlu sayda şirkət və konsernlərin ləğv edilməsi və onların bazasında olan müəssisələrin isə mülkiyyət çoxnövlülüyünün təmin olunması məqsədilə özəlləşdirilməsi və eləcə də, tənzimləmə-təsərrüfat fəaliyyəti səlahiyyətinə malik bir sıra dövlət strukturlarının yenidən qurulması ilə bağlıdır.

Ölkədə fəaliyyət göstərən sahibkarlıq formaları əsasən aşağıdakı problemlərlə qaışılaşırlar: istehsalın inkişafi üçün tələb olunan maliyyə vəsaitinin çatışmaması, hüquqi təminatın tam formalaşmaması, məhsul satışı problemi, xammal və material əldə etmək

çətinliyi, daxili bazarın zəif qorunması, idxal olunan malların ölkədə üstünlük təşkil etməsi, dövlət orqanlarının, xüsusilə də yerli hakimiyyət, hüquq mühafizə və maliyyə oıqanlanmn sahibkarların işinə tez-tez müxtəlif yollarla maneəçilik yaratması və s.

Onu da qeyd edək ki, iqtisadi rayonlarda istehsal təyinatlı müəssisələr qeyri-istehsal müəssisələrinə nisbətən çox zəif artır ki, bunu da yaxşı hal kimi qəbul etmək olmaz.

Bu gün ölkədaxili iqtisadi rayonlarda sahibkarlar öz istehsal potensiallarını genişləndinnək üçün investisiya problemləri ilə qarşılaşırlar.

Məlum olduğu kimi, sahibkarların inkişafinda dövlətin investisiya köməkliyi mühüm əhəmiyyət kəsb etdiyi üçün əksər ölkələrdə bu məsələyə xüsusi diqqət yetirilir. Bu baxımdan da ölkədə sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafi üçün sahibkarlığa dövlət investisiya köməyi formalaşdırılmışdır. Belə ki, dövlət büdcəsindən sahibkarlığın inkişafına 1993-cü ildə 450 mln. manat, 1994-cü ildə 150 mln. manat, 1995-ci ildə 300 mln. manat, 1996-cı ildə 8 mlrd, man, 1997-ci ildə 11 mlrd. manat, 1998-ci ildə 11 mlrd, manat və 1999- cu ildə 11 mlrd, manat, fermer təsərüiätma kredit güzəştləri fonduna 5 mlrd, manat vəsait nəzərdə tutulmuşdur.

Qəribədir ki, ölkədə büdcə vəsaitinin olmaması ilə əlaqədar olaraq 1995-1998-ci illərdə sahibkarlığa kömək fonduna dövlət büdcəsində nəzərdə tutulmuş maliyyələşmə aparılmamışdır. 1999-cu ilin ikinci yarısında dövlət büdcəsində “kiçik sahibkarlığa investisiya yardımı “ maddəsi üzrə nəzərdə tutulan vəsaitdən kiçik sahibkarların təqdim etdikləri 21 investisiya layihəsinə 3,0 mlrd, manatdan artıq investisiya yardımının həyata keçirilməsi reallaşdınlmışdır. 2000-ci ildə 13 investisiya layihəsinə 2 mlrd, manat investisiya yardımı göstərilmişdir. Eləcə də, 2000-ci ildə fermer təsərrüfatlarına 70 mln. manatdan bir qədər az kredit güzəşti verilmişdir.

Ümumiyyətlə, 1993-2000-ci illə idə büdcədən 79900 mln. manat vəsait ayrılması nəzərdə tutulmuşdur. Bu vəsaitdən 1993-cü ildə 69 mln. manat, 1994-cü ildə 72 mln. manat istifadə olunmuşdur.

Hazırda ölkədə sahibkarlığa dövlət maliyyə köməyi iki istiqamətdə göstərilir: kiçik sahibkarlara güzəştli kredit formasında və fermerlərə onların kommersiya banklarından aldıqları kreditin illik faizinin subsidiya şəklində qismən ödənilməsi formasında.

İnvestisiya layihələrinə investisiya yardımı müsabiqə əsasında göstərilir. Müsabiqədə iştirak etmək üçün layihənin dəyərinin 25 %- dən az olmayan hissəsi sahibkar tərəfindən yönəldilməlidir, investisiya yardımı 400 mln. manatdan çox ola bilməz. Güzəştli kredit faizi Milli Bankın mərkəzləşdirilmiş kreditlər üçün müəyyən etdiyi faiz dərəcəsinin 1/4-i həcmindədir. İnvestisiya yardımı Nazirlər kabineti tərəfindən müəyyən olunmuş sahibkarlığın inkişafının öncül ailələrinə aid layihələrə yönəldilir. Bu sahələrə aşağıdakılar aid edilir: hökumətin iqtisadiyyatın inkişafi ilə bağlı məqsədli proqramları; yerli və gətirilmə xammaldan istifadə etməklə idxalı əvəz edən məhsulların istehsalı; yeni texnologiyaya əsaslanan ixrac qabiliyyətli məhsulların istehsalı; innovasiya; qədim xalq sənətinin inkişafı. İnvestisiya yardımı fiziki şəxslərə və hüquqi şəxslərə, həmçinin nizamnamə kapitalının 50 %-dən çoxu Azərbaycan tərəfinə məxsus olan birgə müəssisələrə göstərilir.

Sahibkarlıq, xüsusilə, kiçik müəssisələrin fəaliyyəti başlıca olaraq, yerli bazarın tələbatının ödənilməsi ilə bağlıdır. Bu mənada regional səviyyədə kiçik sahibkarlığa kömək vacibdir. Vahid mərkəzdə kiçik sahibkarlığın tənzimlənməsi yalnız ayrı-ayrı öncül istiqamətlər

və ya sahələr üzıə ola bilər. Eyni zamanda, bölgə üzrə sahibkarlığın inkişafına dövlət köməyi tədbirləri yerli hakimiyyət orqanlarının səıəncamında olan maliyyə, maddi, təşkilati resurslarının həcmindən, bölgədə sahibkarlığın inkişafının konkret məqsədlərindən, sosial-iqtisadi və təbii iqlim şəraitindən asılıdır.

Fikrimizcə, sahibkarlığa investisiya yardımı məqsədli proqram- lara, öz xərcini qısa müddətdə ödəyən kiçik müəssisələr yaradılmasına sərf edilməsi çox böyük iqtisadi və sosial səmərə verərdi.

Ölkədə kredit faizi dərəcəsinin və vergi dərəcələrinin müəyyən edilməsində istehsal və tədavül sferaları arasında differensiallığın olmaması nəticəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olanların əksəriyyətinin tədavül sferasına yönəlməsinə, pul vəsaitinin vasitəçi kommersiya strukturlarında cəmləşməsinə səbəb olmuşdur.

1995-2001 -ci ilə qədər olan dövrdə ölkədə 31226 kiçik müəssisə özəlləşdirilmişdir (o cümlədən sənayedə 605, kənd təsərüffatda 113, nəqliyyatda 14376, ticarətdə 2257, tikintidə 261, ictimai iaşədə 649, məişət xidmətində 9421, kommunal təsərrüfatda 56, başa çatdırılmamış tikintidə 128, yanacaq doldurma məntəqələrində 514, digər sahələrdə 2846 vahid).

Eyni zamanda, 1997-2000-ci illər ərzində iri və orta müəssisələrin əsasında yaradılmış səhmdar cəmiyyətlərin sayı 1169 vahid, nizamnamə kapitalının həcmi isə bu dövrdə bütövlükdə 3421,9 milyard manat olmuşdur.

Ümumiyyətlə, kiçik müəssisələrin özəlləşdirilməsindən dövlət büdcəsinə 459454,5 milyon manat vəsait daxil edilmişdir.

Dövlət mülkiyyətinin özəlləşdirilməsindən bu qənaətə gəlmək olar ki, əldə olunmuş vəsaitələri istər dövlət büdcəsinin doldurulması, istərsə də sosial baxımdan qənaətbəxş hesab etmək olmaz. Amma bu gün çağdaş Azərbaycanın çox sahəli milli iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli şəkildə inteqrasiya olunmasında sahibkarlığın inkişafı zəruridir. Bu yolun çətinliklər və maneələrlə üzləşəcəyi şəksizdir. Lakin dünya təcrübəsinin təsdiq etdiyi kimi iqtisadi inkişafın ən optimal yolu məhz bu istiqamətdir.

Ümumiyyətlə, mülkiyyətin bazar obyektlərinin yüksək dərəcədə inhisarçı olması sahibkarlığın iqtisadi rayonlarda inkişafına mənfi təsir edir.

Ölkədə maliyyə bazarının müasir xüsusiyyətini belə xarakterizə etmək olar: institutsional qurumlann sistemli şəkildə inkişaf etməməsi; istifadə edilən maliyyə vəsaitlərinin və bank xidmətlərinin məhdudluğu; kredit faizinin yüksək olması; təklif edilən vəsaitlərin qısamüddətli olması.

Bu qənaətə gəlmək olar ki, ölkədə, xüsusilə də, iqtisadi rayonlarda sahibkarlığın arzu olunan səviyyədə inkişaf etməməsinə əsas səbəb, lazım olan maliyyə vəsaitinin məhdudluğu ilə yanaşı, inkişaf etmiş müvafiq infrastrukturasının olmamasıdır. Eləcə də, sahibkarlığın ölkədaxili iqtisadi rayonlarda inkişafını çətinləşdirən məsələlərdən ən başlıcası müvafiq sahə və regionlarda müqayisəli üstünlüklərin üzə çıxa olmamasıdır.

Bütövlükdə sahibkarlığın mövcud inkişaf səviyyəsinin müqayisəli qiymətləndirilməsindən məlum olur ki, Azəıbaycanda sahibkarlıq mühitinin formalaşması ziddiyyətli, əhalinin sahibkarlıq potensialının gerçəkləşməsi məhdud, sahibkarların ölkə iqtisadiyyatını böhrandan çıxarılmasına təsiri zəif, çağdaş sahibkarlıq norma və qaydalarının yayılması sistemsiz xarakter daşıyır.

Sahibkarlığın inkişafi üzro regional disproporsionallıq aradan qaldırılmalı, yeni xammal və əmək resuıslarından səmərəli istifadə edilməsi əsasında bölgələrdə kiçik və orta sahibkarlığın dirçəldilməsinə köməklik göstərilməlidir.

Kiçik və orta sahibkarlığın inkişafinda mövcud olan regional disproporsionallığın aradan qaldırılmasına əlverişli zəmin yaradılması üçün dövlətin regional sosial-iqtisadi inkişaf konsepsiyası işlənib hazırlanmalıdır. Bu konsepsiya çərçivəsində bölgələr üzrə sahibkarlığın inkişafının öncül istiqamətləri müəyyənləşdirilməlidir.

İcra hakimiyyəti orqanlarının kiçik sahibkarlığa köməyi Azərbaycan Respublikasında "Kiçik və orta sahibkarlığa dövlət köməyi» proqramının" tələblərinə uyğun qurulmalıdır. İqtisadiyyatın mərkəzi dövlət tənzimləmə orqanlarının bu sahədəki fəaliyyətinin sərt koordinasiyası ilə yanaşı yerli icra hakimiyyəti orqanlarının regionlarda sahibkarlığın gücləndirilməsinə şərait yaradılması üçün məsuliyyəti artırılmalıdır.

Yerlərdə sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədilə şəhər və rayonlarda yaradılmış sahibkarlığın inkişafi mərkəzlərinə (SİM) mərkəzi və yerli icra orqanları tərəfindən kömək gücləndirilməlidir. Yerlərdə SİM-in real surətdə sahibkarlığın inkişafina dövlət köməyi siyasətini həyata keçirən yeganə orqan olduğunu nəzərə alaraq, onlara Nazirlər Kabinetinin sərəncamı ilə çox funksiyalı orqan statusu verilməsi, bu mərkəzlərin saxlanması və möhkəmləndirilməsi məqsədləri üçün maliyyə vəsaitlərinin ayrılması, onlara kommunal xidmət haqqlarının və icarə haqqının ödənilməsində güzəştlərin verilməsi məsələləri həli edilməlidir.

Bələdiyyələr haqqında qanunvericilikdə yerli özünüidarəetmə orqanlarının sahibkarlığın inkişafi sahəsində regional siyasətin həyata keçirilməsində fəal iştirakı mexanizmlərinin normalaşması üçün hüquqi əsaslar yaradılmalıdır.

Ölkə və ölkədaxili iqtisadi rayonlarda vergi yükünün azaldılması ilə yanaşı, vergilərin stimullaşdırıcı və struktur tənzimləyici rolunun gücləndirilməsi vacibdir. Bunun üçün çox məqsədli təşviq mexanizmi qurulmalı və vergilər onun əsas vasitəsinə çevrilməlidir.

Beynəlxalq və regional maliyyə qurumlarının ölkədə və ölkədaxili iqtisadi rayonlarda kiçik və orta sahibkarlar üçün açdıqları kredit xətləri üzrə faiz dərəcəsinin yüksək olması sahibkarların əsas kütləsi üçün həmin kreditlərdən istifadəni əlverişsiz edir. Bunun üçün regionlarda banklardan kiçik və orta sahibkarların kredit əldə etmək imkanlarını genişləndirmək üçün kreditə təminat və zəmanət sistemi yardılmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Resspublikasınm "Sahibkarlıq fəaliyyəti haqqında" qanunu, 15 dekabr 1992.
2. R.T.Həsənov "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları", Bakı 1998.
3. Ə.Q.Əlirzayev "Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları: nəzəriyyə və təcrübə", Bakı 2000.
4. N.Ə.Hacıyev "Azərbaycanda kiçik müəssisələrin təşəkkülü və inkişafi"», Bakı 2000.
5. Azərbaycan rəqəmlərlə - Dövlət Statistika Komitəsi. Bakı 2001.

## İqtisadi İslahatlar Mərkəzinin əməkdaşları

**(2002-2004-cü illər)**









## *SEÇİLMIŞ ƏSƏRLƏR*

**Camalov F.**
*Xarici investisiyaların ölkə iqtisadiyyatında rolu və investisiya cəlbediciliyinin yüksəlməsi yolları*
**Rzayev F.**
*Aqrar islahatların ilkin nəticələrinin qiymətləndirilməsi*
**Heydərov P.**
*Sağlam büdcə quruculuğundakı maneələr və perspektivlər*
**Novruzov V.**
*Müasir şəraitdə investisiya layihələrinin cəlbediciliyinin qiymətləndirilməsi zərurəti*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №4, Bakı 2003*

# XARİCİ İNVESTİSİYALARIN ÖLKƏ İQTİSADİYYATINDA ROLU VƏ İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

**Camalov F.**

*2002-2007 -ci illərdə İİETİ-də aparıcı mütəxəssis vəzifələrində işləyibdir*

Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb edilməsinə real olaraq 1994-cü ildən başlanmışdır. Həmin il ölkə iqtisadiyyatına 303 mln. ABŞ dolları dəyərində investisiya qoyulmuşdur ki, bunun da 50,5 %-i daxili investisiyalar, 49,5%-i isə xarici investisiyalar təşkil etmişdir. Birbaşa investisiyalar olan bu xarici investisiyaların 76%-i (114 mln. $) kreditlər üzrə konkret layihələr hesabına alınmışdır. Qalan 24%-i isə qeyri-kredit investisiyalar olmuşdur. Bu ildə xarici investisiyaların 30%-i ticarət və xidmətə, 29,3%-i sənayeyə (o cümlədən neft sənayesinə 14,7%), 16,7%-i tikintiyə, 2,7%-i nəqliyyat və rabitəyə, qalan 21,3%-i isə digər sahə və sferalara qoyulmuşdur. İnvestisiyaların dinamikasına nəzər saldıqda görmək olar ki, 1994- 1998-ci illərdə artım tempi yüksək olmuş, 1999-2000-ci illərdə azalma müşahidə olunmuş və yalnız 2001-ci ildə bu azalma nisbətən artımla əvəz olunaraq 1999-cu ilin səviyyəsinə yaxın olmuşdur. Ümumiyyətlə, 1994-2001-ci illər ərzində investisiya qoyuluşunun ən yüksək həddi 1998-ci ildə müşahidə olunmuşdur. Belə ki, 1994-cü ilə nisbətən 1998-ci ildə Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşu 6,4 dəfə artaraq 1932,2 mln. ABŞ dolları dəyərində olmuşdur. Xarici investisiya qoyuluşu 1994-2001-ci illər ərzində ən yüksək göstərici olmuşdur (1472 mln. $). 1994-cü illə müqayisədə 1998-ci ildə xarici investisiyalar 9,8 dəfə artmışdır. Yığılmış birbaşa xarici investisiyaların sahəvi strukturu ümumilikdə bütün yığılmış xarici investisiyaların sahəvi quruluşundan çox az fərqlənir. Hər iki halda eyni iqtisadi sferalar liderlik edir. Xarici investisiyaların sahəvi strukturu iqtisadiyyatın neft sektorunun böyüməsi istiqamətinə deformasiya olmuşdur. Onların payına xarici investisiyaların ümumi həcminin 59,2%-i düşür (1994- 2001-ci illər ərzində neft sənayesinə cəmi 4161 mln. $ investisiya qoyulmuşdur). Bu bizim köhnələn və qeyri-spesifık olan xalq təsərrüfatı strukturunu möhkəmləndirir və son nəticədə iqtisadi artıma mənfi təsir edir. Xarici investisiyaların tərkibində neft sənayesinə qoyulan investisiyaların xüsusi çəkisi 1994-cü ildə 15% olduğu halda, 1995-ci ildə 37%, 1996-cı ildə 67%, 1997-ci ildə 60%, 1998-ci ildə 61%, 1999-cu ildə 50%, 2000-ci ildə 58,9%, 2001-ci ildə 75,2% olaraq ümumilikdə yüksək artım tempinə malik olmuşdur. 1995-1998-ci illərdə xarici investisiyalı müəssisələrin sayı artmış, son 3-4 ildə isə azalması müşahidə olunur. Lakin buna baxmayaraq, həmin müəssisələrdə istehsal olunmuş məhsulun həcmi və əmək haqqı sabit artım tempinə malikdir. Belə ki, 2001-ci ildə burada istehsal olunmuş məhsulun həcmi 1995-ci illə müqayisədə 24 dəfə, əmək haqqı 10,7 dəfə artmışdır. Həm də bu göstərici illər üzrə sabit artım tempinə malik olmuşdur. 2001-

ci ildə Azərbaycanda 609 xarici investisiyalı müəssisədən 37,4%-i topdan və pərakəndə satış sahələrinin, 23,2%-i sənaye müəssisələrinin, 11,3%-i daşınmaz əmlakla əməliyyatlar, icarə və kommersiya fəaliyyəti müəssisələrinin, 10,8%-i nəqliyyat, anbar təsərrüfatı və rabitənin, 9,5%-i tikinti müəssisələrinin, 31%-i mehmanxana və restoranların, 1,9%-i təhsilin və digər sahələrin payına düşür. 2001-ci ildə xarici investisiyalı müəssisələrin istehsal etdiyi ümumi məhsulun həcmi 7,6 trln. Manat (1,6 mlrd. $) təşkil etmişdir ki, bunun da 78,8%-i sənaye müəssisələrinin, 9,3%-i nəqliyyat, anbar təsərrüfatı və rabitə sahəsinin, 6,1%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti sahəsinin, 3,1%-i tikintinin və s. sahələrin payına düşür.

Ümumiyyətlə, 1994-2001-ci illər ərzində respublika iqtisadiyyatına qoyulan xarici investisiyaların ümumi məbləği 7035 mln. dollar olub. Bunun da 4161 mln. dolları (59,2%) neft sənayesinə, 1429,3 mln. dolları (20,3%) maliyyə kreditlərinə, 1444,7 mln. dolları (20,5%) isə birgə müəssisələrə və xarici firmalara qoyulmuşdur. Bu dövrdə xarici investisiyalar Azərbaycana əsasən ABŞ, Böyük Britaniya, Türkiyə, Rusiya, Norveç, Yaponiya, Almaniya, Fransa, İran, İtaliya, İsveçrə, Səudiyyə Ərəbistanından daxil olmuşdur. Yaxın xarici ölkə investorlarının respublikamıza yönəltdikləri investisiyalar əsasən istehlak malları istehlakını və ticarəti əhatə edir. Lakin inkişaf etmiş Avropa ölkələri və ABŞ öz investisiyalarını yüksək gəlir gətirən perspektivli sənaye sahələrinə cəlb edirlər.

Xarici investisiyaların cəlb edilməsinin mümkün həcmi investisiya iqliminin vəziyyətindən asılıdır. Ölkənin investisiya iqlimini aşağıdakılar təşkil edir:

1. İnvestisiya potensialı.
2. İnvestisiya riski.
3. İnvestisiya qanunvericiliyi.

Ölkənin investisiya potensialı 10 əsas xüsusi potensialdan formalaşır:

1. İstehsal (əhalinin təsərrüfat fəaliyyətinin ümumi nəticələri) .
2. Kadr (peşəkar təlim almış işçi qüvvələrinin və mühəndis - texniki heyətinin olması)
3. Xammal-resurs (təbii resursların əsas növlərinin ehtiyat balansı ilə təmini)
4. İstehlak (əhalinin ümumi alıcılıq qabiliyyəti)
5. İnfrastruktur (istehsal və sosial infrastrukturun inkişaf səviyyəsi)
6. İnstitussional (bazar iqtisadiyyatının zəruri institutlarla təmini)
7. İntellektual (əhalinin təhsil səviyyəsi)
8. İnnovasiya (ETT nailiyyətlərinin tətbiq ölçüləri və istehsalın modernizasiya səviyyəsi)
9. İqlim (investisiya cəlbediciliyinin iqlim tərkibi investisiya potensialının qiymətləndirilməsində az istifadə olunur. Belə ki, portfel investisiyalar üçün bu az maraqlıdır)
10. Lokasiya (mərkəz şəhərlərinin iqtisadi-coğrafi vəziyyəti, əsas nəqliyyat kommunikasiyaları və s.)

Ölkənin investisiya potensialını təhlil etsək görərik ki, əsas potensiallardan heç biri investisiya cəlbediciliyi baxımından müasir tələblərə cavab vermir.

İnvestisiya riski, adətən, iqtisadi, sosial, siyasi, ekoloji və kriminal məhdudiyyətləri nəzərə almaqla qiymətləndirilir. Güman edilir ki, ölkədə iqtisadi tənəzzül və sosial gərginliyin səviyyəsi, cinayətkarlığın, təbii mühitin deqradasiya səviyyəsi nə qədər yüksək olsa, yerli hökumətə başçılıq edən şəxslər bir o qədər konservativ olar. Bütün bu məhdudiyyətləri Azərbaycan üçün nəzərə alan və qiymətləndirən xarici investorlar ölkəmizi riskli investisiya

regionlarından biri hesab edirlər.Nəhayət, investisiya qanunvericiliyi investisiya fəaliyyətini tənzimləyən dövlət, eləcə də subyekt səviyyəli xüsusi normativ aktlarla əlaqədardır ki, bunun da ölkədə müəyyən bazasının yaradılmasına baxmayaraq, bu qanunların normal fəaliyyəti təmin olunmur.

Azərbaycanın investisiya iqliminə mənfi təsir edən əsas amillər aşağıdakılardır:

1. Qanunverici bazanın qeyri-sabitliyi;
2. Hədsiz vergi qoyuluşu;
3. Cinayətkarlıq və korrupsiya;
4. Əhalinin aşağı alıcılıq qabiliyyəti;
5. Yüksək gömrük rüsumları;
6. Yerli hakimiyyət orqanlarının səriştəsizliyi və bürok- ratizmi;
7. Yerli bank xidmətlərinin məhdudluğu;
8. İnfrastrukturun geriliyi;
9. Biznes üzrə portnyorların ödəniləcək pulu vaxtında ödəməməsi;
10. Dövlətin qeyri-qənaətbəxş, zəif sığorta təminatı;
11. Etibarlı portnyorların olmaması;
12. Bazar informasiyasının azlığı;
13. Kadr problemləri;
14. Mal və xidmət bazarlarının monopolizasiyası;
15. İstehsal güclərinin çatışmamazlığı;
16. İnflyasiya.

Siyasi və sosial sabitliyin, iqtisadi artım dinamikliyinin, xarici iqtisadi sferanın liberallaşma dərəcəsinin, inkişaf etmiş sənaye infrastrukturunun, bank və telekommunikasiya sisteminin, nisbətən ucuz ixtisaslı işçi qüvvəsi bazarlarının olması və s. kimi kriteriyalardan istifadə edərək beynəlxalq standartlar üzrə ümumilikdə Azərbaycanın investisiya iqlimini qiymətləndirərək təsdiq etmək olar ki, Azərbaycan bu parametrlər üzrə hazırda dünyanın bir çox ölkələrindən geri qalır.

Xarici kapitalın cəlb edilməsinin səmərəliliyi bir sıra makroiqtisadi göstəricilərlə müəyyən olunur ki, onların da arasında aşağıdakılar mühümdür:

- ölkəyə kapital qoyuluşunun ümumi həcmində xarici investisiyaların xüsusi çəkisi;
- sənaye istehsalının ümumi həcmində xarici kapitalın iştirakı ilə olan müəssisələrdə buraxılan məhsulların həcmi və payı;
- məşğulların ümumi sayında xarici investisiyalı müəssisələrdə məşğul olanların miqdarı və payı;
- xarici kapitalın iştirakı ilə olan müəssisələrdə əməyin məhsuldarlığı;
- ölkənin ümumi ixrac və idxalında xarici investisiyalı müəssisələrdə məhsulların payı;
- ümumi daxili məhsulda xarici kapitalın iştirakı ilə olan müəssisələrin məhsullarının xüsusi çəkisi

Kapital qoyuluşlarının ümumi həcmində xarici investisiyaların xüsusi çəkisi 1995-2001-ci illərdə 64-77% arasında olmuşdur ki, bu da orta hesabla 70% edir.

Sənaye istehsalının ümumi həcmində xarici investisiyalı müəssisələrin payı 1995-ci ildəki 3,5%-dən 2001-ci ildə 43,9%- ə çatmışdır. Göründüyü kimi, 2001-ci ildə 1995-ci illə müqayisədə 40,4% artıq olmuşdur. Ümumiyyətlə, bu göstərici sabit artım tempinə malik olmuşdur.

Məşğulların ümumi sayında xarici investisiyalı müəssisələrdə məşğul olanların payı 1995-1997-ci illərdə artımla müşayiət olunduğu halda, 1998-ci ildən 2000-ci ilədək olan dövrdə bu göstərici azalmışdır. Göründüyü kimi, məşğulların ümumi sayında xarici investisiyalı müəssisələrdə məşğul olanların xüsusi çəkisi çox aşağıdır. Xarici investisiyalı müəssisələrdə əməyin məhsuldarlığı 1995-ci illə müqayisədə 2001-ci ildə 7 dəfə artaraq illər üzrə sabit artımla müşayiət olunub. Xarici investisiyalı müəssisələrdə istehsal edilmiş məhsulların ÜDM-də xüsusi çəkisi 1995-2001-ci illərdə sabit artım tempinə malik olmuşdur. Belə ki, bu göstərici 1995-ci ildə 2,9%-dən 2001-ci ildə 28,4%-ə çatmışdır.

Yuxarıda ifadə olunanları yekunlaşdıraraq aşağıdakı nəticələri çıxarmaq olar:

- xarici kapital iqtisadiyyatımızın ayrılmaz tərkib hissəsi olmuşdur;
- xarici kapital iqtisadiyyatda sənaye istehsalının artımını və struktur dəyişikliklərini stimullaşdırır
- xarici kapital ölkədə hələ məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynamır;
- xarici investisiyalı müəssisələrdə əməyin məhsuldarlığı yüksək olmuş və illər üzrə sabit artım tempinə malik olmuşdur (1995-ci illə müqayisədə 2001-ci ildə 7 dəfə artmışdır);
- xarici investisiya axınının nisbətən müsbət dinamikasına baxmayaraq, investisiya proseslərinin aktivləşməsinə real təsir etmir;
- investisiya layihələrinin həyata keçirilməsinə istiqamətlənmiş xarici dövlətlərin kredit resurslarından istifadənin aşağı effektivliyi saxlanılır;
- Azərbaycan iqtisadiyyatında xarici kapitalın fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi investisiya iqliminin yaxşılaşdırılmasından asılıdır.

Kapital qoyuluşlarının səmərəliliyinin yüksəldilməsi üçün birbaşa xarici investisiyaları iqtisadiyyatın real sektoruna, o cümlədən xarici bazara istiqamətlənmiş emal sənayesində investisiya layihələrinin həyata keçirilməsinə, elmtutumlu sahələrə, məhsulların bölgüsü haqqında razılığın və konsessiya danışıqlarının şərtləri üçün layihələrə yönəltmək lazımdır.

Xarici investisyalı müəssisə və təşkilatların qeydiyyat üsulunu köklü şəkildə sadələşdirmək lazımdır. Lisenziyalaşan fəaliyyət növlərinin siyahısını azaltmağa ehtiyac duyulur. Lisenziyalaşdırma üsulu faktiki olaraq xarici kapitalın Azərbaycana axını yolunda əlavə maneədir.

Sadalanmış tədbirlərin xüsusiyyəti ondan ibarətdir ki, onlar kifayət qədər qısa müddət ərzində həyata keçirilə bilər. Onların köməyi ilə artıq yaxın illərdə xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilmə sistemini köklü olaraq dəyişmək və onlardan istifadənin effektivliyini yüksəltmək olardı. Müvafiq normativ aktların qəbuluna qədər investisiya prosesinin stimullaşdırılmasının mühüm aləti fiskal və maliyyə stimulları olaraq qalacaqdır. Büdcə sferasında mövcud vəziyyətin müvafiq güzəştlərdən istifadə edilməsi üçün əlverişsiz olduğuna baxmayaraq, investisiya aktivliyinin ümumi əlverişli rejiminin yaradıldığı müddətdə onlardan imtina Azərbaycanın sonralar xarici investisiyaların cəlb edilmə mübarizəsində rəqabət mövqeyinin pisləşməsinə gətirib çıxarardı.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №4, Bakı 2003*

# AQRAR İSLAHATLARIN İLKİN NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Rzayev F.**

*2007 -ci ildə İİETİ-də baş mütəxəssis, şöbə müdiri v.i.e.vəzifələrində işləyibdir*

90-cı illərin əvvəllərindən başlayan, kütləvi şəkildə isə 1996- cı ildən həyata keçirilən aqrar islahatlar artıq öz nəticələrini vermişdir. Təbii ki, bu nəticələrin özünü də birmənalı şəkildə qiymətləndirmək olmaz və biz yuxarıdakı fikri söyləyərkən müəyyən mənada “nəticənin olmaması özü də bir nəticədir” prinsipinə əsaslanmışdıq. Başqa sözlə, aqrar islahatlar artıq demək olar ki, başa çatdırılıb və hazırda ölkənin aqrar sektorunda müşahidə olunan həm müsbət, həm də mənfi meyllər bu islahatlar nəticəsində yaranıb. Burada bizim məqsədimiz islahatlar nəticəsində aqrar sektorda yaranan meyllərin hansının mənfi, hansının müsbət olduğunu qiymətləndirməkdir. Doğrudur, biz iddia etmirik ki, bir məqalə çərçivəsində aqrar islahatların nəticələrini tam əhatəli və fundamental bir şəkildə qiymətləndirmək olar. Lakin bununla belə hesab edirik ki, müəyyən bir kriteriya müəyyənləşdirmək və bu kriteriyaya əsaslanmaqla ümumi şəkildə də olsa müəyyən qiymətləndirmə aparmaq olar.

Aydındır ki, bu kriteriya ölkədə aqrar islahatların hansı məqsədlərlə aparılmasına əsasən müəyyənləşdirilməlidir. Yəni sual belə qoyulmalıdır ki, islahatlar başlayarkən kənd təsərrüfatında hansı inkişaf meylləri müşahidə olunurdu və biz islahat aparmaqla bu sahəni hansı istiqamətlərdə inkişaf etdirmək və hansı səviyyəyə çatdırmaq istəyirdik.

Azərbaycanda aqrar islahatların başlandığı 90-cı illərin əvvəllərində kənd təsərrüfatında ümumi vəziyyəti qısa şəkildə belə xarakterizə etmək olar: köhnə təsərrüfat münasibətləri tamamilə pozulmuş, aqrar istehsal bütün sahələr üzrə tənəzzülə uğramış, bir sözlə kənd təsərrüfatında əsaslı bir böhran vəziyyəti hökm sürürdü. O dövrdə ölkədə formalaşmış iqtisadi fikir isə belə idi ki, aqrar sektorda aparılan islahatlar bu sahədə sahibkarlığın inkişafının, ümumiyyətlə, bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin bərqərar olmasının, bu əsasda da kənd təsərrüfatı istehsalının düşdüyü böhran vəziyyətindən çıxarılmasının və ölkədə ərzaq bolluğu yaradılmasının əsas yoludur.

Fikrimizcə, Azərbaycanda həyata keçirilən aqrar islahatların ümumi məqsədlərinin özü ölkənin kənd təsərrüfatının inkişaf mənafeyi baxımından tam və düzgün müəyyənləşdirilməmişdir. Belə ki, məlumdur ki, hər hansı bir ölkədə, o cümlədən də Azərbaycanda, aqrar sektorun inkişafı bu sahə üzrə mövcud potensialdan ölkənin özünün kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi və dünya bazarında faydalı mal mübadiləsinin genişləndirilməsi üçün istifadə edilməsi məqsədlərinə xidmət etməlidir. Bu istiqamətləri bir az da genişləndirib dəqiqləşdirsək, onda ölkədə kənd təsərrüfatını inkişaf etdirməyin məqsədlərini aşağıdakı üç istiqamətdə qruplaşdıra bilərik: əhalinin ərzaq məhsullarına və bir çox geyim mallarına olan tələbatının ödənilməsinin mühüm mənbəyi kimi,

iqtisadiyyatın real sektoru olaraq ölkənin maddi sərvətinin artırılmasının və əhalinin məşğulluğunun təmin edilməsinin vasitəsi kimi. Deməli, ölkədə kənd təsərrüfatını inkişaf etdirməyin əsas məqsədləri üçün vasitə olan bazar münasibətlərinin formalaşması və sahibkarlığın inkişafı bizdə aqrar islahatların məqsədinə çevrilmişdir. Əsas məqsəd kimi isə ölkədə ərzaq bolluğunun yaradılması götürülmüşdür. Yəni aqrar potensialın birtərəfli qaydada ancaq ərzaq təminatına doğru yönəldilməsi nəzərdə tutulmuşdur. Təbii ki, əgər məsələnin qoyuluşu düzgün müəyyənləşdirilməyibsə, alman nəticələr də arzu edilən səviyyədə olmayacaq. Buna görə də aqrar islahatların nəticələrini təkcə bu prizmadan (aqrar islahatların Azərbaycanda müəyyənləşdirilən məqsədləri baxımından) deyil, kənd təsərrüfatını inkişaf etdirməyin yuxarıda ümumiləşdirdiyimiz üç istiqamətli məqsədi baxımından qiymətləndirsək daha düzgün olardı.

Hər halda aqrar islahatların nəticələrinə bu islahatların Azərbaycanda müəyyənləşdirilən məqsədləri baxımından da nəzər yetirək. Bu zaman məlum olur ki, aparılan islahatlar nəticəsində aqrar sektorda xüsusi mülkiyyətə əsaslanan təsərrüfat formaları geniş vüsət almış və bununla da ölkə üzrə aqrar istehsalın 99% özəl sektorun payına düşmüşdür. Artıq Azərbaycan kəndlisində sahibkarlıq hissi və səriştəsi formalaşmış, onlarda öz fəaliyyətlərini bazarın tələblərinə uyğun qurmaq meyli artmışdır. Bu fakt isə ilk növbədə özünü kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin strukturunun dəyişməsində və istehsalında göstərir (Cədvəl 1,2). Belə ki, 1994-2001-ci illər ərzində kəndlilər dənli bitkilərin, kartof, bostan və tərəvəz bitkilərinin əkin sahələrini genişləndirmişdilər. Bunun əvəzində isə pambıq, tütün, üzüm və çay bitkilərinin əkin sahələri kəskin şəkildə, meyvə və giləmeyvələrin əkin sahələri isə qismən azalmışdır. Buna müvafiq olaraq əkin sahələri genişləndirilmiş, məhsulların istehsalı artmış, digərlərinin (meyvə və giləmeyvə istehsalı istisna olmaqla) isə istehsalı azalmışdır.

Cədvəl 1

1994-cü və 2001-ci illərdə Azərbaycanda kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin strukturu (%-lə)*

| İllər | Cəmi əkin sahəsi | Dənli bitkilər | Pambıq | Tütün | Üzüm | Çay | Kartof və tərəvəz bitkiləri | Meyvə və giləmeyvə bitkiləri | Digərləri |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1994 | 100 | 50 | 17 | 0,8 | 9 | 1 | 4 | 10 | 8,2 |
| 2001 | 100 | 65 | 6,6 | 0,5 | 1 | 0,3 | 13 | 7 | 9,3 |

*Bu və bundan sonrakı bütün cədvəllər “Azərbaycanın statistik göstəriciləri- 2002” statistik bülleteninin və müəllifin hesablamaları əsasında hazmknmışdır.

Cədvəl 2

1994-cü və 2001-ci illərdə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcmi (min ton)

| İllər | Dənli bitkilər | Pambıq | Tütün | Üzüm | Çay | Kartof və tərəvəz bitkiləri | Meyvə və giləmeyvə bitkiləri |
|---|---|---|---|---|---|---|---|
| 1994 | 988,3 | 283,7 | 20,8 | 313,8 | 19,4 | 678,1 | 323,5 |
| 2001 | 1970,3 | 83,6 | 12,7 | 68,1 | 1,4 | 1813,1 | 497,5 |

Bu dövr ərzində heyvandarlıqda da inkişaf baş vermişdir. Belə ki, əgər 1994-cü ildə bütün təsərrüfatlar üzrə qaramal 1681,7 min baş, qoyun və keçilər 4644,4 min baş, quşlar 13,3 milyon idisə, bü göstəricilər 2001-ci ildə müvafiq olaraq 2097,9 min, 6558,9 min və 15,4 milyon olmuşdur. Buna müvafiq olaraq əsas heyvandarlıq məhsullarının istehsalında da müəyyən artım baş vermişdir (Cədvəl 3).

Cədvəl 3.

Əsas heyvandarlıq məhsullarının istehsalı, min ton

| İllər | Ət, kəsilmiş çəkidə | Süd | Yumurta | Yun |
|---|---|---|---|---|
| 1995 | 82 | 826,5 | 455,8 | 9 |
| 2001 | 114,1 | 1073,7 | 555,5 | 11,6 |

İndi isə islahatlar nəticəsində əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi sahəsində vəziyyətə nəzər salaq. Bunun üçün aşağıdakı cədvəllərə baxaq.

Cədvəl 4

Azərbaycanda islahatlar başlayarkən və hazırda hər nəfərə düşən ərzaq istehlakı (kq.-la) və bu istehlakda daxili istehsalın payı (%-lə)

| Məhsulun adı | 1995 | | | 2001 | | |
|---|---|---|---|---|---|---|
| | İl ərzində cəmi istehlak | O cümlədən daxili istehsal | Daxili istehsalın xüsusi çəkisi | İl ərzində cəmi istehlak | O cümlədən daxili istehsal | Daxili istehsalın xüsusi çəkisi |
| Ət və ət məhsuları (ət hesabı ilə) | 15 | 10,6 | 70,7 | 21 | 14 | 66,7 |
| Süd və süd məhsulları (süd hesabı ilə) | 138 | 107 | 77,5 | 178,3 | 131,8 | 74 |
| Yumurta (ədədlə) | 76 | 59 | 77,6 | 117 | 68 | 58,3 |
| Bitki yağı | 2,1 | 1,5 | 71,4 | 5,8 | 2,2 | 38,5 |
| Kartof | 23 | 20,1 | 87,5 | 55 | 74,4 | 135,2 |
| Tərəvəz və bostan məhsulları | 69 | 60,3 | 87,4 | 135 | 148,3 | 109,8 |
| Meyvə və giləmeyvə | 62 | 59,3 | 95 | 62 | 69,4 | 112 |
| Taxıl məhsulları (un hesabı ilə) | 141 | 114 | 81 | 160 | 242 | 151 |

Cədvəldən gördüyümüz kimi, 1995-ci illə müqayisədə 2001- ci ildə əhalinin müvafiq ərzaq məhsulları üzrə faktiki istehlakının səviyyəsi və eyni zamanda həmin məhsullar üzrə daxili istehsalın həcmi artmışdır. Bu artım xüsusilə kartof, tərəvəz və bostan məhsulları, meyvə və giləmeyvə, taxıl məhsulları üzrə olmuşdur. Belə ki, bu məhsulların daxili istehsalının artımı hətta həmin məhsullar üzrə faktiki istehlakın yüksək artımını da üstələmişdir. Lakin bununla belə ət, süd, yumurta və bitki yağı kimi məhsullar üzrə daxili istehsalın faktiki istehlakdakı xüsusi çəkisi 2001-ci ildə aşağı düşmüşdür. Yəni bu məhsullar üzrə istehlakın artmasının müqabilində həmin məhsulların daxili istehsalının artım səviyyəsi aşağı olmuşdur. Eyni zamanda bu məhsullar üzrə həm faktiki istehlakın, həm də daxili istehsalın səviyyəsi nəinki rasional fizioloji normalarla, hətta minimal normalarla müqayisədə belə çox aşağı səviyyədə olmuşdur (Cədvəl 5). Bu cəhətdən digər məhsullar (kartof, bostan və tərəvəz məhsulları, meyvə və giləmeyvə, taxıl məhsulları) üzrə vəziyyət fərqli olmuşdur.

Cədvəl 5

2001-ci ildə Azərbaycanda hər nəfərə düşən ərzaq istehlakınm və o cümlədən müvafiq daxili istehsalın fizioloji normalarla müqayisəsi

| Məhsulun adı | Rasional norma, kq | Minimal norma, kq | Faktiki istehlakm fizioloji normalara nisbəti | | | O cümlədən, daxili istehsalın nisbəti | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Faktiki istehlak, kq | Rasional normaya nisbəti, %-lə | Minimal normaya nisbəti, %-lə | Daxili istehsal, kq | Rasional normaya nisbəti, %-lə | Minimal normaya nisbəti, %-lə |
| Ət və ət məhsulları (ət hesabı ilə) | 75 | 38 | 21 | 28 | 55,2 . | 14 | 18,6 | 36,8 |
| Süd və süd məhsulları (süd hesabı ilə) | 381 | 312 | 178,3 | 46,8 | 57,1 | 131,8 | 34,6 | 42,2 |
| Yumurta, (ədədlə) | 251 | 211 | 117 | 46,6 | 55,4 | 68 | 27 | 32,2 |
| Bitki yağı | 9,1 | 5,5 | 5,8 | 63,7 | 105 | 2,2 | 24,1 | 40 |
| Kartof | 58 | 50 | 55 | 94 | 110 | 74,4 | 128 | 148 |
| Tərəvəz və bostan məhsulları | 141 | 106 | 135 | 95,7 | 127,3 | 148,3 | 105 | 140 |
| Meyvə və giləmeyvə, üzüm | 92 | 54,5 | 62 | 67,4 | 113 | 69,4 | 75,4 | 127,3 |
| Taxıl məhsulları (un hesabı ilə) | 126 | 126 | 160 | 127 | 127 | 242 | 192 | 192 |

Belə ki, kartof, tərəvəz və bostan məhsulları üzrə faktiki istehlak rasional normalarla müqayisədə qismən aşağı olsa da, minimal norma ilə müqayisədə xeyli yüksəkdir. Həmin

məhsullar üzrə daxili istehsalın səviyyəsi isə hər iki norma ilə müqayisədə yüksəkdir. Meyvə və giləmeyvə məhsulları üzrə isə həm istehlak, həm də istehsal rasional normalarla müqayisədə aşağı olsa da, minimal normalarla müqayisədə yüksək olmuşdur. Taxıl məhsullarının istehlakı ümumiyyətlə, bütün illər ərzində fizioloji normalardan xeyli çox olmuşdur. 2001-ci ildə isə ölkənin taxıl üzrə daxili istehsalının həcmi faktiki istehlakdan, həmçinin fizioloji normalara əsaslanan tələbatdan artıq olmuşdur.

Aparılan təhlillər göstərir ki, aqrar məhsullar üzrə dünya bazarında faydalı mal mübadiləsinin aparılması və bununla da ölkəyə valyuta daxil olmalarının təmin edilməsi baxımından aqrar potensialdan istifadənin səviyyəsi hər il aşağı düşmüşdür. Belə ki, 1994-cü ildən başlayaraq, aqrar məhsulların ixracı hər il azalmışdır. Əgər 1994-cü ildə ixrac edilən aqrar məhsullar 172183 min ABŞ dolları (və ya ümumi ixracın 27%-ni) təşkil edirdisə, bu göstərici 2001-ci ildə müvafiq olaraq 72452 min ABŞ dolları (və ya 3,1%) təşkil etmişdir. Bu isə 2001-ci ildə aqrar məhsulların ixracının 1994-cü illə müqayisədə 2,3 dəfə azalması deməkdir.

Azərbaycanda aqrar sektor üzrə ixracyönümlü sahələr pambıqçılıq, üzümçülük, tütünçülük, həmçinin meyvə-tərəvəzçiliyin bəzi sahələri və çayçılıq hesab edilir. 2001-ci ilin məlumatlarına görə kənd təsərrüfatı məhsulları üzrə ixracın 90%-ə qədəri məhz bu sahələrin üzərinə düşmüşdür. Lakin yuxarıda (Cədvəl 1,2) gördüyümüz kimi islahatlar dövründə məhz bu sahələr üzrə əkin sahələri, həmçinin də məhsul istehsalı əsaslı şəkildə azalmışdır. Bir sözlə, həmin sahələrdə böhranlı vəziyyət yenə də davam etməkdədir.

Bu sahələr ölkənin dünya bazarında faydalı mal mübadiləsini təmin edə biləcək sahələr olmaqla yanaşı, həm də əməktutumlu sahələr olmaqla əhalinin məşğulluğunun təmin edilməsində də mühüm rol oynayır. Deməli, bu sahələrdə böhranlı vəziyyətin davam etməsi ölkənin böyük bir hissəsini təşkil edən aqrar regionlarda əhalinin məşğulluğunun təmin edilməsində də əsaslı problemlər yaradır.

Ümumiyyətlə, Azərbaycanda həyata keçirilən aqrar islahatların nəticələrinə qiymət verilməsi baxımından apardığımız araşdırmaların nəticələrini qısa şəkildə aşağıdakı kimi xarakterizə edə bilərik:

- xüsusi mülkiyyətə əsaslanan təsərrüfatçılıq formaları aqrar sektorda tam üstünlük təşkil edir,
- artıq kəndlilərdə sahibkarlıq hissi və səriştəsi formalaşmış, onlarda öz istehsallarını bazarın tələblərinə uyğun qurmaq meyli artmışdır;
- kənd təsərrüfatının bəzi sahələri üzrə (meyvə-tərəvəz, taxılçılıq və heyvandarlıq sahələrində) istehsalın həcmi xeyli artmışdır;
- lakin bu artım ekstensiv xarakter daşıyır;
- əhalinin bitki mənşəli ərzaq məhsulları üzrə faktiki istehlakının səviyyəsi və eyni zamanda bu istehlakda daxili istehsalın payı xeyli artmışdır. Belə ki, bu məhsullar üzrə həm faktiki istehlak, həm də daxili istehsal fizioloji normalar səviyyəsinə çatmış, hətta taxıl məhsulları üzrə müvafiq göstəricilər normadan xeyli artıq olmuşdur;
- bununla belə, ət, süd və yumurta kimi yüksək kaloritli ərzaq məhsullarının istehlakında müəyyən artım olsa da, faktiki istehlak fizioloji normalarla müqayisədə xeyli aşağı olmuş, eyni zamanda bu məhsulların daxili istehsalı da mövcud tələbatdan çox az olmuşdur;
- aqrar sektorun ixracyönümlü sahələrində böhran daha da dərinləşmiş, bu məhsullar

üzrə istehsalın və buna müvafiq olaraq da ixracın həcmi əsaslı şəkildə azalmışdır;

- həm də əməktutumlu sahələr olduğundan bu sahələrdə böhranın davam etməsi regionlarda əhalinin məşğulluğunun təmin olunmasında əsaslı problemlər yaradır.

Deməli, islahatlar nəticəsində aqrar bölmədə müşahidə olunan meyllər daha çox mənfi meyllərdir. Əlbəttə, aqrar sektorda yeni təsərrüfatçılıq münasibətlərinin formalaşması öz-özlüyündə müsbət bir haldır. Lakin bu hələ məqsədə çatmaq deyil. Hətta bəzi məhsullar üzrə istehsalın yüksək artımının özü də birmənalı şəkildə müsbət qəbul edilmir. Belə ki, iqtisadi nəzəriyyənin əlifbasından məlumdur ki, kənd təsərrüfatı məhsullarına, xüsusilə ərzaq məhsullarına olan tələb qeyri-elastik tələbdir. Yəni məhsul bolluğu nəticəsində yaranan ucuzluq əhalinin həmin mallara olan tələbi əsaslı bir dəyişiklik (yəni artım) əmələ gətirmir. Beləliklə, bu halda kənd təsərrüfatı istehsalçısı öz məhsulunu ya sata bilmir, ya da ucuz qiymətə satmaqla ziyan etmiş olur. Ötən il Azərbaycanda yaranan "taxıl bolluğu böhranı" buna əyani misaldır.

Ölkənin aqrar sektorunda müşahidə olunan bu mənfi meyllərin yaranmasının bir sıra səbəbləri vardır. Fikrimizcə, bu ilk növbədə ölkədə aqrar islahatlara başlayarkən kənd təsərrüfatını hansı istiqamətlər üzrə və hansı səviyyədə inkişaf etdirməyin məqsədəuyğunluğunu müəyyən edən vahid və konkret bir dövlət proqramının olmaması ilə əlaqədardır. Yeri gəlmişkən qeyd edək ki, belə bir proqram heç indi də yoxdur. Digər tərəfdən isə aparılan islahatların sistemliliyi də təmin edilməmişdir. Belə ki, ölkədə aqrar və torpaq islahatlarının aparılması kənd təsərrüfatının yüksək inkişafını təmin edə biləcək yeyinti və emal sənayesi müəssisələrinin özəlləşdirilməsini qabaqlamışdır. Ümumiyyətlə, ilkin kənd təsərrüfatı istehsalı ilə emal sənayesi arasında yeni təsərrüfatçılıq münasibətlərinə əsaslanan səmərəli inteqrasiyanın formalaşmaması, həmçinin emal sənayesinin mövcud problemləri (maliyyə çatışmamazlığı, texnoloji avadanlıqların köhnəlməsi və s.) aqrar sektorun inkişafına mənfi təsir edən başlıca amillərdir.

Aqrar sektorun inkişafına mənfi təsir göstərən amillərdən biri də bu sahədə maddi-texniki təchizatın səviyyəsinin çox aşağı olmasıdır. Əslində bu hal aqrar islahatların start vəziyyətini xarakterizə edən faktorlardan biri kimi çıxış edir. Belə ki, özəlləşdirmə nəticəsində torpaq payı alan kəndli bu torpaqdan istifadə etmək üçün lazım olan texnikanı və digər istehsal vasitələrini əldə etməkdə çətinlik çəkir. Məlum olduğu kimi hələ keçmiş SSRİ dövründə Azərbaycanda kənd təsərrüfatı üçün istehsal vasitələri istehsal edən sənaye sahəsi demək olar ki, yox dərəcəsində idi və respublikanın bu tələbatı Keçmiş İttifaqın digər respublikaları hesabına ödənilirdi. Keçmiş İttifaq çərçivəsindəki əlaqələr qırıldıqdan sonra Azərbaycana kənd təsərrüfatı texnikasının gətirilməsi demək olar ki, dayandırılmışdır. Çünki bu texnikanı almaq üçün nə dövlət büdcəsində, nə də kənd təsərrüfatı istehsalçısında lazım olan maliyyə vəsaiti yox idi. Beynəlxalq təşkilatların ayırdığı maliyyə yardımı ilə bəzi sahibkarlar tərəfindən gətirilən az sayda kənd təsərrüfatı texnikası isə mövcud tələbatın müqabilində çox cüzidir.

Beləliklə, Azərbaycanda aqrar sektorun mövcud problemlərindən və həmin problemləri doğuran səbəblərdən çıxış edərək, bu sahənin perspektiv inkişafı baxımından aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

1.İlk növbədə kənd təsərrüfatının inkişafının prioritetləri müəyyənləşdirilməlidir. Yəni heç olmasa, bundan sonra müəyyənləşdirilməlidir ki, ölkədə kənd təsərrüfatını hansı istiqamətlər üzrə və hansı səviyyədə inkişaf etdirmək istəyirik. Yeri gəlmişkən qeyd edək ki, Mərkəzin elmi əsərlər toplusunun III buraxılışındakı məqaləmizdə bu prioritet istiqamətlər

barədə fikirlərimizi bildirmişik.

2.Bundan sonra isə aqrar sektor üzrə dövlət tənzimlənməsinin dəqiq hədəfləri müəyyənləşdirilməlidir. Bununla da hökumətin aqrar sektor üzrə hal-hazırda həyata keçirdiyi siyasətin sistemsizliyi aradan qaldırılmalıdır. Məsələn, kənd təsərrüfatı istehsalçıları ziyanla fəaliyyət göstərdiyi halda onlara vergi güzəştlərinin verilməsi fikrimizcə, elə də bir güclü tədbir deyil. Yaxud aqrar istehsalçılarının maliyyə vəsaitlərinə olan ehtiyacının müqabilində az olan və dövlət büdcəsinin imkanlarının məhdud olduğu bir vaxtda büdcə üçün böyük hesab edilən maliyyə yardımlarının ayrılması da kənd təsərrüfatının inkişafında elə bir mühüm rol oynamır. Lakin bunların əvəzində dövlət aqrar istehsalla emal sənayesi arasında səmərəli inteqrasiyanın qurulması mexanizmini, həmçinin torpaq bazarının formalaşmasını təmin edə bilsə kəndlilər öz məhsullarını əlverişli şərtlərlə reallaşdırmaq hesabına və ya öz əmlakını girov qoymaqla kredit müəssisələrindən ehtiyacı olduğu maliyyə vəsaitini əldə edə bilər.

3.Dövlət tənzimlənməsinin effektivliyi baxımından aqrar sektorla bağlı inzibati-idarəetmə orqanlarının səmərəli fəaliyyəti təmin olunmalıdır. Bu aşağıdakı istiqamətləri əhatə edir:

- Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq Komitəsi, damazlıq müəssisələri, baytarlıq idarəsi və İqtisadi İnkişaf Nazirliyinin ərzaq məhsullarının keyfiyyətinə nəzarət edən strukturlarının və s. bazasında dövlətin aqrar sektor üzrə idarəçiliyini həyata keçirən vahid mərkəzi icra orqanı kimi Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi yaradılmalıdır;
- Məhz bu orqan vasitəsilə ölkənin aqrar sektoru üzrə vahid iqtisadi siyasət hazırlanmalı və həyata keçirilməli, o cümlədən aqrar islahatların sistemliliyi təmin edilməlidir;
- aqrar sektor üzrə bir sıra xidmətlər (tədqiqat, təlimat, innovasiya, informasiya, konsaltinq, marketinq, cins toxumçuluq və damazlıq işləri, baytarlıq xidmətləri və s.) indiki vaxtda daha çox bu qurum vasitəsilə həyata keçirilməlidir.

4.Aqrar sektorun maddi-texniki təchizatının yaxşılaşdırılması məqsədilə kənd təsərrüfatı üçün maşınqayırma sənayesinin inkişafı imkanları araşdırılmalıdır. Bu məqsədlə lizinq xidmətinin inkişafı da təmin edilməlidir. Bu problemin həllində lazım gələrsə dövlətin təsərrüfat subyekti kimi çıxış etməsi imkanlarına da baxılmalıdır və s.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №4, Bakı 2003*

# SAĞLAM BÜDCƏ QURUCULUĞUNDAKI MANEƏLƏR VƏ PERSPEKTİVLƏR

**Heydərov P.**

*1995-ci ildən - hazırki dövrə qədər İİETİ-də böyük elmi işçi vəzifələrində işləyir*

Hazırda mövcud büdcə probleminin həlli ölkə iqtisadiyyatının əsas idarəetmə göstəricisi sayılır. Hökumətin fəaliyyəti əsasən bu istiqamətə yönəldiyindən iqtisadi inkişafın son nəticəsi də məhz büdcənin yekunları ilə ölçülməkdədir. Başqa sözlə, son nəticədə maliyyə ilinin qiymətləndirilməsi bununla müəyyən edilir. Keçid ölkəsi üçün bu hal təbii sayılsa da Azərbaycan üçün bu mərhələ çoxdan arxada qalmalı idi. Buna görə də sözügedən tendensiyanı normal çərçivədə qiymətləndirmək bir qədər çətindir. Lakin onun icra prosedurası daha çox nəzər cəlb edəndə strategiya subyektiv təsirlərin hücumuna ciddi şəkildə məruz qalır. Bu, hökümətin taktikasını ifadə edir və bunu büdcənin aylıq, rüblük, eləcə də yarımillik hesablamalarından da görmək mümkündür.

Bu məsələlər müstəviyə qoyulduqca ehtiyatlılıq prinsipi "əməliyyatı" daha güclü şəkildə nəzərə çarpır ki, bu da büdcə proqnozlarına nisbi mənada da olsa, nail olmağa çalışıldığını sübuta yetirir. Bu isə ölkədə dövlət büdcəsi şəffaflığını pozan əsas amillərdən biridir. Hələ iki il öncə buna büdcə təsnifatının qeyri-mükəmməlliyi əsas gətirilirdi. Belə ki, o vaxt bir qrup aiddiyyatlı hökumət orqanları tərəfindən növbəti il üçün (2002- ci ildə) hazırlanacaq büdcə sənədinin xeyli təkmilləşdirilmiş olacağı, eləcə də ölkə iqtisadiyyatının bütün sahələrinə təsir etmək baxımından mexanizm rolunu oynayacağı qeyd olunurdu. Bu eyni zamanda yeni büdcə təsnifatının hazırlanacağını nəzərdə tuturdu. Lakin bu iş xeyli uzanmaqla bərabər, onun bu cür büdcə siyasəti metoduna kompleks halda dəyişiklik yaradacağı güman edilmirdi.

2 iyul 2002-ci il tarixdə "Büdcə sistemi" haqqında qanun qəbul edilməklə, habelə növbəti maliyyə ili üçün dövlət büdcəsi bu qanun əsasında işlənməklə bu cəhət bir daha sübüt olundu. Çünki, dövlət büdcəsində yuxarıda qeyd olunan cəhətlərin əks edilməsi olduqca mürəkkəb məsələdir.

Dövlət büdcəsinin tərtibində hökumətin qoruduğu əsas meyllərdən biri də büdcə kəsrinin azaldılması xəttidir. Belə ki, bütün büdcə işləmələri bunun üzərində qurulur. Əsasən maliyyə sisteminin elementi kimi nəzərdən keçirilən büdcə sistemində müvafiq dəyişikliklər aparıldıqdan sonra dövlət büdcəsi kəsrinin ÜDM-də xüsusi çəkisi 13-14 faizdən (1992- 1994-cü illər) 1,5-2 faizə endirilmişdir. Məhz, ölkədə makroiqtisadi sabitliyi təmin edən vasitələrdən biri də bu olmuşdur. Ümumiyyətlə, büdcə kəsrinin 1996-cı il də daxil olmaqla son dövrlərdə tendensiyasına diqqət yetirdiyimizdə, onun ən çox 1998-1999-cu illərdə yüksək həddə çatdığının şahidi oluruq. Lakin, sözügedən dövrdə neft bonusları hesabına büdcə kəsrinin səviyyəsi azaldılaraq minimuma çatdırılmışdır.

Dövlət Statistika Komitəsinin dövlət büdcəsi kəsrinin ÜDM- də xüsusi çəkisinə dair son illər üçün məlumatı belədir: 1995-ci ildə 5,2%, 1996-cı ildə 2,9%, 1997-ci ildə 2,4%, 1998-ci ildə 1,8%, 1999-cu ildə 2,4%, 2000-ci ildə 1%. Burada bir cəhəti vurğulamaq lazımdır ki, statistika prosesin gedişatını deyil, yalnız nəticəni ifadə edir. Odur ki, o, bir çox hallarda təhlil vasitəsi ola bilməz. Məsələn, 1998-ci ildə neftin dünya qiymətləri ən aşağı səviyyədə olduğundan büdcə üçün çətin dövr hesab edilir, hansı ki, məhz bonuslar hesabına bunu kompensasiya etmək mümkün olmuşdur.

1995-2000-ci illər büdcə gəlirlərinin xərclərini ödəyə bilməməsi beynəlxalq maliyyə qurumlarının təqribən 488 milyon dollar həcmində kreditlərinin büdcə kəsirinə yönəldilməsinə gətirib çıxarmışdır. Amma 2000-ci ildən başlayaraq iqtisadi sabitləşdirmə tədbirlərinə cəmi 30 milyon dollara yaxın vəsait, yəni, əvvəlki illərlə müqayisədə 3-4 dəfə aşağı məbləğ xərclənməyə başlanmışdır. Şübhəsiz ki, ilk olaraq bunun əsasında neft faktoru durur. Lakin, bilavasitə büdcə xərclərinin sıxılmasını, həmçinin yığıcı orqanların da plan tapşırıqlarını məhsuldarlıqla yerinə yetirmək cəhdlərinin boşa çıxmağını qeyd etmək yerinə düşərdi. Belə ki bunların hər birinin əsaslı təsiri olmuşdur. Hökumət MM-də son hesabatında da məhz görülmüş tədbirlər nəticəsində büdcə kəsrləri onların ödənilməsinə yönəldilən real qeyri-inflyasiya resursları qədər azaldılması qeyd olunmuşdur və hökumətin rəyincə, bu bütün maliyyə sistemində və pul dövriyyəsində tarazlığı təmin etməyə, habelə dövlətin daxili borclarının artmasının qarşısını almağa imkan yaratmışdır. Bütün bunlar ölkənin iqtisadi potensialının mərhələli olaraq üzə çıxarılması fonunda reallaşmağı daha məşğulluğun sayılır və digər tərəfdən iqtisadi inkişaf qanunları bunu diqtə edir.

Burada digər bir məqam diqqəti cəlb edir. Təcrübə göstərir ki, ölkədə yığıcı orqanların yeni mexanizmdən doğan vəziyyətə adaptasiyası ilə bağlı çətinlikləri də büdcəyə yığım tempinə təsir etmir. Başqa sözlə, dövlət büdcəsinin icra mexanizminin tendensiyası bundan asılı deyildir. Məsələn, iki il öncə yeni Vergi Məcəlləsinin işə düşməsiylə, həmçinin paralel olaraq bir sıra gömrük yumşaltmaları ilə bağlı müəyyən narahatlıq mövcud olmaqda idi. Amma elə həmin vaxt ilk rüblərin nəticələri yığıcı orqanlar baxımından problemin olmadığını göstərdi. Çünki, büdcəyə vəsait cəlbiylə məşğul olan bu orqanların fəaliyyət metodu dəyişməzdir. Sadəcə olaraq, onların yükünü artırıb-azaldan ayrı-ayrı büdcə tədiyyəçilərinin şıltaqlıqlarıdır. Misal olaraq ARDNŞ-ni göstərmək olar. Büdcə siyasətində məhz neft amilinə əsaslanan kurs yürütməklə məqsədə nail olmaq taktikası götürüldüyündən hər dəfə strategiyada subyektiv təsirlərin rolu böyük olur ki, bu da ARDNŞ vasitəsilə özünü yaxşı təzahür etdirir. Bunun isə mənfi təsirləri ən çox Vergilər Nazirliyinin üzərinə düşür. Belə ki, öncə büdcənin təqribən 11 tədiyyəçisinin (əsas iqtisadi sektorlar üzrə) adı bilindiyi halda indi büdcəyə ödəniş icrası iki struktur arasında bölünüb ki, bunun təxminən 70%-i adı çəkilən qurumun üzərinə düşməkdədir. Buna görə də ARDNS-nin payı Gömrük Komitəsindən daha çoxdur. Burada sonuncunun bütün rüblər və il üzrə proqnoz tapşırıqlarını demək olar, həmişə artıqlaması ilə yerinə yetirilməsi sual doğura bilər. Bu, proqnoz amilini bir kənara qoysaq öncə onunla izah oluna bilər ki, bilavasitə idxal və ixrac əməliyyatlarına cavabdeh olan bu orqanın fəaliyyət dairəsi dəqiq məlumdur. Yəni, bu həqiqət yığıcı strukturların iş metoduna opponent olanlar tərəfindən qəbul etməlidir ki, Vergilər Nazirliyinin işi bilavasitə vergi bazasının üfüqi vəziyyətindən çox asılıdır. Vergi bazasını genişləndirmək isə iqtisadi inkişafa cavabdeh olan bütün orqanların işidir. Lakin bütün bunlarla yanaşı Azərbaycanda mövcud yığım siyasəti üfüqi

deyil, məhz şaquli istiqamətdə təzyiq vasitəsi daşıdığından həmin işin aparılması belə, effektsiz xarakter kəsb edəcəkdir. Yəni, gəlir mənbələri büdcədə yenə əks olunmayacaqdır.

Digər bir cəhət isə büdcə xərclərinə nəzarətlə bağlıdır. Təsnifat məsələsi problem olaraq ortaya qoyulanda xüsusən, onda ödəmələrin həyata keçirilməsinə dair konkret maddələrin olmaması qeyd olunurdu. Belə ki, bunun üçün hökumətə müraciət əsas görünürdü ki, onun da ən mühüm məsələlərdə səlahiyyəti məhdud olduğundan hər şey demək olar yüksək səviyyənin əlində cəmləşirdi. Xərc maddələrinə isə heç bir dəyişiklik etmək mümkün olmadığından bunlar yalnız bir şəkildə təsbitini tapmışdı.

Qeyd etmək lazımdır ki, "Büdcə sistemi haqqında" qanuna əsasən büdcə təsnifatı, onun bütün səviyyələrdə, habelə dövlət fondlarının da gəlirlərinin və xərclərinin funksional, iqtisadi və digər prinsiplər əsasında qruplaşdırılmasıdır. İqtisadiyyatda struktur dəyişiklikləri baş verdikcə bütün bu prosedurlara yenidən baxılması zərurəti yarana bilər, lakin bu büdcə icrasının həyata keçirilməsi sərbəstliyini şərtləndirir. Əks halda, xərcləri çıxmaq və gəlirləri güdməklə büdcə təsnifatını konkretləşdirmək və sərbəstləşdirmək bir araya sığmır. Azərbaycanda büdcə vəsaitləri dolayı yolla praktiki olaraq, subsidiya vasitəsi rolunu oynayır ki, bu da enerji sektorunda gizli subsidiyalaşdırma kimi hallandırılır. Rəsmi qiymətləndirmə, onun indiki büdcənin yarısı qədər, yəni 655 milyon dollar məbləğində dəyərləndirməkdədir. Qeyd etmək lazımdır ki, bu, dünya qiymətlərinə əsasən hesablanmış məbləğdir. Bu həcmdə məbləğin iqtisadiyyatın hansı sektorunda dövr etməsindən asılı olmayaraq, onun dağınıqsız surətdə və təyinatlı şəkildə bölüşdürülməsi mümkünlüyü bütün hallarda sual doğurur. Bundan əlavə, iqtisadiyyatı nağd pulla təmin etməli olan orqan ölkənin Milli Bankı olduğu halda, hazırda bu sahədə əsas rezervuar ARDNŞ sayılır. Belə ki, ölkə iqtisadiyyatı üzrə pul kütləsinin ÜDM-də xüsusi çəkisi bu sübyektlə bağlıdır. Buna görə də hətta, adi monstar siyasətin belə MB-nin iradəsindən asılı olması üçün energetika sektorunda durumun yaxşılaşdırılmasına nail olmaq lazımdır. Çünki, inflyasiya amili güclü nəzarətdə saxlanılır və bu mənada real sektorda nağd pul kütləsinə tələbat müəyyən çərçivə daxilində ödənilməkdədir. Hələ ilk dəfə olaraq, subsiyalaşmanın dövlət tərəfindən əhalinin enerjidaşıyıcıları ilə təmin edilməsi üzrə həcmi 1 trilyon 418 milyard manat göstərməklə yanaşı, ölkəyə idxal olunan enerjidaşıyıcıları üzrə də bir sıra məsələlərin əksini tapması cari ilin büdcəsinin əsas yeniliyi hesab edilir. Ümumiyyətlə, 2003-cü ilin dövlət büdcəsinin təsdiqinə dair Prezident fərmanında daxili subsidiyalaşdırma 1,6 trilyon manat (təqribən 350 milyon ABŞ dolları) məbləğində təsdiq edilmişdir. Lakin bütün bunlar büdcə sekvestrindən sığortalanmağa əsas vermir.

Bütün bunlarla yanaşı, işlənilən proqnoz göstəricilərinin də səthi xarakter daşıdığını müzakirə obyektinə çevirmək absurd görünür. Çünki praktika göstərir ki, Azərbaycanda istər büdcə istərsə də ayrı-ayrı iqtisadi templərə dair proqnoz göstəriciləri dərin analiz olunmur. Bu, büdcənin gəlir və xərcləri daxil olmaqla ən mühüm göstərici sayılan ÜDM proqnozuna da aiddir. Belə ki, sonuncunun həcmi başda olmaqla, büdcə gəlirlərinin ondakı payı və bu kimi digər müvafiq göstəricilər reallığı əks etdirmir. Məhz, ölkədə büdcə yayınmasının ən mühüm zənciri buradan keçir. Odur ki, ölkədə büdcə proqnozunun, ümumiyyətlə, proqnozlaşdırma siyasətinin dəqiqləşdirilməsi zərurəti çoxdankı problem sayılır. Hətta bir müddət əvvəl İngiltərənin Nou-hau fondunun nümayəndələri bu sahədə azərbaycanlı mütəxəssislərə yardımçı olmağa çalışmalarına baxmayaraq yerli maliyyəçi və iqtisadi ekspertlər arasında fikir ayrılıqlarının ortaya çıxması bu işi keyfiyyətsiz sonuclandırdı. Həmin dövrdə Maliyyə Nazirliyi

və keçmiş İqtisadiyyat Nazirliyinin ekspertləri tərəfindən proqnoz işlənilməsində bir sıra məqamların üst-üstə düşməməsi bu işin kökünün başqa amillərdə olduğuna dəlalət etdi. Bunlardan ən başlıcası isə, proqnozlaşdırmamn iqtisadiyyatın sektorları üzrə deyil, məhz ayrı-ayrı strukturların imkanlarının nəzərə alınmasıyla aparılmasından ibarətdir.

Beləliklə, Azərbaycanda qeyd olunan şəraitdə büdcə icrasının şəffaflığını təmin etmək çətindir. Ümumiyyətlə iqtisadiyyatın əsas sahələri üzrə artım templərinin özül sistemlərinin büdcə vəsaitləri sayəsində bacardıqca məhdud çərçivədə dəstəklənməsi hesabına kəsrin azaldılması xətti, bununla paralel isə iqtisadi inkişafa nail olmaq idarəçiliyi taktikası məntiqsiz kurs sayılır. Büdcə iqtisadiyyatın güzgüsü olmalıdır. Bunun üçün isə birinci, qanunvericiliyin təkmil olması, ikinci, büdcə siyasəti, pul kredit və vergi münasibətlərinin stimul-laşdırıcı xarakter kəsb etməsi, üçüncü, idarəetmənin təşkilati prinsiplərinin sərbəstləşdirilməsi, dördüncü real sektorda maliyyə axınlarının şəffaflaşdırılması zəruridir. Qeyd edək ki, korrupsiya məhz sonuncunun qidalanması hesabına təşəkkül tapır. İkincinin təmin olunması isə iqtisadi potensialı üzə çıxara bilər. Bütün bunlar təmin edildiyi şəraitdə isə dövlət büdcəsi həcminin 2-3 dəfə artımına nail olmaq olar. Digər tərəfdən, mövcud büdcə qanunvericiliyində bir sıra boşluqların olması Hesablama Palatası rəsmiləri tərəfindən də (Büdcə Məcəlləsi misal gətirilməklə) etiraf edilməkdədir. Fikrimizcə, bu boşluğu həm də “Gəlirlərin deklorasiyası haqqında” qanun və “Korrupsiya əleyhinə mübarizəyə dair” Dövlət Proqramı doldura bilər. Çünki əhalinin büdcədən gəlir əldə edən hissəsinin qazancı ilə xərcləri arasındakı ziddiyyət də hazırki sosial yönümlü büdcə siyasətinin necə deyərlər, paradokslarından biri sayılır.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №4, Bakı 2003*

# MÜASİR ŞƏRAİTDƏ İNVESTİSİYA LAYİHƏLƏRİNİN CƏLBEDİCİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ZƏRURƏTİ

**Novruzov V.**

*İİETİ-də aparıcı mütəxəssis vəzifələrində işləyibdir*

İqtisad elmi defisit resursların yerləşdirilməsinin elə variantlarını axtarıb tapmağa kömək edir ki, bunlar mümkün olan nəticələrdən ən yaxşısını əldə etməyə imkan verir. İnvestisiya layihələrinin səmərəliliyinin təhlili xərcləri vaxta görə bölüşdürməyə, habelə cari xərclərin gələcəkdə mənfəət əldə etməyə yönəldilməsinə aid olan qərarları çıxarmağa imkan yaradır. İnvestisiya qərarının cəlbediciliyinin qiymətləndirilməsi müxtəlif maraq sahiblərinin əldə etdiyi nəticələri və bu nəticələrin əldə edilməsinin mümkünlüyünə müxtəlif amillərin təsirini nəzərə almağa imkan verir.

İnvestisiya layihələrinin səmərəliliyinin təhlilindən cəlbediciliyinin təhlilinə keçid sahibkarlıq fəaliyyətinin motivasiyasının təkamülünü əks etdirir. İnvestisiya layihələrinin səmərəliliyini qiymətləndirmək zərurəti meydana çıxdığı kimi, investisiya layihələrinin cəlbediciliyinin təhlili də zamanın diqtəsi ilə zərurətə çevrilir.

İkinci dünya müharibəsindən sonra iqtisadi inkişafın özü layihələrin qiymətləndirilməsi zamanı qərarları qəbul etməyin meyarlarını və sistemli qaydalarını axtarıb tapmağı stimullaşdırırdı. Sürətli iqtisadi artım və texniki tərəqqi hətta məhdud həcmdə vəsaitlərə malik firma üçün əlverişli olan investisiya imkanları diapazonunun genişlənməsinə gətirib çıxarmışdır. Coşğun sürətli texniki tərəqqi qərarların qəbul edilməsi ilə onlardan fayda götürülməsi arasındakı zaman kəsiyinin çoxalması meylini doğurur, həmçinin lazımi kapital qoyuluşlarının həcmini artırmağı tələb edərək avadanlıq və məhsulların köhnəlmə sürətini xeyli artırırdı. Nəticədə investisiya layihələrinin düzgün qiymətləndirilməsi son dərəcə həlledici əhəmiyyət kəsb etdi. Bu sahədə səhvləri düzəltmək və, ya heç olmasa əvəzini nə isə başqa bir şeylə çıxmaq çox çətindir, çünki kapital qoyuluşlarının böyük hissəsi sırf xüsusi təyinatlıdır və praktiki olaraq alternativ tətbiq sahəsinə malik deyildir. Çox vaxt yeganə işi dayandırmaq və yeni layihəyə başlamaq olur.

Nəticədə texniki tərəqqi sənayeni daha kapitaltutumlu etmiş, investisiya qərarları isə ciddi şəkildə firmanın işinin uzunmüddətli istiqamətlərini müəyyənləşdirməyə başlamışdır. Firmanın işinin perspektivləri və istehsal strategiyası çox vaxt qəbul edilən qərarlarla (məsələn, firma müəssisələrinin tikintisi zamanı qəbul edilən qərarlarla) sərt şəkildə məhdudlaşdırılmış olur.

Müasir sənayenin get-gedə artan mürəkkəbliyi firmaların rəhbərliyinin layihələrin qiymətləndirilməsi üzrə səlahiyyətlərini mütəxəssislərə verməyə məcbur etmişdir. Bu vəzifənin həlli üçün investisiya qərarlarının qəbul edilməsinin dəqiq və hərtərəfli qaydalarının

kompleksini formalaşdırmaq zərurəti vacib bir məsələ kimi meydana çıxmışdır. Belə qərarların mərkəz- sizləşdirilməsinin artması bu tələbatı daha da gücləndirmişdir.

İnvestisiya layihələrinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi nəzəriyyəsi elə bir analitik alət yaratmağa çalışır ki, o aşağıdakı üç suala cavab almaqda kömək etsin:

- Firma hansı konkret investisiya layihələrini qəbul etməlidir?
- Firmanın kapital məsrəflərinin ümumi həcmi nə qədər olmalıdır?
- Firmanın investisiya portfeli hansı mənbələrdən maliyyələşdirilə bilər?

Bu suallara verilən cavablar bir-biri ilə sıx bağlıdır. Yalnız bəsit iqtisadiyyat qərarın maliyyə tərəfini nəzərdən keçirmədən kapital qoyuluşları məsələsini gündəliyə çıxara bilər. Problem heç də verilmiş (mövcud) vəsait həcmindən kapital məsrəflərinin hansı istiqamətinin maliyyələşdirilməsindən ibarət deyildir. Belə ki, həm götürülən vəsaitin həcmi, həm də səhmlər emissiyasının məbləği dəyişkən əhəmiyyətlidir və firmanın nəzarəti altındadır. Buna görə investisiya layihəsinin seçilməsi və fondların alınması barədə qərarları ideal halda eyni vaxtda qəbul etmək lazımdır. Müvafiq olaraq, müəssisə fondların dəyərini nəzərə almadan layihənin seçilməsi meyarlarını müəyyən edə bilməz, çünki həmin meyarlara öz növbəsində firma üçün ən yetərli olan investisiya imkanlarının xarakteristikası da təsir göstərir.

Ümumilikdə investisiya layihələrinin səmərəliliyinin təhlili qoyulmuş hər üç suala cavab verir. Lakin investisiya qərarlarının qiymətləndirilməsində belə yanaşmaya məqsədlərin bir ölçülü sistemi uyğun gəlir və bu zaman müəssisənin məqsədləri barədə fərqli anlayışa malik olan müxtəlif (istehsaldaxili və istehsaldankənar) qrupların təsiri nəzərə alınmır.

Müasir iqtisadi təlim çərçivəsində müəssisə gerçəklik barədə birliyin bütün üzvlərində müəyyən təsəvvür yaradan və onun təşkili üçün özül olan konsepsiyalar, baxışlar, dəyərlər, davranış modelləri kombinasiyası kimi nəzərdən keçirilir. Bu halda müəssisə maraqların çulğalaşması kimi xarakterizə edilə bilər.

Müəssisə cəmiyyətin iqtisadi əsasıdır, lakin o ictimai üst qurumun maraqlarını nəzərə almadan, özünün mənafeləri naminə fəaliyyət göstərərək, sosial və iqtisadi strukturlarda pozucu dəyişikliklər doğura bilər. Buna görə müəssisənin davranışı ilə cəmiyyətin maraqları son nəticədə tarazlaşdırılmalıdır. Müasir dövrdə müəssisənin fəaliyyəti təkcə rentabellik prinsiplərinə deyil, həm də müəssisənin özünün və onun əmək kollektivinin mənafelərinə xidmət edən və həmin müəssisənin fəaliyyət göstərdiyi regionun sosial inkişafı üçün faydalı olan sosial-etik prinsiplərə əsaslanmalıdır.

Sahibkarlıq fəlsəfəsinin dəyişməsi təbii ki, müəssisənin inkişafını və artımını şərtləndirən investisiya fəaliyyətinə tələbləri də dəyişdirmişdir. Layihələrin qiymətləndirilməsi zamanı qərar qəbul etmək qaydaları və meyarları sistemini (elə bir sistem ki, müəssisələrin davranışının yeni konsepsiyasını əks etdirsin, həmçinin onun sosialetik tərəflərini nəzərə alsın) işləyib hazırlamaq zərurəti yaranmışdır. İnvestisiya layihələrinin cəlbediciliyinin qiymətləndirilməsi üzrə analitik alətlərin işlənib hazırlanması məhz bu vəzifənin həllinə yönəldilmişdir.

Fikrimizcə, məhz investisiyalaşdırmanın cəlbediciliyi məsələsi Azərbaycan Respublikası üçün daha aktualdır. İnvestisiyalaşdırma barədə məsələnin həlli zamanı cəmiyyətin maraqlarının nəzərə alınmaması, sosial-etik prinsiplərə məhəlin qoyulmaması əhalinin ayrı-ayrı təbəqələri arasında uçurumu daha da dərinləşdirər və daha böyük sosial narazılıq doğurar ki, bunu da sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması amillərinə aid etmək çətin ki mümkün olsun.

Üstəlik, hazırda bir sıra səbəblər üzündən uzunmüddətli və strateji investisiyalar üzrə qərarların qəbul edilməsi istiqamətində rentabellik meyarları ölkəmizdə işləmir, yəni "elə bir dəqiqə" (ötəri) fayda götürməyə yönəldilmişdir.

Müasir diskusiyalarda belə bir halı daha çox onunla izah etməyə çalışırlar ki, guya Azərbaycanda real sektora investisiyaların qarşısını kreditlər üzrə bank dərəcələrinin çox yüksək olması alır ki, bu da öz növbəsində "sıxışdırma effekti", habelə iqtisadiyyatda risklərin yüksək səviyyəsi ilə izah edilir. Lakin ölkənin kapital bazarındakı vəziyyətinin bütün xüsusiyyətlərini izah etmək üçün göstərilən səbəblərin yetərli olduğunu söyləmək çox çətindir.

1990-cı ildən başlayaraq, Azərbaycanda özünü büruzə verən iqtisadi tənəzzülün bəzi xüsusiyyətləri belə güman etməyə əsas verir ki, burada müvəqqəti istəklər amili əhəmiyyətli rol oynayır, ən azı qeyri-müəyyənlik amilindən geri qalmır. Müasir cəmiyyətdə müvəqqəti istəklərin sovet dövründəkinə nisbətən daha güclü olması barədə iddialar bir sıra tarixi şəraitlə öz təsdiqini tapır.

Azərbaycan cəmiyyətində üstünlük təşkil edən, iqtisadiyyatda və vətəndaşların şəxsi həyatında dövlətin rolunun artırılmasına yönəldilən ideologiyanı nəzərə alaraq, Azərbaycan bazarının miqyaslı tənzimlənmədən "xilas edilməsi" və onun müvəqqəti istəklərinin səviyyəsinin xeyli aşağı olduğu daha geniş birliklərə inteqrasiya olunması hesabına faiz dərəcələrinin aşağı salınması ideyasını reallaşdırmaq əsla məntiqli görünmür.

Daha yüksək müvəqqəti istəklər ona gətirib çıxarır ki, maliyyə qoyuluşları və qeyri-istehsal sahələrinə qoyuluşlar istehsala yönəldilən investisiyalara nisbətən daha cəlbedici görünür. Buna görə əlavə meyarlar cəlb etmək zəruridir. Bunlar elə meyarlar olmalıdır ki, onlar hesaba alınan zamanı uzunmüddətli investisiya layihəsinin cəlbediciliyini əsaslandırmağa imkan versin və cəmiyyətdə hökm sürən ideologiya ilə ziddiyyət təşkil etməsin.

Müasir dünyanın iqtisadi prinsipləri və Azərbaycan cəmiyyətində hökm sürən sosial-iqtisadi siyasət təsərrüfat subyektlərinin qarşısında təkcə investisiya fəaliyyətinin səmərəliliyini deyil, həm də onun cəlbediciliyini qiymətləndirmək vəzifəsini qoymuşdur.

**İqtisadi İslahatlar Mərkəzinin əməkdaşları**

**(2004-2006-cı illər)**









## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Sadıqov Ş.**
*Milli iqtisadiyyatın tədqiqinin dinamik magistral modeli*
**Balayev R., Məmmədov S.**
*Şəhərin torpaq bazarı: tənzimləmə problemləri*
**Əfəndi E.**
*Azərbaycanda əhalinin istehlak səviyyəsi və onun sosial-iqtisadi inkişafa təsir istiqamətləri*
**Vəliyev Z.**
*Büdcə qanunvericiliyinin təkmilləşdirilməsi yolları*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №5, Bakı 2004*

# MİLLİ İQTİSADİYYATIN TƏDQİQİNİN DİNAMİK MAGİSTRAL MODELİ

***i.e.d., prof. Sadıqov Ş.***

*2024-cü ildən İETİ-nin İdarə Heyətinin sədri vəzifəsində işləyir*

Ölkə iqtisadiyyatının proqnozlaşdırılması üçün aşağıda təklif edilən dinamik magistral model iqtisadiyyatın inkişafının balanslaşdırılmış optimal trayektoriyasını müəyyən etməyə və bu trayektoriyanı ölkənin əsas iqtisadi göstəricilərinin maksimal artım templəri ilə əlaqələndirməyə imkan verir.

Modeli tərtib etmək üçün aşağıdakı şərti işarələrdən istifadə ediləcəkdir:

t - заман, t=l, t - proqnozlaşdırma dövrü

[(t-1), t] - proqnozlaşdırma intervalı,

n - makroiqtisadi sistemin funksional alt sistemlərinin (sahələrin) sayı, i,j - sahələrin indeksləri, i= $\overline{1,n}$; j= $\overline{1,n}$

aij(i) - t ilində i-ci sahənin birbaşa məsrəf əmsalı olub, j-cu sahədə məhsul vahidi istehsal etmək üçün tələb edilən i-ci məhsulun miqdarını göstərir;

bij(t) - t ilində sahənin fond tutumunun artımı əmsalı olub, j-cu sahədə məhsul vahidi istehsal etmək üçün zəruri olan i-ci sahənin fondlarının sayını göstərir;

xj(t) -t ilində j-cu sahədə məcmu məhsul buraxılışı;

Δxj(t) - t ilində j-cu sahədə istehsal artımı (xj t- xj t-1 kimi hesablanır);

xiek(t) -t ilində i-ci sahənin ixracı;

xiim (t) -t ilində i-ci sahənin idxalı;

Yi(t)-t ilində i-ci sahənin son istehlakı;

βi - i-ci sahədə fondların sıradan çıxması əmsalı;

τi- i-ci sahədə kapital qoyuluşlarının uzunluğu.

Yuxarıda qəbul etdiyimiz şərti işarələr daxilində Azərbaycan iqtisadiyyatının optimal inkişafının baza modeli aşağıdakı kimi alınacaqdır:

$$\sum_{t=1}^{T}\sum_{i=1}^{n} Y_i(t) \rightarrow \max \qquad (1)$$

$$x_u(t) \geq \sum_{j=1}^{n} a_{ij}(t)x_j(t) + \sum_{i=1}^{n}\sum_{\tau=n}^{\tau i} bij(t+\tau) + x_i^{ek}(t) - x_i^{im}(t) + y_i(t) \qquad (2)$$

$$x_u(t) \geq \sum_{j=1}^{n} a_{ij}(t)x_j(t) + x_i^{ek}(t) - x_i^{im}(t) + y_i(t) \qquad (3)$$

$$x_u(t) \geq 0, \quad x_j(t) \geq 0, \quad x_i^{im}(t) \geq 0, \; y_i(t) \geq \qquad (4)$$

2) məhdudiyyətinə görə məcmu buraxılışlar balanslaşdırılmışdır, yəni hər bir ildə hər bir funksional alt sistemin məcmu buraxılışı aşağıdakı toplananların cəmindən az olmamalıdır:

- istehsal istehlakı;
- istehsalın genişləndirilməsi üçün fond artımına çəkilən məsrəflər;

- ixrac;
- idxal çıxılmaqla son istehlak.

(2)-ci məhdudiyətin ikinci toplanması yalnız fondyaradıcı sahələr üçün, daha doğrusu tikinti və maşınqayırma üçün əhəmiyyət daşıyır.

Qeyd edək ki, bu şəkildə modeli reallaşdırmaq mümkün deyildir, çünki respublikaya gətirilən məhsulun məhdudlaşdınlmaması son istehlakm qeyri-məhdud artmasına şərait yaradır. Odur ki, birinci modifikasiya olaraq məqsəd funksiyasına gətirilən hər bir məhsul üçün "cərimə" daxil edilmişdir. Bu halda (1) optimallıq kriteriyası aşağıdakı şəklə düşmüşdür:

$$\sum_{t=1}^{T}\sum_{i=1}^{n} y_i\,(t) - \sum_{t=1}^{T}\sum_{i=1}^{n} n_i\, x_i^{im}(t) \to max \qquad (5)$$

burada $n_i$ - bir vahid i-ci məhsulun gətirilməsinin "cərimə"sidir.

İkinci modifikasiya olaraq modelə, $x_u^{u\mu} \le H_u(m)$ (6)

şəklində məhdudiyyət daxil edilmişdir. burada $n_i$ (t) - t ilində i-ci məhsulun maksimal mümkün gətirilmə həcmidir.

Bu variantda model funksional rolunu (1) oynayır. Modelin təkmilləşdirilməsi və adekvatlığı istiqamətində edilən növbəti modifikasiya isə (2)-(4) məhdudiyyətləri və (5) optimallıq kriteriyalı modelə fondlar üzrə aşağıdakı əlavə məhdudiyyətin daxil edilməsi ilə əlaqədardır:

$$x_i(t) \le \xi_i(t)[1-\beta_i(t)]F_i(t-1) + \Delta x_i(t-1) + \frac{1}{2}\Delta x_i(t) \qquad (7)$$

(7) məhdudiyyəti istehsalın elə bir zəruri şərtini təsvir edir ki, bu şərtə görə istehsalın həcmi verilmiş ildə verilmiş sahədə olan əsas istehsal fondlarının imkanlarını aşa bilməz. Bu məhdudiyyətin sağ tərəfinə 3 toplanan daxildir. Birinci toplanan (t-l)-cı ilə qədər işə salınmış fondların keçən ilki sıradançıxma əmsalını nəzərə almaqla qalan qalığını ifadə edir. Təbii ki, bu kəmiyyəti istehsalın həcmi ilə müqayisəyə gətirmək üçün onu ξ fond verimi əmsalına vurmaq lazımdır. Üçüncü toplanan isə, istehsalın t ilində artımının yarısıdır (yarımçıq güclərin bərabər şəkilli istismara verilməsi ilə əlaqədardır).

Sonra isə ardıcıl olaraq məhdudiyyətlər sisteminə illər boyu son istehlakın və məcmu buraxılışın azalması şərtlərini ifadə edən əlavə məhdudiyyətlər daxil edilmişdir. Bu məhdudiyyətlər aşağıdakı şəkildədir:

$$Y_i(t+1) \ge Y_i(t) \qquad (8)$$

$$x_i(t+1) \ge x_i(t) \qquad (9)$$

Bu şərtlər daxilində model iki variantda - həm (5) optimallıq kriteriyası üzrə, həm də aşağıdakı terminal kriteriya üzrə həll edilmişdir:

$$\sum_{t=1}^{n} y_i(t) - \sum_{t=1}^{T}\sum_{i=1}^{n} n_{ij}\, x_i^{im}(t) \to max \qquad (10)$$

Aparılmış hesablamaların nəticələri baza modelinin real iqtisadi şəraitdə yaxınlaşma dinamikasının və iqtisadi sistemə adekvatlığının get-gedə yüksəlməsini əyani şəkildə əks etdirir. Hesablamalar nəticəsində proqnozlaşdırma üfüqü üçün məcmu buraxılış larin, son istehlakın, əsas fondların həcminin, idxal və ixracın kəmiyyət qiymətləri əldə edilmişdir

*Azərbaycanda iqtisadi islahatların həyata*
*keçirilməsi xüsusiyyətləri və problemləri.*
*Elmi əsərlər toplusu. №5, Bakı 2004*

# ŞƏHƏRİN TORPAQ BAZARI: TƏNZİMLƏMƏ PROBLEMLƏRİ

**i.e.d., prof. Balayev R.**

*İİETİ-də Elmi Şuranın üzvü olub.*

**Məmmədov S.**

*İİETİ-də aparıcı*
*mütəxəssis vəzifələrində işləyibdir*

Şəhər yaşayışın qənaətcil məkanı, məskunlaşmanın mürəkkəb sistemi, ekoloji problemlərin aktuallaşdığı yığcam ərazidir. Bu ərazidə həmçinin iqtisadi fəallıq yüksəkdir, məhsuldar qüvvələr sənaye əsasında təmərküzləşmişdir. İnkişaf etmiş ölkələrdə əhalinin əksəriyyəti şəhər tipli yaşayış məntəqələrində yaşayır. Şəhər anlayışını bir çox tədqiqatçılar idarəetmə sahəsində hakimiyyət tərəfindən siyasi rəhbərliyin həyata keçirilməsi kimi qiymətləndirirlər. Yerli özünüidarə orqanı (munitsipalitet, bələdiyyə) yerli hakimiyyət adından kommunal və digər xidmətlərin təqdim edilməsi kimi başa düşülür. Şəhər əhalisinə keyfiyyətli və hərtərəfli xidmətin təminatı məqsədilə dövlət şərtli və şərtsiz subsidiyalar verərək, şəhər iqtisadiyyatını tənzimləyir. Şəhərin iqtisadiyyatı şəhər problemlərinin və şəhərdə dövlət siyasətininin əhatəli aspektlərinin məcmu idarə olunmasıdır. Şəhərin iqtisadiyyatından bəhs edərkən, onun dörd əsas elementini qeyd etmək vacibdir.

- şəhərin inkişafında bazar iqtisadiyyatı elementlərinin rolu;
- şəhərdə torpaqdan istifadə və torpaq rentası;
- mənzil fondunun və yoxsulluğun əhatəli öyrənilmə aspektləri;
- yerli hakimiyyət orqanının vergiləri və xəzinədarlıq sistemi.

Şəhər təsərrüfatında əsas rolu şəhərin mərkəzi hissəsi oynadığı hallarda belə şəhərlər monomərkəz şəhər hesab edilir. Monomərkəzi şəhərdə bir çox sənaye sahələri, kommersiya və digər şirkətlər şəhərin mərkəzində cəmləşir. Hazırkı dövrdə inkişaf etmiş ölkələrdə iş yerləri, mağazalar, mənzillər və s. tədricən şəhərətrafı zonalara köçürüldüyündən belə şəhərlərə polimərkəzi şəhər deyilir. XX əsrin ortalarına qədər şəhər həyatının təşkili monomərkəz modelə uyğun olduğundan, şəhərlərin tarixindən danışanda həmin tipli şəhərlər nəzərdə tutulur. Hal-hazırda da bir çox müasir orta və kiçik şəhərlər monomərkəzi tiplidirlər. Monomərkəzdən polimərkəzə keçid üçün bu inkişafı təmin edən elementlər vacibdir. Monomərkəzi modelin bır sıra elementlərinin polimərkəzi modeldə mövcudluğu mümkündür.

Monomərkəz tipli şəhərin əsas elementlərinə aşağıdakılar aid edilə bilər:

- mərkəzi nəqliyyat şəbəkəsi - şəhərdə istehsal olunan məhsul şəhərin mərkəzində yerləşən dəmir yolu vasitəsilə digər yaşayış məntəqələrinə daşınır;
- istehsalçı məhsulu mərkəzi nəqliyyat şəbəkəsinə primitiv nəqliyyatla daşıyır;

- mərkəzlə şəhərətrafı ərazini çoxşaxəli oxlara bənzər nəqliyyat xəttləri birləşdirir (işçi qüvvəsinin mərkəzə daşınması üçün radial sərnişin nəqliyyatı);
- əlaqə effekti - şirkət və təşkilatlar öz işgüzar danışıqlarını əsasən mərkəzi işgüzar rayonda həll edirlər.

Monomərkəzi modeldə mərkəzi işgüzar rayonda əsasən üç sahə - emal sənayesi, xidmət sahəsi qurumları və pərakəndə ticarət şəbəkəsi yerləşir. Torpaq rentası şəhər təsərrüfatında gəlir əldə edən şəxslərin fəaliyyətinin tənzimlənməsinə xidmət edir. Odur ki, monomərkəzi şəhərdə hər hansı istehlak məhsulunun istehsalı prosesində torpaq rentasını təhlil edək:

1. Hər hansı şirkət istehlak məhsulu istehsalı üçün əsas vəsait, xammal, işçi qüvvəsi sərf edərək, B həcmdə məhsul istehsal edir.
2. İşçi qüvvəsinin istismarı, məhsulun qiyməti milli əmtəə bazarında tənzimlənir və şirkət bunu əsas kimi qəbul edir.
3. Bu məhsulun istehsalında azad rəqabət hökm sürür.
4. Məhsul şəhəri təmin etməklə yanaşı mərkəzi dəmiryol stansiyası vasitəsilə şəhərdən kənara çıxarılır. Bu daşınma qiyməti məlumdur.
5. Xammal eyni qaydada 4-cü bənddəki qayda ilə gətirilir.
6. İstehsal amillərinin əvəzləşdirilməsi - torpağın və ya digər qiymətlərin qalxmasını istehsalın başqa amilləri ilə əvəzləşdirir.

Şirkətin gəliri istehsal amillərinin, şəhərdaxili daşınma və torpaq xərclərinin çıxılması şərti ilə yerdə qalan gəlirdən ibarətdir. Bunu tapmaq üçün ay ərzində istehsal olunan məhsulun sayını (B) məhsul vahidinin qiymətinə (P) vurub, istehsal (J) və nəqliyyat (N=txBxu) xərclərini çıxıb, şirkətin torpaq sahəsinə bölsək, torpağın rentasını müəyyən edərik:

$$R = \frac{P-B-J-N}{T} \qquad (1)$$

Monomərkəzi şəhərdə daha çox renta təklif edən şirkətlər mərkəzdə yerləşirlər. Odur ki, təbii surətdə xidmət və ticarət şəbəkələrinin mərkəzə axını başlayır. Pərakəndə ticarət müəssisələri şəhəri ticarət zonalarına bölərək, optimal torpaq sahələrinin tutulmasına nail olurlar. Bakı şəhərində buna misal olaraq Fəvvarələr meydanını, Gənclik ticarət şəbəkəsi, “Vətən” kinoteatrının qarşısındakı ticarət sırasını göstərmək olar. Ancaq bəzi amillərin təsiri ilə beynəlxalq iqtisadi araşdırmaların nəticələrinin dəyişməsi mümkündür. Belə ki, yoxsulluq səviyyəsinin yüksək olması, inkişaf etmiş şəhərlərdən fərqli olaraq, kasıb əhalinin şəhərətrafında yaşaması, mərkəzdən uzaqda ticarət yarmarkalarının (Binə, Sədərək və bu tip) intensiv işləməsinə gətirib çıxarır. Bununla istehlakçıya Çin və digər Asiya ölkələrinin keyfiyyəti aşağı və hətta insan orqanizminə mənfi təsir göstərən məhsullarını ucuz qiymətə satmaq mümkün olur. Bakı şəhərinin mərkəzi işgüzar rayonlarında yaşayan əhalinin orta və yüksək təbəqəsinə isə burada yerləşən elit mağazalar şəbəkəsi xidmət göstərir.

Məhsulun yüksək keyfiyyəti ticarət şəbəkələrinin mərkəzi rayonlarda yerləşməsini həm satıcı şirkətə, həm də istehlakçıya sərfəli edir.

Monomərkəzi şəhərdə mənzil sektorunda torpaq sahələrinin mənzil tikintisi üçün istifadəsinin də xarakterik cəhətləri diqqətdən kənarda qalmamalıdır. Burada torpaq sahələrinin rentası, mənzil tikintisində məcmu gəlirlərlə maya dəyərin fərqindən ibarətdir. Bakı şəhərində mənzilin qiyməti şəhərin mərkəzindən uzaqlaşdıqca surətlə dəyişir. Mənzil tikintisi üçün istifadə edilən torpaq sahəsinin rentası mərkəzdən uzaqlığı (u) nəzərə alınmaqla aşağıdakı qaydada hesablanır:

$$R(u) = \frac{P(u)*Q-K}{T} \quad (2)$$

Burada P(u) - mənzil sahəsi vahidinin qiyməti, Q - mənzilin sahəsi

K - mənzil tikintisinin maya dəyəri (torpaq xərcləri istisna olmaqla)

T - torpaq sahəsidir.

Şəhərin mərkəzindən məsafə artıqca torpağın rentasının aşağı düşməsi labüddür. İqtisadi təhlil üçün gətirilən misalda mənzil tikintisinin digər amilləri nisbi olaraq (kommunal xidməti, havanın təmizliyi, mənzilin keyfiyyəti, əlverişliyi) eyni səviyyəli qəbul edilir.

Monomərkəz şəhərdə mərkəzdən uzaqlaşdıqca mənzil tikintisi üçün istifadə edilən torpağın qiymətinin dəyişməsinin faizlə ölçüsünə rentanın qradienti deyirlər. Ətraf mühitin çirklənməsi də torpaq rentasına təsir etdiyindən, monomərkəzi şəhərin orta və ya hər hansı hissəsində ətraf mühitin çirklənmə mənbəyi olduqda həmin hissədə rentanın səviyyəsi aşağı olur ki, bu da torpağın və mənzil sahəsi qiymətlərinin eyni qaydada azalması tempi deməkdir.

Monomərkəzi şəhərdə ictimai təminat və xidmətin yüksək olduğu rayonlarda da yaşayış sahələrinin qiyməti yüksək olur. Burada xidmətin qiymətindən asılı olmayaraq, yəni yığılan vergilərin şəhərin bütün ərazisində eyni olması halında təhsil, səhiyyə və digər xidmətlərin yüksək olması, yaşayış sahələrinin qiymətinə təsir edir. Sosial və mənzil-məişət xidmətlərinin yüksək səviyyədə qurulması yerli xəzinədarlıq orqanının işindən çox asılıdır. Xidmət sahələrinin xəzinədarlıq vasitəsilə maliyyələşdirməsinin ahəngdarlığı, inzibati ərazidə informasiya texnologiyasının təminatı əhalinin və vergi ödəyicisi olan şirkətlərin həmin əraziyə axınını təmin edir.

Bir çox inkişaf etmiş dövlətlərin böyük şəhərlərindən fərqli olaraq, böyük şəhərlərimizdə və o cümlədən Bakıda yerli vergilərə dair qanunvericiliyin müasir səviyyədə işlənməməsi və diferensiallaşdırılmaması torpağın yuxarıda qeyd edilən gəlirlilik dərəcəsinin, idarə edilməsinin səmərəliliyini azaldır.

Şəhər təsərrüfatında daşınmaz əmlak bazarının xüsusi əmtəə növü olan torpaq sahələri məhdudluğu, istifadə üçün əlverişli olması, gəlir səviyyəsinə görə və digər xüsusiyyətləri ilə fərqlənir. Daha yaxşı torpaq sahələri hesabına əldə edilən gəlirlərin fərqi, yəni digər azgəlirli torpaq sahələrinə nisbətdə olan fərq həmin torpağın rentasını yaradır. Müqayisə üçün qeyd edək ki, kənd təsərrüfatında torpağın rentası yerin təkinin məhsuldarlığı, münbitliyi və sonra məhsulun daşınması üçün əlverişli yerdə olması ilə formalaşır.

Şəhərdə isə torpaq sahəsinin dəyəri yerləşdiyi əraziyə və məhəlləyə görə bir-birindən kəskin fərqlənir. Hər bir ərazidə torpağa olan tələbat orada tikintinin, icarənin, istehsalın təşkilinin və digər təyinatların qiymətini bazar münasibəti üzrə tələb və təklifə uyğun formalaşır. Şəhərdə torpaq sahələrinin digər xüsusiyyəti bir çox dövlətlərdə, o cümlədən Azərbaycanda torpaq bazarının dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən tənzimlənməsi və ona nəzarət olunmasıdır. Bu isə o deməkdir ki, torpaq üzərində mülkiyyətçilik digər əmtəələrdən fərqli olaraq mütləq hesab edilmir və cəmiyyətin maraqları dairəsində məhdudlaşdırılır. Bazar iqtisadiyyatı dövründə azad rəqabətin torpaq sahəsindən daha effektli istifadəni tənzimləməsinə baxmayaraq, hər bir sahə özlüyündə şəhər adlanan mürəkkəb orqanizmin bir üzvüdür. Şəhərin isə maraqları onu gözəl, həyat üçün əlverişli və perspektiv normal inkişaf etdirilmə imkanına malik olmasıdır. Torpaq sahələri üzərində şəhərin maraqlarını qruplaşdırsaq:

- ictimai servitutlar (keçidlərin, kommunal xidmət xətlərinin, elektrik ötürücülərinin torpaq sahələrində təşkil etmək imkanı);
- şəhərsalma reqlamenti (yaşayış məhəllələrində sənaye müəssisələri tikintilərinə məhdudiyyətlər, ətraf mühitin çirklənməsi, tikililərin sıxlığı, hündürlüyü və s. normativ aktların olması);
- ictimai servitut və şəhərsalma planı mütləq şəkildə şəhərin perspektiv inkişaf planına uyğunluğu üçün şəhərin baş planının mövcudluğu;
- torpaq istifadəçiləri və mülkiyyətçiləri üzrə icazə və vəzifələrin konkretliyi.

Bütün bu məhdudiyyətlər torpaqdan istifadənin yalnız bazar mexanizminə uyğunluğuna müəyyən düzəlişlər etməklə, torpağın qiymətini ondan istifadə hüquqları dairəsində dəyişir. Bundan başqa mülkiyyət forması, icarə və girov üzrə hüquqların mahiyyəti və etibarlılığı müxtəlif ölkələrdə bir-birindən fərqlənir. Müəyyən qeyd-şərtlərlə belə bir nəticəyə gəlmək olar ki, şəhər üzrə daşınmaz əmlak bazarında (evlər, tikililər, mühəndis qurğuları, bağlar və s. altındakı torpaq sahələri ilə birgə) əqdlər daşınmaz əmlaka görə yox, bu obyektlərdən istifadə hüququ əsasında həyata keçirilir. Daşınmaz əmlakla bağlı hüquqlar üzrə riski azaltmaq məqsədilə dövlət bu hüquqların qeydiyyatını aparır (registrə salır) və ya sadəcə qeyd (fiksasiya) edir. Fərq isə ondadır ki, birinci halda bu hüquqlara dövlət təminatı verilir, ikinci halda isə şəxs özü bu hüquqları sığortalayır. Beynəlxalq təcrübədə birinci sistem "avropa kontinental", digəri isə "ingilis-sakson" sistemi kimi tanınır.

Dövlət torpaq üzrə registri, yəni daşınmaz əmlak üzrə hüquqların qeydiyyatını aparmaqla yanaşı, daşınmaz əmlak obyektlərini də qeydiyyata alır. Bunun üçün torpaq kadastrı yaradılır. Bu zaman hər torpaq sahəsi kadastr nömrəsi almaqla, şəhərin kadastr planında onun sərhədləri, tikililəri, mülkiyyət hüququ, servitut və girovları qeyd olunur.

Dövlətin daşınmaz əmlakın qiymətinə, tikintilərin aparılmasına və ya yenidənqurmaya təsir etmək imkanı vergi mexanizmi ilə həyata keçirilməlidir. Şəhər büdcəsindən aparılan maliyyələşmələrlə yerlinfrastrukturun (yollar, körpülər, mühəndis qurğuları) və ümumiyyətlə şəhərin ümumi inkişafının təmin edilməsi ilə əlaqədar torpaq sahələrinin qiymətinin qalxması, yerli torpaq və əmlak vergilərinin tətbiqini zəruri edir. Azərbaycan Respublikasında hüquqi şəxslər üzrə əmlak və torpaq vergilərinin dövlət büdcəsinə, fiziki şəxslər üzrə isə bələdiyyə büdcələrinə aid edilməsi bu sahəyə digər ölkələrə nisbətən daha ciddi yanaşmanı zəruri edir. Praktikada torpaq vergilərinin infrastrukturun investisiyalaşdırılmasına yönəldilməsi dərəcəsini müəyyən etmək çox çətindir. Azərbaycanda şəhər torpaqları üzrə vergi dərəcələrinin olduqca aşağı olması, şəhər təsərrüfatının idarə olunmasında gəlir və xərclər üzrə disbalans yaradır. Müqayisə üçün aşağıdakı cədvəldə Rusiya Federasiyasının Sankt-Peterburq və Novqorod şəhərləri ilə Bakı, Gəncə və Sumqayıt şəhərləri üzrə 2003-cü ildə 1 kv.m torpaq sahəsinin vergi və icarə haqqları üzrə dərəcələrini (ABŞ dolları ilə) tutuşduraq:

| Şəhərlər | Torpaq vergisi | Torpaq vergisi manatla | Torpağın icarə qiyməti |
|---|---|---|---|
| Novqorod | 0,01-0,2 | 49-980 | 0,1-4,0 |
| Sankt-peterburq | 0,1-2,2 | 490-10000 | 0,1-330,0 |
| Bakı | 0,005-0,06 | 25-300 | Verginin 2 mislindən çox |
| Gəncə, Sumqayıt | 0,004-0,05 | 20-250 | Verginin 2 mislindən çox |

Cədvəldən göründüyü kimi Bakı şəhərində torpaq vergisi Sankt-Peterburq şəhərindəki minimum həddən 20 dəfə azdır. Digər tərəfdən Sankt-Peterburq şəhərində torpaq vergisi bütövlükdə şəhər (yerli) büdcəsinə aid edildiyindən və tam şəkildə yerli xəzinədarlığa daxil olduğundan, şəhərin inkişaf etdirilməsində yerli vergilərin tənzimləyici və maliyyə təminatı rolunu səmərəli reallaşdırmaq imkanı yaranır. Bakı və respublikanın digər şəhərlərində torpaq və əmlak vergiləri dövlət və bələdiyyələr arasında bölüşdürüldüyündən və şəhərin heç bir büdcəyə (dövlət və yerli) təsir imkanı olmadığından, şəhər təsərrüfatının idarə edilməsində vergilərin böyük rolundan danışmaq düzgün olmazdı. Bakı şəhər xəzinədarlığı, şəhər tabeli rayonların yerli xəzinədarlıq orqanları ilə birgə dövlət büdcəsi xərclərinin təsdiq edilmiş büdcə proqnozuna uyğun olaraq, formal icraçısı rolunu yerinə yetirdiyindən şəhərin daşınmaz əmlak və torpaq bazarına təsir imkanına malik deyil. Ümumiyyətlə bir çox inkişaf etmiş ölkələrdən fərqli olaraq, daşınmaz əmlak bazarında şəhər xəzinədarlığının tənzimləyici rolu qanunvericiliklə təsbit edilməmişdir. Yerli problemlərin həllini təmin edəı yerli büdcələrin xəzinədarlıq sisteminə qoşulmaması və müstəqil bələdiyyə xəzinədarlığının yaradılmaması da yerli özünüidarəetmə orqanlarının şəhər təsərrüfatındakı rolunu minimuma endirir. Digər tərəfdən vergilərin müəyyən edilməsində bir çox dövlətlər bazar qiymətlərini əsas götürdüyü halda, Bakı şəhərində torpaq və əmlak vergiləri çox aşağı olan inventar dəyərilə haqq-hesab edilir. Qeyd etmək kifayətdir ki, Bakı şəhərinin mərkəzi hissələrində müxtəlif əqdlər zamanı torpağın və tikililərin bazar qiyməti inventar dəyərindən dəfələrlə yuxan olur.

Bundan başqa Bakı şəhərində torpaq sahələri üzrə alverçilik fenomeni formalaşmışdır ki, bəzi şəxslər (hüquqi və fiziki) perspektivli torpaq sahələrini ucuz qiymətə alaraq müəyyən müddət gözləyirlər. Həmin zonada infrastukturun inkişafı və təklifin süni surətdə məhdudlaşdırılması nəticəsində torpağın qiyməti maksimal həddə çatdırıldıqdan sonra torpaq sahələri bazara çıxarılaraq satılır. Belə halların qarşısının alınması məqsədilə bir çox dövlətlər alış və satış qiymətləri arasındakı fərqə və ya torpağın son dəfə yenidən qiymətləndirilməsi dəyərinə tətbiq edilən xüsusi vergilərdən istifadə edirlər. Bu vergilərin tətbiq edilməsi torpaq alqı-satqısı zamanı real qiymətlərin süni azaldılması və fiktiv əqdlərin bağlanması hallarını da aradan qaldırır. Dövlət həmçinin torpağın qiymətini tənzimləməklə mənzil tikintisi, sənaye sahələrinin genişləndirilməsini və s. üzrə inkişafı təmin etmək imkanına malik olur. Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, şəhər torpaqları istifadəsi, mülkiyyətçiliyi və sərəncamçılığı dövlət tərəfindən tənzimlənən və nəzarət olunan unikal əmtəə rolunu oynayır.

Bu yanaşma metodunu əsas götürərək, Bakı şəhər torpaqlarının vahid demokratik mərkəzdən idarə olunmasının vacib əhəmiyyəti vardır. Odur ki, Bakı şəhərinin inzibati ərazisinə daxil olan dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların bazar iqtisadiyyatına uyğun dövriyyəsini və digər torpaq əqdlərinin şəffaflığını təmin etmək üçün xüsusi tədbirlər

planı işlənib hazırlanmalıdır. Tədbirlər proqramının Bakı şəhərinin perspektiv inkişaf baş planına uyğunluğu, əhalinin yaşayış tələbatının ödənilməsi və yerli büdcələrin formalaşmasındakı xüsusi rolu öz əksini tapmalıdır. Yerli özünüidarəetmə orqanları qarşısında mülkiyyətlərində olan torpaqlardan daha səmərəli istifadə edilməsinə dair konkret və xüsusi tələblər qoyulmalıdır. Şəhər torpaqlarından kölgə iqtisadiyyatının məqsədləri üçün istifadənin qarşısı tam şəkildə alınmalı və torpaq bazarında aşkarlıq təmin edilməlidir. Torpaq sahələri üzrə müqavilə və əqdlərin bağlanması qaydalarının optimallığı təmin edilməli, onlardan bürokratik alət kimi istifadə etmək imkanları ləğv edilməlidir.

Torpaq sahələrindən müxtəlif təyinatlı tikililər üçün istifadə edilməsində də məhdudiyyətlərin hüquqi bazası olmadığından, inzibati orqanlar tikintinin layihəsini icraat başlayana yaxın razılaşdırmaqla rəsmiləşdirirlər. Bunula daşınmaz əmlak üzrə bağlanan əqdlər böyük riskli hesab olunur, dövlət təminatı verilmədən və tikili sığortalanmadan həyata keçirilir. Sonradan isə daşınmaz əmlakın vergiyə cəlb edilməsi üçün özəlləşmə və qiymətləndirmə bazar qiymətlərinə uyğun aparılmadığından, yaranan vəziyyət reallıqdan çox uzaq olur. Hakimiyyət bazar qiymətləri haqqında dəqiq informasiyaya da malik olmur. Hətta qiymətlər haqqında mətbuatda gündəlik məlumatlar dərc edilməsinə baxmayaraq, mənzil bazarında rəsmi sənədləşmə və qeydiyyat aparılan zaman, qiymətlər süni şəkildə xeyli azaldılır. Bu sahədə normativ bazanı və vergiqoymanı bazar münasibətlərinə uyğun tənzimləməklə, daşınmaz əmlak üzrə əqdlərin bağlanması və real vergiyə cəlb edilməsi ilə yerli büdcə gəlirlərinin əhəmiyyətli artımını təmin etmək olar.

Bir çox inkişaf etmiş ölkələrdə daşınmaz əmlak üzərində icarə hüquqları alqı-satqı predmeti olmaqla, mülkiyyət hüququ kimi satıla bilir. İcarə hüquqlarının dövlət tərəfindən etibarlı müdafiə edilməsi, uzunmüddətli icarə ilə mülkiyyət hüququ arasındakı fərqi demək olar ki, aradan götürür. Azərbaycanda isə dövlət və yerli özünüidarə orqanları əmlakın icarə bazarında inhisarçı kimi icarə şərtlərini, icarə haqlarını və digər icarə elementlərini icarədarın razılığı olmadan dəyişə və hətta icarə müqaviləsini birtərəfli qaydada poza bilirlər. Bunun nəticəsidir ki, Bakı şəhərində daşınmaz əmlakın gizli şəkildə subarendaya verilməsi halları geniş yayılmışdır.

Ancaq bu sadalananlara əsaslanaraq paytaxtın daşınmaz əmlak bazarında nikbinliyə əsas olmadığını söyləmək düzgün olmazdı. İqtisadi sahədə aparılan islahatlar nəticəsində son illər ərzində nəinki heç bir təcrübəyə əsaslanmayan yeni daşınmaz əmlak bazarı yaradılmış, hətta onun mənzil, ofis və ticarət binaları üzrə sektorları fəallaşmışdır. Yaxın gələcəkdə hakimiyyət orqanlarının və bələdiyyələrin məqsədyönlü tədbirləri nəticəsində investisiya mühitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin daşınmaz əmlak bazarında dövriyyənin sürətli artımına nail olaraq, büdcə daxilolmalarının artacağına ümid etmək olar.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №5, Bakı 2004*

# AZƏRBAYCANDA ƏHALİNİN İSTEHLAK SƏVİYYƏSİ VƏ ONUN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİR İSTİQAMƏTLƏRİ

***i.ü.f.d. Əfəndi E.***

*2004-2006 -ci illərdə İİETİ-də aparıcı mütəxəssis və baş elmi işçi vəzifələrində işləyibdir*

Hər bir ölkədə tarazlı makroiqtisadi inkişafa nail olmaq məqsədilə məcmu daxili istehlakın tədqiqi, təhlili və proqnozuna ciddi fikir verilir. Bunun əsas səbəbi, bir tərəfdən, istehlakın ölkənin əmtəə və xidmətlər bazarının aparıcı komponenti olması ilə əlaqədardırsa, digər tərəfdən, hər bir ölkədə istehlakın tədqiqi, təhlili və proqnozu orada yoxsulluq səviyyəsinin, ümumilikdə isə sosial-iqtisadi vəziyyətin müəyyən edilməsində oynadığı mühüm rolla əlaqədardır.

Bir çox iqtisadi ədəbiyyatlarda istehlaka verilən oxşar tərifləri ümumiləşdirərək, ona aşağıdakı kimi açıqlama vermək olar:

- ***İnsanların maddi və mənəvi tələbatının ödənilməsinə yönəldilmiş istehlak nemətlərinin fərdi və birgə istifadəsi istehlak adlanır. Dəyər formasında isə bu, əhali tərəfindən əmtəə və xidmətlərin əldə edilməsinə çəkdikləri xərclərin məbləğidir***.

Qeyd edək ki, məcmu daxili istehlakın tərkibində ev təsərrüfatlarının istehlakı böyük xüsusi çəkiyə malikdir və sivil ölkələrdə bu göstərici ÜDM-nin təqribən yarısını təşkil edir (Azərbaycanda isə ev təsərrüfatlarının istehlakının ÜDM-dəki payı 2002-ci ildə 54.5% olmuşdur). Buna görə də, biz, tədqiqat işini daha da konkretləşdirərək, ev təsərrüfatlarının (əhalinin) istehlakı üzərində qurmuşuq. Hesab edirik ki, əhalinin istehlak davranışının öyrənilməsi və proqnozlaşdırılması nəticəsində biz, ölkədəki sosial-iqtisadi vəziyyəti daha obyektiv qiymətləndirə və iqtisadiyyatın inkişaf meyllərini aşkarlaya bilərik. Bunun üçün isə ilk növbədə biz, istehlakın həcminə və onun dinamikasına təsir edən amilləri müəyyən etməliyik. Belə ki, əhalinin istehlakına təsir edən faktorlardan ən əsaslarına aşağıdakıları aid edmək olar:

- əhalinin pul gəlirlərinin həcmi;
- əhalinin yaş strukturundakı dəyişiklik (demoqrafik amil);
- qoyulmuş əmanətlərin həcmi və onlara görə faiz dərəcəsi
- vergiqoymanın (xüsusilə əhalinin əmlakı və gəlirlərinə) səviyyəsi;
- əhalinin sərvətinin (varının) həcmi;
- istehlak qiymətlərinin (inflyasiyanın) real və gözlənilən dəyişməsi;
- istehlak kreditlərinin (borclarının) həcmi və onlara görə faiz;
- əhalinin gözlənilən (ümid etdikləri) gəlirləri

Mövcud məqalədə yuxarıda adları çəkilən faktorlardan məhz ilk ikisinin respublikamız timsalında təhlilinə diqqət yetiriləcəkdir. Bunun əsas üç səbəbi vardır. Birincisi, əhalinin pul gəlirlərinin həcmi onların istehlakında və onun dinamikasında daha xüsusi və böyük rola malikdir. İkincisi, digər faktorlarla müqayisədə əhalinin yaş strukturundakı dəyişiklik (demoqrafik amil) faktorunun əhali istehlakına təsiri ölkəmizdə çox az və zəif tədqiq və təhlil edilmişdir. Üçüncüsü, ölkədə yuxarıda adları çəkilən digər faktorların bir neçəsi haqqında mövcud şəraitdə real statistik məlumat əldə etmək çox çətindir. Lakin hesab edirik ki, yalnız söylənilən iki faktorun Azərbaycan Respublikasında əhalinin istehlakına təsir dərəcəsini araşdırmaqla biz, sonda istehlakın həcmi və strukturunun ölkənin sosial-iqtisadi inkişafında yaratdığı xüsusi pozitiv və ya neqativ meylləri təyin edə biləcəyik.

Birinci faktorun nəzəri-praktiki mahiyyəti ondan ibarətdir ki, əhali gəlirlərinin həcmində baş verən bu və ya digər dəyişiklik heç də həmişə onların istehlakında analoji dəyişikliyə səbəb olmur. İqtisadiyyatda C.M.Keynsin "Psixoloji Qanunu" adı ilə məşhurlaşan bu yanaşmaya görə ev təsərrüfatlarının gəliri çoxaldıqca onların istehlakı mütləq artır, nisbi isə azalır. Yəni, əhalinin gəliri çoxaldıqca onların istehlakı məbləğcə çoxalır, istehlaka orta meyllilik isə (bu indikator gəlirin məbləğini istehlakın məbləğinə bölməklə tapılır) əksinə, azalır. Bunun əsas səbəbi isə odur ki, əldə etdikləri gəlirlə özlərinin əsas istehlak məhsullarına olan tələbatını ödəməyə çalışan əhali, gəliri çoxaldıqca, artıq daha qiymətli məhsullar və xidmətlər (məsələn: avtomobil, mənzil, zinət əşyaları, xarici ölkələrə səyahət və s.) əldə etmək, "qara gün"-ə pul saxlamaq və s. bu kimi qənaəti (yığımı) çoxaldan hərəkətlər etməyə başlayır ki, bu da sonda istehlakın nisbi azalmasına gətirib çıxarır.

Analoji prosesin ölkəmizdəki vəziyyətini təhlil etmək üçün, aşağıdakı cədvələ nəzər yetirək (Cədvəl 1):

Cədvəl 1.

Ev təsərrüfatlarının gəlirləri və xərcləri (istehlakı) ilə bağlı göstəricilər

| | 1990 | 1995x) | 1998 | 1999 | 2000 | 2001 | 2002 |
|---|---|---|---|---|---|---|---|
| Əhalinin pul gəlirləri , milyard manat | 1.0 | 6702.2 | 14423.8 | 16134.4 | 17556.8 | 19010.2 | 21169.9 |
| Əhalinin pul gəlirlərinin artımı (əvvəlki ilə nisbətən %-lə) | | - | 116.6 | 118.9 | 108.8 | 108.3 | 113.4 |
| Əhalinin istehlakı (xərcləri) milyard manat | 0.9 | 6378.9 | 14662.7 | 15922.6 | 17347.2 | 18616.7 | 20965.0 |
| Əhalinin istehlakının (xərclərinin) artımı (əvvəlki ilə nisbətən %-lə) | | - | 121.6 | 108.6 | 108.9 | 107.3 | 112.6 |
| İstehlakın gəlirdəki payı və ya istehlaka orta meyllilik (%lə)-(sətir 3/sətir 1) | 0 | 95.2 | 101.6 | 98.7 | 98.8 | 97.9 | 99 |
| İstehlaka marjinal meyllilik - İMM (%-lə) (sətir 4/sətir 2) | | - | 104.3 | 91.3 | 100.1 | 99.1 | 99.3 |

x) qeyri- mütəşəkkil ticarət və xidmət nəzərə alınmaqla

Qeyd: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları və müəllifin şəxsi hesablamaları əsasında tərtib edilmişdir

Cədvələ ilk baxışdan görünür ki, bütün illərdə əhalinin istehlakı onların gəlirlərinin artımı ilə paralel olaraq artmışdır. Lakin bunun əksinə olaraq, əhalinin istehlaka orta meylliliyində dinamiklik müşahidə olunmamışdır. Əksinə, əhalinin istehlaka orta meylliliyinin həcmi hər il bir cür olmuş və hətta 1999-cu və 2001-ci illərdə əvvəlki illərə nisbətən azalma qeydə alınmışdır. Deməli, aparılan sadə təhlil C.M.Keynsin "Psixoloji Qaınunu"nu nisbətən sübut edir. Daha doğrusu, illər üzrə əhalinin gəlirinin artımı ilə paralel olaraq istehlakı da artmışdır, lakin bu artım mütləq olmuş, nisbi artım (istehlaka orta meylliliyin artımı) isə müşahidə olunmamışdır.

Bazar iqtisadiyyatı şəraitində, bütün inkişaf etmiş ölkələrdə əhalinin istehlakı və qənaəti tədqiq edilərkən onun ölkənin sosial-iqtisadi inkişafında yaratdığı müvafiq meyl və ya effektin müəyyən edilməsinə xüsusi diqqət yetirilir. Bu cür effekt iqtisadiyyatda sadə multiplikativ effekt adı ilə tanınır. Sadə multiplikativ effektin baza göstəricisi isə vahidin qənaətə marjinal meyllilik (QMM) göstəricisinə nisbəti kimi (yəni, 1/QMM və ya 1/(1-İMM) kimi) tapılır. Deməli, ölkədə əhalinin istehlaka marjinal meylliliyi (yəni əhalinin gəlirinin bir vahid çoxalması nəticəsində onların istehlakının nə qədər artması) nə qədər yüksəkdirsə, sadə multiplikativ effekt bir o qədər yüksəkdir. Multiplikativ effektin yüksək olması isə o deməkdir ki, ölkədə qoyulan investisiya və ya çəkilən xərc daha çox gəlir gətirir.

Sadə multiplikativ effektin respublikamızda yaratdığı tendensiya da praktiki baxımdan çox müsbətdir (bax: Cədvəl 1 - 6-cı sətir). Belə ki, cədvəldən də göründüyü kimi, əhalinin istehlaka marjinal meylliliyi son illər yüksək olmuşdur ki, deməli bu da ölkədə, qoyulmuş hər bir investisiyanın daha yüksək iqtisadi səmərəyə səbəb olmasından xəbər verir.

Lakin qeyd edək ki, ölkədə sabit iqtisadi inkişaf baş verən bir dövrdə əhalinin istehlaka marjinal meylliliyi mütəmadi olaraq yüksək olduqda, bu, ölkənin sosial-iqtisadi inkişafında mənfi meyllər də yaradır, iqtisadiyyatda bu tendensiyanın əsaslı sübutu öz əksini Harrod-Domarın "İqtisadi artım nəzəriyyəsi"- ndə tapmışdır. Belə ki, bu nəzəriyyənin tərəfdarları sübut edirlər ki, hər bir ölkədə iqtisadi artımın tempi (G) Milli Gəlirdə yığımın (qənaətin) payının (S) artımı ilə düz, kapitaltutumu əmsalının (C) artımı ilə isə tərs mütənasibdir. Yəni, **G=S/C.**

Əhalinin istehlaka marjinal meylliliyinin yüksək olmasının digər bir mənfi cəhəti isə bu tendensiyanın ölkədə əhalinin yoxsul və ya "qeyri- kafi gəlirli" olmasını sübut etməsi ilə əlaqədardır. Yəni, ölkədə əhalinin öz gəlirlərinin çox hissəsini zəruri istehlak mallarının alınmasına və ya ümumilikdə istehlaka yönəltməsi onların pul gəlirlərinin, iqtisadi vəziyyətinin aşağı olmasından və ölkədə yoxsulluğun mövcudluğundan xəbər verir. Əksinə, əhalinin əldə etdiyi gəlir "kafi" olduqda və artdıqda isə, artıq onlar öz gəlirlərindən qənaət etmiş olurlar və bu zaman qənaətə marjinal meyllilik artmış olur ki, bu da ölkədə əhalinin sosial -iqtisadi vəziyyətinin yaxşı olmasını göstərir.

Yuxanda qeyd edilən məsələ bizim respublikada da çox aktualdır. Belə ki, Cədvəl 1-dən də göründüyü kimi, əhalinin istehlaka marjinal meylliliyinin son üç ildə 99%-dən də yüksək olması bir daha ölkədə əhalinin sosial-iqtisadi vəziyyətinin aşağı olmasından və böyük yoxsul kütlənin mövcudluğundan xəbər verir.

Qeyd etdiyimiz kimi, ev təsərrüfatlarının istehlakının (həmçinin də qənaətinin) dinamikası və meyllərinin formalaşmasında əsas faktorlardan biri də əhalinin yaş strukturunda (demoqrafik amil) baş verən dəyişmələrdir. Bu məsələyə ilk dəfə elmi don geyindirən Amerika

iqtisadçısı Nataniel Leff olmuşdur. Belə ki, o, 1969-cu ildə ilk dəfə öz tezisində qeyd etmişdir ki, ölkədə "öhdəlikdə yaşayanlar"-ın payı (təqaüdçü və yeniyetmələrin işləyən əhaliyə və ya ümumi əhaliyə nisbəti) nə qədər yüksəkdirsə, məcmu istehlak bir o qədər çox, məcmu qənaət isə bir o qədər azdır. Yəni, əhalinin öhdəlikdə yaşayan təbəqəsi gəlirlərinin çox hissəsini (demək olar ki, hamısını) "qara günü" düşünmədən istehlaka yönəldirlər.

Nataniel Leffin 74 ölkə üzərində sınadığı və özünü doğruldan bu tendensiyaya respublikamızın timsalında da nəzər yetirmək və tədqiq etmək maraqlı olardı. Məhz bu məqsədlə, ölkədə əhalinin yaşı 19-a qədər olan hissəsini və təqaüdçüləri "öhdəlikdə yaşayan" əhali kimi qəbul edərək aşağıdakı cədvəldə ümumiləşdirmişik.

Cədvəl 2.

Əhalinin ümumi sayı və "öhdəlikdə yaşayan " hissəsi haqqında məlumat

| | 1990 | 1995 | 1998 | 1999 | 2000 | 2001 | 2002 |
|---|---|---|---|---|---|---|---|
| Ümumi əhali (min nəfər) | 7131.9 | 7643.5 | 7876.7 | 7953.4 | 8016.2 | 8081.0 | 8141.4 |
| 19 yaşa qədər (%-lə) | 42.5 | 41.5 | 40.7 | 41.3 | 40.6 | 39.9 | 39.1 |
| Təqaüdçülər (%-lə) | - | 16 | 15 | 15.1 | 14.8 | 15 | 15.1 |
| Cəmi "öhdəlikdə yaşayanlar" (%-lə) | - | 57.5 | 55.7 | 56.4 | 55.4 | 54.9 | 54.2 |

Qeyd: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, respublikamızda "öhdəlikdə yaşayan" əhalinin payı 1999-cu ildən başlayaraq azalmağa doğru meyl etmişdir. Deməli, bunun nəzəri və praktiki nəticəsi olaraq, ölkədə ümumi istehlaka meyllilik də nisbətən azalmalıdır. Reallıq da bunu göstərir. Belə ki, Cədvəl 1-dən də göründüyü kimi, son illər əhalinin istehlaka orta meylliliyi əvvəlki illərlə müqayisədə nisbətən azalmışdır. Lakin qeyd edək ki, bu meyl ancaq pay göstəricisinin azalması hesabınadır. Yəni, əhalinin "öhdəlikdə yaşayan" hissəsinin (xüsusilə təqaüdçülərin) gəlirləri elə aşağı səviyyədədir ki, bunun hər hansısa hissəsinin qənaətə getməsindən heç danışmağa dəyməz.

Hesab edirik ki, əhalinin istehlakında baş verən bu tendensiya 2004- cü ildə də ciddi dəyişikliyə uğramayacaqdır. Daha doğrusu, "Təqaüdlərin artırılması haqqında" AR Prezidentinin 4 avqust 2003-cü il tarixli Fərmanı belə, yenə də, təqaüdlərin artan gəlirlərinin istehlaka yönəldilməsinə səbəb olacaqdır. Çünki, bir tərəfdən, ölkədə təqaüdçülər hətta istehlakı zəruri olan məhsulları belə, tam istehlak edə bilmirlər, digər tərəfdən son zamanlar ölkədə baş verən inflyasiya (rəsmi məlumata əsasən bu ilin I rübündə ölkədə inflyasiyanın səviyyəsi 5.4% olmuşdur) təqaüdçülərin real təqaüdlərinin azalmasına səbəb olmuşdur.

Beləliklə, bütün məqalə boyu deyilənləri nəzərə alaraq aşağıdakı ümumiləşdirilmiş və məntiqi nəticələrə gəlmək olar:

- Əhalinin istehlakının həcmi və strukturu onların gəlirlərinin səviyyəsindən və ümumilikdə isə sosial-iqtisadi vəziyyətindən xəbər verir. Ona görə də, son zamanlar hökumət tərəfindən yoxsulluq probleminin aradan qaldırılmasına xüsusi diqqət yetirilən respublikamızda bu məsələyə ciddi fikir verilməsi məqsədəuyğundur. Daha doğrusu, ölkə əhalisinin gəlirinin hansı hissəsini istehlaka yönəltməsinin dərindən araşdırılması iqtisadi cəhətdən iki mühüm əhəmiyyətə malikdir:

1. **Cari əhəmiyyət** - ölkədə əhalinin istehlaka orta meylliliyinin dərindən tədqiqi bizə, əhalinin yoxsulluq səviyyəsini müəyyən etməkdə köməklik edəcəkdir;
2. **Perspektiv əhəmiyyət** - əhalinin istehlaka marjinal meylliliyin proqnoz yönümlü tədqiqi ölkə daxilində qoyulan hər əlavə investisiyanın nə dərəcədə səmərəli (sadə multiplikativ effekt) olmasını müəyyən etməyə imkan verəcəkdir.

- Ölkə əhalisinin ümumi sayında "öhdəlikdə yaşayan"ların payının çoxluğu ölkədə sadə multiplikativ effektin yüksəkliyindən xəbər verir. Ona görə də təklif edirik ki, cari dövrdə ölkədə həm iqtisadi inkişafa, həm də yoxsulluğun azaldılmasına nail olmağın ən optimal yolu əhalinin "öhdəlikdə yaşayan" hissəsinin və aşağı əmək haqqı alan digər əhali qruplarının (məsələn, orta məktəb müəllimlərinin, dövlət müəssisələrində çalışanların və s.) təqaüd və əmək haqqlarının qaldırılması hesab edilə bilər. Eyni zamanda hesab edirik ki, ilkin dövrlərdə dövlətin bu xərclərinin reallaşdırılması üçün ən optimal mənbə Dövlət Neft Fondunun vəsaitləri ola bilər.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №5, Bakı 2004*

# BÜDCƏ QANUNVERİCİLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

**Vəliyev Z.**

*2002-2007-ci illərdə İİETİ-də aparıcı mütəxəssis vəzifəsində işləyibdir*

Büdcə - Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir. Büdcə eyni zamanda ölkənin bir illik konstitusiyasıdır.

Büdcə gəlirləri, büdcə xərcləri və büdcə kəsiri anlayışlarının hər birinin indikator kimi istifadə olunması məhz büdcənin bir iqtisadi alət olaraq ölkədə gedən proseslərə təsir göstərmək qabiliyyətini ön plana çıxarır.

Məlumdur ki, istənilən dövlətdə büdcə prosesləri (büdcə) qanunvericilik ilə tənzimlənir. Azərbaycan Respublikasında büdcə qanunvericiliyi dedikdə, ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyası, "Büdcə sistemi haqqında" Qanun, hər il qəbul edilən dövlət büdcəsi haqqında qanunlar nəzərdə tutulur.

"Büdcə sistemi haqqında" ilk qanun 1 dekabr 1992-ci ildə qəbul edilmiş və tam on il öz hüquqi qüvvəsini saxlamışdı. Lakin 90-cı illərin sonlarında respublikada aparılan iqtisadi islahatlar və iqtisadi inkişaf, maliyyə sektorunda da gedən proseslərə öz təsirini göstərmişdi, xüsusilə bu öz əksini büdcə-vergi məsələlərində tapırdı (müvafiq qanunvericilik bazasının olmasına baxmayaraq, 1995-ci ilin büdcə göstəriciləri həmin ilin sentyabrında, 1996-cı ilin büdcəsi isə həmin ilin mart ayında qəbul edilmiş, müvafiq olaraq 1995-ci ilin dövlət büdcəsinin icrası 1997-ci ilin mart, 1996-cı ilin dövlət büdcəsinin icrası isə 9 dekabr 1997-ci ildə qəbul edilmişdi). Belə ki, dövrün tələblərinə uyğun olaraq büdcə qanunvericiliyinin təkmilləşdirilməsi zərurəti yaranmışdı. Bunun nəticəsi kimi 18 may 1999-cu ildə Azərbaycan Respublikasının "Dövlət büdcəsi haqqında" xüsusi bir Qanun qəbul edilməsini göstərmək olar. Qəbul edilmiş yeni qanun "Büdcə sistemi haqqında" Qanuna kömək məqsədi daşıyırdı. Yəni bu qanunun qəbul edilməsinə baxmayaraq "Büdcə sistemi haqqında" Qanun qüvvədən düşmədi, lakin proseslərin tənzimləyici aləti kimi ("Büdcə sistemi haqqında" Qanun) əhəmiyyətli sənəd funksiyasını itirdi.

Paralel olaraq iki qanunun olması və bunlardan yalnız birinin faktiki işləməsi, həmçinin ölkədə bələdiyyə seçkilərindən sonra yeni yerli özünüidarəetmə orqanlarının yaranması, qanunvericilikdəki bir sıra boşluqlar daha mükəmməl hüquqi-normativ sənədə ehtiyac olduğunu göstərdi.

Bunun davamı olaraq, 2 iyul 2002-ci ildə dövlət başçısı tərəfindən sayca ikinci "Büdcə sistemi haqqında" Qanun imzalandı.

Hal-hazırda qüvvədə olan “Büdcə sistemi haqqında” Qanun 1 yanvar 2003-cü ildən qüvvəyə minmişdir (qanuna 13 may 2003-cü ildə əlavə və dəyişiklər edilmişdir) və bu Qanunun qüvvəyə minməsi ilə yuxarıda qeyd olunan iki hüquqi-normativ akt qüvvədən düşdü.

Yeni sənədin üstünlükləri aşağıdakılar idi:

- İlk növbədə diqqəti cəlb edən məqam dövlət büdcəsinin layihəsinin tərtibi prosesi və büdcə təqvimi ilə bağlı məsələlərin daha aydın izah olunmasıdır. Belə ki, bu qanunda büdcənin layihəsinin büdcə ilinə 11 ay qalmış başlanması və büdcə proseslərinin hansı mərhələlərdən ibarət olması bir qədər aydınlaşdırılır;

- “Dövlət büdcəsi haqqında” qəbul edilmiş qanunda büdcə layihəsi ilə birlikdə büdcə paketində Milli Məclisə təqdim edilmiş sənədlərin siyahısı göstərilmişdi. “Büdcə sistemi haqqında” yeni Qanunda isə təqdim olunan sənədlərin siyahısı bir qədər artırılmışdı (15- ə yaxın). Qanunda dövlət borcları və dövlət zəmanəti ilə digər öhdəliklərə dair məlumat, növbəti il üzrə icmal büdcə, növbəti büdcə ili üzrə gəlirlərin ötən ilin faktiki və cari ilin gözlənilən nəticələri ilə, habelə xərclərin funksional, iqtisadi və təşkilati təsnifatlar üzrə müqayisəsi, cari ilin icmal büdcəsinin gözlənilən icrasına dair izahat, büdcədənkənar əməliyyatlara dair icmal hesabat və keçən büdcə ilində faktiki və cari büdcə ilində gözlənilən maliyyələşdirmə mənbələri barədə hesabat öz əksini tapmışdır. Büdcə paketində Milli Məclisə təqdim olunan bu sənədlərin əsas məqsədi ölkənin başlıca maliyyə planı ilə iqtisadiyyatın sahələri arasında bağlılığı göstərmək, respublikada aparılan iqtisadi siyasətin tərkib hissəsi olan büdcə və vergi siyasətinin sosial-iqtisadi inkişafa ciddi təsir göstərməsi üçün onun iqtisadi göstəricilərlə kompleks təhlil olunmasıdır;

- Növbəti müsbət məqam dövlət büdcəsi haqqında qanunun layihəsinin mətbuatda dərc olunmasıdır. Qanunun 14-cü maddəsinə əsasən növbəti il üzrə dövlət büdcəsinin layihəsi Azərbaycan Respublikasının Milli Məclisinə daxil olduğu tarixdən 10 gün ərzində mətbuatda dərc olunur;

- “Büdcə sistemi haqqında” ilk qanunda dövlət büdcəsinin kassa icrasının Milli Bank tərəfindən aparıldığı (“Dövlət büdcəsi haqqında” qəbul edilmiş qanunda kassa icrasının yalnız terminoloji izahı verildiyi halda) göstərilirdi. “Büdcə sistemi haqqında” 2 iyul 2002-ci ildə qəbul edilmiş Qanunda dövlət büdcəsinin kassa icrasının dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilməsi, həmçinin dövlət xəzinədarlığının dövlət maliyyəsindən istifadə sahəsində şəffaflığı təmin etmək məqsədilə dövlət büdcəsindən maliyyələşən bütün idarə, müəssisə və təşkilatlar üzrə maliyyə əməliyyatlarının müvafiq uçot qaydalarına uyğun uçotunu aparması qeyd olunur;

- Bu Qanunla Azərbaycan Respublikasının dövlət büdcəsinin icrası barədə hesabatları və müvafiq qanun layihələrinə Hesablama Palatasının rəy verməsi də müəyyən edilir (ilk qanunvericilik aktında bu funksiyanı, yəni dövlət büdcəsinin icrasına nəzarəti Ali Sovetin Büdcəyə nəzarət komissiyasının icra etdiyi göstərilirdi). Bu isə büdcəyə toplanan maliyyə resurslarının ünvanlı istifadəsi ilə bağlı konkret dövlət qurumunun nəzarət etməsi nəticəsində büdcə xərclərinin istifadə olunmasının səmərəliliyinin qiymətləndirilməsinə imkan verir;

- Dövlət borcu və ona xidmət göstərilməsi maddəsi də bu Qanunun yeni muddəalarındandır. Qanunun 25-ci maddəsinə əsasən ölkənin sosial-iqtisadi inkişaf proqramlarının yerinə yetirilməsini təmin etmək məqsədilə, müvafiq icra hakimiyyətinin qərarı ilə dövlətin təminatı əsasında borc alına bilər. Bununla yanaşı büdcə gəlirlərinin həcmindən və ayırmaların səviyyəsindən asılı olmayaraq, dövlət borcu üzrə xidmətlərin (əsas borc, faiz) tam

və vaxtında həyata keçirilməsi qeyd olunur, həmçinin faizlər və borclar kredit müqaviləsinə, yaxud dövlət qiymətli kağızlarının şərtlərinə əsasən vaxtında ödənilməlidir.

Qanunda öz əksini tapan ən böyük yeniliklərdən biri bələdiyyələrin büdcələrinin tərtibi, təsdiqi, icrası və icrasına nəzarətlə bağlı xüsusi bir fəslin verilməsidir.

"Büdcə sistemi haqqında" qəbul edilmiş Qanunun üstünlüklərinə baxmayaraq, bir sıra boşluqlann olması da diqqəti cəlb edir:

1. İlk növbədə diqqəti cəlb edən məqam büdcə haqqında qanunun Milli Məclisə təqdim edilməsi və müzakirəsinə ayrılan müddətin az olmasıdır. Belə ki, 13-cü maddəyə görə növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanunun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə və təsdiqinə təqdim edilir. 15-ci maddəyə görə isə növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsi Azərbaycan Respublikasının Milli Məclisində cari ilin dekabr ayının 20-dən gec olmayaraq təsdiq edilir. Yəni faktiki olaraq büdcənin müzakirəsi 2 aylıq müddəti əhatə edir. Əgər büdcə haqqında qanunun (layihə) gəlirlərində 25, xərclərində isə 14 maddənin olmasını və qanun layihəsinə dair izahatın, həmçinin büdcə haqqında qanunun layihəsinin son illər ənənəvi hal almış Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər əsasında tərtib edilməsini və qanunun qəbulunda dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramların hazırlanmasını, eyni zamanda müvafiq il üzrə büdcə və vergi siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, növbəti il üzrə icmal büdcənin layihəsini və digər sənədlərin büdcə paketində Milli Məclisə təqdim olunmasını (paralel olaraq 2004-ci ilin dövlət büdcəsi layihəsinin Milli Məclisə təqdim olunmuş paketin 1200 səhifədən ibarət olduğunu və bu sənədlərin 2 ay ərzində Milli Məclisin bütün kommissiyalarında müzakirə edilməsini) nəzərə alsaq 2 aylıq müddətin büdcə müzakirəsi üçün kifayət qədər olmadığını əsaslandırmaq olar.

2. "Büdcə sistemi haqqında" Qanun dövlət büdcəsinin büdcədənkənar fondlarla bağlılığını tam əks etdirmir. Hal-hazırda dövlət büdcəsindən (əvvəlki illərin büdcələrində olduğu kimi) Dövlət Sosial Müdafiə Fonduna büdcədən maliyyələşdirilən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər daxil olmadıqda, nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər mərkəzləşdirilmiş xərclərdən Dövlət Sosial Müdafiə Fonduna yönəldilən transfertin məbləği artırılmaqla köçürülməsi qeyd olunur. Lakin hansı səbəbdən Sosial Müdafiə Fondunda vəsaitin yığılmaması əsaslandınlmır. Bu məqamın açıqlanması həmçinin, büdcədənkənar fondların gəlir və xərclərinin strukturunun göstərilməsi prosesini bir qədər də şəffaf edə bilərdi.

3. Dövlət büdcəsinin gəlir və xərcləri arasında müəyyən tarazlığın qorunması üçün qanunvericilikdə büdcə balanslaşdırılması ilə bağlı maddələr olmalıdır (baxmayaraq ki, 18 may 1999-cu ildə qəbul edilmiş "Dövlət büdcəsi haqqında" qanunda konkret olaraq büdcə tarazlığına aid maddə verilmişdi: dövlət büdcəsinin icrası zamanı əldə edilmiş əlavə gəlirlər, habelə gəlirlərinin artıqlaması ilə yerinə yetirilməsi və ya xərclərdə edilən qənaət nəticəsində ilin axırına əmələ gələn məbləğlər büdcə kəsiri tam örtüldükdən sonra qanunvericiliyə uyğun olaraq növbəti il üçün dövlət büdcəsi layihəsində nəzərdə tutulan ehtiyat fonduna yönəldilir). Fikirimizi bir qədər aydınlaşdırsaq, dövlət büdcəsində hər hansı bir ildə büdcə profisiti olarsa, bu məbləğin hansı istiqamətə yönəldilməsinə "Büdcə sistemi haqqında" qanun cavab vermir (01 dekabr 1992-ci ildə qəbul edilmiş qanuna əsasən büdcələrin icrası zamanı əlavə edilmiş

əlavə gəlir, mədaxilin məxaricdən artıq məbləğləri, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin dəyişdirilməsi halları istisna edilməklə, geri alına bilməz. Bu vəsait müvafiq olaraq Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublkası qanunvericilk orqanlarının sərəncamında qalırdı və onların mülahizəsi ilə istifadə edilirdi).

4. Dövlət büdcəsi ilə birlikdə Milli Məclisə təqdim olunan büdcə paketində müvafiq ilin dövlət büdcəsinin xərcləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulan proqramların (elm, səhiyyə, təhsil və mədəniyyət) bilavasitə ölkənin əsas maliyyə planı ilə bağlılığı yoxdur, həmçinin onların işləmə mexanizmləri haqqında heç bir məlumat verilmir və bu proqramlar ümumi fikirlərin sistemləşdirilməsi kimi qəbul edilə bilər.

5. Azərbaycan Respublikasının büdcə qanunvericiliyi büdcə prosesləri ilə bağlı suala tam cavab vermir. Respublikada büdcə prosesləri dedikdə, büdcə ili və müvafiq ilin büdcəsi haqqında Milli Məclis tərəfindən qəbul edilən qanunun icrasına qədər olan müddəti əhatə edir (2002-ci ilin dövlət büdcəsi haqqında qanunun layihəsi növbəti büdcə ilinə 11 ay qalmış (yəni 2001-ci il fevral ayı) başlanır. Sonra həmin ilin büdcəsinin icrasının təsdiq edilməsi və prezident tərəfindən imzalanmasına (13 iyun 2003-cü ildə)) qədər dövrü əhatə edir).

6. Büdcə qanunvericiliyinə əsasən (maddə 15.1) növbəti il üzrə dövlət büdcəsi layihəsinin müzakirəsi və təsdiqi Azərbaycan Respublikasının Milli Məclisinin Daxili Nizamnaməsinə uyğun olaraq həyata keçirilir, lakin "Büdcə Məcəlləsi"nin qəbul edilməsi və bu məcəllədə büdcənin neçə oxunuşda (o cümlədən hər bir oxunuşun predmetinin müəyyən edilməsi) müzakirəsi göstərilə bilərdi.

7. Büdcə xərclərinin funksional, iqtisadi, təşkilati və digər prinsiplər əsasında qruplaşdırılmasmı nəzərə alaraq, son illərdə büdcənin xərc maddələrinin büdcə təsnifatına uyğun icra olunmasını nəzərdən keçirmək üçün aşağıdakı cədvəllərə müraciət edək. Aşağıdakı cədvəl funksional təsnifat üzrə xərc maddələrinin icra olunmasını göstərir:

Cədvəl 1.

| | **2000** | | | **2001** | | | **2002** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Proqnoz mlrd.m | icra mlrd, m | Faiz (%) | Proqnoz mlrd, m | icra mlrd, m | Faiz (%) | Proqnoz mlrd, m | icra mlrd. m | Faiz (%) |
| Təhsil | 955,2 | 908,7 | 5 | 011,1 | 931,1 | 92 | 1082,2 | 956,1 | 88,3 |
| Səhiyyə | 235,5 | 204,7 | 7 | 266,8 | 210,1 | 77,7 | 270,1 | 224,0 | 83 |
| Sosial təminat | 176,4 | 172,4 | 7 | 220,8 | 215,6 | 98 | 236,1 | 225,3 | 95,4 |

Növbəti cədvəldə büdcə xərclərinin sosialyönümlü maddələrinin iqtisadi təsnifat (cari xərclər) üzrə icra olunmasını nəzərdən keçirək.

Cədvəl 2.

| 2002-ci ildə dövlət büdcəsinin xərcləri | Proqnoz (mlrd, manat) | icra (mlrd, manat) | Faiz (%) |
|---|---|---|---|
| Əməyin ödənişi fondu | 1501,8 | 1277,7 | 85,2 |
| Əmək haqqına üstəlik | 348,5 | 283,3 | 81,2 |
| Malların alınması və xidmətlərin haqqının ödənilməsi | 1429,5 | 1318,9 | 92,3 |

Təbii ki, bu sualın cavabını ilk növbədə qanunvericilikdə axtarmaq lazım gəlir.

2003-ci ilin dövlət büdcəsinin 11-ci maddəsində dövlət büdcəsi xərclərinin (müdafiə olunan xərc maddələri istisna olmaqla) gəlirlərinin daxil olmasından asılı olaraq, kəsirin müəyyən olunmuş həddini nəzərə almaqla maliyyələşdirildiyi göstərilir. Bu isə ilin sonunda büdcə kəsirinin nəzərdə tutulmuş həddini aşmaması üçün xərc maddələrinin ixtisar edilməsi deməkdir. "Büdcə sistemi haqqında" Qanunun 23-cü maddəsində dövlət büdcəsinin icrası prosesində gəlirlər təsdiq olunmuş məbləğdən az daxil olduqda, funksional və iqtisadi təsnifat üzrə xərclərin (müdafiə olunan xərc maddələri istisna olmaqla) mütənasib şəkildə, təşkilati təsnifat üzrə xərclər isə müvafiq icra hakimiyyəti oqranının müəyyən etdiyi qaydada azaldılması göstərilir. Lakin ilin sonunda hansı normativlərə uyğun olaraq xərc maddələrinin ixtisar edilməsi öz əksini nə büdcə sistemi, nə də dövlət büdcəsi haqqında (hər il qəbul edilən) qanunlarda tapmır. Nəticədə xərc maddələri kortəbii surətdə sekvestr edilir. Digər tərəfdən iqtisadi təsnifata fikir versək görərik ki, ixtisara düşən maddələr məhz müdafiə olunmuş xərc maddələridir (əmək haqqına üstəlik).

8. Büdcə kəsirinin örtülməsi mənbələri haqqında (struktur) məlumat dövlət büdcəsinin icra olunması haqqında qanunda göstərilmir. Lakin proqnoz göstəricilər (layihə) Milli Məclis tərəfindən təsdiq olunmuş büdcə haqqında qanunun tətbiq edilməsi haqqında fərmanda büdcə kəsiri və onun maliyyələşdirmə mənbələri üzrə verilir. Bu fikri bir qədər aydınlaşdırsaq, məlum olur ki, büdcə kəsirinin strukturunun ilin sonunda hansı maliyyələşdirmə mənbələri üzrə icra olunması ümumi olaraq verilir. Digər tərəfdən "Büdcə sistemi haqqında" Qanunda dövlət büdcəsi kəsirinin maliyyələşdirilmə mənbələri haqqında çox qısa və ümumi məlumat verilir.

Azərbaycan Respublikasında büdcə qanunvericiliyi ilə bağlı bir sıra boşluqların olmasını nəzərə alaraq, aşağıdakı təkliflərin qəbul edilməsi zəruridir:

1. Dövlət büdcəsi haqqnda qanun layihəsinin müzakirə müddətinin 2 aydan 4 aya qədər uzadılması;

2."Büdcə sistemi haqqında" Qanunda xərc maddələrinin sekvestr normativlərinin müəyyənləşdirilməsi;

3. Büdcə kəsirinin strukturunun dövlət büdcəsi haqqında qanunun icrasında göstərilməsi;

4. Büdcə profisiti ilə bağlı maddənin "Büdcə sistemi haqqında" Qanuna əlavə edilməsi və profisit yarandığı halda, bu məbləğin hansı istiqamət üzrə xərclənməsi də göstərilməlidir;

5. Dövlət büdcəsi ilə büdcədənkənar fondlar arasında tam əlaqəni əks etdirmək üçün DSMF-na yığılmayan vəsaitin səbəbləri açıqlanmalıdır;

6. Elm, səhiyyə, mədəniyyət və təhsil sferası üzrə xərclənməli olan vəsaitin büdcə paketində göstərilən proqramlar çərçivəsində istifadəsinin təmin olunması;

7. Bütün bu proseslərin tənzimlənməsi üçün ən önəmlisi isə “Büdcə Məcəlləsi”nin qəbul edilməsi olardı.

**İqtisadi İslahatlar Mərkəzi**
**(2004-2006-cı illər)**








## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Həsənli Y.**
*Azərbaycan iqtisadiyyatının sahələrarası əlaqələrinin təhlili və modelləşdirilməsi ("Xərclər-buraxılış" modeli)*
**Əbdülsəlimzadə Q.**
*14 ilin iqtisadi-sosial uğurları və inkişaf perspektivləri*
**Ağayev A.**
*Azərbaycan Respublikasında xarici dövlət borcunun səmərəlliyinin qiymətləndirilməsi*
**Eynullayev N.**
*İstehsalın ərazi üzrə yerləşdirilməsinin bəzi məsələləri*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №6, Bakı 2005*

# AZƏRBAYCAN İQTİSADİYYATININ SAHƏLƏRARASI ƏLAQƏLƏRİNİN TƏHLİLİ VƏ MODELLƏŞDİRİLMƏSİ («XƏRCLƏR-BURAXILIŞ» MODELİ

***i.e.d., prof. Həsənli Y.***

*2009-2012 -ci illərdə İİETİ-də baş elmi işçi, elmi rəhbər vəzifəsində işləyibdir*

İstənilən dövlətin iqtisadiyyatı sahələrarası qarşılıqlı əlaqələrin mürəkkəb şəbəkəsi kimi inkişaf edir. Məsələn, maşınqayırma sahəsinin məhsullarına (tutaq ki, avtomobilə) tələb təkcə avtomobil sənayesinə təsir etmir, o, həmçinin, dolayı şəkildə metallurgiyaya (avtomobillərin düzəldilməsi üçün baza xammalı istehsal edən), təkər- şin və digər komplektləşdirici hissələri istehsal edən sahələrə təsir edərək, onların məhsullarına tələbi artırır. Sadə cəbri hesablamalar isə birbaşa və dolayı təsirin bu şəkildə yayılmasının (multiplikasıya effektinin) kəmiyyət təhlilinin aparılmasına imkan vermir. Bundan başqa, qarşılıqlı əlaqələr probleminin həlli üçün işlənmiş təhlil üsulu iqtisadi proqnozların formalaşdırılması üçün də zəruridir. Sahələrarası əlaqələrin təhlili (interindustry analysis) və «Xərclər-buraxılış» təhlili (input-output) üsulları keçmiş SSRİ-də anadan olmuş, Sankt-Peterburq Universitetinin məzunu, sonralar ABŞ-a emiqrasiya etmiş amerikan iqtisadçısı, Nobel mükafatı laureatı (1973) Vasili Leontyev tərəfindən yaradılmışdır. Bu üsul sahələrarası qarşılıqlı təsirdə olan mikro və makroiqtisadi dəyişənlərin əlaqələrinin əsas makroiqtisadi göstəricilərə təsirinin ədədi şəkildə müəyyən edilməsi sualına cavab verir. Bu baxımdan, sahələrarası əlaqənin təhlili üsulu iqtisadi proseslərin modelləşdirilməsində mikro və makroiqtisadi modellərin əlaqələndirilməsi probleminin həllinə kömək etmiş olur. İqtisad elmində «Keyns inqilabı» adını almış yeni iqtisadi nəzəriyyənin yaranması mikro və makroiqtisadi təhlillərin birləşdirilməsi hesabına mümkün olmuşdur.

Qeyd edək ki, dünyada ilk dəfə balans təhlili keçmiş SSRİ-də tətbiq edilmişdir. Belə ki, 1926-cı ildə SSRİ-nin Mərkəzi Statistika İdarəsi 1923/-24 təsərrüfat ili üçün Sovetlər İttifaqının xalq təsərrüfatı balansını dərc etmişdi.[1] Bu balans Fransua Kennenin «İqtisadi cədvəli» nə [2] və Karl Marksın «Geniş təkrar istehsal sxemi» nə [3] əsaslanaraq tərtib edilmişdir.

Sahələrarası balans təhlil və planlaşdırmanın balans üsulunun inkişafının nəticəsidir. Sahələrarası balansın riyazi modeli isə V.Leontyev tərəfindən işlənilmişdir. V.Leontyev SSRİ-də birinci tərtib olunmuş balansla yaxşı tanış idi. Bunu 1925-ci ildə dərc olunmuş monoqrafiyaya yazdığı resenziyadan aydın görmək olar. Bu resenziyada V.Leontyev tərəfindən birinci sovet balansının işlənməsinin əsas yekunları təhlil edilmişdir. Lakin V.Leontyev təklif etdiyi «xərclər- buraxılış» modelində iqtisadi tarazlıq sxemindən istifadə etmişdir. V.Leontyev L.Valrasdan ancaq texnoloji xərc əmsalları ideyasını və bu əmsalların məhsul buraxılışı həcmindən asılı olmaması fərziyyəsini götürmüşdür. Sovet iqtisadçısı akademik V.S.Nemçinov qeyd etmişdir: «V.Leontyevin xidməti ondan ibarətdir ki, o, 1) ilk dəfə iki düzbucaqlı cədvəli (ictimai məhsulun istehsalı və bölüşdürülməsi balansı və xalq təsərrüfatı xərclərinin cədvəli) birini digərinin üstünə xaçvari şəkildə qoymuşdur; 2) xalq təsərrüfatının sahələrinin sayını əmək predmetinin («aralıq məhsullar») şahmat balansında 41 sahəyə qədər artırmışdır; 3) xərclər və məhsul buraxılışını əlaqələndirən tənliklərlə (hansı ki, Valrasın (1878) və Dinitevin (1910) işlərində göstərilib) balans qurulmasını birləşdirmişdin».[4] Başqa sözlə, V.Leontyev başlıca olaraq, xalq təsərrüfatının sahələrarası proporsiyalarının qarşılıqlı əlaqələrini balans sxemi ilə müxtəlif sahələrdə istehsal xərcləri və məhsul buraxılışı arasında qarşılıqlı əlaqələri xarakterizə edən riyazi modellə birləşdirmişdir.

V.Leontyevin «xərclər-buraxılış» üsulunun əsaslarını formalaşdırmış birinci işi 1936-cı ildə dərc olunmuşdur. Sonrakı illərdə V.Leontyev empirik yoxlamalara və «xərclər-buraxılış» üsulunun metodoloji fərziyyələrinin inkişafına diqqət yetirmişdir. V.Leontyevin tədqiqatlarının nəticələrinin tam şərhini 1958-ci ildə rus dilinə tərcümə edilərək dərc olunmuş kitabında tapmaq olar [5].

Hesablama texnikasının, o cümlədən müasir kompüterlərin meydana çıxması ilə əlaqədar «xərclər-buraxılış» üsulu ilə sahələrarası əlaqələrin iqtisadi-riyazi modelləşdirilməsi daha geniş vüsət almışdır. Belə ki, əvvəllər daha zəif hesablama maşınları, habelə əl ilə sahələrarası modelin kifayət qədər böyük ölçüdə olan tənliklər sistemini hesablamaq mümkün deyildi və ya ağır olurdu. Hazırda da “xərclər-buraxılış” üsulu dünyanın əksər ölkələrində iqtisadi strukturun təhlilinin aləti kimi geniş yayılmışdır.

Azərbaycan Respublikasında balans keçmiş Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutu (1994-cü ildən etibarən İqtisadi İslahatlar Mərkəzi adlanır) tərəfindən müntəzəm olaraq tərtib edilirdi. Sonuncu dəfə 1987-ci ilin yekunları üzrə tərtib edilmişdir. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra mərkəzləşdirilmiş iqtisadiyyat üçün nəzərdə tutulmuş sahələrarası əlaqələrin pozulması, bazar iqtisadiyyatına mənsub olan yeni mülkiyyət formalarının yaranması, iqtisadi göstəricilərin yeni metodologiya - Milli Hesablar Sistemi (MHS) əsasında hesablanması sahələrarası balansın (“xərclər- buraxılış” cədvəllərinin) tərtibini xeyli yubatmışdı.

Azərbaycan Respublikası Nazirlər Kabineti “Məhsul istehsalı, xidmət göstərilməsi və onların bölgüsünün hesabat balansının tərtib edilməsi barədə” 20 sentyabr 2000-ci il tarixli 1935 saylı sərəncam vermişdir. Dövlət Statistika Komitəsi (ARDSK) bu sərəncama uyğun olaraq, 2001-ci ilin yekunları üzrə hesabat balansı hazırlayaraq, 1994- cü ildə dərc etmişdir.[6]

2001-ci ilin məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası hesabat balansı beynəlxalq təcrübədə və MHS-də qəbul edilmiş prinsiplərə uyğun olaraq, məhsul və xidmət növlərinin qrupu üzrə, iqtisadiyyatın 26 sahəsi üzrə tərtib edilmiş və 14 minə yaxın göstəricidən istifadə edilmişdir.

Qeyd edək ki, tərtib olunmuş cədvəl və balanslar statistik hesabat xarakterlidir. Hesabatda məhsul və xidmətlərin istehsal və bölüşdürülməsinin sahələrarası hesabat balansının göstəricilərinin ancaq statistik təhlili aparılmışdır.

Hesabatda tərtib edilmiş statistik cədvəllər və balanslar əsasında sahələrarası balansın iqtisadi-riyazi modelinin qurulması («xərclər-buraxılış» modeli), modelin sətirlər üzrə tənliklər sistemini həll etməklə son tələbat və onun tərkibini dəyişməsinin iqtisadiyyatın sahələrinin ümumi buraxılış həcmlərinin və strukturun hansı formada dəyişməsinə və ya əksinə, sahələrin ümumi həcmlərinin və strukturunun dəyişməsinin nəticədə son tələbatın həcminin və onun tərkibinin hansı formada dəyişməsinə səbəb olacağını öyrənmək, sütunlar üzrə tənliklər sistemini həll etməklə sahələr üzrə əlavə dəyər və onun tərkibinin dəyişməsinin sahələrin ümumi buraxılışlarının və strukturunun necə dəyişəcəyi sualına cavab tapmaq və ya əksinə, sahələrin ümumi buraxılış həcmlərinin (məsələn, artmasının) və strukturunun dəyişməsinin sahələrdə əlavə dəyər həcminin və tərkibinin hansı formada dəyişməsinə gətirib çıxaracağı sualına cavab tapılması, Leontyev matrisinin (tam xərclər matrisi) hesablamaqla, vahid miqdarda son tələbat üçün qarşılıqlı əlaqədə olan sahələrin məhsullarına hansı miqdarda tələb olduğunu müəyyənləşdirmək, habelə «xərclər-buraxılış» modelinin qoşma (ikili) modelini (tarazlı qiymətlər modeli) qurmaqla iqtisadiyyatın sahəsinin hər hansı birinin məhsulunun qiymətinin dəyişməsi (məsələn, neft-yanacaq sektorunda) digər sahələrin məhsullarının qiymətlərini necə dəyişməsi suallarına cavab tapılması hazırda Azərbaycan iqtisadiyyatı üçün aktual bir problem olmaqla bərabər, elmi-tədqiqat xarakterli işlərdir. Bu işlərin yerinə yetirilməsi zəruridir.

İqtisadiyyatın sahələrarası əlaqələrinin təhlili və modelləşdirilməsi ilə daha ətraflı [1], [2, səh. 156-179], [3, səh. 19-69], [4, səh. 106-123], [5, səh. 63-90], [6], [7, səh. 56-60], [8, səh. 327-394] ədəbiyyatlarında tanış olmaq olar.

**Sahələrarası balans cədvəli və sahələrarası təhlilin əsas elementləri**

Sahələrarası təhlil statistik sahələrarası balans cədvəllərinə əsaslanır və müəyyən dövrdə (adətən, 1 il) iqtisadiyyatın dinamikasının xəritəsini verir. Sahələrarası cədvəllərin tərkibi iqtisadiyyatın sahələrinin bir-biri ilə əlaqələrindən ibarətdir. Sahələrarası balans cədvəlinin ümumi şəkli aşağıdakı sxemdə göstərilib.

Sahələrarası balans cədvəli 3 bölmədən ibarətdir. I bölmə sahələrin qarşılıqlı aralıq istehlak əlaqələrini, yəni aralıq istehlakın sahələrarası axınını; II bölmə son tələbatın strukturunu, daha doğrusu, əmtəə və xidmətlərin son istifadəsinin istiqamətlərini (ÜDM-in xərclər üsulu ilə hesablanmasını); III bölmə isə əlavə dəyərin strukturunu, başqa sözlə, ÜDM-in yaranma strukturunu (ÜDM-in gəlirlərə görə hesablanmasını) əks etdirir.

$x_i$ - j-ci sahənin məhsul və xidmətlərinin ümumi buraxılışını, $y_j$ - isə son məhsulun həcmini (son tələbat); $x_i$ - i-ci sahənin məhsul və xidmətlərinin j-ci sahədəki istehlakının həcmini göstərir:

$$a_j = \frac{x_j}{x_j} \qquad (1)$$

$a_j$ - j - ci sahədə vahid miqdarda məhsul istehsalı prosesində (ümumi buraxılışda) i - ci sahənin məhsulundan hansı miqdarda istifadə olunmasını (istehlakı) göstərir və birbaşa xərclər əmsalları adlanır.

$$x_i = \sum_{j=1}^{n} x_j + y_i$$

i=1,2,.....,n (2)

(1)-i (2)-də nəzərə alsaq,

$$x_i = \sum_{j=1}^{n} a_j x_j + y_i \qquad (3)$$

(3)-ə sahələrarası balansın iqtisadi-riyazi modeli və ya Leontyev modeli deyilir. (3)-ü matris-vektor şəklində yazsaq

$$x = Ax + y \qquad (4)$$

$$(I-A)x=y \qquad (5)$$

$$x=(I-A)^{-1}y \qquad (6)$$

$$x=By \qquad (7)$$

alarıq. Burada, I - vahid, A - birbaşa xərclər, B - isə tam xərclər matrisidir.

$$(I-A)^{-1}=B=(b_{ij}), \quad i,j=1,2,.....,n$$

$b_{ij}$ – tam xərclər əmsalları adlanır və j-ci sahədə vahid miqdarda son məhsulun əldə edilməsində (son tələbatda) i-ci sahənin hansı miqdarda məhsulunun iştirak etməsini göstərir

**Cədvəl 1**

*Sahələrarası balansın sxemi*

| № | Ümumi Məhsul və xidmətlər buraxılışı (x) | Aralıq istehlak | | | | | Son məh-sul (son tələbat) | Xərclər | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1 | … | Ъ | … | H | | İstehlak xərci | İnvestisiya xərci | Dövlət xərcləri | Xalis ixrac |
| 1 | $x_1$ | $x_{11}$ | … | $x_{1i}$ | … | $x_{1n}$ | $Y_1$ | $C_1$ | $I_1$ | $G_1$ | $XİX_1$ |
| … | … | … | … | … | … | … | … | … | … | … | … |
| i | Xi | $x_{i1}$ | … | $x_{ij}$ | … | $x_{in}$ | $y_i$ | $C_i$ | $I_i$ | $G_i$ | $XİX_i$ |
| … | … | … | … | … | … | … | … | … | … | … | … |
| n | $x_n$ | $x_{i1}$ | … | $x_{nj}$ | … | $x_{nn}$ | $y_n$ | $C_n$ | $I_n$ | $G_n$ | $XİX_n$ |
| Σ | Aralıq istehlak (Z) | $Z_1$ | … | $Z_j$ | … | $Z_n$ | y Z | C | I | G | XİX |
| | Əməyin ödənilməsi (W) | $W_1$ | | $W_i$ | | $W_n$ | W | | | | |
| | İstehsala vergilər (T) | $T_1$ | | $T_i$ | | $T_n$ | T | | | | |
| | İstehsala subsidiyalar (SB) | $SB_1$ | … | $SB_i$ | … | $SB_n$ | SB | | | | |
| | Ümumi mənfəət (M) | $M_1$ | … | $M_j$ | … | $M_n$ | M | | | | |
| | Əsas fondların istehlakı-amortizasiya (AMO) | $AMO_1$ | … | $AMO_j$ | … | $AMO_n$ | AMO | | | | |
| | Xalis mənfəət (XM) | $XM_1$ | … | $XM_j$ | … | $XM_n$ | XM | | | | |
| | Əlavə dəyər (ƏD) | $ƏD_1$ | … | $ƏD_j$ | … | $ƏD_n$ | ƏD | | | | |
| | Ümumi buraxılış (X) | $x_1$ | … | $x_I$ | … | $x_n$ | X | | | | |

**«XərcIər-buraxıhş» modelinin qoşması.**

**Tarazlı qiymətlər modeli**

Tarazlı qiymətlər modeli Leontyevin balans modelinin qoşmasıdır. «Xərclər-buraxılış» modelində olduğu kimi, aşağıdakı işarələmələri qəbul edək..

A - birbaşa xərclər matrisi,

$\bar{x} = (x_l\ x_2, \ldots, x_n)$ - ümumi buraxılış vektora,

$P = (P_1, P_2, \text{->} P_n)$ - qiymətlər vektoru,

$P_i$ - i-ci sahənin vahid məhsulunun qiyməti və ya qiymət indeksi,

$p_i x_i$ - i-ci sahədə dəyər şəklində məhsul buraxılışıdır.

Hər bir sahə öz istehsalını təmin etmək üçün gəlirinin bir hissəsini digər sahələrdən məhsulların alınmasına xərcləyir.

Məsələn, i - ci sahənin vahid miqdarda məhsul istehsal etməsi üçün ona 1-ci sahədən $a_{li}$ 2-ci sahədən $a_{2и}$, ... və s. n-ci sahədən $a_{ni}$ həcmində məhsul lazımdır.

Bu məhsulların alınması üçün $(a_{lj}p_l + a_{2i}p_1 + K\ a_{nj}\ p_n)$ həcmində pul vəsaiti xərcləmək lazımdır. Beləliklə, i-ci sahə $x_i$ həcmində məhsul buraxmaq üçün digər sahələrin məhsullarını almağa

$$X_{,}(a_{1,}P_1 + a_{2i}P_l + K + a_{ni}.P_n) \qquad (8)$$

həcmdə pul vəsaiti xərcləməlidir. Məhsul buraxılışının qalan hissəsini (əlavə dəyəri) $w_i$ ilə işarə edək. Buraxılışın bu hissəsini əmək haqqı, sosial ayırmalar, xalis gəlir, istehsala vergilər təşkil edir. Beləliklə,

$$X_iP_i = x_i(a_{li}\,p_i + a_{2i}p_1 + K + a_{ni}p_n) + W_i,\ i=1,\overline{n} \qquad (9)$$

Bərabərliyin hər iki tərəfini $x_i$ -yə bölsək, aşağıdakı tənliklər sistemini alarıq:

$$p_i = a_{1i}\ p_1 + a_{2i}\ p_1 + K + a_n\ p_n + u_i, \qquad i=\mathbf{1},n \qquad (10)$$

$$u_i = \frac{w_i}{x_i}$$

burada, $x_i$ əlavə dəyər normasıdır, yəni hər vahid buraxılan məhsula düşən əlavə dəyərin kəmiyyətidir.

$$\begin{cases} p_i = a_1\ p_1 + a_2\ p_2 + K + a_{n1}\,p_n + u_1 \\ p_2 = a_2\ p_1 + a_2\ p_2 + K + a_{n2}\,p_n + u_2 \\ \dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots \\ p_n = a_{n1}\,p_1 + a_{n2}\,p_2 + K + a_n\ p_n + u_n \end{cases} \qquad (11)$$

Bu sistemi aşağıdakı matris-vektor formasında yaza bilərik:

$$\bar{p} = A^T\bar{p} + \bar{u}$$

$\bar{u} = (u_{1,}u_{2,} \dots u_n)$ - əlavə dəyər norması vektorudur.

Tarazlı qiymətlər modelində əlavə dəyər normasını bilməklə, hər bir sahənin məhsullarının qiymətlərinin dəyişməsini proqnozlaşdırmaq mümkündür. Tarazlı qiymətlər modeli həmçinin bir sahədə qiymətin dəyişməsi nəticəsində digər sahələrdəki qiymətlərin dəyişməsini, habelə inflyasiyanı proqnozlaşdırmağa imkan verir.

$$\bar{P} = (I - A^T) - u \qquad (12)$$

Burada, $(I - A^T)^{-1}$ - transponirə olunmuş tam xərclər matrisidir.

**Azərbaycanda iqtisadi fəaliyyət sahələri üzrə «xərclər-buraxılış» cədvəllərinin təhlili**

«Xərclər-buraxılış» cədvəlləri Milli Hesablar Sisteminin (MHS) bir hissəsi olmaqla, mal və xidmətlərin istehsalını və istifadəsini, eləcə də istehsal prosesində yaranan gəlirlərin dəqiq xarakteristikalarını özündə birləşdirən və bir-biri ilə əlaqəli olan cədvəllərin məcmusudur. ARDSK tərəfindən 2001-ci il üçün tərtib edilmiş «Xərclər-buraxılış» cədvəlləri yeniləşdirilmiş MHS-93-ün prinsipləri əsasında həyata keçirilmişdir.

«Xərclər-buraxılış» cədvəllərində statistik müşahidə vahidi kimi, əsas fəaliyyət növü üzrə buraxdığı məhsula görə qüvvədə olan İqtisadi Fəaliyyət Növləri Təsnifatına (İFNT)

müvafiq olaraq, iqtisadiyyatın bu və ya digər sahəsinə aid edilmiş istehsal vahidi qəbul edilir. «Xərclər- buraxılış» cədvəllərində sahə anlayışı istehsal etdiyi məhsula görə bu və ya digər fəaliyyət sahəsinə aid edilən müəssisələr məcmusunu ifadə edir. İqtisadiyyatda istehsal subyekti bir neçə istehsal növü üzrə - əsas, qeyri-əsas və köməkçi fəaliyyət növləri üzrə fərqləndirilmişdir.

İqtisadi subyektin fəaliyyəti nəticəsində daha çox əlavə dəyər yaradan fəaliyyət əsas fəaliyyət növü, əsas fəaliyyətə əlavə kimi həyata keçirilən fəaliyyət qeyri-əsas fəaliyyət növü, əsas və qeyri- əsas fəaliyyətə yardım edən fəaliyyət isə köməkçi fəaliyyət növü kimi qəbul edilmişdir. Köməkçi fəaliyyət növü əsas və qeyri-əsas fəaliyyət növlərinin ayrılmaz tərkib hissəsidir. «Xərclər-buraxılış» cədvəllərində köməkçi fəaliyyətə çəkilən xərclər, eləcə də bu fəaliyyətin nəticəsində yaradılan əlavə dəyər əsas və qeyri-əsas fəaliyyətə daxil edilir və ayrıca göstərilmir.

İqtisadi subyektlərin fəaliyyətləri nəticəsində bir və ya bir neçə  mal və xidmətlər istehsal oluna bilər. Eyni tipli mal və xidmətlərin məcmusu «xalis sahəni» əmələ gətirir.

Toplanan statistik məlumatların çox hissəsi fəaliyyət növləri üzrə istehsal olunan məhsullar barədə olan məlumatlardır. «Xərclər- buraxılış» cədvəllərinin «xalis sahələr» (əmtəə və xidmət qrupları) üzrə qurulması üçün məlumatlar bir qayda olaraq, mövcud olmur. Buna görə də beynəlxalq təcrübədə təsərrüfat sahələri üzrə istehsaldan və onunla bağlı olan xərclərdən «xalis» sahələrə keçid, xərclərin strukturunun sabit qalması haqqında fərziyyəyə əsaslanaraq, riyazi üsullarla həyata keçirilir.

«Xərclər-buraxılış» cədvəllərinin qurulması üçün istifadə olunan əmtəə və xidmətlərin təsnifatı, məqsədlərdən asılı olaraq, bir neçə növ ola bilər. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda «xərclər buraxılış»  cədvəllərində əmtəə və xidmətlərin təsnifləşdirilməsi qüvvədə olan İFNT əsasında aparılmışdır. Bu zaman ölkədaxili məhsulların istehsalının dəyərinin qiymətləndirilməsi əsas qiymət və istehlakçıların qiymətləri vasitəsilə aparılmışdır. Əsas qiymət dedikdə, mal və xidmətlərin istehsal və satış qiymətləri arasındakı fərqin kompensasiyası üçün nəzərdə tutulmuş məhsula görə ödənilmiş bütün növ vergilər istisna olmaqla və məhsula görə alınmış bütün növ subsidiyalar daxil edilməklə, həmin əmtəə və xidmətlərin vahidinə görə istehsalçının aldığı qiymət nəzərdə tutulur. İstehlakçıların qiymətləri dedikdə isə, bir əmtəə vahidinin müəyyən edilmiş müddətdə təyin olunmuş yerə gətirilib çatdırılması anında istehlakçının ödədiyi qiymət başa düşülür. Bu qiymətə istehlakçı tərəfindən ödənilən malın gətirilib çatdırılması ilə bağlı ticarət və nəqliyyat xərcləri, eləcə də məhsula görə ödənilən vergilər daxil edilir, məhsula görə subsidiyalar və çıxılan əlavə dəyər vergisi isə daxil edilmir. Azərbaycanda iqtisadi fəaliyyət sahələri aşağıdakı kimi təsnifləşdirilmişdir.

Azərbaycanda iqtisadi fəaliyyətin sahələri:

1. Kənd təsərrüfatı, ovçuluq və meşəçilik məhsulları;
2. Balıq və digər balıqçılıq məhsulları;
3. Neft və qaz hasilatı məhsulları, neft və qaz hasilatı ilə bağlı xidmətlər;
4. Dağ-mədən sənayesinin məhsulları;
5. Qida sənayesinin məhsulları (tütün məmulatları daxil olmaqla);
6. Toxuculuq sənayesinin məhsulları, dəri məmulatları və ayaqqabı;
7. Ağac, sellüloz-kağız və poliqrafiya məhsulları;
8. Neftayırma məhsulları;
9. Kimya sənayesinin məhsulu (neft məhsullarının emalı istisna olmaqla), rezin və plastik

kütlədən məmulatlar;
10. Qeyri-metal mineral məmulatlar;
11. Metallurgiya sənayesinin məhsulu və metal məmulatları;
12. Maşın və avadanlıq;
13. Mebel və sair sənaye məhsulları;
14. Elektrik enerjisi, qaz və su;
15. Tikinti işləri;
16. Ticarət xidmətləri;
17. Mehmanxana və restoranların xidmətləri;
18. Nəqliyyat xidmətləri;
19. Poçt və rabitə xidmətləri;
20. Maliyyə vasitəçiliyi, sığorta və pensiya təminatı üzrə xidmətlər;
21. Daşınmaz əmlakla əlaqədar xidmətlər, icarə və digər kommersiya xidmətləri;
22. Təhsil sahəsində xidmətlər;
23. Səhiyyə və sosial xidmətlər;
24. Dövlət idarəetməsi və müdafiə, məcburi sosial sığorta sahəsində xidmətlər;
25. Kommunal və sair xidmətlər;
26. Xalis vergilər.

Ölkə iqtisadiyyatında mal və xidmətlərin ehtiyatları və istifadəsi cədvəlləri [6, səh. 25-68] göstərir ki, 2001-ci ildə ölkədə məhsul və xidmət ehtiyatları əsas qiymətlərlə 52,9 trilyon manat, istehlakçı qiymətləri ilə 54.9 trilyon manat təşkil etmişdir. Başqa sözlə, istehlakçı qiymətləri əsas qiymətlərdən 3,8% çox olmuşdur. Əsas qiymətlərlə ümumi buraxılış 44 trilyon manat, idxal 9,9 trilyon manat, ixrac 11 trilyon manat olmuşdur. İdxal ümumi buraxılışın 22,5%-ni, ixrac isə 25%-ni təşkil etmişdir. Məhsula xalis vergilər - 2,1 trilyon manat ümumi buraxılışın 4.8% təşkil etmişdir.

Aralıq istehlak 19,1 trilyon manat olaraq, ümumi buraxılışın 43,4%- ni təşkil etmişdir. Öz növbəsində, idxal məhsulları aralıq istehlakın 51,8%-ni təşkil etmişdir. Ümumi əlavə dəyər 24,9 trilyon manat, başqa sözlə, ümumi buraxılışın 56,6%-ni təşkil etmişdir.

İdxal məhsullarının həcminin aralıq istehlaka nisbətinin böyük olması (51,8%) onu göstərir ki, ölkədə yeni yaradılan məhsul (əlavə dəyər) idxal mallarından xeyli asılıdır. Bu o deməkdir ki, digər şərtlərin bərabər qəbul edilməsi fərziyyəsində idxal məhsullarının qiymətlərinin 100% artması ölkə daxilində istehsal olunan məhsulların qiymətlərinin təxminən 52% artmasına gətirib çıxarır. Bu baxımdan, dünyada neftin qiymətinin sürətlə artmasının Azərbaycanda qiymətlərin qalxmasına güclü təsirini gözləmək əsaslıdır. Digər tərəfdən, enerji daşıyıcılarının qiymətləri daxili bazar üçün də artırılarsa, bunun qiymətlərin artmasına, o cümlədən inflyasiyanın səviyyəsinin qalxmasına əlavə stimul verəcəyi şübhəsizdir. 2001-ci ildə ölkədə energetika və kənd təsərrüfatı sahələrinin ümumi buraxılışı və ehtiyatları cədvəl 2-də verilmişdir.

Cədvəl 2-dən göründüyü kimi, elektrik enerjisi, qaz və suyun üzərinə xalis vergilər 2,9% təşkil etdiyi halda, neft-qaz hasilatı məhsullarına və neft-qaz hasilatı ilə bağlı xidmətlərə xalis vergilər 4,9%, neftayırma məhsullarına isə xalis vergilər 22,4% təşkil etmişdir. Bu onu göstərir ki, elektrik enerjisi, qaz və su sahələri kifayət qədər subsidiyalaşdırılmışdır.

Kənd təsərrüfatı, ovçuluq və meşəçilik məhsullarına isə subsidiyaların həcmi məhsula olan vergilərdən çox olmuşdur. Bu, kənd təsərrüfatı sahələrinin bir sıra vergilərdən azad olması

ilə əlaqədardır. Balıq və digər balıqçılıq məhsullarına xalis vergilər 3,9%, qida sənayesinin məhsullarına isə xalis vergilər 5,8% təşkil etmişdir. İdxal energetika sahəsində əhəmiyyətli şəkildə olmasa da, kənd təsərrüfatı, ovçuluq və meşəçilik məhsullarının ümumi ehtiyatlarının (əsas qiymətlərlə) 11,3%-ni, balıq və digər balıqçılıq məhsulları ehtiyatlarının 5,1%-ni. qida məhsullarının (tütün məmulatları daxil olmaqla) ehtiyatlarının 13,4%-ni təşkil etmişdir.

İstehlakçı qiymətlərlə mal və xidmətlərin istifadəsi cədvəlindən (Cədvəl 3) göründüyü kimi, «Kənd təsərrüfatı, ovçuluq və meşəçilik» sahəsinin aralıq istehlakı 1,8 trilyon manat, ümumi buraxılışı isə 5,7 trilyon manat təşkil etmişdir. Başqa sözlə, məhsullarının 31,6%-ni öz daxilində istehlak etmişdir. Bu sahədə əmək haqqı yaradılan əlavə dəyərin 28%-ni təşkil etmişdir. Bu rəqəm «Balıqçılıq» sahəsində 79,5%, «Qida sənayesinin məhsulları» sahəsində 21,7%, «Neft və qaz hasilatı və bununla bağlı xidmətlər» sahəsində 7,7%, «Neftayırma məhsulları istehsalı» sahəsində 11,5%, «Elektrik enerjisi, qaz və su təchizatın sahəsində isə 46,2% təşkil etmişdir.

«Elektrik. enerjisi, qaz və su» sahəsinin məhsulları öz sahəsinin aralıq istehlakının 53%-ni, «Kənd təsərrüfatı, ovçuluq və meşəçilik» sahəsinin aralıq istehlakının 2,7%-ni, «Balıqçılıq» sahəsinin aralıq istehlakının 0,8%-ni, «Qida məhsullarının istehsalı və emalı» sahəsinin 1,7%-ni, «Neft və qaz hasilatı və bununla bağlı xidmətlər» sahəsinin aralıq istehlakının 3,2%-ni, «Neftayırma məhsulları» sahəsinin aralıq istehlakının 3,2%-ni təşkil etmişdir. «Elektrik enerjisi, qaz və su» sahəsinin ehtiyatlarının 28,2%-ni, «Ev təsərrüfatları» son istehlak xərcləri kimi istifadə edilmiş, 1%-i ixrac olunmuş, qalan 70,8%-i isə iqtisadiyyatın sahələrində məhsul istehsalı prosesində aralıq istehlak kimi istifadə olunmuşdur.

Cədvəl 2.

2001-ci ildə ölkədə energetika və kənd təsərrüfatı sahələrinin ümumi buraxılışı və ehtiyatları, milyard manat

| Sahələr | Əsas qiymətlərlə ümumi buraxılış | Idxal | Əsas qiymətlərlə cəmi ehtiyatlar | Ticarət vasitələri və nəqliyyat əlavələri | Məhsula xalis vergilar | Istehlakçi qiymətlərlə, cəmi ehtiyatlar |
|---|---|---|---|---|---|---|
| Elektrik enerjisi, qaz və su | 1907,49 | 128,559 | 2036,047 | 0,0 | 58,245 | 2094,292 |
| Neft-qaz hasilati məhsulları və neft-qaz hasilati ila bagli xidmatlar | 9194,066 | 803,609 | 9997,674 | 0,0 | 192,819 | 10917,382 |
| Neftayırma məhsulları | 2337,711 | 80,738 | 2418,448 | 549,596 | 542,351 | 3510,395 |
| Kənd təsərrüfatı, ovçuluq və meşəçilik məhsulları | 5715,603 | 726,357 | 6441,960 | 1488,390 | -0,258 | 7930,092 |
| Balıq vs digər balıqçılıq məhsulları | 71,591 | 3,928 | 75,419 | 21,123 | 2,952 | 99,493 |

## İqtisadi fəaliyyət sahələri üzrə «Xərclər - buraxılış» modelinin tənliklər sisteminin həlli və alınmış nəticələrin təhlili

Yuxarıda qeyd edildi ki, Azərbaycanda iqtisadi fəaliyyət sahələri 26 sayda təsnifləşdirilmişdir [7]. Cədvəl 4.2 əsasında birbaşa xərclər matrisini tərtib etdikdə, 26-cı sətir və sütunda «Maliyə vasitəçilərinin şərti hesablanmış xidmət haqları» nəzərə alınmamışdır. Belə ki, A- birbaşa xərclər matrisinin elementləri iqtisadi mənasına görə mənfi ədəd olmamalıdır. Burada isə 26-cı sahəyə uyğun sətirlərin bir neçə elementi mənfi ədədlərdir (bax: əlavə 1). Ona görə də ümumiliyi pozmadan 26-cı sətir və sütun atılaraq, 25 adda sahə saxlanılıb 25x25 ölçülü kvadrat birbaşa xərclər matrisi (A matrisi) tərtib edilmişdir (bax: əlavə 2).

Əvvəlcə (5) modelinin tənliklər sistemini y-son məhsula (son tələbata) görə həll edək. $x=(x_1, x_2,...,x_{25})$ - ümumi buraxılış vektorunun 2001-ci ildəki müvafiq qiymətlərini tənliklər sisteminə daxil edib, $y(y_1, y_2,...,y_{25})$ - son tələbat vektorunun komponentlərinin qiymətlərini tapsaq, aşağıdakı nəticə alınacaq.

Cədvəl 4-dən göründüyü kimi, 4-cü («dağ-mədən sənayesinin məhsulların), 7-ci («Ağac, sellüloz-kağız və poliqrafiya məhsulların), 9-cu («Kimya sənayesi məhsulları (neft məhsullarının emalı istisna olmaqla), rezin və plastik kütlədən məmulatlar»), 10-cu («Qeyri-metal mineral məmulatların), 11-ci («Metallurgiya sənayesinin məhsulu və metal məmulatların), 12-ci («maşın və avadanlıq), 13-cü («mebel və sair sənaye məhsulların) kodlu sahələrin son tələbat məhsulları (son məhsul) mənfi işarəli alınmışdır.

Bu o deməkdir ki, Azərbaycanda 2001-ci ildə iqtisadiyyatın sahələrinin həmin sahələrin ehtiyatların iqtisadiyyatın sahələrinin aralıq istehlakını ödəmək üçün 4-cü sahənin məhsullarından 39,3 milyard manatlıq, 7-ci sahənin məhsullarından 229,2 milyard manatlıq, 10-cu sahənin məhsullarından 198,6 milyard manatlıq, 11-ci sahənin məhsullarından 510,7 milyard manatlıq, 12- ci sahənin məhsullarından 572,2 milyard manatlıq, 13-cü sahənin məhsullarından 182,5 milyard manatlıq məhsul çatışmır və həmin məhsullardan ən azı göstərilən rəqəmlər miqdarında idxal edilməsi zəruri olmuşdur. Bütün sahələrin son tələbatlarının cəmi (ÜDM-in xərclər üsulu ilə hesablanması, əlavə 1-də sətirlər üzrə 28,29,30,31,32 və 34-cü qrafaların cəmi) $\sum_{i=1}^{z} y_i$=ev təsərrüfatlarının son istehlak xərcləri (kod 28)+qeyri-kommersiya təşkilatlarının son istehlak xərcləri (kod29)+əsas kapitalın ümumi yığımı (kod 30) + maddi dövriyyə vəsaitlərinin ehtiyatlarının dəyişməsi(kod31)+(ixrac(kod32)-idxal(kod34)) 25813,3 milyard manat təşkil etmişdir. Bu zaman 1796,8 milyard manatlıq idxal məhsulları ancaq aralıq istehlak üçün istifadə edilməsi zəruri olmuşdur. İndi isə giriş verilənləri kimi (ekzogen dəyişənlər) hər bir sahənin son tələbatlarını daxil etməklə (yi-ə qiymət verməklə) hər bir sahənin ümumi buraxılışlarını (6) modelinin tənliklər sistemini həll etməklə tapaq.

**Cədvəl 3**

2001-ci ildə Azərbaycan iqtisadiyyatında istehlakçı qiymətlərlə mal və xidmətlərin istifadəsi (milyard manatla)

| Kodu | Sahələr Məhsullar | Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | Balıqçılıq | Qida məhsullarının istehsalı və emalı (tütün daxil olmaqla) | Neft və qaz hasilatı və bununla bağlı xidmətlər | Neftayırma məhsulları istehsalı | Elektrik enerjisi, qaz və su təchizatı | | Aralıq istehlaka sərf olunmuş cəmi ehtiyatlar |
|---|---|---|---|---|---|---|---|---|---|
| A | B | 1 | 2 | 5 | 3 | 8 | 14 | .. | 27 |
| 1 | Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 1362,70 | 2,690 | 1498,355 | 0,098 | 0,0 | 0,0 | ... | 2927,106 |
| 2 | Balıq və digər balıqçılıq məhsulları | 0,033 | 10,528 | 19,888 | 0,0 | 0,0 | 0,0 | ... | 30,496 |
| 5 | Qida sənayesinin məhsulları | 7,631 | 0,786 | 1329,931 | 0,325 | 0,031 | 1,292 | ... | 1428,385 |
| 3 | Neft və qaz hasilatı məhsulları və onunla bağlı xidmətlər | 1,594 | 0.145 | 0,0 | 490,705 | 1769,5 | 62,615 | .. | 2330,822 |
| 8 | Neftayırma məhsulları | 183,973 | 6,051 | 28,379 | 96,083 | 47,942 | 516,056 | ... | 1899,942 |
| 14 | Elektrik enerjisi, qaz və su | 49,280 | 0,241 | 54,806 | 42,836 | 63,587 | 804,635 | ... | 1483,093 |
| ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ |
| 26 | Cəmi aralıq istehlak | 1814,50 | 29,7 | 3186,496 | 1319,211 | 2015,3 | 1519,44 | ... | 19099,198 |
| 27 | Əmək haqqı | 109,257 | 33,315 | 210,002 | 603,337 | 37,112 | 179,392 | ... | 3973,2 |
| 28 | Sosial ayırmalar | 40,800 | 6,008 | 83,120 | 236,055 | 14,448 | 67,781 | ... | 1365,4 |
| 29 | Xalis gəlir | 3473,16 | 0,6 | 436,975 | 6415,416 | 124,52 | 1,099 | ... | 16280,482 |
| 30 | İstehsala vergilər | 27,486 | 0,380 | 15,106 | 35,726 | 0,0 | 19,019 | ... | 191,729 |
| 31 | Əsas kapitalın istehlakı | 250,4 | 1,589 | 223,657 | 584,287 | 146,29 | 120,800 | ... | 3279,5 |
| 32 | | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | ... | -172,3 |
| 33 | Əsas qiymətlərlə əlavə dəyər | 3901,1 | 41.891 | 968,859 | 7874,821 | 322,37 | 388,091 | ... | 24918,011 |
| 34 | Əsas qiymətlərlə ümumi buraxılış | 5715,60 | 71,591 | 4155,356 | 9194,032 | 2337,7 | 1907,53 | ... | 44017,209 |

Cədvəl 3-ün davamı

| Kodu | Sahələr Məhsullar | Ev təsərrüfatının istehlak xərcləri | Kommersiya təsirinin son istehlak xərcləri | Əsas kapitalın yığımı | Maliyyə dövriyyə vəsaitlərinin dəyişməsi | İxrac | İstehlakçıların qiymətləndirilməsində cəmi istifadə edilmiş |
|---|---|---|---|---|---|---|---|
| A | B | 28 | 29 | 30 | 31 | 32 | 33 |
| 1 | Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 4642,073 | 60,378 | 176,0 | 9,378 | 115,157 | 7930,092 |
| 2 | Balıq və digər balıqçılıq məhsulları | 67,517 | 0,0 | 0,0 | 0,003 | 0,516 | 98,532 |
| 5 | Qida sənayesinin məhsulları | 4535,908 | 0,0 | 0,0 | 16,884 | 167,510 | 6148,686 |
| 3 | Neft və qaz hasilatı məhs. və onunla bağlı xidmətlər | 0,0 | 0,0 | 0,0 | 1,697 | 8584,864 | 10917,382 |
| | | 28 | 29 | 30 | 31 | 32 | 33 |
| 8 | Neftayırma məhsulları | 221,285 | 0,0 | 0,0 | 1,183 | 1387,859 | 3510,269 |
| 14 | Elektrik enerjisi, qaz və su | 589,758 | 0,0 | 0,0 | 0,0 | 20,784 | 2093,636 |
| ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ | ⋮ |
| 26 | Cəmi aralıq istehlak | 15862,729 | 3460,901 | 6081,3 | -586,239 | 11029,9 | 54947,789 |

Cədvəl 4

2001-ci ildə Azərbaycanda yerli son tələbat məhsullarının iqtisadi fəaliyyət ııövləri üzrə həcmi (milyon manatla)

| Kod | İqtisadi fəaliyyət sahələrinin adları | Sahələrin son tələbatı |
|---|---|---|
| 1 | Kənd təsərrüfatı, ovçuluq və meşəçilik məhsulları | 2852976 |
| 2 | Balıq və digər balıqçılıq məhsulları | 43149.4 |
| 3 | Neft və qaz hasilatı məhsulları və neft və qaz hasilatı ilə bağlı xidmətlər | 7158697 |
| 4 | Dağ-mədən sənayesinin məhsulları | -39267.5 |
| 5 | Qida sənayesinin məhsulları (tütün məmulatları daxil olmaqla) | 2874642 |
| 6 | Toxuculuq sənayesinin məhsulları, dəri məmulatları və ayaqqabı | 74162.2 |
| 7 | Ağac, sellüloz-kağız və poliqrafiya məhsulları | -228598 |
| 8 | Neftayırma məhsulları | 1116194 |
| 9 | Kimya sənayesinin məhsulu (neft məhsullarının emalı istisna olmaqla), rezin və plastik kütlədən məmulatlar | -229184 |
| 10 | Qeyri-metal mineral məmulatlar | -198631 |
| 11 | Metallurgiya sənayesinin məhsulu və metal məmulatları | -510702 |
| 12 | Maşın və avadanlıq | -572195 |
| 13 | Mebel və sair sənaye məhsulları | -18254.4 |
| 14 | Elektrik enerjisi, qaz və su | 462490.9 |
| 15 | Tikinti işləri | 3530858 |
| 16 | Ticarət xidmətləri | 1961745 |
| 17 | Mehmanxana və restoran xidmətləri | 111948.2 |
| 18 | Nəqliyyat xidmətləri | 1885044 |
| 19 | Poçt və rabitə xidmətləri | 681236 |
| 20 | “Maliyyə"vasitəçiliyi, sığorta və pensiya təminatı üzrə xidmətlər | 130687.8 |
| 21 | Daşınmaz əmlakla əlaqədar xidmətlər, icarə və digər kommcrsiva xidmətləri | 624397.8 |
| 22 | Təhsil sahəsində xidmətlər | 1566188 |
| 23 | Səhiyyə və sosial xidmətlər | 725131.3 |
| 24 | Dövlət idarəetməsi və məcburi sosial sığorta sahəsində xidmətlər | 1329495 |
| 25 | Kommunal və sair xidmətlər | 481063.3 |
| Cəmi: | | 25813274 |

Aydındır ki, bu zaman (I-A)-1 tərs matrisinin hesablanması lazım gəlir. Bu matris iqtisadi mənasına görə tam xərclər matrisi adlandırılır. Tam xərclər matrisinə nəzər salsaq (bax: əlavə 4), görərik ki, vahid miqdarda (1 milyon manatlıq) son tələbat məhsulu yaradılması üçün ən çox öz məhsulunun ümumi buraxılışına tələbi 9-cu sahə - «Kimya sənayesinin məhsulu (neft məhsullarının emalı istisna olmaqla) rezin və plastik kütlədən məmulatları edir. Daha doğrusu, qalan bütün sahələrin son tələbatları sıfır olması şərti ilə 9-cu sahədə 1 milyon manatlıq son tələbat məhsulu yaratmaq üçün öz sahəsinin ümumi buraxılışı təxminən 2,1 milyon manat olmalıdır. Bu zaman ümumi buraxılış 1-ci sahədə 4 min manat, 2-ci sahədə

0,0045 min manat, 3- cü sahədə 94,3 min manat, 4-cü sahədə 2,4 min manat, 5-ci sahədə 0,832 min manat, 6-cı sahədə 8,5 min manat, 7-ci sahədə 11,6 min manat, 8-ci sahədə 93,95 min manat, 10-cu sahədə 15,2 min manat, 11-ci sahədə 63,6 min manat, 12-ci sahədə 42 min manat, 13-cü sahədə 390,2 min manat, 15-ci sahədə 123,1 min manat, 16-cı sahədə 49,5 min manat, 17-ci sahədə 0,948 min manat, 18-ci sahədə 72,4 min manat, 19-cu sahədə 7,9 min manat, 20-ci sahədə 13 min manat, 21-ci sahədə 39 min manat, 22-ci sahədə 0,8 min manat, 23-cü sahədə 0,2 min manat, 24-cü sahədə 5,7 min manat, 25-ci sahədə 13 min manatlıq ümumi buraxılış olmalıdır. Buradan belə nəticə çıxır ki, 9-cu sahədə 1 milyon manatlıq son tələbat məhsulu yaratmaq üçün bütün sahələrin məhsullarına olan tam xərci təxminən 3,2 milyon manatdır.

Eyni qayda ilə tam xərclər matrisinin (əlavə 4) hər bir sütununu toplamaqla həmin sütuna uyğun sahənin vahid miqdarda son tələbat məhsulunun yaradılması üçün bütün sahələrin məhsullarına olan tam xərcləri hesablamaq mümkündür.

Qeyd edək ki, tam xərclərin müəyyənləşdirilməsinin digər bir üsulu dolayı xərclər vasitəsilə hesablanmasıdır.

$$b_{ij} = a_{ij} + b_{ij}^{(1)} + b_{ij}^{(2)} + \ldots + b_{ij}^{(k)} \ldots$$

burada, $b_{ij}$ - j sahədə vahid miqdarda son tələbat məhsulunun yaradılması üçün i-ci sahənin məhsuluna olan tam xərci, $a_{ij}$ - birbaşa xərci, $b_{ij}^{(k)}$ - isə k-ci tərtib dolayı xərci göstərir. $a_{ij} <1$ olduğu üçün və dolayı xərclərin tərtibi artdıqca, sonsuz olaraq kiçildiyindən müəyyən k - tərtibinə qədər dolayı xərcləri hesablayıb, digər yüksək tərtibli dolayı xərcləri isə atmaq mümkündür. Onda,

$$b_{ij} \approx a_{ij} + b_{ij}^{(1)} + b_{ij}^{(2)} + \ldots + b_{ij}^{(k)} \ldots$$

alarıq. Buradan belə nəticə çıxarmaq olar ki, yuxarıda göstərdiyimiz 9-cu sahədə 1 milyon manatlıq son tələbat məhsulunun yaradılması üçün lazım gələn 3,2 milyon manatlıq tam xərcin 741 min manatı birbaşa xərc, qalan, təxminən, 2,5 milyon manatı birbaşa xərcin əldə edilməsinə sərf olunmuş dolayı xərclərdir. Yəni 1 milyon manatlıq son tələbat məhsulunun yaradılması üçün aralıq istehlak kimi istifadə edilən 741 min manatlıq məhsulun dəyəri ödənilir, qalan 2,5 milyon manat dolayı xərclər isə dəyəri ödənildiyi birbaşa xərclərin müvafiq sahələrinin aralıq istehlakında istifadə edilir.

Tam xərclər əmsallarını müvafiq sahələrdə son tələbat məhsulunun yaradılmasında istifadə olunan tam xərclərin multiplikatorları da adlandırmaq olar.

Hesab etsək ki, Azərbaycanda 2001-ci ildə 5, 7, 9, 10, 11, 12,13-cü sahələrin (cəmi 7 sahədə) yerli ehtiyatları sahələrin aralıq istehlakına sərf olunan cəmi ehtiyatlardan az deyil, ona bərabər olsaydı (faktiki olaraq, göstərilən sahələrdə yerli ehtiyatlar aralıq istehlaka sərf olunan ehtiyatlardan az olmuşdur), onda sahələrin ümumi buraxılışı hansı həcmdə olardı? Bu suala cavabı (6) və ya (7)-nin tənliklər sistemini Xi-lərə görə həll etməklə tapmaq olar. Sistemin həlli cədvəl 5-də verilmişdir s.

Cədvəldən göründüyü kimi, bu zaman ölkə iqtisadiyyatının sahələrində təxminən 48 trilyon manatlıq məhsul buraxılışı mümkün olardı ki, bu da əvvəlkindən 9,1% çoxdur.

Qeyd edək ki, ARDSK 2001-ci il üçün sahələrarası balansın aralıq istehlakını ancaq dəyər ifadəsində tərtib etmişdir. Qiymətlərin dəyişməsi ilə birbaşa xərclər matrisinin də elementlərinin dəyişilməsi baş verir. Ona görə də 2001-ci il üçün hesablanmış birbaşa xərclər matrisi ilə növbəti illər üçün təhlil və proqnozların verilməsi müəyyən ciddi kənarlaşmalar verə bilər. Əgər aralıq istehlak xərcləri natural şəkildə tərtib olunsa idi, bu problemlər xeyri azalmış olardı. Digər tərəfdən, uzun illər dövrü üçün birbaşa xərclər matrisi tərtib olunsa idi, onda

birbaşa xərclər əmsallarının dəyişmə meyli əsasında (bu zaman ekonometrik modelləşdirmə üsulundan da istifadə etmək olardı) növbəti illər üçün proqnozların verilməsi daha etibarlı xarakter almış olardı.

Cədvəl 5.

"Xərclər-buraxılış" modelinin tənliklər sisteminin həllinin nəticələri (milyon manat)

| Kod | İqtisadi fəaliyyət sahələrinin adları | Sahələrin son tələbatı (giriş) | Ümumi buraxılış (çıxış) |
|---|---|---|---|
| 1 | Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 2852976.29 | 5720441.005 |
| 2 | Balıq və digər balıqçılıq məhsulları | 43149.4 | 71604.11388 |
| 3 | Neft və qaz hasilatı məhsulları və neft və qaz hasilatı ilə bağlı xidmətlər | 7158697.2 | 9276621.023 |
| 4 | Dağ-mədən sənayesinin məhsulları | 0 | 72964.08562 |
| 5 | Qida sənayesinin məhsulları (tütün məmulatları daxil olmaqla) | 2874641.7 | 4157480.681 |
| 6 | Toxuculuq sənayesinin məhsulları, dəri məmulatları və ayaqqabı | 74162.2015 | 170436.3018 |
| 7 | Ağac, sellüloz-kağız və poliqrafiya məhsulları | 0 | 481714.8353 |
| 8 | Neftayırma məhsulları | 1116193.91 | 2436562.455 |
| 9 | Kimya sənayesinin məhsulu (neft məhsullarının emalı istisna olmaqla), rezin və plastik kütlədən məmulatlar | 0 | 1368970.064 |
| 10 | Qeyri-metal mineral məmulatlar | 0 | 479177.3314 |
| 11 | Metallurgiya sənayesinin məhsulu və metal məmulatları | 0 | 1078089.634 |
| 12 | Maşın və avadanlıq | 0 | 1125583.397 |
| 13 | Mebel və sair sənaye məhsulları | 0 | 60507.78418 |
| 14 | Elektrik enerjisi, qaz və su | 462490.903 | 2179374.972 |
| 15 | Tikinti işləri | 3530857.6 | 3952594.642 |
| 16 | Ticarət xidmətləri | 1961745.1 | 3285660.211 |
| 17 | Mehmanxana və restoran xidmətləri | 111948.166 | 168228.4676 |
| 18 | Nəqliyyat xidmətləri | 1885044.3 | 4212570.672 |
| 19 | Poçt və rabitə xidmətləri | 681236 | 944059.027 |
| 20 | Maliyyə vasitəçiliyi, sığorta və pensiya təminatı üzrə xidmətlər | 130687.801 | 641761.6094 |
| 21 | Daşınmaz əmlakla əlaqədar xidmətlər, icarə və digər kommersiya xidmətləri | 624397.797 | 1340533.67 |
| 22 | Təhsil sahəsində xidmətlər | 1566188.1 | 1643502.409 |
| 23 | Səhiyyə və sosial xidmətlər | 725131.3 | 753437.1197 |
| 24 | Dövlət idarəetməsi və məcburi sosial sığorta sahəsində xidmətlər | 1329495.1 | 1362611.506 |
| 25 | Kommunal və sair xidmətlər | 481063.3 | 973360.5651 |
| Cəmi: | | 27610106.2 | 47957847.58 |

### Tarazlı qiymətlər modelinin tənliklər sisteminin həlli və alınmış nəticələrin təhlili

Yuxarıda göstərdik ki, tarazlı qiymətlər modeli «xərclər-buraxılış» modelinin qoşmasıdır. Bu modelin vasitəsilə sahələrin əlavə dəyər normasını giriş verilənləri götürməklə sahələrin məhsullarının tarazlı qiymətlərini tapmaq mümkündür. Habelə hər hansı bir sahə və ya sahələrdə əlavə dəyər normalarının, o cümlədən qiymətlərin səviyyələrinin dəyişməsinin digər sahələrdəki əlavə dəyər və tarazlı qiymətləri necə dəyişikliyə məruz qoyacağını əvvəlcədən proqnozlaşdırmaq mümkündür. Bu məqsədlə cədvəl9 4.2 verilmiş 2001-ci ilin statistik rəqəmləri əsasında sahələrin əlavə dəyər normaları hesablanmışdır (Cədvəl 6).

Sahələrin əlavə dəyər normalarının hesablanmış qiymətlərindən görünür ki, ölkədə ən yüksək əlavə dəyər norması 3-cü sahədə - «Neft və qaz hasilatı məhsulları və neft və qaz hasilatı ilə bağlı xidmətlər»də olmuşdur.

Belə ki. bu sahələrin 1 trilyon manatlıq ümumi buraxılışının 85,65%-ni əlavə dəyər, qalan 14,35%-ni isə aralıq istehlak təşkil edir. Bıı fakt onu göstərir ki, Azərbaycanda «Holland xəstəliyi»nin nəzəri- metodoloji əsasını təşkil edən Ribçinskinin «təbii ehtiyatların kəşfi və istismarı digər sahələri artırılmış əmək haqqı və faiz stavkasının təzyiqinə məruz qoyaraq, onların ehtiyatlarını çəkib aparır» [9, səh.94- 96] prinsipi müşahidə olunur.

Beləliklə, sahələrin faktiki əlavə dəyər normaları (8) modelinin giriş verilənləri (vi) kimi qəbul edib tarazlı qiymətlər modelinin tənliklər sisteminin həlli sahələrin tarazlı qiymətlərinin səviyyələrini (Pi) verəcəkdir.

Cədvəl 6-dan göründüyü kimi, ölkə iqtisadiyyatının bütün sahələrində məhsul və xidmətlərin tarazlı qiymətlərinin səviyyəsi faktiki səviyyələrdən aşağı olmuşdur. Bu zaman ən aşağı qiymət səviyyəsi 14-cü sahədə - «Elektrik enerjisi, qaz və su»da - 0,84 alınmışdır. Yəni elektrik enerjisi, qaz və su sahəsi məhsullarının tarazlı qiymətləri faktiki qiymətlərin 84%-ni təşkil etmişdir. Bu, onunla əlaqədar olmuşdur ki, göstərilən sahə ölkədə ən aşağı əlavə dəyər normasına (20,3%) malik sahələrdən biri olmuşdur.

İndi isə (8) modeli vasitəsilə hər hansı bir sahənin əlavə dəyər normasının dəyişməsinin digər sahələrdə tarazlı qiymətlərin dəyişməsinə necə təsir edəcəyini təhlil edək.

Yuxarıda göstərdik ki, 8-ci - «Neftayırma məhsıılları» və 14-cü - «Elektrik enerjisi, qaz və su» sahələri ölkədə ən aşağı əlavə dəyər normasına malik olmuşdur. Əgər «Elektrik enerjisi, qaz və su» sahəsində əlavə dəyər norması 0,2-dən 0,5-ə qədər artarsa (2,5 dəfə), onda (8) modelinin tənliklər sisteminin həlli, yəni sahələrin tarazlı qiymət səviyyələri cədvəl 7-də verildiyi kimi alınacaqdır.

Alınmış nəticə göstərir ki, bu zaman sahələrin məhsullarının qiymət indeksləri əvvəlki səviyyələrindən kifayət qədər fərqlənəcəkdir. Belə ki, «Elektrik enerjisi, qaz və su» sahəsinin məhsulları tarazlı qiymətlərindən 36,2% yüksək, əvvəlki qiymət səviyyəsindən isə 62,1 çox olacaqdır. Ümumiyyətlə, bu zaman tarazlı qiymətlərin ən aşağı artımı 3-cü sahədə «Neft və qaz hasilatı məhsulları və neft və qaz hasilatı ilə bağlı xidmətlər» sahəsində qeydə alınmışdır. Bu artım təxminən 0,5% təşkil edir. Ümumiyyətlə bütün sahələrdə qiymətlərin orta artımı 5,42%-ə bərabər olur.

Cədvəl 6.

“Xərclər-buraxılış” modelinin qoşmasının tənliklər sisteminin həllinin nəticələri (milyon manat)

| Kod | İqtisadi fəaliyyət sahələrinin adları | Sahələrin əlavə dəyər norması (giriş) | Sahələrin tarazlı qiymətləri (Çıxış) |
|---|---|---|---|
| 1 | Kənd təsərrüfatı, ovçuluq və meşəçi lik məhsulları | 0,682535 | 0,9895727 |
| 2 | Balıq və digər balıqçılıq məhsulları | 0,585143 | 0.967776 |
| 3 | Neft və qaz hasilatı məhsulları və neft və qaz hasilatı ilə bağlı xidmətlər | 0,856509 | 0,990845 |
| 4 | Dağ-mədən sənayesinin məhsulları | 0,320929 | 0,942958 |
| 5 | Qida sənayesinin məhsulları (tütün məmulatlar daxil olmaqla) | 0,233163 | 0,934013 |
| 6 | Toxuculuq sənayesinin məhsulları, dəri məmulatları və avaqqahı | 0.264677 | 0,955208 |
| 7 | Ağac, sellüloz-kağız və poliqrafiya məhsulları | 0,307386 | 0,965174 |
| 8 | Neftayırma məhsulları | 0,137899 | 0,877076 |
| 9 | Kimya sənayesinin məhsulu (neft məhsullaram emalı istisna olmaqla), rezin və plastik kütlədən məmulatlar | 0.225299 | 0,890022 |
| 10 | Qeyri-metal mineral məmulatlar | 0,381075 | 0.960206 |
| 11 | Metallurgiya sənayesinin məhsulu və metal məmulatları | 0,536409 | 0,970584 |
| 12 | Maşın və avadanlıq | 0,599763 | 0,965827 |
| 13 | Mebel və sair sənaye məhsulları | 0,214675 | 0,955594 |
| 14 | Elektrik enerjisi, qaz və su | 0,203449 | 0.840297 |
| 15 | Tikinti işləri | 0,400981 | 0,958244 |
| 16 | Ticarət xidmətləri | 0,615091 | 0,973589 |
| 17 | Mehmanxana və restoran xidmətləri | 0,659522 | 0,961953 |
| 18 | Nəqliyyat xidmətləri | 0,53127 | 0,98975 |
| 19 | Poçt və rabitə xidmətləri | 0,630033 | 0,998332 |
| 20 | Maliyyə vasitəçiliyi, sığorta və pensiya təminatı üzrə xidmətlər | 0,785211 | 0,993923 |
| 21 | Daşınmaz əmlakla əlaqədar xidmətlər, icarə və digər kommersiva xidmətləri | 0,644599 | 0,992775 |
| 22 | Təhsil sahəsində xidmətlər | 0,89205 | 0,99216 |
| 23 | Səhiyyə və sosial xidmətlər | 0,690955 | 0,975828 |
| 24 | Dövlət idarəetməsi və məcburi sosial sığorta sahəsində xidmətlər | 0,565092 | 0.974414 |
| 25 | Kommunal və sair xidmətlər | 0,533743 | 0,983762 |

Cədvəl 7.

Sahələrin məhsullarının tarazlı qiymətlərinin dəyişməsi

| Kod | İqtisadi fəaliyyət sahələrinin adları | Sahələrin əlavə dəyər norması | Sahələrin tarazlı qiymətləri | Sahələrin məhsullarının tarazlı |
|---|---|---|---|---|
| 1 | Kənd təsərrüfatı, ovçuluq və meşəçilik məhsulları | 0,682535 | 0,999288 | 0,981766 |
| 2 | Balıq və digər balıqçılıq məhsulları | 0,585143 | 0,976642 | 0,916126 |
| 3 | Neft və qaz hasilatı məhsulları və neft və qaz hasilatı ilə bağlı xidmətlər | 0,856509 | 0,995416 | 0,461345 |
| 4 | Dağ-mədən sənayesinin məhsulları | 0,320929 | 1,01342 | 7.472472 |
| 5 | Qida sənayesinin məhsulları (tütün məmulatları daxil olmaqla) | 0,233163 | 0,951031 | 1,821974 |
| 6 | Toxuculuq sənayesinin məhsulları, dəri məmulatları və ayaqqabı | 0,264677 | 0,980669 | 2.665463 |
| 7 | Ağac, sellüloz-kağız və poliqrafiya məhsulları | 0,307386 | 1.005118 | 4.138532 |
| 8 | Neftayırma məhsulları | 0,137899 | 0,895642 | 2.116791 |
| 9 | Kimya sənayesinin məhsulu (neft məhsullarının emalı istisna olmaqla), rezin və plastik kütlədən məmulatlar | 0,225299 | 1,005732 | 13,00082 |
| 10 | Qeyri-metal mineral məmulatlar | 0,381075 | 0,999754 | 4,118794 |
| 11 | Metallurgiya sənayesinin məhsulu və metal məmulatları | 0,536409 | 1,0056 | 3,607649 |
| 12 | Maşın və avadanlıq | 0,599763 | 0,992826 | 2.795473 |
| 13 | Mebel və sair sənaye məhsulları | 0,214675 | 1,011715 | 5.872891 |
| 14 | Elektrik enerjisi, qaz və su | 0,5 | 1.362361 | 62,12844 |
| 15 | Tikinti işləri | 0,400981 | 0,979779 | 2,247435 |
| 16 | Ticarət xidmətləri | 0,615091 | 1,000967 | 2,812141 |
| 17 | Mehmanxana və restoran xidmətləri | 0,659522 | 0,993394 | 3,268494 |
| 18 | Nəqliyyat xidmətləri | 0,53127 | 1,012296 | 2.277865 |
| 19 | Poçt və rabitə xidmətləri | 0,630033 | 1,008875 | 1.056044 |
| 20 | Maliyyə vasitəçiliyi, sığorta və pensiya təminatı üzrə xidmətlər | 0,785211 | 1.00282 | 0.89516 |
| 21 | Daşınmaz əmlakla əlaqələr xidmətlər, icarə və digər kommersiya xidmətləri | 0,644599 | 1,001323 | 0,861047 |
| 22 | Təhsil sahəsində xidmətlər | 0,89205 | 0,999183 | 0,707833 |
| 23 | Səhiyyə və sosial xidmətlər | 0,690955 | 1,009251 | 3.425069 |
| 24 | Dövlət idarəetməsi və məcburi sosial sığorta sahəsində xidmətlər | 0,565092 | 0,998335 | 2,454938 |
| 25 | Kommunal və sair xidmətlər | 0,533743 | 1,017024 | 3.381171 |

NƏTİCƏLƏR

1. 2001 -ci ildə ümumi buraxılışın 22,5% -ni, idxal, 25%-ni ixrac, 4,8%-ni isə məhsula xalis vergilər təşkil etmişdir. Ümumi buraxılışın 43,4%-ni aralıq istehlak, 56,6%-ni isə əlavə dəyər təşkil etmişdir. Aralıq istehlakın böyük hissəsini (52%-ni) idxal məhsullarının təşkil etməsi göstərir ki, ölkədə istehsal edilən əlavə dəyər idxal məhsullarından xeyli asılıdır. Belə ki, digər şərtlər sabit qaldıqda idxal məhsullarının qiymətlərinin 100% artması ölkə daxilində istehsal olunan məhsul və xidmətlərin qiymətlərinin 52% artmasına gətirib çıxarır.

2. Ölkədə «Elektrik enerjisi, qaz və su» sahəsi aralıq istehlak kimi öz ehtiyatlarından ən çox istifadə edən sahədir (53%-ni). Ümumiyyətlə, bu sahənin ehtiyatlarının 70,8%-i, digər iqtisadi fəaliyyət növləri üzrə istehsal prosesində aralıq istehlak kimi, 28,2%-i ev təsərrüfatlarında son istehlak və qalan 1%-i isə ixrac olunur.

3. Tam xərclər matrisinin elementləri göstərir ki, 9-cu sahədə «Kimya sənayesinin məhsulu(neft məhsullarının email istisna olmaqla), rezin və plastik kütlədən məmulatlar ən çox öz sahəsinin tam xərcinə malikdir. Belə ki, 1 milyon manatlıq son tələbat məhsulu istehsal etmək üçün 2,1 milyon manatlıq tam xərc tələb olunur. Ümumiyyətlə isə, bu sahədə 1 milyon manatlıq məhsul istehsal etmək üçün bütün sahələrin məhsullarına olan tam xərci 3,2 milyon manatdır.

4. «Xərclər-buraxılış» modelinin tənliklər sisteminin həlli göstərir ki, əgər ölkənin sahələrinin ehtiyatları aralıq istehlak üçün kifayət edərsə, onda ÜDM-in (son tələbat) həcmi 27,6 trilyon manat, ümumi buraxılış 47,9 trilyon manat təşkil edər. Bu isə əvvəlkindən 9,1 % çoxdur.

5. Ölkədə ən yüksək əlavə dəyər norması «Neft və qaz hasilatı məhsulları və neft və qaz hasilatı ilə bağlı xidmətlərwdə olmuşdur 85,6%). Bu fakt onu göstərir ki, Azərbaycanda «Holland xəstəliyi»nin elmi-metodoloji əsasını təşkil edən, Ribçinskinin «təbii ehtiyatların kəşfi və istismarı digər sahələri artırılmış əmək haqqı və faiz stavkasının təzyiqinə məruz qoyaraq, onların ehtiyatlarını çəkib aparır prinsipi müşahidə olunur.

6. 2001-ci ildə ölkədə verilmiş faktiki əlavə dəyər normasına uyğun sahələrin məhsul və xidmətlərinin qiymətləri faktik qiymət səviyyələrindən aşağı olmuşdur. Bu zaman «Elektrik enerjisi, qaz və su»da ən aşağı tarazlı qiymət səviyyəsi (0,84) olmuşdur. Bu, həmin sahənin ölkədə ən aşağı əlavə dəyər normasına (20,3%) malik olmasından irəli gəlir.

7. Əgər «Elektrik enerjisi, qaz və su» sahəsində əlavə dəyər norması 20,3%-dən 50%-ə qədər (2,5 dəfə) artırılaraq, tarazlı qiymətlər modelinin tənliklər sisteminin həlli göstərmişdir ki, onda ən çox göstərilən sahədə tarazlı qiymətləri əvvəlki səviyyəsindən yuxarı səviyyəyə 62,1 %-ə qalxacaqdır. «Neft və qaz hasilatı məhsulları və neft və qaz hasilatı ilə bağlı xidmətlər » sahəsində qiymət 0,5% artmışdır. Ümumiyyətlə isə, bütün sahələrdə qiymətlər orta hesabla 5,42% artır.

ƏDƏBİYYAT:

1.В.Леонтьев. Межотраслева экономика. Пер. с анг. М., 1997

2. М.Кубанива, М. Табата, С. Табата. Ю.Хасэбэ. Математическая ЭКОНОМИКА на персональном компьютере. Пер. с япон М., Финансы И статистика, 1991, 304 с.

3. A.F.Musayev, A.Q.Qəhrəmanov. İqtisadiyyatda riyazi modelləşdirmə və proqnozlaşdırma. Bakı, «Kür», 1998,452 səh.

4. Y.H.Həsənli, R.T.Həsənov. İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi. Bakı, «Nafta-Press», 2002,303 səh.

5. А.С.Солодовников, В.А.Бабайцев, А.В.Бранлов. Математика В ЭКОНОМИКЕ, В АВУХ частях, часть 1, М. Финансы u статистика, 1999, 242 с.

6. Azərbaycanda məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası hesabat balansı. ARDSK. Bakı, Səda, 2004, 242 səh.

7. Высшая Математика ДЛЯ ЭКОНОМИСТОВ. ПОД ред. nроф. Н.Ш.Кремера, второе издание, М.: ЮНИТИ, 2002, 471 с.

8.А.Г.Гранберг. Моделирование социалистической ЭКОНОМИКИ. М.: «ЭКОНОМИКА», 1988, 487 с.

9. П.Х.Линдерт. ЭКОНОМИКа мирохозятвенных связей. Перевод с англ. М. Прогресс , 1997, 515 с.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №6, Bakı 2005*

# 14 İLİN İQTİSADİ-SOSİAL UĞURLARI VƏ İNKİŞAF PERSPEKTİVLƏR

***i.e.d., prof. Əbdülsəlimzadə Q .***

*2002-2009 -cu illərdə İİETİ-də baş elmi işçi vəzifəsində işləyibdir*

***"Bizim məqsədimiz Azərbaycanı inkişaf etdirmək, zəngin ölkəyə çevirmək və Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdırmaqdır. Biz buna nail olacağıq".***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Qədim tarixə və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqının keçdiyi keşməkeşli inkişaf yolu şərəfli olmaqla yanaşı, eyni zamanda, əzab-əziyyətlərlə səciyyələnmişdir. Əlverişli strateji- coğrafi mövqeyi, bərəkətli torpağı, iqlim müxtəlifliyi, təbii sərvətləri, zəhmətsevər insanları ilə seçilən Odlar Yurdu həmişə yaxın-uzaq ölkələrin nəzərlərini özünə cəlb etmiş, bu ərazini ələ keçirmək istəyən yadellilərin qanlı-qadalı döyüş meydanlarına çevirilmişdir. XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış və istiqlal mübarizəsi nəticəsində bütün müsəlman Şərqində ilk parlamentli siyasi quruluş formalaşdırılaraq, Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. "Məhdud zaman çərçivəsində, gərgin daxili və xarici siyasi şəraitdə Xalq Cümhuriyyətinin qəbul etdiyi qərarlar, reallaşdırılan ideyalar, həmçinin planlaşdırılan işlər azadlıq və müstəqillik qazanmış xalqımızın böyük inkişaf potensialına, cəmiyyət və dövlət həyatının bütün sahələrində geniş perspektivlərə malik olmasının göstəricisi idi".

Lakin bir sıra obyektiv və subyektiv səbəblər üzündən, bu demokratik xalq hakimiyyəti cəmi 23 ay davam edə bildi.Diplomatik oyunlar, yalançı vədlər, xəbis niyyətlər taktikasından bacarıqla, faydalanan şovinist bolşevik rejimi liderləri və onun işğalçı "xilaskar ordusu 1920-ci il aprel ayının sonlarında Azərbaycanı zəbt etdi. Rus bolşeviklərinin "şər imperiyasının" ağalığı 71 il sürdü....

XX əsrin son on illiyində Azərbaycan xalqının yenidən müstəqilliyə qovuşması, şübhəsiz, keçmiş Sovet İttifaqı məkanında və bütün dünyada 80-ci illərin ortalarından başlanmış ciddi ictimai-siyasi proseslərin zəruri məntiqi nəticəsi idi. Məhz bu obyektiv proseslər və geniş xalq kütlələrinin milli mənlik şüurunun yeni yüksəliş dalğası inzibati-amirlik prinsipləri ilə idarə olunan sovet cəmiyyətinin dağılmasına, kommunizm ideyalarının beynəlxalq miqyasda məğlubiyyətinə, keçmiş sosialist ölkələri, habelə müttəfiq respublikaların müstəqil dövlətlərə çevrilərək, bazar münasibətləri iqtisadi sisteminə keçməsinə imkan yaratdı.

Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasının qarşısında milli dövlətçilik prinsiplərini möhkəmlətmək, demokratik, hüquqi, dünyəvi bir dövlət qurmaq, suveren ölkənin həyati tələblərinə cavab verən zəruri dəyişikliklər aparmaq, uğurlu və tarazlı daxili-xarici siyasət xəttini düşünülmüş, ardıcıl mərhələlərlə həyata keçirmək, əhalinin həyat səviyyəsini tədricən yaxşılaşdırmaq; orta dünya standartları göstəricilərinə çatmaq kimi ciddi vəzifələr dururdu. Bu vəzifələr siyasi-ictimai,iqtisadi-sosial, mənəvi-əxlaqi sahələri əhatə etməklə vahid bir kompleks təşkil etsə də, bütün cəmiyyətlərin tarixində son nəticə etibarilə iqtisadi-sosial amillər həmişə ön sıraya çıxaraq, şübhəsiz, ümumi tarazlı inkişaf baxımından heç də az əhəmiyyət kəsb etməyən digər məsələlərin həlli gedişinə bilavasitə, yaxud dolayı yollarla təsir göstərir.

Bazar münasibətlərinə keçid dövrünün ilk illərində keçmiş təsərrüfat sisteminin formalaşdırdığı məcburi iqtisadi əlaqələrin pozulması, beynəlxalq hüquq normalarına zidd olan "milli separatçılığı" qızışdıran müəyyən qüvvələrin köməyi ilə Qarabağ münaqişəsi düyününün meydana çıxması, respublikanın ictimai-siyasi həyatındakı ziddiyyətli qarşıdurmalar, yaxın-uzaq dövlətlərin Cənubi Qafqaz bölgəsindəki bir-biri ilə üst-üstə düşməyən mürəkkəb maraqları, müxtəlif ictimai hərəkat, partiya, təşkilat liderlərinin, habelə, fərqli sosial təbəqələri təmsil edən insanların obyektiv, yaxud subyektiv səbəbdən bəzi hallarda yol verdikləri strateji, bəzən də taktiki xarakterli səhvlər və nöqsanlar yeni cəmiyyət quruculuğu prosesini xeyli çətinləşdirmişdi.

Müstəqillik illərində Azərbaycan Respublikasının keçdiyi son 14 illik iqtisadi-sosial inkişaf yolunu şərti olaraq 2 dövrə ayırmaq mümkündür. Ümumi keçid mərhələsi daxilində davam edən birinci pillə 1991- 1995-ci illəri əhatə edir. Bu illər cəmiyyət həyatının qeyri-sabitliyi müstəvisində təsərrüfatın müxtəlif sahələrinin ciddi tənəzzülü, ümumi daxili məhsulun həcminin getdikcə azalması meyli, müəssisə və obyektlərin istehsal fəaliyyətinin tədricən zəifləməsi, bir çox hallarda isə tamamilə dayanması, işsizliyin artması, inflyasiya proseslərinin güclənməsi əhalinin yaşayış səviyyəsi göstəricilərinin sürətlə aşağı düşməsi reallığı ilə səciyyələnmişdi.

1996-cı ildən başlayaraq indiyədək davam edən ikinci pillə ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması, təsərrüfat həyatının tədricən bərpası, istehsal və xidmət dairələrinin ilkin dirçəlişi və iqtisadiyyatın ümumi yüksəlişi kimi xarakterizə olunur. 90-cı illərin ikinci yarısından neft strategiyasının reallaşdırılması, xarici investisiyaların ölkəyə cəlb olunması, neft və onunla bağlı sahələrlə yanaşı, eyni zamanda qeyri-neft bölməsinin inkişafı problemlərinə diqqətin artırılması, qloballaşan dünyada inteqrasiya proseslərinin dərinləşməsi, xarici ticarət əlaqələrinin intensivləşməsi, ümumi daxili məhsulun illik orta artım templərinin əvvəllər 5-6 faizə, sonralar 8-9 faizə, hazırda isə 12- 15faizə çatdırılması müstəqillik yolunun danılmaz uğurlarıdır. 1 yanvar 2005-ci il üçün ölkəmizin əsas iqtisadi-sosial inkişaf' göstəriciləri cədvəl 1-də verilmişdir.

Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi bazar münasibətləri iqtisadi sisteminə keçid illərində qazandığı uğurlar, şübhəsiz, o demək deyildir ki, dəyişkən xüsusiyyətlərə malik canlı orqanizmi xatırladan çoxşaxəli təsərrüfat həyatının müxtəlif istiqamətlərində bütün işlər öz qaydasındadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "...əlbəttə, problemlər də mövcuddur. Biz bu problemləri bilirik. İşsizlik, yoxsulluq, digər problemlər var, amma biz bunları həll edirik. İstərdik ki, daha da sürətlə həll edək. İstərdik ki, yeniləşmə, müasirləşmə, yaxşılığa doğru meyillər daha da sürətlə

getsin. Amma, bilin ki, əlimizdən gələni edirik və bunu bir konsepsiya şəklində həyata keçiririk".

Cədvəl 1.

2004-cü ildə Azərbaycan Respublikasının iqtisadi-sosial göstəriciləri

| İqtisadi-sosial göstəricilər | 2004-cü il, faktiki milyard manat | 2004-cü il 2003-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul (ÜDM) | 41872,5 | 110,2 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi | 28835,0 | 105,7 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 7387,2 | 104,6 |
| Nəqliyyat bölməsində yük daşınması (min ton) | 117608,0 | 106,9 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 1598,5 | 135,8 |
| Pərakəndə əmtəə dövriyyəsi | 18649,7 | 113,0 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 3472,9 | 116,4 |
| Xarici ticarət dövriyyəsi (min ABŞ dolları) | 7118,6 | 136,4 |
| o cümlədən: | | |
| İxrac | 3614,3 | 139,5 |
| İdxal | 3504,3 | 133,4 |
| Dövlət büdcəsinin gəlirləri | 7405,8 | 120,8 |
| Dövlət büdcəsinin xərcləri | 7505,0 | 121,6 |
| Dövlət büdcəsinin kəsiri | -99,2 | - |
| Əhalinin nominal pul gəlirləri | 30047,4 | 120,7 |
| Hər nəfərə düşən pul gəlirləri (min manat) | 3670,4 | 119,6 |
| Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı (min manat) | 483.4 | 126,2 |
| Qeydə alınmış işsizlərin sayı (nəfər) | 55945 | 102,9 |
| İstehlak qiymətlərinin indeksi | X | 106,7 |

Qeyd: Cədvəl DSK-nın məlumatları əsasında tərtib

Bu mənada, Azərbaycanda keçid dövrünün artıq başa çatması ilə bağlı mövqeləri istər elmi-nəzəri, istərsə də əməli cəhətdən doğru hesab etmək olmaz. Fikrimizcə, ölkədə keçid dövrü hazırda davam etməkdədir və onun sona çatması haqqında yalnız iqtisadi-sosial inkişafın orta dünya parametrlərinə çatması, yaxud yaxınlaşması prosesindən sonra danışmaq mümkündür. Hələlik isə respublikanın bir sıra mühüm iqtisadi-sosial inkişaf göstəriciləri orta dünya standartları inkişaf etmiş ölkələrin müasir səviyyəsindən geridədir. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, qazanılmış müəyyən uğurlara baxmayaraq, ölkənin ümumi daxili məhsulunun həcmini 1988-1990- cı illərin səviyyəsinə çatdırmaq mümkün olmamışdır.

Birləşmiş Millətlər Təşkilatı və bir sıra beynəlxalq təşkilatların müqayisəli təhlil əsasında apardıqları məlumatlara görə, hazırda Azərbaycan Respublikası planet ərazisinin 0,06 faizini tutur, burada dünya əhalisinin 0,14 faizi yaşayır. Onun ümumdünya məhsul istehsalı və

xidmətlər göstərilməsində payı 0,03-0,04 faiz, dünya xarici ticarət dövriyyəsində xüsusi çəkisi 0,04-0,05 faiz, valyuta-qızıl ehtiyatlarında payı 0,001 faizdir.

Müasir mərhələdə dövlətçiliyin qorunub saxlanması cəmiyyətin sağlam qüvvələrinin vahidliyi, əsl vətənpərvərlik duyğuları təməlində milli ideologiyanın formalaşması prosesi, bazar münasibətləri istiqamətində qurulan iqtisadi sistemin ilk nailiyyətlərini möhkəmlətmək və onun iqtisadi-sosial inkişaf templərini sürətləndirmək üçün dünya təsərrüfat həyatının təcrübəsindən tənqidi surətdə, habelə yaradıcılıqla faydalanaraq, iqtisadiyyatın strukturunda müstəqil dövlətin daxili- xarici siyasət tələblərinə uyğun düşünülmüş zəruri təkmilləşdirmələr aparılmalı, inhisarçılıq-korrupsiya-rüşvətxorluq halları qətiyyətlə aradan qaldırılmalı, məmur özbaşınalığına son qoyulmalı, demokratik hüquqi idarəçilik qaydaları bütün sahələrdə, müxtəlif səviyyələrdə qanunların aliliyi prinsipi əsasında tədricən, lakin dönməz bir ardıcıllıqla həyata keçirilməlidir.

Müstəqil inkişaf yolu ilə irəliləyən respublikanın təsərrüfat həyatının uğurları ilk növbədə iqtisadiyyatdakı struktur dəyişikliklərindən asılıdır. Müəyyən vaxt və xeyli vəsait tələb edən struktur dəyişiklikləri ölkənin resurslar kompleksi, iqtisadiyyatın tarixən formalaşmış istiqamətləri, milli iqtisadiyyatın ixtisaslaşma səviyyəsi, sahədaxili və sahələrarası nisbətlərin tarazlığı, ölkənin peşəkar kadr potensialı, daxili bazarın tələbləri, ixrac imkanları, maddi-texniki bazanın texniki-texnoloji parametrləri, habelə digər amillərlə bağlıdır.

Nəyin bahasına olursa-olsun, keçmiş sənaye potensialını hökmən bərpa etmək çağırışları xoş niyyətlərlə irəli sürülsə də, bazar münasibətlərinin "nə istehsal etməli, necə istehsal etməli və kim üçün istehsal etməli" əsaslı prinsipləri baxımından, həmin fikirlər qəbul edilə bilməz. Çünki tələb-təklif reallığı, rəqabət mübarizəsi, iqtisadi sərbəstlik müstəvisində fəaliyyət göstərən bazar münasibətləri sistemi, sosialist təsərrüfatçılığına xas olmuş "istehsal naminə istehsal" fəlsəfi- doqmatik prinsipləri ilə işləyib-yaşaya bilməz.

Belə bir cəhət də unudulmamalıdır ki, ölkənin təbii resursları, müxtəlif təyinatlı yeraltı-yerüstü sərvətləri mühüm əhəmiyyət kəsb etsə də, bununla belə, dünya təsərrüfatının təsdiq etdiyi kimi milli iqtisadiyyatın düşünülmüş, kompleksli, ahəngdar yüksəliş üçün kifayət deyildir. Eyni zamanda, milli iqtisadiyyatın struktur dəyişiklikləri özünü məqsəd olmayıb, ölkənin təsərrüfat həyatının daha səmərəli göstəricilərə nail olmasını, cəmiyyətin məcmu tələb və təklifinə dolğun cavab verməsini, sosial yönümlü bazar münasibətləri sistemi ilə uzlaşmasını nəzərdə tutur. Bu yolda yersiz və düşünülməmiş rəqabətə girərək, hərtərəfli "ölçüb-biçmədən" hərəkət etmək mümkün deyildir. Elə təsərrüfat və xidmət (servis) sahələrini inkişaf etdirmək lazımdır ki, onlar ilk növbədə daxili (yerli) bazarın müxtəlif səpkili tələblərini keyfiyyətli məhsul-xidmətlərlə, nisbətən ucuz qiymətlərlə ödəyə bilsinlər, habelə imkan daxilində yaxın-uzaq ölkələrin bazarlarına çıxmaq imkanı qazansınlar.

Azərbaycan Respublikasında iqtisadiyyat və idarəetmənin strukturunun dəyişdirilərək, qlobal miqyasda baş verən inteqrasiya prosesləri axarında optimallıq meyarları əsasında daha da təkmilləşdirilməsi, aparıcı xətt kimi ölkədə istər hazırda aparılan, istərsə də gələcəkdə həyata keçiriləcək sənaye istehsalı, aqrar bölmə, tikinti, nəqliyyat və rabitə, xidmət böılməsini əhatə etməlidir. Ona görə ki, mütəxəssislərin əksəriyyətinin etiraf etdikləri kimi, müasir inkişaf mərhələsində milli iqtisadiyyatın səmərəli, son iqtisadi-sosial nəticələr baxımından optimal struktur dəyişiklikləri, ümumi inkişafın strateji xətti kimi ilkin və prioritet istiqamət rolunu

oynadığından, cəmiyyətin təsərrüfat həyatının digər iqtisadi prosesləri törəmə bir hadisə,yaxud düzgün müəyyənləşdirilmiş yolun uğurla başa çatdırılması vasitələridir.

Ölkədə dövlət mülkiyyətinin özəlləşdirilməsini, torpaq islahatlarının aparılmasını azad sahibkarlıq və işgüzar biznes fəaliyyətinə ilkin imkanlar yaratdığını qeyd etməklə yanaşı, bu mürəkkəb proses gedişində yol verilmiş obyektiv-subyektiv xarakterli nöqsanların qətiyyətlə aradan qaldırılması zəruridir ki, cəmiyyətin müxtəlif təbəqələri arasında həqiqətən tarixi əhəmiyyətə malik dövlət mülkiyyətinin transformasiyasına dair yanlış təsəvvürlərin formalaşaraq yersiz sosial gərginliklər yaratmasına yol verilməsin.

Belə meyillərin yaratdığı inhisarçılıq, rüşvətxorluq, korrupsiya hallarının müstəqil dövlətin iqtisadi-sosial siyasət sahəsindəki tədbirlər sisteminə, insanların inamına ciddi əngəllər törətdiyini nəzərə alaraq, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar Departamenti müstəqil bir quruma çevrilməli və bütün sivil ölkələrdə olduğu kimi, vətəndaşların hər il öz gəlirləri haqqında elan etdikləri deklarasiya əsasında müvafiq dərəcələrlə vergi ödəmələri sistemi həyata keçirilməlidir.

Müasir dünya ölkələrinin təsərrüfat həyatında dövlət və özəl bölmələrin istər mülkiyyət, istərsə də məhsul-xidmətlər baxımından payı 7-10 faizdən başlayaraq 65-70 faiz arasındadır. Müxtəlif ölkələrin timsalında iqtisadiyyatın dövlət və özəl bölmələri arasında formalaşan dəyişkən nisbətlər həmin ölkənin iqtisadi resursları, keçdiyi tarixi inkişaf yolu, istehsalın ixtisaslaşma səviyyəsi, beynəlxalq əmək bölgüsündəki rolu, demoqrafik vəziyyət kimi bir sıra amillərlə bilavasitə, yaxud dolayı yollarla bağlıdır. Lakin həm milli iqtisadiyyatların, həm də dünya təsərrüfatının inkişaf dinamikası sübut edir ki, özəl bölmə ilə dövlət bölməsinin nisbəti tədricən birincinin xeyrinə doğru dəyişməkdədir.

Fikrimizcə, hazırda və yaxın perspektivdə Ölkə mülkiyyətinin dəyər (qiymət) ifadəsində 25-30 faizinin, ümumi daxili məhsulun isə 20-25 faizinin dövlətin, yaxud onun şəriki (payçı) olduğu istehsal-xidmət dairəsinin əlində olması məqsədəuyğundur. Çünki yaşadığımız keçid dövrünün özünəməxsus xüsusiyyətləri, Qarabağ münaqişəsinin həll edilməməsi və Cənubi Qafqaz bölgəsində cərəyan edən ziddiyyətli proseslər, beynəlxalq inteqrasiya, habelə qloballaşma meyillərinin dəyişkənliyi dövlət mülkiyyətinə, onun cəmiyyət həyatındakı roluna, sosial-iqtisadi optimallıq nisbətləri baxımından yanaşmağı tələb edir.

Konkret tarixi şəraitə uyğun olaraq, iqtisadiyyatın dövlət və özəl bölmələri arasında düzgün, tarazlı nisbətlərin qurulması, sosial- iqtisadi səmərəlilik meyarlarının nəzərə alınması baxımından dövlətin yalnız təsərrüfat həyatının bilavasitə subyekti (iştirakçısı) kimi fəaliyyət göstərməsi deyil, onun hüquqi-inzibati-təşkilati cəhətlərdən iqtisadiyyatın qarantına (təminatçısına) çevrilməsi zəruridir.

Tanınmış iş adamı və xeyriyyəçi C.Soros "Böhran konsepsiyası" əsərində yazır ki, sərbəst sahibkarlıq və xüsusi mülkiyyətə müasir cəmiyyətdə həlledici rol ayırmaq, mərkəzləşdirilmiş inzibati-amirlik metodları ilə iqtisadiyyatı idarə sisteminin tərs üzü olub, "bazar fundamentalizmi" (market fundamentalist) kimi qiymətləndirilməlidir. Onun inamına görə, bazara hədsiz aludəçilik və "bazar özü hər şeyi həll edir" ifadəsinə vurğunluq hazırda dünya iqtisadiyyatında baş verən qlobal inteqrasiya prosesləri, habelə vahid dünya təsərrüfat sisteminin formalaşması şəraitində demokratik "açıq cəmiyyət üçün" "totalitar ideologiyadan" daha təhlükəlidir.

Burada söhbət xüsusi mülkiyyətə əsaslanan özəl bölmə ilə (sahibkarlıqla) dövlət bölməsi arasında ziddiyyətli qarşıdurma meyilləri axtarmaqdan deyil, həmin müxtəlif mülkiyyət formalarının konkret səmərəli variantlarına (konfiqurasiyalarına) əsaslanan təsərrüfatçılıq formaları arasında ümumi milli mənafeyi, məcmu tələblə məcmu təklifin dəyişkən dialektikasını yaradıcılıqla nəzərə alan qarşılıqlı əlaqə, habelə işgüzar əməkdaşlıq ahəngdarlığından gedir. Müasir dünya təsərrüfat həyatında qarışıq iqtisadiyyat modelinin geniş yayıldığı bir şəraitdə dövlət və özəl bölmələr arasında bazar münasibətlərinə xas olan sağlam rəqabətlə yanaşı, cəmiyyət üçün fəaliyyəti strateji-taktiki cəhətlərdən zəruri sayılan bir sıra sahələrin dövlət mülkiyyətində qalması, yaxud onlara müəyyən üsullarla dövlət qayğısı göstərilməsi, himayədarlıq edilməsi, nəhayət, tənzimlənmə tədbirlərinin həyata keçirilməsi öz əhəmiyyətini itirməmişdir. Hətta yüksək inkişaf etmiş ölkələrin təcrübəsində, vaxtilə özəlləşdirilmiş obyektlərin, təsərrüfat komplekslərinin kifayət qədər səmərəli fəaliyyət göstərə bilməməsi səbəbindən, onların yenidən dövlət mülkiyyətinə qaytarılması (reprivatizasiya) təcrübəsinin reallığını nəzərə alsaq, müstəqil bir dövlət kimi belə əks-hallara da hazır olmalıyıq.

Özəl və dövlət bölmələrinin qarşılıqlı optimal hüdud nisbətləri əsasında iqtisadiyyatın birtərəfli (monokulturizm) xarakterli mənfi meyillərinin qarşısını almaq, qeyri-neft bölməsinin daha sürətlə irəliləməsinə nail olmaq, Azərbaycan regionlarının sosial-iqtisadi yüksəlişinə yeni təkan vermək, xarici investisiyaları dövlət zəmanəti ilə, yaxud konkret vaxt və güzəştli şərtlər çərçivəsində sərbəst iqtisadi zonalar təşkil etmək yolu ilə maraqlandırıb, dünya təcrübəsində özünü doğrultmuş bu işə hökmən diqqət yetirmək lazımdır.

Tarixən bütün cəmiyyətlərdə fəaliyyət göstərmiş istehsal üsullarının, müxtəlif təsərrüfatçılıq formalarının, iqtisadi modellərin son məqsədi-ictimai və fərdi tələbləri daha dolğun səviyyədə ödəmək olduğundan, bu problem keçid mərhələsindəki ölkələr, o cümlədən də Azərbaycan Respublikası üçün xüsusi bir əhəmiyyət qazanır.

Planlı sosialist iqtisadiyyatının hamı üçün “ümumi bərabərlik ideyalarından fərqli-şəxsi maraq və fəal təşəbbüskarlıq prinsipləri üzərində qurulub fəaliyyət göstərən bazar münasibətləri sistemi, mücərrəd ədalət meyarları ilə deyil, real tələb-təklif, rəqabət, qiymət, mənfəət, səmərəlilik, şəxsi maraq üzərində qurulduğundan, burada qarşıya çıxan müxtəlif səpkili problemlərin həllinə başqa çür yanaşmaq tələb olunur.

Lakin sərbəst bazar iqtisadi münasibətlərinə olan şəxsi mülkiyyət, fərdi maraq, insanların fəal təşəbbüskarlığı, şübhəsiz, dövlətin əhalinin normal yaşayıb-işləməsini təmin etmək üçün düşünülmüş, sosial-gərginliklərə yol verməyən, elmi tövsiyələrə uyğun orta yaşayış səviyyəsini formalaşdırmaq məsuliyyətindən azad etmir.

Müstəqillik illərində ölkə əhalisinin həyat səviyyəsini yaxşı-laşdırmaq və sosial müdafiəsini gücləndirmək yolunda görülən tədbirlərə baxmayaraq, orta dünya göstəriciləri ilə müqayisədə, respublikada yaşayış minimumunun, minimum əmək haqqının, orta aylıq əmək haqqının, pensiya təminatının, hər nəfərə düşən müxtəlif təyinatlı məhsulların, habelə göstərilən xidmətlərin həcmi orta dünya parametrlərindən xeyli, yüksək inkişaf etmiş ölkələrin göstəricilərindən isə dəfələrlə aşağıdır.

Rəsmi məlumatlara əsasən, ölkə əhalisinin 40 faizinin, bir sıra beynəlxalq təşkilatların və müstəqil ekspertlərin müqayisəli hesablamalarına görə isə daha çox hissəsinin XXI əsrin başlanğıcında yoxsulluq həddində yaşaması, şübhəsiz ki, rastlaşdığımız bütün problemlərə, çətinliklərə baxmayaraq, kifayət qədər iqtisadi imkanlara malik müstəqil bir dövlətə başucalığı

gətirə bilməz. Ölkədə yoxsulluğun mövcudluğu təkcə iqtisadi-sosial bir hadisə olmayıb, eyni zamanda, bazar münasibətlərinin formalaşdığı, hüquqi-demokratik vətəndaş cəmiyyətinin qurulduğu ölkədə siyasi-ictimai və mənəvi- əxlaqi problemlərin də olduğunu sübut edir.

Ölkədə əhalinin yoxsulluğu probleminin xarici yardım və kömək kanallarına arxalanaraq həll edilməsi meyillərinə aludəçilik də məqsədəuyğun sayıla bilməz. "Yoxsulluq əbədi hadisə olub, xaricdən dəstəklər göstərilməklə həll olunmalıdır"- kimi geniş yayılmış mövqelərə münasibət bildirən tanınmış ingilis iqtisadçısı P.Bayer yazır ki, hər hansı bir ölkənin iqtisadi siyasət xətti sahəsindəki nöqsanları və xarici yardımlara bel bağlamaq ümidləri əhalinin yoxsulluğunu azaltmaq əvəzinə, əksinə, bu prosesi müəyyən mənada gələcək sosial-iqtisadi nəticələri baxımından daha da kəskinləşdirir. Çünki "əhalinin gəlirləri ölkənin iqtisadi inkişafının zəmini (şərti, səbəbi) yox, bu yüksəlişin bilavasitə nəticəsildir.

Bu mənada, beynəlxalq proqram, tövsiyə və yardımların əhəmiyyətini qiymətləndirməklə yanaşı, ölkənin öz resurslarına arxalanaraq, onlardan daha dolğun, səmərəli istifadə edib faydalanmaq, əhalinin sərbəst təşəbbüskar fəaliyyəti istiqamətində dövlətin daha geniş imkanlar yaratmaq prinsiplərinə hökmən üstünlük verilməsidir. Atalar demişkən, "quyunun suyu özündən qaynamalıdır', yaxud "özgəyə ümid olan şamsız qalar". Hər bir dövlətin iqtisadi siyasətinin əsl mahiyyəti, ilk növbədə, iqtisadi inkişafın daxili mənbələri üçün ən əlverişli hüquqi, inzibati, təşkilati tədbirlər sistemi işləyib hazırlamaq, bunları ardıcıl mərhələlərlə reallaşdırmaq bacarığı ilə ölçülür. Deməli, dünya təsərrüfat həyatı təcrübəsinin təsdiq etdiyi kimi, dövlət əhaliyə müxtəlif nemətləri paylamaqla deyil, bu nemətlərin insanların gündəlik sərbəst və təşəbbüskar fəaliyyəti ilə istehsal olunması istiqamətində öz uzunmüddətli iqtisadi siyasətini həyata keçirməlidir.

Bu ideyanı strateji məqsəd və taktiki vəzifələr daxilində reallaşdırmaq üçün cari, habelə ortamüddətli inkişaf proqramları ilə yanaşı, proqnoz xarakterli uzunmüddətli iqtisadi-sosial inkişaf perspektivlərini kompleks əhatə edən ümumi konsepsiyanın hazırlanması məqsədəuyğundur. Dünya təcrübəsində, elmi-texniki tərəqqinin uğurlarına və milli iqtisadiyyatın daxili resurs potensialına əsaslanan belə ümumi proqnoz tipli konsepsiyalar vaxtilə ABŞ, Fransa, Almaniya, Yaponiya, Çin və digər ölkələrdə tərtib olunub reallaşdırılaraq, öz müsbət nəticələrini vermişdir.

Hələ 2001-ci ildə Azərbaycana rəhbərlik edən mərhum Prezident H.Ə.Əliyev ABŞ Ticarət Palatası İdarə Heyəti üzvləri ilə görüşündə, ölkənin qarşılaşdığı müxtəlif istiqamətli iqtisadi-sosial məsələləri kompleks şəkildə, daha sürətli temprlərlə həll etmək üçün "milli inkişaf strategiyasının işlənib hazırlanması zəruriliyini" irəli sürmüşdü.

Unutmamalıyıq ki, "dönməz və əbədi bir proses" (H.Ə.Əliyev) kimi davam edən müstəqil dövlət quruculuğunun "ən böyük zəfəri- iqtisadi zəfərdir" (M.K. Atatürk), çünki bəşəriyyətin çoxəsrlik tarixi yüksəliş yolu təsdiq etmişdir ki, "fikri milli, siyasi istiqlalın kökü -iqtisadi istiqlaldır" (M.Ə.Rəsulzadə).

ƏDƏBİYYAT:

1. Azərbaycan iqtisadiyyatının cari və potensial müqayisəli üstünlüklərinin tədqiqi. Bakı, 2004.
2. Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat. Bakı, 2002.
3. Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı". Bakı, 2004

4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Bakı, 2004.
5. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2003.
6. "Azərbaycan" qəzeti, 4 iyul 2001-ci il, 28 may 2005-ci il.
7. "Dirçəliş-XXI əsr" jurnalı, N°84-85, 2005.
8. "Respublika" qəzeti. 10 fevral 2005-ci il;
9. Журнал «ЭКОНОМИКА XXI deка», №6, 1999, стр. 28.
10. Журнал «Вопросы ЭКОНОМИКИ». № 5, 2005, стр. 149.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №6, Bakı 2005*

# AZƏRBAYCAN RESPUBLİKASINDA XARİCİ DÖVLƏT BORCUNUN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***i.e.n. Ağayev A.***

*2003-2006 -ci illərdə İİETİ-də aparıcı mütəxəssis, kiçik elmi işçi, elmi işçi vəzifəsində işləyibdir*

***"Dövlət borcu" anlayışı***

Digər subyektlər kimi, dövlət də bu və ya digər məqsədlər üçün müxtəlif istiqamətlərdən borc vəsaiti cəlb edir və son nəticədə həmin vəsaitlərin qaytarılmasının təminatı məqsədilə borcların idarə edilməsini həyata keçirir. Dövləti borclanmaya gətirən amillər çoxşaxə-li olduğundan, dövlət borcu anlayışı da müxtəlif ədəbiyyatlarda fərqli şəkildə izah olunur. Bir qrup mütəxəssis tərəfindən dövlət borcunu dövlət kreditinin yalnız bir forması kimi, yəni dövlətin borcalan kimi çıxış etdiyi kredit münasibətləri baxımından yanaşılır. Digər qrup isə dövlət borcu dedikdə, hökumətin dövlət büdcəsinin müxtəlif ehtiyaclarını ödəmək üçün borclanmasını nəzərdə tutur. Onların fikrincə yalnız fiskal ehtiyaclardan yaranan borcları dövlət borcu adlandırmaq olar. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə görə, "Azərbaycan Respublikasının dövlət borcu daxili və xarici dövlət borcundan ibarət olmaqla, respublikanın təxirəsalınmaz sosial-iqtisadi xərclərinin maliyyələşdirilməsi və büdcə kəsirinin yerinin doldurulması üçün Azərbaycan Respublikası hökumətinin hüquqi və fiziki şəxslərə, habelə xarici dövlətlərə müvafiq faiz ödənilməklə qaytarılmalı olan, milli və ya xarici valyuta ilə ifadə edilmiş borc öhdəlikləridir" [1].

Lakin müasir şəraitdə dövlət borcu münasibətlərinin əhatə dairəsi və inkişaf meyilləri göstərir ki, qeyd olunan təriflərin heç biri,o cümlədən qanunda verilən tərif sözügedən münasibətləri tam şəkildə ifadə etmir. Belə ki, burada məqsədli şəkildə cəlb edilməyən, sonradan öhdəliyə çevrilən dövlət borcları öz əksini tapmır.

Dövlət borcu anlayışını daha dolğun şəkildə müəyyənləşdirmək üçün qabaqcadan bu münasibətlərin rasional sərhədlərini təyin etmək tələb olunur. Beləliklə:

$$ND = C_d + CGG + P_d + A_d + O_d \qquad (1)$$

Burada: ND - dövlətin borc öhdəlikləri (ümumilikdə); $C_d$ - dövlətin birbaşa borc alan kimi çıxış etdiyi kreditlər; CGG - dövlət zəmanəti ilə alınan kreditlər; $P_d$ - başqa subyektlərdən dövlət tərəfindən alınmış əmtəə və xidmətlər üzrə borc məbləği; $A_d$ - sonradan dövlət borcuna çevrilən öhdəliklər (məqsədsiz borclar); $O_d$ - hökumətin üzərinə düşən digər borc öhdəlikləri [2, 69].

Dövlət borcu münasibətlərinin yuxarıdakı formuldan kənara çıxmadığını nəzərə alaraq, dövlət borcunun aşağıdakı tərifi daha müfəssəldir: Dövlət borcu dövlətin kredit və borc zəmanətli öhdəliklərindən irəli gələn bütün borc məbləği, onların faizləri və dövlətin iqtisadi subyektlər qarşısında icra olunmamış digər maliyyə öhdəliklərinin məcmusunu ifadə edir.

***Dövlət borcu zəruridirmi?***

"Borc böyük millətləri məhşər ayağına çəkir və son nəticədə onları viran qoyur" [3, 651]. Bu fikir klassik iqtisadi nəzəriyyənin banilərindən olan A.Smitə məxsusdur. Bununla müəllif hələ yaşadığı dövr üçün o qədər də aktuallıq daşımayan, lakin müasir dövrdə hər bir dövlətin maliyyə siyasətinin ayrılmaz hissəsi olan dövlət borcu haqqında klassik baxışın əsasını qoymuşdur.

Klassik məktəb dövlət borcuna daha çox siyasi aspektdən yanaşmaqla, hökumətin kreditor subyektlər qarşısında güzəştlərə getməsinə məcbur olmasını ön plana çəkir. Bu məktəbin baxışları da özlüyündə iki cür fərqlənir: pessimist və optimist baxışlar. Naturalist kredit nəzəriyyəsinə əsaslanan birincilərə görə, dövlət borcu dövlətin kreditor qarşısında asılılığına gətirib çıxarır, dövlətin təsərrüfatını zəiflədir, hətta onun dağılmasına səbəb olur. Bununla da pessimist məktəbin nümayəndələrinin məqsədi dövlət idarəçiliyinə və məmurlarına dövlət borcunun mənfi tərəflərini göstərmək, onları bu və ya digər iqtisadi siyasətin həyata keçirilməsində borc vəsaitlərindən istifadə etməməyə, əvəzində isə yeni, alternativ mənbələr axtarmağa istiqamətləndirməkdən ibarət olmuşdur. Beləliklə, "naturalist nəzəriyyəçilər borc kapitalına ümumilikdə kapitalın bir hissəsi kimi baxmamış və bu səbəbdən də onun ölkənin istehsal patensialındakı rolundan və digər səmərəli xüsusiyyətlərindən xəbərsiz olmuşlar" [4, 29].

Məhz naturalist nəzəriyyəçilərdən biri kimi A.Smit dövlət borcuna daha çox dövlətin həyata keçirdiyi iqtisadi fəaliyyətin neqativ nəticəsi kimi yanaşmış və dövlət borcunu dövlətin məqsədli siyasətinin tərkib hissəsi deyil, müxtəlif maliyyə böhranının iqtisadi nəticəsi kimi xarakterizə etmişdir. A.Smit İspaniya dövlətinin timsalında dövlət borcunun təbiətini, onun ağır böhranlar üçün başlanğıc olduğunu və bu istiqamətdə digər pessimist baxışlarını irəli sürməklə özünün və davamçılarının münasibətlərini formalaşdırır [4, 648-677]. Müəllifə görə, borc kapitalı (burada həm daxili, həm də xarici dövlət borcları nəzərdə tutulur) yuxarıda qeyd olunan mənfi xüsusiyyətləri ilə yanaşı, ölkə iqtisadiyyatına və ya hökumətin sərəncamına daxil olmaqla, hətta iqtisadi artıma xidmət edən qeyri-borc kapitalının da səmərəliliyini aşağı salır və iqtisadi tənəzzülün əsasım qoyur [4, 27.

Müəllifin yanaşmasına görə, kreditor tərəfi təqdim etdiyi borc vəsaitinin iqtisadi hərəkəti, yəni borclu subyektin həmin kapitaldan hansı səmərəliliklə istifadə etməsi deyil, yalnız faiz ödəmələri maraqlandırır.

Klassik məktəbin optimist nümayəndələri isə müasirlərindən fərqli olaraq, dövlət borcuna kapitalın bir forması kimi yanaşmış, onun ölkə iqtisadiyyatına daxil olmaqla iqtisadi artıma, istehsalın genişləndirilməsinə, eləcə də iqtisadi potensialın reallaşmasına təkan verməsi kimi üstün xüsusiyyətlərini önə çəkmişlər. Onlar dövlət borcunu dövlət maliyyəsinin əsas silahlarından biri kimi qiymətləndirməklə, ondan istifadəni dövlətin iqtisadi vəzifələrindən biri kimi dəyərləndirirlər.

K.Marks yazırdı ki. "Millət nə qədər varlıdırsa (zəngindirsə) onun borcu da bir o qədər çoxdur". Müəllifə görə: "...dövlət krediti dövlətə olan inamın bir simvoludur". "Kapital" əsərində qeyd olunur ki, dövlət səviyyəsində ilkin kapital yığımının əsas həlqələrindən biri həm ölkədaxili subyektlərdən, həm də xarici dövlətlərdən cəlb edilən vəsaitlərdir. Marksa görə, dövlət borcu ölkədə qiymətli kağızlar bazarının formalaşması, bank sisteminin təkmilləşməsi işində aparıcı mövqeyə malikdir [5, 764].

Dövlət borcunun iqtisadi təbiətinə birmənalı yanaşmanı nümayiş etdirən iqtisadi

məktəblərdən fərqli olaraq, üçüncü istiqamət sözügedən problemə həm bu, həm də digər prizmadan yanaşmışdır. Dövlət krediti ilə bağlı ilk müstəqil və sistematik tədqiqatın müəllifi, XIX əsr fransız iqtisadçı alimi Nebenius əsərində belə yazır: "...heç kəs təsdiq edə bilməz ki, dövlət borcları millət üçün sərvət, nemət mənbəyidir və buna görə dövlət yeni borc müqavilələri bağlamalı, vəsaitlərin cəlb olunmasını təmin etməli..., …lakin istənilən borc vəsaitini tam mənfi, yaxud tam müsbət qiymətləndirmək olmaz" [4, 28].

Müasir iqtisadi nəzəriyyələr də dövlət borcunun iqtisadi səmərəliliyinə ikili yanaşma nümayiş etdirir. Belə ki, cəlb olunan borc vəsaitlərinin yönəldilməsi istiqamətlərindən, formalarından, xarici borclar üzrə valyuta və digər risklərin idarə olunması səviyyəsindən, bu vəsaitlərin yaratdığı fiskal yükün həcmindən asılı olaraq, dövlət borcu ölkədə iqtisadi artımın əsas şərtlərindən biri ola, yaxud ölkənin dərin maliyyə böhranının bilavasitə səbəbinə çevrilə bilər.

İqtisadi təhlükəsizliyə təsiri baxımından daxili və xarici dövlət borcları fərqlənir. Belə ki, xarici borclar aşağıdakı neqativ meyillərə malikdir: a) borc vəsaitləri xarici valyuta ilə cəlb olunduğuna görə, məzənnə riski mövcud olur; b) əksər hallarda dövlətin xarici kreditorlar qarşısında iqtisadi-siyasi öhdəliklər götürməsini tələb edir; c) borca görə faiz ödənişləri xarici subyektlərə təqdim olunur ki, bu zaman həmin vəsaitlər ölkənin iqtisadi dövriyyəsindən kənarlaşır.

Azərbaycan Respublikasında daxili dövlət borcları xüsusi çəkisinə görə azlıq təşkil edir. Lakin daxili borc bazarının davamlı təkmilləşməsi, yeni dövlət borcu alətlərinin tədavülə buraxılması kimi faktorlar bu istiqamətdə inkişafı əks etdirir. Hazırda daxili dövlət borcunun ən böyük parametri olan Dövlət Qısamüddətli İstiqrazlarının (DQİ) gəlirlilik səviyyəsinin 1997-ci ildə 14-16% olduğu halda, 2004-cü ildə 4-5%-ə qədər aşağı düşməsi, həmçinin, bəzi buraxılışlar üzrə tədavül müddətinin 3 aydan 6 aya qədər uzadılması dövlətin bu maliyyə bazarında mövqeyinin güclənməsini əks etdirir.

Hazırda xarici borclar ümumi dövlət borclarının böyük əksəriyyətini təşkil etməklə yanaşı, dövlətin həm fiskal, həm də investisiya siyasətinin prioritetlərindən biridir.

Bu baxımdan, xarici dövlət borclarının makroiqtisadi inkişaf göstəricilərinə təsirini "Eviews" ekonometrik paketində reqressiya modelləri üzrə hesablamalar vasitəsilə müəyyən edək.

Beləliklə, aşağıdakı modeli daxil edirik:

$$Y=C(1)+C(2)*ED \quad (2)$$

Alınan nəticəyə görə,

$$Y=5148{,}9+17{,}53*ED \quad (3)$$

| Dependent Variable: Y | | | | |
|---|---|---|---|---|
| Method: Least Squares | | | | |
| Sample: 1995 2003 | | | | |
| Included observations: 9 | | | | |
| | Coefficierıt | Std. Error | t-Statistic | Prob. |
| C(l) | 5148.918 | 1436.219 | 3.585051 | 0.0089 |
| C(2) | 17.53420 | 1.417944 | 12.36594 | 0.0000 |
| R-squared | 0.956227 | Mean dependent var | | 21270.64 |
| Adjusted R-squared | 0.949974 | S.D. dependent var | | 8081.621 |
| S.E. of regression | 1807.578 | Akaike info criterion | | 18.03049 |
| Sum squared resid | 22871360 | Schwarz criterion | | 18.07432 |
| Log Jikelihood | -79.13722 | Durbin-Watson stat | | 0.948674 |




Şəkil 1.

Alınan nəticədən göründüyü kimi, ölkədə xarici dövlət borclarının səviyyəsi Ümumi Daxili Məhsulun (ÜDM) həcmi ilə düz mütənasibdir. Bunun başlıca səbəbləri ölkədə xarici dövlət borclarının əsas hissəsinin investisiya istiqamətli olmasıdır. Məlum olduğu kimi, investisiyalar bilavasitə ÜDM-in struktur tərkib hissəsini təşkil edir. Bu isə onu göstərir ki, bilavasitə investisiya xarakterli xarici kreditlərin ölkəyə cəlb edilməsi və səmərəli şəkildə istifadəsi iqtisadi artıma impuls verir.

Xarici dövlət borcunun iqtisadi təhlükəsizliyə neqativ təsiri ilk növbədə bir neçə makroiqtisadi göstəricidə öz əksini tapır ki, bunlardan biri də dövlət büdcəsi kəsirinin səviyyəsidir. Məlum olduğu kimi, həm beynəlxalq maliyyə institutlarının tövsiyələrinə görə, həm də hökumətin iqtisadi inkişaf strategiyasında dövlət büdcəsi kəsirinin minimum səviyyədə saxlanılması nəzərdə tutulur və bu da öz növbəsində digər makroiqtisadi inkişaf meyilləri üçün zəruri hesab olunur.

Azərbaycan Respublikasında xarici dövlət borcunun dövlət büdcəsi kəsirinin səviyyəsinə təsirini qiymətləndirmək üçün aşağıdakı modeli daxil edirik:

$$BD=C(1)+C(2)*ED \quad (4)$$

Alınan nəticəyə görə,

$$BD=603.76-0.336*ED \quad (5)$$

| Dependent Variable: BD | | | | |
|---|---|---|---|---|
| Method: Least Squares | | | | |
| Date: 03/30/05 15:30 | | | | |
| Sample: 1995 2003 | | | | |
| lııcluded observations: 9 | | | | |
| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C(1) | 603.7679 | 67.73139 | 8.914151 | 0.0000 |
| C(2) | -0.336980 | 0.066870 | -5.039366 | 0.0015 |
| R-squared | 0.783919 | Mean dependent var | | 293.9333 |
| Adjusted R-sqııared | 0.753050 | S.D. dependent var | | 171.5386 |
| S.E. of regression | 85.24449 | Akaike info criterion | | 11.92205 |
| Sum squared resid | 50866.37 | Schwarz criterion | | 11.96588 |
| l.og likelihood | -51.64924 | Durbin-Watson stat | | 2.052603 |




Şəkil 2.

Tənlik göstərir ki, ölkədə xarici dövlət borcunun səviyyəsi dövlət büdcəsi kəsirinin həcmi ilə tərs mütənasibliyə malikdir. Qeyd olunan iki parametr arasında xətti asılılıq olduğuna görə, xarici dövlət borcunun 1 vahid artımı büdcə kəsirinin 0.33 vahid azalması ilə nəticələnəcəkdir.

İkinci modeldən aldığımız nəticə birinci ilə məntiqi uyğunluq təşkil edir. İlk baxışdan bu əlaqənin tərsinə olması qənaətinə gəlinir, lakin faktiki öhdəliklər üzrə xarici dövlət borcunun struktur təhlili bunun izahını verir. Belə ki, baxılan dövrdə (1995-2003-cü illər) xarici dövlət borcunun strukturunda bilavasitə hökumətin məqsədləri üçün cəlb olunan və

hökumətə təqdim olunmaqla icraçıya ötürülən xarici kreditlərin payının tədricən azalması, əvəzində isə dövlət zəmanəti ilə alınan kreditlərin payının artması meyli hakimdir. Məlum olduğu kimi, əvvəlkilərdən fərqli olaraq, dövlət zəmanəti ilə alınan kreditlərin qaytarılması yükü dövlət büdcəsinin üzərinə düşmür və bunun artımı dövlət büdcəsi kəsirinin artımı ilə tərs mütənasiblik təşkil edir.

İki modelin nəticəsinə görə, dövlət zəmanəti ilə alman xarici kreditlərin artımı məqsədəuyğun hesab olunur. Bunu isə sonrakı reqressiya modeli də təsdiq edir.

Beləliklə, aşağıdakı modeli daxil edirik:

$$Y=C(1)+C(2)*CGG \quad (6)$$

Alınan nəticəyə görə,

$$Y=14608.86+33.62*CGG \quad (7)$$

| Dependent Variable: Y | | | | |
|---|---|---|---|---|
| Method: Least Squares | | | | |
| Sample: 1995 2003 | | | | |
| Included observations: 9 | | | | |
| | Coefficient | Std. Eıror | t-Statistic | Prob. |
| C(l) | 14608.86 | 1470.741 | 9.932996 | 0.0000 |
| C(2) | 33.62648 | 5.089868 | 6.606553 | 0.0003 |
| R-squared | 0.861787 | Mean dependent var | | 21270.64 |
| Adjusted R-squared | 0.842043 | S.D. dependent var | | 8081.621 |
| S.E. of regression | 3211.948 | Akaike info criterion | | 19.18027 |
| Sum squared resid | 72216281 | Schwarz criterion | | 19.22410 |
| Log likclihood | -84.31123 | Durbin-Watson stat | | 1.727576 |




Şəkil 3

Alınan tənlikdən, göründüyü kimi, dövlət zəmanətli xarici kreditlərin həcmi ÜDM-in səviyyəsi ilə düz mütənasiblik yaradır. C(2) əmsalı üzrə t-Statistic kriteriyasının 6.6 olması tənlikdə ÜDM-in dövlət zəmanətli kreditlərdən asılılıq səviyyəsinin tam etibarlılığını göstərir.

Aparılan təhlillər göstərir ki, ölkədə dövlət zəmanətli kreditlərin artırılması, bıınun hesabına xarici dövlət borcunun səviyyəsinin yüksəldilməsi heç də iqtisadi tarazlığın pozulması ilə deyil, iqtisadi artımın sürətləndirilməsilə nəticələnəcəkdir. Qeyd etmək lazımdır ki. hazırda Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupu başda olmaqla, beynəlxalq maliyyə institutları üzv ölkələrdə faktiki öhdəliklər üzrə xarici dövlət borcunun ÜDM-ə faiz nisbətinin 40%-i aşmasını təhlükəli hədd kimi qiymətləndirir və bu halda ölkəyə növbəti kredit

xətlərinin açılmasını dayandırır. Azərbaycanda isə 2004-cü ilin yekunlarına görə, bu göstərici 20% təşkil edir ki, [ÜDM (bazar qiymətləri ilə) 41872,5 mlrd. AZM, xarici dövlət borcu (faktiki öhdəliklər üzrə) 1600 mln. USD (7880 mlrd. AZM)] bu da dövlət zəmanəti ilə alınan investisiya istiqamətli xarici kreditlərin artırılması imkanlarını əks etdirir.

**Qısa lüğət:**

Dependent Variable - asılı dəyişən
Method: Least Squares - minimum kvadratlar üsulu
Included observations - əhatə olunmuş (aparılmış) müşahidələr
Sample - sınaq
Coefficient - əmsal
Std. Error - standart səhv
t-Statistic -t statistik (əmsalın standart səhvə nisbəti)
Prob. - ehtimal (həqiqətə uyğunsuzluq ehtimalı)
R-squared - determinasiya əmsalı
Adjusted R-squared - dəqiqləşdirilmiş determinasiya əmsalı
S.E. of regression - reqressiya tərtibinə görə toplanmış orta kvadratik kənarlaşma kəmiyyəti
Sum squared resid - faktiki qiymətlərlə alınan qiymətlərin fərqinin kvadratları cəmi
Log likelihood - mümkünlük əmsalı
Mean dependent var - riyazi gözləmələrin orta qiyməti
S.D. dependent var - orta qiymətlərin fərqlərinin kvadratlarının cəmi
Akaike info criterion - Akaik kriteriyası
Schwarz criterion - Şvars kriteriyası
Durbin-Watson stat. - Darbin-Uotson kriteriyası
Residual - fərq
Actual - faktiki
Fitted modeldən alınan

İstifadə olunan statistik baza:

| Göstəricinin adı | Ümumi daxili məhsul (bazar qiymətləri ilə) [6] | Xarici dövlət borcu (faktiki öhdəliklər üzrə) [7] | Dövlət zəmanəti ilə alınan kreditlər (faktiki öhdəliklər üzrə) [7] | Dövlət büdcəsinin kəsiri (icra üzrə)[7] |
|---|---|---|---|---|
| Formul | Y | ED | CGG | BD |
| Məbləğ | milyard AZM | milyon USD | milyon USD | milyard AZM |
| 1995 | 10669.0 | 294.0 | 0.0 | 557.1 |
| 1996 | 13663.0 | 445.0 | 9.0 | 396.4 |
| 1997 | 15791.4 | 548.0 | 31.0 | 378.3 |
| 1998 | 17203.1 | 661.0 | 71.0 | 318.4 |
| 1999 | 18875.4 | 964.0 | 124.0 | 459.5 |
| 2000 | 23590.5 | 1162.0 | 287.0 | 246.5 |
| 2001 | 26578.0 | 1270.0 | 292.0 | 113.5 |
| 2002 | 30012.0 | 1356.0 | 269.0 | 107.5 |
| 2003 | 35053.4 | 1575.0 | 700.0 | 68.2 |

ƏDƏBİYYAT:

1. "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanunu. 1992-ci il.
2. Ağayev A.Q. Dövlət borcu və onun idarə edilməsi. Monoqrafiya. "Şərq-Qərb", Bakı. 2002, 320 s.
3. Адам СМИТ. Исследование о природе и причинах богатства народов. МОСКВА, 1962, 832 с.
4. Хейфец Б.А. Решение долговых проблем: мировой ОПЫТ и российская действителъность. Москва, Академкнига, 2002, 367 с.
5. Маркс К. Капитал. ТОМ 1, Москва, 1973, 809 с.
6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri. 2004
7. Makroiqtisadi Siyasət Qrupunun icmalı. 2003

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №6, Bakı 2005*

# İSTEHSALIN ƏRAZİ ÜZRƏ YERLƏŞDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**i.e.n. Eynullayev N.**

*2004-2012 -ci illərdə İİETİ-də kişik elmi işçi, baş mütəxəssis, şöbə müdiri vəzifəsində işləyibdir*

Bazar münasibətlərinin formalaşdığı indiki şəraitdə istehsalın yerləşdirilməsi zamanı bütün təsərrüfat sisteminin strukturunun yenidən qurulması, Azərbaycan Respublikasının ayrı-ayrı regionlarının inkişaf səviyyələrinin tarazlaşdırılması daha çox aktuallıq kəsb edir. Təsərrüfatın ərazi strukturunun təkmilləşdirilməsi, hər bir regionun sosial və iqtisadi inkişafının səmərəli surətdə uyğunluğunun təmin edilməsi onların ölkə təsərrüfatında qarşılıqlı təsirinin yaxşılaşdırılmasına, kompleks inkişafına, ərazi-istehsal komplekslərinin formalaşmasına, təbii və iqtisadi resursların səmərəli surətdə mənimsənilməsinə istiqamətlənməlidir.

Bu baxımdan, bazar münasibətləri şəraitində istehsalın yerləşdirilməsinin vacib qanunauyğunluqları aşağıdakılardır:

- istehsalın səmərəli yerləşdirilməsi;
- iqtisadi rayonların təsərrüfatının kompleks inkişafı;
- regionlar arasında və onların ərazisi çərçivəsində əməyin səmərəli ərazi bölgüsü;
- regionların iqtisadi və sosial inkişaf səviyyələrinin tarazlaş-dırılması.

İstehsalın səmərəli yerləşdirilməsi, məhsul istehsalına çəkilən xərclərə mümkün qədər qənaət edilməsini, konkret ərazidə məhsulun hazır olmasınadək istehsalın bütün mərhələlərinin yerləşdirilməsini nəzərdə tutur.

Azərbaycan Respublikasının ayrı-ayrı regionlarındakı təbii resurslar ehtiyatların həcminə görə fərqlənir. İstehsalın xammal, yanacaq, enerji və istehlak mənbələrinə yaxın yerləşdirilməsi böyük əhəmiyyətə malikdir. Xüsusən də material tutumlu istehsalın xammal mənbələrinə, yanacaq-enerji istehsalının isə enerji mənbələrinə yaxın yerləşdirilməsi vacibdir.

İstehsalın səmərəli yerləşdirilməsinin mühüm şərti istehsalın kooperasiyası və kombinələşməsi, həmçinin yeni, daha mütərəqqi texnologiyaların tətbiq edilməsidir. İstehsalın səmərəli yerləşdirilməsi təbii resurslardan səmərəli istifadə edilməsini, onların qorunmasını və ekoloji şəraitin yaxşılaşdırılmasını nəzərdə tutur. Faydalı qazıntıların hasilatı və emal edilməsi zamanı itkilərin azaldılması, meşələrin bərpası üzrə işlərin görülməsi, torpaq resurslarından səmərəli istifadə mühüm əhəmiyyət kəsb edir.

İqtisadi rayonların təsərrüfatının kompleks inkişafı ümumrespublika əhəmiyyətinə malik sahələrin bazar ixtisaslaşmasını, əhalinin tələbatını, həmçinin aparıcı sahələrin və infrastruktur sahələrin tələbatını ödəyən istehsal sahələrini nəzərdə tutur. Regionların təsərrüfatının kompleksliliyi bazar ixtisaslaşması sahələri, ərazi komleksi ilə tamamlanan sahələr və xidmət sferası arasında iqtisadi əlaqələrin möhkəmlənməsini təmin edir.

Hər bir iqtisadi rayon özünün təbii resurs potensialına, iqtisadi profili müəyyən edən özünəməxsus iqtisadi və sosial şəraitə malikdir. İqtisadi rayon özündə təsərrüfat kompleksini, bütov bir sahəvi təsərrüfat sistemini təşkil edir. Burada isə aparıcı rol bazar ixtisaslaşması sahəsinə məxsusdur.

Regionlar arasında və onların ərazisi çərçivəsində əməyin səmərəli ərazi bölgüsü bazar münasibətləri şəraitində istehsalın səmərəli yerləşdirilməsinin vacib şərtidir. Ölkənin regionları müxtəlif iqtisadi, təbii-resurs və tarixi şərait və xüsusiyyətlərinə, iqtisadi inkişaf səviyyələrinə malikdir. Bu baxımdan hər bir region yalnız onun özünə aid olan iqtisadiyyatın bazar ixtisaslaşmasını formalaşdıra və iqtisadi əlaqələr əsasında məhsulları mübadilə edə bilər.

Bazar münasibətləri şəraitində regionların təsərrüfat fəaliyyətinin əlaqələndirilməsi vasitəsilə onlar arasında əmək bölgüsünün təkmilləşdirilməsi, o cümlədən dövlətin marağının hər bir regionun marağı ilə düzgün uyğunlaşdırılması xüsusilə vacibdir.

Regionlar arasında və onların daxilində düzgün iqtisadi əlaqələrin qurulması zamanı əməyin ərazi bölgüsü və regionların səmərəli bazar ixtisaslaşması iqtisadi inkişaf səviyyəsinin artmasına, istehsalın genişlənməsinə və onun səmərəliliyinin yüksəlməsinə kömək edəcəkdir.

Regionların iqtisadi və sosial inkişaf səviyyələrinin tarazlaşdırılması iqtisadiyyatın səmərəli inkişafının təmin edilməsi baxımından böyük əhəmiyyətə malikdir.

İstehsalın yerləşdirilməsinin nəzəri cəhətdən əsaslandırılmasında ayrı-ayn təsərrüfat sahələrinin konkret yerləşdirilməsinə təsir edən istehsalın lokallaşmasını, iqtisadi rayonların ərazi komplekslərinin formalaşmasını müəyyən edən amillər də mühüm rol oynayır.

İstehsalın yerləşdirilməsinə təsir göstərən bütün amillər bir-birilə əlaqəlidir və onları aşağıdakı kimi qruplaşdırmaq olar: iqtisadi amillər, ayrı-ayrı sahələrin və rayonların inkişafı üçün müxtəlif təbii şərait və təbii amillər, demoqrafik amillər. Sonuncuda ölkənin ayrı-ayrı ərazilərinin əmək resursları ilə təminatı, onların yerləşməsi sistemi başa düşülür. Bu amillərin tərkibinə sosial infrastrukturun vəziyyətini də daxil etmək lazımdır.

Ölkənin məhsuldar qüvvələrinin səmərəli yerləşdirilməsində iqtisadi-coğrafi və iqtisadi amillər böyük rol oynayır.

Emal sənayesi, kənd təsərrüfatı, nəqliyyat sahələrinin yerləşdirilməsində, həmçinin rayon nisbətlərinin formalaşması prosesində bütün amilləri nəzərə almaq lazımdır. Lakin istər ayrı-ayrı istehsal sahələrinin yerləşdirilməsinə, istərsə də ərazi nisbətlərinin formalaşmasına təsir edən amilləri də fərqləndirmək lazımdır.

Məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə demoqrafik amillər də təsir göstərir. Ayrı-ayrı müəssisələrin və təsərrüfat sahələrinin yerləşdirilməsi zamanı istər həmin ərazinin müasir demoqrafik vəziyyəti, istərsə də perspektiv vəziyyət, həmçinin də öz istehsalının gələcək artımını nəzərə almaq vacibdir.

İstehsalın inkişafına və yerləşdirilməsinə təsir edən iqtisadi amillərdən biri kimi nəqliyyat amili çıxış edir. Təsərrüfatın bütün sahələrinin yerləşdirilməsi zamanı bu amil mühüm əhəmiyyətə malikdir. Belə ki, nəqliyyat təbii resursların mənimsənilməsinə kömək edir, ərazinin iqtisadi-coğrafi vəziyyətini dəyişir, bütün ölkənin təsərrüfatının ərazi təşkilinin yaxşılaşdırılmasına imkan yaradır.

İstehsalın yerləşdirilməsinin vacib amillərindən biri elmi-texniki tərəqqidir. O, fasiləsiz olaraq elmin, texnikanın və texnologiyanın inkişafı prosesini, əmək vasitələrinin, əməyin və istehsalın təşkil edilməsinin forma və metodlarının təkmilləşdirilməsini nəzərdə tutur. Müasir şəraitdə ictimai əməyin ərazi bölgüsünün təkmilləşdirilməsi istiqamətində, ayrı-ayrı rayonların

və bütünlüklə ölkənin iqtisadi inkişafında elmi-texniki tərəqqinin əhəmiyyəti artmışdır. Elmi-texniki tərəqqinin istiqamətlərindən biri təbii resursların mənimsənilməsi zamanı yeni texnologiyalardan istifadə edilməsidir. Həmçinin yeni texnologiyaların tətbiqi xammalın kompleks emalını aparmağa, itkilərin azaldılmasına nail olmağa imkan verir.

Elmi-texniki tərəqqinin nailiyyətlərinin reallaşdırılması iqtisadiyyatın sahə nisbətinin formalaşmasına və əməyin ərazi cəhətdən bölgüsünə müsbət təsir göstərir.

İstehsalın yerləşdirilməsi amillərinin nəzərə alınması ilə bu və ya digər müəssisənin qurulması üçün ərazi müəyyən olunur, müəssisənin yerləşdirilməsinin əsaslandırılması üçün lazımi tədqiqat və texniki-iqtisadi hesablamalar aparılır, nəqliyyat şəraiti, yanacaq, enerji və xammal resursları aşkar edilir. Texniki-iqtisadi əsaslandırmada layihələşdirilən müəssisənin gücü (həcmi), əsas məmulatnomenklaturası ilə onun istehsal proqramı, başlıca xammal, yanacaq və enerji növlərinə istiqamətlənən tələbat və s. nəzərə alınır. Texniki-iqtisadi əsaslandırma müəssisələrin düzgün ərazi yerləşdirilməsini təmin edir.

Hər bir ölkənin iqtisadi inkişafında istehsal potensialı və onun yerləşməsi həlledici rola malikdir. Qeyd edək ki, son dövrlərdə respublikamızın iqtisadi inkişafında əhəmiyyətli dərəcədə irəliləyişlər müşahidə olunur. Lakin əmək və xammal resurslarının Bakı şəhəri və onun ətrafında cəmləşməsi və respublikanın regionlarının potensialından tam istifadə olunmaması nəticəsində ümumi iqtisadi inkişafdan onların geri qalması baş vermişdir. Belə ki, ayrı-ayrı regionlarda istehsalın azalması nəticəsində işsizlik səviyyəsinin yüksəlməsi sosial-iqtisadi vəziyyətin ağırlaşmasına, əhalinin regionlardan Azərbaycanın paytaxtı Bakı şəhərinə və xarici ölkələrə axınına, bütövlükdə isə ölkənin iqtisadi potensialından tam istifadə edilməməsinə və əlavə sosial problemlərin yaranmasına səbəb olmuşdur.

Qeyd olunanlar özünü statistik rəqəmlərdə də büruzə verir. Belə ki, 2003-cü ilin məlumatlarına görə, ümumi məhsul buraxılışının 69,4%-i Bakı şəhərinin, yerdə qalan hisssəsi isə iqtisadi rayonların payına düşmüşdür. Sənaye məhsulunun həcmində isə Bakı şəhərinin payı 74,5%, regionların payı 25,5% olmuşdur. Qeyd olunan dövrdə iqtisadiyyatda muzdla işləyənlərin orta aylıq nominal əmək haqqında ciddi fərqlər mövcud olmuşdur. Əgər 2003-cü ildə bu göstərici respublika üzrə 386974,2 manat təşkil etmişdirsə, Bakı şəhərində bu, 528351,3 manat, iqtisadi rayonlarda isə xeyli az olmuşdur. Regionlarla mərkəz arasında kəskin fərq əsas kapitala investisiya həcmində də özünü göstərir. Belə ki, 2003-cü ildə əsas kapitala investisiyaların 94%-i yalnız Bakı şəhərinin payına düşdüyü halda, regionların payına cüzi hissə düşmüşdür.

Bu baxımdan, Azərbaycan Respublikasında regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» fərmanla təsdiq edilmişdir.

Dövlət Proqramında qarşıya qoyulmuş məqsədə nail olmaq üçün müəssisələrin istehsal fəaliyyətinin bərpa edilməsi və yeni istehsal müəssisələrinin yaradılması, yerli resurslardan istifadənin səmərəsinin artırılması, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasının və inkişafının təmin edilməsi və s. kimi vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

Bu baxımdan, regionların iqtisadi inkişafına nail olmaq üçün istehsalın yerləşdirilməsi ilə bağlı qeyd olunan qanunauyğunluqların və amillərin nəzərə alınması həmin regionun və bütünlükdə ölkənin tarazlı inkişafına kömək edə bilər.

ƏDƏBİYYAT:

1. T.Hüseynov. Sənayenin iqtisadiyyatı. Bakı, 2000.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər).
3. В.И.Бутов, В.Г.Игнатов, Н.П.Кетова. Основы региональной экономики. Ростов-на-Дону, 2001.
4. В.В.Кистанов, Н.В.Копылов. Региональная экономика России. Москва, 2002.
5. Г.В.Гутман, А.А.Мироедов, С.В.Федин. Управление региональной экономикой. Москва 2002.
6. А.И.Гаврилов. Региональная экономика и управление. Москва, 2002.
7. Региональная экономика / Под. ред. Проф. Т.Г.Морозовой. Москва, 2003.
8. А.С.Маршалова, А.С.Новоселов. Основы теории регионального воспроизводства. Москва, 1998.

# İnstitutun nəşrlərindən









### *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Muradov Ə.**
*İnvestisiya mühiti: monitorinqi, qiymətlədirmə sistemi və yaxşılaşdırəlması yolları*
**İbrahimov İ.**
*Kənd təsərrüfatının elmi-informasiya təminatının yaxşılaşdırılması istiqamətləri*
**Əhmədov B.**
*Səhmdar cəmiyyətlərinin sahibkarlığın təşkilati-hüquqi forması kimi xarakterik xüsusiyyətləri*
**Adıgözəlov Ş.**
*Azərbaycanda real sektorun kreditləşdirilməsi problemləri*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №7, Bakı 2006*

# İNVESTİSİYA MÜHİTİ: MONİTORİNQİ, QİYMƏTLƏNDİRMƏ SİSTEMİ VƏ YAXŞILAŞDIRILMASI YOLLARI

***i.e.d., prof. Muradov Ə.***

*İİETİ-də  Elmi Şuranın üzvü olub*

Qloballaşma prosesi dünya iqtisadiyyatındakı mövcud sərbəst istehsal faktorlarını milli iqtisadiyyatın istehsal imkanlarını genişləndirmək məqsədilə istifadə etmək üçün əlverişli şərait yaradır. Həmin şəraitin reallaşdırılması, ilk növbədə, milli iqtisadi siyasətdən asılıdır. Bu zərurətdən irəli gələn və milli iqtisadi siyasətin vacib tərkib hissəsindən biri də Azərbaycan Respublikasında bazar iqtisadiyyatının qurulması, onun açıqlığı və dünya iqtisadiyyatına inteqrasiyası ilə yanaşı, xarici investisiyaların milli iqtisadiyyata cəlb edilməsidir . Xarici investisiyaların milli iqtisadiyyata cəlb olunması ölkənin investisiya mühitinin müvafiq parametrlərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan, milli investisiya mühitinin qiymətləndirilməsi üçün beynəlxalq təcrübədə qəbul edilmiş kəmiyyət və keyfiyyət göstəricilərinin təhlili vacib əhəmiyyət kəsb edir.

Əvvəlcə qeyd etmək lazımdır ki, ölkənin investisiya mühiti, ümumiyyətlə, siyasi, iqtisadi, resurs, qlobal və s. xarakterli amillərdən asılıdır. Bu baxımdan, müəyyən risk səviyyəsində investor üçün məqbul gəlir səviyyəsini təmin etməklə bu və ya digər iqtisadiyyatın müəyyən həcm və formada kapitalı mənimsəmək imkanları vacib əhəmiyyət kəsb edir.

Ölkənin investisiya mühiti özündə investisiya potensialını (əsasən obyektiv və kəmiyyət göstəriciləri) və investisiya riskini (əsasən keyfiyyət - siyasi, iqtisadi və sosial göstəricilər) əks etdirir.

Ölkənin investisiya potensialı, bir qayda olaraq, makroiqtisadi göstəricilərin məcmusu (iqtisadi artım tempi, istehlak və yığımın nisbəti, faiz dərəcəsi, mənfəət norması, inflyasiyanın səviyyəsi və dinamikası, əhalinin istehlak tələbi), istehsal faktorlarının mövcudluğu və nisbəti, infrastrukturun inkişafı və s. ilə müəyyən edilir.

İnvestisiya riski isə investisiyadan mənfəət əldə etməklə bağlı proqnozun qeyri-müəyyənliyinin səviyyəsi ilə ölçülür və struktur etibarilə- siyasi, iqtisadi və sosial tərkib hissələrindən ibarətdir.

Ölkənin investisiya mühitinin siyasi riskini qiymətləndirmək bir qayda olaraq, aşağıdakı göstəricilərdən istifadə edilir: daxili çaxnaşma (tətil də daxil edilməklə, vətəndaş müharibəsinə qədər ranqlaşdırılır), xarici konfliktlər (həm mövcud olan, həm də potensial mümkün ola bilənlər), mülkiyyətin milliləşdirilməsinin və yaxud siyasi səbəblərlə mülkiyyətə iqtisadi sanksiya tətbiq edilməsinin mümkünlüyü, ölkəyə beynəlxalq etimadın, inamın olmaması və yaxud itirilməsinin mümkünlüyü.

Bu kimi göstəricilərin qiymətləndirilməsi, adətən, məlumat agentliklərinin çap olunmuş məlumatları, ölkə əhalisi və ölkənin investisiya cəlbediciliyini öyrənməkdə iştirak edən kompaniyaların əmədaşları arasında aparılan sorğu əsasında həyata keçirilir. Adətən daxili stabiliik (daxili stabilliyin tarixi, radikal qrupların mövcudluğu, etibarilə böyük dini və milli azlıqların mövcudluğu) və xarici stabillik (ölkənin qonşuları ilə qarşılıqlı əlaqələrinin tarixi, ölkənin coğrafi və yaxud onun ərazisində təbii sərvətlərin bolluğu ilə bağlı strateji əhəmiyyəti) tədqiq olunur.

İnvestisiya riskinin iqtisadi parametrləri həm markroiqtisadi göstəriciləri, həm də ölkənin maliyyə vəziyyətini xarakterizə edən aşağıdakı xüsusi indikatorları özündə cəmləşdirir: borca xidmət əmsalı xarici borcun ödənilməsinə xərclənən vəsaitin əmtəə və xidmətin ixrasından əldə edilən gəlirə nisbəti), xarici borcun ÜDM-ə nisbəti; bütün xarici borcun mal və xidmətlərin ixracına nisbəti; ölkənin valyuta ehtiyatının ölkəyə olan maliyyə tələbinə nisbəti əmsalı (cari ildə ödəniləcək borcların və cari il büdcə kəsirinin cəmi) və likvidlik kəsiri əmsalından (ölkəyə maliyyə tələbinin mal və xidmətlər ixracına nisbəti) ibarət likvidlik indikatorları.

Beynəlxalq praktikada ölkənin investisiya riskinin sosial xarakteristikasına böyük əhəmiyyət verilir və bir qayda olaraq, sosial gərginliyin səviyyəsi, ekoloji parametrlər, ümumi cinayətkarlıq səviyyəsi və s. əsas götürülür.

Bu və ya digər ölkənin investisiya riskinin parametrləri məcmusunda keyfiyyət göstəricilərinin üstünlük təşkil etdiyindən, investisiya riskini kəmiyyət baxımından dəqiq müəyyən etmək mümkün olmur. Bu səbəbdən, beynəlxalq praktikada investisiya qoyulması baxımından bir ölkənin o biri ölkə ilə müqayisədə daha çox və ya az riskli olmasını müəyyən etməyə imkan verən metodlardan istifadə olunur.

Ayrı-ayrı ölkələrin investisiya riskinin müqayisəli qiymətləndirilməsi üçün ümumi və investisiya qanunvericiliyinin təhlili prinsipial əhəmiyyət kəsb edir. Çünki investorun qərar qəbul etməsi üçün «oyun qaydalarının» dəyişməsi ilə bağlı riskin müəyyənləşdirilməsi də (məsələn, gəlirin çıxarılması, vergi qanunvericiliyi və s.) vacibdir.

İnvestisiya mühitinin ekspert-analitik qiymətləndirilməsinin aparılması, adətən, riskin inteqral göstəricisinin müəyyən edilməsi və siyasi, iqtisadi, sosial-mədəni, institusional mühit, resurs və infrastruktur amillərin təhlili əsasında investisiya reytinqini müəyyən edərək, ölkənin, ranqlaşdırılması ilə bağlıdır.

İnvestisiya mühitinin qiymətləndirilməsi üçün beynəlxalq praktikada daha çox istifadə edilən və ən etibarlı, nüfuzlu sistemlər - Institutional Investor, Euromoney, BERI reytinqləridir.

Institutional İnvestor reytinqi - ilk növbədə, ölkənin kredit qabiliyyəti reytinqidir. Bu reytinq 100 aparıcı beynəlxalq bank ekspertlərini iştirakı ilə tərtib edilir, hər yarım ildən bir keçirilir və 135 ölkənin tədiyə qabiliyyətinin və investisiya cəlbediciliyinin müxtəlif aspekti və parametrlərini nəzərə alır.

Euromoney reytinqi müvafiq xüsusi çəki ilə aşağıda göstərilən üç qrup indikatorların öyrənilməsinə əsaslanır: bazar - 40%: kredit 20%; siyasi-iqtisadi (siyasi risk, iqtisadi vəziyyət və iqtisadi inkişaf) proqnozu - 40%.

BERI (Business Environment Risk Index) reytinqinə əsasən, investisiya mühiti siyasi stabillik, xarici investisiyalara münasibət, tədiyə balansı, bürokratiya problemləri, milliləşdirmə, devalvasiya, iqtisadi artım tempi, müqavilələrin reallaşma imkanı, əmək

haqqına çəkilən xərclər, əməyin məhsuldarlığı, infrastruktur, qısa və uzunmüddətli kreditləşmə şərtləri əsasında qiymətləndirilir. BERI sistemindən istifadə edərək, ölkənin investisiya reytinqinin strukturu aşağıdakı kimi formalaşdırılır:

1. Siyasi stabillik: hökumət dəyişikliklərini və onların işgüzar fəaliyyətə təsirini qabaqcadan görmək imkanı - 12%;
2. Xarici investisiyalara və mənfəətə münasibət: özəl müəssisələrin sosial xərclərinin həcmi - 6%;
3. Milliləşdirmə: müsadirə olunma imkanlarından başlayaraq yerli müəssisələrə üstünlük verilməsinə qədər - 6%;
4. Devalvasiya: devalvasiyanın müəssisələrin fəaliyyətinə təsiri – 6%;
5. Tədiyə balansı: hesablar balansı və ümumi balansa, həmçinin xarici investorların mənfəətinə təsir göstərən amillər - 6%;
6. Bürokratiya problemləri: dövlət tənzimlənməsinin səviyyəsi, valyuta köçürmələrinin və bu kimi başqa əməliyyatların rəsmiləşdirilməsi - 4%;
7. İqtisadi artım tempi: ümumi daxili məhsulun faktiki illik artım tempi- 3.3 - 6% və 10%-dən yüksək aralıqda müəyyən edilir - 10%;
8. Valyutanın dönərliyi: müəssisələrin milli valyutanı xarici valyutaya dəyişmək imkanı, həmçinin valyuta bazarında yerli valyutanın rolu -10%;
9. Müqavilələrin reallaşma imkanı: müqavilələrin bütün maddələrinə riayət etmək imkanı, dil və adətlərin xüsusiyyəti ilə ortaya çıxa biləcək çətinliklər - 6%;
10. Əmək haqqı xərcləri və əmək məhsuldarlığı: əmək haqqının səviyyəsi, əmək məhsuldarlığı, işə qəbul olunma qaydası - 8%;
11. Ekspert və xidmətlərdən istifadə imkanları: hüquqi məsləhətlər, mühasibat, marketinq üzrə məsləhət, texnologiya və tikinti işləri üzrə ala müəssisələrin ala biləcəyi yardım - 2%;
12. Rabitə və nəqliyyatın təşkili: yollar, müəssisə və filiallar tərəfindən rabitə sistemindən istifadə etmə imkanları, nəqliyyat infrastrkturu - 4%;
13. Yerli idarəetmə və tərəfdaşlar: kapitalını ümumi işə xərcləyən və idarəçiliklə bağlı yaranan problemlərin həllində birgə iştirak edən yerli tərəfdaşların sayı və mümkünlüyü - 4%;
14. Qısamüddətli kredit: xarici nümayəndələrə qısamüddətli kredit verilməsi və onun istifadə olunmasının mümkünlüyü - 8%;
15. Uzunmüddətli kredit və yaxud şəxsi kapital: tərəfdaşların öz paylarını nizamnamə kapitalına keçirməsi şərtləri və milli valyutada uzunmüddətli kreditlərin şərtləri - 8%.

İnvestor üçün çox aktual və əhəmiyyətli məsələlərdən biri də regionların investisiya mühitinin qiymətləndirilməsidir. Beynəlxalq praktikada bu məqsədlə müxtəlif üsullar və alətlər işlənib hazırlanmışdır. Mövcud təcrübədən istifadə edərək bir neçə MDB ölkələrində, o cümlədən Rusiya və Ukraynada regionların investisiya mühitinin qiymətləndirilməsindən artıq geniş istifadə edilir. Bu ölkələrin təcrübəsi Azərbaycan üçün daha faydalıdır.

Rusiya regionlarının investisiya cəlbediciliyi reytinqi xüsusilə maraqlıdır. Statistik və ekspert üsullarının sintezi kimi işlənib hazırlanmış orijinal metodika - investisiya cəlbediciliyi baxımından hər regionun inteqral göstəricisi aşağıdakılar əsasında hesablanır:

1. İnvestisiya potensialının xammal, istehsal, istehlak, infrastruktur, intellektual, institusional, innovasiya kimi tərkib hissələri;

2. İnvestisiya riskinin səviyyəsi: iqtisadi risk (iqtisadi inkişaf meyilləri); siyasi risk (əhalinin siyasi rəğbətinin qütbləşməsi); sosial risk (sosial gərginlik səviyyəsi); ekoloji risk (ətraf mühitin çirklənməsi səviyyəsi); kriminal, risk (cinayətkarlıq səviyyəsi).

Ukraynada regionların investisiya cəlbediciliyi - xüsusi çəkisi nəzərə alınmaqla, aşağıdakı beş sintetik göstərici əsasında müəyyən edilir:

1. Regionda ümumiqtisadi inkişaf səviyyəsi - 35%;
2. Regionda investisiya infrastrukturunun inkişaf səviyyəsi - 15%;
3. Regionun demoqrafik xarakteristikası - 15%;
4. Regionda bazar münasibətlərinin və kommersiya infrastrukturunun inkişaf səviyyəsi - 25%;
5. Kriminogen, ekoloji və başqa risklər - 10%.

İnvestisiyanın potensialının reallaşması həmçinin ayrı-ayrı sahələrin. müəssisələrin, konkret obyektlərin investisiya cəlbediciliyinin təhlilini tələb edir. Ayrı-ayrı sahələrin investisiya cəlbediciliyinin müqayisəli qiymətləndirilməsi beynəlxalq statistikada qəbul edilmiş metodologiyaya uyğun olaraq, onların qruplaşdırılması əsasında həyata keçirilir. Bununla bağlı ən vacib ümumi göstərici uzunmüddətli dövr ərzində investisiyaların mənfəətli olmasıdır (rentabelliyidir). Daha geniş planda sahənin ümumi inkişaf səviyyəsi; infrastruktur; inhisar və rəqabət səviyyəsi; dövlətin təsir dərəcəsi; yerli mütəxəssislərin peşəkarlığı və s. təhlil edilir.

Qeyd etmək lazımdır ki, ölkənin investisiya mühitinin parametrləri makrosəviyyə) və investorların motivasiyası (mikrosəviyyə) arasında bir başa əlaqə mövcuddur. Bu və ya digər layihənin investisiya cəlbediciliyi layihənin gəlirliyindən, layihənin riskindən və investorun riskə münasibətindən (daha doğrusu, investor tərəfindən hansı risk dərəcəsinin məqbul qəbul edildiyindən) asılıdır. Bir qayda olaraq,layihənin riski onun gəlirliyindən asılıdır: layihənin gəlirliyi artdıqca onun riski artır.

Beynəlxalq Maliyyə Korporasiyasının məlumatına əsasən, uzunmüddətli layihələrin maliyyələşdirilməsi ölkənin investisiya riskindən birbaşa asılıdır. Institutional investor reytinqinə əsasən də riskin və investisiya layihələrinin strukturunun qarşılıqlı əlaqəsi göstərir ki, layihə nə qədər çox risklidirsə, həmin layihədə xarici kapitalın xüsusi çəkisi daha çoxdur: yüksək riskli layihələrdə xarici kapitalın xüsusi çəkisi - 72%, yerli kapitalın - 28%; orta riskli layihələrdə, müvafiq olaraq, 69% və 31%; aşağı riskli layihələrdə isə 56% və 44%-dir.

Xarici investisiyaların cəlb edilməsinə infrastruktur mühitin təsiri böyükdür. Bu baxımdan, səmərəli qiymətli kağızlar bazarının formalaşması probleminə - keçid iqtisadiyyatında - sosial-iqtisadi və siyasi islahatlar kontekstində baxılmalıdır. İqtisadiyyatı zəruri investisiya resursları ilə təmin edən kifayət qədər inkişaf etmiş maliyyə sektorunun olmaması iqtisadi dəyişikliklərə maneçilik edir və ona görə də keçid iqtisadiyyatında səmərəli qiymətli kağızlar bazarının formalaşdırılmasının vacibliyini artırır.

Əlverişli investisiya mühiti yaradılmasında sosial-mədəni mühit böyük rol oynayır. Sosial-mədəni mühit ölkənin iqtisadi, institusional və siyasi-hüquqi mühitində baş verən dəiyşikliklərlə bağlıdır. Belə ki, müxtəlif mülkiyyət formasının inkişafı, dövlət mülkiyyətinin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi sahibkarlığın inkişafına təkan verməklə, iqtisadi münasibətlər dairəsinə şəxsi mənafe daxil edir. İdarəetmənin proqressiv təşkilati strukturlarının inkişafı və bürokratik inzibati sistemin ləğvi inersiyalı iqtisadi təfəkkürün aradan qaldırılmasına yardım edir.

Xarici investisiyaların cəlb edilməsinə şərait yaradan institusional mühitin formalaşması prosesində Azərbaycan beynəlxalq iqtisadi qurumlarla əlverişli əlaqələr yaratmaqla, eyni zamanda, səmərəli investisiya fəaliyyətini təmin etmək üçün bazar struktur və institutlarını formalaşdırır və inkişaf etdirir.

İnfrastruktur mühiti, deyildiyi kimi, xarici investisiyaların cəlb edilməsi prosesinə həlledici təsir göstərən amillərdəndir. Qeyd etmək zəruridir ki, Azərbaycanda səmərəli qiymətli kağızlar bazarının formalaşdırılması ölkədə aparılan sosial-iqtisadi və siyasi islahatlar baxımından qiymətləndirilməlidir. İnvestisiya resurslarını toplayan və iqtisadiyyata təklif edən rəqabətli maliyyə bazarını yaratmadan genişmiqyaslı iqtisadi islahatları başa çatdırmaq çox çətindir. Bir sıra problemlərin olmasına baxmayaraq, Azərbaycanda qiyməli kağızlar bazarının inkişafı üçün zəruri baza yaradılmış və dünyanın inkişaf etmiş maliyyə bazarlarında mövcud olan analoji modellər səviyyəsində onun fəaliyyət və tənzimlənmə modeli formalaşdırılmaqdadır.

Dünya iqtisadiyyatında investisiyalara olan tələbin onun təklifini üstələdiyini nəzərə alaraq, məhdud xarici investisiyaların milli iqtisadiyyata cəlb edilməsi üçün digər ölkələrlə müqayisədə daha əlverişili milli investisiya mühitinin yaradılması istiqamətində Azərbaycanda məqsədyönlü addımlar həyata keçirilir. Bunu, ilk növbədə, müstəqillik illərində ölkə iqtisadiyyatına qoyulmuş xarici investisiyaların həcmi sübut edir.

Belə ki, bu dövr ərzində ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 22 mlrd. ABŞ dollarından çox investisiya qoyulmuşdur. Adambaşına düşən xarici investisiyanın həcminə görə, Azərbaycan Müstəqil Dövlətlər Birliyi və Şərqi Avropa ölkələri arasında aparıcı müvqelərdən birini tutur.

Təkcə 2004-cü ildə müxtəlif mülkiyyət formalarından olan müəssisə və təşkilatlar tərəfindən iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 24196,6milyard manat və ya əvvəlki ildəkindən 36,1 faiz çox əsas kapitala investisiya yönəldilmişdir.

Bütün investisiyaların 6365,1 milyard manatını (26,3 faizini) daxili, 17831.5 milyard manatını (73,7 faizini) xarici investisiyalar təşkil etmişdir, bu da keçən illə müqayisədə, müvafiq olaraq, 34,4 və 36,8 faiz çoxdur.

Bütün maliyyə mənbələri hesabına investisiyaların 80,3 faizi sənaye sahələrinin inkişafına (76,4 faizi neft və qaz hasilatına, 3,0 faizi emal sənayesinə, 1,2 faizi elektrik enerjisi və su təchizatı sahələrinə), 0,7 faiz kənd təsərrüfatına, 0,2 faizi tikintiyə, 1,1 faizi ticarət və xidmətə,6.4 faizi nəqliyyata, 2,1 faizi rabitəyə, 6,2 faizi mənzil tikintisinə, 3,0 faizi digər sahələrə yönəldilmişdir.

Bütün bunlarla yanaşı, qeyd etmək zəruridir ki, Azərbaycan iqtisadiyyatının təkcə neft sektoruna deyil, həm də qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun investisiya imkanlarını genişləndirmək məqsədilə intensiv işlər görülür.

2004-cü ildə əsas kapitala yönəldilmiş ümumi investisiyaların 18507,1 mlrd.manatı (76,5 faizi) neft sektorunun, 5689,5 mlrd.manatı 23.5 faizi) isə qeyri-neft sektorunun inkişafında istifadə edilmişdir.2003-cü illə müqayisədə qeyri-neft sektorunun inkişafına yönəldilmiş investisiyaların həcmi 39.8 faiz, neft sektoruna yönəldilmiş investisiyalar isə 35 faiz artmışdır.

Azərbaycanın regionlar üzrə investisiya mühitinin təhlili prinsipial əhəmiyyət kəsb edir. Çünki birincisi, Azərbaycanda kifayət qədər inkişaf etmiş elmi- texnoloji baza

mövcuddur. İkincisi, Azərbaycanın müxtəlif regionları təbii ehtiyatlar potensialı və inkişaf səviyyəsinə görə bir-birindən fərqlənirlər. Bundan savayı, istehsal və sosial infrastrukturun kifayət qədər inkişaf etməməsi, məlumat kommunikasiya sisteminin köhnəlməsi xarici investisiyaları əsas etibarilə iri sənaye mərkəzlərinə və böyük sahələrə cəlb edir. Bu isə, öz növbəsində, xarici investisiyaların ərazi baxımından yerləşdirilmə optimallığı problemini ortaya çıxarır. Nəzərə almaq lazımdır ki, regionlarda mövcud olan bu disproporsiyanın daha da güclənmə ya azalması əhəmiyyətli dərəcədə seçilmiş investisiya siyasətidən asılıdır. İqtisadi inkişaf nazirinin müvafiq əmri ilə artıq İqtisadi İnkişaf Nazirliyində Azərbaycanın regional və sahəvi inkişaf proqramlarının hazırlanması işinə başlanması məhz bu zərurətdən doğur.

Mikro səviyyədə investisiya mühitinin təhlilinin vacib tərkib hissəsi ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin qarşılaşdığı problemlərin üzə çıxarılması və qiymətləndirilməsidir. Bununla bağlı qeyd etmək lazımdır ki, investisiya mühitinə ümumilikdə xas olan obyektiv problemlərlə yanaşı (məsələn, investisiya riski), ölkənin xüsusiyyətlərindən və şübhəsiz ki, kapital ixrac edən və kapital idxal edən ölkələrin qarşılıqlı münasibətlərindən doğan bir sıra problemlər də mövcuddur.

Keçid iqtisadiyyatı ölkələrinin investisiya fəaliyyətində mövcud olan sosial- psixoloji problemlər, bir qayda olaraq, yerli sahibkarlarda bazar təsərrüfatçılığı təcrübəsinin zəif olması ilə bağlıdır. Bundan savayı, fərqli mədəni və sosial dəyərlər, dil maneələri də obyektiv problemlərdəndir.

Qeyd etmək zəruridir ki, bütün parametrlər baxımından, əlverişli investisiya mühitini formalaşdırmaq və xüsusilə də onu daim yüksək səviyyədə saxlamaq, ümumiyyətlə çətin olmaqla, keçid iqtisadiyyatı ölkələri üçün praktik olaraq qeyri- mümkündür. Ona görə də son dövrdə dünya iqtisadiyyatında əlverişli investisiya mühiti xas olan lokal zonalar sürətlə inkişaf edir. Əlverişli investisiya mühiti baxımından bu cür zonaların səmərəli və əksər ölkələrdə tətbiq olunan forması azad iqtisadi zonalardır.

Müəyyən hesablamalara görə, dünyada 800-dən çox bu cür zona fəaliyyət göstərir. İllik ixracının həcmi 20 mlrd, dollar və məşğulların sayı 4 milyondan çox olan bu zonaların payına dünya ticarət dövriyyəsinin 8-10%-i düşür. Azad iqtisadi zonaların 300-ü (ixrac 15 mlrd. dollar və işləyənlər 3 mln. nəfər) inkişaf etməkdə olan ölkələrdə fəaliyyət göstərir.

Azad iqtisadi zonaların yaradılması ölkəyə valyuta daxilolmalarının artırılması ixracyönümlü istehsalın inkişafı; ayrı-ayrı sahələrin texniki modernləşdirilməsi; iqtisadi cəhətdən geri qalmış regionların inkişafı; mümkün qədər daha çox məşğulluğun təmin edilməsi; infrastrukturun inkişafı və s. kimi sahələrdə əhəmiyyətli nailiyyətləri şərtləndirən amillərdəndir. Azərbaycanda bu sahədə zəruri tədbirlər həyata keçirilir. Belə ki, İqtisadi İnkişaf Nazirliyinin mütəxəssisləri tərəfindən Azərbaycan Respublikası ərazisində xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyətinin tənzimlənməsi haqqında hüquqi-normativ sənədin hazırlanması üzərində intensiv işlər aparılır.

Beləliklə, ölkənin investisiya mühitinin yaxşılaşdırılmasına yönəldilmiş investisiya siyasəti beynəlxalq ekspertlərin xüsusi təhlil obyektinə çevrilir, onun investisiya potensialı və investisiya riski daim edilir. Azərbaycan öz iqtisadiyyatını bazar prinsipləri əsasında yenidən qurduğu dövrdə, bir tərəfdən xarici investisiyalar üçün siyasi, iqtisadi. hüquqi və institusional şərait yaratmaqla, digər tərəfdən isə əlverişli investisiya mühiti olan lokal zonalar yaradılmasında xarici təcrübədən səmərəli istifadə etməklə ölkə iqtisadiyyatına xarici investisiyaların daha böyük axınını təmin edəcək. Bunun nəticəsində ölkə iqtisadiyyatında

yeni-yeni nailiyyətlər əldə ediləcək, dövlət müstəqilliyi daha da möhkəmlənəcək. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, iqtisadiyyatı güclü olmayan dövlət güclü ola bilməz.

ƏDƏBİYYAT:

1. Беренс В., Хавренек П. Руководство по оценке эффективности инвестиций. М., 1995.
2. Булатов Н. Зарубежные прямые инвестиций и политический риск. М., 1992.
3. Гитман Л., Джонг М. Основы инвестирования М., 1999.
4. Губский Б.Инвестиционные процессы в глобальной среде. К., 1998.
5. Пересада А. Основы инвестиционной деятельности.  К., 1996.
6. Шарп У., Александер Г., Бейли Дж. Инвестиции М., 1997.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №7, Bakı 2006*

# KƏND TƏSƏRRÜFATININ ELMİ-İNFORMASİYA TƏMİNATININ YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

***i.e.d., prof. İbrahimov İ.***

*1998-2009 -cu illərdə İİETİ-də aparıcı elmi işçi, baş elmi işçi vəzifəsində işləyibdir*

Məlumdur ki, kənd təsərrüfatı ölkə əhalisinin həyatında həlledici rol oynayır. Elə bu səbəbdən də Azərbaycan hökumətinin bu sahədə vəzifəsi kənddə yaşayan insanların normal həyat səviyyəsini təmin etməkdən ibarət olmalıdır.

Bu baxımdan, ölkə əhalisinin həyatında həlledici rol oynayan və iqtisadi fəaliyyətlə məşğul təbəqənin 40%-ni təşkil edən kənd təsərrüfatı sahəsində aparılan siyasətin əsas vəzifəsi iqtisadi inkişafa nail olmaqdan, ərzaq təhlükəsizliyini təmin etməkdən, yoxsulluğu, azaltmaqdan, aqrar sahədə çalışan insanların gəlirlərini artırmaqdan ibarət olmalıdır.

Araşdırmalar göstərir ki, ölkənin kənd təsərrüfatında təbii ekoloji, sosial-iqtisadi və texniki-texnoloji problemlər mövcuddur. Belə ki, hazırda ölkədə meliorasiya və irriqasiya işlərinə, becərmə texnologiyalarına kifayət qədər vəsait ayrılmaması torpaqların şoranlaşmasına və erroziyasına, ətraf mühitin tullantılarla çirklənməsinə səbəb olmuşdur. Son illərdə müşahidə olunan istiləşmə quraqlıq bir sıra ərazilərdə ənənəvi istehsal sahələrinin səmərəsini azaltmışdır. Ölkənin əksər hissəsini dağlıq və dağətəyi ərazilər təşkil etdiyindən, torpaq sahələrini əkin dövriyyəsinə cəlb etmə xeyli çətinləşmişdir. Müxtəlif iqlim tiplərinin mövcudluğu hər bir iqlim qurşağı üçün spesifik sort və texnologiyalardan istifadəni tələb edir. Digər tərəfdən, ənənəvi bazarların itirilməsi, təchizat, kənd təsərrüfatı, emal və xidmət müəssisələri arasında iqtisadi əlaqələrin pozulması, bazar münasibətlərinə əsaslanan yeni ərazi və sahə idarəetmə strukturunun, tələblə təklifin tarazlığına əsaslanan yeni qiymət və rəqabət mexanizminin formalaşması, maşın və avadanlığın mənəvi və fiziki cəhətdən köhnəlməsi aqrar-sənaye istehsalının bütünsahələrində iqtisadi səmərəliliyin aşağı düşməsinə, bir çox məhsulların istehsalının zərərlə başa gəlməsinə, çoxillik əkmələrin qırılmasına, əkin sahələrinin dövriyyədən çıxarılmasına və son nəticədə işsizliyin artmasına, insanların həyat səviyyəsinin aşağı düşməsinə gətirib çıxarmışdır.

Bundan başqa, aqrar bölmədə iqtisadi subyektlərin tədiyə qabiliyyətinin aşağı düşməsi yeni texnologiyaların və elmi-texniki niyyətlərin öyrənilməsini və tətbiqini çətinləşdirmişdir. Daxili bazarın qorunmasındakı ləngimələr kənd təsərrüfatı məhsullarının istehsalına əlverişli şərait yaradılmasını təmin etmədiyindən, istehsalçıların intensiv texnologiyaları tətbiq etməkdə maraqlarını aşağı salmışdır. Sahibkarlıq subyektlərinin aşağı ödəmə qabiliyyəti informasiya-məsləhət xidmətinin dəyərinin onlar tərəfindən ödənilməsinə imkan vermir. Bu, elmi-tədqiqat və məsləhət xidməti göstərən müəssisələrin işinin yeni iqtisadi münasibətlər əsasında qurulmasına mane olur.

Məlumdur ki, zəngin təbii-iqlim şəraiti və əlverişli coğrafi mövqe - Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar açır. Yer kürəsində mövcud olan 11 iqlim növündən 9-nun bu ölkədə-mövcudluğu, yüksək günəş radiasiyası qısa vegetasiya müddətinə malik, keyfiyyətli tumlu, çəyirdəkli, subtropik və qərzəkli meyvələr, tərəvəz, üzüm, tütün, pambıq sortlarının yetişdirilməsinə imkan verir. Dağlıq ərazilərdə heyvandarlığın inkişaf etdirilməsi üçün əlverişli şərait mövcuddur. Yüksək məhsuldar dənli və dənli-paxlalı bitkilərin becərilməsi, ölkənin özünü taxılla təmin etməsi üçün real imkanlar yaradır. Taxılçılıq, eyni zamanda, heyvandarlıq üçün yem bazasını təmin edə bilər. Əlverişli təbii-iqlim şəraiti və ucuz iş qüvvəsi aqrar sahədə iqtisadi inkişaf üçün geniş perspektivlər açır. Pambıq, üzüm, meyvə, tərəvəz, tütün, heyvandarlıq məhsullarının maya dəyərinin aşağı, keyfiyyətinin yüksək olması və spesifikliyi baxımından, ölkəmiz regional, eləcə də dünya bazarında müqayisəli üstünlüyə malikdir. Radikal torpaq islahatı 848 mindən çox təsərrüfat subyektinin yaranmasına imkan vermişdir. Bununla da, kənd təsərrüfatının gələcək inkişafının güclü təməli qoyulmuşdur. 1970-ci illərdə yaradılmış güclü aqrar-sənaye potensialı hazırda özəlləşdirmə mərhələsini keçir və bu yaxın dövrlərdə kənd təsərrüfatı xammalı üçün satış bazarının bir neçə dəfə genişlənəcəyinə inam yaradır. Ölkə iqtisadiyyatının digər sahələrinə investisiya qoyuluşlarının sürətlə artması həmin sahələri diversifikasiyasına və gəlirlərin aqrar-sənaye istehsalına yönəlməsinə səbəb olacaqdır. Müəyyən qədər zəif, lakin sabit və dönməz xarakterə malik olan bazar strukturunun formalaşması prosesi ayrı-ayrı ərazilərin yenidən ixtisaslaşdırılmasını stimullaşdırır ki, bu da artıq yaxın gələcəkdə ehtiyatlardan optimal istifadə ediləcəyinə ümid yaradır.

Əldə edilmiş nəticələr, xüsusilə də kənd təsərrüfatı və emal sahələrində qazanılmış beynəlxalq səviyyəli nailiyyətlər məhsuldarlığın və gəlirlərin artırılmasına geniş imkanlar açır.

Ölkənin təbii-iqtisadi şəraitini, torpaq və su ehtiyatlarını, kənd adamlarının əmək vərdişlərini, uzun illər toplanmış təcrübəni, mili adət-ənənələri və s. amilləri kompleks şəkildə nəzərə almaqla və baza prinsiplərinə uyğun işi təşkil etməklə, kənd təsərrüfatının strukturunu dəyişmək, ixrac qabiliyyətini artırmaq, idxalı minimuma endirmək əhalinin ərzaq təminatını daxili istehsal hesabına əhəmiyyətli dərəcədə yüksəltmək, ən nəhayət, kənd əhalisinin güzəranını yaxşılaşdırmaq aparılan aqrar siyasətin əsasını təşkil edir.

Bu baxımdan, fikrimizcə, ölkənin aqrar siyasətinin formalaşması zamanı aşağıdakılar nəzərə alınmalıdır:

- rəqabət prinsiplərini nəzərə almaqla, ölkə əhalisinin tam və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi;
- aqrar sektorun ölkənin strateji sahələrindən biri olduğunu nəzərə alaraq, onun iqtisadi əhəmiyyətinin artırılmasına maliyyə və digər ehtiyatların artırılması;
- bioloji müxtəlifliyi və genetik ehtiyatlar potensialını nəzərə almaqla, ölkənin təbii ehtiyatlarının davamlı və səmərəli istifadə olunması;
- aqrar istehsalçıların gəlirlərinin davamlı olaraq artırılması və kənd əhalisinin yaşayış səviyyəsinin yüksəldilməsi;
- qloballaşma nöqteyi-nəzərindən, Azərbaycanın istehsal və coğrafi yerləşmə üstünlüklərindən regional və beynəlxalq bazarlarda səmərəli istifadə edilməsi.

Göstərilənlərdən belə qənaətə gəlmək olar ki, qloballaşan dünya iqtisadiyyatında hər bir ölkənin resurs potensialı nəzərə alınmaqla, təbii-iqlim şəraitinin müxtəlifliyindən səmərəli istifadə olunmalı,məqsədli proqramlar həyata keçirilməlidir. Ona görə də kənd təsərrüfatının

inkişaf etdirilməsi üçün aşağıdakı srateji istiqamətlərin müəyyənləşdirilməsini məqsədəuyğun hesab edirik:

- aqrar-sənaye kompleksinin idarəedilməsinin bazar iqtisadiyyatı münasibətlərinə uyğun təkmilləşdirilməsi;
- iqtisadi səmərəliliyin yüksəldilməsi;
- ətraf mühitin bərpası;
- regional və beynəlxalq inteqrasiyanın dərinləşdirilməsi.

Aqrar sahənin inkişafını təmin etmək üçün aşağıdakı strateji istiqamətlər nəzərdə tutulmalıdır:

1. Struktur siyasəti.
2. Qiymət, ticarət və gömrük siyasəti.
3. Vergi siyasəti.
4. Kredit siyasəti.
5. İnvestisiya siyasəti.

Göstərilənlərlə əlaqədar aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilə bilər:

- kəndin təşkilatlanması;
- müxtəlif təsərrüfatçılıq formalarının yaradılması;
- mərkəzi idarəetmə orqanlarının struktur və funksiyalarının təkmilləşdirilməsi;
- qeyri-mərkəzləşdirilmiş, şaquli və üfüqi inteqrasiya olunmuş korporativ strukturlarının yaranmasının dəstəklənməsi;
- təbii-iqtisadi ehtiyatlara və tələbata uyğun olaraq, kənd təsərrüfatının ərazilər üzrə yenidən ixtisaslaşdırılması.

Araşdırmalar göstərir ki, qeyd edilən inkişaf istiqamətləri ilə yanaşı, kənd təsərrüfatı tədqiqatları, aqrar təhsil sistemi və informasiya-məsləhət xidməti rəqabətədavamlı məhsul istehsalının artırılmasında, məhsulların keyfiyyətinin yüksəldilməsində, istehsal məsrəflərinin azaldılmasında, gəlirlərin artırılmasında, texnoloji proseslərin təkmilləşdirilməsində, müasir tələblərə cavab verən kadrların hazırlanmasında, kənd təsərrüfatı istehsalçılarına və xidmət qurumlarına informasiya-məsləhət xidmətinin göstərilməsində əhəmiyyətli rol oynaya bilər. Bu baxımdan, informasiya-məsləhət xidməti əqli mülkiyyətin mühüm elementlərindən biri olmaqla, ölkənin strateji ehtiyatlar sırasına daxil edilə bilər. Ona görə də, kənd təsərrüfatı bilgilərinin sistemi aqrar siyasətin və aqrar sahənin inkişafının əsas şərtlərindən biri hesab olunmalıdır.

Fikrimizcə, kənd təsərrüfatı bilgilər sisteminin yenidən qurulması, onun idarəedilməsinin təkmilləşdirilməsi ölkədə baş verən dərin sosial- iqtisadi dəyişikliklərin mühüm tərkib hissələrindən biri olduğu üçün, aqrar siyasətin məqsədlərinə uyğun olaraq, kənd təsərrüfatı bilgiləri sisteminin məqsədlərini aşağıdakı kimi formalaşdırmaq olar:

- qloballaşma və beynəlxalq rəqabəti nəzərə almaqla, aqrar sektorun və kənd ərazilərinin aktual problemlərinin həlli üçün məsləhət xidmətinin təşkil edilməsi və informasiyanın hazırlanması;
- ehtiyatlardan səmərəli istifadə, biomüxtəlifliyin və genetik ehtiyatların qorunmasını nəzərə almaqla, kənd təsərrüfatında orta və uzunmüddətli proqramların hazırlanması və onun maliyyələşdirilməsi;

- tədqiqatların nəticələrinin və yeniliklərin aqrar istehsalçılara ötürülməsi üçün informasiya yayımı sisteminin yaradılması;
- aqrar kadrların inkişafının dəstəklənməsi və s.

Kənd təsərrüfatı bilgilər sisteminin dövlət tərəfindən himayə olunması ölkənin aqrar sektorunun rəqabətə davamlılığında mühüm rol oynaya bilər.Bu himayə məqsəd yönlü dövlət investisiya proqramlarının, eyni zamanda, özəl tədqiqatlar vasitəsilə həyata keçirilə bilər.

Bununla əlaqədar, kənd təsərrüfatı sisteminin yenidən qurulması üçiin bazar iqtisadiyyatının tələblərinə uyğun şəraitdə işləyə bilən, real vəziyyəti və baş verən dəyişiklikləri qiymətləndirməyi, məlumatlarla işləməyi və informasiya texnologiyalarından istifadə etməyi bacaran mütəxəssislərin hazırlanması vacib şərtlərdəndir. Odur ki, aqrar sahə üçiin kadrların hazırlığı və ixtisaslarının artırılmasının müasir tələblərə uyğun olaraq yenidən təşkili üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- orta ixtisas təhsilli kənd təsərrüfatı mütəxəssisləri hazırlığının təşkili üçün kənd təsərrüfatı texnikumlarının fəaliyyətinin bərpa olunması və onların maddi-texniki bazasının möhkəmləndirilməsi;
- ali və orta ixtisas təhsil müəssisələrinin aqrar elm müəssisələri və istehsal qurumları ilə əlaqələrinin gücləndirilməsi və onların birgə fəaliyyətinin təşkili;
- aqrar təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin əmək haqlarının artırılması, bu qurumlara daha müasir bilik səviyyəsinə malik perspektivli gənc kadrların cəlb olunması üçün lazımi şəraitin yaradılması;
- təhsil proqramları və tədris planlarına yenidən baxılması, onların müasir tələblərə uyğun təkmilləşdirilməsi, təhsilin forma və məzmununun aqrar siyasətin məqsədlərinə uyğunlaşdırılması;
- Regional Aqrar Elm Mərkəzinin təhsil müəssisələri üçün tədris-təcrübə bazası kimi formalaşması, bölgələrdə çalışan aqrar sahə mütəxəssislərinin ixtisaslarının artırılmasının RAEM-də təşkili məqsədilə daimi fəaliyyət göstərən ixtisasartırma kurslarının yaradılması.

Bütün bunlarla yanaşı, ölkənin iqtisadi inkişafına əhəmiyyətli təsir göstərən əsas amillərdən biri olan informasiya-kommunikasiya texnologiyaları və onların əsasında yaradılan informasiya təminatı sisteminin formalaşmasına xüsusi diqqət verilməlidir.

Bu baxımdan, kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan qurumların gələcək inkişafı dünyada, eyni zamanda, ölkəmizdə mövcud olan ən yeni elmi nailiyyətlər, qabaqcıl təcrübə, texnologiyalar, məhsuldar bitki sortları və hibridləri, heyvan cinsləri, müasir texnika eləcə də texnoloji avadanlıqlar haqqında məlumatların operativ qaydada əldə olunaraq istehsalçılara çatdırılmasından çox asılıdır. Bu məqsədlə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə və internet şəbəkəsindən geniş istifadə olunmasına əsaslanan aqrar informasiya təminatı sistemi yaradılmalıdır.

Bunun üçün aşağıda göstərilən vəzifələrin həyata keçirilməsi tələb olunur:

- Kənd Təsərrüfatı Nazirliyi sistemində müasir texnologiyalara, istifadə edilməsini və informasiya təhlükəsizliyini təmin edən aqrar informasiya təminatı sistemi yaradılmalıdır;
- Aqrar sahə üzrə informasiya təminatının dünya standartlarına uyğun təşkilini təmin etmək məqsədilə bu fəaliyyəti həyata keçirən vahid mərkəz formalaşdırılmalıdır.

- Beynəlxalq təşkilat və elm mərkəzləri, nazirlik, Azərbaycan Aqrar Elm Mərkəzi, regional aqrar elm mərkəzləri, tabeliyindən asılı olmayaraq aqrar profilli bütün elmi-tədqiqat institutları, təhsil müəssisələri, ixtisasartırma məktəbləri, aqrar sahədə fəaliyyət göstərən qurumlar, o cümlədən sahibkarlar arasında operativ informasiya mübadiləsi təşkil edilməlidir;
- Kənd təsərrüfatının bütün sahələrinə dair beynəlxalq, milli və regional səviyyəli elmi-texniki məlumatları özündə cəmləşdirən İnformasiya Bankı yaradılmalı və ümumi istifadəyə verilməlidir;
- İnformasiya təminatının təşkilində operativliyi təmin etmək üçün informasiya-kommunikasiya texnologiyalarından, xüsusil kompüterdən və internet şəbəkəsindən geniş istifadə olunması təşkil edilməlidir.
- Aqrar sahədə fəaliyyət göstərən bütün qurumların informasiya- kommunikasiya texnologiyalarından istifadə olunmasına maraq artırılmalı, bu məqsədlə bütün səviyyələrdə lazımi təbliğat iş aparılmalıdır;
- Aqrar sahə üzrə elmi-texniki informasiyalar əmtəəyə çevrilməli, informasiya və bilik bazarı yaradılmalı və inkişaf etdirilməlidir;
- Beynəlxalq aqrar informasiya məkanına inteqrasiyanı və onun imkanlarından istifadə olunmasını təşkil etmək məqsədilə beynəlxalq təşkilatların elmi-texniki informasiya sisteminə daxil olunması təmin edilməlidir;
- Beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sisteminin təşkili hesabına aqrar sahədə peşə və ümumi bilik səviyyəsi yüksəldilməlidir;
- Elmi-texniki informasiya məkanına daxil olan bütün tərəflərin məlumat almaq, onu yaymaq və istifadə etmək hüquqlarını təmin edən yaradılmalıdır;
- Aqrar informasiya təminatı sisteminin yaradılması üçün maliyyə mənbələri müəyyən edilməlidir və s.

Elmi-texniki nailiyyətlərə, beynəlxalq təcrübəyə, müasir texnika və texnologiyalara, mütərəqqi metodlara, məhsuldar bitki sortları və heyvan cinslərinə dair və s. toplanmış elmi-texniki məlumatların, mülkiyyət formasından asılı olmayaraq, bütün yerli istehsalçılara çatdırılması, onlar tərəfindən tətbiq olunması nəticə etibarilə respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına əlverişli zəmin yaradar.

Məlumdur ki, Azərbaycan Aqrar Elm Mərkəzinin yaradılması və fəaliyyətə başlaması ilə əlaqədar olaraq, kənd təsərrüfatı elminin yenidən qurulmasının, onun idarəetmə sisteminin təkmilləşdirilməsinin və informasiya-məsləhət xidmətləri göstərilməsinin birinci mərhələsi başa çatmışdır.

Hazırda əsas məqsəd kənd təsərrüfatı bilgiləri sisteminin milli strategiyasının işlənməsindən ibarət olmalıdır. Fikrimizcə, bu strategiya strukturun təkmilləşdirilməsinə, kənd təsərrüfatı sahəsində elmi-tədqiqat, təhsil və informasiya-məsləhət xidmətinin yenidən təşkilinə. idarə olunmasına və maliyyələşdirilməsinə yönəlməli, sistemin bazarının dəyişməsinə operativ reaksiya verilməsini təmin etməlidir.

Odur ki, Azərbaycan Aqrar Elm Mərkəzi ölkədə aparılan aqrar islahatlara uyğun kənd təsərrüfatının elmi təminatını, elmi kadrların hazırlanmasını və ixtisasının artırılmasını, yeni özəl qurumların mütəxəssislərinin peşə yönümlü hazırlığının yüksəldilməsini, elmi nailiyətlərinin təbliğini və tətbiqini müvəffəqiyyətlə həyata keçirməyə imkan verməlidir. Hazırda respublikanın 9 bölgəsində Regional Aqrar Elm Mərkəzləri (RAEM) yaradılmışdır.

Həmin mərkəzlər elmi- tədqiqat institutları ilə istehsal qurumları bölgələrdə fəaliyyət göstərən digər yerli və xarici təşkilatlar arasında sıx əlaqələri təmin etmə aqrar sahənin problemlərinin həll olunmasında və sahənin inkişafında aparıcı rol oynayan elmi mərkəzlərə çevrilir. Onlar elmi-tədqiqat institutları, təcrübə-dayaq məntəqələri və stansiyaları ilə birlikdə həm özlərinə məxsus olan torpaq sahələrində, həm də sahibkarların təsərrüfatlarında yeni bitki sortları, becərmə texnologiyalarına dair sərgi-nümayiş əkinləri, müasir texnikaya baxış və sair tədbir seminarlar, eləcə də qısamüddətli kurslar təşkil edirlər. Bununla onlar həm elmi məhsulların təbliğini və istifadə olunmasını, digər tərəfdən isə istehsalçıların problemlərinin həll olunması üçün lazımi tədbirlər görülməsini təmin edirlər. Bu isə aqrar sahənin inkişafına müsbət təsirini göstərir.

Mərkəzlərin fəaliyyətlərinin daha müasir formada - "Tədqiqat- mərkəzlər - təcrübə sahələri, laboratoriyalar, təlim, fermer sahələr nümayiş və təbliğ, kütləvi informasiya vasitələri - fermerlər" – sxemi üzrə formalaşdırılması üçün tədbirlərin görülməsi onların imkanlarını daha da artırır və aqrar sahədə bütün əlaqələri tənzimləyən yeganə mərkəzə çevrilməsini təmin edir.

Göstərilənlərlə yanaşı, aqrar sahə üçün kənd təsərrüfatı mütəxəssisləri hazırlığının və onların ixtisaslarının artırılmasının yenidən təşkilinin əsas yolu da mərkəzlərin potensial imkanlarından istifadə etməklə, kadr hazırlığının onların bazasında aparılmasıdır.

Xarici ölkələrdə olduğu kimi, təhsil müəssisələrinin mərkəzləri sıx əlaqələrinin yaradılması təhsil müəssisələrinin sahibkarlarla birgə fəaliyyətinə, mərkəzlərin nəzəri, elmi və təcrübə bazasına çevrilməsinə, kadrların ixtisaslarının isə burada daimi fəaliyyət göstərən ixtisasartırma kurslarında təşkil olunmasına imkan verərdi. Bu isə həm mərkəzlərin, elmi-tədqiqat institutlarının və fermer təsərrüfatlarının imkanlarından istifadə edilməsinə, müasir şəraitdə işləyə bilən, təhsillərini başa vurduqdan sonra birbaşa istehsalatda işləməyə hazır olan mütəxəssislər hazırlanmasına kömək edər, həm də onların elm sahəsinə marağını artırar və elmi işlərə cəlb olunmasına imkan yaradardı.

Ona görə də təhsil müəssisələri ilə yanaşı, mərkəzlərin və elmi- tədqiqat institutlarının maddi-texniki bazasının müasirləşdirilməsini, onların yeni texnika, müasir cihaz, aqreqat və laboratoriya avadanlıqları ilə təmin olunmasını, əmək haqlarının artırılmasını və yaşlı nəslin daha cavan, perspektivli gənclərlə əvəz olunmasını və sair tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik.

Dünya təcrübəsi göstərir ki, hər hansı istiqamətdə islahatlar sarıldıqda, optimal planın işlənib hazırlanmasına və qəbul edilməsinə qədər bir neçə vacib layihə və əməliyyatların həyata keçirilməsi vacibdir. Bu baxımdan, qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı prioritet istiqamətlərə üstünlük verilməlidir:

- kənd təsərrüfatında riskin böyük olduğunu nəzərə alaraq, tədqiqatların konkret proqramlarının stabilləşdirmə planının işlənməsi və həyata keçirilməsi;
- kənd təsərrüfatında elmi siyasətin işlənməsi və həyata keçirilməsi;
- Azərbaycan kənd təsərrüfatı elminin dünyanın elmi mərkəzləri ilə vaxtilə qurulmuş münasibətlərinin bərpa olunması və yeni əlaqələrin qurulması;
- pilot modeli əsasında kənd təsərrüfatı sistemində tez və lazımi vərdişləri, bilgiləri həyata keçirən peşəkar inkişaf modelinin işlənməsi və həyata keçirilməsi.

Belə bilgilərə kənd təsərrüfatının iqtisadiyyatı, aqrobiznesin idarə olunması, aqroekologiya, kənd təsərrüfatında texnoloji bilgilərin yayılması metodları, işçilərin

öyrədilməsi metodikası və elmi tədqiqatların idarə edilməsi daxil edilə bilər. Bölgə səviyyəsində pilot modeli əsasında tədqiqatın səmərəliliyini artırmaq üçün institusional mahal modelinin işlənməsi və həyata keçirilməsi təmin edilməlidir.

Kənd təsərrüfatı tədqiqatları sisteminin davamlılığı üçün böyük strateji əhəmiyyətə malik olan, nəzərəçarpacaq riskə məruz qalan prioritet kənd təsərrüfatı tədqiqatlarının və proqramların müəyyən edilməsi də əsas şərtlərdəndir.

Hər bir prioritet proqram və tədqiqat layihələrinin davamlılığını təmin etmək üçün uzunmüddətli tədbirlər proqramı hazırlanmalıdır. Beləliklə, hesab edirik ki, göstərilənlərin nəzərə alınması aqrar bölmənin inkişafına, sahibkarlığın formalaşmasına və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə imkan verə bilər.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Elm Mərkəzi, Elmi-tədqiqat müəssisələrinin 2004-cü ildəki fəaliyyətlərinin əsas yekunları. Bakı. 2005. 213 s.
2. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri: Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi: Elmi əsərlər toplusu, IV buraxılış. Bakı, 2003.
3. Azərbaycan aqrar elmi jurnalı. 2003-2004-cü illər.
4. İ.H. İbrahimov. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı, 2005, 360 s.
5. İ.H. İbrahimov. Aqrar islahatlar və sahibkarlığın inkişafı. Bakı 2005. 220 s.

*Azərbaycanda iqtisadi islahatların həyata*
*keçirilməsi xüsusiyyətləri və problemləri.*
*Elmi əsərlər toplusu. №7, Bakı 2006*

# SƏHMDAR CƏMİYYƏTLƏRİNİN SAHİBKARLIĞIN TƏŞKİLATİ-HÜQUQİ FORMASI KİMİ XARAKTERİK XÜSUSİYYƏTİ

***i.ü.f.d., dosent Əhmədov B.***

*2004-2009 -cu illərdə İİETİ-də*
*böyük elmi işçi, aparıcı elmi işçi,*
*şöbə müdiri vəzifələrində işləyibdir*

Azərbaycan Respublikası iqtisadiyyatının bazar münasibətlərinə keçidi azad sahibkarlıq mühitinin yeni təsərrüfatçılıq formalarının yaranmasına səbəb olmuşdur. Belə təsərrüfatçılıq formalarından biri də səhmdar cəmiyyətləridir. Hazırda dünyada səhmdar cəmiyyətləri iri və orta sahibkarlığın ən səmərəli və geniş yayılmış təşkilati formasıdır. Müasir dünya iqtisadiyyatında baş verən proseslər nəticəsində istehsal miqyasına, texnologiyanın səviyyəsinə, maliyyənin təşkili sisteminə qarşı yaranan tələblər səhmdar cəmiyyətlərinin formalaşması və inkişafına zəmin yaradır.

Səhmdar cəmiyyətləri-payçı mülkiyyətə əsaslanan, hüquqi şəxs olan, idarəçiliyi muzdla işləyən peşəkar menecerlər tərəfindən həyata keçirilən və sahibkarlığın dünyada geniş yayılmış təşkilati formasıdır. Onlar öz nizamnamə fondunu tədavülə səhm buraxmaq yolu ilə formalaşdıran və bunun nəticəsində toplanmış vəsait əsasında işgüzarlıq fəaliyyətini həyata keçirən kollektiv müəssisələridir. Belə cəmiyyətin səhmlərini alanlar onun səhmdarlarına çevrilirlər və aldıqları səhmin həcminə uyğun olaraq, onun mənfəətindən dividend almaq hüququ qazanırlar.

Səhmdar cəmiyyətlərinin yaranması məhsuldar qüvvələrin inkişafı, istehsalın miqyasının genişlənməsi və fərdi kapitalın məhdudluğu ilə bağlıdır. Məhz səhmdar cəmiyyətlərinin yaranması böyük kapital tələb edən işlərin görülməsini (iri tikintilərin aparılmasına, kanalların və dəmir yollarının çəkilişinə) imkan vermişdir.

Səhmdar cəmiyyətlərinin inkişafı qədim dövrdən başlanmış, onun yaradılmasının tənzimlənməsi, ilk növbədə, Rum imperiyasında, yəni Rum qanunvericiliyində öz əksini tapmışdır. Rum imperiyasının ərazisinin genişlənməsi, qonşu dövlətlərin (Yunanıstan,Korsika,Sardiniya və s.) zəbt olunması, digər xalqlarla ticarətin genişlənməsi, təsərrüfat fəaliyyətinin genişlənməsi Rum hüququnun inkişafına səbəb olurdu. Dinamik inkişafda olan təsərrüfatın tələbatı fiziki şəxslərin mülkiyyətinə nisbətdə xüsusiləşmiş mülkiyyət kütləsinin əmələ gəlməsinə gətirib çıxarmışdır.

Orta əsrlər səhmdar cəmiyyətlərinin formalaşması prosesində yeni mərhələ idi. Bu dövrün təsərrüfat praktikasına tacirlər ittifaqının yaradılması xas idi. Tacirlər və sənətkarlar ittifaqı (gildiya) üç istiqamətdə inkişaf edirdi ki, bu çərçivədə də səhmdar cəmmiyyətinin hüquqi əsasları formalaşırdı.

Bunlardan birincisi (ən əhəmiyyətli) Fransanın cənubunda XII əsrdə yaradılan korporativ birliklər idi. Onlar paylar əsasında yaradılırdı və bu paylar sərbəst şəkildə özgəninkiləşdirilirdi. Bu birliklərin fəaliyyətinə ali nəzarət orqanı olan payçıların ümumi yığıncağı tərəfindən seçilən idarəetmə qurumları rəhbərlik edirdi. Həmin dövrlərdə Almaniyada da dağ-mədən cəmiyyətləri yaradılırdı.

İkinci istiqamət orta əsrlərdə səlib yürüşləri və dəniz ticarətinin təsiri altında mədəni mübadilənin, xüsusilə, iqtisadiyyat və texnologiya sahəsində münadilənin güclənməsi nəticəsində inkişaf edirdi. Gəmilərin müştərək tikintisi, əldə olunması və istismarı məqsədilə dəniz ortaqlıqları yaradılırdı. Gəminin tikintisinin və ortaqlığının təşkilatçılığını üzərinə götürən şəxs, ortaqlıqda iştirak üçün digər insanları da dəvət edir, gəminin ölçüsünə, onun dəyərinə müvafiq payların miqdarını və ölçüsünü elan edirdi. Paylar bir-birinə bərabər tutulurdu.

Nəhayət, üçüncü istiqamət, səhmdar cəmiyyətlərinə daha yaxın olanı, Genuya şəhərində inkişaf etmiş İtaliya dövlət kreditorlarının korporativ birlikləri – masonlar idi. Məhz bu dövrdə səhmdar cəmiyyətlərinin yaradılması və fəaliyyətinin hüquqi əsasları formalaşmağa başlamışdır.

İlk səhmdar cəmiyyətləri XV-XVI əsrlərdə İtaliyanın Geniya və Milan şəhərlərində yaranmışdır. XVII əsrdə iri ticarət kompaniyaları : Hollandiyada “Ost Hind” (1600), Fransada “Kompani dez end Oksidental” (1628) yarandı. Hazırda çox geniş yayılmış “səhm” sözü də ilk dəfə həmin dövrlərdə işlənmişdir.

ABŞ-da səhmdar cəmiyyətlərinin inkişafı müstəqillik uğrunda müharibədən sonra sürətlənmişdir. XVIII əsrin son 10 ilində bu ölkədə məcmu səhmdar kapitalı 1803-cü ildə 48,4 mln. dollara çatan 259 müxtəlif səhmdar cəmiyyətləri yaradılmışdır ki, bunların yalnız 8-i sənaye, 29-u bank, qalanı isə ticarət müəssisəsi olmuşdur.

XIX əsrin əvvəlindən Qərbi Avropada maşınqayırma sənayesinin, dəmiryol nəqliyyatının və gəmi istehsalının inkişafı səhmdar cəmiyyətləri formasında baş verirdi. Səhmdar cəmiyyətləri hazırda bütün dünyada sahibkarlıq fəaliyyətinin əsas təşkilati formasıdır.

İnvestorlar üçün sahibkarlığın bu təşkilati formasının dörd üstün cəhəti vardır: hüquqi şəxs kimi səhmdar cəmiyyətinin müstəqilliyi, fərdi investorların məsuliyyətinin məhdudluğu, fərdi investorlara məxsus səhmlərin bir mülkiyyətçidən digərinə verilməsi imkanı, həmçinin mərkəzləşdirilmiş idarəetmə.

Birincisi, iki xüsusiyyət səhmdar cəmiyyəti ilə onun səhmdarlarının məsuliyyəti arasındakı fərqi müəyyən edir: səhmdar cəmiyyətin sahib olduğu mülkiyyət və daşıdığı məsuliyyət səhmdarlara aid olmaya bilər. Fərdi investorların məsuliyyət ölçüsü onların səhmdar cəmiyyətin qoyduğu payın həcmi ilə müəyyənləşir. Sahibkarlığın bu təşkilati formasının inkişafı investorlara investisiya riskini bölüşdürməyə imkan verir. Bunun nəticəsində səhmdar cəmiyyəti kifayət qədər böyük həcmli maliyyə resursları cəlb etmək, həmçinin ayrı-ayrı investorların imkanı xaricində olan riski öz üzərinə götürmək məcburiyyətində qalır.

Səhmdar cəmiyyətlərinin iqtisadi mahiyyətinin öyrənilməsində bu tip müəssisələrin tədavülə buraxdığı qiymətli kağızların növlərinin və onların xüsusiyyətlərinin müəyyən edilməsi əhəmiyyətli rol oynayır.

Səhmdar cəmiyyətinin nizamnamə kapitalı adi və imtiyazlı səhmlərin yerləşdirilməsi

nəticəsində formalaşdırılır.

Səhmdar cəmiyyəti üçün maliyyə resurslarının cəlb olunmasının əsas yolu səhmlərin buraxılışıdır. Səhm - onun sahibinin (səhmdarın) səhmdar cəmiyyətinin mənfəətinin bir hissəsini dividend şəklində almaq, səhmdar cəmiyyətinin idarə edilməsində iştirak etmək və cəmiyyət ləğv edildikdən sonra qalan əmlakın bir hissəsini əldə etmək hüququnu təsbit edən emissiya qiymətli kağızdır. Qiymətli kağız - onun sahibinin əmlak və qeyri-əmlak hüquqlarını və bu hüquqların verilməsi imkanını müəyyən edilmiş formaya və məcburi rekvizitlərə riayət etməklə təsdiqləyən sənəddir. Buraxılışlarla yerleşdirilən və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq, bir buraxılış daxilində hüquqların həyata keçirilməsi həcmi və müddəti eyni olan qiymətli kağızlar emissiya qiymətli kağızları adlanır.

Səhmlər dövriyyəyə buraxılma və ödənilməsi mərhələsindən asılı olaraq, elan olunmuş, yerləşdirilmiş və tamamilə ödənilmiş səhmlərə bölünür. Elan olunmuş səhmlər-səhmdar cəmiyyətinin yerləşdirilmiş səhmlərə əlavə olaraq buraxdığı səhmlərin sayının yuxarı həddini göstərir. Yerləşdirilmiş səhmlər- səhmdarların abunə yazıldıqları səhmlərdir. Tamamilə ödənilmiş səhmlər isə sahibləri tərəfindən yerləşdirilmiş səhmlərin dəyərlərini tam şəkildə səhmdar cəmiyyətinin hesabına köçürülmüş hissəsidir.

İnvestorlar adi səhm alaraq, səhmdar cəmiyyətinin nizamnamə fonduna müddətsiz pay qoyurlar. Adi səhmlərin mülkiyyət hüququnun daşıyıcısı kimi səhmdarın əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, verdiyi payı səhmdar cəmiyyətindən tələb edə bilməz. Deməli, adi səhm-müəssisə ləğv olunana qədər mövcud ola bilən qiymətli kağızdır.

İmtiyazlı səhmlərin sahibləri səhmdarların ümumi yığıncağında səsvermə hüququna malik olmasalar da, dividend almaqda və cəmiyyət ləğv edilərkən onun əmlakından pay almaqda üstün hüquqa malikdirlər. Adətən, imtiyazlı səhmlərə müəyyən edilmiş sabit dividend verilir. Ödənilməmiş dividendlərin yığım imkanları baxımından imtiyazlı səhmlər kumulyativ və qeyri-kumulyativ səhmlərə bölünür. Kumulyativ imtiyazlı səhmlərə görə, səhmdar cəmiyyətlərinin ağır maliyyə vəziyyəti ilə əlaqədar və ya digər səbəbdən dividendlər ödənmirsə, onda dividendlər yığılır və sonrakı illər ödənilir. Qeyri - kumulyativ imtiyazlı səhmlər üzrə ödənilməyən dividendlər yığılır və sonrakı illər ödənilmir.

İmtiyazlı səhmlərin əsas üstünlüyü ondan ibarətdir ki, adi səhmlərə nisbətən, ilkin olaraq, bu səhmlər üzrə öhdəliklər ödənilir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə görə, adi səhmlər səhmdar cəmiyyətinin nizamnamə kapitalının 75 faizindən az, imtiyazlı səhmlər isə 25 faizindən çox ola bilməz.

Səhmdar cəmiyyətləri həm də istiqraz vərəqələri buraxırlar. İstiqraz vərəqəsi-sahibinin səhmdar cəmiyyətindən istiqraz vərəqəsində nəzərdə tutulmuş müddətdə onun kapital dəyərini və bu dəyərdən müəyyən edilmiş faizi və ya başqa əmlak ekvivalentini almaq hüququnu təsbit edən emissiya qiymətli kağızıdır. İstiqraz vərəqəsini alan şəxs səmdar cəmiyyətinin sahiblərindən birinə çevrilmir, sadece olaraq, onun kreditoru olur. Səhmdən fərqli olaraq, istiqraz vərəqəsi müddətli xarakterə malikdir və gəlirlərin alınmasında onların sahibləri üstün hüquqa malikdirlər. Əgər səhmlər əsasən (praktiki olaraq,hamısı) adlı olursa, istiqraz vərəqələri adlı və təqdim edən olur.

Səhmdar cəmiyyətinin xarakterik xüsusiyyətlərindən biri onunla əlaqədardır ki, müxtəlif pul resurslarının səfərbərliyə alınmasının səhmdar forması kreditə nisbətən daha cəlbedicidir. Belə ki, yaradılmış səhmdar cəmiyyətinin səhmlərini almış səhmdar onun

dəyərini geri tələb etmək hüququ yoxdur, yəni cəlb edilmiş vəsaitlər geri qaytarılma xarakterine malik deyillər. Hətta müəssisənin qeyri-qənaətbəxş fəaliyyət göstərdiyi şəraitdə belə, səhmdar cəmiyyəti səhm sahiblərinə səhmlərin dəyərini ödəmək məcburiyyətində deyildir. Yerləşdirilmiş səhmlər dividendlər qoyulmuş investisiyaya verilən təminatlı gəlir növü deyildir, bütövlükdə müəssisənin xalis mənfəətinin həcmindən asılıdır (imtiyazlı səhmlər istisna olmaqla). Səhmdar cəmiyyətləri yalniz müəssisənin səhm sahiblərinə münasibətdə iqtisadi məsuliyyətinin özünəməxsusluğu ilə seçilmir, bu özünəməxsusluq həm də üçüncü şəxslərə aiddir. Belə ki, səhmdar öz əmlakı və pul vəsaitləri ilə cəmiyyətin öhdəliklərinə görə risk etmir və cavabdeh deyildir.

Səhmdar cəmiyyətlərinin digər fərqli xüsusiyyətlərindən biri yeni gəlir formalarının - məsələn, səhmin kursunda yaranan fərqlərə görə gəlirləri (səhmin bazar qiyməti ilə onun nominal qiyməti arasındakı fərq) əmələ gəlməsidir.

Səhmdar cəmiyyətində qiymətli kağızların çoxsaylı sahibləri iqtisadi cəhətdən müstəqil, xüsusiləşmişvə bir-birindən təcrid olunmuş mülkiyyətçilər olsa da, ümumi iqtisadi maraqların daşıyıcısına çevrilirlər. Alıcı səhm əldə edərək yeni müəssisənin sahibinə çevrilir. Səhmdarların iqtisadi davranışlarında yeni motiv əmələ gəlir: resursların birləşdirilməsi müştərək qoyuluşların, müştərək cəhdlərin nəticəsi kimi yeni bazarları mənimsəməyə və əlavə gəlirlər əldə etməyə imkan verir. Cəmiyyətin iqtisadi həyatında səhm sahiblərinin iqtisadi xüsusiləşməsi ilə müştərək fəaliyyət tələb edən ümumi maraqları arasında yeni ziddiyət əmələ gəlir.

Səhmdar forma etibarilə öz-özlüyündə mülkiyyətə münasibətin demokratikləşməsi amilidir. Onda kapitalın fərdi forması inkar edilir,ümumi idarəetmə əsasında kollektiv mülkiyyət formalaşır, təsərrüfat qərarları qəbul edilir və gəlirlər bölüşdürülür. Mülkiyyətçi funksiyasını nümayəndəli orqan-səhmdarların ümumi yəğıncağı yerinə yetirir ki, bu orqanın da səlahiyyətlərinin miqyasının prinsipial əhəmiyyəti vardır. Səhmdar cəmiyyətlərinin fəaliyyətində bütün səhm sahiblarinin ümumi yığıncaqda təmsil olunma dərəcəsi haqqında, ümumi yığıncağın müəssisənin digər funksional icra orqanları-idarə heyəti və müşahidə şurası ilə qarşılıqlı münasibətlərinin xarakteri haqqında məsələlər də prinsipial əhəmiyyət daşıyır. İcra orqanlarının iradələrinin ümumi yığıncağa tabe olunması, onun statusunun artırılması ümumi iqtisadi maraqların formalaşmasına səbəb olur.

Belə şəraitdə səhmə mülkiyyət dividendi əldə olunmasından, ümumi yığıncaqda iştirakdan və öz səhmlərini satmaq hüququndan daha çox mahiyyətə malik olur. Çünki səhm sahibi səhmdar cəmiyyətinin idarəetmə və nəzarət orqanları vasitəsilə mülkiyyətin bütün hüquqlarını həyata keçirə bilər.

Qeyd etmək lazımdır ki, səhmdar cəmiyyətinin sahibkarlığın təşkilati forması kimi üstünlüklərini birmənalı qiymətləndirmək düzgün deyildir. Çünki yuxarıda qeyd edilənlər səhmdar cəmiyyətinin üstünlüklərinin, imkanlarının maksimum səviyyəsini göstərir. Praktikada isə çox vaxt səhmlərinin nəzarət paketinə malik səhmdar və ya səhmdarlar qrupu müəssisəni bütövlükdə idarə edir, digər səhm sahibləri isə dividend almaq və səhmləri alıb-satmaq hüququna malik olurlar.

Səhmdar cəmiyyətlərinin üstünlükləri ilə yanaşı, onun bir sıra çatışmazlıqları da var. Birinci çatışmazlıq ikiqat vergilərin ödənilməsi-mənfəətdən və səhm sahiblərinin aldıqları dividenddən vergi ödənməsi ilə əlaqədardır. Belə ki, hal-hazırda Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən, səhmdar cəmiyyətləri əldə etdikləri mənfəətdən 24 faiz vergi

ödədikdən sonra dividend verərkən, əlavə olaraq, dividendin həcmindən 10 faiz vergi verir. İkiqat verginin ödənilməsi qaydası dünyanın digər ölkələrində də belədir.

İkincisi, səhmdar cəmiyyətinin fəaliyyəti üzərində ciddi nəzarətin olması, onun yaradılması, həmçinin qeydiyyatına sərf edilən xərcin və vaxtın çoxluğu ilə əlaqədardır. Səhmdar cəmiyyətlərinin yaradılması və fəaliyyətinə nəinki vergi və ədliyyə orqanları tərəfindən, həm də qiymətli kağızların tədavülünü tənzimləyən dövlət orqanları tərəfindən nəzarət olunur. Digər tərəfdən, səhmdar cəmiyyətinin emissiya prospektinin təsdiqi, qiymətli kağızın dövlət qeydiyyatından keçirilməsi və s. əlavə vaxt və xərc tələ edir. Məsələn, Azərbaycan Respublikasında səhmdar cəmiyyəti Ədliyyə Nazirliyində hüquqi şəxs kimi dövlət qeydiyyatından keçməklə yanaşı, nizamnamə fondunu formalaşdırmaq üçün səhmlərin emissiya prospekti Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilməlidir. Üçüncüsü, səhmdar cəmiyyətlərinin fəaliyyəti nəticə etibarilə inhisarçılığa meyilli olur. Bu, səhmdar cəmiyyətinin əlavə kapitalın cəlbetmə imkanlarının böyük olması ilə əlaqədardır.

İnkişaf etmiş ölkələrin iqtisadiyyatında səhmdar cəmiyyətləri əhəmiyyətli rol oynayırlar. Məsələn, ABŞ-da təqribən 19 milyon müəssisədən 70 faizə qədər fərdi, 10 faizi şərikli, 20 faizi isə səhmdar cəmiyyətləridir. Lakin ABŞ iqtisadiyyatında məhz səhmdar cəmiyyətləri hegemon rol oynayırlar. Belə ki, emaledici sənaye sahəsində istehsal olunan məhsulun 90 faizi onların payına düşür. 500 iri səhmdar cəmiyyəti isə ümumi daxili məhsulun 40 faizindən çoxunu istehsal edir.

Beləliklə, səhmdar cəmiyyətinin xarakterik xüsusiyyətlərinin təhlili göstərir ki, o, sahibkarlığın səmərəli formasıdır. Ölkənin iqtisadi inkişafının təmin olunması və dünya təsərrüfat sisteminə inteqrasiyası baxımından səhmdar cəmiyyətlərinin yaradılması əsasında sahibkarlığın inkişaf etdirilməsinin mühüm əhəmiyyəti vardır.

ƏDƏBİYYAT

1. "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikası Qanunu, 14 iyul 1998-ci il.
2. "Azərbaycan Respublikasının Mülki Məcəlləsi ". Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2000.
3. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 16 may 2000-ci il.
4. Н.И.Берзан, Е.А.Буйанова, М.А.Кожевников, А.В.Чаленко. Фондовый рынок. М., "Вита-Пресс", 1998
5. С.Д.Могилевский. Акционерное общество. М., "Дело" 1999.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №7, Bakı 2006*

# AZƏRBAYCANDA REAL SEKTORUN KREDİTLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

***i.e.n. Adıgözəlov Ş.***

*2004-2005 və 2007-2009-cu illərdə İİETİ-də böyük mütəxəssis, baş elmi işçi vəzifələrində işləyibdir.*

Real sektorun inkişafı mövcud iqtisadi potensialın artırılması və ondan səmərəli istifadə problemindən xeyli asılıdır. Bu, onunla əlaqədardır ki, iqtisadiyyatın davamlı inkişafı mövcud texnikanın modernləşdirilməsinə əlavə maliyyə resurslarının cəlb edilməsini zəım edir. Lakin real sektorda daxili maliyyə ehtiyatlarının məcmu həcmi istehsalın səmərəliliyinin daim artırılması mexanizminə əsaslan sabit iqtisadi artım üçün kifayət deyil və ona görə də əlavə maliyyə resurslarının cəlbi zərurət olaraq meydana çıxır. Bu baxımdan iqtisadiyyatın sabit inkişafı kreditləşmə prosesini aktivləşdirmədən mümkün deyil. Ölkədə maliyyə bazarının digər seqmentlərinin zəif inkişaf etdiyi şəraitdə real sektorun maliyyə təminatında bank kredm mühüm əhəmiyyətə malikdir. Bu əhəmətiyyətlilik onda təzahür edir ki, hazırda kreditlər real sektorda aktivlərin əsas mənbəyidir. Xüsusilə, real sektor resurs mənbəyi kimi dövriyyə və investisiya vəsaitləriylə kifayət qədər təmin olunmadığından, kreditlərin rodu daha artır. Bununla belə, banklar maliyyə resurslarının iqtisadiyyatın sektorları arasında yenidən bölüşdürülməsinin ən səmərəli aləti və mobil mənbələrdəndir. Çünki o, cari tələbdən və real sektorun maliyyə təsərrüfat vəziyyətindən asılı olaraq verilir. Kreditə tələbin artma iqtisadiyyatın dinamik inkişafını göstərir. Bu, faiz dərəcəsinin azal dılması müqabilində baş verir. Kreditə tələbin az olması iqtisadiyyat- qeyri-sabit vəziyyətdə olduğunu və investisiya aktivliyinin azalma an dəlalət edir. O, məcmu tələbin azalması və faiz dərəcəsinin artma ilə müşayiət olunur. “Kreditə olan tələb və təklifin artması konkret makroiqtisadi göstəricilərə istiqamətlənmiş pul-kredit siyasətinin nəticəsidir” [1, s.69]. Sent-Luis modelinin 1995-2003-cü ilin statistik məlumatları əsasında Azərbaycan şəraiti üzrə qiymətləndirilməsi də ÜDM-in artmasında büdcə xərcləri ilə müqayisədə kredit qoyuluşunun daha çox təsirə malik olması müşahidə olunur.

$$\text{ÜDM} = -1866{,}4 + 2{,}2 * \text{büdcə} + 7{,}7 * \text{kred} \quad (1)$$
$$(1{,}04) \qquad (2{,}2)$$
$$R2 = 0{,}98 \qquad DW = 2{,}8$$

Modeldən göründüyü kimi, ÜDM-in artım dinamikasın büdcə xərcləri (2,2) ilə müqayisədə kreditlərdən asılılığı (7,7) daha çoxdur. Eyni zamanda, 1995-2003-cü illərdə ÜDM-in artımının 98%-i bu amillərin təsiri ilə şərtlənib.

Real sektora kredit qoyuluşu bir sıra konyunktur amillərdən, ilk növbədə iqtisadiyyatın inkişafından, tədavül üçün pulun zəruriliyindən və kifayətliliyindən asılıdır. Ölkədə

iqtisadiyyatın sabit inkişafı ıc;ıl sektora yönəldilən investisiyanın tərkibində şəxsi vəsaitlərin llslünlük təşkil etməsini şərtləndirir. Fikrimizcə, iqtisadiyyatda bir sıra müsbət halların müşahidə edilməsinə baxmayaraq, real sektorun kreditləşdirilməsi qeyri-neft sferasının inkişaf etməsi ilə əlaqədar olaraq kreditə olan tələbin artmasından irəli gəlmir. Belə ki, real sektorda daxili ehtiyatların çatışmadığı bir şəraitdə kreditdən yalnız dövriyyə vəsaitlərinin tamamlanması üçün istifadə olunaraq onun əsas mənbəyinə çevrilir. Bu mənada, bankların real sektorda fəaliyyətinin nəticələrinə də bütövlükdə dövriyyə vəsaitlərinin fəaliyyətinin nəticələrindən ayrılmış şəkildə baxmaq olmaz. İqtisadi fəaliyyətin əsas göstəricisi ÜDM olduğundan, xərc və nəticə göstəricilərinin dinamikasının ona uyğun qurulması kreditdən istifadə haqqında müəyyən fikir yaradır (Cədvəl 1).

Cədvəl 1.

Bank krediti və ÜDM-in artım tempi, əvvəlki ilə nisbətən, %-lə

| Göstəricilər | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|
| ÜDM | 15.6 | 9,0 | 9.7 | 25,0 | 12,7 | 11,4 | 19,5 |
| Məcmu kredit qoyuluşu | 12.2 | 4,5 | 3,9 | 4,8 | 4 | 7,0 | 28,7 |
| Ondan: Qısamüddətli | 13,5 | 9,8 | 3,5 | -22.6 | 5.9 | 5.7 | 30,2 |
| Uzunmüddətli | -2,1 | -67,4 | 19,8 | 108.2 | 1,8 | 10.3 | 25,5 |

[2, s.36,38]

Cədvəl 1-in təhlili zamanı qeyd etmək lazımdır ki, belə mürəkkəb əlaqəni ifadə edən göstəricilərin dinamikasında bərabərlik gözləmək olmaz. Lakin göstəricilərin artmasındakı dəyişikliklər real sektorun inkişafı üçün hansı maliyyə mənbələrindən daha çox istifadə olunması və onun səbəblərini müəyyən etməyə imkan verir. Real sektora qoyulan kreditin artım tempi dövriyyə vəsaitlərinin artım tempinə nisbətən azdır. Fikrimizcə, bunun əsas səbəbləri aşağıdakılardır:

1. İqtisadiyyatın bazar münasibətləri əsasında inkişafı real sektora kredit qoyuluşunun belə bir istiqamətini müəyyən etmişdir ki, kreditləşmə sahəsində mövcud problemlərlə əlaqədar olaraq borclanııı məbləği son nəticəyə nisbətən daha az artmışdır;

2. Real sektora yönəldilən kreditlərin əksər hissəsi istehsalın əlavə genişlənməsinə deyil, maliyyələşmə mənbələrindəki kəsrin, örtülməsinə yönəldilir.

Belə ki, kredit münasibətlərinin mövcud mürəkkəb şəraitində müəssisələr üçün kreditdən istehsalın əlavə artırılması qismində istifadə edilməsi səmərəli deyil. İlk növbədə ona görə ki, krediti, riskli və qısa müddətli xarakterə malik olmaqla yanaşı, faiz dərəcəsi də rentabellik səviyyəsindən yüksəkdir. Eyni zamanda, ölkədə bani sektorunun inkişaf dinamikasının müsbət istiqamətə malik olmasın, baxmayaraq, o, real sektorun inkişaf göstəricilərinin dəyişməsin uyğun deyil. Xüsusilə, emaledici sənayenin maşınqayırma və metal emalı sahələri daha məhdud həcmdə kreditləşdirilir. Real sektorun strukturunun əhəmiyyətli dərəcədə təzələnməsi isə bu proseslə şərtlənir. Nəzərə almaq lazımdır ki, real sektorla banklara bir-birindən ayrılımış şəkildə fəaliyyət göstərən sistem kimi baxmaq olmaz. Onlar arasında qarşılıqlı əlaqənin gücləndiyi şəraitdə real sektorla bank arasındakı əksliyin aradan qaldırılmasında potensial imkan yaranır. Belə ki. real sektor nə qədər çox inkişaf edərsə və maliyyə cəhətdən sabit olarsa banklar da bir o qədər sabit inkişaf etmiş olar. Yəni, “real istehsala xidmət edən bank sektoru iqtisadiyyatın sahələrinin inkişaf səviyyəsindən

əhəmiyyətli dərəcədə asılıdır" [3, s.36]. Lakin, real sektorun borc vəsaitinə olan tələbatının ödənilməsində banklar aşağıdakıları nəzərə alır:

1. Ümumi iqtisadi konyunktura və ölkənin sosial-iqtisadi vəziyyəti;
2. Real sektorun özündə iqtisadi fəaliyyətin gəlirlilik səviyyəsi;
3. Resurs çatışmazlığı problemi və tədavüldə pul kütləsinin artmasına Milli Bankın yanaşma mövqeyi.

Bankla real sektor arasındakı maraqları əks etdirən bu amillər İQTİSADİ inkişafda mühüm rol oynayır. Ölkədə kredit münasibətlərinin inkişafının əsas göstəricisi də banklar tərəfindən real sektora qoyulan kreditlərin mövcud vəziyyətidir (Cədvəl 2).

Cədvəl 2.

Bankların kredit əməliyyatları, mlrd, manat

| Göstəricilər | 01.01.2002. | 01.01.2003 | 01.01.2004 |
|---|---|---|---|
| İqtisadiyyata kredit qoyuluşu | 2431,3 | 2600,8 | 3339,1 |
| Real sektora kredit qoyuluşu | 1976,8 | 2254,0 | 2980.0 |
| Vaxtı keçmiş kreditlərin məcmu kredit qoyuluşunda xüsusi çəkisi, %-lə | 12.74 | 11,91 | 11,31 |
| Maliyyə sektoruna kredit qoyuluşu | 88,8 | 104 | 104,5 |

[4,s. 15,23]

Cədvəl 2-dəki göstəricilər istər inkişaf etmiş ölkələrin, istərsə də keçid tipli ölkələrin göstəriciləri ilə müqayisədə hələ ki, aşağı səviyyədə olaraq qalmaqdadır. Onun yüksək olması bankların istehsal prosesində aktiv iştirakını göstərir. Bu göstərici keçid tipli ölkələrdə, o cümlədən Çexiyada ÜDM-də 90%, Slovakiyada 41%, Polşada 24%, Ruminiyada isə 19% təşkil edir. Real sektor müəssisələrinin həm öhdəlikləri və həm də daxili investisiya mənbələrinin aktivləşdirilməsi sahəsindəki problemlər real sektora qoyulan kreditlərin səmərəliliyini azaldır. Daha doğrusu, bankların real sektorda kredit fəaliyyəti kreditlər üzrə faiz dərəcəsinin və kreditləşmə şəraitinin yüksək sistemli riskə malik olması, ödəmə qabiliyyətli tələbin zəifliyi və borcluların maliyyə vəziyyətinin qismən qeyri-sabit olması ilə əlaqədar olaraq məhdudlaşmışdır. Bu problem nəticədə bankların daha az riskə malik olan maliyyə bazarında fəaliyyətini stimullaşdırır. Lakin, statistik məlumatlar ölkədə iqtisadi inkişafın tədricən yaxşılaşmasını göstərir. Belə ki, ölkədə istehsal olunan ÜDM yüksək artım tempinə malikdir.

Bank sisteminin aktivlərinin isə təxminən 1,5%-i, M2 pul kütləsinin 0,9%-i iqtisadiyyata kredit qoyuluşuna yönəldilib. Təbii ki, bu amil istehsalın artırılmasına, maliyyə vəziyyətinin sabitləşdirilməsinə və bankların resurs bazasının həcminin artmasına öz müsbət təsirini göstərir. Bankların ssuda portfelinin yaxşılaşması iqtisadiyyatın sahələri üzrə qoyulan kreditlərin strukturunda da öz əksini tapmışdır (cədvəl 3).

Cədvəl 3-dən göründüyü kimi, əgər 01.01.2002-ci ildə sənayeyə qoyulan kredit məcmu kredit qoyuluşunda 4,52% təşkil edirdisə, 01.01.2004-cü ildə bu göstərici 8%-ə qədər yüksəlmişdir. Eyni zamanda, vaxtı keçmiş kreditlərin xüsusi çəkisi 11,46% azalmışdır. Əgər qısamüddətli kreditlərin başlıca olaraq dövriyyə vəsaitlərinin uzunmüddətli kreditlərin isə əsas

istehsal fondlarının genişləndirilməsi məqsədilə istifadə edildiyini nəzərə alsaq, onda öyrənilən dövrdə bank kreditlərinin real sektorun inkişafında elə də mühüm əhəmiyyət kəsb edə bilmədiyini göstərə bilərik. Bununla yanaşı, kredit üzrə borclar 01.01.2002, 01.01.2003 və 01.01.2004-cü illərdə sənayeyə qoyulan kreditlərin həcmində 0,6%, 0,4% və 1,6%, kənd təsərrüfatına yönəldilən kreditlərin tərkibində 0,8%, 2,2% və 1,9% təşkil t kreditlərin banklar üçün də bir o qədər səmərəli olmadığın təsdiq edir. Fikrimizcə, iqtisadiyyata qoyulan investisiyaların artması ilə əlaqədar olan müsbət hallar real sektora kredit qoyuluşu sahəsində mövcud olan sistemli risklərin aktuallığını azaltmır. Həm real sektora və həm də bütövlükdə iqtisadiyyata qoyulan kreditlərin həcminin artması bank sisteminin məcmu aktivlərinin artması nəticəsində fəaliyyətinin nisbətən aktivləşməsi fonunda baş vermişdir. Bu prosesə dövlət tərəfindən “ucuz kreditlər hesabına iqtisadiyyatda kiçik və orta sahibkarlığın inkişafına verilən kreditlər və mikromaliyyələşmə kreditləri də müsbət təsir göstərmişdir. Səmərəlilik baxımından kredit qoyuluşunda bu amillər deyil, daha sabit xüsusiyyətə malik əmanət və depozitlər üstün rola malik olmalıdır. Çünki istənilən sistemdə əmanət və depozitlər kreditlərin əsas mənbəyi hesab edilir. Azərbaycanda 1996-cı illə müqayisədə ev təsərrüfatının əmanətləri 2003-cü ilə qədər həcmcə və ÜDM-də xüsusi çəkisinin əhəmiyyətli dərəcədə artması müşahidə olunur ([6, s. 15-20]).

Cədvəl 3.

İqtisadiyyat sahələri üzrə qoyulan kreditin strukturu

| Göstəricilər | 01.01.2002 | | 01.01.2003 | | 01.12.2003 | | 01.01.2004 | |
|---|---|---|---|---|---|---|---|---|
| | həcmi (mlrd, man) | xüsusi çəkisi, %-lə | həcmi (mlrd, man) | xüsusi çəkisi, %-lə | həcmi (mlrd, man) | xüsusi çəkisi, %-lə | həcmi (mlrd, man) | xüsusi çəkisi, %-lə |
| Məcmu kredit | 2431,3 | 100 | 260083 | 100 | 319084 | 100 | 335150 | 100 |
| O cümlədən: vaxtı keçmiş | 498,7 | 21,52 | 273113 | 21,46 | 294078 | 9,22 | 337136 | 10,06 |
| Sənaye | 84556 | 4.52 | 78414 | 3,84 | 218485 | 8,26 | 217939 | 7,99 |
| Kənd təsərrüfatı | 64107 | 3,43 | 126739 | 6,20 | 194004 | 7.34 | 181157 | 6,64 |
| Dövlət bankları | 1116.4 | 45,92 | 124071 | 47,70 | 132076 | 41.39 | 145600 | 43,44 |
| Özəl banklar | 8604 | 35,39 | 101328 | 38,96 | 151100 | 47,35 | 152399 | 45.47 |

Lakin əmanətlərin artımında iqtisadi parametrlər arasında uyğunsuzluq var. Belə ki, hazırda manatın dəyərsizləşməsi, inflyasiyanın süni qorunması, ödəmə qabiliyyətinin azlığı və belə bir şəraitdə istehsalın artması hesabına şəxsi əmanətlərin göstərilən həcmdə artmasına nail olmaq mümkün deyil. Bunu ev təsərrüfatlarının şəxsi gəlirlərinin istehlak və qiymət artımı ilə müqayisəsi də təsdiq edir. Bu zaman müşahidə edilən cüzi artım səviyyəsi yalnız əmanətlərin banklara cəlb olunmasına və ən qısamüddətli investisiya qoyuluşuna çevrilməsində az imkan yarada bilər. Belə imkanların realizasiya səviyyəsi isə əmanətlərin strukturu ilə müəyyən olunur (cədvəl 4).

Cədvəl 4

Əmanətlərin strukturu, mlrd, manat

| Göstəricilər | 01.01.2001 | 01.01.2002 | 01.06.2003 | 01.12.2003 |
|---|---|---|---|---|
| Cəlb edilən depozitlər | 392,4 | 117,4 | 963,4 | 767. 3 |
| Nağd vəsaitlər | 149,6 | 131,4 | 252,9 | 330,2 |
| Aktivlərdə xüsusi çəkisi, %-lə | 3,46 | 3,6 | 5,49 | 6,65 |
| Qiymətli kağızlara investisiya | 110,8 | 88,2 | 230,0 | 362 9 |
| Aktivlərdə xüsusi çəkisi, %-lə | 2,56 | 2,42 | 4,49 | 7,3 |

[7. s 15-20]

Cədvəl 4-dəki məlumatlar real sektora yönəldiləcək investisiya potensialı baxımından əmanətlərin strukturunun qeyri-səmərəliliyini təsdiq edir. Belə ki:

1. Fərdi əmanətlərin əksər hissəsi bank sektorundan kənarda cəmləşib;
2. Kredit resursu mənbəyi kimi ev təsərrüfatının əmanətləri əhəmiyyətsiz rola malikdir;
3. Banklarda tələb olunanadək əmanətlər üstünlük təşkil etdiyindən uzunmüddətli kredit qoyuluşu zəifdir və qeyri-bank maliyyə-kredit təşkilatları sistemi (investisiya, sığorta, pay və s. fondlar) zəif inkişaf etmişdir;
4. Nağd xarici valyutada yerləşən əmanətlərin də xüsusi çəkisinin artması müşahidə edilir.

Kredit mənbəyi kimi əmanətlərin tərkib hissələrinin təhlili göstərir ki, resurs mənbələrinin zəifliyi rentabelliyin səviyyəsinin azalmasına və zərərlə işləyən müəssisələrin sayının artmasına və deməli, mənfəəti azaltmaqla real sektorda bankların investisiya fəaliyyətinin də zəifləməsinə səbəb olur. Belə ki, real sektor sahələrində bir sıra göstəricilərin yaxşılaşmasına baxmayaraq, zərərlə işləyən müəssisələr mövcud olaraq qalmaqdadır. Lakin real sektor subyektlərinin kommersiya banklarının passivlərini tamamlamaq imkanları təkcə onların mənfəətinin ölçüsündən deyil, eləcə də iqtisadiyyatın ümumi maliyyə vəziyyətindən asılıdır. Bu mənada 2001-ci ilə kimi həyata keçirilən ortodoksal monetar siyasətin Azərbaycan iqtisadiyyatında pul qıtlığı və kütləvi ödəməmə yaratması kredit resurslarının və əmanətlərin formalaşmasına mənfi təsir göstərmişdir. Belə bir şəraitdə real sektorla yanaşı bankların da borc vəsaitinə olan tələbatının ödənilməsi müsbət nəticə verə bilməzdi. Bütün bunlar onu deməyə əsas verir ki, real sektorun kreditləşdirilməsini məhdudlaşdıran əsas problem dəyər və müddəti üzrə tarazlaşdırılmış resurs bazasının mövcud olmamasıdır. Bunu cəlb edilmiş vəsaitlərdən istifadəyə istiqamətlənmiş bank aktiv-lərinin strukturunun təhlili də təsdiq edir (Cədvəl 5).

Cədvəl 5

Bank sisteminin aktivlərinin dinamikası

| Göstəricilər | 01.01.2001 | 01.01 2002 | 01.01.2003 | 01.01.2004 |
|---|---|---|---|---|
| Məcmu aktivlər | 4325.1 | 3648,4 | 4606,2 | 4968,6 |
| Real sektora kredit qoyuluşu | 1870,6 | 1976,8 | 2254,0 | 2980,0 |
| Hökumətə kreditlər | 1834,1 | 1942,7 | 239.8 | 176,2 |
| kredit qoyuluşunda çəkisi | 9.81 | 9.83 | 10.64 | 5.91 |

Cədvəl 5-dən göründüyü kimi, bank sisteminin məcmu aktivlərinin öyrənilən dövrdə 14,9%, real sektora qoyulan kreditlərin məcmu aktivlərdə xüsusi çəkisi isə43,3%-60% intervalında dəyişir. “Aktivlərin ÜDM-ə faiz nisbəti Polşada 53%, Latviyada - 60%, Çexiyada -109" [7, s.103] həddində dövr edir. Eyni zamanda nəzərə almaq lazımdı ki, real sektora qoyulan kreditlərin tərkibində qısamüddətli kreditlər üstünlük təşkil edir. Aparılan təhlil göstərir ki, real sektora yönəldilim kredit investisiyaları bank sisteminin aktivlərinin təxminən 1/3-ni təşkil edir ki, bu da təkcə inkişaf etmiş ölkələrin deyil, həm d keçid tipli ölkələrin (xüsusilə Polşa və Çexiya) iqtisadiyyata qoyulun kreditlərinin xüsusi çəkisilə müqayisədə çox azdır. Fikrimizcə belə vəziyyətin yaranmasına bir sıra amillər təsir etmişdir:

- əhəmiyyətli kredit riskinin mövcudluğu, borclunun ödəmə qabi- liyyətinin və likvidlik səviyyəsinin aşağı olması;
- real sektorda əksər müəssisələrin zərərlə işlədiyi və ya aşağı rentabellik səviyyəsinə malik olduğu bir şəraitdə bank krediti üzrə faiz dərəcələrinin onların real maliyyə vəziyyətindən yuxarı olması;
- uzunmüddətli resursların xüsusi çəkisi az olduğundan (01.01.2001-ci ildən 01.01.2004-cü ilə qədər olan dövrdə 39,7% artmışdır, vaxtı keçmiş kreditlərin xüsusi çəkisi isə 0,73%), müddətli kreditlərin resurs bazasının zəifliyi;
- invalyuta kreditlərinin əhəmiyyətli dinamikaya malik olması

Fikrimizcə, bankların kredit portfelinin yaxşılaşmasına səbəb olan bank aktivlərinin strukturunda baş verən dəyişikliklər maliyyə bazarındakı vəziyyətlə əlaqədardır. Belə ki, son dövrlərdə sərt pul-kredit siyasəti vasitəsilə inflyasiyanın aşağı səviyyəsinə nail olunması və manatın devalvasiyası əsas maliyyə alətləri üzrə gəlirlilik səviyyəsinin azalmasına səbəb olmuşdur. Bunun nəticəsində banklar valyuta və dövlət qiymətli kağızları bazarında yüksək gəlir əldə etmək imkanını qismən itirirlər və bu da əsas gəlir mənbəyi kimi bankların kredit əməliyyatlarını genişləndirməsini zəruri edir. Əslində isə kreditləşmə üzrə problemlərin mövcudluğu həm aktivlərin və həm də bankların kapitallaşmasını səmərəsiz edir. V.S.Zaxarovun belə bir fikri ilə razılaşmaq olar ki, “bankların kapitallaşma səviyyəsinin artması milli bankların investisiya cəlbediciliyinin yaxşılaşmasına imkan verməlidir” [8, s.10]. Azərbaycan şəraitində isə real sektorda mövcud olan çatışmazlıqlar bu prosesin səmərəliliyini azaldır.

Real sektorun banklar tərəfindən kifayət qədər kreditləşdirilməməsi dövlət qiymətli kağızlar bazarının fəaliyyəti ilə də əlaqəlidir. Belə ki, dövlət qiymətli kağızlar bazarının digər seqmentlərlə, xüsusilə real sektorla müqayisədə yüksək likvidlik və gəlirlilik səviyyəsinə malik olması onu daha cəlbedici investisiya obyektinə çevirmişdir. Bu da bankların kredit resurslarının real sektordan maliyyə bazarının göstərilən seqmentinə axınını stimullaşdırmışdır. Başqa sözlə desək, dövlət qiymətli kağızlara qoyulan vəsaitlə real sektora qoyulan investisiyanın gəlirliliyi arasındakı fərq real sektorun cəlbedici investisiya obyektinə çevrilməsi problemini yaradır. Real sektor subyektlərinin adekvat qiymətli kağız növlərini emissiya edə bilməməsi bu problemi daha da kəskinləşdirir.

Real sektorun inkişafında fiziki şəxslərə verilən istehlak krediti də mühüm rol oynayır. Belə ki, fiziki şəxslərə verilən kreditlərin genişləndirilməsi istehlakçıların ödəniş qabiliyyətini artırmaqla yanaşı ölkədə istehsal olunmuş məhsulların tez satılmasına, əmtəə dövriyyəsinin sürətlənməsinə, makroiqtisadi səviyyədə inflyasiyanın və işsizliyin minimum səviyyəyə qədər azaldılmasına, istehsalın inkişafına və deməli ÜDM-in də artmasına pozitiv təsir göstərir. Eyni zamanda, istehsal olunmuş məhsul və xidmətlərin reallaşmasını sürətləndirməklə təkrar istehsal prosesinin də genişləndirilməsinə nail olunur. Bu baxımdan, istehlak kreditini real sektorun dolayı kreditləşdirilməsi forması kimi göstərmək olar. Çünki bu prosesdə real sektorda müəssisələrin özlərinin daxili imkanları artır və o, həm də onun rentabelli fəaliyyət göstərməsinə müsbət təsir edir. Lakin hazırda respublikamızda istehlak krediti zəif inkişaf etmişdir. İstehlak krediti qısamüddətli xarakter daşıdığından, kreditləşmənin bu formasından istifadə edilməsi istehlakçılar üçün səmərəli deyil. Belə ki, qısamüddətli kreditləşmə prosesi əhalinin real gəlirləri ilə müqayisədə yüksək riskli hesab edilir. Kreditləşmənin maksimum müddəti bir il olmaqla yanaşı, həm də yerli deyil, xarici məhsulların istehlakma istiqamətlənib. Bu isə real sektorda istehsal edilən məhsulların rəqabət imkanlarının azalmasına birbaşa təsir edir. Adətən istehlak krediti milli məhsulların istehlakına istiqamətlənir və onun minimum ödənilmə müddəti on ildir. Ona görə də real sektorun inkişafına kreditin bu formasından dolayı təsir etmək məqsədilə, istehlak kreditinin geniş istifadə edilməsi bankların və digər institutların qarşılıqlı münasibətlərimi əlaqələndirilməsi və yerli məhsullara münasibətdə xüsusi güzəştləm tətbiq edilməsi ilə stimullaşdırılmalıdır. Yəni bu prosesdə həm müddət və həm də ödəniş üzrə risklər yenidən bölüşdürülməlidir. Nəticədə istehlak krediti qaytarılma müddəti və gəlirlilik baxımından əhali və banklar üçün səmərəli olacaq. Kreditləşmənin istehlak formasından istifadə prosesini tənzimləmək məqsədilə “İstehlak krediti haqqında” qanun qəbul edilməlidir.

Real sektorun banklar tərəfindən səmərəli kreditləşdirilmə prosesinə kreditlər üzrə faiz dərəcəsi də əhəmiyyətli təsir göstərir. Bel ki, hazırda real sektora yönəldilən kreditlər daha çox qısamüddətli olmaqla yanaşı, həm də yüksək faiz dərəcəsinə malikdirlər. Kreditlər üzrə faiz dərəcəsinin belə mənfi xüsusiyyəti kredit resurslarının müddət və istifadə baxımından banklar üçün “baha” olması ilə əlaqədardır. Əgər bunun bir səbəbi həyata keçirilən pul-kredit siyasətindən irəli gəlirsə, digər səbəbi isə bankların özlərinin kredit siyasətini düzgün qurmaması ilə şərtlənir. Dövriyyə vəsaitinin çatışmadığı şəraitdə real sektorun borc vəsaitinə olan tələbatının ödənilməsi faizlərin müsbəı xarakterə malik olmasından birbaşa asılıdır. Ona görə də kreditim üzrə faiz dərəcəsinin aşağı salınması istiqamətində kompleks tədbirim həyata keçirilməlidir. Bunun üçün inflyasiyanı və real sektorda rentabellik normasını nəzərə alaraq bankların kredit aktivlərinin artırılmasını təmin etmək məqsədilə mərkəzləşdirilmiş kredil resurslarına görə faiz dərəcəsini və ehtiyat normasına ayırmaların məbləği azaldılmalıdır. Çünki pul-kredit siyasətinin bu aləti ilə pul kütləsi arasında sıx kəmiyyət əlaqəsi mövcuddur. Belə ki, məcburi ehtiyat norması və mərkəzləşdirilmiş kredit resurslarına görə faiz dərəcəsi artarsa, onda pul kütləsi və bankların kredit imkanları məhdudlaşır. Əks meyil baş verdikdə isə multiplikativ səmərə artır, pul təklifi və bankların ssuda vermək imkanları genişlənir. Lakin qeyd edək ki hazırki şəraitdə göstərilən tədbirlərin kredit əməliyyatları üzrə faiz dərəcəsinin aşağı salınmasına təsiri zəif olacaq. Çünki pula olan tələb və təklif arasındakı disproporsiya, bank sisteminin və maliyyə resursları bazarının digər alətlərinin vasitəçilik fəaliyyətinin səmərəsizliyi də faiz dərəcəsinə mənfi təsir edən başlıca amillərdəndir. Bununla yanaşı, kommersiya banklarının kredit əməliyyatlarına görə faizlərin səviyyəsi özündə Milli Bankın

təsir imkanlarından kənarda olan kredit risklərini də əhatə edir. Ona görə də Milli Bankın bank sisteminin qeyri-maliyyə .ıgentləri ilə əməliyyatları üzrə faiz dərəcəsinə təsiri pul təklifinin tənzimlənməsi və bankların vəziyyətinin yaxşılaşması tədbirləri ilə məhdudlaşır. Bu mənada kreditlər üzrə faizlərin optimallığını təmin elmək məqsədilə pul-kredit siyasəti resurs mənbələrinin əldə edilməsi üzrə faiz dərəcəsinin səviyyəsinin real həddə qədər azaldılmasını təmin etməlidir. Buna da, təbii ki, ölkədə real tədiyə qabiliyyətinin artırıldığı (istehlak qiymətlərinin azaldılması hesabına) və risklərin azaldığı şəraitdə nail olmaq olar. Bu istiqamətdə həyata keçirilən pul-kredit siyasətinin səmərəliliyi üçün real sektorun inkişafını stimullaşdıra biləcək hansı sahəyə və nə qədər borc vəsaitinin tələb olunması dəqiq əsaslandırılmalıdır. Daha doğrusu, bankların real sektorun inkişafını stimullaşdırmasında əsas problem borc vəsaitlərinin nə dərəcədə real sektorun sahələri arasında proporsional bölüşdürülməsi və real sektorda pul təklifinin artırılması meyarının iqtisadiyyatın bu vəsaiti səmərəli istifadə etmək imkanı ilə ölçülməsidir. Bu prosesdə pul- kredit siyasətinin əsas məqsədi kredit münasibətlərinin inkişafı üçün əlverişli maliyyə şəraiti yaratmaq olsa da, borc vəsaitlərinin istehsal sferasına yönəldilməsi sahəsində əsas problem olan real sektora kredit qoyuluşunun yüksək risklik dərəcəsinin aradan qaldırılması göstərilən şəraitin təsirindən kənarda qalır. Ona görə də, real sektorda ödəniş qabiliyyətinin aşağı olması və real sektorla münasibətdə risklik səviyyəsinin yüksək olaraq qalması istehsal sferasına kredit qoyuluşunu məhdudlaşdıran əsas amil hesab edilməlidir. Fikrimizcə, depozit və kredit multiplikatorunu və eləcə də pul bazasının zəif inkişafı da bu problemlə əlaqədardır.

Ümumiyyətlə, bank risklərinin real sektora kredit qoyuluşunun səmərəliliyinə mənfi təsiri xüsusi qeyd edilməlidir. Belə ki, hazırda real sektorla kredit münasibətlərinin zəif inkişafını banklar kredit risqlərinin yüksək səviyyəyə malik olması ilə əlaqələndirirlər. Lakin mövcud xüsusiyyətlərinə görə kredit risklərinin idarə edilməsi sahəsində banklar səmərəli kredit siyasətinə malik deyillər. Fikrimizcə, bu, ilk növbədə kredit risklərinin ümumi iqtisadi şəraitdən törəmə olması, kommersiya banklarının pul-kredit siyasətini həyata keçirən Milli Bankın mənafeyindən həm iqtisadi və həm də hüquqi baxımdan yüksək asılılıq səviyyəsinə malik olması və kredit risklərinin aradan qaldırılması üçün Milli Bankla kommersiya banklarının mənafelərinin düzgün əlaqələndirilməsinin tələb olunması ilə sıx əlaqəlidır. Bütövlükdə risklərin real sektorda kreditləşmə prosesinə təsirini dəqiq təhlil etmək üçün, ilk növbədə istehsal amilləri geniş tədqiq olunmalıdır. Belə ki, istehsal riski istehsal amillərinin mövcud xüsusiyyətin- dən irəli gəlir. Fikrimizcə, real sektorda istehsal riskinin yaranmasına aşağıdakı amillər mühüm təsir edir:

1. Real sektorda məhsulun istehsalına və satışına çəkilən maddi xərclərin artması nəticəsində əlavə xərclər meydana gəlir;
2. Müəssisə daxilində xammal, material və istilik-enerji resursları ıın əldə edilməsindəki fasilələr istehsalın proqnozlaşdırılan həcminin, azalmasını stimullaşdırır;
3. Maliyyələşdirmə mənbələrinin çatışmaması istehsal prosesini ləngitməklə yanaşı, müəssisələrin ödəmə qabiliyyətini zəiflədir;
4. Real sektorda maliyyə çətinliyi nəticəsində innovasiyaların zəif tətbiqi məhsulun rəqabət qabiliyyətini məhdudlaşdırır.

Fikrimizcə, real sektorun ayrı-ayrı istehsal sferalarında mənfi amillərin meydana gəlməsi müəssisələrdə maliyyə, istehsal, texnoloji və innovasiya idarəetmənin zəif təşkili ilə bağlıdır. Bu baxımdan daxili istehsal prosesi ilə müşahidə olunan risklərin azaldılmasına və

göstərilən amillərin təkmilləşməsinə yönəlmiş hər hansı tədbirlər kredit risklərinin də azaldılmasına səbəb olacaq.

Kredit risklərinə tədavül sferasında müxtəlif amillərin təsiri ilə meydana gələn ticari risklər də mühüm təsir göstərir. Bu amillərə ödəniş-hesablaşma sahəsindəki məhdudiyyətlər, tədarükçü müəssisələrin maliyyə vəziyyətinin dəyişməsi, idxal imkanları və s. aiddir.

Hazırda real sektorda fəaliyyət göstərən bir sıra müəssisələr idxal-ixrac əməliyyatlarında geniş iştirak edirlər. Lakin ölkədə bu fəaliyyəti tənzimləyən qanunvericilik bazası ilə yanaşı, manatın alıcılıq qabiliyyəti də zəifdir. Xüsusilə, iqtisadiyyatın investisiya qoyuluşuna olan tələbatının ödənilməsində xarici kapital xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan, xarici kapitalın ölkə iqtisadiyyatına cəlbinin stimullaşdırılması Milli Bank tərəfindən manatın xarici valyutaya nisbətən mübadilə kursunun azaldılması müşahidə olunur. Belə bir şəraitdə valyuta sahəsində mövcud olan risklər də kreditləşmə prosesinin formalaşmasında mühüm rol oynayır.

Kredit risklərinin formalaşmasında sahəvi riskləri də qeyd etmək lazımdır. Çünki müəssisənin kreditləşdirilməsi prosesində bank ilk növbədə həmin müəssisənin mənsub olduğu sahənin xüsusiyyətini nəzərə alır. Belə ki, borclunun krediti qaytarmaq riski həmin sahənin maliyyə sabitliyindən, real sektorun tərkibində onun inkişaf xüsusiyyətindən, sahədaxili rəqabətin vəziyyətindən və bunun əsasında həmin sahənin inkişafının pul-kredit parametrlərinin təsirindən əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycan şəraitində isə real sektorun yalnız ticarət, istilik-enerji və qismən yüngül sahələri müsbət inkişaf etmək imkanına malikdirlər. Eyni zamanda, bu sahələrin borc vəsaitinə olan tələbatında mövsümilik amili üstün rola malikdir və daha çox qısamüddətli xarakter daşıyır. Real sektorun digər sahələri, xüsusilə elektronika, tikinti, maşınqayırma və sahələr iri kapital tutumuna malikdirlər və bu sahələrin inkişafı bütövlükdə iqtisadiyyatın inkişafını müəyyən edir. Lakin daxili maliyyə çətinliyi ilə yanaşı, borc Vəsaitinin cəlb edilməsi sahəsindəki problemlər bu sahələrin inkişafını əhəmiyyətli dərəcədə ləngidir və bu da kreditləşmə prosesində əlavə risk yaradır. Fikrimizcə, mövcud risklərin səviyyəsinin azaldılması üçün Milli Bankla müəssisələrin və bankların geniş əməkdaşlığı şəraitində qeyd edilən amillərin geniş təhlili və iqtisadi cəhətdən dəqiq qiymətləndirilməsi tələb olunur. Məsələ "Almaniyada iqtisadiyyatın kredit resurslarına olan tələbi Bundesbank tərəfindən müəssisələrin emissiya etdiyi qiymətli kağızların (səhm, istiqraz və s.) məcmu dəyəri, eləcə də bankların təsərrüfat subyektinə kredit təklifi üzrə ölçülür" [9, s.12]. Müəssisələrin inkişaf strategiyası bankların kredit siyasətindən əhəmiyyətli dərəcədə asılı olduğundan, amillərin təhlili təkcə pul-kredit siyasətinə düzəliş edilməsinə yox, həm də real sektorun inkişafına bankların təsirini stimullaşdırmaq məqsədilə onların real sektorda kredit fəaliyyətinin təkmilləşdirilməsinə imkan verəcək. Bankların resurs bazasının genişləndirilməsi və real sektorun resurs cəlb etmək imkanlarının yaxşılaşdırılması bütövlükdə iqtisadiyyata qoyulan kreditin həcminin artırılmasına şərait yaradacaq. Kreditlərin bölgü prosesində xüsusilə əlavə dəyərin bölüşdürülməsində zəif iştirak etməsi dövriyyə də pul çatışmazlığını və debitor-kreditor borclarının qalmasına şərait yaradır. Təsərrüfat dövriyyəsində pulun qıtlığını aşağıdakı amillər də təsdiq edir:

1. Qısamüddətli kreditlərin ÜDM-ə faiz nisbəti yüksəkdir; 2000-ci ildə ÜDM-də 9,8%, məcmu kredit qoyuluşunda 72,0%. 2001-ci ildə 9,2% və 72,8%, 2002-ci ildə 8,6% və 71.8%, 2003-cü ildə isə 9,5'1" və 72.6%

2. Maliyyələşmə mənbələrinin ÜDM-ə faiz nisbətinin artması ilə real sektora qoyulan kreditlərin xüsusi çəkisinin artması arasında uyğunsuzluq müşahidə olunur. Fikrimizcə, bu uyğunsuzluğun əsas səbəbi dövriyyə vəsaitlərinin tərkibində kreditlərin xüsusi çəkisinin az olması ilə əlaqədardır;
3. Sənaye və kənd təsərrüfatına kredit qoyuluşu arasında uyğunsuzluq var.

Belə ki, 01.01.2004-cü ildə (məcmu kredit qoyuluşunda) sənayeyə qoyulan kredit 8%, kənd təsərrüfatına qoyulan kredit isə 6,64% təşkil etmişdir. Yəni kənd təsərrüfatına qoyulan kredit sənayeyə qoyulan kreditə nisbətən elə də fərqlənmir. Lakin sənaye, xüsusilə ağır sənaye istehsalın maddi-texniki bazasını təşkil etdiyindən, bu sahənin kreditə olan tələbatının dolğun ödənilməsinə geniş diqqət yetirilməlidir. Fikrimizcə, sahələr üzrə real sektora qoyulan kreditin məhdud olması kommersiya banklarının sənaye sahələri ilə əlaqəsinin zəif olması da əhəmiyyətli təsir göstərir. Daha doğrusu, həmin sahələrdə dövlət inhisarı üstünlük təşkil etdiyindən, onların maliyyələşdirilməsi də əsasən dövlət vəsaitləri hesabına dövlət büdcəsi və səhm paketində dövlətin üstün olduğu banklar vasitəsilə həyata keçirilir (2003-cü ildə “41,29%-dən 69,99%-ə qədər, özəl banklar isə 38,96%-dən 47,35%-ə qədər” [6. s.4]). 2003-cü il noyabr ayının 12-15-də “Azərbaycanda bank sisteminin inkişafı” mövzusunda keçirilən birinci beynəlxalq konfransda BVF-nin nümayəndəsi Con Uikman Linn də dövlət banklarının inhisarçı mövqeyinə toxunmuşdur. Onun sözlərinə görə “investorlar dövlətin bank sistemində iştirakına xüsusi diqqət yetirirlər... Bu, sərmayələrə o qədər də müsbət təsir göstərmir” deyən C.U.Link şəffaf maliyyə sisteminin yaradılmasının tərəfdarıdır” [10, s.38]. Ona görə də Milli Bank bankların kreditləşdirmə imkanlarının artırılmasına üstünlük verməlidir. Çünki real sektora kredit qoyuluşu sahəsindəki problemlər də onu göstərir ki, real sektorun maliyyə vəziyyəti və dövriyyə vəsaitləriylə tam təmin olunması qabiliyyəti kreditləşmə sferasının özünün xüsusiyyətindən irəli gələn problemlərlə sıx bağlıdır:

1. Bankların kredit resurslarının məhdudluğu nəticəsində real sektor sahələrinə uzunmüddətli kredit qoyuluşu imkanlarının olmaması;
2. Kreditləşmə prosesi üzərində Milli Bankın nəzarət və tənzimləmə tədbirlərinin sərtliyi;
3. Real sektorun maliyyə vəziyyətinin qeyri-sabitliyi, maddi bazasının zəifliyi və alman kreditlərin səmərəsiz istifadə edilməsi;
4. Real sektorun kreditləşdirilməsi prosesinin hüquqi və qanunvericilik bazasının zəifliyi.

Beləliklə, real sektora kredit qoyuluşunu stimullaşdırmaq məqsədilə kreditləşmə sahəsindəki makro və mikro problemlər həll edilməklə, kredit risklərinin azaldılmasına nail olunmalıdır.

Başqa sözlə desək, bank risklərinin meydana gəlməsinə səbəb olan bütün amilləri nəzərə almaqla vahid kreditləşmə prosedurunun yaradılmasına nail olunmalıdır. Bu zaman o, bir tərəfdən kredit risklərini azaltmağa, digər tərəfdən isə real sektorun maraqlarını nəzərə almağa imkan verəcək. Bununla yanaşı, real sektora qoyulan kreditin həcmini artırmaq imkanının zəif olması daxili təchizat və tikinti materialı və s. bazarların zəifləməsinə və beləliklə, iqtisadiyyatda struktur yeniləşdirmə amillərinin inkişaf etməməsinə səbəb olur. Real sektorda dövriyyə vəsaitlərinin çatışmaması emaledici sahələrin, o cümlədən yüngül və yeyinti sahələrinin əksər müəssisələrinin xammal bazasının modern- ləşdirilməsi üçün kredit qoyuluşunu məhdudlaşdırır. Fikrimizcə, bu problemi həll etmək məqsədilə, Milli Bank iqtisadi inkişafına impuls verəcək sahələrin kreditləşmə şəraitinin yaxşılaşmasını təmin edən tədbirlər həyata keçirməlidir.

ƏDƏBİYYAT:

1. Бабич А.М., Павлова А.Н. Финансы. Денежное обращение. Кредит. М.: ЮНИТИ-ДАМА. 2000.
2. Azərbaycanın Statistik Göstəriciləri, 2003, Bakı 2003.
3. Басно В.Н., Писанова Л.П. Банки и предприятия: информационный обмен и сотрудничество. Деньги и кредит. № 11/2003.
4. AR Milli Bankının 2004-cü il üçün pul-kredit siyasətinin başlıca istiqamətləri və 2005-2006-cı illər üçün prioritet vəzifələri barədə bəyanatı // "Xalq qəzeti". 30 dekabr. 2003.
5. Azərbaycan Respublikası Milli Bankın 2003-cü il üçün pul kredit siyasətinin başlıca istiqamətləri haqqında bəyanatı
6. Azərbaycan Milli Bankının illik hesabatı 2001- 2003.
7. Барон Л., Захарова Г.Диспропорции в развитии банковского и нефинансового секторов экономики Росии. // Вопросы экономики. №3/2003.
8. Захаров В.С. Реформе кредитно-денежной системы-15 лет. // Деньги и кредит. №8/2003.
9. Рудько-Силиванов В.В., Савалей В.В. К вопросу развития инструментов рефинансирования с использованием долговых обязательств предприятий. // Деньги и кредит. № 3/2003.
10. Məmmədov Ş. Azərbaycanın bank sistemi necə inkişal etməlidir? // Azərbaycanın vergi xəbərləri. № 5/2003.




## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Rəsulova M.**
*Azərbaycan Respublikasında əsas makroiqtisadi göstəricilərin dinamik sıralarının təhlili*
**Абасова С**.
*Возможности развития инновационно-инвестиционной инфраструктуры Азербайджана*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №9, Bakı 2009*

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN DİNAMİK SIRALARININ TƏHLİLİ

***i.e.n., dosent Rəsulova M.***

*1993-2015-ci illərdə İİETİ-də şöbə müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində işləyibdir.*

Makroiqtisadi proseslərin ekonometrik tədqiqi məsələsi olduqca aktualdır. Qərb ədəbiyyatlarında makro-iqtisadi göstəricilərin zaman sıralarının ekonometrik xassələrinin təhlili məsələsinə geniş yer verilir. Əgər zaman sırası müəyyən təsadüfi və qeyri-təsadüfi faktorlar yığımının təsiri ilə formalaşırsa, ayrı-ayrı sıraların təhlili böyük əhəmiyyət kəsb edir. Zaman sıralarının təhlilində əsasən, onların strukturunun tədqiqi, təsviri və modelləşdirilməsi məsələsi mühüm yer tutur.

Müxtəlif mürəkkəb iqtisadi təhlil məsələlərinin düzgün həll edilməsi üçün tədqiq olunan hər bir zaman sırasının müxtəlif aspektlərinə baxmaq lazımdır, başqa sözlə, iqtisadi göstəricilərin zaman sıralarının struktur xassələrinin təhlilinə xüsusi diqqət yetirilməlidir. Bu onunla bağlıdır ki, zaman sıralarının qiyməti bir çox amillərin təsiri altında formalaşır. Eyni zamanda, adətən, bu və ya digər prosesin inkişafı onun daxili qanunauyğunluqları ilə əsaslandırılır. Son zamanlar iqtisadi ədəbiyyatlarda iqtisadi göstəricilərin zaman sıralarının struktur xassələrinin təhlilinə xüsusi diqqət yetirilir.

Müxtəlif mürəkkəb iqtisadi təhlil məsələlərinin düzgün həll edilməsi üçün tədqiq olunan hər bir zaman sırasının müxtəlif aspektlərini nəzərdən keçirməliyik. Çünki, uzunmüddətli perspektivdə əlaqələrin modelini qurarkən, təhlil olunan makroiqtisadi sıralarda stoxastik (determinik) trendin olub-olmamağı faktını nəzərə almaq lazımdır. Başqa sözlə, hər şeydən əvvəl, hər bir zaman sırasının strukturunu, yəni onun TS (trend stationary) determinik stasionar trend və ya sadəcə stasionar, yaxud DS (difference stationary) stoxastik trendə malik (ola bilsin ki, determinik trendlə bərabər) olan və bir və ya k tərtib differensiallama yolu ilə stasionar (və ya determiniik stasionar trendə) sıraya gətirilə bilən sıra sinfinə aid olduğunu müəyyənləşdirmək lazımdır. Ona görə ki, bu trayektoriyalar bir-birindən əsaslı surətdə fərqlənir.

Sıraların TS və DS sinifləri arasında prinsipial fərq ondadır ki, TS halında sıra müvafiq determinik trendləri çıxmaqla stasionar sıralara gətirilir, DS halında stoxastik trendin varlığı səbəbindən determinik trendləri çıxmaqla qeyri-stasionar olaraq qalır.

İzah olunan və izahedici dəyişənlər makroiqtisadi zaman sıraları olduqda uzunmüddətli reqressiya modellərinin düzgün qurulması üçün sıraların TS və ya DS sinfinə aid olmasının müəyyənləşdirilməsi çox vacibdir. Yaxşı məlumdur ki, DS və TS sırası ilə reqressiya modelinin qurulması saxta nəticələrə - səhv (spurious) xətti əlaqələrə gətirəcək. Səhv xətti

əlaqələr iki statistik qeyri-asılı stoxastik trendlər arasında reqressiya modellərinin qurulması zamanı da meydana çıxır. İqtisadi göstəricilərin zaman sıraları adətən qeyri-stasionar olur. Qreyncer və Nyubold (1974) sübut etmişlər ki, qeyri-stasionar zaman sıraları arasında asılılıqların tədqiqi zamanı (reqressiya modelləri qurularkən) səhv nəticələr alınır. Başqa sözlə, t-statistikasının ehtimallarının paylanması Styudent paylanmasına, F-statistikası Fişer statistikasına, habelə digər statistikaların paylanması da klassik nəzəriyyəyə uyğun olmur. Bundan əlavə, Filips (1986) göstərmişdir ki, bu halda t-statistika limit paylanmaya malik deyildir. Əgər dəyişənlər qeyri-stasionar isə, statistik nəticələrin klassik nəzəriyyəsi qəbuledilməzdir. Bu hal "xəyali reqressiya" kimi elmə məlumdur. Praktikada xəyali reqressiyanın əlamətləri Darbin Vatson statistikasının kiçik qiymətləri zamanı determinasiya əmsalının yüksək qiymət almasında müşahidə olunur.

TS sıraları hər hansı "mərkəzi xətt" kimi xətti trendə malikdir ki, sıranın trayektoriyası bu xətdən gah aşağı, gah da yuxarı hərəkət edir və enib-qalxma vəziyyəti kifayət qədər tez-tez dəyişilir. DS sıraları determinik trenddən (əgər malikdirsə) savayı həm də stoxastik trendə malikdir. Bu səbəbdən DS trayektoriyası olduqca uzun müddət determinik trend xəttinin (müvafiq düz xətdən yuxarı və ya aşağı) bir tərəfində qalır, ondan əhəmiyyətli dərəcədə kənarlaşır. Belə ki, bu halda ətrafında prosesin trayektoriyası enib-qalxan determinik trend "mərkəzi" xətt rolunu oynamaqdan uzaqlaşır.

Qeyri-stasionarlığın aradan qaldırılmasının geniş yayılmış üsullarından biri Klivo Qreyncer tərəfindən təklif olunmuşdur.

Tutaq ki, $X_t$qeyri-stasionar sırası verilmişdir. Birinci fərqi götürək, yəni $\Delta X_t = X_t - X_{t-1}$ fərqinə baxaq. Əgər $\Delta X_t$ sırası stasionar olarsa, onda $X_t$sırası birinci tərtib inteqrallanan adlanır: $X_t \sim I(1)$. Ümumiyyətlə, əgər zaman sıraları k-cı fərq götürüldükdən sonra (yəni, (k-1)-ci fərq qeyri-stasionardır) stasionar isə, onda sıra k tərtibdən inteqrallanandır: $X_t \sim I(k)$.

İki qeyri-stasionar sıraya baxaq: $X_t \sim I(1)$. $Y_t \sim I(1)$.Ümumiyyətlə desək, habelə, onların $Y_t - \beta X_t$ xətti kombinasiyası da qeyri-stasionar və birinci tərtib inteqrallanandır. Lakin, əgər $X_t$ və $Y_t$ iqtisadi göstəriciləri arasında

$$Y_t = \alpha + \gamma X_t + \varepsilon_t \qquad (1)$$

şəklində uzunmüddətli iqtisadi münasibət varsa, onda $Y_t - \gamma X_t$ fərqi $\alpha$ ətrafında enib-qalxmalıdır, yəni stasionar olmalıdır. Deməli ki, $\beta \equiv \gamma$ qiymətində $Y_t - \beta X_t$ xətti kombinasiyası stasionar olmalıdır. Əgər belə $\beta$ ədədi varsa, onda $X_t$ və $Y_t$ kointeqrallanan adlanırlar və $(1,-\beta)^T$ vektoru kointeqrallama vektoru adlanır. Kointeqrasiya mövcud olduqda, (1) tənliyində $\tilde{\gamma}$ əhəmiyyətli qiymətini almaq mümkün olur. Daha sonra, Stok (1997) göstərmişdir ki, $\tilde{\gamma}$ 1/n (n-müşahidələrin sayı) tərtibdən $\gamma$ həqiqi qiymətinə yığılır. Bu səbəbdən belə qiymət "yüksək tutarlı" adlanır. Qeyri-stasionar iqtisadi zaman sıralarının modelləşdirilməsi üçün kointeqrasiyanın vacibliyi Qreyncer (1983) teoremində əks olunmuşdur.

Bu aşağıdakı iki avtoreqressiya tənlikləri sistemində ifadə olunur:

$$X_t = \nu_1 + \sum_{j=1}^{p} \gamma_{1j} X_{t-j} + \sum_{j=1}^{p} \delta_{1j} Y_{t-j} + \varepsilon_{1t}$$

$$Y_t = \nu_2 + \sum_{j=1}^{p} \gamma_{2j} X_{t-j} + \sum_{j=1}^{p} \delta_{2j} Y_{t-j} + \varepsilon_{2t} \qquad (2)$$

burada, $Y_t$və $X_t$ I(1) tərtibdən inteqrallanan v kointeqrallanandırlar, $\varepsilon_{1t}$ və $\varepsilon_{2t}$ qeyri-asılı v 0 orta və sabit dispersiya ilə eyni paylanmışlar. Onda Qreyncer teoreminə görə bu sistemi aşağıdakı kimi yazmaq olar:

$$\Delta X_t = \alpha_1 (Y_{t-1} - \nu - \beta X_{t-1}) + \sum_{j=1}^{p-1} \gamma_{1j}^{*} \Delta X_{t-j} + \sum_{j=1}^{p-1} \delta_{1j}^{*} \Delta Y_{t-j} + \varepsilon_{1t}$$

$$(3)$$

$$\Delta Y_t = \alpha_2 (Y_{t-1} - \nu - \beta X_{t-1}) + \sum_{j=1}^{p-1} \gamma_{2j}^{*} \Delta X_{t-j} + \sum_{j=1}^{p-1} \delta_{2j}^{*} \Delta Y_{t-j} + \varepsilon_{2t}$$

burada, ən azı $\alpha_1, \alpha_2$ ədədlərindən biri 0-dan fərqlənir. Sistemin hər iki tənliyi o mənada tarazlaşdırılmışdır ki, hər hissə eyni tərtibdən inteqrallanandır, çünki, $Y_{t-1} - \nu - \beta X_{t-1}$ *~I(0)*

Tutaq ki, $Y_t = \nu + \beta X_t$ tənliyi $Y_t$və $X_t$ dəyişənləri arasında uzunmüddətli (və ya tarazlıq) münasibəti müəyyənləşdirir. Onda $Y_{t-1} - \nu - \beta X_{t-1}$ tarazlıq vəziyyətindən kənarlaşma səviyyəsini göstərir (bəzən bu kəmiyyəti qeyri-tarazlıq səhvi adlandırırlar). $\alpha_1, \alpha_2$ əmsalları baxılan iqtisadi sistemin tarazlıq səviyyəyə meyil gücünü əks etdirir. Beləliklə, (3) tənliyinə əsasən, indiki dövrdə dəyişənlərin qiymətlərinin dəyişməsi əvvəlki illərdə dəyişənlərin qiymətlərinin necə dəyişməsindən, yəni $\gamma_{1j}^{*}, \gamma_{2j}^{*}, \delta_{1j}^{*}, \delta_{2j}^{*}$ əmsallarından və bərabərlik vəziyyətinə korreksiyadan, $\alpha_1, \alpha_2$ əmsallarından asılıdır. (3) şəklində sistem səhvlərin korreksiyası modeli (və ya ECM – error correction model) adlanır.

Zaman sırasının stasionarlığının yoxlanılması testi Diki və Fuller tərəfindən [Dickey, Fuller (1979)] təklif edilmişdir. Diki-Fuller kriterisində yoxlanılan (sıfır) hipotezi tədqiq olunan $x_t$ sırasının DS (DS-hipotez) sinfinə, alternativ hipotez – tədqiq olunan sıranın TS (TS-hipotez) sinfinə aid olmasıdır. Diki-Fuller kriterisində fərz edilir ki, müşahidə olunan sıra birinci tərtib avtoreqressiya modelini (xətti trendə gətirilə bilən) əks etdirir. Kritik qiymət hansı statistik modelin qiymətləndirilməsindən və modelin hansı ehtimalla həqiqətdə müşahidə olunan qiymətləri əmələ gətirməsindən asılıdır. Bunları nəzərə alaraq, modellərin (SM – statistik model (statistical model); DGP – qiymətlərin törəmə modeli, (data generating process)) aşağıdakı üç cütlüyünə baxılır:

1) Əgər $x_t$ determinik trendə (bununla bərabər stoxastik trendə malik ola bilər) malikdirsə, onda cütlük belə götürülür:

**SM:** $\Delta x_t = \varphi x_{t-1} + \alpha + \beta t + \varepsilon_t, t = 2, \ldots, T$ ,

**DGP:** $\Delta x_t = \alpha + \varepsilon_t,\ t = 2, \ldots, T$ .

Hər iki halda, $\varepsilon_t$ – riyazi gözləməsi sıfır və eyni normal paylanmaya malik asılı olmayan təsadüfi kəmiyyətdir.

Ən kiçik kvadratlar üsulu ilə SM-in parametrləri qiymətləndirilir və $H_0 : \varphi = 0$ hipotezinin yoxlanması üçün $t_\varphi$ t-statistikası hesablanır. Alınan qiymət $t_{crit}$ kritik səviyyə ilə

müqayisə edilir, fərz edilir ki, müşahidə olunan sıra verilən DGP modeli ilə alınır. Əgər $t_{\varphi}<t_{crit}$ isə, DS hipotezi rədd edilir. Əgər sıra $T=25, 50, 100, 250, 500$ intervalında müşahidə olunursa, əhəmiyyətliliyin seçilmiş səviyyəsinə müvafiq kritik səviyyəni [Fuller (1976)], [Fuller (1996)] kitablarında verilmiş cədvəllərdən götürmək olar. Əgər müşahidələrin $T$ sayı fərqlidirsə, onda $t_{crit}$ statistikanın təqribi kritik qiymətini [MacKinnon (1991)]-un işində verilmiş düsturla hesablamaq olar.

2) Əgər $x_t$determinik trendə (lakin stoxastik trendə malik ola bilərsə) malik deyildirsə və “0”-dan fərqli riyazi gözləməyə malikdirsə, onda cütlük belə götürülür:

**SM:** $\Delta x_t = \varphi x_{t-1} + \alpha + \varepsilon_t \ , \quad t = 2,\ldots,T,$

**DGP:** $\Delta x_t = \varepsilon_t \ , \quad t = 2,\ldots,T .$

Ən kiçik kvadratlar üsulu ilə SM-in parametrləri qiymətləndirilir və $H_0 : \varphi = 0$ hipotezinin yoxlanması üçün $t_{\varphi}$ t-statistikası hesablanır. Alınan qiymət $t_{crit}$ kritik səviyyə ilə müqayisə edilir, fərz edilir ki, müşahidə olunan sıra verilən DGP modeli ilə alınır. Əgər $t_{\varphi}<t_{crit}$ isə, DS hipotezi rədd edilir. Əgər sıra $T=25, 50, 100, 250, 500$ intervalında müşahidə olunursa, əhəmiyyətliliyin seçilmiş səviyyəsinə müvafiq kritik səviyyəni [Fuller (1976)], [Fuller (1996)] kitablarında verilmiş cədvəllərdən götürmək olar. Əgər müşahidələrin $T$ sayı fərqlidirsə, onda $t_{crit}$ statistikanın təqribi kritik qiymətini [MacKinnon (1991)]-un işində verilmiş düsturla hesablamaq olar.

3) Nəhayət, əgər $x_t$ detrminik trendə malik deyildirsə (lakin stoxastik trendə malik ola bilər) və riyazi gözləməsi “0” isə, onda aşağıdakı cütlük götürülür:

**SM:** $\Delta x_t = \varphi x_{t-1} + \varepsilon_t \ , \quad t = 2,\ldots,T ,$

**DGP**: $\Delta x_t = \varepsilon_t \ , \quad t = 2,\ldots,T .$

Diki-Fuller kriterisi qiymətləndirilən statistik modelin qeyri-düzgün seçimini əhəmiyyətli dərəcədə əks etdirə bilər. Məsələn, əgər müşahidə olunan sıra DGP modelini verirsə, lakin trend daxil edilməyən statistik modelin qiymətləndirmə nəticələrinə görə statistik nəticələr çıxarılırsa, onda $t_{\varphi}$ statistikasına əsaslanan kriterinin gücü müşahidələrin sayının artımı ilə 0-a yaxınlaşır [Perron(1988)]. Digər tərəfdən, qiymətləndirilən statistik model qalıqlı olmamalıdır, çünki, bu da kriterinin gücünün azalmasına səbəb olur.

***Genişləndirilmiş Diki-Fuller kriterisi. Gecikən fərqlərin sayının seçilməsi.*** Diki-Fuller kriterisi faktiki olaraq fərz edir ki, müşahidə olunan sıra birinci tərtib avtoreqressiya modelini özündə əks etdirir (mümkündür ki, xətti trendə gətirilməklə). Əgər müşahidə olunan sıra daha yüksək $p$ tərtibli (lakin, sonlu) modeli əks etdirirsə və səciyyəvi çoxhədli 1-dən çox vahid kökə malik deyilsə, onda genişləndirilmiş (augmented) Diki-Fuller kriterisindən istifadə etmək olar. Yuxarıda baxılan üç haldan hər biri qiymətləndirilən statistik modelin sağ tərəfini $\Delta x_{t-j}$, $t = 2,\ldots, p-1$ gecikən fərqlərlə kifayət qədər tamamlaya bilər, belə ki, məsələn, birinci halda, genişləndirilmiş statistik model qiymətləndirilir:

**SM**: $\Delta x_t = \varphi x_{t-1} + \alpha + \beta t + \sum_{j=1}^{p-1} \theta_j \Delta x_{t-j} + \varepsilon_t \ , \quad t = p+1,\ldots,T .$

Genişləndirilmiş statistik modelin qiymətləndirilməsi zamanı alınan $t_{\varphi}$ t-statistikası $H_0: \varphi=0$ hipotezinin yoxlanılması və yuxarıda baxılan (genişlən-dirilməmiş) model üçün $t_{crit}$ kritik qiyməti ilə müqayisə olunur. Əgər $t_{\varphi}<t_{crit}$ olarsa, onda DS – hipotezi rədd edilir.

Qeyd edək ki, $x_t$ sırası avtoreqressiya – sürüşkən orta mürəkkəb modelini əks etdirdikdə də genişləndirilmiş Diki-Fuller kriterisini tətbiq etmək olar. [Said, Dickey (1984)] tədqiqat işində göstərildiyi kimi, əgər $x_1,\ldots, x_T$ müşahidələr sırası ARIMA($p$, 1, $q$), $q > 0$ modelindən törəyirsə, onda onu ARI($p^*$, 1) = ARIMA($p^*$, 1, 0), $p^*<T^{1/3}$ modeli ilə aproksimasiya etmək və bu modelə Diki-Fuller qaydasını tətbiq etmək olar.

Yalnız, əgər $x_1,\ldots, x_T$ müşahidələr sırası hətta həqiqətən sonuncu $p$ tərtibdən AR($p$) avtoreqressiya modeli vasitəsilə əmələ gəlirsə, onda $p$ qiyməti adətən məlum olmur və onu mövcud müşahidələr əsasında qiymətləndirmək lazım gəlir, bu cür qabaqcadan qiymətləndirmə isə, kriterinin xarakterinə təsir edir. Buna görə, göstəricilərin təhlili zamanı əvvəlcə, $p=p_{max}$ qiymətini kifayət qədər böyük götürmək lazımdır ki, o avtoreqressiyanın həqiqi $p_0$ tərtibindən kiçik olmasın, sonra istifadə olunan $p$ qiymətini azaltmağı yoxlamaq lazımdır.

Bu cür azaltma məsələn, genişləndirilmiş modeli əhəmiyyəti (10% səviyyədə) olmayan gecikən fərqləri çıxarmaq hesabına ardıcıl ixtisar (GS-ümumidən xüsusiyə keçid strategiyası) etməklə və ya Şvars informasiya kriterisinə (SIC) görə müxtəlif $p\geq p_{max}$ ilə ixtisar olunmuş modelləri müqayisə etmək yolu ilə həyata keçirilə bilər. Hall (1994) və Perron (1995) öz tədqiqatlarında göstərmişlər ki, əgər $p_{max} \geq p_0$, onda son həddə ($T\to\infty$) SIC modelin düzgün tərtibini seçir, lakin GS strategiyası $p\geq p_0$ olduqda modeli seçir; buna görə məlum göstəricilərə əsasən, modelin tərtibinin seçilməsi faktı Diki-Fuller statistikasının asimptotik paylanmasına təsir göstərmir.

***Fillips-Perron kriterisi***. Fillips-Perron kriterisi 1988-ci ildə Fillips və Perron tərəfindən təklif edilmişdir. Bu kriteriyanın mahiyyəti, $x_t$ sırasının DS sinifinə məxsusluğu hipotezinin yoxlanması üçün

$$\Delta x_t = \varphi\, x_{t-1} + \alpha + \beta\, t + u_t \;, \qquad t = 2,\ldots,T\,, \tag{4}$$

statistik modeli çərçivəsində $H_0$ : $\varphi = 0$ hipotezinin yoxlanmasından ibarətdir, burada Diki-Fuller kriterisində olduğu kimi, $\alpha$ və $\beta$ parametrləri sıfıra bərabər qəbul edilə bilər. Lakin Diki-Fuller kriterisindən fərqli olaraq, burada, riyazi gözləmələri sıfır olan $u_t$ təsadüfi tərkibləri avtokorrelyasiyaya (avtokorrelyasiya funksiyasının kifayət qədər sürətli zəifləməsi ilə), müxtəlif dispersiyalara (heteroskedastiklik) malik ola bilər və mütləq deyil ki, normal paylanmış olsun (lakin, bəziləri üçün $E|u_t|^{\delta} \leq C < \infty$, $\delta > 2$). Bununla da, Diki-Fuller kriterisindən fərqli olaraq, daha çox zaman sıralarının təhlilində tətbiq edilməsinə imkanlar yaranır.

Fillips-Perron kriterisi göstərilmiş statistik model çərçivəsində $H_0$ : $\varphi = 0$ hipotezinin yoxlanması üçün t-statistikaya əsaslanır, lakin bu statistikanın $u_t$ sırasının mümkün avtokorrelyasiyalılıq və heteroskedastikliyinə korrekt edilmiş $Z_t$ statistikası variantından istifadə edir. $Z_t$, statistikasının hesablanmasında $u_t$sırasının

$$\lambda^2 = \lim_{T\to\infty} T^{-1} E(u_1 + \ldots + u_T)^2 . \tag{5}$$

kimi təyin edilən "uzunmüddətli" ("long-run") dispersiyasını qiymətləndirmək lazım gəlir.

Əgər, ən kiçik kvadratlar üsulu ilə qiymətləndirilmiş

$$\Delta x_t = \varphi\, x_{t-1} + \alpha + \beta\, t + u_t \;, \qquad t = 2,\ldots,T\,, \tag{6}$$

statistik modelinin qalıqları $u_t^*$ olarsa, bu halda $\lambda^2$ üçün $(\lambda^2)^*$ qiymәti kimi

$$(\lambda^2)^* = \gamma_0^* + 2\sum_{j=1}^{l}\left[1-\frac{j}{l+1}\right]\gamma_j^*, \quad (7)$$

qiymәtini götürmәk olar [Newey, West (1987)].

Burada,

$$\gamma_j^* = T^{-1}\sum_{t=j+1}^{l} u_t^* u_{t-j}^* \quad (8)$$

$u_t$ sırasının j-cu seçmә avtokovariasiyasıdır. Әgәt $l$ vә $T$ sonsuzluğa yaxınlaşarsa, $(l/T)^{1/4} \to 0$, onda bu halda $(\lambda^2)^*$ - $\lambda^2$ üçün tutarlı qiymәtlәndirmәdir [Phillips (1987)] vә $Z_t$ statistikanın asimptomik paylanması Diki-Fuller kriterisindә $t_\varphi$ statistikanın müvafiq asimptomik paylanması ilә üst-üstә düşür.

Realllıqda, biz, yalnız sonlu sayda müşahidәlәr haqqında mәlumata malik olduğumuzdan, mәsәlә, Newey-West qiymәtlәndirilmәsindә istifadә edilәn laqların $l$ ($l$ parametrini “pәncәrәnin eni” “window size” adlandırırlar) sayının seçilmәsindәn ibarәtdir. Bu mәsәlә, kifayәt qәdәr mühümdür, belә ki, pәncәrәnin eninin kifayәt etmәmәsi kriterinin (әhәmiyyәtlilik sәviyyәsindәn) nominal ölçüsündәn kәnarlaşmaya sәbәb ola bilәr. Eyni zamanda kriterinin nominal ölçüsündәn kәnarlaşmadan qaçılması üçün pәncәrәnin eninin artırılması kriterinin gücünün aşağı düşmәsinә sәbәb olur. Belәliklә, pәncәrәnin eninin konkret ölçüsünün seçilmәsi, bu iki zidd tendensiyalar arasında kompromisdir.

Bu istiqamәtdә bir sıra tәdqiqatların [Phillips, Perron (1988)], [Schwert (1989)] aparılmasına baxmayaraq, $l$ –in qiymәtinin seçilmәsi üçün hәr hansı sadә bir üsul müәyyәn edilmәmişdir. Bu mәsәlәdә [Andrews (1991)] tәdqiqatı xüsusi qeyd olunmalıdır, burada, $\lambda^2$ qiymәtlәndirilmәsinin qurulmasında bütün $T$-1 sayda qiymәtlәndirilmiş avtokovariasiyalar istifadә edilir, lakin, $\gamma_j^*$ $k\left(\frac{j}{l+1}\right)$-ә, burada vurulur, burada, $k(z) = \frac{3}{(6\pi z/5)^2}$.

Lakin, bu halda da, $l$ parametrinin münasib seçilmәsi mәsәlәsi öndә qalır.

Çox zaman, bu parametrin seçilmәsi üçün, [Schwert (1989)]-in tövsiyәlәrindәn istifadә olunur vә fәrz edilir ki, $l = [K\times(T/100)^{1/4}]$, burada, $[a]$ a әdәdinin tam hissәsidir, $K$ isә rüblük mәlumatlar üçün 4, aylıq mәlumatlar üçün isә 12-yә bәrabәr götürülür. $l$-in qiymәtinin seçilmәsinin digәr, o cümlәdәn dә EVIEWS (Econometric Views) statistik tәhlil proqram paketindә realizә edilmiş qaydası, $l = [4\times(T/100)^{2/9}]$ [Newey, West (1994)] qiymәtinin seçilmәsindәdir. Bәzi müәlliflәr, yalnız, sıranın uzunluğuna әsaslanmağı deyil, hәmçinin, $l$-in seçilmәsindә sıranın әhәmiyyәtli avtokorrelyasiyalarının sayının nәzәrә alınmasını mәslәhәt bilirlәr.

$Z_t$ statistikası üçün kritik qiymәtlәr [Fuller (1976)] cәdvәlindәn götürülür vә ya [MacKinnon (1991)] ifadәlәri ilә hesablanılır.

Hәmçinin, qeyd etmәk lazımdır ki, әgәr $x_t$sırası IMA(1, $q$) modeli ilә ifadә olunursa, onda bu qiymәt elә $q$-dür vә $l$ parametri kimiNewey-West qiymәtlәndirmәsindәn istifadә etmәk lazımdır. Әgәr, bu zaman $q$=1 vә $\Delta x_t = \varepsilon_t + b_1\varepsilon_{t-1}$ olarsa,onda $b_1 > 0$ olduqda, birinci növ sәhv ehtimalının azalması ilә eyni vaxtda, Fillips-Perron kriterisi Diki-Fuller kriterisinә nisbәtәn daha güclü olacaqdır. Eyni zamanda, $b_1 < 0$ olduqda, Fillips-Perron kriterisinin yüksәk

gücü birinci növ səhvlərin xeyli artması hesabına təmin olunduğundan, $b_1 < 0$ olduqda, bu kriteridən istifadə edilməsi məsləhət görülmür (bu kriteri, çox tez-tez sıranın DS sinifinə məxsusluğu haqqında hipotezi səhvən qəbul etməyəcəkdir).

***Kvyatovski-Filips-Şmidt-Şin (KPSS) kriterisi.*** Bu kriteri [Kwiatkowski, Phillips, Schmidt, Shin (1992)] tədqiqatında təklif edilmişdir və burada sıfır hipotezi kimi TS götürülür. “Sıra=Determinik trend+Stoxastik trend+ Stasionar səhv” şəklində modelə baxılır. Stoxastik trend təsadüfi kənarlaşmalar kimi təsvir edilir və sıfır hipotezi fərz edir ki, bu təsadüfi kənarlaşmaları doğuran innovasiyaların dispersiyası 0-a bərabərdir. Alternativ hipotez müvafiq olaraq fərz edir ki, bu dispersiya 0-dan fərqlidir, belə ki, təhlil olunan sıra DS sıraları sinfinə məxsusdur. Təklif olunan kriterinin bu cür ifadə olunması göstərilən sıfır hipotezinin yoxlanılması üçün LM kriterisidir.

Filips-Perron kriterisində olduğu kimi, Diki-Fuller kriterisinə nisbətən burada da səhvlərə tələb daha az ciddidir. Lakin bu kriterinin tətbiqi zamanı Newey-West qiymətləndirməsində $l$ pəncərəsinin eninin seçilməsi problemi yaranır, belə ki, kriterinin statistik qiyməti $l$-in qiymətlərinə kifayət qədər həssasdır. Müəlliflər özləri də tədqiqatlarında pəncərənin eninin seçilməsi variantlarını Şvertin [Schwert (1989)] tövsiyələrinə əsasən nəzərdən keçirirlər.

Zaman sıralarının təsadüfi seçməni təşkil edən müşahidələrin ardıcıllığından prinsipial fərqi ondan ibarətdir ki:

- birincisi, təsadüfi seçmənin elementlərindən fərqli olaraq zaman sırasının hədləri qeyri-asılı deyildir;
- ikincisi, zaman sırasının hədlərinin bərabər paylanması mütləq deyildir, belə ki, $t \neq t'$ olduqda, $P\{x_t < x\} \neq P\{x_{t'} < x\}$.

Bu o deməkdir ki, təsadüfi seçmənin statistik təhlilinin xassə və qaydalarını zaman sıralarına aid etmək olmaz. Digər tərəfdən, zaman sırasının hədlərinin qarşılıqlı asılılığı təhlil olunan göstəricilərin müşahidə olunan qiymətlərə görə proqnoz qiymətlərinin qurulması üçün öz spesifik bazasını əmələ gətirir.

Zaman sırasını əmələ gətirən müşahidələr bir sıra amillərin təsiri altında formalaşır. Bu amillərin 4 növünü ayırırlar:

- *uzunmüddətli* – uzunmüddətli perspektivdə təhlil olunan $x_t$əlamətinin dəyişməsində ümumi meyili formalaşdıran amildir. Adətən, arqumenti zaman olan bu meyil bu və ya digər $f_{\text{тр}}(t)$ qeyri-təsadüfi, bir qayda olaraq, monoton funksiyanın köməyi ilə təsvir olunur. Bu funksiya trend funksiyası və ya sadəcə trend adlanır.
- *mövsümi* – ilin müəyyən anındatəhlil olunanəlamətin dövri surətdə təkrar olunan dəyişməsini formalaşdıran amildir. Bu funksiya$\varphi(e)$ kimi işarə olunur və dövri (“mövsümlərə” bölünə bilən) olması, bir qayda olaraq, məsələnin əsas mahiyyətini şərtləndirir.
- *tsiklik (konyunktur)*, təhlil olunanəlamətin uzunmüddətli iqtisadi və demoqrafik sikllərin təsiri altında dəyişməsini formalaşdıran amildir. Siklik amillərin təsirinin nəticəsini $\psi(t)$ qeyri-təsadüfi funksiyasının köməyi ilə ifadə edirlər.
- *təsadüfi (qeyri-müntəzəm),* qeydiyyata və hesaba alınmayanlar. Məhz zaman sıralarının qiymətlərinin formalaşmasına onların təsiri $x_t$ elementinin stoxastik təbiətini, doğrudan da, $\xi_1,\ldots,\xi_T$ təsadüfi kəmiyyətləri üzərində əmələ gələn $x_1,\ldots, x_T$ – lərin müşahidələr

kimi interpretasiyasının zəruriliyini şərtləndirir. Təsadüfi amillərin təsirinin nəticəsini təsadüfi kəmiyyətlərin ("qalıqlar", "səhvlər") köməyi ilə $\varepsilon_t$ ilə işarə edəcəyik.

Əlbəttə ki, hər bir zaman sırasının qiymətlərinin formalaşması prosesində eyni zamanda amillərin hər dörd növünün iştirak etməsi qətiyyən vacib deyildir. Lakin, istənilən iqtisadi dinamik sıra üçün təsadüfi amillərin iştirakı vacibdir, belə ki, təsadüfi dəyişmələr istənilən iqtisadi prosesi mütləq müşayiət edir. Beləliklə, ümumi şəkildə göstəricilərin formalaşması modeli – iqtisadi dinamik sıranın additiv struktur modeli bu şəkildə olur:

$$x_t = \chi_1 f(t) + \chi_2 \varphi(t) + \chi_3 \psi(t) + \varepsilon_t. \quad (9)$$

əgər sıranın qiymətlərinin formalaşmasında i-ci növ amil iştirak edirsə, $\chi_i = 1$, əks halda, $\chi_i = 0$.

Zaman sırasının statistik təhlilinin əsas məqsədi ondan ibarətdir ki, bu sıranı əmələ gətirən trayektoriyanın

1. (4) ifadəsində qeyri-təsadüfi funksiyalardan hansının iştirak etdiyini, yəni $\chi_i$ indikatorlarının qiymətlərini müəyyənləşdirmək;
2. (4) ifadəsində iştirak edən qeyri-təsadüfi funksiyalar üçün "yaxşı" qiymətləndirmələrin qurulması;
3. $\varepsilon_t$təsadüfi qalıqlarının davranışını (hərəkətini) adekvat təsvir edən modeli seçmək və bu modelin parametrlərinin statistik qiymətləndirilməsi.

Zaman sıralarının statistik təhlilinin əsas məqsədini şərtləndirən bu məsələlərin müvəffəqiyyətli həlli, ilk növbədə, zaman sırasının qısa və orta müddətli proqnoz qiymətlərinin hesablanması üçün əsasdır.

Zaman sıralarının ekonometrik təhlilinin əsas elementlərini qısaca şərh edək:

- Riyazi-statistik üsulların əksəriyyəti modellərdə müşahidələrin asılı olmamasını və eyni paylanmaya malik olmasını fərz edir. Bu baxımdan, müşahidələr arasında asılılığın olmasına bu üsulların səmərəli tətbiqində bir maneə kimi baxılır. Lakin, məhz müxtəlif iqtisadi göstəricilərin dinamik sıralarının müşahidələri qarşılıqlı asılı olan zaman sıraları formasında çıxış etməsi və bu asılılığın xarakteri tədqiqatçıda böyük maraq yaradır. Müşahidələri asılı olan belə sıraların tədqiqinin üsul və modellərinin məcmusu zaman sıralarının təhlili adlanır. Zaman sıralarının ekonometrik təhlilinin əsas məqsədi müşahidələrin malik olduğu sıranı adekvat təsvir edən və həll üçün bazanı təşkil edən sadə və iqtisadi parametrləşdirilmiş modellərin imkanlarına görə qurulmasından ibarətdir. İlk növbədə aşağıdakı məsələlər:
  - təhlil olunan zaman sırasını təşkil edən müşahidələrin törəmə (yaranma) mexanizminin aşkar edilməsi;
  - zaman sırasının gələcək qiymətləri üçün optimal proqnozun qurulması;
  - təhlil olunan prosesin idarəetmə və optimallaşdırma strategiyasının hazırlanması;

Yuxarıda qeyd etdiyimiz kimi, təhlil olunan zaman sırasını təşkil edən müşahidələrin qiymətlərinin formalaşmasına dörd növ amil təsir edə bilər. Lakin konkret zaman sırasının qiymətlərinin formalaşmasında bu amillərin eyni zamanda hər dörd növünün iştirakı vacib deyildir. Əsas məsələ bu amillərin təsirinin müəyyənləşdirilməsi və modelləşdirilməsidir.

İlk növbədə, zaman sırasının qiymətlərinin formalaşmasında "xalis təsadüfi" amillərdən başqa, hər hansı bir amilin iştirak edib-etmədiyini müəyyənləşdirmək lazımdır. "Xalis təsadüfi" amillər dedikdə, qarşılıqlı korrelyasiyaya malik olmayan və eyni paylanmaya,

sabit orta qiymətə (zamandan asılı olmayan) və dispersiyaya malik təsadüfi kəmiyyətlər nəzərdə tutulur. Bu məsələ, müvafiq hipotezlərin statistik yoxlanmasını aparmaqla, məsələn, Abbe, Boks-Pirs və Lyunq-Boks kriterilərinin köməyi ilə həll edilə bilər.

Əgər bu statistik hipotezin yoxlanması nəticəsində müşahidələrin qarşılıqlı asılı olması (eyni paylanmaya malik olmaması da mümkündür) aşkar edilərsə, onda bu sıraya uyğun model seçilir. Bu cür modellərin seçilməsi adətən sıraların aşağıdakı tip sinifləri ilə məhdudlaşır:

a) stasionar zaman sıraları sinfi (əsasən, "təsadüfi qalıqların" hərəkətinin təsviri üçün istifadə olunur);
b) determinik trend ilə stasionar zaman sırasının cəminə bərabər olan qeyri-stasionar zaman sıraları sinfi;
c) stoxastik trendə (sıranı ardıcıl diferensiallamaqla aradan qaldırıla bilən, yəni, bir və ya daha yüksək tərtibdən fərqlərin sırasına keçid yolu ilə) malik qeyri-stasionar zaman sıraları sinfi.

$x_t$ stasionar zaman sıraları bununla xarakterizə olunur ki, onların orta qiymətləri, dispersiyaları və kovariasiyaları $t$-dən asılı deyildir. Stasionar zaman sırasının hədləri arasında mövcud qarşılıqlı əlaqəni, bir qayda olaraq, $p$ tərtibdən AR($p$) avtoreqressiya modeli, $q$ tərtibdə MA($q$) sürüşkən orta modeli və avtoreqressiya ilə sürüşkən orta modelinin $p$ və $q$ tərtibdən qalıqlarla ARMA($p$,$q$) mürəkkəb modeli vasitəsilə adekvat təsvir etmək olar.

Əgər $x_t$ zaman sırasının $k$ tərtib fərqlərinin $\Delta^k x_t$ ardıcıllığı stasionar zaman sırası əmələ gətirərsə, bu sıra $k$ tərtibdən inteqrallanan adlanır. Ekonometrik tətbiqi məsələlərdə mövsümi amillərin təsiri altında formalaşan zaman sıralarını $p$, $k$ və $q$ tərtib avtoreqressiya inteqrallanan sürüşkən orta ARIMA($p$, $k$, $q$) modellərinin köməyi ilə kifayət qədər adekvat təsvir etmək olar.

Hal-hazırda, $k$ tərtib inteqrallanan sıra sinfinə determinik trendə nisbətən stasionar olan $k$ ($k$-dan kiçik olmayan) tərtib fərqləri də aid edirlər. Əgər zaman sırası özü stasionar və ya determinik trendə nisbətən stasionar sıradırsa, onda o, 0 tərtibdən inteqrallanan sıra kimi müəyyən olunur. Mövsümi amilin təsiri olduqda isə, bəzən zaman sırasını qonşu qiymətlərin deyil, zaman vahidinin uyğun sayında duran qiymətlərin fərqinə keçidlə almaq olar. Məsələn, rüblük məlumatlarla verilən sıranın stasionarlığına nail olmaq üçün sıranın 4 zaman vahidində duran qiymətlərinin fərqinin ardıcıllığına keçid kifayət edir.

Konkret $\{x_t\}$, $t = 1, 2, \ldots, T$ zamansırası üçün modelin seçilməsi mümkün həllər çoxluğu kimi uyğun parametrik modellərin müəyyənləşdirilməsi və sonra $x_1, x_2, \ldots, x_T$ müşahidələrinə əsasən modellərin parametrlərinin statistik qiymətləndirilməsidir. Bu proses modelin identifikasiyası adlanır. Zaman sırası modelinin düzgün identifikasiyası üçün tədqiq olunan sıranın stasionar, determinik trendə nisbətən stasionar və ya onun tərkibində stoxastik trendin olub-olmamasını müəyyənləşdirmək lazımdır.

İqtisadi qərarların qəbul edilməsində iqtisadi göstəricilərin proqnozlaşdırılması mühüm rol oynayır. Zaman sıralarının təhlilinə əsaslanan proqnoz üsulları yalnız sıranın malik olduğu məlumatlar əsasında ekstrapolyasiya edilir. Bu cür proqnoz yalnız qısamüddətli, maksimum isə, ortamüddətli perspektivdə səmərəli ola bilər. Uzunmüddətli proqnoz məsələlərinin həlli isə, kompleks yanaşmaların istifadəsini, ilk növbədə, müxtəlif (o cümlədən, statistik) yığım texnologiyasının cəlb edilməsini və ekspert qiymətləndirilməsi təhlilini tələb edir.

Stoxastik proseslərin təsviri üçün avtoreqressiya (AR) modellərindən geniş istifadə olunur. Qısa və ortamüddətli avtoproqnoz məsələlərinə səmərəli yanaşma ARIMA($p$, $k$, $q$)

modeli xüsusi halı kimi AR-, MA- və ARMA modellərinin istifadəsinə əsaslanan proqnozlaşdırmadır.

Avtoreqressiya modeli elə modelə deyilir ki, modelləşdirilən qiymətlər özündən əvvəlki müşahidələrin xətti funksiyası olsun. ARIMA modeli zaman sıralarının kifayət qədər geniş spektrini əhatə edir, bu modellərin cüzi modifikasiyası mövsümi zaman sıralarını olduqca dəqiq təsvir etməyə imkan verir. ARIMA modeli dedikdə, bura xüsusi hal kimi, AR-, MA- и ARMA modelləri də daxildir.

Azərbaycan Respublikası üçün idxalın, ixracın həcminin, M0 və M2 pul aqreqatlarının aylar üzrə dinamikasını əks etdirən zaman sıralarının ekonometrik təhlilinə baxaq.

***İdxalın və ixracın dinamik sıralarının struktur təhlili.*** 01.2003-09.2008-ci il aylar üzrə idxalın dinamikasını əks etdirən zaman sırasının statistik göstəriciləri aşağıdakı cədvəl 1-də verilmişdir. Qeyd edək ki, idxal və ixrac göstəricilərinin statistik rəqəmləri Dövlət Statistika Komitəsinin "Azərbaycanın xarici ticarət əlaqələri" statistik toplusundan götürülmüşdür.




Şəkil 1

01.2003-09.2008-ci il aylar üzrə idxalın dinamikasını əks etdirən zaman sırasının qrafiki aşağıdakı şəkildə verilmişdir:




Şəkil 2.

Bu sıranın qrafiki bir qədər stasionar sıranın qrafikini xatırladır. Mövsümi düzəlişləri nəzərə almaqla idxalın dinamik sırasının qrafiki şəkil 3-də təsvir olunmuşdur.




Şəkil 3.

İdxalın dinamikasını əks etdirən zaman sırasının avtokorrelyasiya və xüsusi avtokorrelyasiya funksiyalarının qrafikini (korrelloqramını) quraq. Avtokorrelyasiya funksiyası zaman sırasının müşahidələri arasında statistik əlaqələrin sıxlıq dərəcəsini göstərir. Zaman sırası stasionar olan halda, avtokorrelyasiya və xüsusi avtokorrelyasiya funksiyalarının qrafiki (korrelloqramı) ilk bir neçə qiymətdən sonra t-nin artımına görə sürətlə azalmalıdır. Aşağıdakı cədvəl göstərir ki, zaman sırası stasionar deyildir.

Cədvəl 2

<table>
<tr><td colspan="7">Date: 12/12/08 Time: 18:14</td></tr>
<tr><td colspan="7">Sample: 2003M01 2008M09</td></tr>
<tr><td colspan="7">Included observations: 69</td></tr>
<tr><th>Autocorrelation</th><th>artial Correlation</th><th></th><th>AC</th><th>PAC</th><th>Q-Stat</th><th>Prob</th></tr>
<tr><td>. |***** |</td><td>. |***** |</td><td>1</td><td>0.682</td><td>0.682</td><td>33.491</td><td>0.000</td></tr>
<tr><td>. |***** |</td><td>. |** |</td><td>2</td><td>0.605</td><td>0.262</td><td>60.266</td><td>0.000</td></tr>
<tr><td>. |**** |</td><td>. | . |</td><td>3</td><td>0.498</td><td>0.029</td><td>78.663</td><td>0.000</td></tr>
<tr><td>. |**** |</td><td>. |*. |</td><td>4</td><td>0.491</td><td>0.150</td><td>96.832</td><td>0.000</td></tr>
<tr><td>. |*** |</td><td>. | . |</td><td>5</td><td>0.416</td><td>-0.010</td><td>110.08</td><td>0.000</td></tr>
<tr><td>. |*** |</td><td>. | . |</td><td>6</td><td>0.396</td><td>0.046</td><td>122.27</td><td>0.000</td></tr>
<tr><td>. |*** |</td><td>. |*. |</td><td>7</td><td>0.383</td><td>0.081</td><td>133.85</td><td>0.000</td></tr>
<tr><td>. |*** |</td><td>. | . |</td><td>8</td><td>0.375</td><td>0.043</td><td>145.14</td><td>0.000</td></tr>
<tr><td>. |*** |</td><td>. | . |</td><td>9</td><td>0.347</td><td>0.012</td><td>154.97</td><td>0.000</td></tr>
<tr><td>. |** |</td><td>.*| . |</td><td>10</td><td>0.292</td><td>-0.058</td><td>162.07</td><td>0.000</td></tr>
<tr><td>. |** |</td><td>. | . |</td><td>11</td><td>0.293</td><td>0.049</td><td>169.30</td><td>0.000</td></tr>
<tr><td>. |** |</td><td>. |*. |</td><td>12</td><td>0.318</td><td>0.110</td><td>178.02</td><td>0.000</td></tr>
<tr><td>. |** |</td><td>. | . |</td><td>13</td><td>0.277</td><td>-0.056</td><td>184.72</td><td>0.000</td></tr>
<tr><td>. |** |</td><td>.*| . |</td><td>14</td><td>0.207</td><td>-0.108</td><td>188.54</td><td>0.000</td></tr>
<tr><td>. |*. |</td><td>. | . |</td><td>15</td><td>0.172</td><td>-0.033</td><td>191.23</td><td>0.000</td></tr>
<tr><td>. |*. |</td><td>. |*. |</td><td>16</td><td>0.193</td><td>0.072</td><td>194.67</td><td>0.000</td></tr>
<tr><td>. |*. |</td><td>. | . |</td><td>17</td><td>0.150</td><td>-0.046</td><td>196.80</td><td>0.000</td></tr>
</table>

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| . \|*. \| | . \| . \| | 18 | 0.120 | -0.042 | 198.18 | 0.000 |
| . \|*. \| | . \|*. \| | 19 | 0.191 | 0.189 | 201.76 | 0.000 |
| . \|*. \| | .*\| . \| | 20 | 0.124 | -0.154 | 203.30 | 0.000 |
| . \|*. \| | . \| . \| | 21 | 0.135 | 0.023 | 205.16 | 0.000 |
| . \|*. \| | . \| . \| | 22 | 0.068 | -0.037 | 205.65 | 0.000 |
| . \|*. \| | . \|*. \| | 23 | 0.158 | 0.169 | 208.30 | 0.000 |
| . \|*. \| | .*\| . \| | 24 | 0.084 | -0.136 | 209.06 | 0.000 |
| . \|*. \| | . \|*. \| | 25 | 0.133 | 0.069 | 211.02 | 0.000 |
| . \| . \| | **\| . \| | 26 | -0.012 | -0.224 | 211.04 | 0.000 |
| . \| . \| | .*\| . \| | 27 | -0.045 | -0.104 | 211.27 | 0.000 |
| . \| . \| | . \| . \| | 28 | -0.054 | 0.043 | 211.62 | 0.000 |

Zaman sırasının stasionarlığının yoxlanılması üçün ikinci formal üsul yuxarıda qeyd etdiyimiz kimi, vahid kökün varlığı testi Diki-Fuller testi (DF) və ya genişləndirilmiş Diki-Fuller (ADF) testidir. Genişləndirilmiş Diki-Fuller testinin aparılması zamanı əsas cəhət reqressiya tənliyinə sərbəst həddin, trendin və habelə, laqların uzunluğunun determinasiyasının daxil edilməsi məsələsidir. Bunun üçün, qeyd etdiyimiz kimi, "ümumidən xüsusiyə" metodu mövcuddur. Laqların sayı elə götürülməlidir ki, qalıqların avtokorrelyasiyası aradan qaldırılsın. AR(p)–nin tərtibi qabaqcadan məlum olmadıqda, laqların sayını yüksək daxil etmək tövsiyə olunur ki, səhvlərin mümkün avtokorrelyasiyası aradan qaldırılsın.

İdxalın (M_IDX) 2003.01-2008.09-cu ayları əhatə edən dinamikasını əks etdirən şəkil 1-dən aydın görünür ki, dinamika sırası trendə və təqribən 135 mlrd. USD dollarına bərabər olan sabit əmsala malikdir. Deməli, sıranın vahid köklər testini apararkən reqressiya tənliyində zaman amilini (trendi) və sabit əmsalı nəzərə almaq lazımdır. Genişləndirilmiş Diki-Fuller kriterisinin tətbiqi zamanı qiymətləndirilən tənliyin sağ tərəfinə 12 ay gecikmə fərqini daxil etməklə, testin nəticəsi, beləliklə aşağıdakı kimi alınmışdır:

Cədvəl 3

| | | | | |
|---|---|---|---|---|
| Null Hypothesis: M_IDX has a unit root | | | | |
| Exogenous: Constant, Linear Trend | | | | |
| Lag Length: 12 (Fixed) | | | | |
| | | | | |
| | | | t-Statistic | Prob.* |
| Augmented Dickey-Fuller test statistic | | | -1.651063 | 0.7595 |
| Test critical values: | 1% level | | -4.130526 | |
| | 5% level | | -3.492149 | |
| | 10% level | | -3.174802 | |
| | | | | |
| *MacKinnon (1996) one-sided p-values. | | | | |
| | | | | |
| Augmented Dickey-Fuller Test Equation | | | | |
| Dependent Variable: D(M_IDX) | | | | |
| Method: Least Squares | | | | |
| Date: 12/23/08 Time: 10:41 | | | | |
| Sample (adjusted): 2004M02 2008M09 | | | | |
| Included observations: 56 after adjustments | | | | |
| | | | | |
| | | | | |

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| M_IDX(-1) | -1.301347 | 0.788187 | -1.651063 | 0.1064 |
| D(M_IDX(-1)) | 0.459154 | 0.750393 | 0.611885 | 0.5440 |
| D(M_IDX(-2)) | 0.513034 | 0.708480 | 0.724133 | 0.4731 |
| D(M_IDX(-3)) | 0.392753 | 0.639942 | 0.613733 | 0.5428 |
| D(M_IDX(-4)) | 0.500770 | 0.576071 | 0.869285 | 0.3898 |
| D(M_IDX(-5)) | 0.353871 | 0.522291 | 0.677535 | 0.5019 |
| D(M_IDX(-6)) | 0.275278 | 0.468509 | 0.587560 | 0.5600 |
| D(M_IDX(-7)) | 0.216475 | 0.437589 | 0.494700 | 0.6235 |
| D(M_IDX(-8)) | 0.086524 | 0.407071 | 0.212554 | 0.8327 |
| D(M_IDX(-9)) | 0.034716 | 0.389106 | 0.089220 | 0.9293 |
| D(M_IDX(-10)) | -0.083899 | 0.330855 | -0.253584 | 0.8011 |
| D(M_IDX(-11)) | -0.102078 | 0.265983 | -0.383778 | 0.7031 |
| D(M_IDX(-12)) | 0.007971 | 0.192362 | 0.041440 | 0.9671 |
| C | 216.9348 | 128.4365 | 1.689043 | 0.0988 |
| @TREND(2003M01) | 7.776778 | 4.345942 | 1.789434 | 0.0809 |
| | | | | |
| R-squared | 0.443235 | Mean dependent var | | 9.321841 |
| Adjusted R-squared | 0.253120 | S.D. dependent var | | 118.3795 |
| S.E. of regression | 102.3062 | Akaike info criterion | | 12.31775 |
| Sum squared resid | 429128.6 | Schwarz criterion | | 12.86026 |
| Log likelihood | -329.8970 | F-statistic | | 2.331406 |
| Durbin-Watson stat | 1.966270 | Prob(F-statistic) | | 0.017847 |

Genişləndirilmiş Diki-Fuller (ADF) testinin alınmış t-statistik qiyməti hətta 10% kritik səviyyədən yüksəkdir, deməli, vahid kökün varlığı testi rədd edilmir.

H0 hipotezi rədd edilə bilinmədiyi üçün  baxılan sıranı qeyri-stasionar sıra hesab etmək olar. Beləliklə, avtokorrelyasiya və xüsusi avtokorrelyasiya funksiyalarının qrafiki kimi, genişləndirilmiş Diki-Fuller (ADF) testinin aparılmasından alınmış nəticə təhlil olunan zaman sırasının qeyri-stasionar olmasını təsdiq edir.

Bildiyimiz kimi, əksər zaman sıraları qeyri-stasionar olmaları ilə seçilirlər və qeyri-stasionar sıraların modelə daxil edilməsi saxta-reqressiyanın alınmasına və beləliklə də, səhv nəticələrə gəlməyə səbəb ola bilər. Buna görə də modelləşdirmədə stasionar sıralardan istifadə etmək daha məqsədəuyğundur. Ümumiyyətlə, stasionar sıra dedikdə, sabit orta qiymətə, sabit variasiyaya və sabit kovariasiyaya malik olan sıra nəzərdə tutulur. Qeyri-stasionar sıranın stasionara gətirilməsinin klassik üsulu ardıcıl fərqlərin alınması üsuludur. Yəni əksər hallarda, əgər sıra özü qeyri-stasionardırsa, onun fərqlərdən ibarət olan sırası stasionar olur. Təcrübə göstərir ki, əgər sıranın birinci tərtib fərqi (first difference) stasionar olmazsa, onda onun ikinci, ən mürəkkəb halda isə, n tərtib fərqi stasionar olur.

Təcrübə göstərir ki, bəzən hətta verilmiş sıranın birinci tərtib fərq sırasında belə, trend amili əhəmiyyətli ola bilər və stasionarlıq sıfır (0) ətrafında deyil, hər hansı sabit ətrafında formalaşa bilər.

Cədvəl 4

| | | | | |
|---|---|---|---|---|
| Null Hypothesis: D(M_IDX) has a unit root | | | | |
| Exogenous: Constant, Linear Trend | | | | |
| Lag Length: 2 (Automatic based on SIC, MAXLAG=12) | | | | |
| | | | t-Statistic | Prob.* |
| Augmented Dickey-Fuller test statistic | | | -7.688916 | 0.0000 |
| Test critical values: | 1% level | | -4.105534 | |
| | 5% level | | -3.480463 | |
| | 10% level | | -3.168039 | |
| *MacKinnon (1996) one-sided p-values. | | | | |
| Augmented Dickey-Fuller Test Equation | | | | |
| Dependent Variable: D(M_IDX,2) | | | | |
| Method: Least Squares | | | | |
| Date: 12/27/08 Time: 22:30 | | | | |
| Sample (adjusted): 2003M05 2008M09 | | | | |
| Included observations: 65 after adjustments | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| D(M_IDX(-1)) | -2.295303 | 0.298521 | -7.688916 | 0.0000 |
| D(M_IDX(-1),2) | 0.697631 | 0.224845 | 3.102714 | 0.0029 |
| D(M_IDX(-2),2) | 0.306533 | 0.128273 | 2.389690 | 0.0200 |
| C | 5.905151 | 26.04259 | 0.226750 | 0.8214 |
| @TREND(2003M01) | 0.340653 | 0.642164 | 0.530477 | 0.5977 |
| R-squared | 0.750829 | Mean dependent var | | 1.480698 |
| Adjusted R-squared | 0.734217 | S.D. dependent var | | 188.0123 |
| S.E. of regression | 96.92809 | Akaike info criterion | | 12.05962 |
| Sum squared resid | 563703.2 | Schwarz criterion | | 12.22688 |
| Log likelihood | -386.9376 | F-statistic | | 45.19954 |
| Durbin-Watson stat | 2.022493 | Prob(F-statistic) | | 0.000000 |

Beləliklə, vahid kökün varlığı hipotezi rədd edilir, alınan sıra stasionardır və əsas sıra birinci tərtibdən inteqrallanandır. Lakin, trend üçün p-value=0.5977>0.05 alınması bu dəyişənin əhəmiyyətsiz olduğunu göstərir. Bu şəkil 3-dən də görünür. Trend daxil edilmədən birinci tərtib fərqə baxsaq, alarıq:

Cədvəl 5

| | | | | |
|---|---|---|---|---|
| Null Hypothesis: D(M_IDX) has a unit root | | | | |
| Exogenous: Constant | | | | |
| Lag Length: 2 (Automatic based on SIC, MAXLAG=12) | | | | |
| | | | t-Statistic | Prob.* |
| Augmented Dickey-Fuller test statistic | | | -7.716670 | 0.0000 |
| Test critical values: | 1% level | | -3.534868 | |
| | 5% level | | -2.906923 | |
| | 10% level | | -2.591006 | |
| *MacKinnon (1996) one-sided p-values. | | | | |
| Augmented Dickey-Fuller Test Equation | | | | |
| Dependent Variable: D(M_IDX,2) | | | | |
| Method: Least Squares | | | | |
| Date: 12/27/08 Time: 23:42 | | | | |
| Sample (adjusted): 2003M05 2008M09 | | | | |
| Included observations: 65 after adjustments | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| D(M_IDX(-1)) | -2.286157 | 0.296262 | -7.716670 | 0.0000 |
| D(M_IDX(-1),2) | 0.690707 | 0.223140 | 3.095396 | 0.0030 |
| D(M_IDX(-2),2) | 0.304328 | 0.127448 | 2.387856 | 0.0201 |
| C | 18.08863 | 12.20474 | 1.482098 | 0.1435 |
| R-squared | 0.749660 | Mean dependent var | | 1.480698 |
| Adjusted R-squared | 0.737348 | S.D. dependent var | | 188.0123 |
| S.E. of regression | 96.35548 | Akaike info criterion | | 12.03353 |
| Sum squared resid | 566347.1 | Schwarz criterion | | 12.16734 |
| Log likelihood | -387.0897 | F-statistic | | 60.88954 |
| Durbin-Watson stat | 2.017598 | Prob(F-statistic) | | 0.000000 |

Birinci tərtib fərqlərdən ibarət olan idxal sırasının ADF testi ilə vahid köklərinin yoxlanılması göstərir ki, bu sıra hər üç əhəmiyyətlilik səviyyəsində stasionardır (Cədvəl 5). Birinci tərtib fərqlərdən ibarət olan idxal sırasının qrafiki şəkil 4-də verilmişdir.




Şəkil 4.

Şəkil 4-dən görünür ki, idxal dinamikasının birinci tərtib fərqlərdən ibarət olan sırası sıfır ətrafında dəyişir və stasionarlıq şərtlərini ödəməyə yaxındır. Təhlil olunan sıranın ARIMA modeli ilə alınan növbəti altı ay üçün proqnoz qiymətlərin qrafiki aşağıdakı kimi verilmişdir:




Şəkil 5.

Burada alınan qiymətlər tədqiqatçının mülahizələri və ya ekspert qiymətləndirmələri deyil, konkret iqtisadi göstəricilərin proqnoz qiymətlərinin mövcud trend və bəzi hallarda isə, onun zəruri dəyişiklikləri nəzərə alınmaqla, zaman sıralarının ARIMA(*p*, *d*, *q*) formal modelləri əsasında yerinə yetirilmiş hesablanmasını özündə əks etdirir. Təqdim olunan proqnozlar inersiyalı xarakter daşıyır, ona görə ki, müvafiq modellər göstəricilərin proqnozların qurulması anına qədər olan dinamikasını nəzərə alır. Xüsusilə, proqnozlar onların qurulması üçün bilavasitə əvvəlki zaman intervalı müddətində xarakterik olan zaman tendensiyasından (meyldən) ciddi asılıdır.

01.2003-09.2008-ci il aylar üzrə ixracın dinamikasını əks etdirən zaman sırasının qrafiki şəkil 5.-də əks olunmuşdur:




Şəkil 6.

Şəkil 6-dan görünür ki, 2008-ci ilin aprel ayından başlayaraq, ixracın həcmində kəskin artım müşahidə olunur. Bu artım neft ixracının həcminin may və iyul ayında kəskin artması ilə əlaqədardır.Qeyd etmək lazımdır ki, ixracın həcminin dinamikası əhəmiyyətli dərəcədə dünya bazarında neftin qiymətinin həmin müddətdə artması ilə əlaqədardır ki, bu hala da qeyri-stasionar təsadüfi proses kimi baxmaq olar.

Məlum olduğu kimi struktur sınmaya malik olan sıraların vahid köklər testini apararkən ADF-dən istifadə etmək effektiv deyildir. Çünki ADF sırada olan struktur sınmanı nəzərə ala bilmir. Belə hallarda Fillips Perron (Phillips Perron) testindən istifadə etmək daha məqsədəuyğundur.

Əgər ixracın dinamikasına struktur sınmanı əmələ gətirən intervalı daxil etməsək, onda aşağıdakı kimi qrafik alınar:




Şəkil 7.

İxracın dinamikasını əks etdirən zaman sırasının avtokorrelyasiya və xüsusi avtokorrelyasiya funksiyalarının qrafikinə və Diki-Fuller testinin nəticəsinə istinadən qeyd etmək olar ki, ixracın baxılan sırasının stasionar olması ilə yanaşı, onun dinamikasında trend amili də statistik əhəmiyyətlidir.




Şəkil 8

**Pul aqreqatının dinamik sırasının struktur təhlili.**

01.2003-09.2008-ci il aylar üzrəM0 pul aqreqatının dinamikasını əks etdirən zaman sırasının statistik göstəriciləri cədvəl 6.-da verilmişdir və statistik rəqəmlərin istinad mənbəyi Milli Bankın bülletenləridir.




Şəkil 9.

M0 pul aqreqatının 2003.01-2008.09-cu ayları əhatə edən dinamikası aşağıdakı qrafikdə əks olunmuşdur:




Şəkil 10.

Məlum olduğu kimi struktur sınmaya malik olan sıraların vahid köklər testini apararkən ADF-dən istifadə etmək effektiv deyildir. Çünki ADF sırada olan struktur sınmanı nəzərə ala bilmir. Belə hallarda Fillips Perron (Phillips Perron) testindən istifadə etmək daha məqsədəuyğundur. Şəkil 8-dən göründüyü kimi, 2006-cı ildən etibarən M0 pul aqreqatının dinamikasında struktur sınma var və ona görə də, vahid köklər testini PP ilə aparmaq daha məqsədəuyğundur. M0 pul aqreqatının verilmiş dinamikasının FP metodu vasitəsilə aparılmış vahid köklər testinin nəticəsi Cədvəl 7.-də verilmişdir:

Cədvəl 7

| | | | | |
|---|---|---|---|---|
| Null Hypothesis: M0 has a unit root | | | | |
| Exogenous: Constant, Linear Trend | | | | |
| Bandwidth: 2.89 (Andrews using Bartlett kernel) | | | | |
| | | | Adj. t-Stat | Prob.* |
| Phillips-Perron test statistic | | | 1.709313 | 1.0000 |
| Test critical values: | 1% level | | -4.098741 | |
| | 5% level | | -3.477275 | |
| | 10% level | | -3.166190 | |
| *MacKinnon (1996) one-sided p-values. | | | | |
| Residual variance (no correction) | | | | 5767.202 |
| HAC corrected variance (Bartlett kernel) | | | | 3253.215 |
| Phillips-Perron Test Equation | | | | |
| Dependent Variable: D(M0) | | | | |
| Method: Least Squares | | | | |
| Date: 12/28/08 Time: 22:06 | | | | |
| Sample (adjusted): 2003M02 2008M09 | | | | |
| Included observations: 68 after adjustments | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| M0(-1) | 0.020302 | 0.020607 | 0.985187 | 0.3282 |
| C | -25.10564 | 20.34662 | -1.233897 | 0.2217 |
| @TREND(2003M01) | 1.542344 | 0.953576 | 1.617432 | 0.1106 |
| R-squared | 0.278052 | Mean dependent var | | 49.06765 |
| Adjusted R-squared | 0.255838 | S.D. dependent var | | 90.04230 |
| S.E. of regression | 77.67484 | Akaike info criterion | | 11.58605 |
| Sum squared resid | 392169.8 | Schwarz criterion | | 11.68397 |
| Log likelihood | -390.9259 | F-statistic | | 12.51707 |
| Durbin-Watson stat | 2.441881 | Prob(F-statistic) | | 0.000025 |

Cədvəl 7-dən göründüyü kimi, M0 pul aqreqatının verilmiş sırası qeyri-stasionardır. Lakin M0 pul aqreqatının birinci tərtib fərqlərindən ibarət dinamika zaman amilini nəzərə almaqla stasionardır (Cədvəl 8):

Cədvəl 8

| | | | | |
|---|---|---|---|---|
| Null Hypothesis: D(M0) has a unit root | | | | |
| Exogenous: Constant, Linear Trend | | | | |
| Bandwidth: 0.586 (Andrews using Bartlett kernel) | | | | |
| | | | Adj. t-Stat | Prob.* |
| Phillips-Perron test statistic | | | -9.627875 | 0.0000 |
| Test critical values: | 1% level | | -4.100935 | |
| | 5% level | | -3.478305 | |
| | 10% level | | -3.166788 | |
| *MacKinnon (1996) one-sided p-values. | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Residual variance (no correction) | | | | 5719.409 |
| HAC corrected variance (Bartlett kernel) | | | | 5719.409 |
| | | | | |
| Phillips-Perron Test Equation | | | | |
| Dependent Variable: D(M0,2) | | | | |
| Method: Least Squares | | | | |
| Date: 12/28/08 Time: 22:12 | | | | |
| Sample (adjusted): 2003M03 2008M09 | | | | |
| Included observations: 67 after adjustments | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| D(M0(-1)) | -1.183950 | 0.122971 | -9.627875 | 0.0000 |
| C | -41.05184 | 20.04028 | -2.048467 | 0.0446 |
| @TREND(2003M01) | 2.848002 | 0.571908 | 4.979821 | 0.0000 |
| | | | | |
| R-squared | 0.591567 | Mean dependent var | | 1.146567 |
| Adjusted R-squared | 0.578803 | S.D. dependent var | | 119.2286 |
| S.E. of regression | 77.37898 | Akaike info criterion | | 11.57905 |
| Sum squared resid | 383200.4 | Schwarz criterion | | 11.67777 |
| Log likelihood | -384.8982 | F-statistic | | 46.34821 |
| Durbin-Watson stat | 2.030158 | Prob(F-statistic) | | 0.000000 |

M0 pul aqreqatının birici tərtib fərqlərindən ibarət olan dinamika sırasının qrafiki aşağıdakı kimi görünür




Şəkil 11.

Şəkil 11-dən görünür ki, M0 dinamikasının birinci tərtib fərqlərdən ibarət olan sırası sıfır ətrafında dəyişir və stasionarlıq şərtlərini ödəməyə yaxındır. Təhlil olunan sıranın ARIMA modeli ilə alınan növbəti altı ay üçün proqnoz qiymətlərin qrafiki aşağıdakı kimi verilmişd




Şəkil 12.

01.2003-09.2008-ci il aylar üzrəM2 pul aqreqatının dinamikasını əks etdirən zaman sırasının statistik göstəriciləri aşağıdakı şəkildədir:

Şəkil 13




M2 pul aqreqatının 2003.01-2008.09-cu ayları əhatə edən dinamikası aşağıdakı qrafikdə əks olunmuşdur:




Şəkil 14.

Yuxarıda qeyd etmişdik ki, tədqiq olunan sıra struktur sınmaya malik olduğundan vahid köklər testini PP ilə aparmaq daha məqsədəuyğundur. M2 pul aqreqatının verilmiş dinamikasının FP metodu vasitəsilə aparılmış vahid köklər testinin nəticəsi bu sıranın qeyri-stasionar olduğunu göstərir. Lakin M2 pul aqreqatının birinci tərtib fərqlərindən ibarət dinamika zaman amilini nəzərə almaqla stasionardır. ARIMA modeli ilə alınan növbəti altı ay üçün proqnoz qiymətlərin qrafiki aşağıdakı kimi verilmişdir:




Şəkil 15.

**Nəticə.** Tədqiqat işinin əsas məqsədi yuxarıda qeyd edidiyi kimi, əsasən, makroiqtisadi göstəricilərin zaman sıralarının strukturunun təhlilinin aparılması məsələlərinin öyrənilməsidir. Bu məqsədlə, tədqiqat işində zaman sıralarının mahiyyəti, qeyri-stasionarlıq və kointeqrasiya anlayışları, zaman sıralarının stasionar və ya qeyri-stasionar olub-olmamasının müəyyənləşdirilməsi üçün Diki-Fuller, genişləndirilmiş Diki-Fuller, Filips-Perron,Kvyatovski-Filips-Şmidt-Şin (KPSS) kriterisi və digər üsulların mahiyyəti, bu üsulların imkanları, avtoreqressiya modellərinin tətbiqi məsələləri öyrənilmiş, öyrənilən metodologiyaların Eviews proqram paketi ilə realizasiyasını mənimsəməklə ixrac, idxal, M0

və M2 göstəricilərinin dinamikasını əks etdirən zaman sıralarının təhlili aparılmış və ARIMA modeli vasitəsilə ilkin qısamüddətli proqnozlar hazırlanmışdır.

Baxılan iqtisadi göstəricilərin modellərinin qiymətləndirilməsi zaman sıralarının təhlilinin standart metodikası üzrə aparılmışdır. Birinci addımda, tədqiq olunan sıranın korelloqramı və gecikən (ləngiyən) qiymətlərin maksimal sayının müəyyənləşdirilməsi məqsədilə onların birinci fərqləri təhlil olunur ki, bu modelin spesifikasiyasına daxil edilmə üçün zəruridir. Sonra korelloqramın təhlilinin nəticələrinə əsasən, bütün sıraların stasionarlığı Diki-Fuller və ya Filips Perron testinin testinin köməyi ilə yoxlanılmışdır.

Qeyd edək ki, burada alınan proqnoz qiymətlər tədqiqatçının mülahizə ifadələri və ya ekspert qiymətləndirmələri deyil, konkret iqtisadi göstəricilərin proqnoz qiymətlərinin mövcud trend və bəzi hallarda isə, onun zəruri dəyişiklikləri nəzərə alınmaqla, zaman sıralarının ARIMA($p,d,q$) formal modelləri əsasında yerinə yetirilmiş hesablanmasını özündə əks etdirir. Təqdim olunan proqnozlar inersiyalı xarakter daşıyır, ona görə ki, müvafiq modellər göstəricilərin proqnozların qurulması anına qədər olan dinamikasını nəzərə alır və xüsusilə, proqnozun qurulması üçün bilavasitə əvvəlki zaman intervalı müddətində xarakterik olan zaman tendensiyasından ciddi asılıdır.

**ƏDƏBİYYAT**


1. С.Дробышевский, В.Носко, Р.Энтов, А.Юдин “Эконометрический анализ динамических рядов основных макроэкономических показателей” Москва-2001. Под редакцией: С.Синельникова-Мурылева. Институт экономики переходного периода.
2. Канторович Г.Г. «Анализ временных рядов». Лекционные и методические материалы.
3. Карп. Д.Б. «Эконометрика: основные формулы, с комментариями». Учебно-методическое пособие. 2004
4. Доугерти К. Введение в эконометрику: Учебник. 2-е изд. / Пер с англ. – М.: ИНФРА-М, 2004. – 432 с.
5. В.П.Носко. Эконометрика. «Введение в регрессионный анализ временных рядов. Москва-2002
6. Бокс Дж., Дженкинс Г. (1974) Анализ временных рядов. Прогноз и управление. – М.: Мир, 1974. – Вып. 1, 2.
7. Dickey D.A., W.R.Bell, R.B. Miller (1986) “Unit Roots in Time Series Models: Tests and Implications”, *American Statistican*, 40, 12-26
8. Dickey D.A., W.A. Fuller (1979) “Distribution of the Estimators for Autoregressive Time Series with a Unit Root”, *Journal of the American Statistical Association*, 74, 427–431.
9. Dickey, D.A., W.A. Fuller (1981) “Likelihood Ratio Statistics for Autoregressive Time Series With a Unit Root”, *Econometrica*, 49, 1057-1072.
10. Engle R.F., C.W.J. Granger (1991) “Cointegrated Economic Time Series: An Overview with New Results”, in R.F. Engle and C.W.J. (eds.), *Long-Run Economic Relationships, Readings in Cointegration*, Oxford University Press, 237-266.

11. Phillips P.C.B. (1987) “Time Series Regression with a Unit Root”, *Econometrica*, 55, 277-301.
12. Phillips P.C.B., P. Perron (1988) “Testing for a Unit Root in Time Series Regression,” *Biometrika*, 75, 335–346.
13. “Azərbaycanın xarici ticarət əlaqələri”. DSK , 2003-2008-ci illər statistik toplul

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №9, Bakı 2009*

# ВОЗМОЖНОСТИ РАЗВИТИЯ ИННОВАЦИОННО - ИНВЕСТИЦИОННОЙ ИНФРАСТРУКТУРЫ АЗЕРБАЙДЖАНА

***к.э.н., доцент Абасова С.***

*В 2009-2015 годах работала старшим научным сотрудником в НИИЭР.*

В последнее время влияние политических, экономических, технологических факторов насколько велико для общеэкономического состояния республики, что Азербайджан является наиболее привлекательным для инвестирования зарубежного капитала. С одной стороны в Азербайджане начинают строить новые производства на новых технологиях, с другой стороны развивают те производства в республике, которые заранее удачно опробованы в других местах и у инвесторов нет сомнений в их благополучном эффекте.

Согласно методике Технологического института США под руководством П.Друкера (а также Фарран-да, М.Портера и др. зарубежных ученых, в том числе советских ученых, среди которых Яковец, Барютин, Гуськов, Петухов и др.), проекты нововведений в Азербайджане скорее носят инвестиционно -инновационный характер. Эти проекты являются радикальными только для той страны, в которой они внедряются. Чисто радикальные инновации отличаются громадными затратами, ¾ случаях подвержены краху, не имеют ярко выраженных прибылей (1).

Но в основном порядок инновационных преобразований таков, что в Азербайджане в основном внедряют инновации улучшающего характера. К улучшающимся инновациям относят структурные преобразования, производственные новшества, модернизацию, реконструкцию, расширение производства, улучшение дизайна, улучшение качества продукции и т.д. Улучшающиеся инновации обычно заимствуются как и у конкурентов, так и в смежных отраслях экономики. Эти инновации менее затратные, но по сравнению с радикальными, приносят стабильный доход.

К сожалению, в республике наблюдается все больше наличие инвестиционных проектов, нежели инновационных. Если рассмотреть структуру инвестиций, направленных на основной капитал промышленности, то увидим, что большая доля инвестиций наблюдается в добывающей отрасли (добыча и переработка нефти и нефтепродуктов), а также в производстве электроэнергии. Необходимо отметить, что доля обрабатывающей промышленности в общем объеме промышленности равна примерно 9,6 %. Доля же производства машин и оборудования в нем равна 2,9%, производство минеральных материалов – 2,1 %, производство пищевых продуктов – 1,9 % (2).

За последние годы, в связи со структурными изменениями экономики в сторону топливно-энергетического комплекса вместо машиностроительной продукции основные нововведения все более наблюдаются в топливно-энергетическом секторе экономики: в энергетической промышленности - строятся новые ГЭС и ГРЕС, проектируется строительство АЭС, модернизируются старые ГЭС. В последнее время азербайджанскими учеными разрабатываются новые технологии переработки нефти на месте ее добычи и т.д., ведется поиск новых источников энергии, разрабатываются нововведения для совершенно новых энергоносителей.

В секторе машиностроения азербайджанскими производителями собираются легковые автомобили «Азиз», спецавтомобили для обслуживания разведки нефти и газа, а также автомобили Рено и Пежо в автозаводе г.Гянджа; телевизоры, холодильники, компьютерные оборудования, новые виды кондиционеров (плазменные) (3).

Необходимо отметить также НИОКР некоторых НИИ в области создания искусственного спутника Азербайджана. Институт Кибернетики и Информационных Технологий разрабатывает также некоторые программы для поддержки системы GPS, азербайджанского языка в мобильных телефонах. Нашими учеными разработаны также некоторые виды приборов (в частности «Электронный нос») для эффективной работы таможенных служб страны (3).

В связи с развитием туризма и привлечением инвестиций в эту отрасль параллельно развивается промышленное и гражданское строительство. Особенно быстрыми темпами развивается гражданское строительство. В этой отрасли внедряются социальные нововведения социальные и государственные льготы на ипотеку получения жилья. Молодежь до 35 лет может рассчитывать на получение жилья с рассрочкой выплаты стоимости жилья на 20-25 лет. Некоторые граждане госслужащие, ученые, беженцы, герои и семьи героев могут рассчитывать на социальные льготы в получении жилья на щадящей процентной ставке - около 4-6 % годовых. Помимо государственной помощи в этой ипотечной программе активно участвуют крупные банки ЗАО АВ «Стандарт», «Рабита банк» и т.д., а также крупные строительные компании, среди которого можно особо можно выделить компанию «Аккорд», «АзИНКо» и т.д. (1).

В последние годы в связи с развитием различных социально-экономических программ, а также в связи с необходимостью обеспечения туристической индус-трии современными дорогами, услугами, средствами движения и средствами связи в Азербайджане строятся наземные и подземные мосты, пешеходные переходы, отвечающие современным технологи-ческим требованиям (3).

Развитие туризма предполагает также совершенствование инфраструктуры транспорта и связи. Идет реконструкция международных аэропортов в городах Гянджа и Нахичевань. Приобретены новые комфортабельные вагоны для железных дорог и метрополитена, восстанавливаются автомобильные дороги, обновляются покрытия республиканских автомобильных дорог, скупаются более комфортабельные автобусы для дальних расстояний между городами республики и соседними странами – Грузия, Иран, Россия, Турция (3).

За последние годы только Министерством технологий и связи Азербайджана внедрены такие общестратегические разработки как е-правительство, е-образование, е-продажа, e-banking и т.д.

В Азербайджане развита банковская инфра-структура, которая в данный момент для укрепления экономики фокусирует не только денежные средства крупных производителей, но и населения. Широко развернулась компания в борьбе за привлечения денежных средств населения более выгодные депозитные проценты за самые минимальные взносы (от 50 долларов США).

Проектируется создание корейцами моста над Каспийском морем, объединяющее сектор Баилова города с сектором Гюнашли. Кроме этого строятся новые пансионаты и санатории, зоны отдыха в курортных зонах Азербайджана особенно в Апшеронском экономическом районе (3).

В республике развернулась широкая социально-экономическая программа обеспечения каждого современными средствами связи (мобильные телефоны стандарта 3G и 4 G), компьютерами, интернет ресурсами.

Как видно из перечисленного, в Азербайджане активно внедряются социальные инновации улучша-ющего характера. К сожалению, машино-строитель-ном комплексе нет разительных изменений. Полная замена технического парка и структурное обновление выпускаемой продукции, улучшение дизайна предлагаемых товаров, применение экологически безопасных технологий веление высокоэффективной организации производства. Естественно, что в связи с перечисленными необходимо:

1. распространить систему менеджмента по приспособлению ассортимента продукции наукоемких промышленных предприятий к потребностям рынка; резкому сокращению персонала, в основном за счет управленческого; инвестированию, особенно за счет отечественных инвесторов; переподготовке персонала для обеспечения производства в рыночных условиях; созданию рациональной организации ресурсосбережения и функционального обеспечения;

2. привлечь финансовые средства для выхода на старые рынки сбыта как улучшенными, так и принципиально новыми инновационными продуктами, осваивать возможности получения новых рынков сбыта за счет применения стратегии привлечения и внедрения;

3. наряду с привлечением иностранных инвестиций необходимо развить и собственные источники финансирования; внедрить в практику механизмов привлечения инвестиций от частных лиц, за счет создания наделенных действенной властью местных органов самоуправления;

4. создать эффективную налогооблагающую систему не только для зарубежных инвесторов, но и для отечественных производителей; внедрить механизм льготного налогообложения в период создания и освоения новых радикально инновационных продуктов машиностроения;

5. выбор инновационных проектов оценить с точки зрения их технологической совместимости, целесообразности как с экономической, так и социальной стороны, с учетом всех положительных и негативных последствий (избыток трудовых ресурсов, занятость и безработица, экологическая чистота и т.д.).

**ЛИТЕРАТУРА**

1. Абасова С. Г. Основные направления совершенствования госрегулирования международных экономических связей Азербайджана. Отчет НИР за 2001-2009 гг. Институт Экономики НАН Азербайджана.
2. Статистические показатели Азербайджана. Баку, Госкомстат Азербайджана, 2009.
3. Социально-экономическое развитие регионов. Баку, Госкомстат Азербайджана, 2009

**“Qeyri-neft ixracının artırılmasında ekoloji təmiz kənd təsərrüfatının rolu (Türkiyə-Azərbaycan təcrübə mübadiləsi)” mövzusunda Konfrans**
**(04 noyabr 2011-ci il)**





**İİETİ və Türkiyə tərəfdən müvafiq dövlət qurumlarının və elmi-tədris müəssisələrinin nümayəndələri**



**USAİD-in "İnvestisiyaların Qiymətləndirilməsi və Risklərin Təhlili" mövzusunda təlimi (14 noyabr - 9 dekabr 2011-ci il)**




**"Qloballaşma şəraitində sosial-iqtisadi inkişaf" mövzusunda Türkiyə-Azərbaycan əməkdaşlıq konfransı**
**(28-30 aprel 2011-ci il)**




## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Mehdiyev M.**
*Sosial hesablar matrisi və iqtisadiyyatda multiplikativ effektlərin hesablanması modeli*
**Qasımov E.**
*Azərbaycan Respublikasında sənayenin müasir vəziyyəti*
**Eynalov H., Davudov A.**
*Ekoloji təmiz kənd təsərrüfatının konseptual məqamları və inkişaf perspektivləri*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №12, Bakı 2012*

# SOSİAL HESABLAR MATRİSİ İQTİSADİYYATDA MULTİPLİKATİV EFFEKTLƏRİN HESABLANMASI MODELİ

***i.ü.f.d. Mehdiyev M.***

*2009-hazırda İETİ-də*
*şöbə rəhbəri vəzifəsində işləyir.*

İqtisadiyyatın idarəedilməsinin müasir təcrübəsində dünya ölkələrinin əksəriyyəti öz iqtisadiyyatlarının makroiqtisadi modelini qurmaq və təhlil etmək üçün bir sıra üsullardan istifadə edirlər. İqtisadiyyatın makroiqtisadi modelini qurmaqla ölkələr geniş təkrar istehsalın dörd mühüm fazasında (istehsal, bölgü, mübadilə və istehlak) baş verən mühüm iqtisadi münasibətlərin formalaşmasını, inkişafını və gələcək perspektivini görməyə çalışırlar. Bu modellər, adətən, müxtəlif hesablamalar aparmağa imkan verən iqtisadi-riyazi model kimi çıxış edir. Ümumi iqtisadi tarazlıq modeli məhz belə bir model olmaqla məcmu təkliflə məcmu tələbin bərabərliyi şərtilə hər hansı idarəetmə qərarlarını qəbul etməyə imkan verən bir platforma rolunu oynayır.

ÜTM-in başqa modellərdən fərqi nədir? Üмumi Tarazlıq Modeli keçən əsrin 50-60-cı illərindən yaranmağa başlamışdır. Onun hesablama alqoritmi 1967-ci ildə H.E Scarf tərəfindən yaradılmışdır. Nəzəriyyəçilər onun əsaslarını, riyaziyyatçılar bu model vasitəsilə aparılan hesablamaların alətini yaratmış, iqtisadçı-praktiklər isə bu model vasitəsilə real iqtisadiyyatı tədqiq etmişlər. Bu modelin geniş yayılması və istifadəsi hesablama texnikasının imkanlarının artması nəticəsində mümkün olmuşdur. Bu modellərin əsas fərqli xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- **birincisi,** bu modellər faydalılığı maksimumlaşdırmaq istəyən dövlət, ev təsərrüfatları kimi iqtisadi agentlərin və mənfəətlərini maksimumlaşdıran və ya xərclərini minimumlaşdıran iqtisadi agent kimi müəssisələrin davranışını xarakterizə edir. Bu modellər ev təsərrüfatlarının və müəssisələrin istehsal və istehlak qərarlarına resursların və qiymət faktorunun təsirinin rolunu nəzərə alır.
- **ikincisi,** bu modellər müxtəlif iqtisadi agentlər tərəfindən formalaşan məcmu tələb və məcmu təklif zamanı əmtəələrə və istehsal faktorlarına qiyməti müəyyən edir. Bu zaman hər məhsul və hər bir istehsal faktoru üçün tətbiq edilən tənliklər elə qiymətləri tapmağa imkan verir ki, bu zaman tələb təklifə bərabər olur.
- **üçüncüsü,** bu modellər konkret ölçmələr aparmağa imkan verir. Modeldəki əmsallar və parametrlər baza məlumatları əsasında qiymətləndirilir.
- **dördüncüsü,** bu modellərin əsas baza məlumatları bütün əlavələri ilə birlikdə ora daxil olan məhsul istehsalı və bölüşdürülməsinin sahələrarası balansının da daxil olduğu Sosial Hesablar Matrisidir. Bu matris özündə Milli Hesablar Sistemini tamamilə ehtiva edir. Sosial Hesablar Matrisi əmtəə və xidmətlərin sənaye və digər sahələr, ev təsərrüfatları, dövlət, idxal və ixrac arasında necə bölüşdürülməsini, iqtisadi agentlərin

gəlirlərinin və xərclərinin necə yaranması və istifadəsini, faktor gəlirlərinin yaranması və xərclənməsini, kapital qoyuluşlarının mənbəyini və istifadəsini, sərəncamda qalan gəlirlərin yaranması və istifadəsini, qalan dünya ilə əlaqələri də nəzərə almaqla, bir növ iqtisadiyyatın rəqəmlərlə vahid bir cədvəldə ifadəsidir.

Ümumi iqtisadi tarazlıq modeli hazırlananadək də tarazlıq modelləri var idi. Məsələn, ölkəmizdə hələ sovet dövründən tətbiq olunan "xərc-buraxılış" modelinə və onun digər modifikasiya olunmuş formaları məsələn, "tarazlı qiymət" modelləri var idi. Bu modellərin Ümumi iqtisadi tarazlıq modelinə oxşarlığı olsa da hesablama alqoritminə görə fərqlənirlər. Belə ki, "xərc-buraxılış" modelində xətti proqramlaşdırma üsullarından istifadə edilirsə, ümumi iqtisadi tarazlıq modelində qeyri-xətti proqramlaşdırma üsulları tətbiq edilir. "Xərc-buraxılış" modelinin informasiya bazası Məhsul istehsalı və bölüşdürülməsinin sahələrarası balansından ibarətdirsə, ümumi iqtisadi tarazlıq modelinin informasiya bazasını Sosial Hesablar Matrisi təşkil edir.

Ümumi iqtisadi tarazlıq modelini digər makroiqtisadi modellərdən fərqləndirən əsas xüsusiyyət ondan ibarətdir ki, bu model iqtisadiyyatın istehsal və istehlak sferasında formalaşmış və nisbi olaraq müəyyən dövrdə sabit qalan proporsiyaları nəzərə alaraq, bazarları əlaqələndirməyə imkan verir.

**ÜTM-in nəzəri əsasları nədən ibarətdir?** Ümumi iqtisadi tarazlıq modeli iqtisad elminin tarixən təkamülünün bir növ nəticəsidir. İqtisadiyyatda ilk makrostatistik modelin tətbiqi XVII əsrə təsadüf edir. Belə ki, tarixdə ilk dəfə ingilis iqtisadçıları U.Petti və Q.Kinq İngiltərə və Fransanın milli gəlirini qiymətləndirmiş və bu qiymətləndirmədən vergi sisteminin dəyişməsinin ölkə iqtisadiyyatına təsirini tədqiq etmək üçün istifadə etmişlər. 1758-ci ildə isə F.Kene Fransa iqtisadiyyatı üzrə statistik materialları ümumiləşdirmiş və "İqtisadi cədvəllər" (Kene ziqzaqları) şəklində milli təsərrüfatın modelini formalaşdırmışdır. Elə bu dövrdən başlayaraq, təsərrüfatın təşkili və idarəedilməsi tələbinin bilavasitə zəruriyyəti ilə bütün dünya iqtisadçıları geniş təkrar istehsalın strukturu və dinamikasının kəmiyyət və keyfiyyət qanunauyğunluqlarını təsvir edə bilən makrostatistik modellərin köməyilə, real iqtisadi sistemlərin fəaliyyət nəticələri barədə məlumatların alınması metodlarına böyük diqqət yetirməyə başladılar. Beləliklə, milli təsərrüfatların iqtisadi-statistik modelləşdirilməsinə makrostatistik yanaşma formalaşmış oldu. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, o milli iqtisadiyyata dünya iqtisadiyyatının "qara yeşiyin" bir hissəsi kimi baxır və onun modelləşdirmə predmetini milli iqtisadiyyatın daxili strukturu və onun ayrı ayrı elementlərinin fəaliyyəti deyil, ölkə səviyyəsində məhsul buraxılışı və ondan istifadə təşkil edir. Bundan başqa iqtisadiyyatın fəaliyyətini təsvir edən hər hansı makrostatistik model iqtisadi nəzəriyyə ilə təsdiq oluna bilən, real iqtisadi proseslərin obyektiv proporsiyalarını və qanunauyğunluqlarını əks etdirən və müəyyən riyazi şərtlərə cavab verə bilən olmalıdır. Belə bir modelin riyazi əsasları Lozanna marjinalizm məktəbinin banisi fransız iqtisadçısı Leon Valras (1834-1910) tərəfindən yaradılmışdır. Əlbəttə ki, Valrasın ümumi iqtisadi tarazlıq modeli müasir ümumi iqtisadi tarazlıq modelinin bəsit forması idi. Sonradan bu model mərhələlərlə təkmilləşmişdir.

Burada bir mühüm məqamı qeyd etməmək olmur. İqtisad elminin müəyyən tarixi dövrdə həddən artıq siyasiləşdirilməsi ümumi iqtisadi nəzəriyyəyə böyük töhvəsi olmuş müxtəlif iqtisadi cərəyanların üz-üzə qoyulması iqtisadi tarazlıq probleminin həlli istiqamətində tarixən maneələr yaratmışdır. Belə ki, Əmək dəyər nəzəriyyəsinin, İstehsal

faktorları nəzəriyyəsinin, K.Marksın geniş təkrar istehsal nəzəriyyəsinin, Son hədd faydalılığı nəzəriyyəsinin, Son hədd məhsuldarlığı nəzəriyyəsinin və Tələb-təklif nəzəriyyəsinin iqtisadi proseslərə fərqli yanaşmaları nəhayət ki, ümumi iqtisadi tarazlıq modelində bir vəhdət şəklində birləşir.

Bu cərəyanlar arasındakı ziddiyyəti hələ sovet hakimiyyəti illərində aradan qaldırmağa cəhd etmişdilər. İlkin formada bu xərc-buraxılış modelinin modifikasiyası olan tarazlı qiymətlər modelində öz əksini tapırdı. Lakin xətti ptoqramlaşmanın qoşma məsələsi kimi şərh edilən tarazlı qiymət modeli Əmək dəyər nəzəriyyəsi ilə digər iqtisadi nəzəriyyələr arasındakı ziddiyyəti tam həll edə bilmirdi.

Son hədd faydalılığı nəzəriyyəsinin elmi ideyalarını əks etdirən Faydalılıq funksiyaları, İstehsal faktorları nəzəriyyəsinin və Son hədd məhsuldarlığı nəzəriyyəsinin elmi ideyalarını əks etdirən Kobb-Duqlas funksiyaları, K.Marksın Geniş təkrar istehsal nəzəriyyəsinin nailiyyətlərini əks etdirən Leontyev istehsal funksiyalarının birgə tətbiqi və əlbəttə ki, bir sıra başqa müasir iqtisadi nəzəriyyələr (keynsçi) əsasında qurulmuş ümumi iqtisadi tarazlıq modeli bir daha sübut edir ki, iqtisadi proseslərin izahına müxtəlif cür yanaşan nəzəriyyələr birlikdə tətbiq edildikdə ümumi iqtisadi tarazlığın modeli qurula bilər. Bütün iqtisadi nəzəriyyəyələrin verdiyi töhvələr ümumi iqtisadi tarazlıq modelində öz tətbiqini tapır. Bəs ÜTM-lə nə etmək mümkündür və yaradılmasına zərurət haradan doğur? ÜTM-in hazırlanmasında məqsəd makroiqtisadi təhlil aləti yaratmağa yardım etməklə bərabər, aşağıdakı analitik vəzifələri yerinə yetirməkdir:

- iqtisadi agentlərin istehsal prosesində iştirakdan əldə etdikləri ilkin gəlirləri və bu gəlirlərin yığım və istehlaka doğru son istifadəsinədək keçməsini həm bütövlükdə, həm də sektorlar səpgisində maliyyə dövranı prosesi şəklində geniş təhlil imkanına nail olmaq;
- maliyyə bölgüsü və təkrar bölgü proseslərinin və mexanizmlərinin toplu makroiqtisadi göstəricilərin formalaşmasına, istehlak və yığım normasına, ayrı-ayrı sektorların maliyyə vəziyyətinə təsirinin təhlil imkanına nail olmaq;
- gəlirlərin yaranması və istifadəsi prosesində iqtisadi agentlərin qarşılıqlı təsirini təhlil etmək, habelə xarici aləmin (qalan dünya) geniş təkrar istehsalın maliyyə dəyər proporsiyalarının formalaşmasına təsirinin sistemli qiymətləndirmək imkanına nail olmaq;
- iqtisadi agentlərin defisit maliyyə balanslarının yaranmasını, bu defisitlərin bağlanmasının iqtisadi agentlərin maliyyə aktivlərinə təsirini öyrənmək imkanı əldə etmək;
- ümumi qənaətin formalaşma prosesini, onların yığıma və ya digər istiqamətə istifadəsini öyrənmək imkanı əldə etmək.

Ümumiyyətlə, ÜTM iqtisadi agentlərin (ev təsərrüfatları, dövlət, real sektorun müəssisələri və s.) istehsaldan əldə etdikləri maliyyə nəticələrinin iqtisadi inkişafın əsas amili olan son tələblə uzlaşdırılmasını sahələrarası əlaqələr nəzərə almaqla modelləşdirilməsidir.

**Vergilər baxımından nələr etmək mümkündür?** Ümumi İqtisadi Tarazlıq Modeli hazırlanarkən tərtib edilmiş Sosial Hesablar Matrisində vergi daxilolmalarının proqnozlaşdırılması məsələlərini də həll etmək məqsədilə məhsula və istehsala vergilər daha da geniş səpkidə, yəni istehsala vergilərin və məhsula vergilərin növləri göstərilməklə sahə

üzrə verilir. Bu da vergi dərəcələrinin və ya vergi daxilolmalarının ümumi iqtisadi tarazlığa təsirini öyrənmək və proqnozlaşdırmağa imkan verir.

**ÜTM ölkənin sosial-iqtisadi inkişaf proqramları ilə necə uzlaşır?** Ölkəmizdə elmin, sahibkarlığın inkişafı yoxsulluğun azaldılması və s. kimi bir sıra sosial-iqtisadi inkişaf proqramları qəbul edilmiş, yerinə yetirilmiş və yerinə yetirilməkdədir. Bu proqramlar çərçivəsində dövlət büdcəsindən xeyli vəsaitlər ayrılır. Həmin vəsaitlər kapital qoyuluşunu və ya son istehlak xərclərinin həcmini dəyişdirir. Bu vəsaitlər eyni zamanda ölkənin inkişafına təsir edərək onun fəaliyyətinin nəticələrini əks etdirən makroiqtisadi göstəricilərin də dəyişməsinə təsir edir. ÜTM vasitəsilə bu vəsaitlərin iqtisadiyyata təsirinin nəticələri ölçülə bilər. Məsələn, yoxsulluğun aradan qaldırılması məqsədilə aztəminatlı ailələrə əlavə yardımlar verilməklə bərabər bir sıra hökumət tədbirləri həyata keçirilir. Bunlar iqtisadiyyatda son istehlak xərclərini artırır. ÜTM vasitəsilə bu xərclərin artımının iqtisadiyyatın sahələri səpkisində ümumi istehsala necə təsir etməsini asanca proqnozlaşdırmaq mümkündür. Eyni situasiyanı regionların inkişafı proqramlarına da aid etmək mümkündür. Burada bir məqamı qeyd etmək istəyirəm ki, hal-hazırda istifadəmizə veriləcək ÜTM Regionların sosial-iqtisadi inkişaf proqramları çərçivəsində həyata keçirilən tədbirlərin regionlar səpkisində bilavasitə nəticələrini əldə etməyə imkan verməsə də regionlar üzrə həyata keçirilən investisiyaların iqtisadiyyatın sahələrinin inkişafına təsirini hesasblamaq mümkündür. Doğrudur, bunun üçün regionlar üzrə həyata keçirilən investisiyaları sahə əlaməti üzrə təkrar təsnifləşdirərək modelə daxil etmək kifayət edir. Gələcəkdə ÜTM-in regional blokunun hazırlanması ilə bu işi bilavasitə yerinə yetirmək mümkün olacaqdır ki, hesablamaların nəticəsi regional səpkidə də bilavasitə modelin özündən çıxsın. 2020 konsepsiyası baxımından da ÜTM-ə böyük ehtiyac vardır. Belə ki, 2020 konsepsiyasına görə bilik, innovasiya gələcək inkişafımızın əsas prioritetləri sahələri hesab olunur. Bunlar da iqtisadiyyatda əmək məhsuldarlığının yüksəldilməsinin əsas şərtlərindəndir. Çünki, elmi cəhətdən sübut edilmişdir ki, əmək məhsuldarlığı kapitalla silahlanmadan asılıdır. Yığım və istehlakın səmərəli nisbəti şərtilə bu konsepsiya həyata keçirilməlidir. Bu baxımdan ÜTM vasitəsilə yığım və istehlakın səmərəli nisbətini bütün sahələr üzrə proqnozlaşdırmaq mümkündür, yəni yığımın "qızıl qaydası" gözlənilə bilər.

**Ölkə üçün iqtisadi poqnozların verilməsində ÜTM-in böyük rolu vardır.** Səmərəli investisiya siyasəti nəticəsində iqtisadiyyatın sahələri üzrə artım templəri bilavasitə 10-15 il müddətinə proqnozlaşdırıla bilər. Qeyri-neft sektorunun inkişafına yönələn investisiyaların bu sahələrdə verəcəyi maksimum effektlər qiymətləndirilə bilər. İqtisadiyyatımızın neftin dünya qiymətlərindən asılılığı bu günün problemidir. Aydındır ki, dünyada gedən iqtisadi siyasi proseslər neftin qiymətinə böyük təsir edir. Neftin proqnozlaşdırılan qiymətinin iqtisadiyyatımıza şok təsirlərinin necə olacağı hamını maraqlandırır. ÜTM vasitəsilə bu şok təsirin iqtisadiyyatın sahələrində yaranan əlavə dəyərə və büdcəyə vergi daxilolmalarına necə təsir etməsini çox geniş formada hesablamaq mümkündür. Bu zaman bütün sahələrarası əlaqələr nəzərə alınır. Məsələn, MDB ölkələrinin vahid gömrük məkanına ölkəmizin daxil olub-olmamasının effektlərini idxal və ixrac gömrük tariflərinin və rüsumlarının dərəcələri vasitəsilə ölkə iqtisadiyyatına təsirini ÜTM vasitəsilə qiymətləndirmək mümkündür. Əlbəttə ki, burada siyasi məsələlər də unudulmamalıdır ki, bu məsələləri ÜTM vasitəsilə qiymətləndirmək doğru olmazdı. Əlavə olaraq qeyd etmək olar ki, vergi dərəcələrinin azaldılması siyasəti də dövlətin əsas siyasətlərindən biridir. Məsələn, mənfəət vergisinin

dərəcəsinin azaldılması effekti, əmlak vergisinin artırılması effekti və s. ÜTM vasitəsilə qiymətləndirilə bilər. Məsələn, əmlak vergisinin artırılmasının istehsal xarakterli investisiyaların inkişafına təsiri qiymətləndirilə bilər. Belə ki, əmlak vergisi dərəcəsinin artırılmasıı ilə dövlətin gəliri arta bilər və bu gəlirdən qeyri-neft sektorunun inkişafı üzrə layihələr maliyyələşdirilə bilər. Nəticədə həddən artıq böyük imarətlərə, villalara qoyulan kapitalların istehsal xarakterli investisiyalara yönəldilmə effekti hesablana bilər.

ÜTM vasitəsilə sahələr üzrə investisiya siyasətinin gələcək ümumi məhsul buraxılışının sahə strukturuna təsiri öyrənilə və proqnozlaşdırıla bilər. Bundan əlavə istehsalın regionlar üzrə şaxələndirilməsi kimi regional siyasət tədbirləri, sosial inkişafda yoxsulluq məsələləri, qiymətləri dövlət tərəfindən tənzimlənən məhsulların tarifinin dəyişdirilməsinin digər sahələrdə yaradacağı təsirin öyrənilməsi və sairə makroiqtisadi məsələlər həll edilə bilər.

Əlbəttə, bütün bunları etmək üçün iqtisadi nəzəriyyəyə və reallığa uyğun iqtisadi ssenarilər düşünmək, bu ssenarilərin nəzəri olaraq verəcəyi faydalar əsaslandırılmalıdır. Sonra isə ÜTM vasitəsilə bu ssenariləri modelləşdirmək mümkündür. Necə deyərlər model heç kimin əvəzindən düşünmür. O sadəcə hesablamanı aparır. Ssenariləri düşünmək və nəticələri təfsir etmək peşəkar mütəxəsislərin işidir. Əks təqdirdə model bir oyuncağa çevrilər.

Ümumi İqtisadi Tarazlıq Modeli ilə bağlı iqtisadi ədəbiyyatlarda xeyli mübahisələr vardır. Bəziləri bu modeli tam qəbul edir, digərləri isə tam inkar edir. Neytral vəziyyətdə qalanlar da vardır. Ümumi İqtisadi Tarazlıq Modelinin tətbiqi ilə bağlı əldə edilmiş böyük müvəffəqiyyətlərlə razılaşmayanlar müxtəlif fikirlər irəli sürürlər. Məsələ ilə bağlı MDB məkanında mövcud olan iqtisadi ədəbiyyatlarda qeyd olunan əsas məqamları aşağıdakı kimi ümumiləşdirmək olar:

- qeyd edilir ki, ÜTM əsasən neoklassik paradiqmaların üzərində qurulmuşdur. Optimallaşma prinsipi faydalılıq, istehsal və xərclər funksiyasının çox az, lakin yaxşı müəyyən edilmiş analitik formalarına tətbiq edilmişdir. Bu formaların seçimi modelin yaradıcılarının tam ixtiyarındadır. Bu formaların seçiminin iqtisadi mənası isə modelin yaradıcılarını maraqlandırmır. Məsələn, kənd təsərrüfatının qısa və uzun müddətli problemləri modeldə öz əksini tapmır;
- qeyd edilir ki, ÜTM yanaşması ilə modelləşdirmədən istifadə edilərkən, əsasən müqayisəli statistik təhlildən istifadə edilir. Əlbəttə qeyd oluna bilər ki, ÜTM-in dinamik versiyası da vardır, lakin iqtisadi ədəbiyyatlarda hər iki halda ÜTM-in yalnız sabit tarazlı vəziyyətə əsaslandığı göstərilir. Tarazlı olmayan vəziyyəti ÜTM necə izah edir sualı isə cavabsız qalır;
- iqtisadi ədəbiyyatlarda qeyd edilir ki, ÜTM-də zaman yoxdur. Dinamik ÜTM optimallaşmanın dinamik proseslərinə əsaslanır, lakin iki tarazlı vəziyyəti əlaqələndirən yekun ardıcıllığın hər hansı bir konkret təqvim zamanına aid olduğu bəlli deyildir. Faktiki olaraq, yekun ardıcıllığın zaman indeksini isə modelin yaradıcıları ədalətli olaraq, "dövr adlandırırlar". ÜTM- də "dövr" iterasiya addımından fərqlənmir. İterasiya addımı isə təqvim ardıcıllığı ola bilməz;
- ÜTM- in real iqtisadiyyatla heç bir əlaqəsi yoxdur. Belə modellər xüsusi hazırlanmış məlumat bazalarına əsaslanır ki, bu məlumatlar da iqtisadi informasiyanın manipulyasiya edilməsindən ibarətdir. Belə manipulyasiyalar real iqtisadiyyatın neoklassik paradiqmalara (məsələn, təkmil rəqabət şəraitində sıfır mənfəət şərtinin

qəbul edilməsi milli məhsulun və ya gəlir hesabının tərkibindən mənfəətin çıxarılması deməkdir) uyğunlaşdırılmasına xidmət edir;

- ÜTM yalnız nisbi qiymətləri (numeraire) nəzərdən keçirir. Bu da didaktik və nəzəri cəlbedicilik yaradır. Həqiqətdə isə tətbiq edilmir (ÜTM üçün "xüsusi hazırlanmış məlumat bazası"nda bu qiymətlər əlyetər deyildir)
- ÜTM-in "xərc-buraxılış" və "tarazlı qiymət" modelindən o qədər də fərqli bir şey olmamamasının iddia edilməsi ilə bağlı da mübahisələr vardır. Bu mübahisələrin obyekti aşağıdakı məsələləri əhatə edir:
- ÜTM-lə "Xərc-buraxılış" və "Tarazlı-qiymət" modeli arasında oxşar və fərqli cəhətlər;
- Leontyev multiplikatoru ilə SAM əsasında tapılan Ümumi multiplikator və Məhdud multiplikator, habelə ÜTM-də aparılan iqtisadi simulyasiyaların oxşar və fərqli cəhətləri;
- Dünyada baş vermiş 2007-2009-cu il maliyyə böhranının ÜTM modeli olan ölkələrin əvvəlcədən proqnozlaşdıra bilməmələrinin səbəbləri.

**SAM haqqında qısa məlumat.** Ümumi tarazlıq modelinin əsas informasiya bazası Sosial Hesablar Matrisidir. Milli hesablar Sistemi və Məhsul istehsalı və bölüşdürülməsinin sahələrarası balansı isə bu matrisin əsas informasiya bazasını təşkil edir. Qeyd etmək lazımdır ki, bu balansdakı məlumatlar onun bütün əlavələri ilə yenidən işlənərək Sosial Hesablar Matrisinə daxil edilir. Bu zaman balansın bəzi kvadrantları istehlakçı qiymətlərlə bəzi bölmələri isə əsas qiymətlərlə hazırlanır. Burada məqsəd məhsula məcmu tələb və təklifi sahələr üzrə ayrıca hesablamaqdır. Sosial Hesablar Matrisi nəinki daxildəki tələb və təklifi eyni zamanda qalan dünyadan daxil olan cari və əsaslı transfertləri də nəzərə alır. Bəzən Sosial Hesablar Matrisinin yalnız ümumi iqtisadi tarazlıq modelində istifadə olunması barədə fikirlər söylənilir. Qeyd olunmalıdır ki, bu matris eyni zamanda Leontyev multiplikatorundan fərqli olan Ümumi multiplikatorun hesablanmasında da istifadə olunur. Buna iqtisadi ədəbiyyatlarda SAM multiplikatoru deyilir. Bu multiplikator vasitəsilə məcmu tələbdə baş verən dəyişikliklərin məcmu təklifdə doğurduğu effektləri qiymətləndirmək üçün istifadə edilir. Belə qiymətləndirmə 2011-ci ildə Azərbaycanın kənd təsərrüfatı sahəsi üçün Sosial hesablar matrisi əsasında aparılmışdır. Milli hesablar Sistemi və Məhsul istehsalı və bölüşdürülməsinin sahələrarası balansının yaranması iqtisadi fikir tarixinin təkamülünün nəticəsi olmuşdur.

F.Kenenin iqtisadi cədvəli şübhəsiz ki, indiki MHS-in ibtidai forması idi. Aydındır ki, fizokrat nəzəriyyəsinin nümayəndəsi kimi Kene kənd təsərrüfatı və hasilat sənayesini əsas istehsal sahəsi kimi qəbul edirdi. Sonradan kapitalizmin inkişafı dövründə emal sənayesi cəmiyyətin artan tələbatının ödənilməsində mühüm yer tutdu. A.Smit maddi istehsal konsepsiyasını yaradaraq, sübut etdi ki, geniş təkrar istehsalın heç olmasa bir fazasında iştirak edib, milli gəlirin istehsalına öz töhvəsini verən sahələr də maddi istehsala aiddir. A.Smitin bu konsepsiyası vaxtilə SSRİ-də hazırlanmış Xalq Təsərrüfatı Balansında ilk dəfə tam olmasa da nəzərə alınmışdı.

İlk makrostatistik modellər 1923-1930-cu illərdə SSRİ-də yaradılmışdır. 30-cu illərin əvvəllərində sovet iqtisadçısı A. Pervuxin "1928-1930-cu illərin Xalq Təsərrüfatı Balanslarına qeydlərində" ilk dəfə milli gəlirin iqtisadi dövriyyənin üç (istehsal , bölgü, istifadə) fazasında öyrənilməsi ideyasını vermişdir. O dövrdə Xalq Təsərrüfatı Balanslarında indiki sahələrarası balansın əsas əlamətləri və nisbətləri artıq yaranmağa başlamışdı. Ümumiyyətlə, indiki sahələrarası balans ideyası Sovet Hakimiyyətinin Yeni İqtisadi Siyasət (NEP) dövründə gedən

iqtisadi diskussiyaların məhsuludur ki, bu ideya sonradan B. Leontyev tərəfindən iqtisadiyyatın sahələri, həmçinin ümumi buraxılış, aralıq istehlak və son istehlak arasındakı əlaqələri əks etdirən tənliklər kimi ciddi riyazi təsvir şəklində verilmişdir. Burada qeyd etmək lazımdır ki, **əlavə dəyər** kimi iqtisadi anlayışın nəzəri izahı A.Smit, **aralıq istehlak** kimi mühüm iqtisadi anlayışın nəzəri izahı isə D. Rikardo və K. Marks tərəfindən verilmişdir.Qeyd etməmək olmaz ki, sahələrarası balans ideyası V. K. Dmitriyev tərəfindən 1900-1904-cü illərdə verilmiş və sonralar ilk Xalq Təsərrüfatı Balansının hazırlanmasında istifadə edilmişdir.

İkinci dünya müharibəsindən sonra Xalq Təsərrüfatı Balansı MHS-in inkişafına böyük təsir etdi və Sahələrarası Balans isə MHS-in bir hissəsinə çevrildi. Xalq Təsərrüfatı Balansının əsas çatışmamazlığı ondan ibarət idi ki, burada istifadə edilən maddi istehsal konsepsiyası məhdud idi. Nəticədə informasiya itkisi baş verirdi. Belə ki, qeyri-maddi istehsalın (xidmət sahəsi) artan rolu nəticəsində onun milli gəlirə töhvəsi nəzərə alınmırdı. Bu da o dövrdə xidmət sahəsinin o qədər də inkişaf etməməsi ilə bağlı idi. Digər bir çatışmamazlıq XTB-də hansı sektorlarda qənaət yarandığını və bu qənaətdən hansı sektorların yığım üçün istifadə etdiyi əks etdirilmirdi.

MHS-in nəzəri əsasında həm də J.B.Seyin istehsal amilləri (əmək, torpaq, kapital və sahibkarlıq qabiliyyəti) haqqında nəzəriyyəsi durur. Bu nəzəriyyəyə görə milli məhsul və milli gəlirin istehsalında iştirak etmiş faktorlar öz “haqlarını” almalıdırlar. Geniş təkrar istehsal konsepsiyasi qeyri-qanuni fəaliyyət və ev təsərrüfatları istisna olmaqla bütün gəlir gətirən iqtisadi fəaliyyət növlərini məhsuldar hesab edir.

1925-ci ildə A. Marşal “İqtisadiyyatın prinsipləri” əsərində illik xalis milli gəlir anlayışını (istehsal edilmiş əmtəə və xidmətlər və amortizasiya çıxılmaqla, xarici investisiyalardan əldə edilən gəlir də daxil olmaqla  əmtəə və xidmətlərin cəmi ) verdi ki, bu da MHS-in göstəricilərinin hesablanması üçün əsas oldu. Daha sonra ingilis iqtisadçısı K. Klark milli məhsul və milli gəlir anlayışlarını fərqləndirdi və onların faktor dəyərlərilə deyil, inflyasiya proseslərinin də nəzərə alındığı bazar qiymətlərilə qiymətləndirilməsini əsaslandırdı. BMT-nin 1993-cü il MHS-i bütün göstəricilərin nəzəri əsası kimi ingilis iqtisadçısı C. Xiksin “Dəyər və kapital” əsərindəki konsepsiyasını əsas götürür. Bu konsepsiyaya görə konkret zaman ərzində istehsal edilən gəlirin ümumi həcmi elə maksimal həddə götürülməlidir ki, kapitalın ilkin həcminə toxunmadan o istehlaka sərf edilə bilsin. C. Xiksin gəlir konsepsiyasının makrostatistik təhlildə tətbiq üçün konkretləşdirilməsi MHS-in anlayışlarının eyniləşdirilmiş sisteminin yaradılmasına və təsnifləşdirilməsinə  gətirib çıxardı. Bu da ümumi daxili məhsul, ilkin gəlirlərin qalığı, sərəncamda qalan gəlir, qənaət və s. kimi mühüm göstəricilərin işlənib hazırlanmasına gətirib çıxardı və iqtisadi dövriyyənin makrostatistik modeli kimi hesablar sisteminin əsasında duran qarşılıqlı əlaqəni müəyyən etdi.

MHS-in nəzəri əsasında həm də C. M. Keynsin dövlət tənzimlənməsi nəzəriyyəsi durur. Makroiqtisadi sistemin təsviri və təhlili üçün zəruri olan informasiyanın təşkili prinsipləri onun 1936-cı ildə nəşr edilmiş “Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi” əsərində verilmişdir. O, bazar iqtisadiyyatının tənzimlənməsi tədbirləri haqqında qərarların qəbul edilməsi və iqtisadi siyasətin işlənib hazırlanması zəruriyyəti ilə bağlı qarşılıqlı əlaqədar olan makroiqtisadi göstəricilər sistemi (ümumi gəlir, istehlak, investisiya, qənaət) işləyib hazırlamış və sübut etmişdir ki, dövlət idarəetmə orqanları sistemin giriş dəyişənlərinə təsir etməklə, sistemin çıxışında digər dəyişənlərin necə dəyişməsini əldə edə bilərlər.

İqtisadiyyatın makrostatistik modelinin qurulmasının ən mühüm nəzəri əsaslarından biri də iqtisadi dövriyyənin qapalılığı konsepsiyasıdır. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, hər bir iqtisadi əməliyyat hesablar sistemində iki dəfə, həm gəlir kimi, həm də xərc kimi qeydə alındığından nəzəri olaraq, bir tərəfdən iqtisadi əməliyyatların eyniliyi, digər tərəfdən isə təsərrüfatçılıq edən subyekt qruplarının hər biri üçün balans bərabərliyini təmin edir. Bu da mühasibatlığın ikili yazılış metodu ilə həyata keçirilir.

İkinci dünya müharibəsindən sonra iqtisadiyyatın makrostatistik modelinin qurulması sahəsində yeni mərhələ başladı. Bu müxtəlif milli sistemlərin harmonikləşdirilməsi və makroiqtisadi göstəricilərin və onun komponentlərinin beynəlxalq müqayisələrinin sistemləşdirilməsi ilə əlaqədar idi. Bu prosesin əsasını C. M. Keynsin tələbəsi və davamçısı R. Stoun hazırladı. 1951-ci ildə məlumatların alınmasının real mümkünlüyünü nəzərə almaqla, MHS-in prinsiplərini formalaşdırdı. Onun rəhbərliyi ilə 1953-cü ildə ilk dəfə BMT-nin MHS standartı və 1968-ci ildə isə ikinci standart "mavi kitab" işlənib hazırlandı. Bu standartlarda milli məhsul və milli gəlirin hesablanması ilə yanaşı aktivlər və sahələrarası əlaqələrin makroiqtisadi göstəriciləri də öz əksini tapmışdı. "Mavi kitab"dakı məsləhətlər əsasında bir çox ölkələr milli statistika praktikalarında dəyişikliklər etdilər.

Beynəlxalq harmonikləşdirmə 1993-cü ildə yeni BMT MHS standartına keçidlə nəticələndi. Qloballaşmanın təsirilə isə 2008-ci ildə BMT MHS-in yeni metodologiyasını qəbul etdi.

Müasir MHS bir tərəfdən iqtisadi inkişafın ümumi nəticələrini, digər tərəfdən isə iqtisadi əlaqələri qiymətləndirməyə imkan verən homomorf makrostatistik modeli özündə birləşdirir. MHS göstəricilərinin hesablanması mühüm analitik imkanlar kəsb etmiş və demək olar ki, MHS hesablamaları canlı iqtisadi orqanizmin sağlamlıq vəziyyətinin funksional diaqnostika metodudur.

MHS informasiyaları iqtisadiyyatın idarəetmə aləti kimi dövlətin iqtisadi siyasət variantlarının seçilməsində, qısa və orta müddətli proqnozlaşdırmada, ölkə iqtisadiyyatlarının müqayisəsində, beynəlxalq iqtisadi əlaqələrdə müvəffəqiyyətlə istifadə edilir. Belə demək mümkündürsə, ümumi iqtisadi tarazlıq modeli tamamilə MHS-nin məlumatları əsasında işləyir.

| | Fəaliyyətlər | Əmtəələr | Faktorlar | Ev təsərrüfatları | Ekzogen ünsürlər | Cəm |
|---|---|---|---|---|---|---|
| **Fəaliyyətlər** | | Ölkə daxilində məhsul təklifi | | | | Ölkə daxili məhsula tələb |
| **Əmtəələr** | Aralıq istehlak və aralıq tələb | | | Ev təsərrüfatlarının xərcləri | İnvestisiya, dövlət xərcləri, ixrac | Məcmu məhsula tələb |
| **Faktorlar** | Əlavə dəyər | | | | | Məcmu faktor gəlirləri |
| **Ev təsərrüfatları** | | | Ev təsərrüfatlarının gəlirləri | | | Ev təsərrüfatlarının məcmu gəlirləri |
| **Ekzogen ünsürlər** | | Məhsula vergilər və idxal | | Ev təsərrüfatlarının qənaəti | | Məcmu ekzogen tələb |
| **Cəm** | Ölkə daxilində məhsul təklifi | Məcmu məhsul təklifi | Ev təsərrüfatlarının məcmu gəlirləri | Ev təsərrüfatlarının məcmu xərcləri | Məcmu ekzogen təklif | yekun |

Hal-hazırda ümumi tarazlıq modellərinin əhəmiyyətini artıran ümumi multiplikatorun hesablana bilinməsi imkanlarının yaranmasıdır.

Multiplikator ölçüsü iqtisadiyyatın struktur xarakteristikasından asılıdır. Məsələn, ev təsərrüfatları daxildə istehsal edilmiş məhsulları istehlak edirlərsə, onda ev təsərrüfatlarının gəlirlərinin artımı daxili istehsalçıların mənfəətini artırmış olacaq və gəlirin sirkulyar axını dolayı əlaqə təsirlərinin ən yüksək mərhələsinə çatacaq. Lakin ev təsərrüfatları tələb olunan əmtəələri idxal edirlərsə, onda bu xarici istehsalçıların mənfəətini artıracaq, bu zaman dolayı əlaqə effektləri ölkə daxilində kiçik olacaq. Buna görə də idxal tələbi gəlirin sirkulyar axınında sızıntı kimi çıxış edəcəkdir. Oxşar şəkildə, bu əlaqə sxemini digər gəlirlərə də şamil edə bilərik. Son nəticədə sızıntıların bu növləri effektləri mərhələ-mərhələ daha tez aşağı salır və ümumi multiplikator effektini azaldır.

Beləliklə, biz multiplikator effektinin mərhələ-mərhələ necə getdiyini qeyd etdik. İndi ümumi multiplikator (SAM multiplikatoru) effektinin hesablanmasını nəzərdən keçirək. Bunun üçün biz cəbri matrisdən istifadə edəcəyik. SAM multiplikatoru Leontyevin klassik xərclər buraxılış modelinin genişlənmiş formasıdır. Leontev modelində daxili istehsal əlaqələri nəzərə alınırsa, SAM modeli həm də istehlak əlaqələrini nəzərə alır. Ona görə də SAM multiplikator yanaşması gəlirlər və gəlirin bölüşdürülməsi məlumatlarından istifadə edir. SAM multiplikator modeli ticarət siyasətində və makroekonomik şoklarda, istehsal əlaqələri kimi geniş məzmunlu problemlərdə istifadə edilə bilər.

SAM multiplikatorunun strukturu modelin istənilən ekzogen tələb dəyişikliklərinin təsirlərini qiymətləndirə bilər. Çünki biz modeldə ev təsərrüfatları ilə endogen kimi davranırıq, bu tələbin stimullaşdırılmasının üç mühüm mənbəyini müəyyən edir: ixrac tələbi, dövlət

xərcləri və investisiya tələbi. Bu tələblərdə ekzogen dəyişikliklər sonradan istehsal sektorları və ev təsərrüfatlarına təsir edir.

Ümumi multiplikator modelləri ən sadə modellərdəndir. Çünki onlar müəyyən sayda məhdud ehtimallar edirlər. Bu modellər nəzərdə tutur ki, qiymətlər möhkəmdir və o tələbin istənilən dəyişikliyində qiymətdən daha çox fiziki buraxılışdakı dəyişikliyə təsir edəcək.

Nəhayət, bu model onu nəzərdə tutur ki, iqtisadiyyatda bütün sektorlar və ev təsərrüfatları arasındakı qarşılıqlı əlaqələr tələbdəki ekzogen dəyişikliklər tərəfindən dəyişilməzdir. Yəni istehsalçıların birbaşa xərclər əmsalları və ev təsərrüfatlarının istehlak davranışları sabitdir. Biz cəbri matrisdən ümumi multiplikator formulasını almaq üçün istifadə edək. Bundan ötəri aşağıdakı matrisdəki iqtisadi anlayışları riyazi simvollarla ifadə edərək matrisi yenidən düzəldək.

| | **Fəaliyyətlər**<br>**$A_1$**<br>**$A_2$** | **Əmtəələr**<br>**$C_1$**<br>**$C_2$** | **Faktorlar**<br>**F** | **Ev təsərrüfatları**<br>**H** | **Ekzogen tələb**<br>**E** | **Cəm** |
|---|---|---|---|---|---|---|
| **$A_1$**<br>**$A_2$** | | $X_1$<br>$X_2$ | | | | $X_1$<br>$X_2$ |
| **$C_1$**<br>**$C_2$** | $Z_{11}$<br>$Z_{12}$<br>$Z_{21}$<br>$Z_{22}$ | | | **$C_1$**<br>**$C_2$** | $E_1$<br>$E_2$ | $Z_1$<br>$Z_2$ |
| **F** | $V_1$ $V_2$ | | | | | V |
| **H** | | | $V_1$ + $V_2$ | | | Y |
| **E** | | $L_1$ $L_2$ | | S | | E |
| **Cəm** | $X_1$ $X_2$ | $Z_1$ $Z_2$ | V | Y | E | |

Burada:

X - hər bir fəaliyyətin ümumi buraxılışı (X1 və X2)

Z - hər bir əmtəə üçün məcmu tələb ( Z1 və Z2)

V - ümumi faktor gəlirləri ( sadə olmaq üçün qəbul edirik ki, ev təsərrüfatı gəlirlərinə bərabərdir)

Y - ümumi ev təsərrüfatı gəlirləri (sadə olmaq üçün qəbul edirik ki, ümumi faktor gəlirlərinə bərabərdir)

E - tələbin ekzogen komponentləridir (dövlət, investisiya və ixracat)

Biz sonra "SAM matrisi" adlandırdığımız əmsallar matrisini almaq üçün şəkildəki hər bir sütunu bölürük. Bu şəkil 4-də göstərilib. Qeyd edək ki, burada SAM matris tələbin ekzogen komponentlərinə istinad edir.

| | Fəaliyyətlər $A_1$ $A_2$ | Əmtəələr $C_1$ $C_2$ | Faktorlar F | Ev təsərrüfatları H | Ekzogen tələb E | Cəm |
|---|---|---|---|---|---|---|
| $A_1$ $A_2$ | | $b_1=X_1/Z_1$ $b_2=X_2/Z_2$ | | | | $X_1$ $X_2$ |
| $C_1$ $C_2$ | $a_{11}=Z_{11}/X_2$ $a_{12}=Z_{12}/X_2$ $a_{21}=Z_{21}/X_1$ $a_{22}=Z_{22}/X_2$ | | | $c_1=C_1/Y$ $c_2=C_2/Y$ | $E_1$ $E_2$ | $Z_1$ $Z_2$ |
| F | $v_1=V_1/X_1$ $v_2=V_2/X_2$ | | | | | V |
| H | | | 1 | | | Y |
| E | | $l_1=L_1/Z_1$ $l_2=L_2/Z_2$ | | s=S/Y | | E |
| Cəm | 1 1 | 1 1 | 1 | 1 | E | |

Burada:

a - texniki əmsallardır ( istehsalatda giriş və ya aralıq paylar)

b - məcmu tələbdə daxili hasilatın payı

v - ümumi buraxılışda əlavə dəyər və ya faktor gəlirləri

l - idxallardan və ya əmtəə vergilərindən məcmu tələbin dəyərinin payı

c - ev təsərrüfatı istehlakı xərclərinin payı

s - ev təsərrüfatı əmanətlərinin norması ( əmanətlər məcmu ev təsərrüfatı gəlirlərinin payı kimi)

**Ümumi multiplikatorlar.** SAM-da simvollardan istifadə edərək, hər sektorda məcmu **Z tələbi** aralıq tələbin, ev təsərrüfatı istehlakı tələbinin və E tələbinin başqa ekzogen mənbələrinin (ictimai istehlak və investisiya kimi) cəmi kimi göstərə bilərik.

$$Z_1 = a_{11}X_1 + a_{12}X_2 + c_1Y + E_1$$
$$Z_2 = a_{21}X_1 + a_{22}X_2 + c_2Y + E_2 \qquad (1.1)$$

***Məcmu tələb = Aralıq tələb + ev təsərrüfatı tələbi + ekzogen tələb***

SAM biz bilirik ki, X ümumi buraxılış Z məcmu tələbin yalnız bir hissəsidir. Bu 1.2 tənliyində göstərilib.

$$X_1 = b_1Z_1 \qquad (1.2)$$
$$X_2 = b_2Z_2$$

Ümumi ev təsərrüfatı gəliri istehsal faktorlarının hər sektorda qazandıqları payından asılıdır, bu da 1.3 tənliyində göstərilib.

$$Y = v_1X_1 + v_2X_2 \qquad (1.3)$$

1.2 tənliyini 1.3-lə əvəz etsək Y məcmu gəliri üçün aşağıdakı eyniliyi verər.

$$Y = v_1 b_1 Z_1 + v_2 b_2 Z_2 \qquad (1.4)$$

İndi isə 1.2 və 1.4 tənliklərindən istifadə edərək X və Y-ni 1.1 tənliyə yerləşdirsək:

$$Z_1 = a_{11} b_1 Z_1 + a_{12} b_2 Z_2 + c_1(v_1 b_1 Z_1 + v_2 b_2 Z_2) + E_1 \qquad (1.5)$$
$$Z_2 = a_{21} b_1 Z_1 + a_{22} b_2 Z_2 + c_2(v_1 b_1 Z_1 + v_2 b_2 Z_2) + E_2$$

E ekzogen tələbindən başqa qalan hədləri sol tərəfə keçirsək:

$$Z_1 - a_{11} b_1 Z_1 - c_1 v_1 b_1 Z_1 - a_{12} b_2 Z_2 - c_1 v_2 b_2 Z_2 = E_1 \qquad (1.6)$$
$$-a_{21} b_1 Z_1 - c_2 v_1 b_1 Z_1 + Z_2 - a_{22} b_2 Z_2 - c_2 v_2 b_2 Z_2 = E_2$$

Nəhayət, Z hədlərini qruplaşdırsaq:

$$(1 - a_{11} b_1 - c_1 v_1 b_1) Z_1 + (-a_{12} b_2 - c_1 v_2 b_2) Z_2 = E_1 \qquad (1.7)$$
$$(-a_{21} b_1 - c_2 v_1 b_1) Z_1 + (1 - a_{22} b_2 - c_2 v_2 b_2) Z_2 = E_2$$

İndi isə cəbri matrisdən istifadə etməklə 1.7 bərabərliyini matris formasına çevirə bilərik:

$$\begin{pmatrix} 1 - a_{11} b_1 - c_1 v_1 b_1 & -a_{12} b_2 - c_1 v_2 b_2 \\ -a_{21} b_1 - c_2 v_1 b_1 & 1 - a_{22} b_2 - c_2 v_2 b_2 \end{pmatrix} \begin{pmatrix} Z_1 \\ Z_2 \end{pmatrix} = \begin{pmatrix} E_1 \\ E_2 \end{pmatrix} \qquad (1.8)$$

Buradan:

$$\begin{pmatrix} 1 - a_{11} b_1 - c_1 v_1 b_1 & -a_{12} b_2 - c_1 v_2 b_2 \\ -a_{21} b_1 - c_2 v_1 b_1 & 1 - a_{22} b_2 - c_2 v_2 b_2 \end{pmatrix} = I - M \qquad (1.9)$$

Əgər biz qalan iki vektorları Z və E adlandırsaq onda 1.8 bərabərliyini 1.10 kimi ifadə edə bilərik.

$$(I - M)Z = E \qquad (1.10)$$

Nəhayət, buradan alırıq:

$$Z = (I - M)^{-1} E \qquad (1.11)$$

***2. Məcmu tələb = multiplikator matrisi * ekzogen tələb***

Bu formula tələbin birbaşa və dolayı təsirlərini nəzərə alan mültiplikatorudur.

Ümumi multiplikator modeli göstərir ki, təklif tələbdəki dəyişikliklərə cavab verə bilir və ya təklifin həcmi mövcud resursların verilmiş miqdarıdır.

Həqiqətdə bu nadir hadisədir. Reallıqda isə bəzi sektorlar ixtisaslaşdırılmış resurslardan istifadə edir. Məsələn, ixraca olan tələbin artması, əgər əlavə ehtiyatlar mövcud deyilsə və ya mühüm investisiya mövcud deyilsə istehsalda artım ola bilməz. Bundan başqa, əgər bəzi resurslar azdırsa, onda bir sıra sektorlarda istehsalın artımı digərlərində azalmaya səbəb ola bilər. Bu hallarda təklifin cavabı qənaətbəxş olmaya bilər və sadə multiplikator modelinin yararlılığı şübhəli olur. Təklif məhdudiyyətlərini nəzərə almadığına görə ümumi multiplikator modeli adətən əlaqə effektləri təsirlərini şişirdir. Haqbeid, Hammer və Hazel tapıblar ki, bu modellər kənd təsərrüfatının inkişafı multiplikatorunu daha yaxşı qiymətləndirir.

İndi biz güman edə bilərik ki, bir sıra istehsal sektorları tələbdəki dəyişikliklərə cavab verə bilmirlərsə, multiplikator formulası necə dəyişir. 1.7 bərabərliyi məcmu tələbin hissələrinin cəmini göstərir.

Biz indi tələbin bütün komponentlərinə yenidən baxaq. İndiyə kimi ekzogen kimi qəbul etdiyimizi (E2) indi isə endogen kimi qəbul edək. Başqa sözlə, indi xalis ixracatlar dəyişə biləcək. Bu yerini dəyişdirmə 2.1 tənliklərində göstərilir.

$$(1 - a_{11} b_1 - c_1 v_1 b_1) Z_1 = E_1 + (-a_{12} b_2 - c_1 v_2 b_2) Z_2 \qquad (2.1)$$

$$(-a_{21}b_1 - c_2v_1b_1)Z_1 - E_2 = -(1 - a_{22}b_2 - c_2v_2b_2)Z_2$$

2.2 bərabərliyi 2.1 bərabərliyini matris formasında göstərir.

$$\begin{pmatrix} 1 - a_{11}b_1 - c_1v_1b_1 & 0 \\ -a_{21}b_1 - c_2v_1b_1 & -1 \end{pmatrix}\begin{pmatrix} Z_1 \\ E_2 \end{pmatrix} = \begin{pmatrix} 1 & a_{12}b_2 + c_1v_2b_2 \\ 0 & -1 + a_{22}b_2 + c_2v_2b_2 \end{pmatrix}\begin{pmatrix} E_1 \\ Z_2 \end{pmatrix} \quad (2.2)$$

tənliyinin sol tərəfindəki mötərizənin içərisini aşağıdakı kimi yazaq:

$$\begin{pmatrix} 1 - a_{11}b_1 - c_1v_1b_1 & 0 \\ -a_{21}b_1 - c_2v_1b_1 & -1 \end{pmatrix} = I - M^* \quad (2.3)$$

2.2 tənliyinin sağ tərəfindəki birinci termin yeni termindir ki, biz onu B ilə işarə edək.

$$\begin{pmatrix} 1 & a_{12}b_2 + c_1v_2b_2 \\ 0 & -1 + a_{22}b_2 + c_2v_2b_2 \end{pmatrix} = B \quad (2.4)$$

Yuxarıdakı iki bərabərliyi 2.2 tənliyində yerinə qoysaq 2.5 tənliyini verəcək.

$$(I - M^*)\begin{pmatrix} Z_1 \\ E_2 \end{pmatrix} = B\begin{pmatrix} E_1 \\ Z_2 \end{pmatrix} \quad (2.5)$$

Nəhayət, yerdəyişmələrlə biz 2.6 tənliyini alırıq.

$$\begin{pmatrix} Z_1 \\ E_2 \end{pmatrix} = (I - M^*)^{-1}B\begin{pmatrix} E_1 \\ Z_2 \end{pmatrix} \quad (2.6)$$

Bu tənliyin universallığı ondan ibarətdir ki, sektorun $E_1$ ekzogen təbindəki dəyişiklik bu sektorun birbaşa və dolayı əlaqələrini nəzərə almaqla onun $Z_1$ məcmu tələbində dəyişikliklərin hamısını nəzərə alır. Ümumiyyətlə, multiplikatorların tətbiq imkanlarını aşağıdakı cədvəldən görmək olar:

Cədvəl 4

Multiplikatorun tətbiq imkanları

| Multiplikator formulası | Multiplikatorun adı | Multiplikatorun tətbiq imkanları |
|---|---|---|
| $(I - M)Z = E$ | SAM-in leontyev matrisi | Tələbdəki dəyişikliklərin ekzogen dəyişənlərə təsiri birbaşa iqtisadi əlaqələr nəzərə alınmaqla qiymətləndirir. |
| $Z = (I - M)^{-1}E$ | SAM-in tam xərclər matrisi | Ekzogen göstəricilərdəki dəyişikliklərin məcmu tələbə təsiri tam iqtisadi əlaqələr nəzərə alınmaqla qiymətləndirir |
| $(I - M^*)\begin{pmatrix} Z_1 \\ E_2 \end{pmatrix} = B\begin{pmatrix} E_1 \\ Z_2 \end{pmatrix}$ | SAM-in məhdud leontyev matrisi | SAM-a daxil olan ekzogen ünsürlərdən birinin dəyişməsinin və digər sahələrin məcmu tələbinin dəyişməsinin digər ekzogen ünsürlərə və qalan sahələrin məcmu tələbinin dəyişməsinə təsirinin birbaşa əlaqələri nəzərə almaqla qiymətləndirir. |
| $\begin{pmatrix} Z_1 \\ E_2 \end{pmatrix} = (I - M^*)^{-1}B\begin{pmatrix} E_1 \\ Z_2 \end{pmatrix}$ | SAM-in məhdud tam xərclər matrisi | SAM-a daxil olan ekzogen ünsürlərdən birinin dəyişməsinin və digər sahələrin məcmu tələbinin dəyişməsinin digər ekzogen ünsürlərə və qalansahələrin məcmu tələbinin dəyişməsinə təsirinin tam iqtisadi əlaqələr nəzərə almaqla qiymətləndirir. |

**Qiymət multiplikatoru.** SAM-da iqtisadi fəaliyyətlər üzrə xərc buraxılış matrisinin sütunları və əlavə dəyər istehsalçıların xərclərini ifadə edir. Buradan belə çıxır ki, hər bir

məhsulun qiymətini həmin məhsulun istehsalına sərf edilmiş resursların qiymətilə ifadə etmək mümkündür. (1.1) tənliyindən görə bilərik ki, birinci məhsulun istehsalına müəyyən aralıq xərclər ( $a_{11}$ ; $a_{21}$) tələb olunur. Əgər birinci məhsulun qiymətini $p_1$ ilə işarə etsək onda, birinci məhsulun istehsalına sərf olunan aralıq xərcləri $a_{11}p_1 + a_{21}p_2$ kimi yaza bilərik. Birinci məhsulun bir vahidinin qiyməti həmin məhsulun istehsalına çəkilən aralıq xərclərdən və əlavə dəyərdən ibarət olar. Yəni $p_1 = a_{11}p_1 + a_{21}p_2 + v_1$ olar.

SAM-da simvollardan istifadə edərək, hər sektorda məhsul növləri üzrə məcmu **z təklifinin bir vahidini** aralıq istehlakın , əlavə dəyərin və təklifin başqa ekzogen mənbələrinin (idxal və məhsula vergilərin) cəmi kimi göstərə bilərik.

$$z_1 = a_{11}p_1 + a_{21}p_2 + v_1p_1 + l_1$$
(3.1)
$$z_2 = a_{12}p_1 + a_{22}p_2 + v_2p_2 + l_2$$

(3.1) tənliyinin əmsallar blokunun (1.1) tənliyinin əmsallar blokundan fərqi ondan ibarətdir ki, burada (1.1) tənliyinin əmsallar bloku transponirə edilmişdir.

***3. Məcmu təklif = Aralıq istehlak + əlavə dəyər + ekzogen təklif***

SAM-dan bilirik ki, p ümumi buraxılışın bir vahidi z məcmu təklifin bir vahidinin yalnız bir hissəsidir. Bu 3.2 tənliyində göstərilib.

$$p_1 = b_1z_1 \qquad (3.2)$$
$$p_2 = b_2z$$

İndi isə 3.2 tənliyindən istifadə edərək p-ni 3.1 tənliyinə yerləşdirsək:

$$z_1 = a_{11}b_1z_1 + a_{21}b_2z_2 + v_1b_1z_1 + l_1 \qquad (3.3)$$
$$z_2 = a_{12}b_1z_1 + a_{22}b_2z_2 + v_2b_2z_2 + l_2$$

l ekzogen təklifindən başqa qalan hədləri sol tərəfə keçirsək:

$$z_1 - a_{11}b_1z_1 - v_1b_1z_1 - a_{21}b_2z_2 = l_1 \qquad (3.4)$$
$$-v_2b_2z_2 - a_{12}b_1z_1 + z_2 - a_{22}b_2z_2 = l_2$$

Nəhayət, z hədlərini qruplaşdırsaq:

$$(1 - a_{11}b_1 - v_1b_1)z_1 + (-a_{21}b_2)z_2 = l_1 \qquad (3.5)$$
$$(-a_{12}b_1)z_1 + (1 - a_{22}b_2 - v_2b_2)z_2 = l_2$$

İndi isə cəbri matrisdən istifadə etməklə 3.5 bərabərliyini matris formasına çevirə bilərik:

$$\begin{pmatrix} 1 - a_{11}b_1 - v_1b_1 & -a_{21}b_2 \\ -a_{12}b_1 & 1 - a_{22}b_2 - v_2b_2 \end{pmatrix} \begin{pmatrix} z_1 \\ z_2 \end{pmatrix} = \begin{pmatrix} l_1 \\ l_2 \end{pmatrix} \qquad (3.6)$$

Buradan:

$$\begin{pmatrix} 1 - a_{11}b_1 - v_1b_1 & -a_{21}b_2 \\ -a_{12}b_1 & 1 - a_{22}b_2 - v_2b_2 \end{pmatrix} = I - M \qquad (3.7)$$

Əgər biz qalan iki vektorları z və l adlandırsaq onda 3.6 bərabərliyini 3.8 kimi ifadə edə bilərik.

$$(I - M^t)z = l \qquad (3.8)$$

Nəhayət, buradan alırıq:

$$z = (I - M^t)^{-1}l \qquad (3.9)$$

***4. Məcmu təklif = multiplikator matrisi * ekzogen təklif***

Bu formula təkilifin birbaşa və dolaytı təsirlərini nəzərə alan multiplikatordur.

İndi biz güman edə bilərik ki, bir sıra istehsal sektorları təklifdəki dəyişikliklərə cavab verə bilmirlərsə, multiplikator formulası necə dəyişir. 3.5 bərabərliyi məcmu təklifin hissələrinin cəmini göstərir.

Biz indi təklifin bütün komponentlərinə yenidən baxaq. İndiyə kimi ekzogen kimi qəbul etdiyimizi (l2) indi isə endogen kimi qəbul edək. Başqa sözlə, indi xalis idxallar və məhsula vergilər dəyişə biləcək. Bu yerini dəyişdirmə 2.1 tənliklərində göstərilir.

$$\begin{aligned} (1 - a_{11}b_1 - v_1 b_1)z_1 &= l_1 + (-a_{21}b_2)z_1 \\ (-a_{12}b_1)Z_1 - l_2 &= -(1 - a_{22}b_2 - v_2 b_2)z_2 \end{aligned} \qquad (4.1)$$

4.2 bərabərliyi 4.1 bərabərliyini matris formasında göstərir.

$$\begin{pmatrix} 1 - a_{11}b_1 - v_1 b_1 & 0 \\ -a_{12}b_1 & -1 \end{pmatrix} \begin{pmatrix} z_1 \\ l_2 \end{pmatrix} = \begin{pmatrix} 1 & a_{21}b_2 \\ 0 & -1 + a_{22}b_2 + v_2 b_2 \end{pmatrix} \begin{pmatrix} l_1 \\ z_2 \end{pmatrix} \qquad (4.2)$$

(4.2) tənliyinin sol tərəfindəki mötərizənin içərisini aşağıdakı kimi yazaq:

$$\begin{pmatrix} 1 - a_{11}b_1 - v_1 b_1 & 0 \\ -a_{12}b_1 & -1 \end{pmatrix} = I - M^{*t} \qquad (4.3)$$

4.2 tənliyinin sağ tərəfindəki birinci termin yeni termindir ki, biz onu B ilə işarə edək.

$$\begin{pmatrix} 1 & a_{21}b_2 \\ 0 & -1 + a_{22}b_2 + v_2 b_2 \end{pmatrix} = B^t \qquad ( 4.4)$$

Yuxarıdakı iki bərabərliyi 4.2 tənliyində yerinə qoysaq 4.5 tənliyini verəcək.

$$\left(I - M^{*t}\right) \begin{pmatrix} z_1 \\ l_2 \end{pmatrix} = B^t \begin{pmatrix} l_1 \\ z_2 \end{pmatrix} \qquad ( 4.5)$$

Nəhayət, yerdəyişmələrlə biz 4.6 tənliyini alırıq.

$$\begin{pmatrix} z_1 \\ l_2 \end{pmatrix} = \left(I - M^{*t}\right)^{-1} B^t \begin{pmatrix} l_1 \\ z_2 \end{pmatrix} \qquad (4.6)$$

Bu tənliyin də universallığı ondan ibarətdir ki, sektorun $l_1$ vahid ekzogen təklifindəki dəyişiklik bu sektorun birbaşa və dolayı əlaqələrini nəzərə almaqla onun $z_1$ məcmu təklif vahidindəki dəyişikliklərin hamısını nəzər alır. Ümumiyyətlə multiplikatorların tətbiq imkanlarını aşağıdakı cədvəldən görmək olar:

Cədvəl 2

| Multiplikator formulası | Multiplikatorun adı | Multiplikatorun tətbiq imkanları |
|---|---|---|
| $(I - M^t)Z = L$ | SAM-in leontyev matrisinin transponirə edilmiş forması | Məcmu təklifin qiymət səviyyəsindəki dəyişikliklərin ekzogen dəyişənlərə təsiri birbaşa iqtisadi əlaqələr nəzərə alınmaqla qiymətləndirir. |
| $Z = (I - M^t)^{-1}L$ | SAM-in transponirə edilmiş tam xərclər matrisi | Ekzogen göstəricilərdəki dəyişikliklərin məcmu təklifin qiymət səviyyəsindəki dəyişikliklərə təsiri tam iqtisadi əlaqələr nəzərə alınmaqla qiymətləndirir |
| $(I - M^{*t})\begin{pmatrix} Z_1 \\ L_2 \end{pmatrix} = B^t\begin{pmatrix} L_1 \\ Z_2 \end{pmatrix}$ | SAM-in məhdud leontyev matrisinin transponirə edilmiş forması | SAM-a daxil olan ekzogen ünsürlərdən birinin dəyişməsinin və digər sahələrdəki məcmu təklifin qiymət səviyyəsindəki dəyişikliklərin digər ekzogen ünsürlərə və qalan sahələrdəki məcmu təklifin qiymət səviyyəsindəki dəyişikliklərə təsirinin birbaşa əlaqələr nəzərə almaqla qiymətləndirir |
| $\begin{pmatrix} Z_1 \\ L_2 \end{pmatrix} = (I - M^{*t})^{-1}B^t\begin{pmatrix} L_1 \\ Z_2 \end{pmatrix}$ | SAM-in məhdud transponirə edilmiş tam xərclər matrisi | SAM-a daxil olan ekzogen ünsürlərdən birinin dəyişməsinin və digər sahələrdəki məcmu təklifin qiymət səviyyəsindəki dəyişikliklərin digər ekzogen ünsürlərə və qalan sahələrdəki məcmu təklifin qiymət səviyyəsindəki dəyişikliklərin təsirinin tam iqtisadi əlaqələr nəzərə almaqla qiymətləndirir |

**ƏDƏBİYYAT**

1. СИСТЕМА НАЦИОНАЛЬНЫХ СЧЕТОВ 2008 Европейская комиссия Международный валютный фонд Организация экономического сотрудничества и развития. Организация Объединенных Наций .Всемирный банк Европейская комиссия Международный валютный фонд Организация экономического сотрудничества и развития. Организация Объединенных Наций. Всемирный банк. Настоящая публикация переведена на русский язык специалистами Межгосударственного статистического комитета Содружества Независимых Государств и Института финансово- экономического мониторинга Окончательная редакция осуществлена специалистами Межгосударственного статистического комитета Содружества Независимых Государств и кафедры статистики Московского государственного университета имени В.Ломоносова Европейская комиссия, Международный валютный фонд, Организация экономического сотрудничества и развития, Организация Объединенных Наций и Всемирный банк. Все права сохраняются

2. Методологические исследования Серия F, № 85 Руководство по национальным счетам Национальные счета: практический вводный курс.
3. Руководство по составлению таблиц затрат-выпуска и их анализу. Организации объединненых наций Нью-Йорк, 2000 год Серия F, №74
4. Использование матрицы социальных счетов для оценки мультипликативных эффектов в экономике. Е.В.Мартяков. В.В. Лепа НауковІ праці ДонНТУ. Серія економічна. Випуск 100-2.
5. Linking the Social Accounting Matrix to existing government strategies for South Africa Published by Statistics South Africa, Private Bag X44, Pretoria 0001 © Statistics South Africa, 2008
6. Developing a pilot Social Accounting Matrix for the United Kingdom Nigel Stuttard Labour Market Division Office for National Statistics Room B3/02 Drummond Gate London SW1V 2QQ Tel: 020 7533 6167 E-mail: nigel.stuttard@ons.gov.uk Mari Frogner Department for Work and Pensions (formerly of Economic Analysis and Satellite Accounts Division, Office for National Statistics) Second floor The Adelphiт 1-11 John Adam Street London WC2 6HT E-Mail: economics@ons.gov.uk
7. Studies in Methods Series F, No. 74 Handbook of National Accounting handbook of input-output table compilation and analysis United Nations New York, 1999
8. Comparing multipliers in the social accounting matrix framework. Llop Llop, Maria Departament dEconomia, Universitat Rovira i Virgili www.iogroup.org
9. Ethiopia Input Output Table and Social Accounting Matrix December 2009
10. Social accounting matrices and multiplier analysis: **an introduction with exercises** Clemens Breisinger, Marcelle Thomas, and James Thurlow
11. Food s e cur i t y in p r ac t i c e Social accounting matrices and multiplier analysis an introduction with exercises Clemens Breisinger, Marcelle Thomas, and James Thurlow
12. Межрегиональный семинар «Анализ Макроэкономической политики и моделирование в экономиках Центральной Азии» 20-22 июня 2001г. Адаптация модели SAM к условиям переходной экономики Узбекистана Файзуллаев Я.Ш. Шароватова А.В. Мурадова Х.М. ЦЭИ-ЭСКАТО
13. Balancing a social accounting matrix: Theory and application Ismael Fofana, Andre Lelemin, John Cockburn.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №12, Bakı 2012*

# AZƏRBAYCAN RESPUBLİKASINDA SƏNAYENİN MÜASİR VƏZİYYƏTİ

***i.ü.f.d. Qasımov E.***

*2008-2017 -ci illərdə İİETİ-də baş elmi işçi, şöbə müdiri, direktor müavini vəzifəsində işləyibdir.*

Son illərdə Respublika iqtisadiyyatının bir çox sahələrində, xüsusilə də qeyri-neft sektorunda müşahidə edilən inkişaf templəri bir tərəfdən geniş inkişaf potensialını əks etdirir, digər tərəfdən isə bu potensialın tam istifadə edilməsi və inkişaf tempinin saxlanılıb artırılması üçün əlavə tədbirlərin həyata keçirilməsi üçün zərurət yaradır.

Azərbaycan Respublikasının qəbul etdiyi 2020 inkişaf strategiyasında qarşıya qoyulan hədəflərə sənaye sektorunun potensialından səmərəli şəkildə faydalanmadan nail olmaq mümkün deyildir. Xüsusilə də nəzərə alsaq ki, əsas hədəflərdən biri qeyri-neft sektorunun ÜDM-nin adambaşına düşən göstəricisinin iki dəfə artırılmasıdır. Sənaye sektorunun ümumi makro göstəricilərinə nəzər saldıqda 2000-ci ildən sonra davamlı olaraq faktiki qiymətlərlə ifadə olunmuş məhsul həcminin artdığı müşahidə olunur. Bu da bizə 2020 inkişaf strategiyasında sənaye ilə bağlı qarşıya qoyulmuş hədəflərin əldə edilməsində ilk baxışdan heç bir problemin olmadığını göstərir. Lakin sahənin daha dərin təhlili və buraya daxil olan alt qrupların müvafiq dövr üzrə təhlili ilk baxışdan görünməyən amma böyük problemlərin olduğunu müşahidə etmək mümkündür. Cədvəl 1-dən də göründüyü kimi sənaye məhsulunun həcmi 2005-ci illə müqayisədə 2011-ci ildə 9309 milyon manatdan 35027 milyon manatadək, başqa sözlə təqribən 3.7 dəfəyə qədər artıb. Mülkiyyət formalarına nəzər salsaq müvafiq dövrdə dövlət sektorunda 1.4 dəfə, özəl sektorda isə 4.3 dəfə artım olub. Son altı il ərzində məhsul həcminin təqribən 2518 milyon manat artmasına baxmayaraq, burada bir məqama diqqət yetirmək lazımdır. Neft və qaz hasilatı 2005-ci ildə ümumi sənayenin 63.8%-nə bərabər olduğu halda, 2011-ci ildə bu göstərici artaraq 78% olmuşdur. Eyni zamanda əlavə olaraq emal sənayesinə daxil olan neft məhsullarının istehsalını və kimya sənayesini də bura daxil etsək onda sənayenin təqribən 86%-i neft sektorunun payına düşür. Başqa sözlə desək təqribən 35 milyardlıq sənaye məhsulunun 26 milyardı neft və qaz hasilatına, təqribən 2.5 milyardı neft məhsullarının istehsalına və 189 milyon manat isə kimya sənayesinin payına düşüb. Sənayenin yerdə qalan bölmələrinin payı isə cəmi 6.3 milyard manata bərabər olmuşdur. Azərbaycan Respublikasının sənaye potensialı isə bu göstəricidən dəfələrlə çoxdur.

Cədvəl 1

Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, faktiki qiymətlərlə, milyon manat

| | **2000** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** |
|---|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **3 639** | **9 309** | **15 544** | **22 496** | **29 773** | **22 564** | **27 978** | **35 027** |
| **dövlət sektoru** | 1 879 | **2 737** | **4 044** | **4 872** | **5 706** | **5 036** | **5 575** | **6 817** |
| **qeyri-dövlət sektoru** | 1 760 | **6 572** | **11 500** | **17 624** | **24 067** | **17 528** | **22 403** | **28 210** |
| **Mədənçıxarma sənayesi** | **1 626** | **5 673** | **10 566** | **16 413** | **22 631** | **16 460** | **20 862** | **26 894** |
| Xam neft və təbii qaz hasilatı | 1 421 | 5 370 | 10 208 | 15 972 | 22 149 | 15 981 | 20 199 | 26 055 |
| Metal filizlərinin hasilatı | 0,2 | 0.2 | 0.3 | 0.2 | 2.6 | 6.2 | 62.5 | 74.3 |
| Daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi məhsullarının hasilatı | 2.7 | 23.8 | 28.2 | 48.9 | 48.0 | 36.8 | 59.0 | 83.2 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin | 202,2 | 278.5 | 329.6 | 391.6 | 431.5 | 435.4 | 542.4 | 681,4 |
| **Emal sənayesi** | **1 551** | **3 073** | **4 311** | **4 919** | **5 700** | **4 836** | **5 736** | **6 392** |
| Qida məhsullarının istehsalı | 657,1 | 1094.5 | 1154.3 | 1254.9 | 1381.0 | 1520.3 | 1924.6 | 2 108 |
| İçki istehsalı | 24,1 | 72.5 | 97.0 | 132.0 | 147.2 | 153.2 | 170.2 | 169 |
| Tütün məmulatlarının istehsalı | 17.7 | 30.5 | 27.0 | 22.4 | 21.7 | 21.7 | 22.3 | 22.8 |
| Toxuculuq sənayesi | 24.6 | 34.8 | 52.9 | 36.0 | 50.4 | 33.9 | 29.4 | 52.3 |
| Geyim istehsalı | 8.1 | 16.3 | 19.1 | 23.3 | 26.0 | 26.4 | 34.7 | 38.5 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 2.7 | 4.5 | 6.9 | 16.2 | 17.0 | 17.1 | 20.9 | 20.0 |
| Ağac emalı və ağacdan məmulatların istehsalı | 1.9 | 9.6 | 12.2 | 18.4 | 15.6 | 10.6 | 12.1 | 14.4 |
| Kağız və karton istehsalı | 0.4 | 3.1 | 5.5 | 6.6 | 10.6 | 10.9 | 11.5 | 27.9 |
| Poliqrafiya fəaliyyəti | 5.6 | 23.1 | 26.3 | 30.6 | 46.3 | 43.2 | 38.4 | 45.4 |
| Neft məhsullarının istehsalı | 560.9 | 836.8 | 1821.2 | 2118.2 | 2400.0 | 1844.8 | 2160.6 | 2483.8 |
| Kimya sənayesi | 101.7 | 198.3 | 193.5 | 212.3 | 219.1 | 132.1 | 120.3 | 189 |
| Əczaçılıq məhsullarının istehsalı | 0,5 | 0.7 | 1.2 | 0.7 | 0.7 | 0.7 | 1.0 | 1.9 |
| Rezin və plastmas məmulatların istehsalı | 3.1 | 23.5 | 27.7 | 37.1 | 70.0 | 59.8 | 43.3 | 78.9 |
| Tikinti materiallarının istehsalı | 23.1 | 135.4 | 165.2 | 253.0 | 352.5 | 369.6 | 452.2 | 280.7 |
| Metallurgiya sənayesi | 3.1 | 171.8 | 351.8 | 278.7 | 348.9 | 88.8 | 135.2 | 195,6 |
| Maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | 8.5 | 156.4 | 51.6 | 125.0 | 166.7 | 101.2 | 135.1 | 105,1 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Kompüter və digər elektron avadanlıqların istehsalı | 3.3 | 7.3 | 10.9 | 18.0 | 21.6 | 36.2 | 54.6 | 72,5 |
| Elektrik avadanlıqlarının istehsalı | 8.4 | 18.6 | 23.5 | 35.0 | 45.7 | 40.3 | 75.0 | 171.6 |
| Maşın və avadanlıqların istehsalı | 32.0 | 32.8 | 55.7 | 81.6 | 91.0 | 93.3 | 151.2 | 156.7 |
| Avtomobil və qoşquların istehsalı | 0.3 | 5.2 | 4.8 | 17.1 | 17.3 | 0.5 | 3.0 | 3,8 |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 5.4 | 13.4 | 16.0 | 16.1 | 16.5 | 21.1 | 10.2 | 10.3 |
| Mebellərin istehsalı | 2.7 | 17.5 | 19.4 | 25.9 | 32.8 | 35.7 | 51.5 | 45.7 |
| Zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının istehsalı | 2.8 | 18.7 | 12.0 | 13.3 | 13.2 | 8.4 | 12.1 | 4.9 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 52,7 | 147.8 | 155.3 | 146.8 | 188.1 | 166.3 | 66.3 | 94.0 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **411.7** | **480.8** | **569.3** | **1024.6** | **1280.4** | **1148.3** | **1225.5** | **1555.9** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **51.4** | **82.2** | **97.8** | **139.0** | **161.6** | **119.5** | **154.5** | **184.3** |

Digər bir diqqət çəkən məqam isə sənaye sektorunda muzdla işləyənlərin sayının azalma tendensiyasıdır. Belə ki, 2005-ci ildə bu sektorda 193.2 min nəfər çalışırdısa, 2011-ci ildə bu göstərici 16.5 min nəfər azalaraq 176.7 min nəfər olmuşdur. Müvafiq dövrdə sənayedəki özəl sektor əlavə olaraq 9.9 min nəfər işə götürməsəydi sektorda çalışanların sayındakı azalma daha çox olardı. Əsas ixtisarlar və ya işçi qüvvəsinin azalması sənayenin aşağıdakı bölmələrində baş vermişdir: xam neft və qaz hasilatında- 3.3 min nəfər, mədənçıxarma sənayesində xidmət- 3 min nəfər, neft məhsullarının istehsalında- 1.4 min nəfər, kimyada- 3.2 min nəfər, toxuculuqda- 6 min nəfər, metallurgiyada- 1.3 min nəfər, maşın və avadanlıqların istehsalı- 3.1 min nəfər.

Yuxarıdakı adı çəkilən sahələrdə işçi sayında azalmalar olsa da, qida məhsullarının (1.6 min nəfər), içki məhsullarının (1.4 min nəfər) və rezin, plastmas məmulatlarının istehsalı bölmələrində işçi sayının (2.4 min nəfər) artımı müşahidə olunmuşdur.

Sənayedə çalışan muzdlu işçilərin sayında azalmanın olmasına baxmayaraq müsbət hallardan biri odur ki, işçilərin orta aylıq əmək haqqında artımlar müşahidə olunmuşdur. Ümumi sənaye üzrə göstərici 518.6 manat olmuşdur. Neft sektorunda çalışanlarda isə bu rəqəm 1177 manata bərabər olub.

Digər diqqət çəkən məqamlardan biri də odur ki, sənaye məhsulunun həcmində bu qədər artım olduğu halda bu sektorda fəaliyyət göstərən müəssisələrin sayında azalma müşahidə olunur. 2005-ci ildə 2621 müəssisə fəaliyyət göstərdiyi halda 2011-ci ildə onların

sayı 113 vahid azalaraq 2508-ə bərabər olmuşdur. Bölmələrin təhlili göstərir ki, ən çox emal sənayesində fəaliyyət göstərən müəssisələr öz fəaliyyətlərini dayandırmışdır. Eyni zamanda maraqlı faktlardan biri də ondan ibarətdir ki, sənayenin bir çox bölmələrində fəaliyyət göstərmək üçün qeydiyyatdan keçmiş sahibkarların az bir hissəsi fəaliyyət göstərir. Orta hesabla bu göstərici bölmələrə görə 10% ilə 50% arasında dəyişir. Hesab edirik ki, bu sahibkarlar arasında sorğuların keçirilməsi yolu ilə onların fəaliyyətlərini dayandırmaqlarının səbəbləri müəyyən edilərək araşdırılması və həll edilməsi onların fəaliyyətə başlamalarını təmin etməklə həm yeni iş yerlərinin açılmasına, həm də yuxarıda qeyd etdiyimiz kimi, neft sektorunu çıxandan sonra cəmi 6.3 milyard manata bərabər olan istehsal həcminin dəfələrlə artmasına nail olmaq olar.

Azərbaycan Respublikasının daxili tələbatının ödənilməsi nöqteyi-nəzərindən böyük potensialı olan sənaye sahələrindən biri də metallurgiyadır. Bu sahənin vəziyyəti barədə daha ətraflı təhlil aparılmasına əsas var. Böyük potensialı olduğu halda yuxarıda da qeyd etdiyimiz kimi, bu sahədə çalışanların sayında azalma tendensiyası müşahidə olunur ki, bu da təqdirə layiq hal deyildir. Hal-hazırda metallurgiyada çalışanların sayı 8.4 min nəfərə bərabərdir və onlar bu sahədə fəaliyyət göstərən 30 müəssisədə işləyirlər. Metallurgiyada məhsul istehsalı tendensiyasına nəzər salsaq burada bir qeyri-stabillik müşahidə olunduğunu görərik.



Şəkil 1. Metallurgiya sahəsində məhsul istehsalı (milyon manat).

Şəkil 1-dən də göründüyü kimi 2008-ci ildə 348.9 milyon manatlıq məhsul istehsal edildiyi halda növbəti ildə istehsal kəskin düşərək cəmi 88.8 milyon manat olmuşdur. Növbəti illərdə çoxalaraq bu göstərici 2011-ci ildə 195.6 milyon manata qədər artmışdır. Natura ifadəsində də əmtəəlik çuqun istehsalı 1200 ton azalaraq 597 ton olmuşdur.

Növbəti illərdə geniş miqyaslı tikinti layihələrinin həyata keçirilməsi (yeni neft-qaz kompleksinin yaradılması, Bakı metropoliteninin genişlənməsi, Avropa Olimpiadasına hazırlıq və s.) və qeyri-neft sənayesinin genişlənməsi (yeni sənaye parklarının yaradılması) qara metallurgiya sənayesinin inkişaf etməsi üçün əsas şərtləndirici amillər olacaqdır.

Hazırda polad məhsulları üzrə ölkədaxili bazarın həcmi təqribən 1 milyard manata bərabərdir və tələbatın böyük qismi (70%-i) xaricdən idxal edilən polad məhsullarının hesabına ödənilir.




Azərbaycanda qara metallurgiya sənayesi məhsullarına olan tələbat daima artmaqdadır. Belə ki, 2009-cu ildə Respublikada 244 min ton polad məhsulları istehsal edilmişdisə, 2012-ci ildə bu göstərici 721,2 min tona bərabər olmuşdur. Eyni tendensiya polad məhsullarının idxal edilməsində görünür. Belə ki, 2009-cu ildə idxal edilmiş polad məhsullarının həcmi 906 min ton təşkil edirdisə, 2012-ci ilin 11 ayı üzrə bu göstərici 1,37 milyon tona çatmışdır.




Şəkil 3.

Qeyd edilən göstəricilərə uyğun olaraq, ölkədə adambaşına düşən polad məhsullarının istehlakı ildə təqribən 229 kiloqram təşkil edir ki, bu da dünya ortalamasına (215 kq) yaxın olan bir göstəricidir. Eyni zamanda, bu göstəricini inkişaf etmiş ölkələrin göstəricisi ilə müqayisə edəndə görünür ki, burada gələcəkdə ciddi artım perspektivləri mövcuddur.

Azərbaycan Respublikasında mövcud olan dəmir filizi yataqları Daşkəsən rayonunda yerləşir. Bunlar Şimali, Cənubi və Dəmirov yataqlarıdır. Yataqların istismarına 1954-cü ildə başlanılmışdır və o vaxt çıxarılan filizin tərkibində dəmir 46,6% idisə, 1980-ci illərin ikinci yarısında 30%-ə düşmüşdür. Maksimal tarixi illik hasilat 1977-ci ildə 3,1 milyon ton olmuşdur.

Keçmiş SSRİ dövründə Azərbaycanda hasil edilən dəmir filizi ilkin saflaşdırmadan keçirilərək Gürcüstana göndərilir və ölkə daxilində filizdən polad istehsalı aparılmırdı. Ümumiyyətlə, ölkədə 39 il (1954-1993) ərzində 89,8 milyon ton filiz hasil edilmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2011-ci ilə olan məlumatına əsasən Daşkəsən filiz yataqlarında 241 milyon ton dəmir filizi mövcuddur. 2008-ci ildə Türkiyənin "DAMA" mühəndislik şirkəti tərəfindən aparılmış geoloji araşdırma nəticəsində Cənub-Şərq yatağında

143,6 milyon ton filiz yatağının olması müəyyən edilmiş, bundan 14,5 milyon ton filiz açıq şəkildə hasilat üçün hazırdır və burada hasilat artıq aparılır.

**ƏDƏBİYYAT:**


1. "Azərbaycan sənayesi 2012" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi-2012.
2. "Azərbaycan Respublikası sənayesinin 2011-ci ildə inkişafının təhlili" Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinin hesabatı, 2011.
3. http://www.mie.gov.az
4. http://www.stat.gov.az
5. http://economy.gov.az

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №12, Bakı 2012*

# EKOLOJİ TƏMİZ KƏND TƏSƏRRÜFATININ KONSEPTUAL MƏQAMLARI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

***i.e.n. Eynalov H.***

*2011-2016 -ci illərdə İİETİ-də baş elmi işçi, vəzifəsində işləyibdir.*

***Davudov A.***
*2009-2014 -ci illərdə İİETİ-də* şöbə müdiri *vəzifəsində işləyibdir*

İnsan cəmiyyəti yaranandan bu vaxta qədər həyat tərzinə çevrilən kənd təsərrüfatında yeni istehsal üsullarının yayılması, ən son texnologiyaların tətbiqi, kimyəvi və geni modifikasiya təyinatlı maddələrin və gübrələrin geniş şəkildə istifadəsi, bütün bunların zəruriliyi, dünya əhalisinin sayının artması insan sağlamlığına zərərli qida məhsullarının kütləvi şəkildə dünya bazarına çıxarılmasına səbəb olmuşdur. Lakin XX əsrin 60-70-ci illərindən etibarən "Yaşıl İnqilab" adlı kompaniya başlanılmış və kənd təsərrüfatında olan bu tendensiyanın zərərləri bəyan edilmişdir. Bu zaman ənənəvi kənd təsərrüfatına alternativ ekoloji təmiz kənd təsərrüfatı konsepsiyası irəli sürülmüşdür. Müasir dövrdə isə həm insan sağlamlığının təminatı, həm istehlakçı hüquqlarının qorunması, həmçinin kənd təsərrüfatında əlavə dəyərin formalaşdırılması baxımından daha aktual xarakter almışdır. Bu isə əsasən ekoloji təmiz kənd təsərrüfatı məhsullarının ekoloji təmiz istehsal üsulları əsasında başa gəlməsi ilə əlaqədardır. Yəni bazarlara istehlak üçün ekoloji təmiz qida məhsulların çıxarılması bir çox İnkişaf Etmiş Ölkələrdə zərurət halına gəlmişdir. Bütün bunlara baxmayaraq, hələ də bəzi problemlər mövcuddur: bazarda inam məsələləri və fermerlərin təşviqi. Ekoloji təmiz məhsulların nisbətən baha başa gəlməsi və bazarda istehlakçıların bu məhsullar haqqında bilgilərinin az olması aktual problem olaraq qalmaqdadır. Bu isə dövlətin məqsədyönlü müdaxiləsini və prioritetlər əsasında konkret hədəflərə yönəlmiş tədbirlərini zəruri edir. Çünki, dövlətin öhdəliklərində ən önəmli vəzifə əhalinin etibarlı ərzaq məhsulları ilə təmin olunmasıdır. Beləliklə, müasir dövrdə ekoloji təmiz kənd təsərrüfatının formalaşmasının və inkişafının zəruriliyi meydana gəlməklə yanaşı onun təşkili məsələləri, dövlət və hüquqi tənzimlənməsi, inkişaf strategiyasının formalaşdırılması, həmçinin sertifikatlaşdırma qaydalarının təkmilləşdirilməsi son dərəcə vacib məqamlardan sayılmışdır.

***Ekoloji təmiz kənd təsərrüfatı nədir:*** Bu o təsərrüfat formasıdır ki, ekoloji təmiz kənd təsərrüfatında ekoloji cəhətdən təmiz ərazilərdə kimyəvi preparatlardan istifadə edilmədən məhsul istehsal edilir və istehsaldan istehlaka qədər hər bir mərhələsi müşahidə və sertifikasiyaya əsaslanır. Başqa sözlə ekoloji təmiz kənd təsərrüfatı yalnış təcrübə nəticəsində ekoloji tarazlığı bərpa edərək torpağın məhsuldarlığını davamlı hala gətirən ətraf mühitə və insanlığa dost bir kənd təsərrüfatında alternativ bir təsərrüfat formasıdır.

Ekoloji təmiz kənd təsərrüfatı keyfiyyətli məhsulu hədəfləməklə əsas məqsədləri, torpaq-bitki-heyvan və insanlıq arasındakı münasibətləri sağlam bir formaya salmaq, sağlam həyat tərzini təmin etməklə təbiəti qorumaqdır. Müasir dövrdə ölkənin iqtisadi inkişaf baxımından ekoloji təmiz kənd təsərrüfatının üzərinə düşən əsas tələblər əsasən kənd təsərrüfatında təkrar istehsalın təmin olunması, bu təsərrüfat formasında daha çox işçi tələb edildiyindən işsizliyin aradan qalxması və kənd regionlarında məşğulluğun artması, ölkənin kənd təsərrüfatında əlavə dəyərin təmin edilməsi və s. təşkil edir. Dünyanın müxtəlif ölkələrində ekoloji təmiz kənd təsərrüfatı müxtəlif cür səslənsə də **(İngilislər bunu -Organic, almanlar və fransızlar – Bio, Hollandlar – Eco adlandırır) ümumi olaraq bu təsərrüfat formasının üzərinə düşən tələblər əsasında formalaşan hədəflər əsasən eyni olur.**

***Ekoloji təmiz kənd təsərrüfatının qısa tarixi:*** Dünya əhalisinin sayının çoxalması ilə qida məhsullarına olan tələbatın artması kəskin rəqabət şəraitində kənd təsərrüfatında müxtəlif laborator araşdırmaların aparılaraq təcrübələrin tətbiqinə, zərərli texnika və texnologiyadan istifadənin genişlənməsinə, ekoloji tarazlığın pozulmasına və insan sağlamlığına zidd olan ərzaq məhsullarının istehlakına gətirib çıxartdı. Son dövrlərdə isə geni dəyişdirmə üsullarının tətbiqi isə əhalinin etibarlı ərzaq təminatını sarsıtdı. Bütün bu məsələlərin aktuallaşması nəticəsində XX əsrin 60-70-ci illərindən etibarən "Yaşıl İnqilab" adlı kompaniya fəaliyyətə başladı. FAO və Avropa İttifaqı tərəfindən alternativ kənd təsərrüfatı forması kimi ekoloji təmiz kənd təsərrüfatı irəli sürüldü və 1972-ci ildə Fransada IFOAM (ekoloji təmiz kənd təsərrüfatı üzrə beynəlxalq hərəkat təşkilatı) yaradıldı. Əsas prinsipləri sağlam ətraf mühit və insan sağlamlığı olan bu beynəlxalq qurum hazırda 140 ölkədən 800-ə qədər şirkət və təşkilatları birləşdirməklə aşağıdakı tələbləri bəyan edir:

- yetərli miqdarda və keyfiyyətli bəsləyici qida maddələri istehsal etmək;
- təbiətə uyğunlaşmaqla işləmək;
- təbiəti qoruyan kənd təsərrüfatı sistemini dəstəkləmək;
- fermerlərin gəlirlərini artırmaq və təminatlı iş mühitini formalaşdırmaq;
- ekoloji təmiz kənd təsərrüfatını həyat tərzinə çevirməklə perspektivləri düşünmək və s.

Nəhayət, "Yaşıl İnqilab" tərəfdarları tərəfindən qəbul edilmiş ekoloji təmiz kənd təsərrüfatına aid olan kriteriyalar bütün ölkələrin bu sahə üzrə qəbul etdikləri hüquqi-normativ aktlarında əks olunmağa başlandı:

- iri avtomobil magistral yollardan, sənaye müəssisələrindən uzaqlıqda ekoloji təmiz ərazilərdə olmalı və geniş zonaları əhatə etməlidir;
- hər hansı kimyəvi preparatlar tətbiq olunmamalı, zərərvericilərlə mübarizə isə bioloji üsullarla həyata keçirilməlidir;
- geni modifikasiya olunmuş toxumlardan istifadə qadağan olunmalıdır;
- heyvanlar özlərinin təbii instinktlərini göstərə biləcəyi geniş volyerlərdə (heyvanxanada heyvanları və quşları saxlamaq üçün hər tərəfi qəfəslənmiş meydançada) saxlanılmalıdır;
- heyvanların heyvan mənşəli məhsullarla qidalandırılması, həmçinin yemə antibiotiklərin və harmonal maddələrin əlavə edilməsi qadağan olunmalıdır;
- xammal emalında süni boyalardan, konservantlardan və aromatizatorlardan (neftdən, benzindən və sairədən aromatik birləşmələr alma üsulu) istifadə qadağan olunmalıdır;
- hazır məhsulun qablaşdırılmasında paslanmayan materiallardan istifadə olunmalı, məhsulun təravəti isə itməməlidir və s.

Ekoloji təmiz kənd təsərrüfatının inkişafı tarixində diqqəti çəkən məqam əsasən İnkişaf Etmiş Ölkələrdə geniş şəkildə yayılması və bir çox tənzimlənmə mexanizmlərinin məhz bu ölkələrdə formalaşmasıdır. Həmçinin bu sahənin inkişaf etdiyi bütün ölkələrdə qanunvericiliyin və institusional bazanın təkmilləşdirilməsi məqsədilə hələ də müvafiq fəaliyyətlər aparılır. 2001-2002-ci illərdə ABŞ-da Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Milli Standartların qəbulu və tətbiqi ekoloji təmiz kənd təsərrüfatı istiqamətində daha mütəşəkkil bir fəaliyyəti hüquqi norma halına salmışdır. Bu standartlarda bir sıra süni və kimyəvi birləşmələrdən istifadəyə, genetik modifikasiya texnologiyalara, həmçinin digər kimyəvi preparatlara qadağalar qoyulmuşdur. Yaponiyada da "Yaponiya Kənd Təsərrüfatı Standartları" adlı qaydalar mövcuddur. Bu istiqamətdə, həmçinin Avropa İttifaqında də yetərincə qanunvericilik aktları qüvvədədir. Ən böyük hüquqi baza isə "Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Avropa İttifaqı Razılaşması" (№ 2092/91 24 iyun 1991-ci il) direktivi olmuşdur. Avropa İttifaqında 2009-cu ildən qüvvəyə minən 834/2007 saylı yeni direktiv hüquqi sənəd də son zamanlarda təkmilləşdirilməyə başlanmışdır. Burada ən əsas vəzifələr isə əsasən istehsal, markalanma və keyfiyyətə nəzarət qaydalarının qurulmasına, davamlı şəkildə müşahidə prosesinin icrasının təşkilinə, həmçinin istehlakçıların mütamadi olaraq məlumatlandırılmasına istiqamətlənir. Beləliklə, ekoloji təmiz kənd təsərrüfatının zəruriliyi önə çəkilərək bir çox ölkələrdə milli standartlara əsaslanan qanun və xüsusi qaydalar tərtib edilir və müxtəlif dövrlərdə sahənin inkişaf xarakterinə görə daha dəqiq ixrac edildiyi ölkələrin yerli qanunvericiliyinə görə təkmilləşdirilir.

İnkişaf Etmiş Ölkələrdə ekoloji təmiz kənd təsərrüfatına fermer və sahibkarların cəlb edilməsi və istehlakçıların bu sahə üzrə yüksək səviyyədə maariflәndirilməsi ekoloji təmiz məhsulların istehsalının kütləvi şəkildə gerçəkləşməsinə şərait yaratdı. Bu isə ümumi kriteriyalar və bir sıra hüquqi normaların tətbiqi əsasında ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı üçün müvafiq standartların ortaya qoyulmasına və məhsulların ekoloji təmiz adı ilə sertifikatlaşdırılmasına, nəticədə isə bu cür məhsulların istehlakçılar tərəfindən seçilməsinə şərait yaratdı. Bunun üçün isə dünya səviyyəsində həmin məhsullara "ECO", "BİO" və ya "ORGANİC" adlarını daşıyan müxtəlif təsvirli etiketlər vurulur və istehlakçılar tərəfindən asanlıqla ekoloji təmiz məhsul kimi tanınır.

***Ekoloji təmiz kənd təsərrüfatında müşahidə və sertifikasiya məsələləri:*** Bir çox İnkişaf Etmiş Ölkələrdə bu sahə üzrə bir sıra tənzimlənmə normativləri hüquqi qüvvə almışdır. Normativ-hüquqi aktlar isə dünya səviyyəsində qəbul edilmiş standartlara əsaslanır və günümüzdə standartlar mənbə etibarı ilə əsasən aşağıdakı şəkildə qruplaşmışdır:

- beynəlxalq (IFOAM, "Anonymous" məcəlləsi)
- regional (Avropa İttifaqının müvafiq direktivləri)
- milli (Amerika orqanik milli standartları, Yaponiya kənd təsərrüfatı standartları, Avstraliyada orqanik proqram, İsveçrə standartları və s.)
- xüsusi (hazırda 260-dan çoxdur: Demeter, Naturland, Bioland, Geae, Ekowin və s.)

Diqqət etsək görərik ki, bütün bu standartların əksəriyyəti inkişaf etmiş ölkələrdə cəmləşmişdir. Bu isə təsadüfi deyil, çünki ekoloji təmiz kənd təsərrüfatı üzrə əkin sahələrində və inkişafında: Avstraliya, Avropa, Şimali Amerika qitələri əsas yerləri tuturlar. Deməli, bu ölkələrdə tətbiq edilmiş standartların vasitəsilə nəzarət mexanizmi bir sıra ölkələr üçün bir təcrübə sayıla bilər. Lakin, burada ən əsas məqam ondan ibarətdir ki, götürülmüş hər hansı bir

təcrübə ölkənin yerli xüsusiyyətlərinə uyğunlaşdırılaraq tətbiq olunmalıdır. Bu isə ekoloji təmiz kənd təsərrüfatı üzrə fəaliyyət zamanı boşluqların aradan qalxmasına şərait yaradacaqdır. Xüsusi olaraq qəbul edilmiş standartlar beynəlxalq səviyyədə qəbul edilmiş normalara və ölkə qanunvericiliyinə əsaslanmaqla əsasən müşahidə və sertifikasiya qurumları tərəfindən qəbul edilmiş texniki şərtlərdir. Dünya təcrübəsində qəbul edilmiş müşahidə və sertifikatlaşdırma qurumları əsasən dövlətin müvafiq icra orqanı tərəfindən akreditə olunaraq fəaliyyət üçün müvafiq dövlət qurumundan icazə alır və hətta, xarici ölkə ərazilərində də fəaliyyət göstərə bilir. Məsələn, Türkiyə Respublikasında ilk əvvəllər ekoloji xarici müşahidə və sertifikatlaşdırma qurumları üstünlük təşkil etmişdir.

Müxtəlif standartlar əsasında müşahidə və sertifikatlaşdırma qurumu sertifikat verir və nəticədə bazara çıxarılan məhsula ekoloji təmiz olmasını sübut edən fərqləndirici nişanlar vurulur. Bu cür prosedur bazarda istehlakçıların inamını qazanmağa şərait yaradır.

Beləliklə, ekoloji təmiz məhsul müvafiq standartlar əsasında sertifikatlaşdırılır, müşahidə edilir və markalanaraq bazara çıxarılır. Prosesin təşkilati xüsusiyyətlərini aşağıdakı kimi göstərmək olar:




Şəkildə də göründüyü kimi, standartlar, sertifikatlaşdırma və markalama prosesi özü belə müəyyən nəzarət daxilində olur ki, bu da öz əsasını həmin ölkənin hüquqi-normativ aktlarından götürür. Yəni, müşahidə və sertifikatlaşdırma prosesində müvafiq standartlar mühüm rol oynasa da, qurumun fəaliyyəti belə ölkənin hüquqi əsaslarına söykənir və fəaliyyət müvafiq dövlət qurumu vasitəsi ilə nəzarətdə saxlanılır. Ona görə də ekoloji təmiz kənd təsərrüfatı üzrə qəbul edilmiş hüquqi-normativ aktlar ölkədə fəaliyyət göstərəcək müşahidə və sertifikatlaşdırma qurumlarının fəaliyyətinə zidd olmamalı və ixrac zamanı müəyyən problemlər yaratmamalıdır. Çünki, qanunvericilikdə yarana biləcək boşluqlar qurumların sertifikatlaşdırdığı məhsulların dünya bazarında ekoloji təmiz məhsul adı ilə satılmasına mane ola bilər. Əsas səbəb isə standartlarda yaranan uyğunsuzluqla əlaqədardır. Yəni idxalçı ölkə özünün standartlarına uyğun gəlmədiyinə görə məhsulun ekoloji təmiz adı ilə dövriyyəsinə qadağa qoya bilər. Ona görə də dünya və qardaş Türkiyə Respublikasının təcrübəsini ümumiləşdirsək ekoloji təmiz kənd təsərrüfatının formalaşdığı ölkələrdə mütəxəssislərdən ibarət işçi qrupunun iştirakı ilə aşağıdakı mərhələlərdən ibarət olan müvafiq tədbirlər həyata keçirilir:

- Birinci mərhələdə: dünya təcrübəsində ekoloji təmiz kənd təsərrüfatının hüquqi əsasları bütün detalları ilə öyrənilir;
- İkinci mərhlədə: müxtəlif ölkələrdə olan standartların optimal olanı seçilir;
- Üçüncü mərhələdə: optimal olan standartların yerli xüsusiyyətlərə uyğunlaşdırılması prosesi həyata keçirilir;
- Dördüncü mərhələdə: bu sahədə olan hüquqi-normativ aktlar tətbiqi nəzərdə tutulan standartlara uzlaşacaq şəkildə təkmilləşdirilir;
- Beşinci mərhələdə: əlverişli institusional mühit yaradılır və özəl sektor təşviq edilir;
- Altıncı mərhələdə: mütamadi olaraq həm istehlakçılar, həm də istehsalçılar arasında maarifləndirmə tədbirləri təşkil edilir.

Bir mühüm məqamı da xüsusi ilə vurğulamaq lazımdır ki, ekoloji təmiz kənd təsərrüfatının inkişafı ölkədə aparılan araşdırmaların nəticələrinin hüquqi və institusional bazasının təkmilləşdirilməsi istiqamətində tətbiqi ilə effektiv ola bilər. Avropa ölkələrinin təcrübəsində müxtəlif layihələr çərçivəsində ekoloji təmiz kənd təsərrüfatı sahəsində aparılan elmi-praktiki araşdırmaların 30%-i məhz təşkilati-hüquqi məsələlərin aydınlaşmasında mühüm rol oynamışdır.

Müasir dövrdə ekoloji təmiz kənd təsərrüfatının zəruriliyi və cəlbedici məqamları: ekoloji təmiz kənd təsərrüfatının geniş xarakter alması onun bəzi üstünlükləri ilə əlaqədardır. Belə ki, ekoloji təmiz məhsulların ən böyük üstünlüyü onun bazarda istehlakçıların sağlamlığı prinsiplərinə uyğun olması, istehsalının gerçəkləşdiyi regionun ekoloji tarazlığının mühafizəsi, inkişaf etmiş ölkələrin bazarlarında ekoloji təmiz məhsullara olan tələbin hər il artması təşkil edir. Bundan əlavə bəzi üstünlükləri mövcuddur ki, bu da müasir kənd təsərrüfatı formasını həm dövlət üçün, həm də fermer və sahibkarlar üçün cəlbedici edir:

- müəyyən zaman kəsiyində ekoloji təmiz məhsul istehsalçılarının gəlirləri artır və məhsulları dünyanın İnkişaf Etmiş Ölkələrinin bazarlarında yüksək alıcılıq qabiliyyətinə malik olur;
- müasir dövrdə qiyməti artan və artmağa meyilli olan kimyəvi gübrə və pestesidlər bu kənd təsərrüfatı formasında yer almır;
- ekoloji təmiz kənd təsərrüfatında zərərvericilərə qarşı mübarizə təbii yollarla aparılır, bu proses də bəzən təsərrüfat daxili resurslar hesabına olur və bu mübarizə forması isə torpağın məhsuldarlığının artırılmasında mühüm rol oynayır;
- bir çox hallarda ənənəvi kənd təsərrüfatı fəaliyyətində bir sıra kimyəvi maddələrlə təmasda olan fermerlərin sağlamlığı təmin olunmur;
- ekoloji təmiz kənd təsərrüfatında müqaviləli istehsalın olması və məhsulun fermerdən alınmasına zəmanətin olması;
- ekoloji təmiz məhsulların digər ənənəvi kənd təsərrüfatı məhsullarının qiymətlərinə nisbətən 10-20% baha olması;
- ekoloji təmiz məhsulun istehlakı insanların sağlamlığına da zəmin meydana gətirərək uzunmüddətli səhiyyə xərclərinin azalmasına təminat verir;
- xüsusi elmi-tədqiqatlar və mütəxəssis fəaliyyətini tələb edən ekoloji təmiz kənd təsərrüfatı regionlarda aqronom və baytarlar üçün yeni iş yerləri təmin edir;
- özəl sektor, dövlət və onun regional qurumları, bələdiyyələr, universitetlər, qeyri-hökumət təşkilatları arasında əməkdaşlığı dərinləşdirir;

- müxtəlif layihələrin həyata keçirilməsi və əlavə maliyyə resurslarının cəlb olunması;
- universitetlər və elmi-tədqiqat müəssisələri ilə fermerlər arasında müxtəlif layihələr çərçivəsində sıx əlaqələrin formalaşması və s.

Onu da qeyd etmək lazımdır ki, ekoloji təmiz kənd təsərrüfatında mövcud olan bəzi məhdudlaşdırıcı normalara baxmayaraq dünyada bu cür məhsullara artan tələb özəl sektoru daha da həvəsləndirmişdir. Belə ki, aşağıdakı şəkildə ekoloji təmiz məhsullara istehlakçılar tərəfindən çəkilən xərclərə və artan ticarət dövriyyəsinə baxdıqda açıq aydın müşahidə etmək mümkündür. Burada fərqlənən ölkələr isə ABŞ, Almaniya və İsveçrə təşkil edir. Ekoloji təmiz məhsulların ticarət dövriyyəsi isə on il ərzində 3 dəfədən çox artaraq 54,1 mlrd.dollar təşkil etmişdir. Göstəricilərin bu səviyyədə artımı isə son dövrlərdə aparılan kütləvi maarifləndirmə işləri, artan tələb (xüsusilə, inkişaf etmiş ölkələrdə) və dövlətin təşviq tədbirləri ilə əlaqələndirilir.




***Azərbaycan Repsublikasında ekoloji təmiz kənd təsərrüfatının inkişafı sahəsində həyata keçirilmiş tədbirlər.*** Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişafı istiqamətində dünya təcrübəsində də zəruri hesab olunan hüquqi-normativ aktlar qəbul edilmiş və tənzimlənmə mexanizmləri və müvafiq standartlar hazırlanmışdır. Son dövrlərdə isə özəl sektorda bəzi fəaliyyət növləri müşahidə olunmaqdadır. Lakin əsas problem konkret tədbirlər planını əhatə edən proqramın olmamasıdır. Bu isə bu sahədə özəl sektora dair siyasətin spesifik olaraq aparılmasına mane olur. Buna baxmayaraq Azərbaycanda inkişaf məsələlərini əhatə edən Dövlət Proqramları bu sahənin inkişafına da şərait yaratmaqdadır:

- Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram - Proqramda ekoloji təmiz kənd təsərrüfatı üçün əsas prioritetlərdən sayılan iki məqamı göstərmək olar: kənd təsərrüfatında kimyəvi maddələrin istifadəsinin milli və regional səviyyələrdə sxemlərinin yaradılması və nəzarətin gücləndirilməsi; torpaqların çirklənməsinə və zəifləməsinə səbəb ola bilən texnologiyalardan istifadə olunmasının qarşısının alınması;2
- 2008-2015-ci illərdə Azərbaycan Respublikasında Əhalinin Ərzaq Məhsulları ilə Etibarlı Təminatına Dair Dövlət Proqramı - Proqrama əsasən əhalinin ekoloji təmiz

[2] http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=1975&doctype=0

məhsullarla təchiz edilməsi məqsədilə keyfiyyətə və təhlükəsizliyə səmərəli nəzarət sistemi qurulmalı və ekoloji tarazlığın, biomüxtəlifliyin qorunması istiqamətində siyasət davam etdirilməlidir;[3]

- Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı - Dünya təcrübəsində ekoloji təmiz kənd təsərrüfatının regionlarda fermerlərin gəlirlərinin yüksəldilməsinə müsbət təsiri olduğunu nəzərə alaraq, bu sahənin proqramdan kənarda qalmadığını qeyd edə bilərik.[4]

Azərbaycan Respublikasında qəbul edilmiş hüquqi-normativ aktlar iqtisadiyyatın müxtəlif sahələri üzrə sahibkarlıq fəaliyyətinə, istehlakçıların hüquqlarının müdafiəsinə, ərzaq məhsullarının müvafiq standartlarının əməl olunmasına, həmçinin ekoloji tarazlığın mühafizə olunmasına zəmin yaradır. Bu baxımdan başda Azərbaycan Respublikasının Konstitusiyası olmaqla aşağıdakı qanunlar ekoloji təmiz kənd təsərrüfatının qanunvericilik bazasını təşkil edə bilər:

- Azərbaycan Respublikasının Ekoloji Təmiz Kənd Təsərrüfatı Haqqında Qanunu;
- Azərbaycan Respublikasının Standartlaşdırma Haqqında Qanunu;
- Azərbaycan Respublikasının İstehlakçı Hüquqlarının Müdafiəsi Haqqında Qanunu;
- Azərbaycan Respublikasının Yeyinti Məhsulları Haqqında Qanunu;
- digər hüquqi-normativ aktlar.

Son dövrlərdə hüquqi sahədə ekoloji təmiz kənd təsərrüfatının əsasları müəyyən edilmişdir. Ekoloji təmiz kənd təssərrüfatının hüquqi tənzimlənməsi istiqamətində Azərbaycan Respublikasının "Ekoloji Təmiz Kənd Təsərrüfatı Haqqında" Qanunu 13 iyun 2008-ci il tarixində qəbul edilmiş və özündə geniş normativ komponentləri əks etdirmişdir. Qanun Azərbaycan Respublikasında əhalinin, torpağın, suyun, bitkilərin və heyvanların sağlamlığını və təhlükəsizliyini təmin edən ekoloji təmiz kənd təsərrüfatı və ekoloji təmiz ərzaq məhsullarının istehsalı, emalı və dövriyyəsi ilə bağlı münasibətləri tənzimləyir.[5]

"Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə 25 avqust 2008-ci il tarixli 818 saylı Azərbaycan Respublikasının Prezidentinin Fərmanında müvafiq tapşırıqlar verilmişdir. Tapşırıqların əsas istiqamətləri aşağıdakı məsələlərin müəyyən edilməsindən ibarət olmuşdur:[6]

- qüvvədə olan qanunvericilik aktlarının Ekoloji təmiz kənd təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərin hazırlanması;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasının təmin edilməsi;
- Ekoloji təmiz kənd təsərrüfatı haqqında Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsinin hazırlanması;

[3] http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=15320&doctype=0
[4] http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=16721&doctype=0
[5] http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=15321&doctype=0
[6] http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=15322&doctype=0

- eyni vaxtda ekoloji təmiz və ənənəvi kənd təsərrüfatı üsulları ilə məhsul istehsalı qaydaları;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsal qaydalarını, habelə ekoloji təmiz kənd təsərrüfatında istifadəsinə icazə verilən təbii və qeyri-təbii vasitələrin siyahısı;
- ekoloji təmiz kənd təsərrüfatı subyektlərinə verilən sənədin (sertifikatın) forması və verilməsi qaydası;
- ekoloji təmiz kənd təsərrüfatında ekoloji müşahidə və sertifikatlaşdırma qaydaları və akkreditasiya orqanlarının funksiyaları;
- beynəlxalq standartların tələbləri nəzərə alınmaqla ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının sertifikatlaşdırılması qaydaları və sertifikatların nümunəvi formaları;
- milli və beynəlxalq standartların tələbləri nəzərə alınmaqla ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının dövriyyəsi qaydalarının müəyyən edilməsi;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının markalanması qaydası.

"Ekoloji təmiz kənd təsərrüfatı haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli 818 saylı Fərmanının yuxarıda qeyd olunmuş tapşırıqlarının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2009-cu il 8 yanvar tarixli 5 saylı qərarı ilə aşağıdakı istiqamətdə qaydalar müəyyən edilmişdir:[7]

- eyni vaxtda ekoloji təmiz və ənənəvi kənd təsərrüfatı üsulları ilə məhsul istehsalı;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, habelə ekoloji təmiz kənd təsərrüfatında istifadəsinə icazə verilən təbii və qeyri-təbii vasitələrin siyahısı;
- ekoloji təmiz kənd təsərrüfatı subyektlərinə verilən sənədin (sertifikatın) forması və verilməsi;
- ekoloji təmiz kənd təsərrüfatında ekoloji müşahidə və sertifikatlaşdırma Qaydaları və akkreditasiya olunmuş orqanların funksiyaları;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının sertifikatlaşdırılması Qaydaları və sertifikatın nümunəvi forması;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının dövriyyəsi;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının markalanması;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının saxlanması və daşınması.

Ekoloji təmiz kənd təsərrüfatı haqqında Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 24 may 2010-cu ildə 267 saylı Fərman imzalanmışdır. Fərmanda adı çəkilən qanunun tətbiqi ilə bağlı əlavə tədbirlər yer almaqla yanaşı ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi qaydalarının müəyyən edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Tədbirlər əsasən təşkilati məsələlərin aydınlaşmasına, müvafiq dövlət qurumları arasında səlahiyyətlərin bölüşdürülməsinə şərait yaratmışdır.

Fərmanda nəzərdə tutulmuş ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi qaydalarının müəyyən edilməsi tapşırığının icrası məqsədi ilə Azərbaycan

[7] http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=16052&doctype=0

Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 avqust tarixli 159 saylı qərarı ilə "Ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi Qaydaları" təsdiq edilmişdir. Bu da müasir dövrdə ekoloji təmiz kənd təsərrüfatının ən vacib məqamlarından biri olan elmi təminat məsələlərinin ölkədə müəyyənləşməsi üçün mühüm rol oynayır. Belə ki, Qaydalarda elmi tədqiqatların aparılması və tətbiqi, kadr və ixtisas artırma, həmçinin maarifləndirmə işlərinin təşkili məsələləri öz əksini tapmışdır. Bu istiqamətdə olan tapşırıqların müvafiq dövlət qurumları arasında bölüşdürülməsi isə ekoloji təmiz kənd təsərrüfatının təşkilini daha da sistemləşdirir.[8]

Beləliklə, ölkədə ekoloji təmiz kənd təsərrüfatı sahəsinin yeni inkişaf etdiyinə baxmayaraq hüquqi tənzimlənmə mexanizmləri mövcuddur və iqtisadi mexanizmlərin təkmilləşdirilməsi istiqamətində isə müvafiq şərait yaranmışdır. Bu baxımdan Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişaf perspektivlərinin güclü, zəif, imkanlar və təhlükələr baxımından qiymətləndirmələrinin aparılmasına və siyasət qərarlarına dair tövsiyyələrin hazırlanmasına zərurət vardır.

Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının
inkişafı sahəsində SWOT təhlil

| ***Güclü*** | **Zəif** |
|---|---|
| • ETKT sahəsində normativ hüquqi aktların mövcud olması;<br>• Müvafiq sahə üzrə qəbul edilmiş normativ hüquqi aktlarla tənzimlənmə vəzifələrinin müvafiq qurumlar arasında dəqiq şəkildə bölüşdürülməsi;<br>• Sahənin inkişafı ilə bağlı istiqamətlərin və vəzifələrin qanunvericiliklə müəyyən olunması;<br>• Azərbaycanda kənd təsərrüfatı sahəsi üzrə tarixi bir mədəniyyətin mövcud olması;<br>• İqlim zənginliyi, həmçinin aqro-ekoloji xüsusiyyətlərə uyğunlaşmış məhsul çeşidlərinin regionlar üzrə istehsalı;<br>• Su mənbələrinin mövcudluğu;<br>• “Fair Wild” yəni, təbiətdən yığıcılıq baxımın-dan floradakı zənginlik;<br>• Ekoloji təmiz heyvandarlıq fəaliyyəti üçün zəngin otlaqların mövcudluğu;<br>• Kəndli fermerlərin və texniki işçilərin təcrübəsinin zənginliyi;<br>• ETKT-nin maarifləndirilməsi ilə məşğul olan və dünya səviyyəsində əməkdaşlıq əlaqələri quran təşkilatların olması; | • Aqrar sahənin inkişafını əhatə edən startegiyanın və tədbirlər planının olmaması;<br>• Aqrar sahənin ÜDM-də aşağı paya malik olması;<br>• Azərbaycan valyutasının yüksək olması;<br>• Dövlət qurumlarının qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq əlaqələrinin zəif qurulması;<br>• Akkreditasiya edəcək (TURKAK, DAP, UKAS və s. kimi) beynəlxalq səviyyədə tanınmış milli təşkilatın və ya qurumun olmaması;<br>• ETKT-nin xüsusiyyətlərinə uyğun dəstək tədbirlərinin olmaması;<br>• Bu sahədə sahibkarlıq fəaliyyətinin zəif olması;<br>• Kiçik pay torpaq sahiblərinin çoxluğu;<br>• Kənd təsərrüfatına yararlı torpaqların əksəriyyətinin taxılçılığa yönəlməsi;<br>• Torpaq şoranlaşmasının genişlənməsi (> % 60);<br>• Son dövrlərdə artan ekoloji risklər; |

[8]http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=20050&doctype=0

| | |
|---|---|
| • Aqrar sahə üzrə təcrübəli mütəxəssislərin və elmi təminatın olması;<br>• Aqrar Sənaye Kompleksinin mövcud olması və infrastruktur zənginliyi;<br>• Pambıqçılıq və toxuculuq təcrübəsi;<br>• İpəkçilik və yunçuluğa yönəlmiş toxuculuq sənayesinin inkişafı;<br>• Sahibkarlığa yönəlmiş effektiv dövlət dəstəyi tədbirlərinin olması;<br>• İnvestisiya dəstəklərinin olması;<br>• Aqrar sahədə lizinq xidmətləri üzrə dövlət dəstək mexanizmlərinin hüquqi və institusional bazasının mövcud olması;<br>• Kənd təsərrüfatı sahəsində sığortaya dövlət dəstəyi istiqamətində qanunvericiliyin olması;<br>• Enerji xərclərinin aşağı olması;<br>• İstehsalçı fermerlərin torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad olması;<br>• İşçi qüvvəsinin mövcudluğu;<br>• Gəncə Dövlət Aqrar Universitetinin ekoloji təmiz kənd təsərrüfatı sahəsində elmi-pedaqoji fəaliyyəti və təcrübəsi və s. | • Torpaq məhsuldarlığının yüksəldilməsi və zərərvericilərlə mübarizədə laboratoriya infrastrukturunun zəifliyi;<br>• Bazara yönəlmiş tədqiqatların olmaması (region səviyyəsində);<br>• ETKT sahəsində statistik məlumatların toplanılmasının mövcud olmaması;<br>• Texniki işçilərin ETKT sahəsində məlumat azlığı;<br>• İstehsalçı sahibkarların ETKT sahəsi ilə bağlı bilgisizliyi;<br>• İstehsalçı sahibkarların ETKT sahəsi ilə bağlı maarifləndirilməsi ilə məşğul ola biləcək təşkilatların azlığı;<br>• İstehsalçı sahibkarların ETKT sahəsi ilə bağlı maarifləndirilməsi istiqamətində yetərli tədris materiallarının olmaması;<br>• ETKT sahəsi üzrə layihələrin genişlənməməsi;<br>• ETKT sahəsində məsləhət xidmətləri həyata keçirəcək mütəxəssislərin və təşkilatların azlığı;<br>• Üzümçülük və almaçılıqda fermerlərin davamlı olaraq dərmanlardan istifadə etmək vərdişlərinin olması;<br>• Bazar standartlarının olmaması, bu sahədə bilgi yetərsizliyi və standart məhsulun olmaması;<br>• ETKT məhsullarının tədavül zəncirində təcrübə zəifliyi;<br>• ETKT sahəsi üzrə yerli markaların olmaması;<br>• Xırda fermer təsərrüfatı fəaliyyətinin geniş olması;<br>• "İstehsalçı-İstehlakçı" zəncirinin zəif olması;<br>• ETKT məhsullarına yönəlmiş spesifik bazar imkanlarının olmaması;<br>• Kafe, restoran kimi iaşə yerlərində ETKT məhsullarının azlığı; |

| | |
|---|---|
| | • İstehlakçıların ETKT məhsulları üzrə maariflənmə və bilgi səviyyəsinin azlığı və tələbin yetərsizliyi;<br>• Kütləvi İnformasiya Vasitələrində bu sahə ilə bağlı maariflənmə məsələlərinin olmaması və s. |
| ***İmkanlar*** | ***Təhlükə*** |
| • Azərbaycanın coğrafi baxımdan qərb və şərqdəki bazarlara giriş imkanları;<br>• Əlverişli investisiya mühiti və hüquqi baza;<br>• Xarici investorların maraq göstərməsi;<br>• Ölkə başçısının ETKT sahəsi ilə bağlı tələbinin ortaya qoyması və “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasında öz əksini tapması;<br>• ETKT sahəsində işçi qüvvəsinə tələbin yüksək olması və nəticədə məşğulluğun artması;<br>• Aqrar sahəyə təşviq tədbirlərin olması və dövlət tərəfindən dəstəklənməsi üçün maliyyə mənbəyinin mövcud olması (kənd təsərrüfatı istiqamətində maliyyə yardımlarının ilbəil artması);<br>• Yerli iri şirkətlərin mövcudluğu;<br>• Dünya səviyyəsində ETKT məhsullarına olan tələbin təklifdən çox olması;<br>• “GLOBALGAP”, “Halal” və s. kimi sertifikasiyalara malik istehsalın olması;<br>• Regional səviyyədə aqro-ekoloji xüsusiyyətlərə uyğunlaşmış çeşidlərin ekoloji təmiz kənd təsərrüfatına asanlıqla keçməsi (Göyçayda nar, Gədəbəydə kartof, Lənkəranda çay və sitrus və s.);<br>• Regionlarda istehsal olunan ETKT məhsullarının emal oluna bilməsi (meyvə suları, konserva və s.);<br>• Balıqçılıq təsərrüfatında ETKT üçün potensialın yüksək olması;<br>• Ölkənin ərzaq bazarında artımın olması; | • İnkişaf Etmiş Ölkələrdə istehlakçılarında ekoloji təmiz xüsusiyyəti ilə yanaşı keyfiyyətə dair tələblərin ilbəil artması;<br>• Bütövlükdə aqrar sahənin digər sektorlarla rəqabət gücünün zəifləməsi;<br>• Dəstəklənmənin yüksək olduğu taxıl istehsalının monokultur olaraq həyata keçirilməsi və ölkənin əkin sahələrinin 65%-ni əhatə etməsi;<br>• Aqrar sahədə texnologiya və innovasiya tətbiqinin zəif olması;<br>• Aqrar Sənaye Kompleksinin rəqabət gücünün zəifləməsi;<br>• Bir çox ölkələrdə ETKT-na daha yüksək dəstək mexanizmlərinin tətbiq olunması;<br>• Torpaqların və su mənbələrinin kirlənməsinin ETKT-ni məhdudlaşdırması;<br>• Kənd təsərrüfatı istehsalı prosesində və məhsulun bazara çıxarılması zamanı fermerlərdə bilgi və təcrübə zəifliyi, nəticədə məhsuldarlığın azalması və ya məhsul itkisinin çoxalması;<br>• Kooperativləşməyə meyilin zəif olması;<br>• Böyük şəhərlərə köç etmənin artması və kənd əhalisinin azalması;<br>• Xarici investorların ölkədə xammal istehsalına verdikləri üstünlük və əlavə dəyərin aşağı olması;<br>• ETKT-da idxal olunmuş preparatların üstünlük təşkil etməsi;<br>• Qonşu ölkələrdə ETKT üzrə fəaliyyətin artması;<br>• ETKT məhsullarına olan tələbin müəyyən olunmaması; |

| | |
|---|---|
| • Kənd təsərrüfatı məhsullarının daha çox ixrac edildiyi Rusiya Federasiyasında ETKT məhsullarına tələbin olması;<br>• Bir çox ölkələrlə imzalanan sazişlər nəticəsində gömrük prosedurlarında və vergilərdə mövcud olan rahatlıq;<br>• Daxili bazarda sertifikatlı ekoloji təmiz yerli və idxal məhsulların olması;<br>• Kosmetik vasitələrə olan tələbin yüksək olması və ekoloji təmiz kosmetik vasitələrin satış imkanları;<br>• Turizmin xüsusilə meşə və kənd təsərrüfatı regionlarında təşviq edilməsi;<br>• Aqro-ekoturizm üçün potensialın mövcud olması və s. | • İstehsalçılarda ETKT məhsulları, onların qiyməti və digər bazar məlumatlarının olmaması;<br>• Ölkənin ETKT məhsulları bazarının xarici idxal məhsulları ilə inkişafı;<br>• ETKT məhsulları bazarında nəzarətin zəif olması və istehlakçılarda inamın azalması;<br>• Ölkənin ərzaq bazarında ETKT məhsullarına tələbin hələ də zəif inkişafı;<br>• Aqrar elm sahəsində gənclərin azalması;<br>• ETKT məhsulları istehsalı sahəsində rəqabətin zəif olması;<br>• ETKT məhsulların sertifikatlaşdırılması prosesində xarici təşkilatlardan asılılıq;<br>• Fermerlərin zəruri olan aqrotexniki qulluğun zəruri mərhələlərinin yerinə yetirə bilməməsi və s. |

***Azərbaycan Respublikasında ekoloji təmiz kənd təsərrüfatının inkişafı üzrə siyasətə dair tövsiyələr.*** Ekoloji təmiz kənd təsərrüfatının üzərinə düşən tələblərə baxdıqda dövlətin ekoloji, regional, insan sağlamlığına və kənd təsərrüfatının inkişafına dair siyasətinə uyğunluğu və müasir dövrdə zəruriliyi müşahidə edilməkdədir. Belə ki, ekoloji təmiz qidalara ehtiyac daha çox İnkişaf Etmiş Ölkələrdə müşahidə edilməkdədir. Bu baxımdan Azərbaycan Respublikasında da bu yeni kənd təsərrüfatı formasının inkişafı aktual məsələ kimi üzə çıxır. Bu prosesdə dünya təcrübəsində ekoloji təmiz kənd təsərrüfatının inkişafına mane olan amillər nəzərə alınmaqla ölkə xüsusiyyətlərinə uyğun inkişaf strategiyasına ehtiyac yaranır.

Ekoloji təmiz kənd təsərrüfatında yaranan əsas problemlər - sertifikasiya və qiymət problemləridir ki, dünya təcrübəsi də sübut edir ki, məqsədyönlü dövlət siyasəti bu sahədə fermerlərin birləşməsinə və sertifikasiya xərclərinin azaldılmasına gətirib çıxardır. Ona görə də ekoloji təmiz kənd təsərrüfatının hüquqi və iqtisadi mexanizmləri təkmilləşdirilməlidir. Lakin ölkəmizin təcrübəsində digər bir problem ortaya çıxır. Bu da ekoloji təmiz kənd təsərrüfatı üzrə istər sahibkarlarda, istərsə də istehlakçılarda yetərli bilgilərin olmaması, fermerlərin bu istiqamətdə təcrübələrinin az olması. Bu baxımdan Tükiyə Respublikasının, Avropa ölkələrinin və digər ölkələrin təcrübəsində olduğu kimi mütəmadi olaraq maarifləndirici tədbirlərin keçirilməsi və fermerlər üçün mütəmadi olaraq treninqlərin təşkil edilməsi olduqca önəmlidir. Eyni zamanda ekoloji təmiz kənd təsərrüfatı sahəsində müxtəlif layihələr çərçivəsində elmin kooperasiyası da gerçəkləşir, bu isə regionlarda klaster yanaşmaya şərait yaradacaqdır.

İnkişaf Etmiş Ölkələrdə ekoloji təmiz kənd təsərrüfatının inkişaf etməsi isə təsadüfi deyildir. Belə ki, əhalinin yüksək səviyyədə yaşayışı, keyfiyyətli istehlak tələbi, dövlətin ekoloji tarazlıq siyasəti, ekoloji təmiz kənd təsərrüfatına dair siyasət ekoloji təmiz məhsulların bazarda çoxalmasına və sahibkarlıq subyektlərinin sayının artmasına şərait yaratdı.

Beləliklə, ekoloji təmiz məhsulların müasir dövrdə aktuallığını, İnkişaf Etmiş Ölkələrin bazarlarda yüksək tələbli və alıcılıq qabiliyyətli olduğunu, həmçinin digər müsbət xüsusiyyətləri nəzərə alınmaqla ölkəmizdə ekoloji təmiz kənd təsərrüfatının inkişafı zəruri hesab edilə bilər. Buna görə də ölkəmizdə bu sahənin inkişafı üçün təbii şəraitin və əlverişli investisiya mühitinin olduğunu, ən əsası isə hələ formalaşdığını nəzərə alsaq zəruri olan tədbirləri ümumi olaraq aşağıdakı kimi göstərə bilərik:

- dünya təcrübəsinin öyrənilməsi və ölkənin yerli xüsusiyyətləri nəzərə alınmaqla ekoloji təmiz kənd təsərrüfatı sahəsində qanunvericiliyinin təkmilləşdirilməsi;
- Müşahidə və  Sertifikasiya sisteminin formalaşdırılması;
- ekoloji təmiz kənd təsərrüfatı üzrə müvafiq qurumun təsis edilməsi;
- konkret dövlət siyasətinin formalaşdırılması, yəni inkişaf startegiyasının hazırlanması;
- ekoloji təmiz kənd təsərrüfatı üzrə regionların müəyyənləşdirilməsi və keçid prosesinin təşviq edilməsi;
- kadr hazırlığı və fermerlər üçün maarifləndirmə işinin təşkili;
- istehlakçılar üçün mütəmadi olaraq maarifləndirici bukletlərin hazırlanması və həmçinin kitabların nəşr edilməsi;
- tədris proqramlarına ekoloji təmiz kənd təsərrüfatı mövzusunun daxil edilməsi;
- müxtəlif layihələr çərçivəsində elmi-tədqiqat işlərinin aparılması və nəticələrinin tətbiq olunması istiqamətində fermerlərin elmi-tədqiqat institutları ilə əməkdaşlığının genişləndirilməsi;
- universitetlərin, bələdiyyələrin, fermer birliklərinin iştirakı ilə birgə layihələrin həyata keçirilməsi;
- Azərbaycan Respublikasının ekoloji təmiz kənd təsərrüfatı üzrə imkanlarının müəyyənləşdirilərək mütamadi olaraq müxtəlif tədbirlər çərçivəsində xarici investorlara nümayiş etdirilməsi və onların cəlb olunması.

Dünya təcrübəsində də müşahidə etdiyimiz kimi uzun bir tarixi dövr ərzində inkişaf edən ETKT sahəsi üçün qısa, orta və uzunmüddətli dövrləri əhatə edən məqsədyönlü fəaliyyət bir çox ölkələrdə zəruri şərtə çevrilmişdir. Yəni, yerli xüsusiyyətlər və imkanlar nəzərə alınmaqla bir çox ölkələrdə ETKT sahəsinə xas strategiya və Fəaliyyət Planı hazırlanmışdır. Qeyd olunanlara uyğun olaraq Azərbaycan Respublikasında ekoloji təmiz kənd təsərrüfatının inkişafı üzrə siyasətə dair qısa və ortamüddətli dövrlər üçün tövsiyələr hazırlanmışdır:

***Qısmüddətli dövr (3 illik bir dövr üçün):***

I. ekoloji təmiz kənd təsərrüfatı sahəsində qəbul edilmiş normativ hüquqi aktlarda təsbit olunmuş mərkəzi icra hakimiyyəti orqanları arasında koordinasiyanın və dərin əməkdaşlığın təşkili:
   1) görüşlərin və toplantıların keçirilərək vəzifələrin müzakirə edilməsi və bu istiqamətdə mövcud vəziyyətin təhlil edilərək boşluqların müəyyən edilməsi;
   2) məsul qurum, idarə, müəssisə və təşkilatların, həmçinin işçi qrupunun müəyyən edilməsi;
   3) illik iş planın müəyyən edilməsi.

II. ETKT-nin inkişafı sahəsində təşkilati strukturun təkmilləşdirilməsi:
   1) kadr potensialının gücləndirilməsi/Tədris/Maarifləndirmə

1.1. ETKT sahəsində qəbul edilmiş normativ hüquqi aktlarda təsbit olunmuş mərkəzi icra hakimiyyəti orqanları üzrə müəyyən olunmuş işçi qrupu üçün tədris və seminarların təşkili;
1.2. ETKT sahəsinin inkişaf etdiyi ölkələrə işçi qrupunun ezamiyyələri və təcrübə mübadiləsinin genişləndirilməsi;
1.3. regionlar üzrə fəaliyyət göstərən sözügedən mərkəzi icra hakimiyyətinin regional bölmələrinin (xüsusilə Kənd Təsərrüfatı Nazirliyinin) işçi qrupuna daxil edilmiş əməkdaşlarının təlimlərdə aktiv iştirakının təmin edilməsi;
1.4. istehlakçıların davamlı olaraq ekoloji təmiz məhsullar üzrə maarifləndirilməsi təşkil edilməlidir (kütləvi informasiya vasitələri ilə).

2) İnfrastrukturun inkişaf etdirilməsi
2.1. ETKT sahəsində qəbul edilmiş normativ hüquqi aktlarda təsbit olunmuş mərkəzi icra hakimiyyəti
2.2. orqanları nəzdində fəaliyyət göstərən laboratoriyaların pestisit təhlilləri geniş bir spektrumda apara biləcək şəkildə gücləndirilməsi;
2.3. Torpaq-yarpaq və su, xüsusilə mikroelement və ağır metal təhlillərinin tez və az xərclə aparıldığı laboratoriyaların yaradılması (Gəncə Dövlət Aqrar Universiteti nəzdində).

3) Strategiyanın və Tədbirlər Planının hazırlanması:
3.1. ekoloji təmiz kənd təsərrüfatının inkişafına dair strategiya təkcə ixraca yönəlməməli, həmçinin daxili bazarın yerli istehsalla inkişafının da hədəflərinin nəzərə alınması;
3.2. ETKT-nin inkişafına yönəlmiş dəstəklərin ətraflı şəkildə incələnməsi və kimə, harada, necə, hansı müddətə, hansı şərtlərlə və digər suallara cavab verə biləcək mexanizmlərin tətbiq edilməsi;
3.3. ETKT-nin inkişafına yönəlmiş Strategiyanın və Tədbirlər Planının hazırlanması prosesində yerli mütəxəssislərin, elmi müəssisələrin, dövlət və qeyri-dövlət nümayəndələrinin işçi qrupu şəklində hazırlanması.

4) Hüquqi və intitusional tədbirlər:
4.1. Ekoloji təmiz kənd təsərrüfatı sahəsində qəbul edilmiş normativ hüquqi aktlarda təsbit olunmuş mərkəzi icra hakimiyyəti orqanları arasında vəzifə bölgüsünün hüquqi baxımdan təsbit edilməsi;
4.2. Statistik məlumatların toplanması istiqamətində mövcud olan ETKT sahəsi üzrə idxal və ixrac göstəricilərini toplaya bilən sistemin öyrənilməsi və tətbiq edilməsi;
4.3. ETKT məhsullarının istehsalı və ticarətinin inkişafı prosesində yarana biləcək boşluqların çevik şəkildə aradan qaldırılması;
4.4. ETKT-nin inkişafı üzrə dəstək mexanizmləri üçün planlama fəaliyyətinin həyata keçirilməsi;
4.5. ETKT-nin inkişafı sahəsində mövcud olan problemlərin üzə çıxarılması istiqamətində araşdırmaları apara biləcək və tövsiyələri siyasət qərarlarına yönləndirə biləcək elmi müəssisənin müəyyən edilməsi.

5)Akkreditasiya üçün müstəqil və dünya səviyyəsində tanınan Azərbaycan Akkreditasiya Qurumunun yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsi.

III. Dünya səviyyəsində ETKT üzrə Azərbaycanın tanıdılması və yerli məhsulların xarici bazarının genişləndirilməsi:
   1) bazar tədqiqatlarının aparılması;
   2) “BİOFACH”, “İZMİR Organik Fuar və Konferans” və s. kimi beynəlxalq tədbirlərdə iştirakın təmin olunması (davamlı olaraq);
   3) müəyyən olunmuş region adı ilə ETKT məhsullarının bazara çıxarılması istiqamətində ilkin işlərin həyata keçirilməsi (məsələn: “Göyçay”, “Quba”, “Lənkəran”, “Gəncə”, “Gədəbəy” və s.);
   4) davamlı olaraq xarici və yerli mütəxəssislərin iştirakı ilə konfrans, seminar, dəyirmi masa və digər tədbirlərin keçirilməsi.

IV. Digər sektorlarla inteqrasiya:
   1) Azərbaycanda turizmin inkişafı istiqamətində aqro-turizmin və aqro-ekoturizmin daxil edilməsi;
   2) ipək toxuculuğunda əlavə dəyərin artırılması məqsədilə, ekoloji təmiz ipəyin istehsalının inkişaf imkanlarının araşdırılması (belə ki, ekoloji təmiz ipək istehsalında və ixracında Çinə rəqib ölkə yoxdur);
   3) pambıqçılıq sahəsində “eko” markalı uşaq geyimlərinin istehsal və ixrac imkanlarının araşdırılması.

***Ortamüddətli dövr (7-8 illik bir dövr üçün):***

- ETKT-nin inkişafına dair Strategiya və Tədbirlər Planının təkmilləşdirilərək yenidən hazırlanması;
- ETKT sahəsində qəbul edilmiş normativ hüquqi aktlarda təsbit olunmuş mərkəzi icra hakimiyyəti orqanları arasında vəzifələrin toplanaraq qurumlar arasında əməkdaşlığı və koordinasiyanı təmin edəcək qurumun yaradılması;
- Azərbaycan Akkreditasiya Qurumunun ETKT üzrə müşahidə və sertifikasiya sənədləşdirmə şirkətlərinin EN 45011 çərçivəsində akkreditasiyası istiqamətində işlərin həyata keçirilməsi;
- ETKT üzrə tədqiqatların xüsusilə region və sahəvi səviyyələrdə aparılaraq mövcud problemlərin həll edilməsi;
- ETKT-da tədris və nəşr sisteminin təkmilləşdirilməsi:
- ETKT sahəsi üzrə yeni-yeni layihələrin həyata keçirilməsi;
- ETKT-da istifadə olunan müxtəlif vasitələrin və təbii resursların (mis, dolomit, bitki mənşəli preparatlar və s.) istehsalının dəstəklənərək yerli mənbələrin formalaşdırılması;
- istehsalçı dəstəklərinin məhsul növləri səviyyəsinə gətirilməsi;
- sərgi, konfrans, seminar, dəyirmi masa və digər tədbirlərin keçirilməsi;
- aqro-ekoturizm sahəsində strategiyanın hazırlanması və dəstək mexanizmlərinin müəyyən olunması;
- ekoloji təmiz kosmetik vasitələrin istehsalı istiqamətində layihələrin dəstəklənməsi;
- ETKT məhsulları istehsalının yer alacağı regionlar üzrə (əsasən Gəncə-Qazax, Quba-Xaçmaz, Lənkəran və s.) klaster işlərinin həyata keçirilməsi;
- İFOAM, FAO və İSOFAR kimi beynəlxalq təşkilatların Azərbaycanla sıx əməkdaşlığı və müxtəlif layihələrin həyata keçirilməsi istiqamətində işlərin həyata keçirilməsi;
- uzunmüddətli dövrü əhatə edən Strategiyanın və Tədbirlər Planının hazırlanması.

## ƏDƏBİYYAT

1. Karaer, F., 2003. Gelişmekte Olan Ülkelerde Tarım-Çevre–Ekonomi Etkileşimi, Doğuş Üniversitesi Dergisi, No:2, İstanbul.
2. National Standard of Canada (NSC), 1999. Organic Agriculture, Ottowa, Canada.
3. Yavuzer, G.B., Polat, T., Yavuzer, Ü., 2006. Genel Olarak Organik Tarım ve Yöntemi, Sürdürülebilir Rekabet Avantajı Elde Etmede Organik Tarım Sektörü Sektörel Stratejiler ve uygulamalar, URAK, İstanbul.
4. Food and Agriculture Organization (FAO), 2005, Organic Agriculture websayt, www.fao.org.organıcag
5. http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=1975&doctype=0
6. http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=15320&doctype=0
7. http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=16721&doctype=0
8. http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=16052&doctype=0
9. http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=19591&doctype=0
10. http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=20050&doctype=0
11. http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=15321&doctype=0
12. http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=15322&doctype=0

**Türkiyə Respublikası İnkişaf Nazirliyinin (keçmiş Dövlət Planlama Təşkilatının) ekspertləri tərəfindən İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda "Planlaşdırma və Modeləşdirmə üzrə Türkiyə təcrübəsi" mövzusunda təqdimatdan (26 Yanvar 2012-ci il)**






**İnstitutun əməkdaşları və doktorantları**

**İİETİ ilə Türkiyə Respublikası Baş Bakanlığının Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) arasında birgə icra olunan "Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində Türkiyə təcrübəsinin öyrənilməsi və qurumlar arasında əməkdaşlığın gücləndirilməsi" layihəsi çərçivəsində "Ekoloji təmiz kənd təsərrüfatının, o cümlədən üzümçülüyün inkişaf prespektivləri" mövzusunda Dəyirmi Masa**
**(13 mart 2012-ci il)**






# İƏT-in İqtisadi Tədqiqatlar üzrə Daimi İşçi Qrupunun iclasları (7-8 noyabr 2012-ci il)





**İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu və "EcoMod" (Global Economic Modeling Network) şirkəti ilə birgə "Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin işlənilməsi" layihəs çərçivəsində "Ümumi Tarazlıq Modelinin qurulması" mövzusunda təlim-seminarlar (19-23 noyabr, 2012-ci il)**






**İİETİ və "EcoMod" (Global Economic Modeling Network) şirkəti ilə birgə "Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin işlənilməsi" layihəsi çərçivəsində"Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modeli (AZMOD): görülmüş işlər, nəticələr və perspektivlər" mövzusunda təqdimat**
**(26 dekabr 2012-ci il)**









## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Vəliyev V., Mikayılov F., Qasımov E.**
*Azərbaycan Respublikasında sənayenin inkişafının müasir vəziyyətinin təhlili*

**Mikayılov F.**
*Azərbaycan Respublikası üzrə çoxölçülü faktorlar əsasında yoxsulluq indeksi və onun alt qrup göstəricilərinin təhlili*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №13, Bakı 2013*

# AZƏRBAYCAN RESPUBLİKASINDA SƏNAYENİN İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

***i.e.d., prof. Vəliyev V.***

*2009-2019 -cu illərdə İİETİ-də direktor vəzifəsində işləyibdir*

***i.ü.f.d., dosent Mikayılov F.***

*2001- hazırda İETİ-də şöbə rəhbəri vəzifəsində işləyir*

***i.ü.f.d. Qasımov E.***

*2008-2017 -ci illərdə İİETİ-də baş elmi işçi, şöbə müdiri və direktor müavini vəzifəsində işləyibdir*

## GİRİŞ

Məlumdur ki, Azərbaycan dünyada gedən iqtisadi proseslərin, nəhəng enerji və nəqliyyat layihələrinin fəal iştirakçısına çevrilmişdir. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası daha da sürətlənmiş, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır. Bütövlükdə isə 2012-ci ildə tarixi müstəqilliyinin bərpasının 20-ci ildönümünü qeyd edən Azərbaycan Respublikası ötən dövr ərzində böyük inkişaf yolu keçmiş və sosial-iqtisadi həyatın bütün sahələrində yüksək nailiyyətlər əldə etmişdir.

Ötən illər ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilmiş, yeni iş yerləri açılmış, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

**1. Ölkə iqtisadiyyatında sənayenin payı.** Məlumdur ki, Azərbaycan dünyada gedən iqtisadi proseslərin, nəhəng enerji və nəqliyyat layihələrinin fəal iştirakçısına çevrilmişdir. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası daha da sürətlənmiş, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynamışdır. Bütövlükdə isə 2012-ci ildə tarixi müstəqilliyinin bərpasının 20-ci ildönümünü qeyd edən Azərbaycan Respublikası ötən dövr ərzində böyük inkişaf yolu keçmiş və sosial-iqtisadi həyatın bütün sahələrində yüksək nailiyyətlər əldə etmişdir.

Azərbaycan Respublikası iqtisadiyyatının əvvəlki illərdəki dinamik inkişafı 2012-ci ildə də davam etmişdir. Belə ki, ölkənin iqtisadi və sosial inkişafının əsas keyfiyyət göstəricisi olan ümumi daxili məhsul (ÜDM) istehsalı 2012-ci ildə 54 milyard manata çatmışdır ki, bu da əvvəlki ilə nisbətən 0,1% çoxdur. Əhalinin hər bir nəfərinə düşən ÜDM istehsalının həcmi 5884.5 manat (7490,4 ABŞ dolları) təşkil etmişdir. 2012-ci ildə ÜDM-in strukturunda isə sənayenin payı şəkildən də göründüyü kimi 50,0%-ə bərabər olmuşdur.




Şəkil 1. Sənayedə yaradılmış əlavə dəyərin həcmi (manatla) və ölkə iqtisadiyyatında payı, faizlə

Şəkildən göründüyü kimi, əvvəlki ilə nisbətən 2012-ci ildə sənaye bölməsi üzrə yaradılmış əlavə dəyərdə, eləcə də, sənayedə yaradılmış əlavə dəyərin ölkə iqtisadiyyatındakı payında azalma olmuşdur. Belə ki, sənayedə yaradılmış əlavə dəyər 1063 milyon manat, sənayedə yaradılmış əlavə dəyərin ölkə iqtisadiyyatındakı payı isə 3.8 faiz-bənd azalmışdır.




Şəkil 2. Əsas fondların, eləcə də əsas kapitala qoyulmuş investisiyaların həcmində baş vermiş dəyişikliklərin dinamikası

Qeyd etmək lazımdır ki, 2009-cu ildən etibarən sənaye müəssisələrinin istər əsas fondlarda, istərsə də əsas kapitala qoyulmuş investisiyaların həcmində dinamik artımı müşahidə olunmuşdur. Belə ki, 2012-ci ildə 2009-cu ilə nisbətən əsas fondların həcmi 34.4%, eləcə də əsas kapitala yönəldilmiş investisiyaların həcmində isə müvafiq dövrdə 87.3% artım baş vermişdir.

Sənaye müəssisələrinin əsas makroiqtisadi göstəricilərindən biri də bu müəssisələrdə çalışan işçi heyətinin sayında və onların əmək haqlarında baş verən dəyişikliklərdir. Bu dəyişikliklər aşağıdakı cədvəldə daha aydın göstərilmişdir.




Şəkil 3. Sənayedə işləyənlərin sayı və orta aylıq nominal əmək haqqı

Cədvəldən göründüyü kimi, 2009-cu il istisna olmaqla 2005-2012-ci illər ərzində işçilərin orta aylıq əmək haqlarında davamlı artım olmuşdur. Lakin muzdlu işçilərin sayında müxtəlif illərdə artımlar olsa da, 2005-ci illə müqayisədə 2012-ci ildə sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayında 12.2 min nəfər azalma baş vermişdir.

Dövlət Statistika Komitəsinin 2012-ci ilin sonuna məlumatlarına görə ölkəmizdə 2 514 sənaye müəssisəsi fəaliyyət göstərmişdir ki, bunun da 72.5%-i kiçik, 27.5%-i isə orta və iri sənaye müəssisələrinin payına düşmüşdür. Onu da qeyd edək ki, əvvəlki illə müqayisədə cəmi sənaye müəsissələrinin sayı 6 vahid artmış, kiçik sənaye müəssisələri isə müvafiq dövrə nisbətən 8 vahid azalmış, əvəzində iri sənaye müəssisələrinin sayında 14 vahid artım olmuşdur.

Cədvəl 1-dən göründüyü kimi, 2012-ci ildə 2 vahid yeni iri mədənçıxarma sənayesi fəaliyyətə başlamış, 2 vahid kiçik mədənçıxarma müəsissəsi isə öz fəaliyyətini dayandırmışdır. Emal sənayesində isə əksinə, iri emal sənayesi müəssisələrinin sayında 9 vahid azalma baş vermiş, 13 vahid kiçik emal sənayesi yaradılmışdır. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində isə əsasən iri sənaye müəssisələrinin sayında artım müşahidə olunmuşdur.

Belə ki, 2012-ci ildə 2011-ci ilə nisbətən 10 vahid belə iri sənaye müəsissələrinin sayı artmış, əvəzində isə bu kimi kiçik sənaye müəssisələrinin sayında 11 vahid müəssisə sıradan çıxmışdır. Su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrində də oxşar proseslər baş vermişdir.

Cədvəl 1.

Fəaliyyət göstərən sənaye müəssisələrinin iqtisadi fəaliyyət növləri və işçilərinin sayına görə qruplaşdırılması, vahid

| | 2011 | | | 2012 | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən: | | Cəmi | o cümlədən: | |
| | | kiçik | orta və iri | | kiçik | orta və iri |
| Cəmi | 2 508 | 1 829 | 679 | 2 514 | 1 821 | 693 |
| Mədənçıxarma sənayesi | 289 | 218 | 71 | 289 | 216 | 73 |
| Emal sənayesi | 1 791 | 1 420 | 371 | 1 795 | 1 433 | 362 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 216 | 70 | 146 | 215 | 59 | 156 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 212 | 141 | 91 | 215 | 113 | 102 |

Fəaliyyət göstərən sənaye müəssisələrinin mülkiyyət növlərinə görə sayında son illər dövlət mülkiyyətinin payı artmaqdadır. Belə ki, əgər 2008-ci ildə dövlət mülkiyyətində olan müəssisələrin ümumi müəssisələrin xüsusi çəkisində payı 20.9%-ə bərabər olmuşdursa, bu göstərici 2012-ci ildə 22.4%-ə çatmış və ya 1.9% artım olmuşdur.

Cədvəl 2.

Sənaye müəssisələrinin mülkiyyət növünə görə bölgüsü (ədəd)

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Bütün mülkiyyət növləri üzrə | **2 887** | **2 794** | **2 650** | **2 508** | **2 514** |
| Dövlət mülkiyyəti | 603 | 569 | 549 | 537 | 562 |
| Qeyri-dövlət mülkiyyəti | 2 284 | 2 225 | 2 101 | 1 971 | 1 952 |
| xüsusi mülkiyyət | 2 039 | 1 989 | 1 883 | 1 758 | 1 731 |
| birgə (qarışıq) mülkiyyət | 105 | 103 | 90 | 86 | 86 |
| xarici mülkiyyət | 140 | 133 | 128 | 127 | 135 |

Lakin say etibarı ilə istər xüsusi mülkiyyətə malik müəssisələrdə, istərsə də dövlətə məxsus sənaye müəssisələrində azalma olmuşdur. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.

Göründüyü kimi, 2012-ci ildə 2008-ci ilə nisbətən ümumi sənaye müəsissələrinin sayı 373 vahid və ya 10.02%, o cümlədən müvafiq olaraq dövlət müəssisələri 41 vahid və ya 1.2%, qeyri-dövlət müəssisələrinin sayı isə 308 vahid və ya 12.3% azalmışdır. Qeyri-dövlət müəssisələrindən isə xüsusi mülkiyyəti olan müəssisələrin sayı daha çox azalmışdır, müvafiq olaraq 308 və ya 13% azalma olmuşdur. Qeyd edək ki, bu yeni iş yerlərinin davamlı artımı fonunda baş vermişdir.




Şəkil 4. Sənaye müəssisələrinin mülkiyyət növünə görə bölgüsü (faizlə)

Mədənçıxarma sahəsinin əsas istehsal göstəricilərini 2012-ci il üzrə aşağıdakı kimi xarakterizə etmək olar. Göründüyü kimi, bütün fəaliyyət istiqamətinin cəmi göstəricisinə uyğun olaraq 2008-ci ilə nisbətən mədənçıxarma sənayesinin sayında da azalma müşahidə olunmuşdur. Belə ki, 2012-ci ildə 2008-ci ilə nisbətən bu fəaliyyət növü üzrə müəssisələrin sayı 51 vahid azalmışdır.

Cədvəl 3.

Mədənçıxarma sənayesinin istehsala görə bölgüsü

| | **2008** | **2009** | **2010** | **2011** | **2012** |
|---|---|---|---|---|---|
| **Bütün mülkiyyət növləri üzrə cəmi** | **2 887** | **2 794** | **2 650** | **2 508** | **2 514** |
| **Mədənçıxarma sənayesi** | **340** | **314** | **311** | **289** | **289** |
| Xam neft və təbii qaz hasilatı | 35 | 35 | 27 | 28 | 28 |
| Metal filizlərinin hasilatı | 2 | 3 | 3 | 3 | 3 |
| Daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi hasilatı | 255 | 229 | 227 | 204 | 200 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 48 | 47 | 54 | 54 | 58 |

Göründüyü kimi, fəaliyyət növləri üzrə mədənçıxarma sənayesində xüsusi çəkisi daha yüksək olan 69.2% olmaqla daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi hasilatı məhsullarının istehsalı ilə məşğul olan müəssisələr üstünlük təşkil edir. Digər növbəti bölgünü cədvəl 4 -dən daha aydın görmək olar.

Cədvəl 4.

Mədənçıxarma sahəsinin iqtisadi göstəriciləri

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı-cəmi | 340 | 314 | 311 | 289 | 289 |
| dövlət | 28 | 27 | 28 | 29 | 30 |
| qeyri-dövlət | 312 | 287 | 283 | 260 | 259 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 259 | 342 | 377 | 436 | 526 |
| İşləyənlərin orta siyahı sayı, min nəfər | 40.3 | 37.0 | 36.6 | 35.6 | 36.8 |
| əvvəlki ilə nisbətən, faizlə | 98.1 | 91.8 | 98.9 | 97.3 | 103.4 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı, faizlə | 19.2 | 19.3 | 20.1 | 20.1 | 20.3 |
| Bir işçinin orta aylıq əmək haqqı, manat | 1 008 | 992.8 | 1 001 | 1 177 | 1398 |

Onu da qeyd etmək lazımdır ki, 2012-ci ildə mədənçıxarma sənayesinin 89.6%-ni xüsusi mülkiyyət təşkil etmişdir. Mədənçıxarma sənayesi ilə məşğul olmaq üçün 526 sahibkar qeydiyyatdan keçmişdir.

Ümumilikdə, mədənçıxarma sənayesində 2012-ci ildə 36.8 min nəfər fəaliyyət göstərmişdir ki, bu da 2008-ci ilə nisbətən 3.5 min nəfər azdır. İşçilərin orta aylıq əmək haqqı isə davamlı olaraq artırılmış, 2012-ci ildə bu göstərici üzrə orta aylıq məbləğ 1398 manata bərabər olmuşdur.

Qeyd etmək lazımdır ki, mədənçıxarma sənayesində məhsulun həcmi 2012-ci ildə cari qiymətlərlə 25607 milyon manata çatmışdır ki, bu da ümumi sənaye məhsulları üzrə müvafiq həcmin 96.3%-nə bərabərdir.

Cədvəl 5.

Mədənçıxarma sahəsinin əsas istehsal məhsulları

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| **Mədənçıxarma sənayesi** | 11,8 | 11,2 | 11,7 | 11,5 | 11,5 |
| Xam neft və təbii qaz hasilatı | 10,3 | 11,1 | 8,7 | 9,7 | 9,7 |
| Metal filizlərinin hasilatı | 0,6 | 1,0 | 1,0 | 1,0 | 1,0 |
| Daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi hasilatı məhsullarının istehsalı | 75,0 | 72,9 | 73,0 | 70,6 | 69,2 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 14,1 | 15,0 | 17,4 | 18,7 | 20,1 |

Məlumdur ki, ölkəmizdə əsas aparıcı sənaye sahalərindən biri də emal sənayesidir. Bunu qrafikdən də görmək olar. Belə ki, 2012-ci ildə ümumi sənaye müəssisələrinin sayında emal sənayesinin xüsusi çəkisi 71.4% olmuşdur.




Şəkil 5. Emal sənayesi müəssisələrinin mülkiyyət növünə görə bölgüsü

Lakin, 2012-ci ildə 2008-ci illə müqayisədə istər xüsusi çəki etibarı ilə, istərsə də say etibarı ilə emal sənayesi müəssisələrinin sayında azalma müşahidə edilmişdir. Belə ki, 2012-ci ildə 2008-ci ilə nisbətən xüsusi çəkidə 3 faiz-bənd, sayda isə 354 vahid və ya 16.4% emal sənayesi müəsissəsi fəaliyyətini dayandırmışdır.




Şəkil 6. Xam neft və qaz hasilatı sənayesinin mülkiyyət növünə görə bölgüsü (ədəd)

Bu sənaye müəssisələrinin 1632 vahidi qeyri-dövlət bölməsinin, 163 vahidi isə dövlət bölməsinin payına düşmüşdür. Lakin, 2012-ci ildə 2008-ci illə müqayisədə istər dövlət sektorunda, istərsə də özəl sektorda fəaliyyət göstərən sənaye müəssisələrinin sayında azalma olmuşdur. Belə ki, dövlət sektorunda fəaliyyət göstərən emal sənayesi müəsissələrinin sayı 27,2%, qeyri-dövlət sektorunda fəaliyyət göstərən sənaye müəssisələrində isə 15,2%-i öz fəaliyyətini dayandırmışdır.




Şəkil 7. Emal sənayesində qeydə alınmış sahibkarların sayı (ədəd)

Eyni zamanda 2012-ci ildə 12579 nəfər fərdi sahibkarlıq fəaliyyəti göstərmək üçün qeydə alınmışdır. Bu göstərici isə 2008-ci illə müqayisədə 42% çoxdur.




Şəkil 8. Emal sənayesində məhsulun həcmi

Emal sənayesində 7032 milyon manat məhsul istehsal olunmuşdur ki, bu 2008-ci illə müqayisədə 23.3%, əvvəlki illə müqayisədə isə 5.4% çoxdur.




Şəkil 30. Emal sənayesində muzdlu işçilərin sayı (min nəfər)

Emal sənayesi müəssisələrində çalışan işçilərin sayına gəldikdə isə müəssisələrin sayında olduğu kimi işçilərin sayında da 2012-ci ildə 2008-ci ilə nisbətən azalma olmuşdur. Belə ki, 2008-ci illə müqayisədə 2012-ci ildə bu sahədə fəaliyyət göstərən işçilərin sayı 17.5% azalmış, əvvəlki illə müqayisədə isə 1.7% artım olmuşdur.

Cədvəl 6.

Emal sənayesində iqtisadi göstəricilər

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Əsas kapitala investisiyalar, milyon manat | 395.2 | 354.2 | 510.2 | 847.9 | 861.2 |
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, faizlə | 9.3 | 11.0 | 11.9 | 15.8 | 14.2 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi, əvvəlki ilə nisbətən, faizlə | 111.7 | 95.4 | 105.1 | 109.7 | 101.3 |

Emal sənayesində əsas kapitala 2012-ci ildə 861.2 milyon manat investisiya qoyulmuşdur ki, bu da ümumi sənaye sahələrinə yönəldilmiş investisiyaların 14.2%-i qədərdir. 2008-ci illə müqayisədə isə həmin sahəyə yönəldilmiş investisiyaların həcmi təxminən 2.1 dəfə artmışdır. 2012-ci ildə emal sənayesində istehsalçı qiyməti indeksində 1.3% artım olmuşdur.

**Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı**

Məlumdur ki, sənayedə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı mühüm aparıcı sahələrdəndir. Bu sahənin mülkiyyət növünə görə bölgüsü aşağıdakı qrafikdən daha aydın görünür.




Şəkil 10. Müəssisələrin mülkiyyət növünə görə bölgüsü

Göründüyü kimi, bu sahədə dövlət bölməsi faiz etibarı ilə daha yüksək çəkiyə malikdir. Belə ki, 2012-ci ildə kimya sənayesində olan 215 müəssisədən 205 vahidi dövlət bölməsinin payına düşmüşdür. Ümumilikdə, fəaliyyət göstərən bu müəssisələrdən iqtisadi fəaliyyət növləri və işçilərinin sayına görə 59-u kiçik, 156-sı isə orta və iri sənaye müəssisəsi kimi qruplaşdırılmışdır.

Cədvəl 7.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı məhsulları

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Elektrik enerjisi, milyon kVt-saat | 21642 | 18869 | 18710 | 20294 | 22988 |
| o cümlədən: | | | | | |
| su elektrik stansiyalarının istehsalı | 2 232 | 2 308 | 3 446 | 2 676 | 1821 |
| istilik elektrik stansiyalarının istehsalı | 19410 | 16556 | 15263 | 17618 | 21167 |
| küləklə işləyən stansiyaların elektriki, milyon kVt-saat | - | 2.1 | 0.5 | - | - |
| İstilik enerjisi, min Qkal. | 4 399 | 3 196 | 2 968 | 3 057 | 2923 |

Cədvəldən də aydın göründüyü kimi, 2012-ci ildə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı məhsullarında 2008-ci ilə nisbətən artıb-azalmalar baş vermişdir. Məsələn, istilik enerjisi istehsalın 33.55% azalma olduğu halda, elektrik enerjisi istehsalı 6.2% artmışdır.




Şəkil 11. Fəaliyyət göstərən müəssisələrin sayı (ədəd)

Sənayenin bütün sahələrində olduğu kimi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sənayesində də muzdlu işçilərin sayında azalma baş vermişdir. Belə ki, bu sahədə fəaliyyət göstərən muzdlu işçilərin sayı 2012-ci ildə 2008-ci ilə nisbətən 4.4% azalmışdır. Bu göstərici ümumi sənayedə fəaliyyət göstərən muzdlu işçilərə nisbətən 1 faiz-bənd azdır. Eyni zamanda, onu da qeyd edək ki, 2012-ci ildə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində fəaliyyət göstərən muzdlu işçilərin sayı ümumi sənaye sahəsində işləyənlərin 16.35%-ni təşkil etmişdir.




Şəkil 12. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sənayesində çalışan muzdlu işçilərin sayı (min nəfər)

Qrafikdən də göründüyü kimi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində işləyənlərin sayında qadınların xüsusi çəkisində də müvafiq müqayisə olunan dövrdə azalma olmuşdur. Belə ki, 2012-ci ildə 2008-ci ilə nisbətən 1.5 faiz-bənd azalma qeydə alınmışdır. Ümumilikdə, isə 2012-ci ildə bu sahədə çalışan qadınların sayı 4055 nəfərə bərabər olmuşdur.




Şəkil 13. İşləyənlərin ümumi sayında qadınların xüsusi çəkisi, faizlə

Sənayedə işləyənlərin orta aylıq nominal əmək haqları ilə müqayisədə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində işləyənlərin əmək haqları daha aşağı olmuşdur. Göründüyü kimi, 2012-ci ilin sonuna olan məlumata görə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində işləyənlərin əmək haqları sənaye üzrə orta göstəricidən 24.84%, bu sahədə fəaliyyət göstərən dövlət sektorunda çalışanların əmək haqlarından 15.95%, eyni göstərici qeyri-dövlət sektorundan 32% az olmuşdur.

Cədvəl 7.

İşləyənlərin orta aylıq nominal əmək haqları (manat)

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| **Sənaye - cəmi** | 426 | 412.4 | 451.8 | 518.6 | 590.1 |
| dövlət sektoru | 369.4 | 355.5 | 379.1 | 457.2 | 527.5 |
| qeyri-dövlət sektoru | 506.3 | 519.5 | 553.6 | 602.4 | 667 |
| **Emal sənayesi** | 251.7 | 267.5 | 312.9 | 345.7 | 388.1 |
| dövlət sektoru | 293.4 | 311.8 | 337 | 440.2 | 496.3 |
| qeyri-dövlət sektoru | 224.2 | 242.3 | 297.7 | 293.3 | 336 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | 314.9 | 322.7 | 349.3 | 413.2 | 443.5 |
| dövlət sektoru | 316.9 | 325.0 | 347.3 | 413.1 | 443.4 |
| qeyri-dövlət sektoru | 254.6 | 256.0 | 379.8 | 421.0 | 453.4 |

Cədvəldən də aydın göründüyü kimi, 2012-ci ildə sənayeyə cəmi 6 milyard manatdan artıq investisiya qoyulduğu halda, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsinə cəmi 565.8 milyon manat investisiya yatırılmışdır. Bunun da 91.2 milyon manatı xarici, 474.6 milyon manatı daxili investisiyanın payına düşür.

Cədvəl 8.

Sənayedə əsas kapitala yönəldilən investisiyalar, milyon manat

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **4 249** | **3 225** | **4 276** | **5 370** | **6 040** |
| xarici investisiyalar | 2 011 | 1 403 | 1 917 | 2 125 | 2 668.0 |
| daxili investisiyalar | 2 238 | 1 822 | 2 359 | 3 245 | 3 372.0 |
| **Emal sənayesi** | **395.2** | **354.2** | **510.2** | **847.9** | **861.2** |
| xarici investisiyalar | 43.1 | 21.4 | 1.1 | 0.2 | 0.1 |
| daxili investisiyalar | 352.1 | 332.8 | 509.1 | 847.7 | 861.1 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **608.0** | **450.3** | **422.6** | **768.9** | **565.8** |
| xarici investisiyalar | 47.5 | 69.6 | 23.0 | 188.2 | 91.2 |
| daxili investisiyalar | 560.4 | 380.6 | 399.6 | 580.7 | 474.6 |

**2. Su təchizatı, tullantıların təmizlənməsi və emalı**

Məlumdur ki, sənayedə su təchizatı, tullantıların təmizlənməsi və emalı mühüm aparıcı sahələrdəndir. Bu sahənin mülkiyyət növünə görə bölgüsü aşağıdakı qrafikdən daha aydın görünür.




Şəkil 14. Müəssisələrin mülkiyyət növünə görə bölgüsü

Göründüyü kimi, bu sahədə dövlət bölməsi faiz etibarı ilə daha yüksək çəkiyə malikdir. Belə ki, 2012-ci ildə su təchizatı, tullantıların təmizlənməsi və emalı ilə məşğul olan 215 müəssisədən 164 vahidi dövlət bölməsinin payına düşmüşdür. Ümumilikdə, fəaliyyət göstərən bu müəssisələrdən iqtisadi fəaliyyət növləri və işçilərinin sayına görə 113-ü kiçik, 102-si isə orta və iri sənaye müəssisəsi kimi qruplaşdırılmışdır.

Məlum olduğu kimi, 2012-ci ildə su təchizatı, tullantıların təmizlənməsi və emalı məhsullarında 2008-ci ilə nisbətən 24.81% artım baş vermişdir.




Şəkil 15. Fəaliyyət göstərən müəssisələrin sayı (ədəd)

Sənayenin bütün sahələrində olduğu kimi, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində də muzdlu işçilərin sayında azalma baş vermişdir. Belə ki, bu sahədə fəaliyyət göstərən muzdlu işçilərin sayı 2012-ci ildə 2008-ci ilə nisbətən 11.84% azalmışdır. Bu göstərici ümumi sənayedə fəaliyyət göstərən muzdlu işçilərə nisbətən 2.08 faiz-bənd azdır. Eyni zamanda onu da qeyd edək ki, 2012-ci ildə su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində fəaliyyət göstərən muzdlu işçilərin sayı ümumi sənaye sahəsində işləyənlərin 13.15%-ni təşkil etmişdir.




Şəkil 16. Su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində çalışan muzdlu işçilərin sayı (min nəfər)

Qrafikdən də göründüyü kim, su təchizatı, tullantıların təmizlənməsi və emalı səhəsində işləyənlərin sayında qadınların xüsusi çəkisində də müvafiq müqayisə olunan dövrdə azalma olmuşdur. Belə ki, 2012-ci ildə 2008-ci ilə nisbətən 8.3 faiz-bənd artım qeydə alınmışdır. Ümumilikdə, isə 2012-ci ildə bu sahədə çalışan qadınların sayı 8092 nəfərə bərabər olmuşdur.




Şəkil 17. İşləyənlərin ümumi sayında qadınların xüsusi çəkisi, faizlə

Sənayedə işləyənlərin orta aylıq nominal əmək haqları ilə müqayisədə su təchizatı, tullantıların təmizlənməsi və emalı səhəsində işləyənlərin əmək haqqı daha aşağı olmuşdur. Göründüyü kimi, 2012-ci ilin sonuna olan məlumata görə su təchizatı, tullantıların təmizlənməsi və emalında işləyənlərin əmək haqları sənaye üzrə orta göstəricidən 53.47%, bu sahədə fəaliyyət göstərən dövlət sektorunda çalışanların əmək haqqından 52.27%, eyni göstərici qeyri-dövlət sektorunda 33% az olmuşdur.

Cədvəl 9.

İşləyənlərin orta aylıq nominal əmək haqqı (manat)

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| **Sənaye - cəmi** | 426 | 412.4 | 451.8 | 518.6 | 590.1 |
| dövlət sektoru | 369.4 | 355.5 | 379.1 | 457.2 | 527.5 |
| qeyri-dövlət sektoru | 506.3 | 519.5 | 553.6 | 602.4 | 667 |
| **Emal sənayesi** | 251.7 | 267.5 | 312.9 | 345.7 | 388.1 |
| dövlət sektoru | 293.4 | 311.8 | 337 | 440.2 | 496.3 |
| qeyri-dövlət sektoru | 224.2 | 242.3 | 297.7 | 293.3 | 336 |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **182.6** | **189.9** | **197.7** | **231.8** | **274.6** |
| dövlət sektoru | 197.6 | 179.9 | 189.1 | 216 | 251.8 |
| qeyri-dövlət sektoru | 107.5 | 412.2 | 274.9 | 351.2 | 446.7 |

Cədvəldən də aydın göründüyü kimi, 2012-ci ildə sənayeyə cəmi 6 milyard manatdan artıq investisiya qoyulduğu halda, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsinə cəmi 755.7 milyon manat investisiya yatırılmışdır. Bunun da 83.9 milyon manatı xarici, 671.8 milyon manatı daxili investisiya olmuşdur.

Cədvəl 10 .

Sənayedə əsas kapitala yönəldilən investisiyalar, milyon manat

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **4 249** | **3 225** | **4 276** | **5 370** | **6 040** |
| xarici investisiyalar | 2 011 | 1 403 | 1 917 | 2 125 | 2668. |
| daxili investisiyalar | 2 238 | 1 822 | 2 359 | 3 245 | 3372. |
| **Emal sənayesi** | **395.2** | **354.2** | **510.2** | **847.9** | **861.2** |
| xarici investisiyalar | 43.1 | 21.4 | 1.1 | 0.2 | 0.1 |
| daxili investisiyalar | 352.1 | 332.8 | 509.1 | 847.7 | 861.1 |
| **Su təchizatı, tullantıların təmizlənməsi vəemalı** | **363.4** | **331.9** | **391.5** | **508.5** | **755.7** |
| xarici investisiyalar | 12.3 | 40.7 | 10.3 | 42.0 | 83.9 |
| daxili investisiyalar | 351.0 | 291.2 | 381.2 | 466.5 | 671.8 |

Aparılan təhlildən də göründüyü kimi, sənayenin dinamik inkişafı daim diqqət mərkəzindədir. Bu barədə Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir ki, bu il ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən sənaye sahəsinə daha da böyük diqqət verilməlidir. Texnoparklar, yeni sənaye müəssisələri, ixracyönümlü sənaye məhsullarının istehsalı, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaranması - bütün bu işlər ölkəmizin gələcək inkişafını təmin edəcək, neft-qaz amilindən asılılığı daha da azaldacaq və ölkə iqtisadiyyatının dayanıqlı şəkildə inkişafını müəyyən edəcəkdir. Yaxın gələcəkdə dövlətin investisiya siyasətində əsas istiqamətlərdən biri də sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması ilə bağlı olacaqdır. Sumqayıtda Kimya Sənaye Parkının, Yüksək Texnologiyalar Parkının və Balaxanı Sənaye Parkının yaradılması bu istiqamətdə

atılmış ilk addımlardır. Bu baxımdan yaxın və uzunmüddətli perspektivdə texnoparkların inkişafını stimullaşdırmaq üçün ölkənin vergi qanunvericiliyində sənaye və texnologiyalar parkında çalışan fiziki və hüquqi şəxslərə, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 illik güzəştlər nəzərdə tutulmuşdur.

Yuxarıda göstərilənlərlə yanaşı sənaye sektorunun inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb etmiş olardı:

- restrukturizasiya və özəlləşdirmə prosesinin sürətləndirilməsi;
- satış bazarı olan və yenidən qurulması iqtisadi cəhətdən məqsədəuyğun olan sənaye müəssisələrinin fəaliyyətinin bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;
- müasir texnologiyalara əsaslanan sənaye müəssisələrində beynəlxalq standartların tətbiqinə keçidin sürətləndirilməsi;
- azad rəqabət mühitinin inkişaf etdirilməsi;
- investisiyaların təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsinin sürətləndirilməsi;
- ənənəvi milli sənətkarlıq sahələrinin inkişafı;
- elmtutumlu istehsalın inkişaf etdirilməsi məqsədilə tətbiqi elmlərin, müasir şəraitdə bazar konyunkturunun tələblərinə uyğun elmi-tədqiqat institutlarının maddi-texniki bazasının gücləndirilməsi.

## ƏDƏBİYYAT

1. “Azərbaycanın statistik göstəriciləri -2013”. Azərbaycan Respublikası DSK-nın toplusu Səda-2013.
2. “Azərbaycanın sənayesi” Azərbaycan Respublikası DSK-nın toplusu, Səda-2013.
3. www.economy.gov.az
4. http://www.stat.gov.az/
5. http://azerbaijan.az/_Economy/_Industry/_industry_a.htm
6. http://www azmarketing.az/.
7. http://www.tusiab.az/

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №13, Bakı 2013*

# AZƏRBAYCAN RESPUBLİKASI ÜZRƏ ÇOXÖLÇÜLÜ FAKTORLAR ƏSASINDA YOXSULLUQ İNDEKSİ VƏ ONUN ALT QRUP GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ

***i.ü.f.d., dosent Mikayılov F.***

*2001-hazırda İETİ-də*
*şöbə rəhbəri vəzifəsində işləyir*

Məqalədə çoxölçülü faktorlar əsasında yoxsulluq indeksinin qiymətləndirilməsi metodologiyası verilmiş eyni zamanda bu metodologiya əsasında Azərbaycan Respublikası üzrə keçirilmimiş müvafiq sorğunun nəticələrinin təhlili öz əksini tapmışdır.

**1. Çoxölçülü meyarlar əsasında yoxsulluq indeksinin hesablanması metodikası.** Yoxsulluğun "məhrumiyyət (deprivasion)" konsepsiyası əsasında Sabina Alkire və Maria Emma Santos tərəfindən işlənilmiş Çoxölçülü Yoxsulluq İndeksinin (ÇYİ) ölçülməsi metodikası BMT-nin İnkişaf Proqramının 2010-cu il üçün "İnsan inkişafı haqqında hesabat"ının hazırlanmasında tətbiq edilmiş və bütün ölkələrdə tətbiq olunması tövsiyə olunmuşdur[9].

ÇYİ özlüyündə "Əhalinin yoxsulluq indeksi"ni (ƏYİ) əvəz edir. ƏYİ 1997-ci ildən hesablanılır və çap edilirdi. ƏYİ ölkələr üzrə səhiyyə, təhsil və həyat səviyyəsi sferalarında əhalinin nemət və xidmətləri əldə edə bilməmək (gəlirin səviyyəsinin aşağı olması və ya nemət və xidmətlərin olmamağı səbəblərindən) üzrə ümumi (cəmi) məhrumiyyətləri əks etdirir və orta göstəricilər əsasında hesablanılırdı. ƏYİ fərdlərin, ev təsərrüfatlarının və ya əhali qrupunun (məsələn, kəndin əhalisi) kollektiv olaraq məruz qaldıqları məhrumiyyətləri əks etdirmir. ÇYİ bu nöqsanları aradan qaldırır ki, bu da bu indeksin daha əhəmiyyətli, daha analitik olduğunu əks etdirir. Bu indeksin köməyi ilə əhalinin neçə nəfərinin kollektiv olaraq məhrumiyyətlərə və ya əhalinin ümumi sayında çoxölçülü yoxsulların xüsusi çəkisini (yoxsulluğun miqyası, masştabı), orta hesabla hər bir ev təsərrüfatının neçə məhrumiyyətə (yoxsulluğun dərinliyi) məruz qaldığını aşkar etməyə imkan verir.

ÇYİ ev təsərrüfatlarının və onun üzvlərinin neçə komponent üzrə yoxsul olduqlarını müəyyən edir ki, bu da dövlətin sosial-iqtisadi siyasətinin prioritetlərini müəyyən etməyə imkan verir.

---

[9]Alkire, S., and M. Santos. 2010. "Acute Multidimensional Poverty: A New Index for Developing Countries." Human Development Research Paper 11. UNDP–HDRO, New York.

Alkire, S., and J. Foster. 2009. "Counting and Multidimensional Poverty Measurement." OPHI Working Paper 7.Oxford Poverty and Human Development Initiative, Oxford, UK.

ÇYİ-nin hesablanılmasında əhalinin gəlirləri göstəricisindən istifadə edilməmişdir. Bu ondan irəli gəlmişdir ki, gəlirlər haqqında informasiyaların mənbələri müxtəlifdir və eyni zamanda, həmin mənbələrdə yoxsulların sağlamlığı və qidalanması haqqında informasiyalar olmur. ÇYİ-nin hesablanması üçün inkişaf etməkdə olan ölkələrin əksəriyyətinin də əhatə edildiyi üç informasiya mənbəyindən istifadə edilmişdir:

- demoqrafiya və sağlamlığın müayinəsi (DHS);
- YUNİSEF-in çoxindikatorlu klaster müayinəsi (MICS);
- Dünya Bankının sağlamlığının müayinəsi (WHS).

ÇYİ "İnsan potensialının inkişafı indeksi"nə (İPİİ) müvafiq olaraq işlənilmişdir. Məlumdur ki, İPİİ üç aqreqat indeksin həndəsi orta kəmiyyəti kimi hesablanılır:

- əhalinin həyat səviyyəsi indeksi;
- əhalinin sağlamlıq səviyyəsi indeksi;
- əhalinin təhsil səviyyəsi indeksi.

ÇYİ ev təsərrüfatlarında təhsil, sağlamlıq, həyat səviyyəsi sferalarında məhrumiyyətləri əks etdirir. Bu indeksin ədədi qiymətinin hesablanması üçün məlumatlar ev təsərrüfatlarında aparılan sorğulardan götürülür. Bu məlumatlar eyni bir tədqiqatdan (eyni metodika) əldə edilməlidir, yəni xüsusi seçmə müayinəsi aparılmalıdır.

Ev təsərrüfatının hər bir üzvü həmin təsərrüfatda rastlaşdığı çətinliklərin sayından asılı olaraq, ya "yoxsul", ya da ki, "yoxsul deyil" qrupuna daxil edilir. Sorğu müşahidəsinə cəlb edilən hər bir şəxs üçün "Sorğu Anketi" doldurulur. "Sorğu Anketi"ndə üç sfera (indikator) üzrə 10 sual (komponent) yazılır. Hər bir şəxsə hər bir komponent üzrə ya "0" (əgər komponent üzrə məhrumiyyət yoxdursa), ya da ki, "1" (əgər komponent üzrə məhrumiyyət varsa) yazılır. Deməli, hər bir şəxsə maksimum 10 bal yazıla bilər. Hər bir indikator (üç indikator var) üzrə maksimal balın çəkisi 10/3-ə bərabərdir, yəni indikatorların çəkiləri bərabərdir. Başqa sözlə desək, hər üç indikator ÇÖYİ- nin ədədi qiymətinə eyni dərəcədə təsir gücünə malikdir. Hər bir indikator üzrə komponentlərin sayından asılı olaraq onların (komponentlərin) çəkiləri müxtəlif olur. "Təhsil" və "Sağlamlıq" indikatorlarının hər biri iki komponentdən ibarətdir. Buna görə də bu indikatorlara daxil olan hər bir komponent üzrə balın çəkisi 5/3 (10/3*1/2≈1.67) təşkil edir. "Həyat səviyyəsi" indikatoru 6 komponentdən ibarət olduğundan hər bir komponent üzrə balın çəkisi 5/9 (10/3*1/6=0.56) təşkil edir.

"Təhsil" indikatoru təhsilə (heç olmasa beşillik) malik olmamaq və məktəb yaşında (səkkizinci sinfə kimi) uşaqların məktəbə getməməsi komponentlərini əhatə edir.

"Sağlamlıq" indikatoru ev təsərrüfatının ən azı bir nəfər üzvünün kifayət qədər qidalana bilməməsi və bir və ya daha çox uşağın ölməsi kimi komponentləri əhatə edir.

"Həyat səviyyəsi" indikatoru aşağıdakı komponentlər və şərtləri əhatə edir:

- elektrik təchizatının olmaması;
- təmiz içməli suya çıxışın olmaması;
- normal kanalizasiya sisteminin olmaması;
- xörəyin hazırlanması üçün "çirkli yanacaqdan" (peyin, odun və ya ağac kömürü) istifadə edilməsi;
- mənzil şəraiti (döşəmənin yoxluğu və ya normal döşəmənin olmaması);

- minik avtomobili, yük avtomobili və ya mühərrikli analoji nəqliyyat vasitələrinə malik olmamaq, həmçinin velosiped, motosiklet, radio qəbuledicisi, soyuducu, telefon və ya televizor kimi texniki vasitələrdən maksimum birinə sahib olmaq.

Əgər, misal üçün, ev təsərrüfatının (evin) elektrik enerjisi ilə təchizatı yoxdursa, onda ev təsərrüfatının hər bir üzvünə bu komponent üzrə "1" bal, varsa "0" bal yazılır. "Çoxölçülü" yoxsulu aşkar etmək üçün hər bir ev təsərrüfatında komponentlər üzrə yazılmış ballar çəkilərinə vurularaq cəmlənir. Bu cəm ev təsərrüfatının neçə komponentdən məhrum olduğunu göstərir və "$c_i$" ilə işarə edilir.

c=3 bal (3.33 bal - texniki qiyməti) qiyməti "yoxsul"larla "yoxsul olmayanlar"ı bir-birindən ayıran sərhəd xəttidir. Əgər $c \geq 3$ olarsa, onda həmin ev təsərrüfatı və onun hər bir üzvü "çoxölçülü" yoxsuldur. Əgər $2 < c < 3$ olarsa, onda həmin ev təsərrüfatının "çoxölçülü" yoxsulluğun kandarına yaxın olduğunun göstəricisidir.

ÇÖYİ aşağıdakı iki əmsal əsasında hesablanır:

- yoxsulluq əmsalı;
- intensivlik və ya əhatəlilik (miqyas) əmsalı.

Yoxsulluq əmsalı (H) əhalinin ümumi sayında "çoxölçülü" yoxsulların xüsusi çəkisini göstərir və aşağıdakı kimi hesablanır:

$$H = \frac{q}{n}$$

$q$ – "çoxölçülü" yoxsulların sayı, nəfər;

$n$ – əhalinin (tədqiq edilən ev təsərrüfatlarında yaşayanların) ümumi sayı, nəfər.

Yoxsulluğun intensivliyi (A) komponentlərin çəkilərinə proporsional olaraq orta hesabla hər yoxsula düşən "məhrumiyyətlər"in nisbi səviyyəsini göstərir və aşağıdakı kimi hesablanır:

$$A = \frac{\sum_{i=1}^{q} c_i \cdot q_i}{d \cdot \sum_{i=1}^{q} q_i}$$

$c_i$ – $i$ – ci ev təsərrüfatı üzrə komponentlərin çəkili cəmidir;

$q_i$ – $i$-ci ev təsərrüfatının üzvlərinin sayıdır;

$d = 10$ – seçilmiş komponentlərin sayıdır.

**ÇYİ-nin tərkib hissələri.** ÇYİ tərkibində 10 göstəricinin olduğu 3 faktordan ibarətdir. Beynəlxalq razılaşmalara əsaslanmaqla hər bir faktorun minimum məmnunluq səviyyəsi mövcuddur. Bu minimum məmnunluq səviyyəsi isə "məhrumolma limiti" adlanır.

**2. Mərhələli şəkildə metodologiya.**

**1-ci mərhələ. Məlumat mənbəyini müəyyən etmə.** ÇYİ-nin (qlobal, regional, milli və ya millidən aşağı qruplar üzrə) birinci tələbi odur ki, şəxsə və ya ailəyə aid bütün informasiyalar eyni mənbəyə istinad etməlidir. Bu şəxsin məhrum olduğu şeyləri bütünlükdə müəyyənləşdirmək üçündür. Ona görə müxtəlif mənbələrdən istifadə etməklə göstəricilərin əldə edilməsi düzgün deyil. Məsələn, sağlamlıq üçün olan məlumatın bir mənbədən, təhsil barəsində olan məlumatın isə digər mənbələrdən götürülməsinə icazə verilmir.

**2-ci mərhələ. “Analiz vahidi”nin seçilməsi.** Artıq deyildiyi kimi, ÇYİ şəxsi, ailə göstəricilərinə əsaslanmaqla məhrum olunmuş hesab edir. Ona görə də “analiz vahidi” ailədir, çünki beynəlxalq oxşar sorğular üçün ÇYİ-nin hər 10 göstəricisi üzrə fərdi səviyyədə olan informasiyalardan istifadə edilmir (xüsusilə də, sağlamlıqla bağlı göstəricilər fərdi səviyyədə olan informasiyalar içində ən mübahisəlisidir). Əslində isə milli səviyyədə ölçü yaradılarkən yerli sorğular araşdırılan bütün faktorlar üzrə fərdi səviyyədə informasiyalardan da istifadə edə bilər və bu halda “analiz vahidi” şəxs olacaq.

**3-cü mərhələ. Faktorların və göstəricilərin seçilməsi**. ÇYİ 3 faktora məxsus olan 10 göstəricidən istifadə edir ki, bu da İİİ-ni (İnsan İnkişafı İndeksini) əks etdirir. Milli çoxfaktorlu yoxsulluq ölçüsü yaradılarkən faktorların və göstəricilərin seçilməsi çox vacib bir mərhələdir və bu mərhələdə ÇYİ-nin tərkibinə daxil olan elə bir dəqiq siyahı yoxdur və ÇYİ özü də belə bir siyahını yaratmaq planını daşımır. Siyahı açıqdır və ən vacib olan şey onun seçilməsi prosesidir. Bu cür razılaşma müxtəlif mənbələrdən qanuni əsaslar, beynəlxalq razılaşmalar, məsələn ÇYİ və ya insan hüquqları və insani dəyərlərlə bağlı empirik sübutlardan meydana çıxa bilər. Bundan əlavə dəyişənlər arasındakı statistik əlaqələr də tədqiq olunmalı və başa düşülməlidir.

**4-cü mərhələ. Göstəricilərin “məhrumolma limitləri”nin seçilməsi**. ÇYİ və onun növünə aid olan hər hansı çoxfaktorlu yoxsulluq ölçüsü hər bir göstərici üçün “yoxsulluq limiti”ni tələb edir. Adətən yoxsulluq limiti qeyd edilir, yəni əgər i şəxsinin $x_i$ göstəricisi üzrə nəticəsi limitdən aşağıdırsa, $x_i < z_i$ olacaq. Aydındır ki, hər bir limiti müəyyən etmək üçün MİP-in də tələblərinə uyğun tutarlı səbəblərə ehtiyac duyulur. Milli ölçünü yaradarkən ölkədəki cari siyasət prioritetlərinə və mədəni baxımdan məhrum olunmuş hesab edilməyən şeylərə görə müxtəlif limitləmələrdən istifadə oluna bilər. Bundan əlavə, empirik sübutlar və əvvəlki təcrübələr də bu zaman nəzərə alınmalıdır.

**5-ci mərhələ. Göstəricilərin çəkilərinin seçilməsi**. Göstəricilər və onlara uyğun limitləmələr seçildikdən sonra növbəti mərhələ, ölçüdə istifadə olunacaq hər bir göstəricinin çəkisinin müəyyən edilməsidir. ÇYİ-də 3 faktor bərabər çəkidə qiymətləndirilir, yəni onların hər birinin çəkisi 1/3-dir. Hər faktordakı göstəricilər də bərabər çəkilərlə qiymətləndirilir. Beləliklə, sağlamlıq və təhsil faktoru üzrə hər bir göstəricinin çəkisi 1/6-dir və yaşayış standartları faktorunun tərkibindəki hər bir göstəricinin çəkisi 1/16-ya bərabərdir (1/3:6). Əgər hər bir faktor üzrə göstəricilərin sayı dəyişirsə, çəkilər də bu prinsip üzrə dəyişdirilməlidir. Alternativ olaraq, məsələn, sağlamlıq faktoruna daha çox çəkinin verilməsi kimi fərqli qiymətləndirmə üçün tutarlı səbəblər varsa, çəkilər bu alternativ quruluşa uyğun dəyişdirilə bilər. Lakin nəzərə alınmalıdır ki, qarışıq qiymətləndirmə sistemi izah zamanı müxtəlif çətinliklər yaradır və bu səbəbdən də təqribən bir-birinə bərabər olan faktorların seçilməsi və bundan sonra uyğun yoxlamanın aparılması daha faydalıdır. Burada i göstəricisi $w_i$ –la işarə olunur və $\sum_{i=1}^{d} w_i = 1$-dir.

**6-cı mərhələ. Yoxsulluq limitinin seçilməsi (yoxsulların müəyyən edilməsi)**

Hər bir şəxsə həmin şəxsin tərkib göstəricilərindəki məhrumolmalarına uyğun olaraq məhrumolma hesabı təyin edilir. Hər bir şəxsin məhrumolma hesabı məhrumolmaların sayını cəmləməklə hesablanır və hər bir şəxs üçün məhrumolma hesabı 0-la 1 arasında yerləşir. Hesab şəxsin məhrumolmalarının sayı artdıqca artır və şəxs bütün göstəricilərdə məhrumolmaya məruz qalıbsa hesabın maksimum qiyməti 1-ə bərabər olur. Heç bir göstəricidə məhrumolmaya məruz qalmayan şəxsin hesabı isə 0-a bərabər olur. Formal olaraq:

ci = w1l1 + w2l2 + … + wdld (1)

və əgər şəxs i göstəricisi üzrə məhrumolmaya məruz qalıbsa, li = 1 əks təqdirdə isə li = 0-dır. wi isə i göstəricisinə uyğun çəkidir və ∑di=1wi = 1-dir.

İkinci limitləmə və ya "sərhəd" çoxfaktorlu yoxsul insanları müəyyən etmək üçün istifadə olunur və Alkire-Foster metodologiyasına uyğun olaraq "yoxsulluq limitləməsi" adlanır. Məhrumolma hesabı yoxsulluq limitləməsinə bərabər və ya ondan çox olanlar yoxsul adlanır. Formal olaraq, əgər ci ≥ k –dırsa şəxs yoxsul hesab edilir. ÇYİ-də şəxsin məhrumolma hesabı 1/3-ə bərabər və ya ondan yuxarıdırsa şəxs yoxsul hesab edilir. Başqa sözlə şəxsin məhrumolmaları ÇYİ-yə görə yoxsul hesab olunmaq üçün göstəricilərin 1/3-dən az olmamalıdır. Məhrumolma hesabı yoxsulluq limitləməsindən az olanlar bu göstərici sıfır olmasa belə 0-la əvəzlənir və bu yoxsulluq ölçülməsində "senzuralaşdırma" adlanır. Həqiqi məhrumolma hesabını "senzuralaşmış"dan fərqləndirmək üçün ci(k) şəklində işarələnmədən istifadə edilir. Qeyd etmək lazımdır ki, ci ≥ k olarsa, onda ci(k) = ci olacaq, lakin ci< k isə, onda ci(k) = 0-dır. Burada ci(k) yoxsullar üçün məhrumolma hesabıdır.

Milli ölçü yaradılarkən başqa cür yoxsulluq limitləməsindən də istifadə edilə bilər. Bu zaman, yəni müxtəlif yoxsulluq limitləməsi istifadə olunduğu vaxt ölkə daxilindəki regionların siyahıdakı yerlərinin və ya digər qrupların mövqelərinin necə dəyişdiyi barəsində "həssaslıq analizi"nə ehtiyac duyulur. Qlobal ÇYİ üçün (2010 hesablamalarına 104 ölkə daxil idi) bu "həssaslıq analizi" aparıldığı zaman hər ölkə bir-biri ilə müqayisə edildi və birinin digərindən daha yoxsul olması hallarının 94.5 %-ində yoxsulluq limitləməsinin 1/5 və 2/5 arasında dəyişdirilməsi əlaqəni dəyişmədi.

Hesablama metodikasının nümunə əsasında şərhi. ÇYİ-nin hesablanması üçün "Sorğu Anketi"nin (Cədvəl 1) yoxsulluğun komponentləri üzrə doldurulması. Ev təsərrüfatları üzrə komponentlərin ədədi qiymətini - $c_{ij}$ onların çəkilərinə - $\omega_j$ (Cədvəl 1. – in sonuncu qrafası) vurub cəmləyirik. Bu cəm komponentlər üzrə çəkili cəm adlanır və $c_i$ - ilə işarə edirik. Məsələn, 2 – ci ev təsərrüfatı üzrə komponentlərin çəkili cəmi (yəni məhrumiyyətlərin çəkili cəmi) - $c_2$ aşağıdakı kimi hesablanır:

Cədvəl 1

Sorğu anketi

| İndikatorlar üzrə komponentlər | ev təsərrüfatları | | | | Çəki, $\omega_j$ |
|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | |
| Ev təsərrüfatlarının ölçüsü, nəfər - $q_i$ | 4 | 7 | 5 | 4 | |
| 1. **"Təhsil" indikatoru:** | | | | | |
| 1.1. Heç kəsin beşillik məktəb təhsili yoxdur | 0 | 1 | 0 | 1 | 5/3=1,67 |
| 1.2. Minimum bir nəfər məktəb yaşlı uşaq məktəbə getmir | 0 | 1 | 0 | 0 | 5/3=1,67 |
| 2. **"Sağlamlıq" indikatoru:** | | | | | |
| 2.1. Minimum bir nəfər pis qidalanır | 0 | 0 | 1 | 0 | 5/3=1,67 |
| 2.2. Bir və ya daha çox uşaq ölmüşdür | 1 | 1 | 0 | 1 | 5/3=1,67 |
| 3. "**Həyat şəraiti**" | | | | | |
| 3.1. Elektrik enerjisi yoxdur | 0 | 1 | 1 | 1 | 5/9=0,56 |
| 3.2. Təmiz içməli su yoxdur | 0 | 0 | 1 | 0 | 5/9=0,56 |
| 3.3. Normal kanalizasiya sistemi yoxdur | 0 | 1 | 1 | 0 | 5/9=0,56 |
| 3.4. Mənzilin döşəməsi yoxdur və ya normal deyildir | 0 | 0 | 0 | 0 | 5/9=0,56 |
| 3.5. Xörək hazırlamaq üçün "çirkli" yanacaqdan istifadə edilir | 1 | 1 | 1 | 1 | 5/9=0,56 |
| 3.6. Ev təsərrüfatı avtomobilə malik deyil və velosiped, motosiklet, radio qəbuledicisi, soyuducu, telefon, televizor kimi texniki vasitələrdən maksimum birinə malikdir | 0 | 1 | 0 | 1 | 5/9=0,56 |
| Komponentlər üzrə çəkilərin cəmi (komponentlərin ədədi qiymətinin onların çəkilərinə hasillərinin cəmi - $c_i$) | 2.22 | 7.22 | 3.89 | 5 | |
| Ev təsərrüfatı yoxsuldurmu ( $c_i > 3?$) | yox | hə | hə | hə | |

Ev təsərrüfatları üzrə komponentlərin ədədi qiymətini - $c_{ij}$ onların çəkilərinə - $\omega_j$ (Cədvəl 1. – in sonuncu qrafası) vurub cəmləyirik. Bu cəm komponentlər üzrə çəkili cəm adlanır və $c_i$ - ilə işarə edirik. Məsələn, 2 – ci ev təsərrüfatı üzrə komponentlərin çəkili cəmi (yəni məhrumiyyətlərin çəkili cəmi) - $c_2$ aşağıdakı kimi hesablanır:

$$c_2 = \sum_{j=1}^{J} c_{ij} \cdot \omega_j = 1\cdot\frac{5}{3} + 1\cdot\frac{5}{3} + 1\cdot\frac{5}{9} + 1\cdot\frac{5}{9} + 1\cdot\frac{5}{9} + 1\cdot\frac{5}{9} = \frac{66}{9} = 7.22 \qquad (2)$$

$c_{ij}$ - $i$ – ci ev təsərrüfatında $j$ – ci komponentin ədədi qiyməti (“0” və ya“1”);

$\omega_j$ - $j$ – ci komponentin normativ üzrə çəkisi.

Hər bir ev təsərrüfatı üzrə komponentlərin çəkili cəmini analoji olaraq hesablayırıq.

Hər bir ev təsərrüfatının “yoxsul” (hə) və ya “yoxsul deyil” (yox) olduğunu $c_i > 3$ müqayisəsi əsasında müəyyən edirik (Cədvəl 1. – in sonuncu sətri).

Yoxsulluq əmsalının (H) ədədi qiymətini hesablayırıq:

$$H = \frac{q}{n} = \frac{7+5+4}{4+7+5+4} = \frac{16}{20} = 0.8 \quad (3)$$

Yəni, tədqiq edilən ev təsərrüfatlarında yaşayanların 80% - i yoxsuldur.

Yoxsulluğun intensivliyinin (A) ədədi qiymətini hesablayırıq:

$$A = \frac{\sum_{i=1}^{q} c_i \cdot q_i}{d \cdot \sum_{i=1}^{q} q_i} = \frac{7.22 \cdot 7 + 3.89 \cdot 5 + 5.0 \cdot 4}{10(7+5+4)} = \frac{89.9}{160} = 0.56 \quad (4)$$

Yəni, hər yoxsul orta hesabla “çəkili indikatorlar”ın 56%-i üzrə məhrumiyyətlər hissedir.

Çoxölçülü yoxsulluq indeksinin (ÇÖYİ) ədədi qiymətini hesablayırıq:

$$ÇÖYİ = H \cdot A = 0.8 \cdot 0.56 = 0.448 \quad (5)$$

Yəni, tədqiq edilən 4 ev təsərrüfatında yaşayan insanlar orta hesabla “çəkili indikatorlar”ın 44.8% - i üzrə məhrumiyyətlər hiss edirlər.

**7-ci mərhələ. ÇYİ-nin hesablanması**

Başlanğıc hissədə də göstərildiyi kimi ÇYİ iki çox mühüm informasiyanı (1) müxtəlif məhrumolmalara məruz qalmış əhalinin nisbəti və ya həddi və (2) məhrumolmaların intensivliyi: insanların məruz qaldığı məhrumolmaların orta nisbəti. Formal olaraq, birinci komponent - çoxfaktorlu adambaşına nisbət (H) aşağıdakı kimidir:

$$H = q/n \quad (6)$$

Burada $q$ çoxfaktorlu yoxsul əhalinin sayı, $n$ isə ümumi əhalidir. İkinci komponent yoxsulluğun intensivliyi (A) adlanır. Bu çoxfaktorlu yoxsul əhalinin orta məhrumolma hesabıdır və aşağıdakı şəkildə göstərilir:

$$A = \sum_{i=1}^{n} c_i(k)/\,q \quad (7)$$

Burada $c_i(k)$ i şəxsinin “senzuralaşmış məhrumolma hesabı,” $q$ isə çoxfaktorlu yoxsul əhalinin sayıdır. ÇYİ isə $H$ və $A$-nın hasilidir, yəni: MPI = $H \times A$.

**1.Azərbaycan Respublikası üzrə çoxölçülü faktorlar əsasında yoxsulluq indeksi və onun alt qrup göstəricilərinin təhlili.** Aparılan sorğuların nəticələrindən aydın olur ki, Azərbaycan Respublikasında 2013-cü ildə çoxölçülü faktorlar əsasında yoxsulluq indeksi 0.080-ə bərabər olmuşdur. Qeyd edilən göstərici üzrə ölkəmizdə və onun iqtisadi rayonlarında olan mövcud vəziyyətə dair aparılmış sorğuların nəticələrini aşağıdakı qrafikdən daha aydın görmək olar.




Şəkil 1. Çoxölçülü yoxsulluq indeksi

Göründüyü kimi, bu göstərici üzrə ölkəmizdə daha çox yoxsul olan iqtisadi rayonlara Yuxarı Qarabağ, Şəki-Zaqatala və Gəncə-Qazax iqtisadi rayonlarını aid etmək olar. Bu rayonlarda yoxsulluq səviyyəsinin yüksək olmasının əsas səbəblərindən biri kimi Yuxarı Qarabağdan olan əhalinin məcburi köçkün vəziyyətində ölkənin müxtəlif rayonlarında məskunlaşması, Şəki-Zaqatala iqtisadi rayonunda 2 il öncə baş vermiş zəlzələnin nəticələrinin tam aradan qaldırılmaması və əsasən dağlıq rayonlarda yaşayan əhali arasında işsizliyin yüksək olması və olan iş yerlərinin isə çoxunun mövsümi xarakterli olması səbəbindən irəli gəldiyi müşahidə edilmişdir. Yeni iş yerlərinin az olması kimi amilləri Gəncə-Qazax iqtisadi rayonuna da aid etmək olar. Qeyd edək ki, bu iqtisadi rayon üzrə çox ölçülü faktorlar əsasında yoxsulluq indeksi ölkə üzrə ümumi göstəricidən müvafiq olaraq 5.3; 4.7 və 4.4 faiz-bənd çoxdur.




Şəkil 2. Azərbaycan Respublikasında çoxölçülü faktorlar əsasında yoxsulluq indeksinin əsas göstəricilərinin bölgüsü

Çoxölçülü yoxsulluq indeksini müəyyən edən əsas amillər üzrə müqayisələri nəzərdən keçirdikdə aydın olur ki, Azərbaycanda əsasən "sağlamlığa" aid olan məhrumiyyətlər üstünlük təşkil edir. Belə ki, "sağlamlığa" aid olan məhrumiyyətlərin indeksi 0.114 bərabər olmuşdur ki, bu da qeyd edilən bu üç göstəricinin 54.0%-ni təşkil etmişdir. Digər iki göstəriciyə aid olan

məhrumiyyətlər isə müvafiq olaraq həyat şəraitinə görə məhrumiyyətlər 31.0%-ə və təhsilə görə məhrumiyyətlər isə ölkə əhalisinin 18.4%-nə bərabər olmuşdur.

Göründüyü kimi, ölkəmizdə çoxölçülü faktorlar əsasında əsas məhrumiyyət əhalinin sağlamlığı indikatoru üzrə formalaşmışdır. Əhalinin sağlamlığına görə yoxsulluq səviyyəsinin ölkədə və iqtisadi rayonlar üzrə paylaşmasını aşağıdakı qrafikdən daha aydın görmək olar.




Şəkil 3. "Sağlamlıq" indikatoru üzrə yoxsulluq indeksi, faizlə

Qrafikdən göründüyü kimi, bu göstərici Respublika üzrə orta göstəricidən yüksək yoxsulluq səviyyəsi olan iqtisadi rayonlar müvafiq olaraq 5.2 faiz-bənd çox olmaqla Gəncə-Qazax iqtisadi rayonu, 4 faiz-bənd çox olmaqla Yuxarı Qarabağ iqtisadi rayonu, 3.1 faiz-bənd çox olmaqla Şəki–Zaqatala iqtisadi rayonu, eyni zamanda 1.7 faiz-bənd və 1.2 faiz-bənd çox olmaqla Mərkəzi Aran və Quba-Xaçmaz iqtisadi rayonları aiddir.

Qeyd edək ki, bu göstərici üzrə iqtisadi rayonlarla müqayisədə ən yaxşı vəziyyət Lənkəran-Astara iqtisadi rayonundadır. Belə ki, burada sağlamlıq üzrə yoxsulluq indeksi 0.015-ə bərabərdir və ya burada olan əhalinin 1.5%-i sağlamlığa görə yoxsulluqdan əziyyət çəkirlər.




Şəkil 4. Azərbaycan Respublikası üzrə sağlamlıqdan məhrum olma indeksini müəyyənləşdirən göstəricilərin xüsusi çəkisi, faizlə

Qeyd edək ki, əhalinin sağlamlığa görə yoxsulluğunu müəyyən etmək üçün BMT İnkişaf Proqramının bu metodologiyasına əsasən aşağıda verilmiş qrafiklərdəki göstəricilərdən

istifadə olunmuşdur. Bu metodologiyaya əsasən sağlamlığa görə yoxsulluğu müəyyənləşdirən əsas göstəricilər ev təsərüfatları üzrə olan uşaq ölümü indeksi və əhalinin normal qidalanma səviyyəsini müəyyənləşdirən normal qidalanma indeksidir.

Qrafikdən də göründüyü kimi, ölkə üzrə sağlamlıqdan məhrumolma indeksini müəyyənləşdirən əmsalların xüsusi çəkilərinə görə bölgüsü əsasında qeyd edə bilərik ki, sağlamlıqdan məhrumolma indeksinin formalaşmasında minimum normadan az qidalananların payı 89,0% və uşaq ölümü əmsalının payı isə 11.0% olmuşdur.




Şəkil 5. Azərbaycan Respublikasıda sağlamlığa görə məhrumolmalar üzrə alt qrup indekslər

Eyni zamanda qeyd etmək istərdik ki, ölkə əhalisinin 2.4%-i uşaq ölümünə görə, 22.0%-i isə normal qidalanmamadan əziyyət çəkir.

Aparılan sorğunun nəticələri əsasında ölkə və ölkənin iqtisadi rayonları üzrə müvafiq göstəricilər aşağıdakı qrafikdə daha geniş göstərilmişdir.




Şəkil 6. Bir və ya daha çox uşaq ölmüşdür (uşaq ölümü əmsalı)

Qrafikdən göründüyü kimi, Respublika üzrə orta göstəricidən yüksək uşaq ölümü səviyyəsi olan iqtisadi rayonlar müvafiq olaraq 5.0 faiz-bənd çox olmaqla Quba-Xaçmaz iqtisadi rayonudur. Növbəti yüksək göstəriciyə malik olan iqtisadi rayonlar isə 3.0 faiz-bənd çox olmaqla Şəki-Zaqatala, eyni zamanda 1.4 faiz-bənd çox olmaqla Abşeron iqtisadi rayonudur.

Qeyd edək ki, bu göstərici üzrə iqtisadi rayonlarla müqayisədə ən yaxşı vəziyyət Naxçıvan və Lənkəran-Astara iqtisadi rayonundadır. Belə ki, burada uşaq ölümü əmsalı 0.0-a bərabər olmuşdur. Qrafikdəndə göründüyü kimi ölkə üzrə orta göstərici isə 0.024-ə bərabərdir.

Digər amil üzrə, yəni əhalinin normal qidalanmadan məhrum olma əmsalı üzrə göstəricilər isə aşağıdakı qrafikdə verilmişdir.




Şəkil 7. Minimum bir nəfər pis qidalanır (normadan az qidalanma əmsalı)

Şəkildən də göründüyü kimi, Respublika üzrə orta göstəricidən yüksək normal qidalanmadan məhrumolma səviyyəsi olan iqtisadi rayonlar müvafiq olaraq 1.8; 1.6 və 0.5 faiz-bənd çox olmaqla Gəncə-Qazax, Yuxarı Qarabağ və Mərkəzi Aran iqtisadi rayonlarıdır.

Qeyd edək ki, bu göstərici üzrə iqtisadi rayonlarla müqayisədə ən yaxşı vəziyyət Lənkəran-Astara iqtisadi rayonundadır. Belə ki, burada normal qidalanmadan məhrumolma səviyyəsi 0.030-a bərabər olmuşdur.




Şəkil 8. "Təhsil" indikatoru üzrə

Metodologiyadan da göründüyü kimi çox ölçülü yoxsulluq indeksini müəyyənləşdirən əsas amillərdən biri də təhsil səviyyəsinə görə məhrumolmadır. Ölkəmizdə təhsil haqqında qanunun 17-ci maddəsində “Təhsilin pillələri və səviyyələri” Azərbaycan Respublikasında aşağıdakı təhsil pillələri və səviyyələri

17.1.1. Məktəbəqədər təhsil.

17.1.2. Ümumi təhsil:
17.1.2.1. ibtidai təhsil;
17.1.2.2. ümumi orta təhsil;
17.1.2.3. tam orta təhsil.
17.1.3. İlk peşə-ixtisas təhsili.
17.1.4. Orta ixtisas təhsili.
17.1.5. Ali təhsil:
17.1.5.1. bakalavriat;
17.1.5.2. magistratura;
17.1.5.3. doktorantura.

müəyyən olunduğunu nəzərə alaraq sorğuda təhsilin ilk pilləsi kimi məktəbəqədər təhsili müəyyənləşdirilmişdir. Təhsildən məhrumolmanın göstəricilərindən biri kimi ibtidai təhsildən məhrumolma kimi yox məktəbəqədər təhsildən məhrumolma kimi qəbul edilmişdir. Qrafikdə göstərildiyi kimi, Respublika üzrə təhsilə görə orta göstəricidən yüksək yoxsulluq səviyyəsi olan iqtisadi rayonlara müvafiq olaraq 10.0 faiz-bənd çox olmaqla Mərkəzi Aran iqtisadi rayonu, 1.9 faiz-bənd çox olmaqla Şəki–Zaqatala iqtisadi rayonu, eyni zamanda 0.6 faiz-bənd çox olmaqla Gəncə-Qazax iqtisadi rayonları aiddir. Qeyd edək ki, bu göstərici üzrə iqtisadi rayonlarla müqayisədə ən yaxşı vəziyyət Lənkəran-Astara iqtisadi rayonundadır. Belə ki, burada təhsil üzrə yoxsulluq indeksi 0.005-ə bərabərdir və ya burada olan məktəbyaşlı əhalinin 0.5%-i təhsilə görə yoxsulluqdan əziyyət çəkir.

Qeyd edək ki, əhalinin təhsildən məhrumolma səviyyəsini müəyyən etmək üçün BMT İnkişaf Proqramının bu metodologiyasına əsasən əsas göstəricilər ev təsərrüfatları üzrə olan məktəbəqədər təhsil müəsissəsində təhsil almadan məhrumolma indeksi və məktəbyaşlı uşaqların məktəbdən kənar qalması səviyyəsini müəyyənləşdirən məktəbyaşlı uşaqların təhsildən məhrumolma indeksidir.




Şəkil 9 Təhsilə görə yoxsulluq indeksini müəyyənləşdirən göstəricilərin xüsusi çəkisi, faizlə

Göründüyü kimi, ölkə üzrə təhsildən məhrumolma indeksini müəyənləşdirən əmsalların xüsusi çəkilərinə görə bölgüsü əsasında qeyd edə bilərik ki, təhsilə görə məhrumolma indeksinin formalaşmasında məktəbəqədər təhsili olmayanların xüsusi çəkisi 76.0% və ev təsərüfatlarında məktəbyaşlı uşaqların təhsildən məhrum olmanın payı isə 24.0% olmuşdur.

Aparılan sorğunun nəticələri əsasında ölkə və ölkənin iqtisadi rayonları üzrə müvafiq göstəricilər aşağıdakı qrafikdə daha geniş göstərilmişdir.




Şəkil10. Məktəbəqədər təhsildən məhrumolma indeksi

Qrafikdən də göründüyü kimi istər ölkəmizdə, istərsə də iqtisadi rayonlarımızda əhalinin təhsilə görə yoxsulluq səviyyəsi əsasən məktəbəqədər təhsil müəsissəsində təhsil almadan məhrum olmuş uşaqların hesabına formalaşmışdır. Belə ki, məktəbəqədər təhsildən kənarda qalmaya görə yoxsulluq ümumi təhsilə görə yoxsulluğun təxminən 76,0%-ni təşkil etmişdir. Bu göstərici Respublika üzrə orta göstəricidən yüksək yoxsulluq səviyyəsi olan iqtisadi rayonlara müvafiq olaraq 5.6 faiz-bənd çox olmaqla Mərkəzi Aran iqtisadi rayonu, 3.5 faiz-bənd çox olmaqla Gəncə-Qazax iqtisadi rayonu, eyni zamanda 2.8 və 0.6 faiz-bənd çox olmaqla Şəki-Zaqatala və Yuxarı Qarabağ iqtisadi rayonları aiddir.

Qeyd edək ki, bu göstərici üzrə iqtisadi rayonlarla müqayisədə ən yaxşı vəziyyət Lənkəran-Astara iqtisadi rayonundadır. Belə ki, burada məktəbəqədər təhsil üzrə yoxsulluq indeksi 0,009-a bərabərdir və ya burada olan məktəbəqədər yaşlı əhalinin 0.5%-i təhsilə görə yoxsulluqdan əziyyət çəkirlər.

Növbəti alt qrup göstərici isə məktəbyaşlı uşaqların təhsildən məhrumolma indeksidir ki, bu göstərici üzrə də aparılmış sorğular əsasında mövcud vəziyyəti aşağıdakı kimi şərh etmək olar.




Şəkil 11.Məktəbyaşlı uşaqların təhsildən məhrumolma indeksi

Məktəbyaşlı uşaqların təhsil almadan məhrumolma göstəricisi Respublika üzrə orta göstəricidən yüksək yoxsulluq səviyyəsi olan iqtisadi rayonlara müvafiq olaraq 3.4 faiz-bənd

çox olmaqla Şəki-Zaqatala və 2.6 faiz-bənd çox olmaqla Mərkəzi Aran iqtisadi rayonları aiddir.

Qeyd edək ki, bu göstərici üzrə iqtisadi rayonlarla müqayisədə ən yaxşı vəziyyət isə Naxçıvan, Lənkəran-Astara və Gəncə-Qazax iqtisadi rayonlarıdır. Belə ki, bu iqtisadi rayonlarda müvafiq göstəricilər 0.0-a bərabər olmuşdur.




Şəkil 12. "Həyat şəraiti" indeksinə daxil olan alt qrup göstəricilərin xüsusi çəkisi, faizlə

Qrafikdən də göründüyü kimi, ölkə üzrə həyat şəraitində əsasən məhrumolma təmiz içməli su, mərkəzləşmiş kanalizasiya sisteminin olmaması və xörək hazırlamaq üçün "çirkli" yanacaqdan istifadə bəndi üzrə formalaşmışdır. Qeyd edilən bu üç göstərici bu bənd üzrə ümumi məhrumolmanın 80.0%-ni təşkil etmişdir. Qalan 20.0% əhali isə mənzilin döşəməsinin olmamasından və ya normal mənzil şəraitinin olmamasından, ev təsərrüfatında avtomobilə malik deyil və velosiped, motosiklet, radio qəbuledicisi, soyuducu, telefon, televizor kimi texniki vasitələrdən maksimum birinə malik olma və elektrik enerjisinin fasilələrlə verilməsi və ya lazımi səviyyədə verilməməsi səbəbindən bu bənd üzrə yoxsul hesab edilmişdir.

Qeyd edilən "həyat şəraiti" üzrə məhrumolma indeksini müəyyənləşdirən alt qrup göstəricilər ilə bağlı ölkədə və onun iqtisadi rayonlarında aparılan sorğuların nəticələrinin qiymətləndirilməsi əsasında mövcud vəziyyət ayrı-ayrı bəndlər üzrə göstərilməklə daha geniş aşağıdakı qrafik və təhlillərdə öz əksini tapmışdır.

Metodologiyadan da göründüyü kimi əhalinin həyat şəraitinə təsir edən amillərdən biri də fasiləsiz enerji təminatıdır. Enerji təminatı üzrə mövcud vəziyyəti aşağıdakı şəkildən daha aydın görmək olar.




Şəkil 13. Fasiləsiz elektirik enerjisi ilə təminata görə yöxsulluğun xüsusi çəkisi

Göründüyü kimi ölkə üzrə demək olar ki, fasiləsiz enerji təminatı vardır. Yəni, ölkə əhalisinin 98,5%-i fasiləsiz elektrik enerjisi ilə təmin edilmişdir. Bu göstərici üzrə daha çox məhrumiyyət ölkə üzrə ümumi göstəricidən 3,2 faiz-bənd çox olmaqla Şəki-Zaqatala, 2,2 faiz-bənd çox olmaqla Mərkəzi Aran və 0,8 faiz-bənd çox olmaqla Yuxarı Qarabağ iqtisadi rayonlarında olmuşdur. Naxçıvan və Lənkəran-Astara iqtisadi rayonlarında isə fasiləsiz enerji təminatı 100%-ə bərabər olmuşdur.




Şəkil 14. Fasiləsiz təmiz içməli su ilə ilə təminatdan məhrumolma indeksi

Göründüyü kimi ölkə üzrə demək olar ki, fasiləsiz içməli su təminatı yüksək səviyyədədir. Yəni, ölkə əhalisinin 87,8%-i fasiləsiz içməli su ilə təmin edilmişdir. Bu göstərici üzrə daha çox məhrumiyyət ölkə üzrə ümumi göstəricidən 2.44 faiz-bənd çox olmaqla Naxçıvan MR-də, 1.5 faiz-bənd çox olmaqla Mərkəzi Aran iqtisadi rayonlarında olmuşdur. Quba-Xaçmaz və Abşeron iqtisadi rayonlarında isə fasiləsiz su təminatı təxminən 96.0%-ə bərabər olmuşdur.




Şəkil 15. Normal kanalizasiya sistemi ilə təminatdan məhrumolma indeksi

Göründüyü kimi ölkə üzrə demək olar ki, normal kanalizasiya sistemi ilə təminata görə ölkənin iqtisadi rayonlarında məhrumiyyətlər mövcuddur. Belə ki, aparılan sorğuların nəticələrinə əsasən qeyd edə bilərik ki, ölkədə ev təsərüfatlarının 86.7%-i normal kanalizasiya sisteminin imkanlarından istifadə edə bilir. Bu göstərici üzrə daha çox məhrumiyyət 35.7% olmaqla Şəki-Zaqatala iqtisadi rayonunda, eləcə də 29.1%-lə Naxçıvan MR-də, 21.0% olmaqla Mərkəzi Aran iqtisadi rayonlarında qeydə alınmışdır. Quba-Xaçmaz və Abşeron iqtisadi rayonlarında normal kanalizasiya sistemi ilə təminat isə müvafiq olaraq təxminən 96.0% və 98.0%-ə bərabər olmuşdur.




Şəkil 16. Mənzilin döşəməsi yoxdur və ya normal deyildir

Göründüyü kimi demək olar ki, mənzil şəraiti ilə təminata görə ölkə üzrə və eləcə də ölkənin iqtisadi rayonları üzrə məhrumiyyətlər mövcuddur. Belə ki, aparılan sorğuların nəticələrinə əsasən qeyd edə bilərik ki, ölkədə ev təsərrüfatlarının 97.3%-nin normal mənzil şəraiti imkanları vardır. Bu göstərici üzrə daha çox məhrumiyyət 12.1% olmaqla Şəki-Zaqatala, eləcə də 3.2%-lə Yuxarı Qarabağ iqtisadi rayonlarında daha yüksəkdir. Lənkəran-Astara və Quba-Xaçmaz iqtisadi rayonlarında normal mənzil döşəməsi ilə təminat isə müvafiq olaraq təxminən 99,0%-ə bərabər olmuşdur.




Şəkil 17. Xörək hazırlamaq üçün "çirkli" yanacaqdan istifadə

Göründüyü kimi, ölkə üzrə və eləcə də ölkənin iqtisadi rayonları üzrə xörək hazırlamaq üçün "çirkli" yanacaqdan istifadə edilir. Belə vasitələrdən istifadə regionlarda geniş yayılmışdır. Belə ki, aparılan sorğuların nəticələrinə əsasən qeyd edə bilərik ki, ölkədə ev təsərüfatlarının 4.0%-i xörək hazırlamaq üçün "çirkli" yanacaqdan istifadə edir. Şəki-Zaqatala iqtisadi rayonunda 13.1%, eləcə də Mərkəzi Aran iqtisadi rayonunda 6.4% və Yuxarı Qarabağ iqtisadi rayonunda 5.3% əhali xörək hazırlamaq üçün "çirkli" yanacaqdan istifadə edir. Belə vasitələrdən daha az istifadə edən iqtisadi rayonlara isə Abşeron və Quba-Xaçmaz iqtisadi rayonlarını aid etmək olar.




Şəkil 18. Ev təsərrüfatı avtomobilə malik deyil və velosiped, motosiklet, radio qəbuledicisi, soyuducu, telefon, televizor kimi texniki vasitələrdən maksimum birinə malikdir

Göründüyü kimi ölkə üzrə demək olar ki, əvvəlki bölmələrdə olduğu kimi "ev təsərrüfatı avtomobilə malik deyil və velosiped, motosiklet, radio qəbuledicisi, soyuducu, telefon, televizor kimi texniki vasitələrdən maksimum birinə malikdir" bəndi üzrə də ölkədə və onun bölgələrində az da olsa məhrumiyyətlər vardır. Yəni, ölkə əhalisinin 3.5%-ində bu bənd üzrə məhrumiyyətlər mövcuddur. Bu göstərici üzrə daha çox məhrumiyyət ölkə üzrə ümumi göstəricidən 8.6 faiz-bənd çox olmaqla Mərkəzi Aran və 7.7 faiz-bənd çox olmaqla Şəki-Zaqatala iqtisadi rayonlarında olmuşdur. Naxçıvan və Lənkəran-Astara iqtisadi rayonlarında qeyd edilən bənd üzrə məhrumiyyətlər qeydə alınmamışdır.

## ƏDƏBİYYAT

1. Alam, A., Murthi, M., Yemtsov, R., Murrugarra, E., Dudwick, N., Hamilton, E. and Tiongson, E (2005). Growth, poverty and inequality. Eastern Europe and the Former Soviet Union. Washington: World Bank.
2. Alkire, S., and M. Santos. 2010. “Acute Multidimensional Poverty: A New Index for Developing Countries.” Human Development Research Paper 11. UNDP–HDRO, New York.
3. Alkire, S., and J. Foster. 2009. “Counting and Multidimensional Poverty Measurement.” OPHI Working Paper 7. Oxford Poverty and Human Development Initiative, Oxford, UK.
4. Bradshaw, J. and Mayhew, E. with Marlier, E. (2010) Poverty thresholds used in European Union countries: Synthesis Report. European Union.
5. Tounsend P. Poverty in the United Kingdom. A Surrey of household resources and standards of living. N.Y., 1979. P. 39.
6. www.economy.gov.az
7. www.azstat.org
8. www.epp.eurostat.ec.europa.eu

**İİETİ-də ABŞ-ın Brandies Universitetinin Beynəlxalq Biznes Məktəbinin dosenti, prof. Can Erbilin başçılığı ilə ölkəmizdə səfərdə olan magistratura pilləsinin məzunları ilə keçirilən görüş (04 iyun 2013-cü il)**






**Bakı Biznes Mərkəzində keçirilən İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) və "EcoMod Networking" şirkətinin birgə təşkilatçılığı ilə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin İqtisadi Beyin Mərkəzlərinin I Bakı Forumu (05 sentyabr 2013-cü il)**









***SEÇİLMİŞ ƏSƏRLƏR***

**Hüseynova A.**
*Azərbaycanda texnoparkların yaradılması və inkişafı istiqamətləri*
**Məmmədov B.**
*Ölkənin müdafiə sisteminin əsas iqtisadi indikatorlarının qiymətləndirilməsi*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №14 Xüsusi buraxılış, Bakı 2014*

# AZƏRBAYCANDA TEXNOPARKLARIN YARADILMASI VƏ İNKİŞAFI İSTİQAMƏTLƏRİ

***i.e.d. Hüseynova A.***

*2014-2021-ci illərdə İİETİ-də
şöbə müdiri, direktor vəzifələrini icra edib.
Hazırda İETİ-də İdarə Heyəti sədrinin birinci müavinidir.*

**XÜLASƏ**

Məqalədə texnoparklar haqqında ümumi məlumat, Azərbaycanda texnoparkların yaradılmasına olan tələbat açıqlanmışdır. Müəllif beynəlxalq təcrübəyə əsasən texnoparkların işləmə prinsiplərini, idarəetmə və inkişaf modellərini göstərmiş, onların inkişaf təsnifatını yaratmışdır. Məqalədə Azərbaycan Respublikasının ekosisteminin formalaşması məsələsi təhlil edilmiş və Azərbaycan üçün ənənəvi texnoparkların yaradılması deyil, yeni nəsil texnoparkların - müasir texnopark texnologiyaların sərbəst mübadilə bazarında işləyən texnologiya daçıyıcılarının və istifadəçilərinin "yaradıcı sinif" kommunikasiyaları və sərbəst ünsiyyət yerinə çevrilən-yaradılmasının zəruri olduğu göstərilmişdir.

**Açar sözləri:** texnopark, texnoparkların təsnifatı, texnoparkın modelləri, texnoparkın inkişaf meyilləri

## 1. Texnoparkların yaradılmasının zəmini

XX əsrin sonları cəmiyyətin həyatına ciddi dəyişikliklərlə həkk olub. Bu dövrdə elektronika, radiofizika, lazer texnikası, kimya, aviasiya, kosmonavtika və s. sahələrdə bir sıra texnoloji və fundomental kəşflər edildi. İnformasiya texnologiyaları, mikro və nanoelektronika sahələri görünməmiş sürətlə inkişaf etdi. Bu da iqtisadi inkişafa gətirib çıxaran elmtutumlu texnologiyalı yeni məhsulların istehsalının inkişafına təkan verdi, elmi biliklə istehsalatın texniki mükəmməlliyi arasında rəqabət yaratdı. Başqa sözlə, istehsalat yeni elmi ideyalar əsasında inkişaf etdirilməyə başladı. Nəticədə elmlə istehsalat arasında qarşılıqlı əlaqə dəyişildi: əvvəl texnika və istehsalat təcrübə yolu ilə inkişaf edirdi, indi isə biliyə əsaslanaraq elmtutumlu texnologiyalar şəklində inkişaf edir. Bu gün elm və elmtutumlu istehsalatın daha qabaqcıl formaları axtarılır. Elmtutumlu sahələr üçün elmi-texniki inkişafın yüksək tempi xarakterikdir.

Bu gün elm və texnologiyanın sürətli inkişafı texnika və texnologiyaların az müddətdə mənəvi köhnəlməsinə rəqabətliliyin aşağı düşməsinə səbəb olur. Ona görə də istehsalçıların elmi biliklərə, elm ilə təmasa maraqları artmalıdır. Digər tərəfdən elmtutumlu texnologiyalar bir-birləri ilə bağlıdırlar. Onların kompleks istifadəsi, yeni proses, ideya və prinsiplərin tətbiqi üçün yeni sahələr açan fundamental işləmələr lazımdır.

Rəqabət qabiliyyətinin, müvəffəqiyyətin, iqtisadi artımın, həyat səviyyəsinin

yüksəldilməsi, digər milli üstünlüklərin həyata keçməsinin - təmin edilməsinin əsas şərti elmi-tədqiqat və işləmələrin nəticələrinin səmərəli istifadəsidir. Bu şəraitdə texniki, istehsal, təşkilati, marketinq, maliyyə əməliyyatlarının məcmusu olan və səmərəli yeniliklərin iqtisadiyyat və sosial sahələrə tətbiqini təmin edən innovasiya sisteminin inkişafı daha böyük məna kəsb edir. Elmə ayrılan vəsaitlərin azlığı, innovasiya məhsulunun xüsusi çəkisinin aşağı olması, elmi nailiyyətlərin istehsalata zəif tətbiqi və s. milli innovasiya sisteminin inkişafına mane olur.

Dünyanın ayrı-ayrı ölkələrində və regionlarda innovativ məhsullardan istifadə səviyyəsi müxtəlifdir, innovasiya potensialı MİS-in formalaşma səviyyəsindən asılıdır. İnkişaf etmiş ölkələrdə innovasiya potensialından istifadə səviyyəsi yüksəkdir. Yaponiyanın innovasiya potensialı 85%, ABŞ-da 60%, Azərbaycanda isə 5% -dir. Bununla əlaqədar olaraq Azərbaycanın dünya innovasiya bölgüsünə aktiv daxil olmasını təmin edən tədbirlər həyata keçirmək lazımdır.

Müasir dövrdə Azərbaycan Respublikasının dövlət siyasətinin vacib prioritetlərindən biri iqtisadiyyatın yeni inkişaf yoluna - innovasiya iqtisadiyyatına keçiddir. Dövlətin innovasiya və iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri Azərbaycanın qeyri-neft sektorunun inkişaf etdirilməsi, biliyə əsaslanan sahələrin inkişafı, elmtutumlu texnologiyaların inkişaf etdirilməsidir.

Azərbaycanda iqtisadi inkişafın innovasiya modelinin başlıca istiqamətləri "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında öz əksini tapmışdır.

Konsepsiyada iqtisadiyyatı texnoloji müasirləşdirmək, elmi və elmi-texniki fəaliyyətin nəticəvi keyfiyyətli artımı əsasında onun innovasiya inkişafı yoluna keçmək, innovasiya fəaliyyətinin səmərəsini artırmaq kimi vacib məsələlər ön plana çəkilmişdir. Buna nail olmaq üçün ölkənin bütün imkanlarından - mövcud iqtisadi, sosial və siyasi ehtiyatlardan tam və maksimal səmərəli istifadə, respublika potensialının gücləndirilməsi üçün şəraitin yaradılması vacib şərtlərdir. İnnovasiya infrastrukturunun inkişafı, regionların inkişafına daimi diqqət, hər bir regionun rəqabət üstünlüklərini nəzərə alaraq müxtəlif inkişaf mərkəzlərinin formalaşdırılması, şəhər və kənd yerlərində infrastrukturun və sosial xidmətlərin inkişafı nəzərdə tutulmuşdur ki, bu da respublikanın elmi və innovasiya siyasətinin inkişaf etdirilməsi və yenidən təşkili deməkdir [1].

İnnovasiya potensialının təhlili sosial-iqtisadi siyasətin aparılması, idarəetmə orqanlarının fəaliyyəti və tədbirlərinin müəyyən edilməsi, innovasiya inkişafı və investisiya mühitinin formalaşması üçün vacibdir. Azərbaycanda innovasiya sistemi yeni formalaşır. İnnovasiya sisteminin inkişafı üçün innovasiya potensialının formalaşması və idarə edilməsi prosesinin maksimal səmərəliliyini təmin etmək üçün innovasiya fəaliyyətinin idarə edilməsinin mütərəqqi üsul və mexanizmlər sisteminin yaradılması vacibdir.

İnnovasiya iqtisadiyyatına keçid fundamental və tətbiqi elm arasında innovasiya məhsulu və istehsal arasında qarşılıqlı əlaqənin gücləndirilməsi zamanı mümkün ola bilər. İnnovasiya sisteminin inkişafının prioritet istiqaməti sivil əqli və sənaye mülkiyyəti bazarının inkişaf mexanizmlərinin yaradılmasıdır.

Bu müddət ərzində elmi işlərin istehsala tətbiqinin müxtəlif formalarından istifadə edilib: texnoparklar, texnoloji mərkəzlər, biznes inkubatorları, texnopolislər, startaplar, azad iqtisadi zonalar və s. Bütün bunlar innovasiya mərkəzlərinin tərkib hissəsi olaraq, bu və ya digər formada fəaliyyət göstərirlər. Onları necə adlandırdığımızdan asılı olmayaraq bunlar bir

məqsədə xidmət edirlər: biliklərin və ixtiraların texnologiyalara çevrilməsi; həmin texnologiyanın kommersiya məhsuluna çevrilməsi və bu səbəbdən, tədqiqatlara olan milli xərclərin səmərəliliyinin yüksəlməsi; kiçik elmtutumlu sahibkarlıq sektoru vasitəsilə texnologiyaların sənayeyə ötürülməsi; elmtutumlu firmaların formalaşması və onların bazarda təşəkkülü; elmtutumlu biznes sahəsində müəssisələrin dəstəklənməsi, sənayenin struktur yenidənqurulması, regional qeyri-mütənasib inkişaf səviyyəsinin azalması; məşğulluq probleminin qismən həlli, yüksək texnologiyalar sahəsində elmi-texniki nailiyyətlərin sürətli tətbiqi.

**2. Texnoparklar və onların işləmə prinsipləri**

Əgər biz "Texnopark"- nədir? sualına cavab vermək istəsək labirintə düşmüş olarıq. Çünki ədəbiyyatlarda və TOP-30 innovasiya menecmentləri arasında bu anlayışın izahı müxtəlif cür verilir. Məsələn: Finlandiyanın Otaniem texnoparkının banisi Mervi Kekiyə görə: "Texnoparklar – məkan deyil, prosesdir və texnoparkların əsas məqsədi şirkətlərə kömək olmalıdır." Texnopolis şirkətinin direktorlar şurasının sədri Pertti Xuuskonen açıqlamasına görə : "Siyasətçilərin gözəl binaların təntənəli açılışı xoşlarına gəlir, ancaq gözəl bina – bu hələ texnopark deyil. Texnoparklar- onların daxili qurluşudur. Bir çox texnoparklar heç də cəlbedici görünmürlər, ancaq onların içliyi sadəcə çox gözəldi və onların fantastik məhsulları var. Bu texnoparkların binaları yox, məhsulları və xidmətləri müştərilər tərəfindən tələb edilirlər..."[5]

Bir sözlə: *Texnopark - spesifik yerli şərait və bazarın tələbatının təsiri altında formalaşan mürəkkəb ekosistemdir. Texnopark bir tərəfdən rezident və müştərilərin görüşdüyü və təmasda olduqları ofis, digər tərəfdən rezidentlərə göstərilən müxtəlif xidmətlər dəstidir.*

Əslində texnopark tədqiqatçı qruplar və texnoloji işləmələrə sorğu verən şirkətlər arasında qarşılıqlı fəaliyyət və informasiya mübadiləsi prosesini sürətləndirən vasitəçi bir qurumdur.

Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 15 may tarixli fərmanı ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında nümunəvi əsasnaməyə görə"...texnologiyalar parkı (bundan sonra – texnopark) – innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədi ilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi (kommersiyalaşdırılması) üçün zəruri infrastrukturu, maddi-texniki bazası və idarəetmə qurumları olan ərazi" dir.

Texnoparkların daha çox yayılmış 3 iş sxemini qeyd etmək olar[7]:

1)öz innovasiya layihələrini realizə etmək istəyən sərbəst tədqiqat və layihə qruplarına kömək (yardım);

2) ali məktəb və elmi-tədqiqat qruplarında toplanan elmi biliklərin kommersləşməsinə kömək;

3) innovasiyanın sərbəst bazarından texnoloji qərarların importu yolu ilə istehsalçıların texnoloji məsələlərinin həlli. Texnoparkların bu zəncir üzrə hərəkəti hər iki istiqamətə təmin edir. Hər dəfə texnologiyaların alıcıları müxtəlif şirkətlər ola bilər.

Qeyd edək ki, texnopark birbaşa texnologiyaların satışı məsələlərində iştirak etmir, ancaq innovasiyaların mübadiləsi prosesinə vasitəçilik edir, başqa sözlə mübadilə üçün əlverişli şərait yaradır. Elə hallar da ola bilər ki, texnopark həmtəsisçi ola bilər.

Şəraitindən asılı olaraq texnoparklar idarəetmə strukturu və inkişaf modelləri ilə fərqlənirlər. Məsələn: Şəkil 2-də bir neçə sxem verilmişdir.

Texnoparklar texnologiya daşıyıcıları ilə alıcıları arasında əlaqə yaratmaq üçün yaranan sərbəst qurum və ya universitet və şirkət daxilində bir struktur ola bilər. Texnoparkların əsas rolu tədqiqatçılar cəmiyyəti daxilində və ya müxtəlif texnoloji məhsul istehsalçıları arasında kommunikasiyanı təmin etməsində ola bilər. Texnoparkların yaradılmasında əsas motiv texnologiyaların təchizatçısında və ya istifadəsində də ola bilər. Digər tərəfdən texnoparklar yerli və ya dövlət orqanları tərəfindən yaradıla bilər. Bu halda texnoparkların yaradılmasında məqsəd əraziyə yeni fəaliyyət növünün cəlb edilməsidir.

**Texnoparkların növləri.** Biz əsasən 6 əsas növ texnoloji parkları nəzərdən keçirək [7]




a) Texnopark texnologiya daşıyıcıları ilə istifadəçiləri arasında qarşılıqlı fəaliyyəti




b) Texnologiyaların mübadiləsinə (import) şəraitin yaradılması




c) Toplanan elmi potensialın kommersləşdirilməsi.




d) Şirkətlər üçün texnoloji qərarların axtarışı.




f) Tədqiqatçılar cəmiyyətinin kommunikasiyalarının təmin edilməsi.

T-Texnopark; TD-Texnologiya daşıyıcıları; Tİ-Texnologiya istifadəciləri.

Şəkil 2. İdarəetmənin struktur və İnkişaf modelləri

1) ən çox yayılmış universitet texnoparklarıdır. Belə texnoparklar ali məktəblərin əsasında yaradılırlar. Bəzən isə universitet ilə sənaye müəssisəsinin strateji əməkdaşlığının nəticəsində yaradılırlar. Universitet texnoparklarının yaradılmasının 3 əsas məqsədi olur: toplanmış elmi biliklərin kommersləşdirilməsi, ali məktəbdə elmi işlərin cəlbediciliyininartırılması və praktiki məsələlərin nəticəsi olan yeni biliklərin axınının təmin edilməsi. Universitet texnoparklarının inkişafına mane olan qanunvericilikdə olan məhdudiyyətlər;

2) regional sahə texnoparkları - regional iqtisadiyyatın hər hansı bir sektorunda innovasiya prosesinin aktivləşdirilməsi məqsədi ilə yaradılır. Regional sahə texnoparkları çoxlu xidmətlər göstərə bilərlər: layihəni hüquqi müşayiət etmək, biznes məsləhət, sertifikatlaşma, tədqiqat təşkilatlarına laboratoriyalar təqdim etmək, seminarların təşkili vəs. Adətən bu növ texnoparklar texnologiyaların regional sənaye müəssisələrinə importunu təmin etmək və ya ayrıca götürülmüş şirkətin texnoloji məsələlərini həll etmək üçün yaradılır. Bu halda texnopark istehsal şirkətləri ilə sıx əlaqə yaradır, bununla da rezident və ya ortağın texnoloji məsələlərini həll edəcək kiçik innovasiya şirkətlərinin yerləşməsinə şərait yaradır. Başqa sözlə, texnopark istehsal şirkətlərinə elmtutumlu və bahalı prosesləri kənarda sərbəst kiçik innovasiya müəssisələrinə ötürməyə (autsorsinq etməyə) kömək edir (autsorsinq - 2 təşkilat arasında müqavilə əsasında birinin digərinə bəzi funksiyalarının, biznes proseslərin və tədbirlərin ötürülməsidir). Regional sahə texnoparklarının əsas gəlir mənbəyi ərazinin icarəyə verilməsi və istehsal şirkətləri üçün texnoloji həllərin axtarışı üzrə xidmətlərin göstərilməsidir;

3) industrial növ texnoparklar - mahiyyət etibarı ilə texnoloji park deyil. Bu növ texnopark əsasən yeni istehsalın təşkili üçün fiziki infrastruktur obyektlərinin kompleksidir. Burada daha çox ərazilər müxtəlif fəaliyyət növləri üçün icarəyə verilir. İndustrial texnoparkların yaradılması innovasiya mühitinin inkişaf və sıxlıq səviyyəsindən asılı deyil, əsasən onlar texnologiya mübadiləsi üçün nəzərdə tutulmayıblar, daha çox yeni iqtisadi fəaliyyətin növlərinin təşkili üçün müasir infrastrukturun yaradılmasına istiqamətlənirlər. İstehsalat texnoparkının yerləşdirilməsi şərtləri və onun obyektlərinə tələbat əsas rezidentlərin istəyi əsasında və ya sahə sənayesinə uyğun istehsal komplekslərinin yerləşdirilməsi təcrübəsinin təhlili nəticəsində müəyyən edilir. Çox vaxt əlavə nəqliyyat və logistika, mənzil tikintisində ixtisaslaşma tələb edir;

4.) Texnoloji inkubatorlar və ya innovasiya biznesi inkubatorları - kiçik innovasiya şirkətlərinə formalaşmalarının ilkin mərhələsində kömək etmək üçün nəzərdə tutulurlar (start-up,seed). Bu növ texnoparklar innovasiya şirkətlərinin inkişafı üçün bütün lazımi ehtiyat və xidmətləri təmin edirlər. İnkubatorlar öz mahiyyətinə görə gəlir əldə etmək üçün nəzərdə tutulmayıblar, biznesin inkişaf etdirilməsi üçün imtiyazların təmin edilməsinə istiqamətlənirlər. Ona görə də inkubatorların yaradılmasına sərbəst biznes kimi baxmaq olmaz, onların yaradılmasına daha çox sosial istiqamət kimi baxıla bilər. Onun müvəffəqiyyəti daha çox kiçik müəssisələrin axını və müəyyən həcmdə icarəyə verilən sahələrdən asılıdır;

5) bu gün əsas diqqət son vaxtlar fəal inkişaf edən şəbəkə texnoparklarına ayrılır. Şəbəkə strukturları texnoparklar tərəfindən öz imkanlarını genişləndirmək üçün yaradılır. Şəbəkə texnoparklarının tikintisi əsasən yerli hakimiyyətin təşəbbüsü olur. Onlar bu obyektin köməyi ilə yaradılan texnoparkdan əldə olunan iqtisadi və sosial xeyri paylaşdırmaq istəyirlər. Şəbəkə texnoparklarının yaradılması üçün iqtisadi zəmin olmalıdır: müxtəlif şəhərlərdə yaşayan və işləyən tədqiqatçıların cəlb olunmasının təmin edilməsi, texnoparkların

saxlanılması xərclərinə qənaət (texnoparkın tərkibinə əvvəl yaradılan tədqiqat mərkəzlərinin salınması) və s.

Şəbəkə strukturu texnoparkların imkanlarını artırır, onların xidmətlərinin sayını çoxaldır, səmərəlilik göstəricilərinin yaxşılaşmasına imkan yaradır, texnopark üçün əhəmiyyətli olan şəhər və digər ərazilərdə fiziki iştirakları təmin edilir. Şəbəkə texnoparkları regional, sahə və ya universitet texnoparklarının qollarındandır;

6) kovorkinq – mərkəzlər bir növ tədqiqat cəmiyyətlərinin ənənəvi texnoparklarının xidmət haqqının artmasına, işgüzar infrastrukturun çatışmamazlığına və informasiya texnologiyalarının inkişafına olan cavabdır.

Bu gün bu mərkəzlərin sayı günbəgün artır. Bunlar ofis mərkəzləridir, burada sərbəst insanlar bir ərazidə işləyirlər. Belə model daha çox əqli əməklə məşğul olanlar üçün əlverişlidir. Kovorkinq mərkəzlərinin müvəffəqiyyəti onların tədqiqatçılar cəmiyyətinə daxil olmaqları, bilik axınlarını və informasiya mübadiləsini formalaşdırmaqları, başlayanlara şərait yaratmaqlarıdır. Bu mərkəzlərin başlıca funksiyaları tədqiqatçılara innovasiyanın qlobal bazarına "giriş"-in təmin edilməsi və yerli tədqiqatçılar cəmiyyətlərinə dəstəkdir.

Klassik texnopark fəaliyyətindən fərqli olaraq kovorkinq mərkəzlərinin fəailiyyəti fiziki infrastrukturla işləməkdən kommunikasiya yaratmaq və peşəkar cəmiyyətlərlə işlərə (fərdi məsləhət, səmərəli layihə qruplarının formalaşması və s.) yönəldilir. Bu halda az müddət ərzində aşağı qiymətə yeni iş yerləri yaratmağa və ərazidə işgüzar mühitin yaradılmasına gətirib çıxarır.

**1)Texnoparkların inkişaf meyilləri**

Texnoparkların yaradılması təcrübəsinin təhlili "Texnopark" hərəkatını 3 əsas mərhələyə bölməyə imkan verir (şəkil 3).

Şəkil 3-dən göründüyü kimi hər 15-20 ildən bir texnoparkların yeni formatlarının yüksəliş dövrü baş verirdi. Bu da bazar və iqtisadiyyatın dəyişkən inkişaf tendensiyası və ümumilikdə cəmiyyətin transformasiyası ilə izah edilir.

Qeyd edək ki, bu gün texnopark hərəkatının inkişafı cərəyanının növbəti qırılması baş verir. Texnoparkların inkişafına təsir edən əsas meyillər bunlardır:

- fiziki infrastrukturun qiymətinin (dəyərinin) artması (həm tikinti qiymətlərinin, həm də istismar xərcləri).
- informasiya texnologiyalarının və informasiya hüdudlarının inkişafı (məsafədə yerləşən subyektlər arasında informasiya mübadiləsinə imkanı).
- innovasiya şirkətlərinin maliyyə imkanlarının azalması (tələbin sıxılması və innovasiya məhsulunun maya dəyərinin azalması).

Cədvəl 1

Texnoparkların inkişaf təsnifatı

| Texnoparklar | 1950-1970-ci illər | 1980- 1990-cı illər | 1990-2000-ci illər |
|---|---|---|---|
| **Geniş yayılan növləri** | ➢ Universitet texnoparkları;<br>➢ Regional sahə texnoparklar;<br>➢ Elmi şəhərcik. | ➢ Texnoloji inqubatorlar;<br>➢ İxtisaslaşmış texnoparklar;<br>➢ Texnologiyaların transfer mərkəzi. | ➢ Şəbəkə texnoparkları;<br>➢ Kovorkinq-mərkəzlər;<br>➢ Texnoparklar cəmiyyəti. |
| **Əsas prosesləri** | Elmi-tədqiqat işlərinin tətbiqi | Elmi-tədqiqat işlərinin kommersləşdirilməsi | İnformasiya mübadiləsi mühitinin yaradılması (Future knowledge Ecosystems-gələcək bilik ekosistemləri) |
| **Nüvə** | ➢ Universitet laboratoriyaları;<br>➢ kompleks layihə və tədqiqat büroları;<br>➢ transmilli şirkətlər | ➢ Texnoloji biznes-inkubatorlarının ofis kompleksi | ➢ Virtual şəbəkə;<br>➢ texnoparkların şəbəkə bölmələri |
| **Maraqlı tərəflər** | ➢ Universitetlər;<br>➢ transmilli şirkətlər | ➢ Ölkə, region hakimiyyətləri | ➢ İnnovasiya brokerləri və arentləri;<br>➢ vençur şirkətləri və investisiya fondları |
| **Məhsul** | İnnovasiya məhsulları | Texnologiya və texnoloji qərarlar (nəticələr) | Tədqiqat potensialı |
| **Texnoparkın əsas xidməti** | Bilik mənbələrinə (universitet) və ya praktiki məsələ mənbələrinə (şirkətlərə) keçid | Xeyirli icarə, genişlənmiş xidmətlər şəraiti | Cəmiyyətə çıxış |
| **Lider ölkələr** | ABŞ, İngiltərə | Avropa ölkələri və Asiya ölkələri | ABŞ |

**2) Azərbaycan Respublikasında ekosistemin formalaşması**

İnnovasiya fəaliyyətinin inkişafı və stimullaşdırılmasının əsas istiqamətlərindən biri innovasiya ekosisteminin formalaşdırılmasıdır.

İnnovasiya infrastrukturu daima inkişaf edir, onun yeni obyektləri meydana gəlir. Bu gün innovasiya sistemi infrastrukturuna texnologiya transferi mərkəzləri, innovasiya-texnologiya mərkəzləri, texnoparklar, biznes-inkubatorlar, innovasiya fəaliyyəti üçün kadr hazırlığı mərkəzləri, vençur fondları və s. aiddir.

Azərbaycanın sosial iqtisadi inkişafında müstəqillik illərində çox işlər görülmüşdür. Amma hələ ilk növbədə, innovasiya sferasında, daha çox edilməlidir. Son 10-15 il ərzində bir çox maşınqayırma, metallurgiya sənayesi, dəzgahqayırma, cihazqayırma, elektrotexnika və kimya sənayesi hansı ki, innovasiya mühitini formalaşdırır, bu gün işləmirlər və ya tam güclə

işləmirlər. Nəticədə müəssisələrin innovasiya fəallığı kəskin azaldı və texniki və texnoloji səviyyəsini müəyyən edən elmtutumlu məhsulun həcmləri azaldı.

Aparılan araşdırmaya görə respublikanın sənaye müəssisələrinin arasında təyin edilmiş innovasiya sferasında inkişafa mane olan amillər aşağıdakılardır:

İqtisadi amillər:

- şəxsi pul vasitələrinin çatışmazlığı;
- dövlət tərəfindən maliyyə dəstəyinin olmaması;.
- yeni məhsullara aşağı ödəmə qabiliyyəti olan tələbat;
- yeniliklərin yüksək qiyməti;
- yüksək iqtisadi risk;
- ödəmələrin uzun müddətləri.

İstehsal amilləri:

- müəssisələrin aşağı innovasiya potensialı;
- ixtisaslaşdırılmış heyətin çatışmazlığı;
- yeni texnologiyalar haqqında informasiyanın olmaması;.
- müəssisələrin yenilikləri qəbul etmə iqtidarında olmaması.
- digər müəssisələrlə və elmi təşkilatlarla kooperativləşdirilmə üçün imkanların olmaması.

Baxmayaraq ki, respublikada innovasiya sferasında bir sıra qanunverici və normativ aktlar qəbul edilmişdir, lakin indiyə qədər "innovasiyalar haqqında", "müəssisələrin innovasiya fəaliyyəti haqqında", "elm haqqında və dövlət elmi cəhətdən - texniki siyasət", innovasiya inkişafında əsas sənəd olanlar haqqında Qanunlar qəbul edilməmişdir. Baxmayaraq ki, respublikada innovasiya sferasında bir sıra qanunverici və normativ aktlar qəbul edilmişdir, lakin indiyə qədər "innovasiyalar haqqında", "müəssisələrin innovasiya fəaliyyəti haqqında", "elm və dövlət elmi-texniki siyasəti haqqında", innovasiya inkişafında əsas olan sənədlər, qanunlar qəbul edilməmişdir. Heç bir qanun və heç bir icra yoxdur. İnkubatorların biznesi, innovasiya mərkəzlərinin, texnoparkların, texnopolislərin, injiinirinq, lizinq və digər təşkilatların normativ - innovasiya infrastrukturunun hüquqi bazasının formalaşma üzrə işi sona kimi yerinə yetirilməmişdir. Həmçinin, regional səviyyədə innovasiya potensialının möhkəmləndirilməsi məsələləri həll olunmamış qalmışdır.

Eyni zamanda şəxsi biznes hələ innovasiya hazırlamalarının maliyyələşdirilməsinə və onların praktik tətbiq edilməsinə "xərcləməyə" tələsmir. O, yalnız innovasiyaya bir o qədər investisiya qoyur, çünki bu, sərt rəqabət mühitində yaşamaq üçün lazımdır. Buna görə "innovasiyalara məcburiyyətlər" mexanizmini yaratmaq lazımdır, bu mexanizm də onları bu yenilikləri tətbiq etməyə məcbur edərdi. Dövlət belə "oyun qaydalarını" təyin etməlidir, belə ki, yaxın vaxtlarda Azərbaycanda yeni texnologiyalarsız işləmək daha çətin olacaqdır.

Respublikanın bir çox sənaye müəssisələrində keçirilmiş tədqiqatlar göstərdi ki, müəssisələrin zəif innovasiya fəallığının əsas səbəbi aşağıdakılardır:

- innovasiya prosesinin təminatı üzrə qanunverici bazanın natamamlığı;
- təkrar istehsal prosesinin dağıdılması;
- əsas fondların aşınması və mənəvi köhnəlməsi;
- texniki yenidənqurma və müəssisələrin müasirləşdirilməsində amortizasiya fondunun zəif rolu;
- əsas fondların yenidən qiymətləndirilmələrinin neqativ nəticələri və milli məzənnənin

denominasiyası;
- sənaye müəssisələrinin şəxsi vəsaitlərinin çatışmazlığı;
- dövlət əmlakının özəlləşdirilməsinin neqativ nəticələri;
- sənaye müəssisələrinin artan oriyentasiyasının dəyişməsinin idxal texnologiyası;
- innovasiya infrastrukturunun inkişafdan qalması;
- ümummilli informasiya sisteminin kifayət etməyən inkişafı;
- innovasiya prosesinin bütün zənciri üzrə əlaqələndirən strukturun olmaması;
- innovasiya sferasında müxtəlif ölkələrlə zəif inteqrasiya.

Azərbaycan iqtisadiyyatında islahat aparılması şəraitində əsas məsələlərdən biri elmi təşkilatların, müəssisələrin, firmaların, kompaniyaların innovasiya fəallığının artırılmasıdır. Bu mərhələdə innovasiyanın inkişafının fərqli cəhəti daha proqressiv texnoloji proseslərə və çevik istehsalata tez bir zamanda keçiddir, bu da yeni rəqabətqabiliyyətli, dünya standartlarına cavab verən məhsul istehsal etməyə imkan verir.

Bu gün respublikada iqtisadiyyatın qeyri-neft sektorunun əhəmiyyətini daha aydın başa düşməyə başlayıblar. Sahibkarlıq sektorunda bunlar rəqabətqabiliyyətli məhsul istehsal edən iri və orta müəssisələrdir. Onlara meyvə və tərəvəz emal edən müəssisələri, heyvandarlıq komplekslərini, ət kombinatlarını, çörəkxanaları  və s. aid etmək olar. Bu istehsal sahəsinə qoyulan investisiya Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye  Nazirliyi yanında Sahibkarlığa yardım fondunun dəstəyi ilə, güzəştli şərtlərlə maliyyələşdirilir.

Maşınqayırma kompleksi müəssisələri arasında ayrı-ayrı neft-maşınqayırma müəssisələrini qeyd etmək lazımdır ki, onların sırasında Bakı neftçıxarma- maşınqayırma zavodu, Bakı, Zabrat və Suraxanı maşınqayırma zavodlarının adlarını qeyd etmək olar. Bu zavodlar Amerika Neft İnstitutunun (ANİ) beynəlxalq standartlar sertifikatlarını almışlar. Neft-maşınqayırmanın məhsullarının istehlakçıları, əsasən, Azərbaycan Dövlət Neft Şirkəti və onun strukturları, həmçinin Rusiya, Qazaxıstan, Türkmənistan və başqalarıdır.

Bu gün qeyri-neft sahələri arasında ən yüksək templi yüksəlişə malik olan informasiya-kommunikasiya texnologiyaları sektorudur (İKT). Bununla əlaqədar olaraq, Azərbaycan Prezidenti İlham Əliyev İKT sektorunun iqtisadiyyatın neft sektorundan sonra ən prioritet sektor olmasını göstərmişdir.

Qeyd etmək lazımdır ki, son illərdə rabitə və informasiya texnologiyaları sahəsində bir sıra mühüm işlər görülmüşdür. Regionların telekommunikasiya şəbəkəsinin tam elektronlaşdırılması yerinə yetirilmişdir, nəticədə ölkənin ən ucqar məntəqələrində müasir elektron ATS-lər qurulmuş  və istifadəyə verilmişdir, Azərbaycanın birinci telekommunikasiya peykinin orbitə çıxarılması planlaşdırılır.

"Elektron Azərbaycan" Dövlət Proqramının həyata keçirilməsi davam edir, bu da ölkə miqyasında idarəetmə proseslərinin birgə avtomatlaşdırılmasına əsaslanır və dövlət idarəçiliyinin səmərəliliyinin  artırılmasına və xərclərin azaldılmasına xidmət edir. Elektron sənəd mübadiləsi əmək məsrəfləri və vaxtının azaldılmasına və sənədlərin hazırlanmasına imkan verir, idarəçilik qərarlarının qəbul edilməsi icra nizam-intizamının rolunu artırır və ona nəzarət mexanizmini sadələşdirir, əhaliyə xidmətin operativliyini təmin edir, tabe idarələrlə və başqa təşkilatlarla qarşılıqlı əlaqələri sürətləndirir.

İnnovasiya məhsullarının artırılması məqsədi ilə Sumqayıt Şəhərində Sumqayıt texnoloji parkı (STP) yaradılmışdı. Texnoparkın müəssisələrində elektrotexniki avadanlıqlar, sayğaclar, günəş kollektorları, transformatorlar, yüksək gərginlik avadanlıqları, hidroturbinlər,

nasoslar, elektromotorlar və s. istehsal olunur.

"Azərkimya" dövlət şirkəti İtaliyanın konsaltinq şirkəti ilə birlikdə Sumqayıt şəhərinin sənaye potensialını bərpa etmək kompleks planını işləyib hazırlamışlar. Köhnə sovet zavodlarının modernləşdirilməsini nəzərdə tutan layihədən fərqli olaraq STP-nin müəssisələri müasir texnologiyalara doğru sıfırdan başlayaraq yaradılmışdı. İlk dəfə yüksək voltlu, müxtəlif kəsimli kabellərin, güc və paylayıcı avadanlıqlar, transformatorlar, su nasosları, hidroturbinlər, yüksək təzyiqə dözümlü polimer borular istehsalı xətti işə salınmışdı.

Yaxın bir neçə ildə Sumqayıtda yeni biznes-inkubatorlar, sənaye parkları və sənaye mərkəzlərinin qurulması planlaşdırılır, burada təxminən 30-a yaxın zavod fəaliyyət göstərəcək. İqtisadiyyatın davamlı inkişafı və rəqabətədavamlılığını təmin etmək, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan informasiya və kommunikasiya texnologiyaları sahəsinin genişləndirilməsi, yeni informasiya texnologiyalarının hazırlanması üzrə müasir komplekslərin yaradılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2012-ci il Sərəncamı ilə Sumqayıt Şəhərində Yüksək Texnologiyalar Parkı yaradılıb.

19 dekabr 2012-ci ildə Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavodu açılmışdır.

Sumqayıt, Gəncə və Qaradağda sənaye parklarının yaradılması tədbirləri davam edir. Əsas məqsəd ölkəyə investisiyaların, yüksək texnologiyaların cəlb edilməsi, innovativ layihələrin stimullaşdırılması və nəticədə iqtisadiyyatın neft sektorunun inkişafının sürətləndirilməsidir.

Bu gün yaradılan texnoparklar və innovasiya infrastrukturunun digər elementləri (elmi müəssisələr, universitetlər və s.) arasında sıx əməkdaşlıq, informasiya mübadiləsi demək olar ki, yox dərəcəsindədir. Hər struktur ayrı-ayrılıqda fəaliyyət göstərir və digərinin işindən xəbər tutmur. Ona görə də işlərdə təkrarlamalar baş verir. İnnovasiya prosesinin üzvləri arasında bazarın tələblərinə vaxtında reaksiya vermək, rəqabətlilik və əlaqələrin genişlənməsi bütün təşkilatların səmərəliliyini artıracaq. Məqsədyönlü siyasi tədbirlər innovasiya prosesinin inkişafına təkan verərdi.

Xarici ekspertlərin rəyinə görə də *Azərbaycanda innovasiya sahəsində görülən işlər bir az xaotik xarakter daşıyır, hər təşkilat "innovasiya" yorğanını öz üzərinə çəkməyə çalışır. Buna görə də işlər ləngiyir.*

**3) Nəticə**

Əminliklə deyə bilərik ki, gələcəkdə texnoparkların müvəffəqiyyətliliyini və rəqabətqabiliyyətliliyini onların səmərəli peşəkar cəmiyyətlər formalaşdırmaq imkanlarını, yeni texnologiyalar bazarında onların mövqeyini (yeni bazarların inkişafına istiqamətlənmə; ekologiya, enerji qənaəti, biotexnologiya və s.) texnoparkların qlobal tədqiqat cəmiyyətləri ilə əlaqələrinin sıxlığı müəyyən edəcək.

Bu gün iqtisadi şərait və bazar imkanları dəyişilib. Bazarlarda məhsulun hərəkət şəraitinin dəyişməsi, innovasiyaları sərbəst yayılan məhsul olmasına gətirib çıxardı. İndi texnoloji nəticənin (qərarın) daşıyıcısı sahə ali məktəblər və elmi-tədqiqat institutları deyil, ayrı-ayrı götürülmüş tədqiqatçılardır. Formatların dəyişməsi innovasiya məhsul və xidmətlər bazarının yenidən qurulması prosesini əks etdirir. İASP və İnstitute for the Future təhlillərinə görə bu gün texnoloji inkişaf cərəyanlarənda dəyişikliklər baş verir. Bu gün yalnız texnoparkların formatı dəyişmir, onların cəmiyyətin və iqtisadiyyatın inkişafında rolu da

dəyişilir. Köhnə nəsil texnoparkların rəqabətqabiliyyətliliyi və gəliri sürətli şəkildə aşağı düşür.

Azərbaycan texnoparklarının problemi ənənəvi texnoparkların təcrübələrini həyata keçirməyə çalışırlar, yerli mühiti və tələbatı öyrənmirlər, ənənəvi səhvləri edirlər. İnnovasiya mərkəzlərinin ilkin inkişaf mərhələlərini keçmədən sonuncu mərhələyə can atırlar. Bu da onların səmərəliliyini azaldır və inkişaf etmədən durğunluğa gətirir. Dövlət tərəfindən innovasiya fəliyyətinə verilən dəstək innovasiya xidmətlərinin və infrastrukturun lazım olan səviyyədə inkişaf etməməsinə görə çox vaxt öz səmərəsini vermir.

*Respublikada MİS-in inkişafına sistem yanaşmanın olmasına ehtiyac var.*

İnnovasiya bazarının uzunmüddətli təşəkkülü dövründə şirkətlər innovasiyaların axtarış, işlənməsi və tətbiqi proseslərini sərbəst idarəetməyi öyrəndilər.

Beləliklə, *yeni nəsil texnoparklar bir sahəyə aid peşəkaları birləşdirən mərkəz simasından çıxırlar.*

Yeni nəsil texnoparkların əhəmiyyəti birbaşa tədqiqat potensialının müxtəlifliyindən asılıdır. Müasir texnopark texnologiyaların sərbəst mübadilə bazarında işləyən texnologiya daşıyıcılarının və istifadəçilərinin "yaradıcı sinif" kommunikasiyaları və sərbəst ünsiyyət yerinə çevrilir.

**ƏDƏBİYYAT**

1. "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASI, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. Горбунов В.Л., Ломоносова Т.В. Теория и практика построения бизнес-инкубаторов. - М.: ФЭР «Созидание», 2007. – 133 с.
3. Ладохин Ю. Инкубатор для малого предприятия // Бизнес для всех. 2005. - № 5.
4. Мухитдинов З., Переверзева Е. Как создать бизнес-инкубатор. – Ташкент: Ассоциация бизнес-инкубаторов и технопарков, 2004. – 285 с.
5. "Руководство по созданию и развитию инновационных центров (технологии и закономерности)", "Эксперт РА" совместно с фондом "Сколково" , 2012.- 144 с.
6. Инновационное развитие регионов – зарубежный опыт (организационные и экономические механизмы) [Текст] : научное издание / под ред. проф. А. П. Лунёва, проф. И. Ю. Петровой. Астрахань : Издательский дом «Астраханский университет», 2009. – 140 с.
7. Сборник методических материалов по осуществлению инновационной деятельности и реализации инновационных программ: Методическое издание / Под ред. И. В. Войтова. — Минск: ГУ «БелИСА», 2011. — 268 с.

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi*
*xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu.*
*№14 Xüsusi buraxılış, Bakı 2014*

# ÖLKƏNİN MÜDAFİƏ SİSTEMİNİN ƏSAS İQTİSADİ İNDİKATORLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

***i.ü.f.d.. Məmmədov B.***

*2005-2011-ci illərdə İİETİ-də*
*aparıcı elmi işçi, şöbə müdiri*
*vəzifələrində işləyibdir*

**XÜLASƏ**

Məqalədə ölkənin müdafiə sisteminin əsas iqtisadi indikatorları, dünya ölkələrində müdafiə sahəsində maliyyələşmə səviyyəsi və ona təsir edən əsas amillərin qiymətləndirilməsi, Azərbaycan Respublikasında müdafiə sahəsində büdcə siyasəti və ölkənin müdafiə sisteminin təşəkkülündə müdafiə sənayesinin rolu və digər məsələlər araşdırılmışdır.

**Açar sözlər:** müdafiə büdcəsi, hərbi xərclər, müdafiə iqtisadiyyatı, müdafiə sənayesi

**Giriş**

Planlaşdırma zamanı müdafiənin iqtisadi aspektlərinin düzgün nəzərə alınması, o cümlədən, dövlət büdcəsində müdafiə xərclərinin, onun təsnifatının optimal səviyyəsinin və xüsusi dövrdə iqtisadiyyatın digər sahələrinin ölkənin müdafiəsinin təşkilində vəzifələrinin müəyyən edilməsi dövlətin vacib funksiyalarındandır. Bu baxımdan, qlobal, makro və mikro səviyyədə iqtisadi amillərin ölkənin müdafiə planlaşdırılmasındakı rolunun müəyyən edilməsi, onun müdafiə sisteminin əsas iqtisadi indikatorlarının müqayisə edilərək qiymətləndirilməsi və milli təhlükəsisliyinin iqtisadi vəzifələrinin, o cümlədən, milli iqtisadiyyatın böhran dövründə fəaliyyətinin müəyyən olunması vacib məsələlərdəndir.

**Əsas dünya ölkələrində müdafiə sahəsində maliyyələşmə səviyyəsi və ona təsir edən əsas amillərin qiymətləndirilməsi**

Büdcənin müdafiə xərcləri və iqtisadi fəallıq və iqtisadi artım arasında geniş və zəngin əlaqə mövcuddur. Bir çox hallarda (I yanaşma) müdafiəyə ayrılan xərclər maddi resursların iqtisadiyyatın mülki sektordan kənarlaşdırılması kimi qəbul olunur. Bundan başqa, müdafiə xərclərinin yüksək səviyyəsi dövlətin maliyyə yükünü artırmaqla iqtisadiyyatın davamlılığını azaldır. Buna əks arqumentlər (II yanaşma) isə müdafiə xərclərinin dövlət təhlükəsizliyini təmin etməklə yanaşı, xarici investisiyalara və iqtisadi aktivliyə rəvac verən mühiti yaratmaqla iqtisadi inkişaf və artıma nail olmağın mümkünlüyünü iddia edir. Müdafiə iqtisadiyyatında əsasən iki iqtisadi məktəbin, merkantilizm və liberalizm "ənənələrinə" rast gəlinir. Bu nəzəri ənənələr müdafiə və milli təhlükəsizlikdə mübahisəli anlayışlar olan "ictimai məhsul", müdafiə sektorunda bazarın tənzimlənməsində dövlətin rolu, müdafiə və mülki sektorlarda texnologiya mübadiləsinin yaratdığı əlavə effektlər barədə izahlar verir. II yanaşma eyni zamanda, müdafiə sənayesinin və xərclərin artımının ümumilikdə iqtisadi artıma müsbət

təsirləri barədə də mülahizələr yürüdür[10]. Dünya iqtisadiyyatında müvafiq yanaşmaların dəqiqləşdirilməsi təhlilimizin vacib məqsədlərindəndir.

Müdafiə xərcləri dövlətlər tərəfindən müdafiə qurumlarına (müdafiə büdcəsi) ayrılan maliyyə vəsaitidir. Bununla yanaşı, “hərbi xərclər” və “müdafiə büdcəsi” bir-biri ilə sıx qarşılıqlı əlaqədə olsalar da, sinonim deyillər. Belə ki, bir qayda olaraq dövlətlərdə hərbi xərclər müdafiə büdcəsində daha yüksək olur. Bu onunla bağlıdır ki, “Milli müdafiəyə” aid olan xərclər bir çox hallarda digər maddələrə yönəldilir. Məsələn: bir çox ölkələrdə hərbi qulluqçuların təqaüdləri müdafiə büdcəsinə aid edilmir. Bundan başqa, hərbidə tikinti, elmi-tədqiqat və layihə konstruktor işləri büdcə qanunun digər maddələrində də ola bilir.




Şəkil 1. Regionlar üzrə 2011-ci il üçün hərbi xərclər, faiz
Mənbə:SIPRI Military Expenditure Database, SIPRI 2012

ABŞ-da Müdafiə Nazirliyinin marağında olan enerji sahəsində nüvə araşdırmaları və ABŞ-ın Əfqanıstan və İraqda hərbi əməliyyatlarını təmin edən maliyyələşmə büdcədə başqa maddələrdə öz əksini tapmışdır. Bu baxımdan, statistikada əks olunan hərbi xərclər reallığı əks etdirmir və ölkələrin bu istiqamətdə fəaliyyətinin təhlili baxımından qeyri-dəqiqlik yaradır.

---

[10]Adrian Kuah and Bernard Loo.Examining the defense industrialization – economic growth relationship: the case of Singapore. 2004. p.32

Cədvəl 1

Dünyada illər üzrə müdafiə xərclərinin artım dinamikası, milyard ABŞ dolları

| | Ümumi dünya (artan sıra ilə) | Afrika | Amerika | Asiya və Okeaniya | Avropa | Yaxın Şərq |
|---|---|---|---|---|---|---|
| 1988 | 1511 | 15,3 | 600 | 132 | 707 | 56,1 |
| 1989 | 1473 | 15,6 | 594 | 138 | 673 | 52,6 |
| 1990 | 1450 | 16,0 | 594 | 143 | 622 | 74,6 |
| 1995 | 1013 | 13,8 | 457 | 161 | 326 | 56,0 |
| 2000 | 1053 | 17,9 | 443 | 183 | 334 | 75,4 |
| 2001 | 1078 | 18,4 | 451 | 194 | 336 | 79,2 |
| 2002 | 1142 | 19,5 | 497 | 204 | 347 | 74,9 |
| 2003 | 1214 | 19,4 | 552 | 213 | 352 | 78,3 |
| 2004 | 1283 | 21,8 | 600 | 224 | 354 | 83,2 |
| 2005 | 1336 | 22,7 | 631 | 236 | 356 | 90,5 |
| 2006 | 1380 | 23,6 | 644 | 249 | 365 | 97,7 |
| 2007 | 1431 | 24,6 | 664 | 267 | 373 | 103 |
| 2008 | 1507 | 27,8 | 714 | 283 | 384 | 99 |
| 2009 | 1607 | 28,6 | 767 | 317 | 392 | 103 |
| 2010 | 1623 | 29,6 | 791 | 322 | 375 | 105 |
| 2011 | 1625 | 32,2 | 780 | 330 | 376 | 106 |

Mənbə: SIPRI Military Expenditure Database, SIPRI 2012

Ümumi dünya üzrə hərbi xərclərin 47 %-i Amerika regionun payına düşür ki, bunun, 90,1 %-i Şimali Amerika, 7,8%-i isə Cənubi Amerikanın payına düşür. Avropada isə hərbi xərclərin 75,3 %-i Qərbi Avropa ölkələrinin, 19,2 %-i Şərqi Avropa ölkələrinin payına düşür. 3-cü ən çox silahlanan region Asiya və Okeaniyada isə hərbi xərclərin 75,6 %-i Şərqi Asiyanın, 16,1 %-i isə Cənubi Asiya ölkələrinin payına düşür.




Şəkil 2. Müdafiə xərclərinin artımı və ÜDM-ə nisbəti, %-lə

Mənbə:SIPRI Military Expenditure Database, SIPRI 2012(Центр анализа мировой торговли оружием, Москва 2012)

Son üç ildə dünyada müdafiə xərclərinin artım sürətində azalma baş vermişdir. Dünya silah ticarətinin təhlili Mərkəzinin (DSTTM) hesablamalarına əsasən ümumi dünya hərbi

xərclərinin ümumi dünya Ümumi Daxili Məhsuluna (ÜDM) faiz nisbətində 2003-2010-cu illər üçün orta göstəricisi 2,38 % təşkil etmişdir. Müvafiq illər ərzində ən aşağı göstərici 2008-ci ildə 2,25 % qeydə alınmışdır. 2008-ci ildən başlayaraq müdafiə xərclərinin artım sürətində müşahidə olunan azalmanın əsas səbəbi kimi dünyada baş verən böhranın nəticəsi olaraq ÜDM-in azalmasını göstərmək olar. Artım sürətinin azalmasına baxmayaraq, dünya ölkələri müdafiə xərclərini artırmaqda davam edir. Belə ki, ABŞ-ın qlobal liderliyə iddialı olması və Əfqanıstan və İraqda hərbi əməliyyatları həyata keçirməsi büdcənin bu istiqamətdə xərclərinin artmasına səbəb olur. Qeyd etdiyimiz kimi, adıçəkilən döyüş əməliyyatlarının maliyyələşməsi ABŞ-ın müdafiə xərclrinin hesabına həyata keçirilməməsinə baxmayaraq, 2003-2010-cu illərdə ABŞ-ın hərbi xərcləri dünya üzrə hərbi xərclərin 46,1 %-ni təşkil etməklə yanaşı, artımın da əsas mənbəyi olmuşdur. Bununla yanaşı, bir çox ölkələrin (Hindistan, İndoneziya, Avstraliya, Braziliya, Səudiyyə Ərəbistanı, İran və digər ) "regional" lider olmaq məqsədləri hərbi xərclərin artımını şərtləndirir.

Cədvəl 2

2003-2007-ci illərdə dünyada müdafiə sənayesinin əsas göstəriciləri

| Ölkələr | 2003-2010-ci illərdə silah və hərbi texnika ixracı, milyard dollar | 2003-2010-ci illərdə ÜDM, milyard dollar | 2003-2010-cu illərdə hərbi xərclər, milyon dollar | İxrac/ÜDM, faiz | İxrac/hərbi xərclər, faiz |
|---|---|---|---|---|---|
| İsrail | 13106,6 | 1305,8 | 99248 | 1,00 | 13,2 |
| Rusiya | 45452,1 | 8437,5 | 234300 | 0,54 | 19,4 |
| Ukrayna | 2686,8 | 886,9 | 9532 | 0,30 | 19,4 |
| İsveç | 9522,1 | 3257,5 | 43640 | 0,29 | 21,8 |
| Gürcüstan | 107,5 | 68,8 | 3762 | 0,16 | 2,19 |
| ABŞ | 119338,8 | 105781,3 | 4489875 | 0,11 | 2,7 |
| Cin | 6559,2 | 27425,4 | 374278 | 0,02 | 1,8 |
| Türkiyə | 1099,4 | 4436,7 | 93349 | 0,02 | 1,2 |
| Qazaxıstan | 10,5 | 713,9 | 7124 | 0,00 | 0,1 |

Mənbə: Центр анализа мировой торговли оружием, Москва 2012

Ümumilikdə hərbi-geosiyasi vəziyyəti qiymətləndirərkən ehtimal etmək olar ki, 2008-2010-cu illərdə ümumdünya iqtisadi böhranının nəticələrini dəf etdikdən sonra müdafiə xərclərinin artımı davam edəcək və bu "yarışa" daha çox dövlətlər cəlb olunacaqdır. Bunun səbəbi bir sıra regionlarda konfliktliliyin yüksək olması və XXI əsrin ən böyük təhdidi olan beynəlxalq terrorizmlə mübarizədir.

Müdafiə iqtisadiyyatının digər maraq doğuran indikatorlarından biri də dünya ölkələri üzrə müdafiə sənayesinin əsas göstəriciləridir. Rusiyanın dünya silah ticarəti Mərkəzinin analitiklərinin 2012-ci il qiymətləndirmələrinə əsasən 2003-2010-cu illərdə silahların ixracının ÜDM-yə nisbəti göstəricisinə (müvafiq göstərici hərbi sənayenin ölkə iqtisadiyyatındakı əhəmiyyətini əks etdirir) görə dünyada ilk yeri İsrail və Rusiya Federasiyası tutur. Belə ki, müvafiq dövrdə İsraildə silah ixracı ÜDM-in 1 %-nə (2003-2007-ci illər ərzində silah ixracı 13,107 milyard dollar, ÜDM 1305,78 milyard dollar təşkil etmişdir) bərabərdir. Rusiya Federasiyası 0,54 %-lə (silah ixracı 45,452 milyard dollar, ÜDM 8437,47 milyard dollar) ikinci

yerdədir. Lider üçlüyü Ukrayna 0,3 % göstərici ilə tamamlayır. Bununla yanaşı, Ukrayna silah ixracının dövlətin hərbi xərclərinə nisbətində 28,2 % göstərici ilə dünyada birinci yerdədir. Müvafiq göstəricilər arasında asılılıq dövlətin silah ixracı ilə Silahlı Qüvvələrin inkişafına ayrılan vəsaitlər arasında bilavasitə tarazlığı müəyyən edir. Müvafiq göstərici üzrə ikinci yeri İsveç (21,8 %), üçüncü yeri Rusiya Federasiyası (19,4 %) tutur.

**Azərbaycan Respublikasında büdcə siyasəti və müdafiə sənayesi ölkənin müdafiə sisteminin əsas elementi kimi**

Azərbaycan Respublikasında yüksək hərbi xərclərə aşağıdakı amillər təsir edir:

- strateji amillər (tarixi, dini, etnik, iqtisadi və siyasi amillərə əsaslanan təhdidlər);
- Ermənistan Respublikası ilə mövcud konflikt (Dağlıq Qarabağın, həmçinin onunla həmsərhəd 7 rayonun işğalı);
- regionda ehtimal olunan geosiyasi təhdidlər (İran İslam Respublikası və Rusiya Federasiyasının siyasi və geosiyasi maraqları, o cümlədən Xəzərin statusu ilə bağlı məsələlər və digər) ;
- terrorizm və transmilli cinayətkarlığa qarşı mübarizə (separatçılıq, etnik, siyasi və dini ekstremizm, terrorçuluq və kütləvi qırğın silahlarının yayılması, regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlığa qarşı dövlət tədbirləri) ;
- silahlı qüvvələrin modernləşdirilməsi (silah və hərbi texnikanın yenilənməsi və müasir müdafiə texnologiyalarının alınması, şəxsi heyətin hazırlıq səviyyəsinin yüksəldilməsi);
- ölkənin iqtisadi vəziyyəti (ölkənin dinamik və dayanıqlı inkişafının təmin olunması, xarici xammaldan asılılığın azaldılması və özü-özünü təmin etmə səviyyəsinin yüksəldilməsi, müəssisələrin istehsal güclərinin, texnoloji potensialının, həmçinin rəqabət qabiliyyətliliyinin artırılması və s.) ;
- digər amillər (daxili siyasi və ictimai vəziyyət, dünya ictimaiyyətinin etimadının qazanılması və s.).

Regionda hərbi-siyasi vəziyyətin dinamik dəyişdiyi və hərbi-strateji durumun qeyri-müəyyən olduğu bir zamanda, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin gələcək müharibələrə hazırlığı dövlətin hərbi təhlükəsizliyinin mühafizəsi baxımından önəmlidir.

Cədvəl 3

Ölkələr üzrə indikativ müqayisə

| | Azərbaycan | Türkiyə | Rusiya | ABŞ | Ermənistan | Gürcüstan |
|---|---|---|---|---|---|---|
| Əhalinin sayı, milyon nəfər* | 9.1 | 74.7 | 143.1 | 313.7 | 3,3 | 4.5 |
| ÜDM, milyon ABŞ dolları** | 62321 | 778089 | 1850401 | 15094025 | 10106 | 14347 |
| Adambaşına ÜDM, ABŞ dolları** | 5764 | 10206 | 10521 | 47132 | 2676 | 2559 |
| Uzun ömürlülük müddəti, il*** | 67,5 | 71,96 | 70,3 | 78,2 | 72 | 71 |
| Milli müdafiə xərcləri, milyon ABŞ dolları**** | 1476 | 17649 | 58644 | 698281 | 395 | 454 |
| Müdafiə xərclərinin ÜDM-yə nisbəti, faiz | 2,9 | 2,4 | 3,9 | 4,8 | 4,2 | 3,9 |
| Adambaşına müdafiə xərcləri, ABŞ dolları | 162,2 | 236,3 | 409,8 | 2226 | 119,7 | 100,9 |
| Hərbi xidmətçılırin sayı, min nəfər***** | 66940 | 666576 | 1027000 | 1458219 | 46684 | 21150 |
| Hərbi xidmətçilərin əhalinin sayında payı, faiz | 7,4 | 8,9 | 7,1 | 4,6 | 14,1 | 4,7 |

Mənbə:

* - А. П. Олейник ‘Страны мира в цифрах /2011.

** - International Monetary Fund, World Economic Outlook Database, October 2010: Nominal GDP list of countries. Data for the year 2010.

*** United Nations World Population Prospects: 2006 revision.

****SIPRI Military Expenditure Database, SIPRI 2012

*****http://en.wikipedia.org/wiki/List_of_countries_by_number_of_military_and_paramilitary_personnel.

Ölkələr üzrə əsas indikatorların müqayisəsi müdafiə iqtisadiyyatı sahəsində dövlətlərin müxtəlif büdcə siyasətini həyata keçirdiyi məlum olur. Müxtəlif büdcə siyasətləri müxtəlif siyasi, iqtisadi, mədəni və digər vəziyyətin təzahürüdür. 2010-cu ilin göstəricilərinə əsasən ölkə üzrə yaradılan əlavə dəyər 62,3 milyard ABŞ dolları təşkil edtmişdir ki, adambaşına 5764 ABŞ dollarıdır. Son illər ölkədə ÜDM-in artımı və büdcə gəlirlərinin artımı və müharibə şəraiti öz növbəsində müdafiə xərclərinin artımını zəruri etmişdir. Regionun iqtisadiyyatının 70 %-dən çoxuna sahib olan Azərbaycan, müdafiə xərclərinin ÜDM-yə nisbətində Ermənistandan 1,3 faiz-bəndi, Gürcüstandan isə 1 faiz-bəndi geridir. Adambaşına müdafiə xərclərində isə ölkəmiz Ermənistanı 35,5 %, Gürcüstanı isə 60,8 % üstələyir. Qeyd edək ki, digər tərəfdən müvafiq indikator təhlükəsizliyin iqtisadiyyata, yəni hərbi xərclərin əhalinin hər nəfərinə yaratdığı ağırlığı göstərir. Silahlı qüvvələrin silah və hərbi texnika təchizatının və şəxsi heyətin saxlanılması arasında düzgün nisbətin və maliyyə resurslarından səmərəli istifadənin qorunması və silahlı qüvvələrin şəxsi heyətinin məqsədyönlü səviyyədə saxlanılması vacibdir. Azərbaycanda region ölkələri ilə müqayisədə bu istiqamətdə durum daha uyğundur. Belə ki, qeyd etdiyimiz kimi, Azərbaycanda adambaşına müdafiə xərcləri Ermənistandan 35 faiz-bəndi çox olmasına baxmayaraq, silahlı qüvvələrin şəxsi heyətinin əhalinin sayında payı iki dəfəyə

yaxın, yəni 6,7 faiz-bəndi çoxdur. Bu baxımdan ölkəmizdə silahlı qüvvələrin silah və hərbi texnika bazasının modernləşməsi imkanları daha çoxdur.




Şəkil 3. Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri və xərcləri
Mənbə:İllər üzrə dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının Qanunu.

Azərbaycanda aparılan uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq 2010-cu ildə 1996-ci illə müqayisədə dövlət büdcəsinin gəlirləri 29 dəfə, xərcləri isə 24 dəfə, həmçinin, əvvəlki ilə nisbətən müvafiq olaraq gəlirlər 11 %, xərclər 12 % artmışdır. Bununla yanaşı büdcə kəsiri 2010-cu ildə son illərdə ən yüksək həddə, yəni, 362,9 milyon manata bərabər olmuşdur.




Şəkil 4. Azərbaycan Respublikasının dövlət büdcəsinin kəsiri, milyon manat
Mənbə:İllər üzrə dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının Qanunu.




Şəkil 5. Azərbaycan Respublikasında müdafiə xərclərinin dəyişməsi dinamikası
Mənbə:İllər üzrə dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının Qanunu.

2010-cu ildə müdafiə xərcləri ümumi dövlət büdcə xərclərinin 10,1 %-nə bərabər olmuşdur. 2010-cu ildə müdafiə xərclərinin 92,8 %-i müdafiə qüvvələrinə, 6, 9 %-i milli təhlükəsizliyə, 0,2 %-i müdafiə və təhlükəsizlik sahəsində tədqiqatlara və təqribən 0,2 %-i digər kateqoriyalara aid edilməyən xərclərə yönəldilmişdir.

Müvafiq təhlillərdən sonra təbii olaraq hərbi təşkilatların fəaliyyətinin təmin edilməsi üçün vəsaitlərin rasioanal həcmi sual doğurur. Bu eyni zamanda, milli təhlükəsizliyin ən vacib məsələlərindəndir. Bir çox ölkələrdə milli müdafiə xərclərinin həcmi "müdafiə yetərliliyi" prinsipi əsasında formalaşır. Bu prinsipin iqtisadi mahiyyəti müdafiə xərclərinin iqtisadiyyatın mülki sektorunun inkişafını zəiflətdiyindən onun az olması məqsəduyğundur. Digər tərəfdən isə dövlət təhlükəsizliyinə təhdidlərin hər zaman mövcudluğu səbəbindən müdafiə xərcləri həddən artıq aşağı olmamalıdır. Bir sözlə, hərbi xərclərin rasional həcmi iqtisadiyyatın mülki sektorunun dinamik həcmi təmin edilməsi və dövlətin hərbi təhdidlərdən mühafizəsi arasında kompramis seçim əsasında müəyyən olunmalıdır.

Ölkənin müdafiə qabiliyyətinin artırılması istiqamətində dövlət qarşısında duran vacib məsələlərdən biri də silah və hərbi texnikanın istehsalında idxaldan asılılığın azaldılması və ölkənin həm hərbi təhlükəsizlik, həmdə iqtisadi maraqlar baxımından müdafiə sənayesinin inkişaf etdirilməsidir. Ölkənin müdafiə sənayesi bazası ölkənin müdafiəsi məqsədilə, istehsal, tədqiqat, texnologiya, inkişaf, resurslar daxil olmaqla material ehtiyaclarının kompleks istehsalıdır. Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2005-ci il tarixli 1181 nömrəli Sərəncamı ilə Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin bazasında Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi yaradılmışdır. Müdafiə Sənayesi Nazirliyi fəaliyyətə başladığı tarixdən bu günədək nazirliyin tabeliyindəki birlik və müəssisələrdə 40-dan artıq yeni istehsal sahəsi yaradılmışdır və bunlardan 10-u 2011-ci ildə isifadəyə verilmişdir. 2011-ci ildə istehsal olunmuş müdafiə təyinatlı məmulatların həcmi 2007-ci illə müqayisədə 23,0 dəfədən çox artmışdır. Yaradılma proqramı üzrə 2007-ci illə müqayisədə yerinə yetirilmiş mövzuların sayı 5,5 dəfədən çox artmışdır. Hazırda, nazirliyin müəssisələrində müdafiə təyinatlı məmulatların istehsalı ilə yanaşı, mövcud istehsal bazasından istifadə etməklə mülki məhsulların yeni növlərinin mənimsənilməsi istiqamətində də məqsədyönlü işlər aparılır. Məhz onun nəticəsidir ki, 2007-ci illə müqayisədə 2011-ci ildə mülki məmulatların istehsal həcmi 1,8 dəfədən çox artmışdır. Ötən illə üqayisədə isə 14 % artım əldə edilmişdir.İstehsal olunan məhsulların çeşid sayı 400-ü ötmüşdür.

Cədvəl 4

2006-2010-cu illər üzrə müdafiə xərclərinin həcmi və strukturu

| | 2006 | | 2007 | | 2008 | | 2009 | | 2010 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | cəmi | Müdafiə xərclərində payı, faiz | cəmi | Müdafiə xərclərində payı, faiz | cəmi | Müdafiə xərclərində payı, faiz | cəmi | Müdafiə xərclərində payı, faiz | cəmi | Müdafiə xərclərində payı, faiz |
| Müdafiə xərcləri | 640712,0 | 100 | 811443,7 | 100 | 1321206,8 | 100 | 1183884,1 | 100 | 1185241,5 | 100 |
| o cümlədən: | | | | | | | | | | |
| müdafiə qüvvələri | 584060,9 | 91,2 | 749751,9 | 92,4 | 1242316,4 | 94,0 | 1095944,7 | 92,6 | 1099645,7 | 92,8 |
| milli təhlükəsizlik | 40901,1 | 6,4 | 58157,5 | 7,2 | 75235,4 | 5,7 | 83650,8 | 7,1 | 81513,5 | 6,9 |
| müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 15750,0 | 2,5 | 2237,0 | 0,3 | 1968,3 | 0,1 | 2238,3 | 0,2 | 1993,6 | 0,2 |
| digər kateqoriyalara aid edilməyən xərclər | 0,0 | 0,0 | 1297,3 | 0,2 | 1686,6 | 0,1 | 2050,3 | 0,2 | 2088,7 | 0,2 |

Mənbə: İllər üzrə dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının Qanunu.

**Nəticə**

Milli dövlətçilik özündə ölkənin və onun əhalisinin müdafiəsini əks etdirir. Bunun üçün hökumət milli maraqları və strateji hədəfləri müəyyən edir, strateji şəraiti gözdən keçirir, gələcək haqqında strateji qiymətləndirmə aparır və strateji məqsədlərə nail olmaq strategiyasını müəyyən edir. Milli təhlükəsizlik strategiyası milli hakimiyyətin bütün elementlərindən tarazlı istifadə etməklə strateji məqsədlərə nail olmaq üçün hazırlanır. Milli hakimiyyətin elementləri özündə diplomatik, informasiya, silahlı qüvvələr və iqtisadi vasitələri birləşdirir.Müdafiə və iqtisadiyyat arasında ümumi qarşılıqlı münasibətlər sistemində əsas yeri müdafiənin təşkili, müdafiənin idarə edilməsi və müdafiənin planlaşdırılması (strategiyası) tutur. Strategiya iqtisadi imkanların hesablanmasına əsaslanır və hərtərəfli qiymətləndirmə nəinki hərbi, həmçinin iqtisadi, xüsusilə də hərbi-iqtisadi münasibətləri əhatə etməlidir. Bu baxımdan, iqtisadiyyatın vəziyyəti, onun silahlı qüvvələri material və digər resurslarla təmin etmə imkanları bilavasitə strateji fəaliyyətin formasında, əməliyyatın xarakterində və strateji planların uğurla həyata keçirilməsinə öz əksini tapır. Dövlətin etibarlı müdafiəsinə, strateji düşüncələrini iqtisadi imkanlar ilə uyğunlaşdırılması, silahlı qüvvələrin hazırlıq səviyyəsinin yüksəldilməsi və iqtisadi potensialın daha tam və səmərəli istifadəsinə istiqamətlənmiş güc və həyata keçiriləcək kompleks tədbirlərin uyğunluğunun düşünülmüş qiymətləndirilməsi yolu ilə nail oluna bilər.

Büdcənin müdafiə xərcləri və iqtisadi fəallıq və iqtisadi artım arasında geniş və zəngin əlaqə mövcuddur. Birinci halda, müdafiəyə ayrılan xərclər, maddi resursların iqtisadiyyatın mülki sektordan kənarlaşdırılması, müdafiə xərclərinin yüksək səviyyəsinin dövlətin maliyyə yükünü artırmaqla iqtisadiyyatın davamlılığının azaldılması kimi qəbul olunur. İkinci halda, müdafiə xərcləri dövlət təhlükəsizliyini təmin etməklə yanaşı, xarici investisiyalara və iqtisadi aktivliyə rəvac verən mühiti yaratmaqla iqtisadi inkişaf və artıma nail olmağın mümkünlüyünü iddia edilir. Müdafiə xərcləri dövlətlər tərəfindən müdafiə qurumlarına (müdafiə büdcəsi) ayrılan maliyyə vəsaitləridir. Bununla yanaşı, "hərbi xərcər" və "müdafiə büdcəsi" bir-biri ilə sıx qarşılıqlı əlaqədə olsalar da, sinonim deyillər.

Azərbaycan Respublikasında yüksək hərbi xərclərə strateji amillər, Ermənistan Respublikası ilə mövcud konflikt, regionda ehtimal olunan geosiyasi təhdidlər, terrorizm və transmilli cinayətkarlığa qarşı mübarizə, silahlı qüvvələrin modernləşdirilməsi, ölkənin iqtisadi vəziyyəti və digər amillər təsir edir.

**ƏDƏBİYYAT**

1. İllər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunları;
2. А. П. Олейник 'Страны мира в цифрах /2011;
3. Adrian Kuah and Bernard Loo. Examining the defense industrialization – economic growth relationship: the case of Singapore. 2004. p.32;
4. International Monetary Fund, World Economic Outlook Database, October 2010: Nominal GDP list of countries. Data for the year 2010;
5. United Nations World Population Prospects: 2006 revision;
6. SIPRI Military Expenditure Database, SIPRI 2012.

**“Riyazi modelləşdirmə sistemi yolu ilə ümumi iqtisadi tarazlığın modelləşdirilməsi” mövzusunda təlim**
**(21 aprel 2014-cü il)**





**İİETİ, Əfqanıstan, Pakistan, İran, Türkiyə, Qırğızıstan, Qazaxıstan və Tacikistandan olan nümayəndələr**

**İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin İqtisadi Beyin Mərkəzlərinin 2-ci Bakı Forumu; "Enerji, Regional İnteqrasiya və Sosial-İqtisadi İnkişaf" mövzusunda 2-ci Beynəlxalq Konfrans və İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun 50 illik yubiley tədbiri**
**(01 oktyabr 2014-cü il)**






**İİETİ-nin əməkdaşları 50 illik Yubiley tədbirində**





**Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu" mövzusunda elmi-praktik konfrans**
**(05 iyun 2015-ci il)**









## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Əliyev Ə.**
*Davamlı inkişafın insan inkişafı indeksindən, elm və təhsil indeksindən asılılığı*
**Nəcəfov S.**
*Ölkə iqtisadiyyatının tsikliliyində kreditin rolu*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №16, Bakı 2016*

# DAVAMLI İNKİŞAFIN İNSAN İNKİŞAFI İNDEKSİNDƏN, ELM VƏ TƏHSİLDƏN ASILILIĞI

***i.e.d., t.e.d. Əliyev Ə.***

*2017-2021 -ci illərdə İİETİ-də baş elmi işçi vəzifəsində işləyibdir.*

**Xülasə**

Bu məqalə hər bir dövlətin davamlı inkişaf yollarının birbaşa insan inkişafı indeksindən və təhsildən asılılığına dair aparılan elmi tədqiqatların nəticəsidir. Məqalədə insan inkişafı indeksinin hesablanması, elm və təhsilin davamlı inkişafa təsiri yolları tədqiq edilir.

**Açar sözlər:** insan inkişafı, kombinələşdirilmiş göstəricilər, əsas elementlər, iqtisadi inkişaf, sosial ədalətlilik, ekspert qiymətləndirilməsi, beynəlxalq qloballaşma, milli şüur.

**Giriş.** Hər bir ölkə davamlı inkişaf yollarının müəyyənləşdirilməsi istiqamətində təhlil və tədqiqatlar aparır. Bu təhlil və tədqiqatlar ilk növbədə hər bir ölkədə sosial-iqtisadi tərəqqinin vəziyyətinin qiymətləndirilməsindən keçir. Bu istiqamətdə ilk dəfə 1990-cı ildə Birləşmiş Millətlər Təşkilatının inkişaf proqramına dair ilk məruzəsi çap edilmişdir.

Bu məruzədə dünya ölkələrində sosial-iqtisadi tərəqqi və insan inkişafı haqda anlayış formalaşdırılmışdır. Məruzədə qeyd olunmuşdur ki, "İnsan inkişafı seçim spektrinin genişləndirilməsi" prosesidir və bunun əsas vacib seçim elementləri yüksək layiqli həyat səviyyəsinin, təhsilin, sağlam həyatın, uzun ömrün vacib elementlərinin seçimi ilə əlaqədardır. Burada əlavə seçim elementlərinə siyasi azadlıq, qarşılıqlı hörmət və zəmanətli insan hüququnu daxil etmək olar. Bu baxış sistemi insan həyat keyfiyyətinin artırılmasına və bütün sahələrdə onun imkanlarının müasirləşməsinə və genişləndirilməsinə istiqamətləndirilmişdir. Aparılan təhlillər onu göstərir ki, insan potensialının inkişaf konsepsiyası BMT inkişaf proqramı tərəfindən hazırlanmış kifayət qədər məşhur intellektual məhsulundan biridir.

Bu cür baxış sistemi insan həyatının keyfiyyətinin yüksəldilməsinə, onun bütün sahələrdə imkanlarının müasirləşdirilməsinə və genişləndirilməsinə yönəldilmişdir. İnsan inkişafı konsepsiyası ümumi dəyər, milli məhsul göstəriciləri üzərində qurulmuş belə adlanan "klassik" iqtisadi inkişaf nəzəriyyəsini əvəz etmişdir, belə ki, insana iqtisadi inkişafın aparıcı qüvvəsi kimi, iqtisadi artımı ictimai tərəqqinin baş məqsədi kimi elan edilirdi. BMT inkişaf proqramının 2010-cı il məruzəsində "insan inkişafı" anlayışının təyin edilməsinə kifayət qədər əlavələr edilmişdir. Bu gün "insan inkişafı indeksi"- kombiləşdirilmiş bir göstərici kimi dünyanın regionlarında və ölkələrində insan inkişafını xarakterizə edir.

1) İnsan inkişafının üç komponenti və davamlı inkişafın rolu.

2) İnsan inkiaşfı uzun müddət pozitiv nəticələrin saxlanılmasını nəzərdə tutmaqla yanaşı, insan istismarına aparan proseslərə əks təsir göstərməklə struktur ədalətsizliyə təsiri də gücləndirir.

Tədqiqatlar göstərir ki, insan inkişafının təyin edilməsi üç komponentdən ibarətdir. Bunlar bu göstəricilərdən ibarətdir:

**Maddi durum** – yəni real insan azadlığının genişlənməsi və çiçəklənməsi nəticəsində insanların və hansısa bir qrupun imkanlarının və hüququnun genişləndirilməsi ilə əlaqədar qiymətli nəticələrin əldə edilməsidir.

**Ədalətlilik prinsipi** – zamanla davamlılıq nəticələrinin təmin olunması, sosial ədalətin yüksəldilməsi, cəmiyyətin digər məqsədlərinə və insan hüququna hörmət, insanın inkişafı konsepsiyasının əsas strateji aləti insan inkişafının indeksidir, bu da 1990-cı ildə Pakistan iqtisadçısı Məhbab Ul Haq tərəfindən işlənilmişdir.

Təqdiqatın başlıca ideyası o zaman kifayət qədər radikal sayılsa da, eyni zamanda çox sadə idi. İctimai inkişafın qiymətləndirilməsi yalnız uzun müddət milli gəlir üzərində qurulması praktikasından yox, eyni zamanda təhsil və sağlamlıq sahəsində bir çox ölkələrdə ölçülməsi mümkün olan nailiyyətlər idi. Belə sayılırdı ki, bir sıra parametrlərin birbaşa statistik göstəriciləri həyatın keyfiyyətini və eyni zamanda onun vəziyyətini əks etdirir.

İndeksin əsasına ekspertlərin qeyri-subyektiv qiymətləri qoyulmayıb, onun əsasına statistik açıq mənbələrdən real rəqəm göstəriciləri daxil edilib və ona görə də nisbətən obyektiv sayılır.

İnsan inkişafı indeksinin bir çatışmazlığı da mövcuddur və bunu onu tərtib edənlər də söyləyirlər, çünki o milli orta göstəricilərə söykənir, bu da bir növ maddi resursların bölüşdürülməsinin assimmetrikliyini gizlədir və ona görə də tədqiqatı aparılan ölkələrdə real vəziyyəti bir çox hallarda əks etdirmir.

Bununla yanaşı ümumilikdə o uğurla qarşıya qoyulan məsələni həll edir. BMT-nin xüsusiləşdirilmiş strukturlarına yüksək inam səviyyəsi, BMT inkişaf proqramı daxil olmaqla və eyni zamanda metodoloji əsaslar insan inkişafı indeksini ictimai inkişafı xarakterizə edən ən hörmətli təsnifata çevirmişdir.

İnsan inkişafı indeksi bu və ya digər ölkədə insan inkişafı səviyyəsinin tam göstəricisidir və ona görə onu "həyat səviyyəsi" "həyat keyfiyyəti" sinonimi kimi bəzən istifadə edirlər. İnsan inkişafı indeksi (İİİ) sağlamlığın vəziyyəti, təhsilin verilməsi və vətəndaşların faktiki gəliri nöqteyi-nəzərindən bu üç istiqamətdə ölkə səviyyəsini ölçür, bunlar da ki, öz indeksləri ilə qiymətləndirilir.

**Məsələn, gözlənilən həyat dövrü indeksi** sağlamlığın və uzun ömürlülüyün, doğulduqdan sonra gözlənilən orta həyat dövrünün ölçülə biləcək göstəricisidir.

**Təhsil indeksi** məktəb yaşlı uşaqların gözlənilən orta təhsil müddətinin və yaşlı əhalinin orta təhsil müddətinin ölçülməsi və təhsil imkanları göstəricisidir.

**Ümumi dəyər milli gəlir indeksi** həyat tərzinin layiqliliyini, yəni əhalinin sayını nəzərə almaqla ümumi milli gəlirin səviyyəsi ilə ölçülən ABŞ dolları ilə alıcılıq qabiliyyətinin paritetini əks etdirir.

Bu üç ölçü 0-1-dək rəqəm mənalı göstərici kimi standartlaşdırılır və 0-1-dək diapazonunda insan inkişafı indeksi kimi orta birgə həndəsi göstərici kimi təqdim olunur. 2010-cu ildə insan inkişafı indeksinin özü ciddi korrektəyə məruz qalmışdır. İstifadə olunan insan inkişafı indeksinə orta ölkə məlumatlarına söykənən və daxili qeyri- bərabərliyi nəzərə

almayan ümumiləşdirilmiş göstəricilərə, üç yeni indikatorlar daxil edilmişdir. İnsan inkişafı indeksi, sosial-iqtisadi qeyribərabərliyi, Qender qeyri-bərabərlik indeksini və çox ölçülü kasıbçılıq indeksini nəzərə almaqla korrektə edilmişdir.

İnsan inkişafı indeksinin hesablanmasında üç növ göstərici nəzərə alınmalıdır. Gələcək orta həyat dövrü doğulduqda- uzunömürlülüklə qiymətləndirilir. Təhsilin səviyyəsi (savadlılıq) iki göstəricinin kombinə olunması ilə təyin edilir. Buraya yaşlı əhalinin savadlılığı və əhalinin üç pilləli sistemlə əhatə olunması yəni (ilkin, orta və ali) təhsil nəzərdə tutulur.

Həyatın maddi səviyyəsi adambaşına əhaliyə ümumi daxili məhsulun düşməsi səviyyəsi ilə, yəni dollara çevrilmiş həcmi ilə alıcılıq qabiliyyəti paritetitinin köməyi əsasında qiymətləndirilir.

Gəlir sahəsində əhalinin adambaşına düşən ümumi daxili məhsulun dünya səviyyəsində müqayisə üçün orta istifadə olunur.

İndeks insan rifahının üç vacib bu aspektləri hər bir ölkədə və ya regionda səviyyəsini əks etdirir.

Hər üç sahədə əldə olunan nəticələr ideala yaxın göstəricilərlə faizlə əvvəlcədən qiymətləndirilir, çünki bu vəziyyətə heç bir ölkə nail olmayıb:

- gözlənilən həyatın davamlılığı 85 yaşa bərabər;
- əhalinin hər üç pillə üzrə təhsilinin əhatə edilməsi və savadlılılığın 100% səviyyəsi;
- əhalinin adambaşına real ümumi daxili məhsulunun 40000dollar səviyyəsinə uyğunluğu.

Sonra bu üç indeksin orta sadə məxrəci hesablanır.

1.Gözlənilən həyatın davamlılığının (BMT inkişaf proqramı ilə təyin olunmuş) təsbit edilmiş mənası:

- maksimum- 85 yaş;
- minimum – 25 yaş.

2. Savadlılıq indeksi (15 yaş və daha böyük):

- maksimal-100%;
- minimal -0%.

3. Tələbələrin birgə hissəsi indeksi (təhsil indeksi).

Əhalinin yaş qrupuna 7-24 yaş uyğun sayında təhsilə cəlb olunması %:

- maksimum-100%;
- minimum – 0%.

4. Təhsilin çatmış səviyyəsinin birgə indeksi.

5. Əhalinin adambaşı real ümumi daxili məhsulu ABŞ dollarının alıcılıq qabiliyyəti pariteti əsasında:

-maksimum 40000 dollar, alıcılıq qabiliyyəti pariteti;

-minimum 100 dollar, alıcılıq qabiliyyəti pariteti.

Bir halda ki, ümumdaxili məhsulun əhalinin adam başına düşən mənası çox fərqli vəziyyətdədir, hesablama üçün onların mənasından yox, onların onluq loqaritmindən istifadə olunur.

6. İnsan potensialının inkişafı indeksi : M

- maksimal mümkün mənası -1;
- minimal mümkün mənası -0.

İnsan potensialının inkişaf potensialı 1-ə bərabər olduğu o ölkəyə aiddir ki,orada orta həyat davamlılığı 85 yaşa bərabərdir , əhalinin adambaşına ümumi daxili məhsulu 40000 dollara bərabərdir, əhalisinin 100%-i savadlıdır, digərləri yaşına uyğun ilkin, yaxud orta təhsil ocağında göstəriciləri, yaxud orta və ya ali məktəbdə oxuyurlar. Bu ilkin olaraq bütün ölkələr üçün dəyişməz indikatorlardır.

Bu gün bu göstəricilərə yaxın yalnız Norveçdir. Ona görə də aparılan tədqiqatlar bunu söyləməyə əsas verir ki, 0.5 aşağı indeksi olan ölkələrdə regionlarda insan inkişafı səviyyəsi çox aşağıdır, 0.5-0.8- orta səviyyədədir, 0.8 və daha yüksək olduqda insan inkişaf səviyyəsi çox yüksək sayılır. Eyni zamanda ölkənin reytinqi insan potensialının inkişafı indeksi ümumidaxili məhsuldan yüksəkdirsə onda belə bir nəticəyə gəlmək olar ki, bu ölkədə insanın imkanlarının genişləndirilməsi nəticəsində maksimal xeyirlə iqtisadi çiçəklənməni təmin etmişdir. Yaxud əksinə insan potensialının inkişafı indeksinin artım tempi əhalinin adam başına ümumi dəyər məhsulunun artım tempindən aşağıdırsa, onda həmin ölkədə iqtisadi çiçəklənmə nəticəsində insan həyatının keyfiyyətinin artırılmasına nail ola bilinməmişdir.

Ölkənin insan potensialının yerləşdirilməsinin əsas təsir faktoru istehsalın yerləşdirilməsidir və bu problemi yalnız cəmiyyətlə sıx əlaqəsi olan hakimiyyət həll edə bilər.

3) Elm və təhsilin insanın inkişaf indeksində və davamlı inkişafda rolu.

Aristotel (b.e.ə. 384-cü il-322-ci il b.e.ə) hesab edirdi ki, insan şəxsi xoşbəxtliyə can atır, bu isə qəlbin xoş işlərlə dolu fəaliyyətidir. O belə bir nəticəyə gəlmişdi ki, yaxşılıq iki növ olur- düşüncəli və mənəviyyatlı. Əgər mənəviyyat yaxşılığı adət-ənənə ilə, vərdişlə doğulursa, düşüncəli yaxşılıq yalnız öyrənməklə yaranır və artır.

Platon (b.e.ə.428-ci il – 347-ci il b.e.ə) "Dövlət və könül haqqında" traktatda sosial-iqtisadi münasibətlər sistemində insanın yerini tədqiq etmişdir və insanın öyrədilməsinin vacibliyini qeyd etmişdir. "O qeyd edirdi ki, düzgün tərbiyə və öyrədilmə insanda yaxşı təbiətli fikirlər oyadır və belə tərbiyə nəticəsində o daha da yaxşı olur və bunu öz gələcək nəslinə ötürür".

Elm və təhsilin vəziyyəti sualı hər bir zaman hətta bugün dünyada qloballaşma şəraitində diqqət mərkəzində olub. Elm və fəlsəfə məktəbinə aidiyyatından asılı olmayaraq, praktiki olaraq bütün tədqiqatçılar bu nəticəyə gəlirlər ki, təhsil hər bir millətin formalaşmasında vacib rol oynayır.

Hər bir halda milli şüurun formalaşması təhsil və elm ideyaları ilə bağlıdır. Buna nail olmaq isə demokratik ölkənin bir başlıca vəzifəsi olaraq qalır. Çünki ölkənin elmi texniki potensialı sosial-iqtisadi inkişafın vacib bir faktorudur və elmi-texniki tərəqqinin əsas mənbəyi kimi qəbul edilir. Elmi-texniki potensial təhsil sistemi səviyyəsi və elmi sferanın birbaşa istehsalla bağlılığı əsasında formalaşır. Məhz buna görə qabaqcıl inkişaf etmiş dövlətlər təhsil və elm sferasını müasir iqtisadi inkişafın aksioması kimi daima öz nəzarəti altında saxlıyır.

Dövlətin elmi-texniki potensialı, yeni texnologiyaların işlənilməsi və tətbiqi qlobal rəqabət şəraitində müəssisələrin rəqabətqabiliyyətliliyinin saxlanmasının əsası sayılır. Məhz inkişaf etmiş ölkələrin və firmaların qabaqlayıcı inkişafının əsas səbəbi ondadır ki, qabaqcıl texnologiyaları mənimsəyərək onlar inhisarçı şəklində yüksək gəlir əldə edir və onun bir hissəsini yeni işləmələrin maliyyələşdirilməsinə yönəldərək öz rəqabət qabiliyyətliliyini daimi artırır.

Eyni zamanda o ölkələr ki, şəxsi elmi və innovasiya potensialına malik deyil, qeyri-ekvivalent xarici iqtisadi dəyişmələrə məcbur edilir ki, öz təbii və insani resursları hesabına

elm həcmli məhsulların istehsalçılarına inhisarçı renta ödəyərək insan əməyini və istehsal olunmayan təbii rentanı faktiki eksport edərək inflyasiya importuna dəyişir. Bu isə ümumdünya kapitalist təsərrüfatında mərkəzin və regionların inkişaf səviyyəsi arasında parçalanmanı geri dönməz şəkildə artırır.

İnkişaf etmiş ölkələr dünyanın digər ölkələrinin əmək resurslarının istismarı və təbii rentanın mənimsənilməsi hesabına öz rəqabət qabiliyyətliyini artırır və digər dövlətləri tam özündən asılı vəziyyətdə saxlıyır. "İnsan faktoru" –nun keyfiyyəti və milli qtisadi sistemlərin rəqabətqabiliyyətliliyini təyin edir. Bu qanunilik elmin və elmi texniki tərəqqinin müasir iqtisadi artımı tendensiyasının faktoru kimi yuxarıda qeyd olunanların birbaşa nəticəsidir.

Təhsil və əhalinin sağlamlılığının vəziyyəti, əmək resurslarının təsnifatı, qabaqcıl məktəblərin mövcudluğu, yaradıcılıq fəaliyyətinin infrastrukturu, dayanıqlı ənənələr, bu və ya digər ölkələrin elmi-texniki tərəqqi səviyyəsini qəbul etməsini təyin edir və bu ölkələrdəki firma və təşkilatların intellektual rentanın saxlamasını və generasiyasını təyin edir.

İnkişaf etmiş ölkələrdə "İnsan kapitalına" birgə investisiyaların həcmi artıq istehsal vasitələrinə kapital qoyuluşlarını üstələyir.

Təhsilin yüksək səviyyəsi və həyatın keyfiyyəti, yaradıcı əmək şəraitinin təmin edilməsi bütün əhali üçün bir nəticə və müvəffəqiyyətli iqtisadi inkişafın şərtidir. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, davamlı inkişaf birbaşa insan inkişafı indeksindən, elm və təhsil sistemindən asılıdır.

**Nəticə.** Aparılan tədqiqatlar onu göstərir ki, insan inkişafı indeksinin daxilindəki faktorlarının, elm və təhsil sisteminin davamlı olaraq yüksəlməsi birbaşa davamlı inkişafa daima müsbət təsir göstərəcəkdir. Sosial istiqamətli bazar iqtisadiyyatı və ümumi rifah, demokratik dövlət. ictimai həyat fəaliyyətinin universal təşkili formasının daimi inkişafını təmin edən bir faktor olaraq davamlı inkişafa təsir göstərəcəkdir. Öz növbəsində sosial bazar oriyentasiyalı mexanizmlər iqtisadi sistemin milli rəqabətqabiliyyətliliyinin səviyyəsində. tələb olunan səviyyəsində və elmi-texniki inkişaf proseslərinin təminatında dövlətin rolunun danılmaz olaraq qalmasını sübuta yetirir və davamlı inkişafa daima təsir göstərir. Eyni zamanda ultraliberal demaqoqların sadəlövh tələblərini yəni dövlətin iqtisadiyyata qarışmasının, azaldılmasının məqsədəuyğunluğunu alt-üst edir.

Dünya iqtisadiyyatının üstünlük təşkil edən işinin laylanması və regionların asılılığı yuxarıda qeyd olunan fundamental nəticələrin səbəbidir, bunu da hər bir müstəqil dövlət iqtisadi siyasətini formalaşdırdıqda nəzərə almalıdır, çünki davamlı inkişafın prinsipi məhz bunlardır.

**Ə D Ə B İ Y Y A T**


1. Ə.B.Əliyev, Müasir şəraitdə Azərbaycan Respublikasının İqtisadi və Milli Təhlükəsizlik problemi, Bakı "Təhsil" ТПП. 2010 295s.
2. Ə.B.Əliyev. Dövlətin iqtisadi və milli təhlükəsizliyi. Bakı "Təhsil" ТПП, 435 s.
3. Ə.B.Əliyev. Dövlətin iqtisadi təhlükəsizliyinin idarə olunması və yenidən yaranması.
4. Sosializmdən kapitalizmə keçid. Bakı "Təhsil" ТПП. 2013, 284

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №16, Bakı 2016*

# ÖLKƏ İQTİSADİYYATININ TSİKLİLİYİNDƏ KREDİTİN ROLU

***Nəcəfov S.***

*1999-2009 -ci illərdə İİETİ-də aparıcı elmi işçi, vəzifəsində işləyibdir.*

Məqalədə ölkə iqtisadiyyatının tsikliliyində kreditin rolu tədqiq edilir və qeyd olunur ki, iqtisadiyyatın tsikliliyini gücləndirən amillərdən biri firmaların gəlirliliyi ilə kreditlər üzrə faiz dərəcəsi arasındakı fərqdir. Məqalədə göstərilir ki, ölkə iqtisadiyyatının tsikliliyini mənfəətdə iştirak maliyyə alətlərinin (səhm, layihə maliyyələşməsi, vəkalətli idarəetmə) inkişafı vasitəsilə zəiflətmək olar.

**Açar sözlər**: faiz dərəcəsi, mənfəətlilik, kredit, iqtisadiyyatın tsikliliyi

2000-ci illərin ortalarından etibarən ölkənin neft gəlirlərinin artması qeyri-neft sahələrində istehsal artımına gətirib çıxarmışdır (diaqram 1). Firmaların gəlirlərinin artması iqtisadiyyatda kreditləşmə həcminin artmasına səbəb olmuş (diaqram 2) (məlum olduğu kimi, firmalar kredit və faizləri qaytaracaqlarına əmin olduqları zaman kredit götürürlər), bu da iqtisadi artımın daha da sürətlənməsinə gətirib çıxarmışdır. Lakin 2012-ci ildən etibarən neft gəlirlərinin azalması əks proseslərlə müşayiət olunur. Belə ki, neft gəlirlərinin azalması qeyri-neft sektorunda firmaların gəlirlərini azaldaraq kreditlərin qaytarılmasında çətinliklərin yaranmasına gətirib çıxarmışdır (vaxtı keçmiş kreditlərin həcmi 2014-2016-cı illərdə məcmu kreditlərin 5,3%-dən 9%-dək artmışdır). Bu şəraitdə kreditləşmə sürətli şəkildə azalmağa başladı (iqtisadiyyata verilmiş kreditlərin həcmi 2015-ci ilin sonuna 22 mlrd. manatdan 2016-cı ilin sonuna 16 mlrd. manatadək azalmışdır). Kreditləşmənin azalması öz növbəsində iqtisadi böhranı daha da dərinləşdirir.




Diaqram 1. Azərbaycanın neft ixracı və qeyri-neft ÜDM-nin artım tempi
Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi




Diaqram 2. Azərbaycanda kredit qoyuluşları, mln. manat, dövrün sonuna
Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı

İqtisadi tsikldə kreditin rolunun tədqiqinə bir sıra tədqiqatlar həsr olunub. İqtisadi tsikldə kreditin rolunu tədqiq edən Xautrik və Xayek hesab edirdilər ki, kənar təsirlər nəticəsində (pul bazasının artması, dövlət tərəfindən banklara maliyyə dəstəyi və s.) kredit həcminin artması ölkədə faiz dərəcəsinin azalmasını, investisiyaların və istehlakın artmasını şərtləndirərək iqtisadi tsiklin artan fazasının yaranmasına gətirib çıxarır. Lakin sonrakı dövrdə bankların izafi vəsaitləri, həmçinin ölkənin valyuta gəlirləri və banklara maliyyə dəstəyi azaldıqda ölkədə faiz dərəcələri artmağa başlayır və bu, investisiyaların və istehsalın azalmasına gətirib çıxarır ki, iqtisadiyyat tsiklin enmə fazasına daxil olur (3).

Bernanke və Qertler maliyyə akseleratoru ideyasını irəli sürmüş, iqtisadiyyatın tsikliliyinin xarici maliyyəşmə premiyasından (yəni kredit üzrə faiz dərəcəsi ilə daxili vəsaitlərin alternativ dəyəri arasındakı fərqdən) asılı olduğunu qeyd etmiş və göstərmişdilər ki, bu premiya borcalanların maliyyə vəziyyəti və kredit qabiliyyətliliyi ilə tərs mütənasibdir (1; 2). Onlar göstərmişdilər ki, bum dövründə firmaların mənfəətlərinin artması onların maliyyə vəziyyəti və kredit qabiliyyətliliyini yaxşılaşdıraraq xarici maliyyəşmə premiyasının azalmasına gətirib çıxarır, bu da firmalara daha çox kredit cəlb edib istehsalı daha da genişləndirməyə imkan verir və beləliklə iqtisadi artımı daha da gücləndirir. Firmaların mənfətinin azalması isə əksinə onların maliyyə vəziyyəti və kredit qabiliyyətliliyini pisləşdirərək xarici maliyyəşmə premiyasının artmasına gətirib çıxarır, bu da kreditləşməni azaldaraq investisiyaların azalmasına və beləliklə böhranın dərinləşməsinə gətirib çıxarır.

Qeyd edək ki, maliyyə akseleratoru effekti müxtəlif ölkələrdə, məsələn Yaponiya (5), 1990-cı illərin əvvəlində Böyük Britaniya (4) və 1997-1998-ci illərdə Cənibi Koreyada (6) baş verən böhran dövründə müşahidə olunmuşdur.

Fikrimizcə tsikliliyi gücləndirən digər amil firmaların mənfəətliliyi ilə kredit üzrə faiz dərəcəsi arasındakı fərqdir. İqtisadi artım dövründə firmaların mənfəətliliyi ilə kreditlər üzrə faiz dərəcəsi arasındakı fərqin artması onları daha çox kredit cəlb etməyə sövq edir və bu, iqtisadi bumu gücləndirir. Böhran dövründə isə əksinə firmaların mənfəatinin azalması kreditlərin qaytarılmasında çətinliklərin yaranmasına gətirib çıxarır. Bu da firmaların müflisləşmə hallarını artıraraq iqtisadi böhranı dərinləşdirir.

Digər tərəfdən böhran illərində kredit risklərinin artması ilə əlaqədar investisiyalar kreditlər hesabına deyil, daha çox mənfəət hesabına həyata keçirilir. Lakin firmaların

mənfəətliliyi ilə kreditlər üzrə faiz dərəcəsi arasındakı fərqin azalması mənfəətin daha böyük hissəsinin kreditlərin ödənilməsinə sərf olunmasına gətirib çıxarır. Bu da investisiyaları daha da azaldaraq iqtisadi böhranı dərinləşdirir.

Hesab edirik ki, biz bu proseslər son illərdə ölkəmizdə də müşahidə olunur. Belə ki, 2000-ci illərdə müşahidə olunan iqtisadi bum müxtəlif sahələrə kredit qoyuluşlarının kəskin artması ilə müşayiət olunmuşdur (diaqram 3). Nəticədə kreditlərin xalis mənfəətə (əsas kapitalın istehlakı çıxılmaqla ümumi mənfəət) nisbəti kəskin artmış və 2014-cü ildə emal sənayesində fəaliyyət göstərən firmaların kredit borcunun mənfəətə nisbəti 1,14 (yəni 2014-cü ildə firmaların kredit borcu xalis mənfəətin 114%-ni təşkil etmişdir), tikinti və əmlakda 0,36; ticarətdə 0,9 təşkil etmişdir (diaqram 4 və 5). Lakin 2015-2016-ci illərdə qeyri-neft sektorunda istehsal həcminin azalması firmaların kreditlərin qaytarılmasında çətinliklərlə üzləşməsinə gətirib çıxarmışdır. Belə ki, 2014-2016-cı illərdə vaxtı keçmiş kreditlərin həcmi məcmu kreditlərin 5,3%-dən 9%-dək artmışdır və 2016-cı il ərzində Beynəlxalq Bankın 9,9 milyard manat həcmində problemli kreditləri “Aqrarkredit”ə ötürülmüşdür.




Diaqram 3. Kredit həcmi, mln. manat
Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı







Diaqram 4. Kreditin xalis mənfəətə nisbəti
Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı və Azərbaycanın milli hesabları




Diaqram 5. Kreditin xalis mənfəətə nisbəti, 2014-cü il
Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı və Azərbaycanın milli hesabları

Firmaların üzləşdiyi maliyyə problemləri həmçinin investisiyaların azalmasını gücləndirmişdir. Belə ki, kreditlərin mənfəətə nisbəti yüksək olan sahələrdə (ticarət sektoru və emal sənayesi) investisiyalar daha çox azalmışdır (diaqram 6). Qeyd edək ki, investisiyaların azalması firmaların gələcək gəlirlərini azaldaraq onların gələcəkdə kredit qaytarmaq qabiliyyətini daha da azaldacaqdır.




Diaqram 6. Müxtəlif sahələrdə investisiya qoyuluşlarının dinamikası, %
Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**İqtisadiyyatın tsikliliyinin zəifləndilməsi yolları**

Beləliklə, iqtisadiyyatın tsikliliyinə təsir edən amillərdən biri firmaların mənfəətliliyi ilə kreditlər üzrə faiz dərəcəsi arasındakı fərqdir. Firmaların gəlirliliyi ilə kreditlər üzrə faiz dərəcəsinin arasındakı fərq artdıqda onlar daha çox kredit çəlb edir və bu, iqtisadi bumu gücləndirir. Böhran dövründə isə mənfəətlilik ilə kreditlər üzrə faiz dərəcəsi arasındakı fərqin azalması kreditləşmənin azalmasını sürətləndirərək iqtisadi böhranı dərinləşdirir.

İqtisadiyyatın tsikliliyini zəiflətmək üçün firmaların mənfəətliliyindən asılı olaraq faiz ödəmələrinin dəyişkənliyini təmin etmək zəruridir. Bu halda mənfəətlilik artdıqda firmaların faiz ödəmələri də artacaqdır ki, bu da öz növbəsində firmaların kreditə olan tələbini azaldaraq

iqtisadi bumu zəifləndəcəkdir. Firmaların mənfəətliliyi azaldıqda isə onların faiz ödəmələri də azalacaqdır ki, bu da böhranın zəifləməsinə gətirib çıxaracaqdır.

Mənfəətliliyindən asılı olaraq faiz ödəmələrinin dəyişkənliyi mənfəətdə iştirak maliyyə alətlərində (səhm, layihə maliyyələşməsi, vəkalətli idarəetmə) nəzərdə tutulub. Beləliklə, hesab edirik ki, mənfəətdə iştirak maliyyə alətlərinin inkişafı ölkə iqtisadiyyatının tsikliliyini zəiflədərək onun dayanıqlı inkişafını təmin edəcəkdir.

## ƏDƏBİYYAT


1. Bernanke B. The Financial Accelerator and the Credit Channel//At the The Credit Channel of Monetary Policy in the Twenty-first Century Conference, Federal Reserve Bank of Atlanta, Atlanta, Georgia, June 15, 2007, https://www.federalreserve.gov/newsevents/speech/bernanke20070615a.htm
2. Bernanke B., Gertler M. Agency Costs, Net Worth and Business Fluctuations // American Economic Review, 1989, vol. 79. – P. 14 – 31
3. Hall S. Financial Accelerator Effects in UK Business Cycles // Bank of England Working Paper, 2001
4. Hawtrey R. The Monetary Theory of the Trade Cycle and its Statistical Test // Quarterly Journal of Economics, 1927, vol. 41. – P. 471 – 486.
5. Ichiro Fukunaga. Financial Accelerator Effects in Japan's Business Cycles//Bank of Japan Working Paper 02-6, 2002
6. Sarabia A. The Financial Accelerator from a Business Cycle Accounting Perspective // Bank of Mexico Working Paper, 2007

**İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi cənab Xəlil İbrahim Axçanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş
(27 yanvar 2016-cı il)**





## İİETİ-nin əməkdaşlarının Qırğızıstanın Bişkek şəhərində "İqtisadi siyasət üçün təsir analizləri" mövzusunda ikinci regional təlimdə iştirakı
## (02 mart 2016)





**İnstitut əməkdaşlarının regionlara səfərləri**
**(2016-cı il)**







# İnstitutun nəşrlərindən









## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Məmmədov F.**

*Azərbaycan Respublikasının qonşu ölkələrlə elektrik enerjisi mübadiləsinin mövcud vəziyyəti və Türkiyə Respublikasına ixrac imkanlarının iqtisadi qiymətləndirilməsi*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. №17, Bakı 2017*

# AZƏRBAYCAN RESPUBLİKASININ QONŞU ÖLKƏLƏRLƏ ELEKTRİK ENERJİSİ MÜBADİLƏSİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ TÜRKİYƏ RESPUBLİKASINA İXRAC İMKANLARININ İQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ

***i.ü.f.d. Məmmədov F.***

*2015-2021 -ci illərdə İİETİ-də aparıcı elmi işçi vəzifəsində işləyibdir*

**Xülasə**

Məqalədə Azərbaycanın qonşu ölkələrlə elektrik enerjisi ticarətinə qısa nəzər salınmış və Türkiyə Respublikasına elektrik enerjisi ixracının "Azərenerji" ASC-nin bir stansiyasının timsalında və ölkə çərçivəsində iqtisadi qiymətləndirilməsi aparılmışdır. Tətbiq edilmiş metodologiya ümumiləşdirmə, təhlil və sintez olmaqla, iqtisadi qiymətləndirmə elektrik enerjisi ixracının məhz elektrik enerjisi istehsalı üçün sərf olunan yanacağın qiyməti baxımından aparılmışdır. İqtisadi qymətləndirmənin yekunu olaraq Türkiyəyə ixracla bağlı üç fərqli siyasət təklifi irəli sürülmüşdür.

**Açar sözlər:** elektrik enerjisi, elektrik stansiyası, idxal, ixrac, təbii qaz, soba mazutu, şərti yanacaq, birja, günöncəsi qiymətlər, elektrik verilişi xətti, yarımstansiya, "paralel" iş rejimi, "dalan" iş rejimi, meqavat, kilovat-saat.

**Giriş.** Son illərdə Azərbaycan Respublikasında ixracın şaxələndirilməsi və enerji resurslarından səmərli istifadə məsələləri dövlətin önəm verdiyi sahələrdəndir. Karbohidrogen resurslarının həm yerli, həm də beynəlxalq bazarlarda qiymətində baş verən dəyişikliklər ikinci dərəcəli enerji növü olan elektrik[5] enerjisinin yerli bazarda iqtisadi baxımdan səmərəli istehsalı və istehlakı ilə yanaşı, onun potensial ixracı imkanlarının araşdırılmasını da zəruri edir. Belə ki, daxili bazarda elektrik enerjisi və təbii yanacaq növlərinin tariflərində olan son artım ölkə daxilində elektrik enerjisi və təbii yanacağın səmərəli istehlakına təkan verməklə, izafi elektrik enerjisi güclərinin, eləcə də qənaət olunmuş təbii yanacağın ixracını stimullaşdıra bilər. Digər tərəfdən, qonşu dövlətlərin enerji sistemlərinin xüsusiyyətləri onlarla mövsümi enerji mübadiləsinin aparılmasına şərait yaradır ki, bu da Azərbaycanın enerji sisteminin dayanıqlı fəaliyyəti və enerji təhlükəsizliyi baxımdan faydalıdır.

Tədqiqatın məqsədi qonşu ölkələrlə elektrik enerjisi mübadiləsinin mövcud vəziyyəti, qonşu ölkələrdəki elektrik enerjisi bazarlarının inkişaf meyilləri, Türkiyəyə təbii yanacaq və elektrik enerjisi ixracının müqayisəli iqtisadi qiymətləndirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi" sənədində müəyyən olunmuş elektrik enerjisi imkanının araşdırılması və istehlakda səmərəliliyin yüksəldilməsi hədəflərinə nail olunması baxımından elektrik enerjisi

ixracı siyasətini müəyyən edən müvafiq dövlət qurumları üçün təkliflər hazırlanmasından ibarətdir. Tədqiqatın obyekti Azərbaycan Respublikasının və qonşu dövlətlərin elektroenergetika sistemləridir. Tədqiqatın predmeti Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasındakı elektrik enerjisinin ötürülməsi infrastrukturunun texniki vəziyyəti, ölkələrarası elektrik enerjisi mübadiləsinin həcmi və qiymətləri, Azərbaycan Respublikasında elektrik enerjisi istehsalında istifadə olunan yanacaq növləri üzrə tariflər, yanacaq növlərinin idxal və ixrac qiymətləri, elektrik stansiyalarının maliyyə-təsərrüfat fəaliyyətinin göstəriciləri, elektrik enerjisinin maya dəyərinin onun tərkibinə daxil olan xərclərlə olan əlaqələridir.

Tədqiqat işi "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi" sənədində müəyyən olunmuş elektrik enerjisi imkanının araşdırılması və istehlakda səmərəliliyin yüksəldilməsi hədəfləri baxımından elektrik enerjisi ixracı üzrə siyasətin müəyyən olunmasında istifadə oluna bilər.

**Ədəbiyyat xülasəsi.** Mövzu ilə bağlı müvafiq ədəbiyyat araşdırılarkən iki məsələnin diqqətə çatdırılması zəruridir:

- Türkiyəyə elektrik enerjisi ixracının iqtisadi təhlili ilə Azərbaycan mütəxəssislərinin heç bir araşdırmasına rast gəlinməmişdir. "Azərenerji" ASC tərəfindən hal-hazırda Gürcüstan üzərindən Türkiyəyə elektrik enerjisi ixracı həyata keçirilsə də, satışın iqtisadi təfərrüatları kommersiya sirri olaraq açıqlanmamışdır. Mövzuya birbaşa aidiyyəti olan tədqiqatlar yalnız beynəlxalq təşkilatların layihələri çərçivəsində hazırlalanmış hesabatlar olmuşdur. Bunlar Dünya Bankı [14] və Avropa Komissiyasının "İNOGATE" proqramının [15] tədqiqatlarıdır. 2012-ci ilə aid Dünya Bankının və 2015-ci ilə aid İNOGATE proqramının tədqiqatlarında Azərbaycandan Türkiyəyə elektrik enerjisi ixracının texniki və iqtisadi qiymətləndirilməsi aparılmışdır.
- əvvəlki dövrün tədqiqatlarındaAzərbaycan Respublikasında elektrik enerjisinin istehsalı üçün "Azərenerji" ASC-nin elektrik stansiyalarına verilən yanacağın tədqiqatın aparıldığı dövrə aid tarifləri götürülmüşdür. Hər iki tədqiqatda Azərbaycandan Türkiyəyə elektrik enerjisinin mümkün ixrac həcmi mövcud ölkələrarası elektrik verilişi infrastrukturu və Gürcüstanın elektrik ötürücü sisteminin texniki imkanları baxımından 350
- MVt gücündə qiymtələndirilmişdir. Elektrik enerjisinin Türkiyəyə ixracının Gürcüstan ərazisi ilə ötürülməsi (tranzit) xərcləri və digər mümkün əlavə xərclər nəzərə alınmaqla mümkün satış qiyməti Dünya Bankının tədqiqatında 9 ABŞ senti/kilovatt-saat , İNOGATE proqramının tədqiqatında 4,8 Avrosent/kilovatt-saat (təqribən 5.6 ABŞ dolları senti/kilovatt-saat) müəyyən olunmuşdur. Digər tərəfdən, Dünya Bankının tədqiqatının aparıldığı dövrdə ABŞ Dollarının Azərbaycan Manatına nisbətdə məzənnəsi kiçik olsa da, İNOGATE proqramının tədqiqatının aparıldığı 2015-ci il və sonrakı dövrlərdə Manatın ucuzlaşması baş vermişdir. Nəhayət, Dünya Bankının tədqiqatının aparıldığı dövrdə istilik elektrik stansiyaarına verilən təbii qazın tarifi 47 manat/min kub metr, "İNOGATE" proqramının tədqiqatının aparıldığı dövrdə isə artıq 80 manat/min kub metr olmuşdur. Lakin 2016-cı ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən istilik elektrik stansiyalarına verilən yanacağın (təbii qaz və mazut) Azərbaycan Respublikası Tarif Şurası tərəfindən artırılması [8], habelə Türkiyədə elektrik enerjisi alqı-satqısının aparıldığı Türk lirəsinin ABŞ dollarına nisbətdə dəyərdən düşməsi fonunda Türkiyəyə elektrik enerjisi ixracın bu tədqiqatın aparıldığı 2016-cı ildə fərqli xarakterə malik olmuşdur. Burada əsas məsələ məhz

"Azərenerji" ASC-nin istilik elektrik stansiyalarına verilən yanacağın güzəştli tarifinin və dünya bazarında yanacağın qiymətlərinin fərqli olmasıdır. Başqa sözlə, dünya bazarındakı qiymətlərlə müqayisədə yanacağı güzəştli tariflə alan "Azərenerji" ASC üçün müəssisə olaraq maliyyə təhlili baxımından elektrik enerjisi ixracı mənfəətli görünsə də, ölkə miqyasından baxarkən elektrik enerjisi ixracı heç də mənfəətli olmaya bilər, çünki Azərbaycan dünya bazarında neft və təbii qazı daha baha qiymətə sata bilir. İxracın iqtisadi qiymətləndirilməsi və hansı şərtlər daxilində iqtisadi cəhətdən səmərəli olması ətraflı şəkildə növbəti bölmələrdə verilir.

Qeyd olunan məsələlərlə yanaşı, Dünya Bankı və İNOGATE proqramının tədqiqatlarındakı ixracın texniki qiymətləndirilməsi əhəmiyyətlidir və müəllif tərəfindən tədqiqatda istifadə olunmuşdur.

Gürcüstan vasitəsilə Azərbaycandan Türkiyəyə elektrik enerjisi ixracının texniki imkanlarının qiymətləndirilməsi həmçinin, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin dəstəklədiyi "Azərbaycan-Gürcüstan-Türkiyə Enerji Körpüsü" layihəsi çərçivəsində hazırlanmış hesabatlarda [7, 13] və "Qara Dəniz Elektrik Ötürücü Şəbəkəsi" layihəsinin hesabatında [5, 12] aparılmışdır. Türkiyə elektrik enerjisi tələbatı və qiymətlərinin inkişaf meyilləri Türkiyə Respublikasının hökumət qurumlarının müvafiq hesabatlarında [3, 6, 16] araşdırılmışdır. Tədqiqatlarda istifadə edilmiş məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi [9] və "Azərenerji" ASC-dən əldə olunmuşdur.

**Nəzəri çərçivə və istifadə olunmuş məlumatlar.** Tədqiqat işi təhlil, məntiqi ümumiləşdirmə, sintez kimi tədqiqat üsullarının köməyi ilə yerinə yetirilmişdir.

Tədqiqat işində hesablamalarda istifadə olunmuş ikincili məlumatlara Azərbaycan Respublikası və ona qonşu olan ölkələrin enerji sistemlərinin texniki fəaliyyət göstəriciləri, qonşu ölkələrlə elektrik enerjisi mübadiləsinin qiymətləri, "Azərenerji" ASC-nin istilik elektrik stansiyalarında 1 kVts elektrik enerjisinin istehsal xərcləri, istilik elekktrik stansiyalarında istifadə olunan yanacağın tarifii, ABŞ dollarının Azərbaycan Manatı və Türk lirəsinə nəzərən məzənnəsi daxildir [17, 18].

**Azərbaycan Respublikasında qonşu ölkələrlə elektrik enerjisi mübadiləsinə dair mövcud vəziyyət.** Azərbaycan Respublikası müvafiq hökumətlərarası sazişlər əsasında qonşu ölkələrlə beynəlxalq elektrik enerji mübadiləsini həyata keçirir. Bu dövlətlərarası sazişlər Azərbaycanın qonşu dövlətlərlə elektrik enerjisi ticarətininin strateji məqsəd və gələcək inkişafının əsası kimi xidmət edir və ölkələrarası enerji ticarətini tənzimləyir. Azərbaycan Respublikasında elektrik enerjisinin qonşu dövlətlərlə mübadiləsini həyata keçirən qurum dövlət elektroenergetika müəssisəsi olan "Azərenerji" Açıq Səhmdar Cəmiyyətidir. Şəkil 1 və 2 Cənubi Qafqazda ölkələrarası elektrik enerjisi verilişi xətlərini əks etdirir:




Şəkil 1: Cənubi Qafqazda ölkələrarası qoşulmalar

*Gürcüstan* – Gürcüstanla elektrik enerjisi ticarəti Azərbaycanın «Azərenerji» Açıq Səhmdar Cəmiyyəti və Gürcüstanın Elektrik Enerjisi Sistemi Kommersiya Operatoru (ESCO) arasında "Azərbaycan və Gürcüstanın Enerji Sistemləri arasında Elektrik Enerjisinin İdxalı və İxracı" və "Fövqəladə Hallarda Gürcüstandan Azərbaycana və əksinə Elektrik Enerjisinin Ötürülməsi"nə dair bağlanmış sazişlər ilə tənzimlənir. Gürcüstan və Azərbaycan arasında beynəlxalq elektrik enerjisi ticarəti, tələbatın artması və fövqəladə hallardan asılı olaraq tərəflərin sorğularına əsaslanır.

Cədvəl 1.

Azərbaycan və Gürcüstan arasında mövcud ölkələrarası elektrik verilişi xətləri

| **Xəttin adı** | **Vəziyyəti** | **İstismar rejimi** |
|---|---|---|
| 330 kV Ağstafa-Qardabani EVX | İşlək vəziyyətdədir | Paralel və dalan rejimləri |
| 500 kV Samux-Qardabani EVX (Muxranis-Veli)[11] | İşlək vəziyyətdədir, lakin hazırda istifadə olunmur | Paralel rejimi |

Aşağıda Şəkil 2 və Cədvəl 1 Azərbaycanla Gürcüstan arasındakı elektrik enerjisi mübadiləsi və müvafiq qiymətlərə dair məlumatları əks etdirir.

[11] Xəttin işlək vəziyyətdə olmasına baxmayaraq, onun tam funksional vəziyyətə gətirilməsi üçün "Azərenerji" ASC müəyyən avadanlıqlar quraşdırmalıdır (reaktiv enerji kompensatoru və s.). Bundan əlavə, "Azərenereji" ASC və "Gürcüstan Dövlət Enerji Sistemləri" ASC xəttə aid müvafiq proqram təminatının yoxlanması, mühafizə sisteminin qurulması və verilənlərin ötürülməsini tamamlamalı, daha sonra isə xəttə enerji verməlidir. Digər tərəfdən, Türkiyə və Gürcüstan arasındakı ikitərəfli sazişə əsasən, hər iki ölkə illik əsasda Gürcüstandan Türkiyəyə elektrik enerjisinin ixracı üçün ötürücü xətlərin ötürmə güclərini müəyyənləşdirirlər. Daha sonra bu güclər Gürcüstanın potensial daxili və xarici şirkətləri üçün hərraca çıxarılır və Gürcüstanda qeydiyyatda olan şirkətlərin hərracda müəyyən imtiyazlara malik olur.




Şəkil 2: Gürcüstanla idxal-ixrac, milyon kVts (mənbə: Dövlət Statistika Komitəsi)

Cədvəl 2.

Gürcüstan üzrə ixrac və idxal qiymətləri, ABŞ senti/kVts (Mənbə: «Azərenerji» ASC)

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| İxrac | - | 5,5 | 6,5 | 6,5 | 6,9 |
| İdxal | - | 4,1 | 3,5 | 3,5 | - |

*Rusiya Federasiyası* – Rusiya Federasiyası ilə elektrik enerjisi ticarəti Azərbaycanın «Azərenerji» Açıq Səhmdar Cəmiyyəti və Rusiyanın "İNTER RAO" şirkəti arasında "Azərbaycan və Rusiyanın Enerji Sistemləri arasında Elektrik Enerjisinin Təchizatı" və "Fövqəladə Hallarda Rusiyadan Azərbaycana və əksinə Elektrik Enerjisinin Ötürülməsi"nə dair bağlanmış sazişlər ilə tənzimlənir. Gürcüstan və Azərbaycan arasında beynəlxalq elektrik enerjisi ticarəti, tələbatın artması və fövqəladə hallardan asılı olaraq tərəflərin sorğularına əsaslanır. Rusiya Federasiyası Azərbaycanla kommersiya xarakterli müntəzəm elektrik enerjisi ticarətinə malik olan yeganə ölkədir. Aşağıda göstərilmiş Şəkil 3 və Cədvəl 2 elektrik enerjisi ticarəti və Rusiya üçün müvafiq qiymətlərə dair məlumatları əks etdirir.

Cədvəl 3.

Azərbaycan və Rusiya arasında mövcud ölkələrarası elektrik verilişi xətləri

| **Xəttin adı** | **Vəziyyəti** | **İstismar rejimi** |
|---|---|---|
| 330 kV Yaşma-Dərbənd EVX | İşlək | Rusiya şəbəkəsi ilə paralel rejim |
| 110 kV Yalama EVX | İşlək | Rusiyada pik dövrlərdə Rusiya şəbəkəsi ilə paralel rejim |




Şəkil 3. Normal rejimdə Rusiya ilə idxal-ixrac, milyon kVts
(mənbə: “Azərenerji” ASC və Dövlət Statistika Komitəsi)




Şəkil 4. Qəza rejimində Rusiya ilə idxal-ixrac, milyon kVts
(mənbə: “Azərenerji” ASC və Dövlət Statistika Komitəsi)

Cədvəl 4.

Rusiya üzrə ixrac və idxal qiymətləri, ABŞ senti /kVts (mənbə: “Azərenerji” ASC)

| | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|---|
| Normal rejimdə ixrac | 7 | 5,5 | 5,5 | 5,5 | 7 |
| Qəza rejimində ixrac | 7 | 7,5 | 7,5 | 7,5 | 7,5 |
| Normal rejimdə idxal | 5,3 | 5,5 | 5,5 | 5,5 | 5,5 |
| Qəza rejimində idxal | 7 | 7,5 | 7,5 | 7,5 | 7,5 |

*Türkiyə Respublikası* – Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında enerji mübadiləsinin tarixi Türkiyənin Naxçıvan Muxtar Respublikasına elektrik enerjisi təchiz etməyə başladığı zamana - 1992-ci ilə gedib çıxır. Naxçıvan özünün istehsal gücündən istifadə edərək öz elektrik enerjisi tələbatını ödəməyə başladığı dövrə, yəni 2007-ci ilə qədər

Türkiyədən elektrik enerjisi idxalı həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi hal-hazırda tələbatın artması və fövqəladə vəziyyətdən asılı olaraq Türkiyə ilə elektrik enerjisi mübadiləsini həyata keçirir. Türkiyə ilə yeganə ölkələrarası elektrik verilişi xətti Naxçıvandakı 154 kV-luq "Babək-İğdır" xəttidir. Şəkil 5 Türkiyə ilə elektrik enerjisi ticarətinə dair məlumatları əks etdirir (Naxçıvan vasitəsilə).




Şəkil 5. Türkiyə ilə idxal-ixrac, milyon kVts (mənbə: Dövlət Statistika Komitəsi)

*İran İslam Respublikası* – İranla beynəlxalq elektrik enerjisi mübadiləsinə 2001-ci ildə "Azərenerji" ASC və İranın Tavanir şirkəti arasında "Elektrik Enerjisinin Mübadiləsi və Tranziti" barədə sazişin imzalandığı vaxtdan başlanılmışdır. Bu sazişə əsasən Naxçıvan Muxtar Respublikasının enerji tələbatını ödəmək məqsədilə, "Azərenerji" ASC müəyyən miqdarda elektrik enerjisini tranzit haqqı kimi müəyyən əlavə enerji miqdarı ilə birgə 2007-ci ilədək İrana ötürmüşdür. Öz növbəsində İran eyni miqdarda elektrik enerjisini Naxçıvana ötürmüşdür. İranla elektrik enerjisi mübadiləsi həm Naxçıvan Muxtar Respubikasının Energetika Agentliyi, həm də "Azərenerji" ASC-yə məxsus elektrik verilişi xətləri ilə həyata keçirilə bilər. Bu gün Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi ölkələrarası xətlər vasitəsilə yalnız ehtiyac olduğu hallarda İranla elektrik enerjisi mübadiləsini həyata keçirir. İranla bütün keçmiş və cari elektrik enerjisi əməliyyatları yalnız "mübadilə" tiplidir (heç bir qiymət göstərilmədən), yəni heç bir kommersiya sövdələşməsi yoxdur. İranın ümumi istehsal gücü 74 qiqavata (QVt) çatmışdır və ölkənin energetika sektoru dünyada 14-cü, Yaxın Şərqdə isə 1-ci yerdə qərarlaşmışdır [4]. Artan elektrik enerjisi ixracına baxmayaraq, ölkə hələ də elektrik enerjisi idxal edir və Azərbaycandan da potensial enerji idxalına dair müzakirələr aparılır. Aşağıdakı qrafik cədvəl İranla elektrik enerjisi mübadiləsinə dair məlumatları əks etdirir. Qrafikdən göründüyü kimi, elektrik enerjisinin mübadiləsi son beş il üçün demək olar ki, eyni dinamikaya malik olmuşdur.

Cədvəl 5.

Azərbaycan və İran arasında mövcud ölkələrarası elektrik verilişi xətləri

| Xəttin adı | Vəziyyəti | İstismar rejimi |
|---|---|---|
| 230 kV Parsabad-İmişli EVX | İşlək | Dalan rejimi (ehtiyac olduqda istifadə olunur) |
| 110 kV Astara-Astara EVX | İşlək | Dalan rejimi (ehtiyac olduqda istifadə olunur) |
| 330 kV İmişli-Ərdəbil EVX | İşlək | Dalan rejimi (hazırda istifadə olunmur) |
| 132 kV Culfa EVX | İşlək | Dalan rejimi (ehtiyac olduqda istifadə olunur) |
| 132 kV Araz EVX | İşlək | Dalan rejimi (ehtiyac olduqda istifadə olunur) |




Şəkil 6. İranla idxal-ixrac, milyon kVts (mənbə: Dövlət Statistika Komitəsi)

**Elektrik enerjisi ixracının gələcək perspektivləri.** Azərbaycan Respublikası Energetika Nazirliyinin 2015-2020-ci illər üçün Strateji Planında [10] Azərbaycanın elektrik enerjisi ixracı potensialının artırılması üçün lazımi tədbirlərin görülməsinin əhəmiyyəti vurğulanmışdır. Bu prizmadan çıxış edən Azərenerji öz ixrac potensialını şaxələndirmək üçün elektrik enerjisinin ixracına dair iki istiqamət müəyyənləşdirmişdir [2]:

- Şərq-Qərb dəhlizi
- Şimal-Cənub dəhlizi

Bununla belə, aşağıdakı cədvəldən də göründüyü kimi, ixrac potensialı infrastruktur məhdudiyyətlərindən asılıdır:

Cədvəl 6.

Ölkələrarası elektrik enerjisi infrastrukturunun mövcud və potensial imkanları

| İxrac istiqaməti | Mövcud ötürmə gücü (MVt) | Planlaşdırılan ötürmə gücü (MVt) |
|---|---|---|
| Gürcüstan vasitəsilə Türkiyəyə[12] | 250-300 | 600 |
| Gürcüstana | 200 | 300 |
| Rusiya | 300 | 700 |
| İrana | 350 | 700 |

**Şərq-Qərb dəhlizi**.

Bu hədəfin reallaşdırılması üzrə ilk addım "Azərbaycan-Gürcüstan-Türkiyə Enerji Körpüsü" ("AGT") layihəsinin icrası olmuşdur. AGT layihəsi Gürcüstan və Azərbaycandan Türkiyəyə elektrik enerjisinin ixracını nəzərdə tutur. Layihənin tərəfdaşları Azərenerji, Gürcüstan Dövlət Elektrik Şəbəkəsi şirkəti və Türkiyənin enerji sisteminin operatoru "TEIAŞ" şirkətidir. Layihə çərçivəsində illik 1 200 MVt elektrik enerjisinin Türkiyəyə ixracı nəzərdə tutulur ki, bunun da 600 MVt-ı Azərbaycanın payına düşür [7; 13].




Şəkil 7. "Azərbaycan-Gürcüstan-Türkiyə Enerji Körpüsü" layihəsinin xəritəsi

Hazırda layihə çərçivəsində Azərbaycandan Gürcüstan elektrik şəbəkəsi vasitəsilə Türkiyəyə gücü ilkin mərhələdə 250 MVt, daha sonra isə 700 MVt gücdə elektrik enerjisinin ixracı planlaşdırılır.

Azərbaycan tərəfi 500 kV-luq Samux-Qardabani ötürmə xəttinin 162 km-lik hissəsində (Azərbaycan İES-dən Gürcüstan sərhədinə qədər; 1987-ci ildə inşa olunub)

[12] 500 kV-luq Samux-Qardabani EVX ilə bağlı texniki səbəblərə və yuxarıda qeyd olunan Gürcüstan şəbəkəsindən istifadəyə dair (güc hərracı və s.) çətinliklərə görə, Gürcüstan vasitəsilə Türkiyəyə potensial enerji ixracı üçün yalnız 330 kV-luq Ağstafa-Qardabani ötürücü xəttindən istifadə etmək mümkündür (250 MVt). Texniki məsələlərin həllindən sonra Samux xətti ilə 600 MVt enerji ixracı texniki baxımdan mümkün ola bilər.

yenidənqurma işləri aparmaqla layihəyə öz töhfəsini vermişdir. Bərpa işləri 2012-ci ildə tamamlanıb və işlərin dəyəri təxminən 50 milyon manat təşkil etmişdir.

Gürcüstan layihə tərəfdaşları arasında ən çox töhfəsi olan ölkədir. Layihə infrastrukturunda Gürcüstanın payına aşağıdakılar daxildir [5; 12]:

- 500 kV-luq Qardabani-Axalsiki-Zestafoni hava xəttinin bərpası (təqribən 270 km)
- yüksək gərginlikli sabit cərəyan qurğusuna malik 500/400/220 kV-luq Axalsiki yarımstansiyasının inşası
- Axalsiki yarımstansiyasından Türkiyə sərhədinə qədər 400 kV-luq xəttin çəkilməsi (təqribən 33 km)

Yuxarıda göstərilən işlər Avropanın bir sıra maliyyə qurumları tərəfindən maliyyələşdirilmişdir, o cümlədən Avropa İnvestisiya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən 80 milyon Avroluq kredit və Alman İnkişaf Bankı “KfW” tərəfindən 100 milyon Avro maliyyə (25 milyon qrant və 75 milyon kredit).

Azərbaycandan Türkiyəyə elektrik enerjisi ixracını şərtləndirən əsas amillər:

- Türkiyədə 2018-ci ildən başlayaraq tələbatın qarşılanmasında çatışmazlığın yaranması ehtimalı [6];
- elektrik enerjisinə olan tələbatın Türkiyədə ilk atom elektrik stansiyasının birinci blokunun işə salınacağı il, yəni 2023-cü ilə qədər olan dövrdə illik orta hesabla **5.1% artacağı** [6] ehtimalı;
- topdansatış və pərakəndə elektrik enerjisi satış bazarının liberallaşdırılması ilə bazarın xarici şirkətlər üçün cəlbedici olması.

Gürcüstanla enerji mübadiləsinin genişləndirilməsi – Hazırda Gürcüstan istiqamətində faktiki ötürmə həcmi 100-150 MVt arasında dəyişir. 500 kV “Samux – Qardabani” xətti fəaliyyətə başladıqdan sonra bu ölkəyə ixrac həcmi 700 MVt-a qədər artacaqdır. Bu ölkə vasitəsilə Türkiyəyə elektrik enerjisi ixracı zamanı bu xəttin gücündən maksimum istifadə olunacaqdır.

Gürcüstanla mübadilənin genişləndirilməsini şərtləndirən əsas amil – *Gürcüstanda elektrik enerjisi istehsalının əsasən su elektrik stansiyalarından asılı olması və istehsalın mövsumi xarakter daşımasıdır.*

**Şimal-Cənub dəhlizi**

Rusiyaya ixracın genişləndirilməsi: Rusiya ilə elektrik enerjisi mübadiləsi iki yüksək gərginlikli elektrik verilişi xətti vasitəsilə paralel rejimdə aparılır. Rusiya və Azərbaycan enerji sistemləri arasında yeni 330 kV-luq “Dərbənd-Yaşma” dövlətlərarası elektrik verilişi xəttinin 2-ci dövrəsinin tikintisi “Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2020-ci il müddətinə iqtisadi əməkdaşlıq Proqramının həyata keçirilməsi üzrə tədbirlər Planı”nın layihəsinə daxil edilmişdir. Xətt istismara verildikdən sonra Rusiya ilə ötürmə gücünün 2 dəfə artırılaraq **700 MVt-a** çatdırılması nəzərdə tutulur.

İxracın genişləndirilməsini şərtləndirən əsas amillər:

- Rusiya Federasiyasının Azərbaycanla qonşu olan bölgələrində elektrik enerjisi təchizatında çatışmazlıq;
- enerji istehsalının mövsümi xarakterə malik olması.

*İrana ixracın genişləndirilməsi*

İranla elektrik enerjisi mübadiləsində texniki məhdudiyyətlər (yəni yalnız “dalan” rejimində birtərəfli ötürmə) 200 MVt-dan artıq ötürmə gücünə imkan vermir. İran və

Azərbaycan enerji sistemləri arasında yüksək gərginlikli “sabit cərəyan qurğusunun” quraşdırılması ötürmə gücünü 500-600 MVt-a qədər artıra bilər.

**Gürüstan vasitəsilə Türkiyəyə elektrik enerjisi ixracının iqtisadi qiymətləndirilməsi**

Türkiyəyə elektrik enerjisi ixracının iqtisadi səmərəliliyinə aşağıdakı amillər birbaşa təsir göstərir:

- Azərbaycanda elektrik enerjisi istehsalı üçün istifadə olunan yanacağın qiyməti;
- Türkiyə elektrik enerjisi bazarının dinamikası.

Azərbaycan Respublikasında ölkələrarası elektrik enerjisi mübadiləsində əsas rol dövlət şirkəti olan “Azərenerji” ASC-dir. Bu baxımdan, onun Türkiyəyə potensial elektrik enerjisi ixracı kimi enerjinin Gürcüstan-Türkiyə sərhəddində satışı və elektrik enerjisinin istehsalında istifadə edilən yanacağın Azərbaycandan xaricə ixracının müqayisəli qiymətləndirilməsi aparılmışdır. Deməli, Azərbaycanda həm elektrik enerjisi, həm də qazın ixracı ilə bağlı dövlətin strategiyası ixrac olunacaq elektrik enerjisinin istehsalında istifadə ediləcək yanacağın qiymətinə birbaşa təsir edəcəkdir.

Türkiyəyə potensial elektrik enerjisi ixracının iqtisadi qiymətləndirilməsi məqsədilə Türkiyəyə ixrac üçün əlverişli movqeyə malik “Azərbaycan” İES-in göstəricilərindən istifadə olunmuşdur. Eyni zamanda, 2015-ci Azərenerji sistemində şərti yanacağın xüsusi sərfiyyatından (300 qr/kVts) yuxarı sərfiyyata (345 qr/kVts) malik olmasına baxmayaraq, bu stansiya coğrafi yerləşmə baxımından ən əlverişli movqeyə (Gürcüstan sərhəddinə ən yaxın) sahib stansiyadır. Qr/kVts ilə göstərilən xüsusi yanacaq sərfiyyatı göstəricisi yanacağın faydalı istilik potensialının və elektrik enerjisi buraxılışının müəyyən olunması və müqayisəsi üçün keçmiş Sovet İttifaqı ölkələrində istifadə olunan parametrdir. Ölçü vahidi kimi istiliktörətmə qabiliyyəti 7000 kilokalori/kq (29,3 MeqaCoul/kq) olan 1 kq yanacaq götürülür. Elektrik stansiyalarının fəaliyyətinin göstəricisi kimi isə, hər 1 kVts elektrik enerjisi istehsalına düşən şərti yanacağın qramla kütləsidir [11].

Hesablamalar zamanı aşağıdakı fərziyyələrdən istifadə olunmuşdur:

- ixrac olunacaq elektrik enerjisinin “Azərbaycan” İES-in bir blokunda (300 MVt) istehsal olunması (Gürcüstan vasitəsilə Türkiyəyə mövcud ötürmə gücünün 250 MVt olmasına əsaslanmaqla);
- Azərbaycan Respublikası Tarif Şurasının elektrik stansiyaları üzrə təbii qaz və soba mazutu üçün müəyyən etdiyi tariflər [8];
- ixracla bağlı iqtisadi qiymətləndirmə aparıldığından, bütün qiymətlər Əlavə Dəyər Vergisi çıxılmaqla götürülmüşdür;
- “Azərbaycan” İstilik Elektrik Stansiyasının 2016-cı ilə aid maliyyə-təsərrüfat göstəriciləri nəzərə alınmaqla[13], 1 kVts elektrik enerjisinin istehsalına düşən əmək haqqı və təmir xərclərinin hər biri təhlil məqsədilə təqribən 0,1 ABŞ dolları senti/kVts götürülmüşdür;
- Azərbaycan Respublikası Mərkəzi Bankının ABŞ dollarının Azərbaycan Manatına nisbətən 2016-cı ilin dekabr ayı üçün orta məzənnəsi[14];
- Türkiyə Respublikası Mərkəzi Bankının ABŞ dollarının Türk Lirəsinin nisbətən

[13] Mənbə: “Azərenerji” ASC
[14] www.cbar.az

26.10.2015, 25.01.2016, 25.04.2016 və 29.08.2016-cı il tarixlərinə aid məzənnələri[15];

- Türkiyə Hökuməti və özəl sektor iştiraçılarına məxsus “Enerji Piyasaları İşletme A.Ş.” şirkətinin (EPİAS) nəzarətində olan İstanbul Enerji Birjasında dörd müxtəlif gündə günöncəsi topdansatış qiymətlərinə dair məlumatlar [3]– Qiymət təklifləri adətən gün ərzində verildiyindən, hesablamalarda günöncəsi bazar qiymətlərindən istifadə edilmişdir (bax: Şəkil 8);
- elektrik enerjisinin Gürcüstan vasitəsilə ötürülməsi zamanı Gürcüstan tərəfinə ödəniləcək ötürmə xərci – 1 ABŞ Dolları senti/kVts həddində götürülmüşdür;
- elektrik enerjisinin ixracı zamanı potensial texnki itkilər – 2 % həddində götürülmüşdür.




Şəkil 8. Tipik payız, qış, yaz və yay fəsli günlərində Türkiyənin elektrik enerjisi birjasında (EPIAS) günöncəsi topdansatış bazar qiymətləri (ABŞ Dolları senti/kVts)

Qrafiklərdən göründüyü kimi, 2015-ci ilin payız fəslindən 2016-cı ilin yay aylarına qədər verilmiş müddət üçün Türkiyənin elektrik enerjisi bazarında topdansatış qiymətləri 3 - 7,8 ABŞ dolları senti/kVts arasında dəyişib. Türkiyənin topdansatış elektrik enerjisi alıcıları və idxalçıları bir qayda olaraq, potensial satıcılarla müqavilələrdə EPİAS qiymətlərini istinad kimi götürürlər. Bu mənada, topdansatış elektrik enerjisi alıcıları ilin fəsli və tələbatdan asılı olaraq qiymətlərdə 5-10% güzəşt, yəni müvafiq tarixlər üçün EPİAS qiymətlərindən 5-10%

[15] www.tcmb.gov.tr

aşağı qiymətləri istəyə bilər. Bu, əsas götürülərək təhlil zamanı azaldılmış EPİAŞ qiymətlərindən (**3-7 ABŞ dolları senti/kVts; ortalama 5 ABŞ dolları senti/kVts**) istifadə olunmuşdur.

Hal-hazırda "Azərenerji" ASC Azərbaycan Dövlət Neft Şirkətindən (SOCAR) alınan qaz üçün təqribən 102 AZN /min m3 yaxud 58,3 ABŞ dolları/min m3 (ƏDV xaric) qiymətini ödəyir və bu qiymət də stansiyada elektrik enerjisi istehsalının maya dəyərini 0,02 ABŞ dolları/kVts (yəni, Azərbaycan İES-də 1 kVts üçün vahid istismar xərci) təşkil edir. Gürcüstan ilə ötürmə xərci və texniki itkiləri də əlavə etsək, elektrik enerjisinin ixrac üçün mümkün qiyməti təqribən **3 ABŞ dolları senti/kVts** olacaqdır. Elektrik enerjisi ixracının qaz ixracı ilə müqayisəli qiymətləndirilməsi məqsədilə həmçinin qazın qiymətinin həssaslıq təhlili də aparılmışdır, yəni müxtəlif hipotetik qaz qiymətləri qiymətləndirmədə istifadə olunmuşdur - 100, 150 və 200 ABŞ dolları/min m3. Aşağıdakı cədvəl qiymətləndirmənin nəticələrini əks etdirir.

Cədvəl 7.

Türkiyəyə potensial elektrik enerjisi ixracının təbii qaz ixracı ilə müqayisəli qiymətləndirilməsi

| **Göstərici** | **Ölçü vahidi** | **SOCAR-ın subsidiyalı qaz qiyməti (tarif)** | **Qazın simulyasiya qiyməti 1** | **Qazın simulyasiya qiyməti 2** | **Qazın simulyasiya qiyməti 3** |
|---|---|---|---|---|---|
| Qazın qiyməti (ƏDV-siz) | AZN/1000 nm3 | 102 | 175 | 350 | 437 |
| 2016-cı il dekabrı üçün Azərbaycan Respublikası Mərkəzi Bankının ABŞ dolları üçün orta məzənnəsi | | 1.7497 | | | |
| **Qazın qiyməti (ƏDV-siz, ABŞ dolları)** | **ABŞ dolları/1000 m3** | **58.3** | **100** | **200** | **250** |
| Qazın aşağı istiliktörətmə qabiliyyəti | kiloKal/kq (min m3) | 8300 | | | |
| Ekvivalent (şərti) yanacağın qiyməti | ABŞ dolları/ton ekv.yan. | 49.17 | 84.34 | 168.67 | 210.84 |
| Azərbaycan İES-də şərti yanacağın xüsusi sərfiyyatı | qr/kVts | 345 | 345 | 345 | 345 |
| Yanacaq xərcləri | ABŞ dolları senti/kVts | 1.70 | 2.91 | 5.82 | 7.27 |
| Əmək haqqı və digər istismar xərcləri | ABŞ dolları senti/kVts | 0.10 | 0.10 | 0.10 | 0.10 |
| Təmir xərcləri | ABŞ dolları senti/kVts | 0.10 | 0.10 | 0.10 | 0.10 |
| **Cəmi əməliyyat xərcləri** | **ABŞ dolları senti/kVts** | **1.90** | **3.11** | **6.02** | **7.47** |
| Gürcüstanda elektrik enerjisinin ötürülməsi ilə bağlı potensial xərclər | ABŞ dolları senti/kVts | 1.00 | 1.00 | 1.00 | 1.00 |
| Ötürmə zamanı yarana bilən itkilər | % | 2% | 2% | 2% | 2% |
| **İxrac elektrik enerjisinin qiyməti** | **ABŞ dolları senti/kVts** | **3** | **4.1** | **7** | **8.5** |
| İxrac üçün potensial enerji gücü | MVt | 250 | | | |
| **Güzəştli EPİAŞ qiymətləri (potensial güzəştli elektrik enerjisi satışı qiymətləri)** | **ABŞ dolları senti/kVts** | **3-7.0** | | | |

Beləliklə, enerji istehsalı üçün tələb olunan qazın qiyməti **60-200 ABŞ dolları/1000m$^3$** (ƏDV-siz) aralığında olduqda, Türkiyəyə elektrik enerjisi ixracının iqtisadi səmərəsi ola bilər. SOCAR-ın Türkiyəyə ixrac etdiyi qazın nəql və rüsum xərcləri çıxmaqla olan qiyməti haqda məlumat olmadığından, məsələnin iqtisadi mahiyyətinə dair yekun nəticə çıxarmaq çətindir. Hər halda, əgər Türkiyə elektrik enerjisi birjasında kəskin qiymət enişi baş verməsə, Türkiyəyə ixrac olunan qazın 320 ABŞ dolları /1000m3 [1] qiymətində belə, elektrik enerjisi iqtisadi baxımdan səmərəli ola bilər.




Şəkil 9. Elektrik enerjisi və qazın ixrac qiymətlərinin müqayisəsi (sarı hissə Türkiyə topdansatış elektrik enerjisi bazarındakı qiymət aralığını göstərir)

"Azərbaycan" İES elektrik enerjisinin istehsalı üçün təbii qazla yanaşı soba mazutundan da istifadə etdiyindən, ixrac olunacaq elektrik enerjisinin istehsalı üçün istifadə sərf olunacaq soba mazutunun iqtisadi qiymətləndirilməsinin aparılması da zəruridir. Azərbaycanın istilik elektrik stansiyalarına təbii qaz təchizatında qıtlıq yarandığı təqdirdə, SOCAR elektrik enerjisinin istehsalı üçün təbii qaz əvəzinə mazut idxal etməlidir. Elektrik enerjisinin ixracı daxili tələbatla müqayisədə artıq elektrik enerjisi istehsalını zəruri edir ki, bunun üçün də daha çox yanacaq (mazut) istehlakına ehtiyac yaranır. Bu məqsədlə, SOCAR "Azərbaycan" İES-i təchiz etmək üçün mazut idxalını artırmalıdır. Hesablamalardan göründüyü kimi, SOCAR-ın "Azərenerji" ASC-yə təchiz etdiyi soba mazutunun hazırki tarifində (240 AZN/ton, ƏDV ilə) ixrac üçün nəzərdə tutulan elektrik enerjisinin maya dəyəri artıq 0,042 ABŞ dolları/kVts təşkil edir. Dünya bazarında soba mazutunun qiyməti (200-300 ABŞ dolları/ton) əsasında soba mazutu ilə bağlı müvafiq həssaslıq təhlili aparılmışdır.

Cədvəl 8.

Soba mazutunun idxalı baxımından elektrik enerjisi ixracının iqtisadi qiymətləndirilməsi

| **Göstərici** | **Ölçü vahidi** | **SOCAR-ın subsidiyalı soba mazutunun qiyməti (tarif)** | **Soba mazutunun simulyasiya qiyməti 1** | **Soba mazutunun simulyasiya qiyməti 2** | **Soba mazutunun simulyasiya qiyməti 3** |
|---|---|---|---|---|---|
| Soba mazutunun qiyməti (ƏDV-siz) | AZN/ton | 204 | 262 | 350 | 437 |
| 2016-cı il dekabrı üçün Azərbaycan Respublikası Mərkəzi Bankının ABŞ dolları üçün orta məzənnəsi | | 1.7497 | | | |
| **Soba mazutunun qiyməti (ƏDV-siz)** | **ABŞ dolları/ton** | **116.59** | **150** | **200** | **250** |
| Soba mazutunun aşağı istiliktörətmə qabiliyyəti | kKal/kq (m3) | 9713 | | | |
| Ekvivalent (şərti) yanacağın qiyməti | ABŞ dolları/ton ekv.yan. | 84.03 | 108.10 | 144.14 | 180.17 |
| Azərbaycan İES-də şərti yanacağın xüsusi sərfiyyatı | qr/kVts | 345 | 345 | 345 | 345 |
| Yanacaq xərcləri | ABŞ dolları senti/kVts | 2.90 | 3.73 | 4.97 | 6.22 |
| Əmək haqqı və digər istismar xərcləri | ABŞ dolları senti/kVts | 0.10 | 0.10 | 0.10 | 0.10 |
| Təmir xərcləri | ABŞ dolları senti/kVts | 0.12 | 0.12 | 0.12 | 0.12 |
| **Cəmi əməliyyat xərcləri** | **ABŞ dolları senti/kVts** | **3.12** | **3.95** | **5.19** | **6.44** |
| Gürcüstanda elektrik enerjisinin ötürülməsi ilə bağlı potensial xərclər | ABŞ dolları senti/kVts | 1.00 | 1.00 | 1.00 | 1.00 |
| Ötürmə zamanı yarana bilən itkilər | % | 2% | 2% | 2% | 2% |
| **İxrac elektrik enerjisinin qiyməti** | **ABŞ dolları senti/kVts** | **4.20** | **5.05** | **6.32** | **7.59** |
| EPİAŞ-da orta topdansatış qiyməti | ABŞ dolları senti/kVts | 4.5 | 4.5 | 4.5 | 4.5 |
| Mənfəət | ABŞ dolları senti/kVts | 0.30 | -0.55 | -1.82 | -3.09 |
| **Azərenerji üçün soba mazutu ilə istehsaldan mənfəət** | **ABŞ dolları/ton** | **11.95** | **-22.14** | **-73.16** | **-124.18** |
| SOCAR üçün soba mazutunun idxal qiyməti | ABŞ dolları/ton | 300 | 300 | 300 | 300 |
| Mövcud tariflə ixrac qiyməti arasındakı fərq | ABŞ dolları/ton | 183.41 | 150 | 100 | 50 |
| **Elektrik enerjisi ixracından mənfəət (zərər)** | **ABŞ dolları/ton** | **-171.46** | **-172.14** | **-173.16** | **-174.18** |

| | | | | | |
|---|---|---|---|---|---|
| Azərenerji üçün soba mazutunun tarifi | AZN/ton | 204.00 | | | |
| 2016-cı il dekabrı üçün Azərbaycan Respublikası Mərkəzi Bankının ABŞ dolları üçün orta məzənnəsi | | 1.7497 | | | |
| **Soba mazutunun qiyməti (ƏDV-siz)** | **ABŞ dolları/ton** | **116.59** | | | |
| Soba mazutunun aşağı istiliktörətmə qabiliyyəti | kKal/kq (m3) | 9713 | | | |
| Ekvivalent (şərti) yanacağın qiyməti | ABŞ dolları/ton ekv.yan. | 84.03 | | | |
| Azərbaycan İES-də şərti yanacağın xüsusi sərfiyyatı | qr/kVts | 345 | | | |
| Yanacaq xərcləri | ABŞ dolları senti/kVts | 2.90 | | | |
| Əmək haqqı və digər istismar xərcləri | ABŞ dolları senti/kVts | 0.10 | | | |
| Təmir xərcləri | ABŞ dolları senti/kVts | 0.12 | | | |
| **Cəmi əməliyyat xərcləri** | **ABŞ dolları senti/kVts** | **3.12** | | | |
| Gürcüstanda elektrik enerjisinin ötürülməsi ilə bağlı potensial xərclər | ABŞ dolları senti/kVts | 1.00 | | | |
| Ötürmə zamanı yarana bilən itkilər | % | 2% | | | |
| **İxrac elektrik enerjisinin qiyməti** | **ABŞ dolları senti/kVts** | **4.20** | | | |
| EPİAŞ-da orta topdansatış qiyməti | ABŞ dolları senti/kVts | 4.5 | 6.3 | 8.8 | 11 |
| Mənfəət | ABŞ dolları senti/kVts | 0.30 | 2.10 | 4.60 | 6.80 |
| | | | | | |
| **Azərenerji üçün soba mazutu ilə istehsaldan mənfəət** | **ABŞ dolları/ton** | **11.95** | **84.34** | **184.89** | **273.37** |
| **SOCAR üçün soba mazutunun idxal qiyməti** | **ABŞ dolları/ton** | **300** | **300** | **300** | **300** |
| Mövcud tariflə ixrac qiyməti arasındakı fərq | ABŞ dolları/ton | 183.41 | 183.41 | 183.41 | 183.41 |
| | | | | | |
| **Elektrik enerjisi ixracından mənfəət (zərər)** | **ABŞ dolları/ton** | **-171.46** | **-99.07** | **1.48** | **89.97** |
| | | | | | |
| **SOCAR üçün soba mazutunun idxal qiyməti** | **ABŞ dolları/ton** | **200** | **200** | **200** | **200** |
| Mövcud tariflə ixrac qiyməti arasındakı fərq | ABŞ dolları/ton | 83.41 | 83.41 | 83.41 | 83.41 |
| | | | | | |
| **Elektrik enerjisi ixracından mənfəət (zərər)** | **ABŞ dolları/ton** | **-71.46** | **0.93** | **101.48** | **189.97** |




Şəkil 10. Elektrik enerjisinin istehsalı üçün istifadə olunan idxal soba mazutunun qiyməti ilə elektrik enerjisinin ixrac qiymətinin müqayisəsi (sarı hissə Türkiyə topdansatış elektrik enerjisi bazarındakı qiymət aralığını göstərir)

Hesablamalardan göründüyü kimi, mazut 300 ABŞ dolları/ton qiymətində idxal olunarsa, Türkiyə bazarında elektrik enerjisinin topdansatış qiymətinin yalnız 8,8 ABŞ

senti/kVt/saat və bundan yüksək olduğu təqdirdə elektrik enerjisinin ixracı müqayisəli üstünlüyə malik ola bilər. Türkiyədə topdansatış qiymətlərinin son dinamikası tendensiyasını nəzərə aldıqda, bu, qeyri-mümkün görünür. Soba mazutunun 200 ABŞ dolları/ton idxal qiymətində, iqtisadi baxımdan səmərəlilik üçün minimum topdansatış qiyməti təxminən 6,3 sent/kVts və bundan yüksək olmalıdır.

**Nəticə**. Bu gün 7800 MVt istehsal gücü [9] ilə Cənubi Qafqazın ən böyük enerji sistemi olan Azərbaycanın enerji sisteminin qarşısında duran ən böyük vəzifə ölkə daxili tələbatı ödəməklə izafi enerji güclərinin idxalını təmin etməkdir. Eyni zamanda, "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi" sənədindıki hədəflər baxımından, yanacaq resurslarından və elektrik stansiyalarından optimal istifadə də mühüm əhəmiyyət kəsb edir. Qeyd olunanları nəzərə alaraq, elektrik enerjisinin Türkiyə Respublikasına potensial ixracı və ümumilikdə, qonşu ölkələrlə elektrik enerjisi mübadiləsinin genişləndirilməsi istiqamətində aşağıdakılar təklif olunur:

- hazırki mərhələdə, elektrik enerjisinin son tarif artımından sonra ölkə daxilində (xüsusilə, əhali istehlakçıları arasında) elektrik enerjisi tələbatına azalma müşahidə olunduğundan, **250 MVt** gücündə elektrik enerjisinin Gürcüstan-Türkiyə sərhəddində təhvil verilmə şərtilə Türkiyəyə ixracı mümkündür;
- 500 kV Samux-Qardabani EVX-nin texniki imkanlarının tam təmin olunması və ixrac enerji gücünün artırılması tövsiyə olunur;
- istilik elektrik stansiyalarında istifadə olunan yanacağa qənaət baxımından, Gürcüstanla mövsümi elektrik enerjisi mübadiləsi aparıla bilər. Belə ki, aprel-iyun aylarında Gürcüstan enerji sistemi ucuz izafi elektrik enerjisinə malik olur və Azərbaycan həmin dövrdə Gürcüstandan elektrik enerjisi idxal etməklə istilik elektrik stansiyalarında müvafiq gücdə istehsal qurğularını dayandıra bilər. Öz növbəsində,Gürcüstan eyni həcmdə elektrik enerjisini payız və qış dövrlərində Azərbaycandan idxal edə bilər. Bu isə, "Azərenerji" ASC-nin istilik elektrik stansiyalarından optimal istifadəyə imkan verə bilər.

## ƏDƏBİYYAT

1. "Azərbaycan qaza görə Türkiyəyə ildə 600 milyon dollar "bağışlayır"". "Virtual Azərbaycan" qəzeti", 8 noyabr 2016-cı il (http://www.virtualaz.org/bugun/12784).
2. "Azərenerji" ASC-nin 2014-2020-ci illər üçün Strateji Konsepsiya Sənədi.
3. "Enerji Piyasaları İşletme A.Ş." şirkətinin rəsmi internet səhifəsi: www.epias.com.tr.
4. "Irans installed power capacity reaches 73.7GW". Available on: http://www.arabianindustry.com/utilitİES/news/2016/feb/14/irans-installed-power-capacity-reaches-737gw-5294692/.
5. "The Black Sea Transmission Network Project". Presentation by ENERGOYRANS Ltd at Regional Electricity Trading Conference in November 2012 in Tbilisi.
6. "Turkish Power Market: Investment Opportunities". Presentation by Energy Market Regulatory Authority of Turkey at the VI World Forum on Energy Regulation held in Istanbul on May 25-28, 2015.
7. Azerbaijan-Georgia-Turkey Power Brigde Project. Working Group Phase 2. Final Report. Study of the Technical Potential for Trade of Electricity Between the Countries

of Azerbaijan, Georgia and Turkey. Available on: https://www.usea.org/sites/default/files/publications/AGT%20Power%20Bridge%20Final%20%20030812_0.pdf .

8. Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet www.cbar.az .
9. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 28 noyabr 2016-cı il tarixli 16 və 18 nömrəli qərarları (http://tariff.gov.az/?/az/resolution/view/164/; http://tariff.gov.az/?/az/resolution/view/162/).
10. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi: www.stat.gov.az .
11. http://www.minenergy.gov.az/db/emrler/05_12_2014_emr39_tedbirler.pdf .
12. http://www.vinser-audit.ru/fuel_calc.
13. https://en.wikipedia.org/wiki/Black_Sea_Transmission_Network.
14. Preparatory Activities for the Azerbaijan, Georgia, Turkey Regional Power Market. Azerbaijan: legal, regulatory and market Assessment regarding the export prospects towards the Turkish market, INOGATE, May 2016 .
15. Stock Taking: Regional Power Trade in the Southern Caucasus. Phase I: Consolidated Report, the World Bank, February 2012.
16. Türkiyə Respublikası Enerji və Təbii Ehtiyatlar Nazirliyinin rəsmi internet səhifəsi: http://www.enerji.gov.tr.
17. Türkiyə Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsi: www.tcmb.gov.tr .
18. USAID Hydro Power and Energy Planning Project. Trade Opportunities Between Georgia and Turkey. Project Report 2. June 2014.

**İslam İnkişaf Bankı İslam Tədqiqatlar və Təlim İnstitutunun təşəbbüsü, İİETİ-nin birgə əməkdaşlığı və təşkilatçılığı çərçivəsində "Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi" mövzusunda keçirilən təlim (26 aprel 2017-ci il)**





**İqtisadi İslahatlar ElmiTədqiqat İnstitutunda "İqtisadi səmərəlilik: innovativ texnologiyalar və qənaətli istehsal" mövzusunda konfrans (20 oktyabr 2017-ci il)**

**İİETİ-nin direktor müavini i.e.n., dosent Oruc İbrahim oğlu İbrahimovun**
**80 illik yubileyi**
**(10 oktyabr 2017-ci il)**





**İİETİ və "ATEF" şirkətlər qrupunun təşkilatçılığı ilə "Qənaətli istehsal üsullarına əsaslanan model müəssisə" mövzusunda konfrans (28 dekabr 2017)**





**İİETİ, "Sumqayıt Kimya Sənaye Parkı" MMC və "SOCAR Polymer" MMC-nin birgə təşkilatçılığı ilə "Sənayedə yerli xammala əsaslanmaqla idxalı əvəz edən istehsalın genişlənməsi"mövzusunda konfrans (06 ferval 2018)**





**Xəzər Universitetində Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzinin təşkilatçılığı ilə "Təbii sərvətlərlə zəngin ölkələrdə gəlirlərin idarə olunması" mövzusunda təlim (25 iyun-2 iyul 2018-ci il)**




## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Süleymanov A.**
*İqtisadiyyatda qiymətləndirmə üsul və modellərinin təsnifləşdirilməsi və müqayisəli təhlili*

*Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu №19, Bakı 2019*

# İQTİSADİYYATDA QİYMƏTLƏNDİRMƏ ÜSUL VƏ MODELLƏRİNİN TƏSNİFLƏŞDİRİLMƏSİ VƏ MÜQAYİSƏLİ TƏHLİLİ

***i.ü.f.d., dosent Süleymanov A.***

*2011-2021 -ci illərdə İİETİ-də elmi işçi, şöbə müdiri vəzifəsində işləyibdir*

**Xülasə**

Təqdim olunan məqalədə iqtisadi proseslərin təhlili, qiymətləndirilməsi və proqnozlaşdırılması istiqamətində istifadə olunan üsul və modellər müqayisəli təhlil edilərək təsnifləşdirilmişdir. İlk öncə statistik göstəricilərin qiymətləndirmə və makroiqtisadi proqnozlaşdırma üsulları verilmiş, makromodellər təsnifləşdirilmiş və əsas makroiqtisadi qiymətləndirmə modellərinin xüsusiyyətləri şərh edilmişdir. Eyni zamanda, məqalədə şərh edilmiş və təsnifləşdirilmiş üsullar və modellər müqayisəli təhlil edilərək xüsusiyyətləri, üstün və zəif cəhətləri sistemləşdirilmişdir.

Üsul və modellərin müqayisəli təhlili nəticədə cari dövrdə iqtisadi proseslərin təhlil və qiymətləndirilməsi, eləcə də simulyasiya və proqnozların həyata keçirilməsi nöqteyi-nəzərindən ölkə iqtisadiyyatının xüsusiyyətlərinə uyğun qiymətləndirmə modellərinin vahid platformada əlaqələndirilməsinin zəruri olduğunu deməyə əsas vermişdir.

**Açar sözlər:** iqtisadi qiymətləndirmə modelləri, göstəricilərin qiymətləndirmə üsulları, müqayisəli təhlil, makroiqtisadi proqnoz modelləri, simulyasiya modelləri.

**Giriş**

İqtisadiyyatda baş verən proseslərin tədqiq edilməsi qiymətləndirmələrin aparılmasına əsaslanır. Bu məqsədlə də iqtisad elmi inkişaf etdikcə qiymətləndirmə üsulları və alətləri də daim təkmilləşməkdə və müxtəlif sinif məsələlərə görə təsnifləşdirilməkdədir. Getdikcə ölkələr arasındakı iqtisadi əlaqələrin dərinləşməsi dünya iqtisadi sitemində, eləcə də tərəfdaş ölkələrində baş verən proseslərə ölkə iqtisadiyyatının həssaslığını artırmaqdadır.

İqtisadiyyatın daim modellər əsasında nəzarətdə saxlanılması çox vacib məsələdir. Belə ki, iqtisadiyyat nə qədər çox açıqlıq dərəcəsinə malikdirsə bu bir o qədər çox xarici təsirlərə ölkənin həssas olduğunu göstərir. Xarici bazarlarda, əsasən də tərəfdaş ölkələrində baş verən proseslər idxal və ixrac kanalları vasitəsilə ölkə iqtisadiyyatına təsir edir.

Açıq iqtisadiyyat beynəlxalq əmək bölgüsünün üstünlüklərini mümkün qədər doğru reallaşdıran və beynəlxalq iqtisadi münasibətlərin müxtəlif formalarından geniş istifadə edən milli iqtisadiyyata deyilir [7].

Böyük və kiçik açıq iqtisadiyyatlar ixracın həcminə görə fərqləndirilir. Belə ki, böyük və kiçiklik ölkə iqtisadiyyatının beynəlxalq iqtisadi münasibətlərə və valyuta məzənnəsinə təsiri əsasında müəyyənləşir. Ölkə iqtisadiyyatının açıqlıq dərəcəsi ixracın həcmindən asılı olaraq müəyyən olunur. Ölkə iqtisadiyyatının açıqlıq dərəcəsindən asılı olaraq xarici amillər

də iqtisadiyyata təsir edir. Belə ki, ixrac, idxal, xarici investisiyalar, ticarət tərəfdaşı ölkələrdə iqtisadi proseslər, dünya bazarlarında qiymətlərin dəyişməsi və s. amillər ölkə daxilində istehsala, məşğulluğa, gəlirlərin səviyyəsinə və s. əsas iqtisadi göstəricilərə təsir edir. Bu isə, öz növbəsində makroiqtisadi tarazlığa təsir göstərir.

Qeyd olunanlar əsas götürülərək, təqdim olunan məqalədə açıq iqtisadiyyatlarda makroiqtisadi modelləşdirmə və proqnozlaşdırma məsələləri tədqiq edilmişdir. Bu məqsədlə, məqalədə iqtisadi proseslərin təhlili, qiymətləndirilməsi və proqnozlaşdırılması istiqamətində istifadə olunan üsul və modellər müqayisəli təhlil edilərək təsnifləşdirilmişdir.

## 1. Ədəbiyyat xülasəsi

İqtisadi proseslərin getdikcə daha volatil olması bu istiqamətdə qiymətləndirmələrin aparılması, üsulların təkmilləşdirilməsi və yeni yanaşmaların formalaşmasına gətirib çıxarır. Bu isə daim iqtisadçıların və iqtisadi siyasət qərarı qəbul edənlərin tədqiqat obyekti olmuşdur. İqtisadi qiymətləndirmələrin aparılması əsasən riyazi üsulların iqtisadi proseslərə tətbiqi ilə həyata keçirilir. Belə ki, iqtisadi əlaqələrin müəyyən edilməsi və proqnozların hazırlanması, eləcə də müəyyən simulyasiyaların həyata keçirilməsi məqsədilə bütün dövlətlərin qurumları və beynəlxalq təşkilatlar müxtəlif modellərdən istifadə etməkdədir.

Riyazi-iqtisadi üsulların işlənməsi və tətbiqi istiqamətində yerli alimlərdən əsasən Y.H.Həsənlinin bu istiqamətdə kifayət qədər tədqiqatları, məqalə və kitabları mövcuddur. Məhz məqalənin işlənməsi zamanı bu ədəbiyyatlardan geniş istifadə olunmuşdur [3, 4, 5].

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun da modelləşmə və riyazi iqtisadi üsulların iqtisadiyyatda tətbiqi istiqamətində kifayət qədər geniş təcrübəsi vardır. Belə ki, həm Azərbaycan iqtisadiyyatı üçün Ümumi tarazlıq modelinin – AzMod, həm qısa və orta müddətli proqnozlaşdırmaya imkan verən makroekonometrik modelin, həm də ayrı-ayrı təsir analizlərinin aparılması üzrə sadə reqresiya modelləri İnstitutda yerinə yetirilmişdir [6].

İnstitutun əsas təhlil və qiymətləndirmə istiqaməti sahələrarası balans və onun müxtəlif modifikasiya modelləri, eləcə də Sosial Hesablar Matrisi və bu əsasda hazırlanmış müxtəlif multiplikator modelləridir [8, 14].

## 2. İQTİSADİ TƏHLİL ÜSULLARI VƏ MODELLƏRİ

Modellər əsasən göstəricilərin mövcudluğu, toplanması və emalından asılıdır. Çünki qiymətləndirmələr möcvud və emal olunmuş göstəricilər sistemi vasitəsilə yerinə yetirilir. Bu məqsədlə də, iqtisadi göstəricilərin qiymətləndirmə üsullarını qeyd etməklə onların müqayisəli təhlilini aparmağa ehtiyac vardır.




Şəkil 1. Göstəricilərin qiymətləndirmə üsulları

Ekspert qiymətləndirmə üsulları mütəxəssis-ekspertlərlə işin təşkili və qərarların qəbul olunması üçün informasiyanın hazırlanması məqsədi ilə kəmiyyət və ya keyfiyyət formasında ifadə olunmuş ekspert mülahizələrinin emalı üsullarıdır.

*Müsbət xarakteristikalar* - Keyfiyyət göstəricilərini qiymətləndirmə imkanının olması.

*Mənfi xarakteristikalar* - ekspert qiymətləndirməsinin subyektivliyi; hər zaman riyazi hesablamalara əsaslanmır; zəhmət tələb edir.

Statistik üsulu öyrənilən hadisələr ardıcıllığı və ya sistemin modelində əks olunan elementlər arasındakı determinə olunmuş əlaqələri aşkarlamadan, seçmə müşahidələr əsasında statistik qanunauyğunluqları əldə etməyə və onları bütövlükdə sistemin işinə tətbiq etməyə, sistemin struktur daxili elementlərinin, həmçinin, xarici komponentlərinin qarşılıqlı təsir gücünü, xüsusiyyətlərini aşkarlamağa imkan verir.

*Müsbət xarakteristikalar* - Riyazi hesablamalara və rəqəm verilənlərinə əsaslanır.

*Mənfi xarakteristikalar* - ilkin verilənlərin bütöv iri seçiminin olmaması səbəbindən qeyri-dəqiqliyi və keyfiyyət ifadə edən göstəricilərin qiymətləndirilməsinin qeyri-mümkünlüyü.

Qeyri-səlis çoxluqlar üsulu çoxluqlar nəzəriyyəsinin anlayışlarına əsaslanır. Qeyri-səlis intervallar üsulu qeyri-müəyyənliklər şəraitində ehtimal metodları ilə müqayisədə üstünlüklərə malik olmaqla qərarların qəbul edilməsində faydalıdır.

*Müsbət xarakteristikalar* - qeyri-səlis çoxluqlar üsulunun müsbət xarakteristikaları aşağıdakılardır:

- qeyri-rəqəmsal təbiətli və "kvazistatistika" kimi xarakterizə olunan verilənlərin istifadə edilməsi;
- kiçik statistik seçmə şəraitində belə daha səhih verilənlərin əldə olunması;
- innovasiya potensialı qiymətləndirməsinin mümkün ssenarilərinin bütöv spektrinin formalaşdırılması;
- həm konkret qiymətlər şəklində, həm də müvafiq qeyri-səlis rəqəmin mənsubiyyət funksiyasını xarakterizə edən interval qiymətləri çoxluğu şəklində, proqnozlaşdırma və risk səviyyəsini qiymətləndirmə imkanlarını əks etdirən nəticələrin əldə edilməsi;
- mənsubiyyət funksiyalarının dəqiq verilməsi ilə deyil, interval qiymətləri ilə işləməyə (ehtimal üsullarından fərqli olaraq, qeyri-səlis interval ifadələri əsasında əldə olunan nəticə ilkin qeyri-səlis rəqəmlərin mənsubiyyət funksiyası növünün dəyişilməsinə az həssaslıqla səciyyələnir ki, bu da ilkin informasiyanın aşağı keyfiyyətli olduğu real şəraitdə bu üsulun tətbiqini daha çox məqsədəuyğun edir);
- ekspert biliklərinin onların formalaşma imkanı ilə birlikdə açıqlanması.

*Mənfi xarakteristikalar* - konkret tədqiqat obyektində üsulun ilk tətbiqi zamanı böyük zəhmət sərfi.

İqtisadiyyatda göstəricilərin proqnozlaşdırılması iqtisadi siyasətin həyata keçirilməsi və gələcək hədəflərin müəyyən edilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Proqnozlaşdırma da müəyyən üsullara sahibdir. Aşağıdakı cədvəldə qeyd olunan üsullar müqayisəli təhlil olunaraq verilmişdir.

Cədvəl 1.

Makroiqtisadi proqnozlaşdırma üsulları

| | Xüsusiyyətləri | Müsbət tərəfləri | Mənfi tərəfləri və çatışmazlıqları | bölünmə |
|---|---|---|---|---|
| intuitiv | tətbiqi, ekspertlərin fikirləri və qiymətləndirilməsi ilə aparılır, əsasən riyazi təsvir olmayan və ya çox sadə riyazi təsvirə ehtiyacı olmayan | tez və xüsusi riyazi asılıqlar tələb etmir, sadə həll yolları | dəqiq deyil. Subyektiv fikirlərdən asılıdır. | fərdi və kollektiv ekspert qiymətləndi rilməsi |
| formallaşdırılmış | işləmə prinsipləri və göstəricilər çoxluğu olan, bu üsullar üzərində modellər qurulur, riyazi asılılıqlar qurulur. | dəqiqliyi yuxarıdır, subyektiv fikirdən asılı deyil | zaman tələb edir, göstəricilər çoxluğu | ekstrapolyas iya, sistem-strukturlu, associativ, informasiya , riyazi |

İqtisadiyyatda qanunauyğunluqların öyrənilməsi və qiymətləndirmələrin aparılmasında istifadə olunan modelləri öncə təsnifləşdirək. Daha sonra isə qeyd olunan modellərin adlarını sadalamaqla onların xüsusiyyətlərini qeyd edəcəyik. Aşağıdakı şəkildə sxematik olaraq modellərin təsnifatı verilmişdir [5, 9, 13].




Şəkil 2. Makroiqtisadi modellərin təsnifləşdirilməsi

<u>Struktur modellər</u>:

Qurulma prinsipləri Model tənliklər sistem şəklindədir (ümumi halda qeyri-xətti); tənliklər istifadə olunan iqtisadi nəzəriyyəni sərt şəkildə əks etdirir və iqtisadiyyatın hərəkətlərini statikada və dinamikada imitasiya edir. Müasir modellər iqtisadiyyatın strukturunu, iqtisadi agentlərin şərhini, texnologiya, bazarları və spesifik modeldə ayrı-ayrı bloklarda struktur bağlantılarını əks etdirir.

*Üstünlükləri:*

- orta və uzun müddətli proqnozlaşdırmada yaxşı nəticələrə gətirir (2 ildən çox);
- İitisadi siyasətin nəticələrini təhlil etmək imkanı verir;
- iqtisadi siyasətin müxtəlif variantlarını müqayisəli təhlilinə imkan verir.

*Çatışmazlıqları:*

- qısa müddətli proqnozlardakı dəqiqliyin aşağı olmasının səbəbi agentlərin reaksiyasının qeydiyyatının çətinliyi və təsadüfi xarici təsirlərlə işləmək vacibliyi ilə bağlıdır;
- yüksək intellektual əmək xərcləri. Proqnozlaşmadakı yüksək dəqiqlik, daxili struktur münasibətlərinin adekvat təqdimatından asılıdır (ekspert metodları, kalibrləmə metodu).

Qeyri-struktur modellər (ekonometrik)

Qurulma prinsipləri Keçmiş büdcə və iqtisadi göstəriciləri əsasında onların gələcək davranış modeli qurulur (çox halda korrelasiya-reqressiya). Əsas əməliyyat xətti tənliklər sisteminin həllidir (matrisanın inversiyası)

*Üstünlükləri:*

- qısa müddətli dövrdə yüksək dəqiqliyə malik (1 ilə qədər)

*Çatışmazlıqları:*

- orta və uzun müddətli proqnozlar çox vaxt uyğun gəlmir( 2-3 il ərzində iqtisadi mühitdə və dəyişənlər arasında əlaqələrdə dəyişikliklər baş verir);
- “Makroiqtisadi göstəriciləri dəyişsək?” kimi məsələləri həll etmək çətin olur;
- iqtisadi siyasətin variantlarının müqayisəli təhlilini etmək demək olar ki, mümkün deyil.

Hibrid modellər

*Qurulma prinsipləri:*

- ən sadə halda, hibrid modelləri iki submodelin kombinasiyasıdır. Burada struktur hissəsi orta və uzun müddətli, qeyri struktur hissəsi isə qısa müddətli proqnozlaşdırmada istifadə olunur;
- daha mürəkkəb halda, modelin ayri-ayri elementlərinin qiymətləndirilməsi ekonometrik üsullarla həyata keçirilir.

*Üstünlükləri* - İki submodelin düzgün koordinasiyası, müvafiq proqnoz üfüqlərində hər bir submodelə xas olan dəqiqliyə gətirir (orta və uzun müddətli).

*Çatışmazlıqları* - Submodellərinin nəticələrinin tətbiq sərhədlərindəki uzlaşma çətinlikləri. Müvafiq modellərin çatışmazlıqları, modelin tətbiq sərhədlərində xarakterikdir.

Makroiqtisadi modelləşdirmədə praktiki məsələlərin həllində qeyd olunan nəzəri metodoloji aspektləri özündə saxlamaqla müxtəlif modellərdən istifadə olunur. Kompleks iqtisadi məsələlər həll edildikdə, vahid platformada bir neçə model qurulub əlaqəli işlənilməlidir. Cari dövrdə dünya praktikasında və eləcə də, Azərbaycanda iqtisadiyyatın təhlil edilməsi, simulyasiya və proqnozların həyata keçirilməsi məqsədilə istifadə olunan əsas makroiqtisadi qiymətləndirmə modellərinə aşağıdakıları göstərmək mümkündür.

I. Makroekonometrik modellər
II. Ümumi Tarazlıq Modelləri (CGE)
III. Dinamik Stoxastik Ümumi Tarazlıq modelləri
IV. FPP
V. Sahələrarası Balans modelləri
VI. SHM mutiplikator modelləri
VII. RMSM (Revised Minimal Standard Model (Extended)

I. Makroekonometrik modellər iqtisadiyyatın spesifik xüsusiyyətləri nəzərə alınmaqla əsas makroiqtisadi göstəricilərin sektorlararası qarşılıqlı əlaqələrini əks etdirən və qısamüddətli dövrdə bu sektorların əsas göstəricilərinin proqnozlaşdırılmasına imkan verir.

*Üstünlükləri:*

- dəyişənlərin təhlili proqnozlaşmada ehtimalların təsirini qiymətləndirmək imkanı verir;
- iqtisadi fəaliyyətin gəlir mənbələrinə necə təsir göstərməsinə dair məlumatları tənzimləyir;
- proqnozlaşmada hər bir mühüm faktoru müəyyən etməyi və onun gəlir mənbəyinə olan münasibətini qiymətləndirməyi tələb edir.

*Çatışmazlıqları:*

- proqnozlar düzgün ehtimalların istifadəsindən asılıdır;
- daha statistik və iqtisadi stabilliyin olmasını tələb edir;
- İisadi və gəlir barədə ətraflı məlumatların olmasını tələb edir;
- proqnozlaşmada iqtisadi dəyişikliklərin baş verdiyi təqdirdə dəyişənlər arasında münasibətləri davamlı tərzdə qiymətləndirməyi tələb edir.

II. Ümumi Tarazlıq Modelləri (CGE) struktural məsələlərin təhlili üçün güclü vasitələrdir və mikro və makro elementlərin qarşılaşdırılması üçün kifayət qədər dəyişəndir. İqtisadiyyatın Ümumi Tarazlıq modeli daxili və xarici soklara (təsirlərə) iqtisadiyyatın həssaslığını, qəbul oluna biləcək monetar və fiskal qərarların təsirlərini müəyyən zaman çərçivəsində təhlil etməklə, real makroiqtisadi vəziyyəti təhlil etməyə imkan verməklə yanaşı effektiv makroiqtisadi idarəetmə sistemi üçün verilən qərarların düzgünlüyünü və adekvatlığını təmin edir [6, 8, 11].

*Üstünlükləri:*

- sabit makroiqtisadi əsasa malik olmaqla, balansda bütün iqtisadi vasitələrin optimallaşdırma davranışını təyin edir. Bu model iqtisadiyyat üzrə dəyişənlərin təhlilinə, habelə bölüşdürmə təsirlərinin müşahidə edilməsinə imkan verir;
- odeldə daxili ardıcıllığı təmin edir, çoxsaylı nəticələrin və reaksiya təsirlərinin qiymətləndirilməsində faydalıdır;
- CGE modeli digər metodlara nisbətən daha konkret qiymətləndirmə, yəni, büdcə-vergi siyasətindəki dəyişikliklərə görə artımların və ya itkilərin hesablanmasına imkan verir.

*Çatışmazlıqları:*

- modelin empirik dəqiqləşdirilməsinin olmaması o deməkdir ki, parametr dəyərlərinin əhəmiyyətini yoxlamaq üçün heç bir metod mövcud deyildir. Başqa sözlə, bu modelin münasibliyi digər ekonometrik modellərdə olduğu kimi, CGE modellərində yoxlanıla bilməz;
- nəticələrin hazırlanmasında bu modelin xüsusiyyəti iqtisadi balansa əsaslanır; o müvazinətdə olmayan asılılıqlara imkan vermir;
- məlumatlar bazasının hazırlanması hər il aparılmadığından proqnozların verlməsi, əsasən də qısamüddətli proqnozların verilməsi üçün əlverişli deyildir.

III. Dinamik Stoxastik Ümumi Tarazlıq modelləri. Keynsin nəzəriyyəsinin bazasında və 1972-ci ildə Lukasın "Rasional gözləntilər" (Rational Expectation) hipotezinə əsaslanaraq mikroekonomik dəyişmələrin və tənliklərin makromodellərdə nəzərə alınması formalaşmağa başlamışdır. Dinamik stoxastik ümumi tarazlıq modellərində bir neçə bazar tarazlıqda olmaqla və hər bir bazar üçün optimallaşdırma şərtləri ödənilən əlaqəli sistemdir. Modelə ekzogen bir

təsir gəldikdə iqtisadi dəyişənlərin bu təsirə necə cavab verdiyi və yenidən tarazlı vəziyyətə necə qayıtması öyrənilir və qiymətləndirilir. Nəticələrin empirik olaraq əhəmiyyətli olması Eyler tənlikləri istifadə edilərək parametrlər təxmin edilir və simulyasiyalar aparılır. Daha sonra isə, əldə edilən simulyasiyalar təsir əks təsir funksiyaları yaxud da statistik testlərlə alınmış nəticələrlə müqayisə edilir.

*Üstünlükləri:*

- empirik proqnozlaşdırma modellərini əhəmiyyətli dərəcədə sadələşdirərək yüngülləşdirir;
- real datalara daha uyğunlaşır. Empirik proqnoz modellərindən fərqli olaraq insanların və agentlərin rasional qərarlarını nəzərə alır.

*Çatışmazlıqları:*

- empriik proqnozlaşdırma modellərini sadələşdirdiyi üçün müəyyən qədər cəriməyə başa gələcəkdir;
- hər istehlakçının və agentin eyni dərəcədə rasional olduğunu, yəni bütün agentlərin eyni faydalılıq funksiyasına malik olduğunu nəzərdə tutur. İqtisadiyyatda bütün istehlakçılar və agentlər eyni dərəcədə rasional ola bilməz. Onların qərarları az da olsa fərqlənəcəkdir.

IV. FPP - Maliyyə Proqramlaşdırması (MP) makroiqtisadi sabitliyə nail olmaq və ya onu qorumaq məqsədilə iqtisadi siyasətin formalaşması üçün bir çərçivədir. MP iqtisadiyyat üçün daha çox sağlamlaşdırıcı proqramın planlaşdırılmasıdır. Geniş mənada makroiqtisadi sabitlik iqtisadiyyatın davamlı şəkildə artması, inflyasiyanın nəzarət altında olması, maliyyə sisteminin iqtisadiyyatın şoklarına qarşı dayanıqlı olmasıdır [12]. Proqramda makroiqtisadiyyatın 4 əsas sektoru olan, real, xarici, monetar və fiskal sektorlar arasında qarşılıqlı əlaqələr müəyyən olunur.

*Üstünlükləri*

Sektorlararası sıx əlaqə və asılılıqların mövcudluğu proqnozlaşdırma işinin keyfiyyətini əhəmiyyətli artırır. MP-də iqtisadi siyasət ümumilikdə 3 qrupda təsnifləşdirilir:

- fiskal siyasət – dövlətin gəlir və xərclərinin istifadəsinin iqtisadiyyata təsirini müəyyən edir;
- monetar və məzənnə siyasəti – mərkəzi bankın iqtisadiyyatdakı pul miqdarına, ümumi kredit mövcudluğuna, faiz dərəcələrinə və məzənnəyə təsirini nəzərdə tuturlar;
- struktur siyasət iqtisadiyyatın faktiki olaraq necə işlədiyini müəyyən edən butün növ tənzimləmələri və institutların layihələndirilməsini ifadə edir.

*Çatışmazlıqları:*

- MP açıq Excel cədvəlləri formasındadır və asan idarə edilən interfeysə malik deyildir;
- MP-na daxil olan əmsallar ayrıca olaraq ekonometrik qiymətləndirilməlidirlər. Buna isə əksər hallarda nail oluna bilmir və proqramı subyektiv yanaşmalara tabe edir.

V. Sahələrarası Balans modelləri məhsul və xidmətlərin ehtiyat istifadə cədvəlləri əsasında formalaşmaqla dinamik və statik hallarda iqtisadi sahələr üzrə təsir qiymətləndirmələri və simulyasiya qiymətləndirmələri aparmağa imkan verir [4, 8].

*Üstünlükləri:*

- bu modellər iqtisadiyyat üzrə dəyişənlərin təhlilinə, habelə bölüşdürmə təsirlərinin müşahidə edilməsinə imkan verir;

- model daxili ardıcıllığı təmin edir, çoxsaylı nəticələrin və reaksiya təsirlərinin qiymətləndirilməsində faydalıdır.

*Çatışmazlıqları:*

- CGE modelindən fərqli olaraq balans modelləri xəttidir və məhdudiyyət şərtlərinin qoyulması isə çətinliklər yaradır;
- nəticələrin hazırlanmasında bu modelin xüsusiyyəti iqtisadi balansa əsaslanır; o müvazinətdə olmayan asılılıqlara imkan vermir;
- məlumatlar bazasının hazırlanması hər il aparılmadığından proqnozların verlməsi, əsasən də qısamüddətli proqnozların verilməsi  üçün əlverişli deyildir.

VI. SHM mutiplikator modelləri iqtisadiyyatı tam şəkildə əks etdirən Sosial Hesablar Matrisinə əsaslanmaqla sahəvi və institutisional sektorlar üzrə təsirləri qiymətləndirməyə və simulyasiyalar aparmağa imkan verən multiplikator modelləridir [8].

*Üstünlükləri:*

- bu modellər iqtisadiyyat üzrə dəyişənlərin təhlilinə, habelə bölüşdürmə təsirlərinin müşahidə edilməsinə imkan verir;
- modeldə daxili ardıcıllığı təmin edir, çoxsaylı nəticələrin və reaksiya təsirlərinin qiymətləndirilməsində faydalıdır.

*Çatışmazlıqları:*

- CGE modelindən fəqrli olaraq balans modelləri xəttidir və məhdudiyyət şərtlərinin qoyulması isə çətinliklər yaradır;
- nəticələrin hazırlanmasında bu modelin xüsusiyyəti iqtisadi balansa əsaslanır; o müvazinətdə olmayan asılılıqlara imkan vermir;
- məlumatlar bazasının hazırlanması hər il aparılmadığından proqnozların verlməsi, əsasən də qısamüddətli proqnozların verilməsi  üçün əlverişli deyildir.

VII. RMSM (Revised Minimal Standard Model (Extended). RMSM-X modeli 1970-ci illərin əvvəllərində neoklassik nəzəriyyənin nümayəndələri olan X.Çeneri və A.Straut tərəfindən ortamüddətli iqtisadi artım və onun maliyyələşdirilməsinin əlaqələrinin müəyyən edilməsi məqsədilə hazırlanmış RMSM modelinin yenidən işlənilmiş variantıdır.

*Üstünlükləri:* RMSM ekonometrik model olduğundan onun üstünlüklərini özündə saxlayır.

*Çatışmazlıqları:* RMSM ekonometrik model olduğundan onun çatışmazlıqlarına malikdir.

Əlavə olaraq qeyd edək ki, bütün modellər bilavasitə məlumat əsaslı olduğundan, modelin qurulması tam olaraq mükəmməl statistik məlumatlar bazasının olmasını tələb edir. Məlumatlar bazasının formalaşdırılması isə ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası, onun beynəlxalq təşkilatlarda üzvlüyü statistik məlumatların bütün dünyada asan qəbul edilə bilən və ümumi qəbul edilmiş metodologiyaya uyğunlaşdırılması zərurətini tələb edir. Bu məqsədlə də, beynəlxalq təşkilatların razılaşdırılmış qaydada hazırlanmış metodologiyalarına müvafiq olaraq hər bir ölkə öz statistika sistemini təşkil etməklə mövcud metodologiya əsasında modellərin tətbiqi imkanını daha əlverişli hala gətirib çıxarır.

## 3. NƏTİCƏ

Beləliklə aparılmış tədqiqat nəticəsində fikirləri ümumiləşdirərək belə qənaətə gəlmək olur ki, ölkə iqtisadiyyatının təhlil və qiymətləndirilməsi üçün konkret bir  modeldən istifadə olunması qarşıya qoyulmuş məqsədə çatmaq üçün kifayət etmir. Bu məqsədlə də, ölkə iqtisadi

siyasətinin istər elmi tədqiqatçılar, istərsə də siyasət qərarçıları tərəfindən işlənməsi məqsədilə müxtəlif məsələlərə cavab verən bir neçə modelin qurulması, ölkə iqtisadiyyatının spesifik xüsusiyyətlərinin nəzərə alınması və onların vahid platformada əlaqələndirilməsi əsas götürülməlidir. Çünki hər bir qiymətləndirmə modeli müəyyən üsul və qanunauyğunluqlara malik olmaqla endogen və ekzogen göstəricilərə və müəyyən məhdudiyyət şərtlərinə malikdir.Yəni bir modelin bütün istiqamətli məsələlərin həllində istifadə edilməsi modelin spesifik xüsusiyyətlərinin pozulmasına və bununla da yanlnş nəticələrin alınmasına gətirib çıxaracaqdır.

**Ə D Ə B İ Y Y A T**


1. Dokuzuncu Kalkınma planı 2007/2013 (2008). “DPTMAKRO-ARZ” makroekonometrik modeli, Devlet Planlama Teşkilatı, Ankara, 69s.
2. Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. Bakı, 2012, 44s.
3. Dynamic General Equilibrium Model for Azerbaijan Economy. Technical Report AzMOD, EcoMOD 2012, 52p.
4. Əhmədov V., Tahirova G. İqtisadi artımın empirik modelləri // Mərkəzi Bank və İqtisadiyyat Jurnalı, 2013, № 1, s.96-105.
5. FPP Manual. IMF Institute for Capacity Development for training courses in Financial Programming and Policies, 2013, 323p.
6. Həsənli Y.H. Azərbaycan iqtisadiyyatının sahələrarası əlaqələrinin modelləşdirilməsi. Bakı: Elm, 2011, 202s.
7. Həsənli Y.H., Həsənov R.T. İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi. Dərs vəsaiti. Bakı 2002, 303s.
8. Həsənli Y.H., Orucov H., Vəliyev V. “Xətti cəbr və iqtisadi modeller”. Dərslik. Qafqaz Unversiteti nəşriyyatı, Bakı, 2009, 132 səh.
9. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun “Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin hazırlanması üzrə görülmüş işlər barədə” hesabatı,Bakı 2012, 120s.
10. İqtisadi Nəzəriyyə. İqtisad Universitetinin tərcümə etdiyi dərslik. Moskva 2008, 872 s.
11. Mehdiyev M.M. İqtisadi siyasət ssenarilərinin simulyasiyasının təşkili // İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi Əsərlər Toplusu, 2011, XI buraxılış, s.120-127.
12. Süleymanov A.S. Müasir makroiqtisadi modellərin təhlili // Azərbaycan Vergi Jurnalı, 2016, № 1, s.121-132.
13. www.cbar.az Azərbaycan Respublikası Mərkəzi Bankı
14. www.economy.gov.az Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi
15. www.maliyye.gov.az Azərbaycan Respublikası Maliyyə Nazirliyi
16. www.stat.gov.az Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
17. Бондарчук Г., Середа В., Шеметов С. “Макроэкономическое прогнозирование”,ООО Компания по управлению активами “Всесвит”. информационно-аналитическая служба группы компаний “ВСЕ”, 2010, 14с.
18. Сулейманов А.С., Рустамов Э.Ш. Оценивание Мультипликативных Эффектов Капитальных Вложений На Основе Матрицы Социальных Счетов // Фундаментальные исследования, 2016, № 9, ч. 1, с.192-197.



**İİETİ-nin kollektivi (2019-cu il)**




**“Standartların tətbiqi: Azərbaycan-Türkiyə Əməkdaşlığı” mövzusunda Beynəlxalq Konfrans (10 oktyabr 2019)**

**2019-cu ildə İİETİ-də keçirilən elmi müzakirələrdən şəkillər**






EXIT
əsasında işçinin alternativ iş
yerində (evdə, tele iş
mərkəzində) adi ödənişli iş
gününün istənilən hissəsində
yerinə yetirdiyi işdir.


Smart Logistics Centers:




## *SEÇİLMİŞ ƏSƏRLƏR*

**Ələkbərov E.**

*Koronovirus (COVİD-19) pandemiyasının Azərbaycan iqtisadiyyatına təsirlərinin təhlili*

*"Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" Elmi əsərlər toplusu. Xüsusi buraxılış, Bakı 2020*

# KORONAVİRUS (COVİD-19) PANDEMİYASININ AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRLƏRİNİN TƏHLİLİ

***i.ü.f.d. Ələkbərov E.***

*2011-2022 -ci illərdə İİETİ-də baş mütəxəssis, böyük elmi işçi, şöbə müdiri vəzifəsində işləyibdir.*

**Xülasə**

Koronavirusun (COVID-19) yayılması dünya iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. İstehsalın zəifləməsi dünyada qlobal dəyər zəncirlərində, turizm və əmtəə bazarlarında müşahidə olunan mənfi tendensiyalar işgüzar aktivliyi xarakterizə edən indikatorlarda geriləmələrə səbəb olmuşdur.

Təqdim edilən məqalədə 2019-cu ilin dekabr ayında Çinin Uhan şəhərində yayılmağa başlamış koronavirus infeksiyasının qlobal iqtisadiyyata, o cümlədən Azərbaycan iqtisadiyyatına ehtimal olunan təsirləri araşdırılmışdır. Eyni zamanda, məqalədə ölkə iqtisadiyyatının pandemiyadan əvvəl və pandemiya dövründə makroiqtisadi göstəriciləri təhlil edilmiş, həmçinin müxtəlif beyəlxalq təşkilatların dünya və Azərbaycan iqtisadiyyatı üçün gözlənilən proqnozları əksini tapmışdır. Bununla yanaşı, COVİD-19 pandemiyasından ən çox zərər çəkən turizm sektoru üzrə ssenari qiymətləndirilməsi aparılmışdır.

**Açar sözlər**: pandemiya, makroiqtisai göstəricilər, proqnoz, təhlil, ssenari qiymətləndirməsi.

## Giriş

Bəşər cəmiyyəti yaranandan bəri müxtəlif xəstəliklər mövcud olmuş, bəzən bu xəstəliklər kütləvi xarekter almaqla minlərlə, hətda milyonlarla insanın ölümünə səbəb olmuşdur.

Təbiidir ki, bu cür xəstəlik və epidemiyaların qarşısının alınması, onlara qarşı mübarizə tədbirlərinin gücləndirilməsi təkcə epidemiyanın mövcud olduğu ölkədə deyil bütün dünyada aparılır. Epidemiya yerli və gətirilmə ola bilər. Epidemiya bir neçəölkəni, qitəni və ya bütün yer kürəsini əhatə etdikdə pandemiya, birdən-birə baş verdikdə eksploziv, yaxud epidemik alovlanma adlanır. Epidemiyaların insanların sağlamlığına ciddi təhdidləri ilə yanaşı neqativ iqtisadi təsirləri də az olmur.

Son aylar bütün dünyanın müzakirə mövzusu olan, 2019-cu ilin dekabr ayında Çinin Hubey əyalətinin Uhan şəhərində aşkarlanmış yeni növ koronavirus infeksiyası (COVID- 19), Çinin özü ilə yanaşı bütün dünyanı sürətlə ağuşuna almış, bəzi ölkələr hətda bugünlərdə pandemiyanın ikinci dalğasının başladığını elan etmişlər. Hazırda dünyanın 188 ölkəsində mövcud olan və yayılması günbəgün artmaqda davam edən virusa indiyədək 19 milyondan çox insan yoluxmuş, dünya üzrə 700 min nəfərədək insan virus səbəbindən həyatını itirmiş, 11 milyondan artıq insan isə virusdan sağalmışdır.

Ölkəmizdəki vəziyyətə gəlincə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında yaradılmış Operativ qərargahın məlumatına əsasən hal-hazırda aktiv xəstə sayı4456 nəfər təşkil edir (03.08.2020-ci il məlumatı).

COVID-19 virusu 1918-ci il İspan qripi pandemiyasından keçən dövr ərzində ən ciddi tənəffüs yoluxmasıdır. COVID-19 ölüm nisbətinə görə mövsümü qripdən 3-30 dəfə daha öldürücü, SARS virusundan isə ən azı 10 qat daha yoluxucudur.

Ümumiyyətlə, kütləvi yayılmış epidemiyaların ictimai sağlamlıqla yanaşı, sosial-iqtisadi inkişafa təsirləri qaçılmazdır. Bu baxımdan dünya təcrübəsində epidemiyaların iqtisadiyyata təsirlərinə müxtəlif aspektlərdən baxılmış və onların qiymətləndirilməsi ilə bağlı müxtəlif yanaşmalardan istifadə edilmişdir.

Təqdim edilən bu məqalə İqtisadiyyat nazirinin müvafiq əmri ilə təsdiq edilmiş “Koronavirus xəstəliyinin Azərbaycan Respublikasına ehtimal olunan təsirləri ilə bağlı İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətləri üzrə Tədbirlər Planı”nın 3.1. bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmış Arayışa müvafiq olaraq işlənilmişdir.

Məqalənin hazırlanmasında beynəlxalq təşkilatların hesabatlarından, İqtisadiyyat Nazirliyi və Dövlət Turizm Agentliyi tərəfindən təqdim edilmiş təhlili material və məlumatlardan geniş istifadə edilmişdir.

Koronavirusun (COVİD-19) dünya iqtisadiyyatına təsiri COVİD-19-un qlobal iqtisadiyyata ehtimal olunan təsirləri

Koronavirusun (COVID-19) yayılması dünya iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. İstehsalın zəifləməsi dünyada qlobal dəyər zəncirlərində, turizm və əmtəə bazarlarında müşahidə olunan mənfi tendensiyalar işgüzar aktivliyi xarakterizə edən indikatorlarda azalmalara səbəb olmuşdur.

Dünya üzrə gündəlik 200 min və daha çox yoluxma faktının aşkarlanmasına baxmayaraq, artıq dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda mart ayının əvvəllərindən tətbiq olunan xüsusi karantin rejimi yumşaldılmış, yoluxma faktlarının yenidən artmasıyla sərtləşdirilmiş rejim yenidən tətbiq edilmişdir. Bəzi ölkələrin səhiyyə qurumları pandemiyanın ikinci dalğasının yaşandığını elan etməklə yenidən məhdudiyyətlər tətbiq etməyə başlamışlar. Koronavirusun əhatə dairəsinin genişlənməsi istiqamətlərinin və onun iqtisadi təsirlərinin dəqiq müəyyən olunması mümkün olmadığından artım perspektivləri qeyri-müəyyən olaraq qalmaqdadır.

Koronavirus pandemiyasının dünya üzrə hər keçən gün daha geniş yayılması dünya iqtisadiyyatında daha böyük fəsadların yarana biləcəyi yönündə fikirləri artırmaqdadır. Risklərdən qorunmaq məqsədi ilə, investorların inkişaf etməkdə olan iqtisadiyyatlardan sərmayələrini geri çəkmələri maliyyə sabitliyinə təhlükə yaratmışdır. İnkişaf etməkdə olan bazarlarda mart və aprel aylarında böyük həcmli kapital çıxışı müşahidə edilmiş və bu da dünya üzrə ciddi iqtisadi geriləmələrə səbəb olmuşdur. Qlobal tələbin zəifləməsi nəticəsində əmtəə qiymətləri, xüsusilə də neftin qiyməti kəskin şəkildə ucuzlaşmışdır.

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı (UNCTAD) tərəfindən hazırlanan “Koronavirusun Beynəlxalq Birbaşa İnvestisiyalara təsiri” hesabatına görə, epidemiya birbaşa xarici investisiyaları 15% azaldacaq. Hesabata görə epidemiya səbəbi ilə yaranmış iqtisadi böhrandan ən çox inkişaf etməkdə olan ölkələr zərər çəkəcək. Hesabatda 5 min transmilli şirkətin məlumatları əsasında aparılan təhlillər nəticəsində ümumi istehsal proqnozunda 9%-lik azalmanın müşahidə olunacağı bildirilmişdir. Ən böyük azalma 44%-lik

göstərici ilə avtomobil sənayesində, 42%-lik azalma hava yollarında və 13 %-lik azalma isə enerji və hasilat sənayesi sahəsində müşahidə olunacağı proqnozlaşdırılır.

Dünya Bankının (DB) hesabatına əsasən inkişaf etmiş iqtisadiyyatlarda virusun yayılması ilə bağlı mənfi meyllər, eyni zamanda inkişaf etməkdə olan bazarların daxilində yayılmanın artması 2020-ci ildə Dünya iqtisadiyyatının 5.2%, inkişaf etmiş ölkələrin (İEÖ) iqtisadiyyatlarının 7%, inkişaf etməkdə olan ölkələrdə (İEOÖ) iqtisadi artımın 2.5 faiz azalacağı proqnozlaşdırılır.

Cədvəl 1.

DB-nin iqtisadi artım üzrə proqnozları %-lə

| Ölkə qrupları | 2019 | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|
| | | iyun hesabatı | yanvar hesabatı ilə fərq | iyun hesabatı | yanvar hesabatı ilə fərq |
| Dünya | 2.4 | -5.2 | -7.7 | 4.2 | 1.6 |
| İEÖ | 1.6 | -7.0 | -8.4 | 3.9 | 2.4 |
| Avrozona | 1.2 | -9.1 | -10.1 | 4.5 | 3.2 |
| İEOÖ | 3.5 | -2.5 | -6.6 | 4.6 | 0.3 |
| Çin | 6.1 | 1.0 | -4.9 | 6.9 | 1.1 |
| Türkiyə | 0.9 | -3.8 | -6.8 | 5.0 | 1.0 |
| ABŞ | 2.3 | -6.1 | -7.9 | 4.0 | 2.3 |
| Rusiya | 1.3 | -6.0 | -7.6 | 2.7 | 0.9 |

Mənbə: Dünya Bankı. İyun 2020-ci il hesabatı

Koronavirusun monitorinqi, yoluxmanın azaldılması və təsirlərinin aradan qaldırılması hal-hazırda dünya üzrə əsas prioritetlər olaraq qəbul edilməkdədir.

Beynəlxalq Valyuta Fondu (BVF) 2020-ci ilin iyun hesabatında pandemiyanın qlobal iqtisadi artıma təsir proqnozları üç ssenari (baza, optimist və pessimist) üzrə verilmişdir. Belə ki, baza ssenaridə cari ilin ikinci rübündə artım tempindəki azalmanın daha da dərinləşəcəyi, ilin sonuna doğru qismən müsbət dinamika nümayiş olunacağı proqnozlaşdırılır. 2021-ci ildə isə 5.4% olacağı təxmin edilir. Pessimist ssenaridə pandemiyanın 2021-ci ildə yenidən yayılacağı və qlobal iqtisadi artımın baza ssenariyanəzərən 4.9% azalacağı ehtimal edilir. Optimist ssenari üzrə proqnozlar isə 2020-ci ildəqlobal iqtisadi artımın 0.5%, 2021-ci il üzrə isə 3%-dən yuxarı olacağı gözlənilir.

Cədvəl 2.

BVF-nin iqtisadi artım üzrə proqnozları %-lə

| Ölkə qrupları | 2019 | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|
| | | iyun hesabatı | aprel hesabatı ilə fərq | iyun hesabatı | aprel hesabatı ilə fərq |
| Dünya | 2.9 | -4.9 | -1.9 | 5.4 | -0.4 |
| İEÖ | 1.7 | -8.0 | -1.9 | 4.8 | 0.3 |
| Avrozona | 1.3 | -10.2 | -2.7 | 6.0 | 1.3 |
| İEOÖ | 3.7 | -3.0 | -2.0 | 5.9 | -0.7 |
| Çin | 6.1 | 1.0 | -0.2 | 8.2 | -1.0 |
| ABŞ | 2.3 | -8.0 | -2.1 | 4.5 | -0.2 |
| Rusiya | 1.3 | -6.6 | -1.1 | 4.1 | 0.6 |

Mənbə: BVF(Beynəlxalq Valyuta Fondu – İyun 2020 Hesabatı)

Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial İşlər Departamentinin (UNDESA) "Dünya İqtisadi Vəziyyəti və 2020-ci ilin ortalarına olan perspektivlər" adlı son hesabatında qlobal ÜDM-in 2020-ci ildə 3.2% azalacağı proqnozu qeyd edilmiş. 2021-ci ildə itirilmiş məhsul buraxılışının tədricən bərpa edilməsi, ümumilikdə dünya iqtisadiyyatında təxminən 8.5 trilyon dollarlıq məhsul buraxılışı itkisinin gözlənildiyi açıqlanmışdır. Departamentin ölkələr və regionlar üzrə buraxılış artımları cədvəl 3-də verilmişdir. Dünya üzrə ilkin proqnozlar 2020 və 2021-ci illərdə müvafiq olaraq -3.2% və 4.2% olaraq müəyyən edilmiş, pandemiya səbəbindən proqnozlara yenidən baxılaraq dünyada ÜDM istehsalının 2020-ci il üçün -5.7% azalacağı, 2021-ci il üçün isə 1.5% artacağı proqnoz edilmişdir. Cədvəldən görünür ki, Təşkilat Azərbaycanın da daxil olduğu MDB ölkələri üçün cari dövr proqnozlarını fiksasiya edərək cari ilin ilkin proqnozundan 2.3% bəndi aşağı müəyyən etmişdir. Növbəti ildə isə MDB ölkələri və Gürcüstan üzrə artımın 0.2% səviyyəsində olacağı gözlənilməkdədir.

Cədvəl 3.

Dünya iqtisadiyyatının artımı ilə bağlı proqnozlar, 2018-2021

| | İllik dəyişmə, faizlə | | | | Dünya İqtisadi Vəziyyəti və Gözləntilər2020 proqnozunda dəyişikliklər | |
|---|---|---|---|---|---|---|
| | **2018** | **2019[a]** | **2020[p]** | **2021[p]** | **2020** | **2021** |
| Dünya | 3.1 | 2.6 | -3.2 | 4.2 | -5.7 | 1.5 |
| **İnkişaf etmiş iqtisadiyyatlar** | 2.3 | 1.9 | -5.0 | 3.4 | -6.5 | 1.7 |
| ABŞ | 2.9 | 2.3 | -4.8 | 3.9 | -5.1 | 2.1 |
| Avropa Birliyi | 2.1 | 1.8 | -5.5 | 2.8 | -7.1 | 1.9 |
| Avrozona | 1.9 | 1.5 | -5.8 | 2.9 | -7.2 | 1.1 |
| Böyük Britaniya vəŞimali İrlandiya | 1.3 | 1.4 | -5.4 | 3.0 | -6.6 | 1.4 |
| Digər inkişaf etmiş ölkələr | 2.3 | 2.0 | -4.8 | 3.5 | -6.6 | 1.2 |
| **Keçid iqtisadiyyatları** | 2.8 | 2.2 | -3.5 | 3.1 | -5.8 | 1.6 |
| Cənub-Şərqi Avropa | 3.9 | 3.4 | -3.3 | 3.6 | -6.7 | 0.6 |
| MDB və Gürcüstan | 2.8 | 2.2 | -3.5 | 3.0 | -5.8 | 0.2 |
| Rusiya Federasiyası | 2.3 | 1.3 | -4.3 | 2.9 | -6.1 | 0.9 |
| **İnkişaf etməkdə olan iqtisadiyyatlar** | 4.3 | 3.7 | -0.7 | 5.3 | -4.7 | 1.0 |
| Afrika | 3.1 | 3.0 | -1.6 | 3.4 | -4.8 | -0.1 |
| Şimali Afrika | 3.4 | 3.5 | -1.8 | 4.0 | -5.4 | 0.3 |
| Şərqi Afrika | 6.6 | 6.3 | 1.5 | 3.4 | -4.5 | -2.8 |
| Mərkəzi Afrika | 1.6 | 1.9 | -1.6 | 3.2 | -4.5 | 0.1 |
| Qərbi Afrika | 3.2 | 3.3 | -1.3 | 3.1 | -4.9 | -0.7 |
| Cənubi Afrika | 0.9 | -0.1 | -3.5 | 2.7 | -4.4 | 0.8 |
| Şərqi və Cənubi Asiya | 5.7 | 5.0 | 0.8 | 6.4 | -4.4 | 1.2 |
| Şərqi Asiya | 5.8 | 5.2 | 1.1 | 6.8 | -4.1 | 1.6 |
| Çin | 6.6 | 6.1 | 1.7 | 7.6 | -4.3 | 1.7 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Cənubi Asiya | 5.1 | 3.8 | -0.6 | 4.4 | -5.7 | -0.9 |
| Hindistan[c] | 6.8 | 4.1 | 1.2 | 5.5 | -5.4 | -0.8 |
| Qərbi Asiya | 2.2 | 1.0 | -3.5 | 2.6 | -5.9 | -0.2 |
| Latın Amerikası və Karib hövzəsi | 0.5 | -0.2 | -5.4 | 3.1 | -6.7 | 1.1 |
| Cənubi Amerika | -0.3 | -0.5 | -5.5 | 2.7 | -6.6 | 0.7 |
| Braziliya | 1.1 | 1.1 | -5.2 | 2.9 | -6.9 | 0.6 |
| Meksika və Mərkəzi Amerika | 2.3 | 0.6 | -5.4 | 3.8 | -7.0 | 1.9 |
| Karib hövzəsi | 1.8 | 0.3 | -1.9 | 3.7 | -7.6 | 0.3 |
| **Az inkişaf etmiş ölkələr** | 4.5 | 4.8 | 0.8 | 4.6 | -4.3 | -0.8 |
| **Digər qeydlər** | | | | | | |
| Dünya ticarəti (məhsul və xidmətlər daxil olmaqla) | 4.1 | 1.3 | -14.6 | 9.4 | -16.9 | 6.2 |

Mənbə : BM İqtisadi və Sosial işlər Departamenti (UNDESA)
Qeyd: a-qismən qiymətləndirilmiş, p -proqnozlar, c-fiskal il əsasında

***Əmtəə qiymətləri***. Koronavirusun istehsal və xidmətlər sektoruna təsirinin bundan sonra da davam edəcəyi gözlənilir. BVF-nin hesabatında neftin bir barrelinin orta qiymətinin 37.5 ABŞ dolları səviyyəsində olacağı qiymətləndirilir.Neftin fyuçersəyriləri, qiymətlərin bundan sonra 2019-cu ilin orta səviyyəsindən təxminən 25% aşağıolaraq 46 ABŞ dollarına qədər artacağının gözlənildiyini göstərir.

Hazırda dünya əmtəə qiymətlərində, o cümlədən neft qiymətlərində bərpa prosesi davam etməkdədir. İyuldan ötən dövrdə Brent markalı neftin orta qiyməti 43 ABŞ dolları olmuşdur ki, bu da aprel ayına nisbətən 59% yüksəkdir.

***Qlobal ticarət***. Qlobal ticarət həcmlərində artımın səngiməsi proteksionizm meyllərinin artması, Asiya və Avropada tələbin zəifləməsi, xüsusilə intensiv avtomobil ticarətinin və texnologiya məhsullarına olan tələbin və eyni zamanda investisiyalarda artımın azalması səbəblərindən baş vermişdir.

36 beynəlxalq təşkilatın birgə hesabatında yayımlanan Birləşmiş Millətlər Ticarət və İnkişaf Konfransının (UNCTAD) ən son məlumatlarına görə COVİD-19 pandemiyası bu ilin ilk rübündə qlobal ticarət dəyərlərini 3% azaltmışdır. Statistik Fəaliyyətlərin Koordinasiya Komitəsinin hesabatına əsasən cari ilin ikinci rübündə qlobal ticarətin 27% azalacağı təxmin edilir.

Cari ildə koronavirusun yayılması nəticəsində Çində aralıq məhsulların istehsalı prosesində fasilələrin olması, bunun dünya dəyər zəncirinə təsiri digər ölkələrdəki istehsalçılarda da özünü büruzə verməkdədir. Hazırda qlobal ticarətin 20%-ni Çində istehsal olunan aralıq məhsullar təşkil edir. Eyni zamanda koronavirusun digər ölkələrdə, xüsusilə Avropada geniş yayılması və bu prosesin uzun müddət davam etməsi qlobal iqtisadiyyatda son məhsul üzrə istehsal həcmlərinin azalmasına və qlobal ticarətin daha da zəifləməsinə gətirib çıxara bilər.

***Turzim və səyahət***. Səyahət və turizm pandemiyadan ən çox təsirlənən sektorlardan biridir. COVID-19-un yayılması ilə bağlı dünya ölkələrində tətbiq edilənməhdudiyyətlər, sərhədlərin bağlanması və azalan tələb sərnişin hava nəqliyyatında kəskin azalmaya və

dünyada turizmin tənəzzülünə səbəb olmuşdur. Dünyada 330 milyon insanın çalışdığı turizm sektoru pandemiyanın neqativ təsirlərinə ən çox məruzqalan iqtisadi sektorlardandır (Dünya Ticarət və Turizm Şurası). Hazırkı ssenarilər, məhdudiyyətlərin sürətindən və onların müddətindən, eləcə də sərhədlərin bağlanmasından asılı olaraq, il boyu beynəlxalq turist gəlişlərində 58%-dən 78%-ə qədər azalmaların olduğunu göstərir. Lakin, görünən odur ki, qeyri-müəyyənlik davametməkdədir.




Şəkil 1. Mərkəzi Bankların uçot dərəcəsi, faizlə (01.07.2020)

Bir sıra ölkələrin Mərkəz Bankları yayılmaqda davam edən virusun iqtisadi təsirlərinin azaldılması, habelə iqtisadi aktivliyin səngiməsinin qarşısının alınması və tələbin canlandırılması məqsədi ilə uçot faiz dərəcələrinin aşağı salınması və maliyyə bazarlarının fəaliyyətinin yaxşılaşdırılması istiqamətində yumşaldıcı monetar siyasət həyata keçirməyə başlamışdır.

Bu istiqamətdə demək olar ki, əksər mərkəzi banklar, o cümlədən ABŞ Federal Ehtiyatlar Sistemi, Türkiyə, İngiltərə və digər ölkələrin mərkəzi bankları növbədənkənar iclaslar keçirərək müxtəlif siyasət tədbirləri elan etmişlər.

Qeyd edək ki, 30.07.2020-ci il tarixində Azərbaycan Respublikası MərkəziBankının İdarə Heyəti uçot dərəcəsinin 7%-dən 6.75%-ə endirilməsi haqqında qərar qəbul etmişdir. Faiz dəhlizinin aşağı həddi 6.25%, faiz dəhlizinin yuxarı həddi isə 7.25% səviyyəsində müəyyən edilmişdir.

Pandemiyanın təsirləri özünü əsas indekslərdə də göstərmişdir. Qlobal maliyyə şəraiti 2019-cu ilə nisbətən 2020-ci ilin əvvəllərindən əhəmiyyətli dərəcədə pisləşmişdir. Koronavirusun təsirləri və eyni zamanda enerji daşıyıcılarının qiymətlərinin kəskin düşməsi fonunda dünya fond bazarında da geniş diapozonlu volatilliyin artmasına səbəb olmuşdur. Mart ayının əvvəllərindən etibarən Dünya Fondindekslərində kəskin enişlər qeydə alınmışdır. Belə ki, cari ilin yanvar 1-dən iyulun 6-dək "S&P500" indeksi 3.12%, "Dow Jones" indeksi 9.50%, "FTSE100" indeksi 18.36%, "EuroStoxx500" indeksi 12.04% azalmış, "NASDAQ100" indeksi və "Nikkei225" indeksləri isə, müvafiq olaraq 18.42% və 5.31% artmışdır.

***COVID-19-un neqativ təsirlərinin azaldılmasına qarşı ölkələrin atdığı addımlar***

Beynəlxalq Valyuta Fondu tərəfindən hazırlanmış koronavirus böhranının aradan

qaldırılmasına istiqamətlənmiş siyasət addımları sənədində səhiyyə təşkilatlarının,mərkəzi bankların, fiskal, tənzimləyici və nəzarət orqanlarının vaxtında və həlledici qərarlar qəbul etməsi pandemiyanın iqtisadi təsirlərinin minimallaşdırılmasınaəhəmiyyətli dəstək göstərə biləcəyi qeyd edilir.

Bununla əlaqədar olaraq, virusun iqtisadi təsirlərinin azaldılması məqsədi ilə mərkəzi banklar tərəfindən tələbin və inamın yüksəldilməsi, maliyyə vəziyyətini yüngülləşdirmək məqsədilə kreditlərin real iqtisadiyyata qoyuluşunu və likvidliyin artırılmasının dəstəklənməsi, pandemiya dövründə virusdan əziyyət çəkən əhaliyə və firmalara əhəmiyyətli və təcili fiskal dəstəyin göstərilməsi, tənzimləyici və nəzarətedici addımların maliyyə sabitliyinin qorunması, bank sisteminin və iqtisadi aktivliyindayanıqlılığı arasında balansın təmin edilməsinə yönəldilməsi atılacaq addımlar sırasında olmalıdır.

Gəlirlərin azalması, yoluxma qorxusu və yüksək qeyri-müəyyənlik insanların daha az pul xərcləmələrinə gətirib çıxarmaqdadır. Müəssisələrdə çalışanların maaşlarının ödənməməsi səbəbindən işlərini itirməsi riski mövcuddur. Bunun turizm sektoruna xüsusi ilə daha ciddi təsir göstərməsi İtaliya nümunəsində də görməkmümkündür. ABŞ-da səhmlərin satışının kütləvi hal aldığı 20 fevral tarixdən bəri havayolu şirkətlərinin səhmləri 9 sentyabr 2001-ci ildəki terror hücumları dövründə müşahidə edildiyi həddə azalmışdır. Zəifləyən istehlakçı və biznes mühiti şirkətlərin tələb gözləntilərini və investisiya xərclərini azaltması ilə nəticələnəcəkdir.

Belə ki, epidemiyanın yayılması 2020-ci ildə qlobal artım tempinin 2008-2009- cu illərdə qeydə alınan maliyyə böhranı dövründəki artım templəri həddinədək azaldacağı gözləntilərini yaratmışdır.

BVF-nin 2020-ci ilin mart ayının sonuna olan mövcud hesabatı COVID-19 pandemiyasının insan və iqtisadi təsirini məhdudlaşdırmaq üçün hökumətlərin əsas iqtisadi cavablarını əks etdirir. Buraya ümumilikdə 186 iqtisadiyyat daxildir. Aşağıdakı cədvəldə bəzi ölkələrin ayırdığı vəsait əks olunmuşdur.

Cədvəl 4.

COVID-19-la mübarizəyə ölkələrin sərf etdiyi vəsait

| Ölkələr | COVID-19-la mübarizəyə ayrılan vəsait | ÜDM-də xüsusi çəkisi (%) |
|---|---|---|
| **Amerika Birləşmiş Ştatları** | 2,3 trilyon ABŞ dolları | 11 |
| **Azərbaycan** | 2,5 mlrd. Manat | 3,1 |
| **Gürcüstan** | 1 mlrd. Lari | 2,0 |
| **Ermənistan** | 300 mln. dollar | 2,0 |
| **Türkiyə** | 100 mlrd. TL | 1,5 |
| **Özbəkistan** | 10 trln. Som | 1.5 |
| **İtaliya** | 25 mlrd. Avro | 1,4 |
| **Qırğızıstan** | 9,4 mln. dollar | 1,0 |
| **İspaniya** | 200 mlrd. Avro | 20 |
| **Böyük Britaniya** | 400 mlrd. dollar | 15 |
| **Rusiya** | 0,3 trilyon rubl | 0,3 |
| **Avrozona** | 37 milyard avro | 0,3 |

Əvvəldə də qeyd olunduğu kimi, Azərbaycanda COVID-19 pandemiyasına ilk yoluxma faktı aşkarlandıqdan sonra hökümət tərəfindən müxtəlif qabaqlayıcı tədbirlər həyata keçirilmiş eyni zamanda pandemiyanın iqtisadi təsirlərini azaltmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli "Koronavirus (COVID-19) pandemiyasınm və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmalann Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, öikədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı təsdiq edilmişdir. Sərəncamın icrası ilə bağlı cədvəl 5-də qeyd olunan proqramlar qəbul edilmiş və hal-hazırda həmin proqramların bir qismi üzrə dəstək tədbirləri davam etməkdədir. Hökumətin COVİD-19-la mübarizə tədbirlərinin icrası, xüsusən də pandemiyadan zərər çəkən sahələrin dəstəklənməsi tədbirləri iqtisadi aktivliyin azalmasının miqyasını əhəmiyyətli dərəcədə kiçiltməyə kömək etmişdir. Virus təhlükəsinin qaldığı və sosial təcrid tədbirlərinin davam etdiyi şəraitdə iqtisadi artımın bərpası prosesinin qlobal iqtisadiyyatda gözlənildiyi kimi tədricən baş verəcəyi proqnozlaşdırılır.

Cədvəl 5.

İqtisadi artıma və sahibkarlığa əsas dəstək alətləri

| **Sıra sayı** | **Tədbirlərin adları** | **Nəzərdə tutulmuş vəsaitin məbləği, milyon manat** |
|---|---|---|
| **1** | Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan 304 min muzdlu işçilərin əmək haqlarının ödənilməsi üçün maliyyə dəstəyi proqramı (iş yerlərinin azaldılmaması məqsədilə) | 215.0 |
| **2** | Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən 292 min fərdi (mikro) sahibkara maliyyə dəstəyi proqramı (iş yerlərinin qorunması məqsədilə) | 80.0 |
| **3** | Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyətgöstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri, imtiyazları və tətilləri proqramı | 115.0 |
| **4** | Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyə göstərən sahibkarlıq subyektlərinə yeni verilən bank kreditləri üzrə kredit-zəmanət dəstəyi proqramı | 500.0 |
| **5** | Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin mövcud kredit portfeli üzrə kredit-zəmanət dəstəyi proqramı | 1000.0 |
| **6** | Əhalinin maddi vəziyyətinin dəstəklənməsi üçün sosial paket | 228.0 |
| **7** | Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsinə dəstək proqramı | 40.0 |
| **8** | İpoteka və kredit zəmanət mexanizminə maliyyə dəstəyi proqramı. | Əlavə vəsaitlərin ayrılması |
| **9** | Əhalinin elektrik enerjisinin istehlakı üzrə kommunal ödənişlərə dəstək proqramı | 10.0 |
| **10** | Həyati vacib sərnişindaşıma fəaliyyəti sahələrinə dəstək proqramı | Xüsusi vəsaitlərin ayrılması |

Mənbə: İqtisadiyyat Nazirliyi

***Azərbaycanın COVİD-19 pandemiyasına qədərki və pandemiya dövründə makroiqtisadi mənzərəsi***

Qeyd etmək lazımdır ki, Azərbaycanda COVID-19 pandemiyasına ilk yoluxma halı cari ilin fevral ayının sonlarında qeydə alınmış, mart ayının əvvəllərindən başlayaraq mərhələli şəkildə məhdudlaşdırıcı tədbirlərin görülməsi həyata keçirilmişdir. Virusun ölkə iqtisadiyatına əsas təsirləri də məhz 2020-ci ilin mart ayından özünü göstərməyə başlamışdır. Məhdudlaşdırıcı tədbirlərin icrası iqtisadi sahələr arasında əlaqələrin qırılmasına səbəb olmuş, bu isə müvafiq olaraq bir sıra itkilərin yaranması ilə nəticələnmişdir.

Yuxarıda qeyd olunduğu kimi, dövlət əhalinin sosial vəziyyətinin dəstəklənməsi, eləcə də iqtisadi artıma və sahibkarlığa dəstək alətləri müəyyən etmiş və müvafiq dəstəklərin göstərilməsi istiqamətində hal-hazırda aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları işləri davam etdirməkdədir.

Hal-hazırda ölkədə tətbiq olunan xüsusi karantin rejimi bir sıra iqtisadi sahələrin fəaliyyətinin qismən bərpa olunması və sosial izolyasiya tədbirlərinin yumşaldılması ilə davam edir. Bu bölmədə pandemiyanın ölkə iqtisadiyyatına təsirlərini görmək məqsədilə, pandemiyadan əvvəl və pandemiyanın hazırda davam etdiyi cari dövr Dövlət Statistika Komitəsinin məlumatları əsasında təhlil edilmişdir.

Onu qeyd edək ki, həm itkilərin qiymətləndirilməsi üçün dünya ölkələrin təcrübəsində tətbiq edilən metodologiyalar, həm də itkilərin qiymətləndirməsini aparmış ölkələrin təcrübəsi onu göstərir ki, bu tip qiymətləndirmə aparılmamışdan öncə bu tip fəlakətlərin başlandığı ana qədərki, iqtisadi vəziyyətin mənzərəsinin hazırlanması və ondan sonrakı qısamüddətli dövr ərzində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin nəticəsi əsasında qısamüddətli dövr üzrə hazırlanmış proqnozların təhlil edilməsi vacib şərtlərdəndir.

Azərbaycan Respublikasının Dövlət Statistikası Komitəsinin məlumatlarına səasən 2020-ci ilin 6 ayında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 33,8 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 2,7 faiz az ümumi daxili məhsul istehsal edilmişdir.



Şəkil 2. ÜDM-in aylar üzrə dinamikası, milyon manatla

Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 2,9 faiz, qeyri neft-qaz sektorunda isə 2,5 faiz azalmışdır. ÜDM-in sahə strukturu aşağıdakıkimi olmuşdur:




Şəkil 3. ÜDM-in sahə strukturu

Məhsula və idxala xalis vergilər ÜDM-in 10,3 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 3393,7 manata bərabər olmuşdur.

ÜDM-in strukturundan da göründüyü kimi ümumi daxili məhsulun formalaşmasında əsas pay sənayeyə məxsusdur.

***Sənaye***. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2020-ci ilin yanvar-iyun aylarında 18,4 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz az sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 11,2 faiz artmışdır.

Sənaye məhsulunun 61,6 faizi mədənçıxarma sektorunda, 32,1 faizi emal sektorunda, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmişdir.




Şəkil 4. Sənaye məhsulunun aylar üzrə həcmi, milyon manat

Mədənçıxarma sektorunda istehsalın həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,0% azalaraq 6964,0 milyon manat olmuşdur. Emal sənayesinin alt sektorlarında vəziyyət cədvəldə verilib.

Cədvəl 6.

Emal sənayesi sahələrində istehsalın artım tempi

| Emal sənayesinin sahələri | 2019-cu ilin yanvar-aprel aylarına nisbətən cari ildə artma (+) və azalma (-) |
|---|---|
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 96,1 faiz |
| kompüter, elektron və optik məhsulların istehsalı | 66,6 faiz |
| metallurgiya sənayesi məhsullarının istehsalı | 2,2 dəfə |
| əczaçılıq məhsullarının istehsalı | 4,6 dəfə |
| ağacın emalı və ağacdan məmulatların istehsalı | 37,9 faiz |
| sair nəqliyyat vasitələrinin istehsalı | 57,2 faiz |
| kimya sənayesi məhsullarının istehsalı | 20,5 faiz |
| elektrik avadanlıqlarının istehsalı | 3,8 faiz |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 4,1 faiz |
| kağız və karton istehsalı | 21,3 faiz |
| tütün məmulatlarının istehsalı | 16,3 faiz |
| içkilərin istehsalı | -3,8 faiz |
| qida məhsullarının istehsalı | -1,1 faiz |
| neft məhsullarının istehsalı | 0,8 faiz |
| hazır metal məmulatlarının istehsalı | -13,1 faiz |
| geyim istehsalı | 6,8 faiz |
| toxuculuq sənayesi məhsullarının istehsalı | -0,5 faiz |
| mebel istehsalı | -5,2 faiz |
| poliqrafiya məhsullarının istehsalı | -6,2 faiz |
| tikinti materiallarının istehsalı | -10,4 faiz |
| maşın və avadanlıqların istehsalı | 16,2 faiz |
| maşın və avadanlıqların quraşdırılması və təmiri işləri | -44,7 faiz |
| dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | -36,9 faiz |

Mənbə: Dövlət Statistika Komitəsi

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 12,1 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 0,5 faiz artmışdır.

Kənd təsərrüfatı. Kənd təsərrüfatında yaz tarla işləri başa çatmış və 2020-ci il iyul ayının 1-nə kimi 393,8 min hektar sahədə yazlıq bitkilər, o cümlədən 61,9 min hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan 34,6 min hektarı dən üçün qarğıdalı), 57 min hektar sahədə kartof, 66,5 min hektar sahədə tərəvəz, 20 min hektar sahədə bostan bitkiləri, 100,3 min hektar sahədə pambıq, 11,4 min hektar sahədə dən üçün günəbaxan, 5,0 min hektar sahədə şəkər çuğunduru, 3,1 min hektar sahədə tütün, 65,2 min hektar sahədə çoxillik otlar, 1,1 min hektar sahədə birillik otlar və 2,3 min hektar sahədə sair bitkilər əkilmişdir.

2019-cu ilin yanvar-iyun ayları ilə müqayisədə cari dövrdə kənd təsərrüfatının ümumi məhsulu 2,2 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 1,1 faiz, heyvandarlıq məhsulları istehsalı 3,2 faiz artmışdır.




Şəkil 5. Kənd təsərrüfatı məhsullarının istehsalının aylar üzrə dinamikası, milyon manat

***Əsas kapitala investisiyalar***. 2020-ci ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 5956,2 milyon manat məbləğində, yaxud 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz az vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yönəldilmiş əsas kapitalın həcmi 17,5 faiz artmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 15,5 faiz azalmışdır.

Hesabat dövründə ümumi sərmayənin 3501,8 milyon manatını və ya 58,8 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3577,3 milyon manatı və ya 60,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.




Şəkil 6. Əsas kapitala investisiyalar milyon manat

***Nəqliyyat sektoru***. COVID-19 pandemiyasına qarşı tətbiq edilən xüsusi karantin rejimi ilə əlaqədar həyata keçirilən məhdudlaşdırıcı tədbirlər çərçivəsində əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə iqtisadiyyatın bir sıra sahələrində fəaliyyətin məhdudlaşdırılması, yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı ilə giriş-çıxışın, o cümlədən yerli hava uçuşlarının məhdudlaşdırılması yük və sərnişin daşımalarının azalmasına səbəb olmuşdur. Həmçinin, iyun ayının 19-dan Bakı, Sumqayıt, Gəncə və digər bir sıra şəhər və rayonlarda xüsusi karantin rejimi yenidən sərtləşdirilmiş, iyulun 4-dən etibarən isə Bakı metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılmışdır




Şəkil 7. Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmanın əsas göstəriciləri

Cari ilin iyun ayında may ayına nisbətən sərnişin daşıma 2,6 faiz, ötən ilin iyun ayı ilə müqayisədə isə 49,5 faiz azalmış, nəticədə ümumilikdə cari ilin yanvar-iyun aylarında ötən ilin eyni dövrü ilə müqayisədə ölkə üzrə sərnişin daşınması 28,7 faiz azalmışdır. Yük daşınmasının isə cari ilin iyun ayında may ayı ilə müqayisədə 3,6 faiz artmasına baxmayaraq, ötən ilin iyun ayına nisbətən baş vermiş 29,8 faizlik geriləmə ümumilikdə yanvar-iyun aylarında ötən ilin eyni dövrü ilə müqayisədə ölkə üzrə yük daşınmasının 14,1 faiz azalmasına səbəb olmuşdur.

Yüklərin 58,4 faizi avtomobil, 30,7 faizi boru kəməri, 7,5 faizi dəmir yolu, 3,2 faizi dəniz, 0,2 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 90,5 faizi avtomobil, 9,3 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

Sərtləşdirilmiş karantin rejimi çərçivəsində cari ilin avqust ayının 5-dək met- ronun fəaliyyətinin o cümlədən ölkənin bir çox iri şəhər və rayonlarında həftə sonları yerüstü ictimai nəqliyyatın fəaliyyətinin tamamilə dayandırılması, iyul-avqust ayla- rında sərnişindaşıma üzrə göstəricilərin daha da aşağı düşəcəyini deməyə əsas verir.

***İnformasiya və rabitə müəssisələri*** tərəfindən 1042,8 milyon manatlıq xidmət göstərilmişdir ki, onun 72,0 faizi əhali tərəfindən istehlak olunmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin yanvar-iyun aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin dəyəri 4,4 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 80,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. İlin əvvəlindən informasiya və rabitə xidmətlərinin həcmi azalsa da, may ayından başlayaraq artım müşahidə olunmuşdur.




Şəkil 8. İnformasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş xidmətlər, milyon manat

***Ticarət.*** 2020-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkəsində əhaliyə 18,2 milyard manatlıq, o cümlədən 9,7 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 8,5 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır. Ümumilikdə isə 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında əmtəə dövriyyəsi 1,9 faiz, o cümlədən qeyri-ərzaq malları üzrə 6,9 faiz azalmış, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə 3,1 faiz artmışdır.




Şəkil 9. Pərakəndə ticarət dövriyyəsi, milyon manat

Cari ilin yanvar-iyun aylarında əhaliyə 3339,9 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Bu dövrdə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 19,2 faiz azalmışdır. Aylar üzrə baxdıqda iyun ayında ödənişli xidmətlərdən əldə olunan gəlir may ayı ilə müqayisədə 11,8 faiz artmışdır




Şəkil 10 . Əhaliyə göstərilmiş ödənişli xidmətlər

**Xarici ticarət.** Dövlət Gömrük Komitəsinin məlumatına əsasən bu ilin yanvar- iyun aylarında 167 ölkə ilə ticarət aparılmış, ölkənin xarici ticarət dövriyyəsi 12675,8 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 7686,3 milyon dollarını və ya 60,6 faizini ölkədən ixrac olunmuş məhsulların, 4989,5 milyon dollarını (39,4 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 2696,7 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.

2020-ci ilin yanvar-iyun aylarında qeyri neft-qaz sektoru üzrə ixracın həcmi 911,9 milyon ABŞ dolları olmuşdur. 2020-ci ilin yanvar-may aylarında qeyri neft-qaz məhsullarının ixracı 2019-cu ilin yanvar-may aylarına nisbətən faktiki qiymətlərlə 8,9 faiz, real ifadədə isə 14,5 faiz azalaraq 721,5 milyon dollar təşkil etmişdir.




Şəkil 11. Xarici ticarət dövriyyəsi
Mənbə: Dövlət Gömrük Komitəsi

2020-ci ilin yanvar-iyun aylarında istehlak qiymətləri indeksi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 103,0 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 105,5 faiz, qeyri-ərzaq malları üzrə 101,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 101,0 faiz təşkil etmişdir. Pandemiya şəraitində məcmu tələbin daralması idxalı və beləliklə valyuta bazarında tələbi məhdudlaşdırır. Eyni zamanda, virusdan qorunmaq üçün iqtisadi subyektlərin üzləşdiyi əlavə xərclər qiymətlərə artırıcı təsir göstərə bilər.

***Məşğulluq və əmək haqqı***. 2020-ci il iyul ayının 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5220,6 min nəfər olmuş, onlardan 4883,1 min nəfərini məşğul əhali təşkil etmişdir.

2020-ci ilin yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2019-cu ilin müvafiq dövrünə nisbətən 24,9 faiz artaraq 728,9 manat təşkil etmişdir.

Cədvəl 7.

2020-ci il iyun ayının 1-i vəziyyətinə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə muzdla işləyən işçilərin sayı, min nəfər

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| Ölkə üzrə – cəmi | 1681,7 | 930,0 | 751,7 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 56,2 | 25,8 | 30,4 |
| Mədənçıxarma sənayesi | 34,1 | 13,1 | 21,0 |
| Emal sənayesi | 123,3 | 20,1 | 103,2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 29,3 | 28,5 | 0,8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 29,1 | 26,4 | 2,7 |
| Tikinti | 131,9 | 31,9 | 100,0 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 300,7 | 2,5 | 298,2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 75,8 | 46,7 | 29,1 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 26,0 | 1,0 | 25,0 |
| İnformasiya və rabitə | 28,5 | 15,6 | 12,9 |
| Maliyyə və sığorta fəaliyyəti | 29,0 | 6,3 | 22,7 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 16,6 | 6,8 | 9,8 |
| Peşə, elmi və texniki fəaliyyət | 57,4 | 34,0 | 23,4 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 90,3 | 72,7 | 17,6 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 112,8 | 107,1 | 5,7 |
| Təhsil | 332,7 | 322,4 | 10,3 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 134,3 | 116,5 | 17,8 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 54,8 | 50,6 | 4,2 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 18,9 | 2,0 | 16,9 |

Mənbə: DSK

Məlum olduğu kimi COVİD-19 pandemiyasına qarşı məhdudlaşdırıcı tədbirlər mart ayının ortalarından başlayaraq sərtləşdirilməyə başlamış bu da öz təsirlərini yuxarıda aparılan təhlillərdən də göründüyü kimi bir çox fəaliyyət sahələrində göstərməyə başlamışdır. Qeyd etmək lazımdır ki, aprel ayı ölkədə tamamilə sərtləşdirilmiş xüsusi karantin rejimində keçmiş və iyun ayının 21-dən başlayaraq avqust ayının 31-dək sərtləşdirilmiş xüsusi karantin rejiminin Bakı, Gəncə, Sumqayıt şəhərləri, Abşeron rayonu və s. olmaqla ümumilikdə respublikanın 13 şəhər və rayonunda uzadılması ilə bağlı Operativ Qərargah tərəfindən qərar qəbul edilmişdir. Ehtimal olunur ki, COVİD-19-un nəzərəçarpacaq neqativ təsirləri növbəti aylarda da davam edəcəkdir.

***COVİD-19 pandemiyasının ölkə iqtisadiyyatına ehtimal olunan təsirləri***

Bu bölmədə mövcud pandemiyanın ölkə iqtisadiyyatına ehtimal olunan təsirləri araşdırılmışdır. Burada, həm bəzi Beynəlxalq təşkilatlar tərəfindən açıqlanan hesabatlar, həm də yerli təşkilatlar və İnstitut tərəfindən aparılan təhlillərin nəticələri əks olunmuşdur.

**Asiya İnkişaf Bankı (AİB)** Azərbaycan üçün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində müəyyən çətinliklərlə əlaqədar olaraq yaxın gələcəkdə də iqtisadi artım perspektivlərinin neft qiymətlərinə bağlı olaraq davam etməsini, həmçinin neft qiymətlətlərinin düşməsi və COVİD-19-la bağlı məhdudlaşdırıcı tədbirlərin nəticəsi olaraq 2020-ci ildə iqtisadi artımın 0,5%, yüksək neft və qaz hasilatı və qiymətlərin artması fonunda 2021-ci ildə isə 1,5% olacağını proqnozlaşdırmışdır. Təşkilat Azərbaycan üzrə 2020-2021-ci illər üçün proqnozlarını təklif və tələb itiqamətli olmaqla aşağıdakı kimi qeyd edir:

Cədvəl 8.

Asiya İnkişaf Bankının Azərbaycan üçün proqnozları

| **Təklif istiqamətli** | | | **Tələb istiqamətli** |
|---|---|---|---|
| | 2020P | 2021P | İctimai xidmətlərdən daxil olan gəlirlər hesabına dövlət istehlakı, minimum əməkhaqqının 34 % artması hesabına isə şəxsi istehlak xərcləmələrinin artmasının gözlənilməsi; |
| Sənaye sektoru | 0.5 % | 2.0 % | 2020-ci ildə aşağı neft qiymətlərinin təsiri nəticəsində dövlət investisiyalarının azalmasıfonunda ümumi investisiyalarda azalma olacağının proqnozlaşdırılması; |
| Kənd təsərrüfatı | 4.5 % | 4 % | 2021-ci ildə özəl investisiyaların artması hesabına ümumi investisiyalarda artımınproqnozlaşdırılması; |
| Xidmətlər sektoru | azalma | 1 % | 2021-ci ildə qaz hasilatının artması xalis ixracı artırmaqla yanaşı, iqtisadi artıma da müsbət töhvə verməsi. |

Mənbə: DSK

AİB-in Azərbaycan üçün inflyasiyaya, fiskal siyasətə və xarici sektora dair gözləntiləri aşağıdakı kimi olmuşdur:

***İnflyasiya***

- 2020-ci ildə iqtisadi aktivliyin səngiməsi nəticəsində inflyasiyanın 2.5% olacağı, 2021-ci ildə isə şəxsi istehlakı canlandırmaq üçün yüksək sosial xərclərin gecikməli təsiri nəticəsində inflyasiyanın 3.5 % artacağının proqnozlaşdırılması;
- Minimum əməkhaqqlarının artması ölkədə maaşların artmasına səbəb olacaqki, bu da öz növbəsində sosial xərclərin kəskin artması nəticəsində inflyasiya üzərində əlavə təzyiqlər yaradacağının gözlənilməsi;
- Neft qiymətlərində azalmanın uzunmüddət davam etməsi 2016-cı ildə olduğu kimi məzənnənin korreksiyasına və inflyasiyanın artmasına təzyiqlər yarada bilməsi;
- Cari və proqnozlaşdırılan inflyasiyanın Mərkəzi Bankın 2%-6%-lik hədəf intervalı aralığında qalması;
- Mərkəzi Bankın 2020-ci ilin yanvar ayında uçot faiz dərəcəsini 7.50%-dən 7.25%endirməsi;
- Mərkəzi Bankın milli valyutanın dəyərdən düşməsi istiqamətində yarana biləcək risklərin qarşısını almaq, pul bazasının stabilliyini təmin etmək üçün qısamüddətli not

emissiyasını və depozit hərraclarını davam etdirməsi;

- Hökümət tərəfindən qiymətləri dövlət tərəfindən tənzimlənən mal və xidmətlər üzərində nəzarəti gücləndirərək baza inflyasiyanı arzuolunan səviyyədəsaxlanması.

***Fiskal siyasət***

- 2020-ci ildə stimullaşdırıcı fiskal siyasətin davam etdirilməsi;
- Büdcə kəsirinin ÜDM-də payının ən azı 3.4% artacağı, Neft Fondundan transfertlər nəzərə alınmadan isə bu kəsinin ÜDM-də payının 17.2% olacağının gözlənilməsi;
- Yüksək sosial xərclər və dövlət tərəfindən investisiya qoyuluşlarının davam etməsi fonunda bu xərclərin 10.2% artacağının proqnozlaşdırılması;
- Koronavirusun makroiqtisadi stabilliyə, əmək bazarına və biznes subyektlərinə mənfi təsirlərini minimuma endirmək üçün 1 milyard manatlıq Fondun yaradılması;
- 2020-ci ildə neftin 1 barelinin 55 ABŞ dolları qiymətində SOFAZ-dan transfertlər daxil olmaqla büdcənin gəlirləri ÜDM-nin 29.4%-ə bərabər olacağının gözlənilməsi;
- 2020-ci ilin mart ayında olan neft qiymətləri ilin sonuna qədər davam edərsə, büdcənin icra gəlirlərinin daha aşağı olacağının proqnozlaşdırılması;
- 2020-ci ildə SOFAZ-ın ixracdan gəlirləri 12.4 milyard manat olacağı proqnozlaşdırılır ki, bunun da 91%-nin dövlət büdcəsinə transfert olunmasının nəzərdə tutulması.

***Xarici sektor***

- 2020-ci ildə cari hesabın profisitinin ÜDM-də payının kiçilərək 4.4%, 2021- ci ildə isə artaraq 6.3% təşkil edəcəyinin proqnozlaşdırılması;
- İdxalda (mallar üzrə) 2020-ci ildə koronavirus səbəbi ilə xüsusəndə Çindən idxal olunan malların azalması nəticəsində 37.8% azalmanın proqnozlaşdırılması;
- 2021-ci ildə vəziyyətin stabilləşməsi və daxili tələbin canlanması hesabına idxalın 23.5% artmasının proqnozlaşdırılması;
- Çindən idxal olunan ucuz malların əvəzinə digər ölkələrdən daha bahalı mallar idxal olunacağı təqdirdə idxal xərclərində artımın gözlənilməsi;
- İxracda (mallar üzrə) neft qiymətlərinin aşağı olması karbohidrogen ixracından əldə olunan gəlirlərin azalması fonunda 2020-ci ildə 32.7% azalmanın proqnozlaşdırılması;
- 2021-ci ildə qazın ixrac həcminin artması və neft qiymətlərinin yüksəlməsi fonunda ixracımızın (mallar üzrə) 24.4% artmasının proqnozlaşdırılması;
- Turizm sektorunda gəlirlərin azalmasına rəğmən, xidmətlər sektorunda neft sənayesində əksər tikinti xidmətlərinin başa çatması ilə kəsirin azalmasının gözlənilməsi;
- Dövlət borcu və dövlət zəmanəti ilə alınmış borclar hökümətin borc idarəetmə strategiyasına uyğun olaraq müəyyənləşdirilməsi;
- Strateji valyuta ehtiyatları Neft Fondunun aktivləri daxil olmaqla 50 milyard ABŞ dolları ətrafında olacağının proqnozlaşdırılması;
- Orta müddətli dövrdə Azərbaycanın xarici borcunun dayanıqlı və idarəoluna səviyyədə olması.

Beynəlxalq Valyuta Fondunun 2020-ci ilin aprel ayında dərc olunan Orta Şərq və Mərkəzi Asiya Regional İqtisadi Baxış adlı hesabatında Qafqaz və Mərkəzi Asiya (QMA) regionu üçün gözləntilərin qlobal maliyyə böhranı, eləcə də 2014-16-cı ilin şokundan daha pis olacağı gözlənilir. Hesabatda 2020-ci ildə QMA regionunda ÜDM- in 1,7% azalacağı təxmin edilir. BVF-nin Azərbaycan üzrə proqnozları cədvəldəki kimi olmuşdur.

Cədvəl 9.

Beynəlxalq Valyuta Fondunun Azərbaycan üçün proqnozları

| | 2000-2016-ci illər Ortalama | 2017 | 2018 | 2019 | 2020P | 2021P |
|---|---|---|---|---|---|---|
| ÜDM-in artım tempi, % | 9.5 | 0.2 | 1.5 | 2.3 | -2.2 | 0.7 |
| İstehlak qiymətləri İndeksi, % | 6.3 | 12.8 | 2.3 | 2.6 | 3.3 | 3.2 |
| Ümumi fiskal balans (ÜDM-də xüsusi çəkisi) | 5.9 | -1.4 | 5.5 | 8.4 | -12.8 | -9.7 |
| Cari hesab balansı(ÜDM-də xüsusi çəkisi,%) | 7.7 | 4.1 | 12.8 | 9.2 | -8.2 | -3.7 |

Mənbə: BVF

Koronavirus xəstəliyinin qlobal səviyyədə yayılması və o cümlədən, ölkəmizdə də yoluxma faktlarının mövcudluğu, habelə virusun yarada biləcəyi xarici şokların müxtəlif aspektlərdən iqtisadiyyatımıza təsirlərinin qiymətləndirilməsini zəruri edir.

Buna görə də, Azərbaycan Dövlət Turizm Agentliyi tərəfindən pandemiyanın turizm sektorunda yaratdığı neqativ təsirlər qiymətləndirilmişdir.

***Turizm sektoru***. COVİD-19 pandemiyasının dünya iqtisadiyyatında qlobal miqyasda yaratdığı neqativ təsirlər ölkəmizdə qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan turizm sənayesinin fəaliyyətinə mənfi təsir göstərmiş, bu sahənin gələcək inkişafına ciddi təhdidlər yaratmışdır. Azərbaycan hökuməti tərəfindən sözügedən virusla mübarizə tədbirləri çərçivəsində qəbul edilən preventiv qərarlar, həmçinin dünya üzrə səyahətçilərin təhlükəyə adekvat reaksiyası (səfərlərin təxirə salınması və yaxud səfər tarixinin dəyişdirilməsi) turizm bazarında tələbin kəskin azalmasına səbəb olmuş, turizm sənayesinin, xüsusilə turizm şirkətlərinin və yerləşdirmə xidməti təklif edən müəssisələrin fəaliyyətinin iflic vəziyyətə düşməsi ilə nəticələnmiş, ÜDM istehsalına, xarici valyuta daxilolmalarına, həmçinin turizmlə əlaqəli sahələrdə birbaşa və dolayı yolla əmək fəaliyyəti ilə məşğul olan təxminən 100 minədək insanın sosial təminatına ciddi risklər yaratmışdır.

Yuxarıda sadalanan mənfi təsirlərin miqyası virusun əhatə dairəsi və mövcudluğu müddətindən asılı olaraq dəyişəcəkdir.

Bu məqamı nəzərə alaraq Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi COVID-19 pandemiyasının potensial iqtisadi təsirlərin üç ssenari üzrə qiymətləndirmişdir.

Cədvəl 10.

COVİD-19 pandemiyasının turizmə təsirləri

| N | Göstəricilər | 2019-cu il baza göstərici | 2020-ci il proqnozlaşdırılan göstərici | Proqnozlaşdırılan azalma | | |
|---|---|---|---|---|---|---|
| | | | | I ssenari (mart-iyun) 01.03.2020 - 01.06.2020 | II ssenari (mart-avqust) 01.03.2020 - 01.08.2020 | III ssenari (mart-dekabr) 01.03.2020 - 31.12.2020 |
| 1 | Əcnəbi və vətəndaşlığı olmayan şəxslər üzrə səfər sayı, ədəd | 3170000 | 3743770 | - 861975 | -1666124 | -3311289 |
| 2 | Daxili turistlərin sayı | 4352900 | 4675015 | -1077100 | -2081941 | -4137692 |
| 3 | Valyuta daxilolması, milyon ABŞ dolları ekvivalenti ilə | 1935.6 | 2285.9 | -526,3 | -1017.3 | -2021.9 |
| 4 | Turizm üçün xarakterik sahələrdə ÜDM istehsalı, milyon manat | 3693.4 | 4280.4 | -1072.3 | -2072.8 | -4119.5 |
| 5 | Turizm üçün xarakterik sahələrdə ÜDM istehsalının dinamikası, faiz | 6.4 | 13.4 | -25.1 | -48.4 | -96.2 |
| 6 | Turizm üçün xarakterik sahələrdə muzdlu işçilərin sayı, nəfər | 56362 | 59462 | -13705 | -26490 | -52648 |
| 7 | Turizm üçün xarakterik sahələr üzrə muzdlu iş yerlərinin dinamikası, faiz | 5.9 | 12.3 | -23.0 | -44.6 | -88.5 |
| 8 | Turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda məşğulluq, nəfər | 82800 | 87354 | -20134 | -38916 | -77343 |
| 9 | Turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda məşğulluğun dinamikası, faiz | 5.9 | 12.3 | -23.6 | -44.6 | -88.5 |
| 10 | Yerləşdirmə fəaliyyət üzrə ümumi itkilər (proqnozlaşdırılan mənfəət daxil), milyon manat | 0 | 0 | 56.5 | 109.3 | 217.2 |
| 11 | Yerləşdirmə fəaliyyət üzrə xalis itkilər, milyon manat | 0 | 0 | 25.8 | 49.8 | 98.9 |
| 12 | Səyahət agentlikləri və tur operator fəaliyyətləri üzrə ümumi itkiləri (proqnozlaşdırılan mənfəət daxil), milyon manat | 0 | 0 | 6.6 | 13.0 | 26.4 |
| 13 | Səyahət agentlikləri və tur operator fəaliyyətləri üzrə xalis itkilər, milyon manat | 0 | 0 | 3.9 | 7.8 | 6.0 |

Maliyyə yükü proqnozlaşdırıla bilən dəstək mexanizmlərinin tətbiqi üçün tələb olunan dövlət vəsaitinin ilkin məbləği senarilərdən asılı olaraq dəyişməklə 16.6 - 60 milyon manat olaraq qiymətləndirilir. Lakin, nəzərə almaq lazımdır ki, bir sıra istiqamətlər üzrə hesablamaların aparılmasının mümkün olmaması və rəsmi statistik məlumatların çatışmazlığı səbəbindən dəstək proqramının maliyyə yükü 100 milyon AZN-ə qədər arta bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi
2. https://www.stat.gov.az/
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi,
4. https://www.economy.gov.az/
5. IEA (2020), "Oil Market Report - February 2020", IEA, Paris
6. https://www.iea.org/reports/oil-market-report-february-2020
7. https://www.icao.int/Newsroom/Pages/Economic-impact-estimates-due- to-COVID-19-travel-bans.aspx
8. https://gisanddata.maps.arcgis.com/apps/opsdashboard/index.html#/bda7594740fd40299423467b48e9ecf6
9. https://www.weforum.org/agenda/2020/02
10. https://www.worldbank.org/
11. https://www.adb.org/
12. https://www.imf.org/

**Doktorantlar və tədqiqatçılar üçün təşkil olunmuş 30 günlük təlim (15 oktyabr 2022-ci il)**






# İqtisadi Elmi Tədqiqat İnstitutunun 2021-2024-cü illərdəki fəaliyyəti şəkillərdə

## Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir









**İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı (23-26 iyun 2022-ci il)**



**İqtisadi Elmi Tədqiqat İnstitutu əməkdaşları Türkiyədə Tübitak işgüzar səfərdə (26 - 29 sentyabr 2022-ci il)**

**İqtisadi Elmi Tədqiqat İnstitutu əməkdaşlarının“Bloomberg L.P.” şirkətinin İnkişaf etməkdə olan bazarlar üzrə satış rəhbəri Peter Johnston və Mərkəzi Asiya və Qafqaz üzrə satış meneceri Bulat Yussupov ilə görüşü**
**(27 oktyabr 2022-ci il)**






**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) təşkilatçılığı ilə Bakı 2-ci Aqrobiznesin İnkişafı Forumu**
**(1 fevral 2023-cü il)**

**İqtisadi Elmi Tədqiqat İnstitutunun İdarə Heyəti sədrinin birinci müavini i.e.d. Arzu Hüseynovanın "Rəqəmsal iqtisadiyyat: İzahlı lüğət" kitabı**
**və**
**İnstitutun İqtisadi inkişaf siyasətinin təhlili şöbəsinin elmi işçisi Faiq Qasımlının "Nəticəəsaslı Monitorinq və Qiymətləndirmə Sistemi: Metodoloji Tövsiyələr" kitablarının təqdimatı**
**(19 aprel 2023-cü il)**





**Qazaxıstan Mərkəzi Asiya E-ticarət Forumu**
**“Körpülərin qurulması: Rəqəmsal ticarət dəhlizinin inkişafı” mövzusunda sessiya**
**(28 sentyabr 2023-cü il)**








**İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Baş katibinin müavini Jandos Asanov ilə görüş (3 may 2024-cü il)**



**Qırğızıstanın Dövlət-Özəl Tərəfdaşlığı Mərkəzi ilə görüşdən**
**(25 aprel 2024-cü il)**





**ESRI-də Harvard Kennedi Məktəbinin tələbə ekspertləri ilə görüşdən (28 iyun 2024-cü il)**





# İnstitutun nəşrlərindən







TƏLİM KATALOQU
2017
Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU
AZƏRBAYCANIN MİLLİ SƏRVƏTİNDƏ TORPAQ RESURSLARI VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ
Bakı - 2021
AZƏRBAYCAN RESPUBLİKASI 21 il
sosial-iqtisadi inkişaf
Azərbaycan Respublikasının ölkə təqdimatı
Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu


ECO
Economic Cooperation Organization
ECONOMIC JOURNAL

AZ1122, Bakı şəhəri, Yasamal rayonu,

Həsən Bəy Zərdabi prospekti 196

Telefon: +994 12 430 01 70

+994 12 431 91 80

+994 51 280 43 35

E-poçt: office@esri.gov.az

İnternet səhifəsi: www.esri.gov.az

Çapa imzalanıb: 19.09.2024 Sifariş №065

Formatı: 350x500mm

Həcmi: 250nüsxə

Mətbəənin ünvanı: "ASReklam" MMC – Bakı şəhəri, Xətai rayonu, Sergey Senyuşkin 81